AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

Hənifə Cəfərli

İQTİSADİ TƏHLİL

dərslik

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

i.e.n. H. A. CƏFƏRLİ

İQTİSADİ TƏHLİL

(dərslik)

841

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «İqtisadiyyat» bölməsinin 15.10.2009-cu il tarixli, 19 nömrəli protokoluna əsasən çap olunur.

«Elm və Təhsil»
Bakı - 2009

Rəyçilər: **S.M.SƏBZƏLİYEV**
Azərbaycan Dövlət İqtisad Universitetinin «Mühasibat uçotu» kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor

C.B.NAMAZOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi təhlil və audit» kafedrasının müdiri, iqtisad elmləri namizədi, dossent

R.N.KAZIMOV
Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi təhlil və audit» kafedrasının dossenti, iqtisad elmləri namizədi

İ.e.n. H.A.Cəfərli. İqtisadi təhlil (*dərslik.*)
Bakı, «Elm və Təhsil», 2009. – 560 səh.

Bu dərslik iqtisadçı ixtisası üzrə təhsil alan ali məktəb tələbələri, müəllimlər, aspirantlar, iş adamları, mühasiblər, auditlər, o cümlədən iqtisadi təhlillə marağlananlar üçündür. Dərslikdə iqtisadi təhlilin həm nəzəri əsasları, həm də tətbiqi məsələləri yeni dövlət standartlarına uyğun şərh edilir.

Dərsliyin birinci hissəsində təsərrüfat subyektlərində iqtisadi təhlilin təşkilinin nəzəri əsasları, o cümlədən onun məzmunu və idarə etmədə rolu, kompleks təhlil sistemi və onun təşkili metodologiyası, habelə iqtisadi təhlilin metodikası araşdırılmışdır.

İkinci hissə təsərrüfat subyektlərinin fəaliyyətinin kompleks təhlili, o cümlədən marketinq, istehsalın və satışın həcmi sistemində təhlil, əmək, material ehtiyatlarından və əsas fondlardan istifadə edilməsinin metodiki məsələlərinin öyrənilməsinə həsr edilmişdir. Məhsulun (iş və xidmətlərin) maya dəyərinin, mənfəət və rentabelliyin, maliyyə vəziyyətinin təhlilinə xüsusi diqqət yetirilir. Ari-ayrı fəsillərdə təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks qiymətləndirilməsi metodikası, habelə maliyyə-təsərrüfat fəaliyyətinin sağlamlaşdırılmasında funksional diaqnostikanın metodologiyası və metodikası araşdırılmışdır.

Dərslikdə iqtisadi təhlilin müxtəlif metodlarını səciyyələndirən analitik hesablamaların konkret rəqəmli nümunələri verilmişdir.

ISBN 978-9952-8024-4-3

© «Elm və Təhsil» nəşriyyatı, 2009

MÜNDƏRİCAT

GİRİŞ 10

I HİSSƏ
TƏSƏRRÜFAT SUBYEKTLƏRİNDƏ İQTİSADİ TƏHLİLİN TƏŞKİLİNİN NƏZƏRİ ƏSASLARI

I FƏSİL. KOMMERSİYA TƏŞKİLATLARININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ İQTİSADİ TƏHLİLİN ROLU 15

1.1. İqtisadi təhlilin məzmunu, vəzifələri və onun digər iqtisad elmləri ilə qarşılıqlı əlaqəsi 15
1.2. İqtisadi təhlil idarəetmə qərarlarının qəbul edilməsinin əsas elementi kimi 19
1.3. İqtisadi təhlilin predmeti və obyekti 20
1.4. İqtisadi təhlilin növləri və kommersiya təşkilatlarının fəaliyyətinin idarə edilməsində onların rolu 24
1.5. İqtisadi informasiyanın istifadəçiləri və iqtisadi təhlilin subyektləri 28
1.6. Maliyyə və idarəetmə təhlilinin qarşılıqlı əlaqəsi. Maliyyə və idarəetmə təhlilinin xarakterik əlamətləri 30
1.7. Mühasibat uçotu və hesabatı iqtisadi təhlilin informasiya bazası kimi 30
1.8. İllik maliyyə hesabatlarında əks etdirilən analitik informasiyanın açıqlanması qaydası 35
Yoxlama sualları 37

II FƏSİL. KOMPLEKS İQTİSADİ TƏHLİL SİSTEMİ VƏ ONUN TƏŞKİLİ METODOLOGİYASI 38

2.1. İqtisadi göstəricilər sistemi və onların müxtəlif əlamətlər üzrə tipologiyası 38
2.2. Kompleks iqtisadi təhlilin məzmunu və mərhələləri 44
2.3. Təsərrüfat fəaliyyətinin təhlilinə sistemli yanaşma 46
2.4. Təsərrüfat subyektlərinin istehsal və kommersiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi amillərinin və ehtiyatlarının təsnifatı 48
Yoxlama sualları 53

III FƏSİL. İQTİSADİ TƏHLİLİN METODU VƏ ONUN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ 54
3.1. İqtisadi təhlilin kəmiyyət və keyfiyyət metodları 54
3.2. İqtisadi təhlilin metodu və metodikası anlayışı 57
3.2.1. Müqayisə üsulu 59
3.2.2. Detallaşdırma və qruplaşdırma üsulu 61
3.2.3. İstehsal, maliyyə və təsərrüfat proseslərinin qarşılıqlı əlaqədə və vəhdətdə öyrənilməsi metodu 63
3.2.4. Kənarlaşdırma, təcrid etmə üsulu 65
3.2.5. Ümumiləşdirmə metodu 67
3.3. Statistik, iqtisadi-riyazi təhlil metodları və üsulları 69
3.4. İqtisadi-riyazi modelləşdirmə təsərrüfat fəaliyyətinin öyrənilməsi və qiymətləndirilməsi üsulu kimi 72
3.5. İqtisadi göstəricilərin amillər üzrə təhlili metodları 75
3.6. İndeks metodu 77
3.7. Zəncirvari yerdəyişmə metodu 80
3.8. İnteqral metodu 83
3.9. Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodu 86
Yoxlama sualları 90

II HİSSƏ
TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN KOMPLEKS TƏHLİLİ METODİKASI

IV FƏSİL. MARKETİNQ SİSTEMİNDƏ İQTİSADİ TƏHLİL 93
4.1. Marketinq fəaliyyətinin sistemli təhlili anlayışı, onun məqsədi və vəzifələri 93
4.2. Marketinq sistemində aparılan təhlilin əsas metodları və növləri 95
4.3. Bazarın tutumunun və təşkilatın bazar payının təhlili və qiymətləndirilməsi 99
4.4. Qiymət siyasətinin formalaşdırılmasının təhlili 105
4.5. Təşkilatın və məhsulun rəqabət qabiliyyətinin təhlili və qiymətləndirilməsi 107
Yoxlama sualları 125

V FƏSİL. MƏHSUL (İŞ VƏ XİDMƏT) İSTEHSALI VƏ SATIŞININ TƏHLİLİ 126
5.1. Təhlilin məqsədi, vəzifələri və informasiya mənbələri 126
5.2. Məhsul (iş və xidmət) istehsalı və satışının həcmini xarakterizə edən göstəricilər sistemi və onların formalaşması prinsipləri 128
5.3. Məhsul (iş və xidmət) istehsalı həcminin təhlili və qiymətləndirilməsi 129
5.4. Satışın həcminin amillər üzrə təhlili metodikası 135
5.5. İstehsalın ahəngdarlığının təhlili 143
5.6. Məhsulun çeşidinin təhlili və qiymətləndirilməsi 146
5.7. Məhsulun (iş və xidmətlərin) keyfiyyətinin təhlili 148
5.8. Məhsul istehsalı və satışının həcminin artırılması amilləri və ehtiyatlarının təsnifatı 153
Yoxlama sualları 156

VI FƏSİL. ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ 157
6.1. Təhlilin vəzifələri və informasiya mənbələri 157
6.2. Əmək ehtiyatlarının tərkibi, strukturu və hərəkətinin təhlili 158
6.3. Əmək ehtiyatlarından istifadənin səmərəliliyini xarakterizə edən göstəricilər sistemi və onların təhlili metodikası 162
Yoxlama sualları 164

VII FƏSİL. ƏSAS İSTEHSAL FONDLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ 165
7.1. Təhlilin vəzifələri və informasiya mənbələri 165
7.2. Əsas istehsal fondlarının tərkibi, strukturu, hərəkəti və texniki vəziyyətinin təhlili 166
7.3. Əsas istehsal fondlarından istifadənin səmərəliliyini xarakterizə edən göstəricilər sistemi və onların təhlili metodikası 171
Yoxlama sualları 178

VIII FƏSİL. MATERİAL EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ .. 179
8.1. Təhlilin vəzifələri və informasiya mənbələri 179
8.2. Material ehtiyatlarından istifadəni xarakterizə edən göstəricilər sistemi və onların hesablanılması və qiymətləndirilməsi metodikası 180
8.3. Təşkilatın material ehtiyatları ilə təmin olunması səviyyəsinin təhlili 182
8.4. Material ehtiyatlarından istifadənin səmərəliliyinin təhlili və qiymətləndirilməsi 184
8.5. Ehtiyatların və xərclərin idarə edilməsi səmərəliliyinin təhlili 190
Yoxlama sualları 197

IX FƏSİL. MƏHSULUN (İŞ VƏ XİDMƏTLƏRİN) MAYA DƏYƏRİNİN TƏHLİLİ 199
9.1. Məhsulun maya dəyərini xarakterizə edən iqtisadi göstəricilər sistemi və onların təhlili metodikası 199
9.1.1. Məhsulun maya dəyərinin təhlilinin vəzifələri və informasiya mənbələri 199
9.1.2. Məhsulun maya dəyərini xarakterizə edən göstəricilər sistemi 201
9.1.3. Məhsulun tam maya dəyəri göstəricisi üzrə dinamikanın (planın yerinə yetirilməsinin) təhlili 204
9.1.4. Əmtəəlik məhsulun bir manatına düşən xərclərin amilli təhlili 207
9.2. İstehsal ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsinin məhsulun maya dəyərinə təsirinin təhlili 212
9.3. Məhsulun maya dəyərinin xərc maddələri üzrə təhlili 220
9.3.1. Material xərclərinin təhlili 224
9.3.2. Əməyin ödənilməsi xərclərinin təhlili 231
9.3.3 Kompleks xərc maddələrinin təhlili 240
9.4. Məhsulun maya dəyərinin marjinal təhlili 251
9.4.1. Marjinal təhlil anlayışı 251
9.4.2. Rentabellik astanası və müəssisənin maliyyə sabitliyinin möhkəmləndirilməsi ehtiyatlarının müəyyən edilməsi üsulları 255

9.4.3. Rentabellik astanası və müəssisənin maliyyə sabitliyinin yaxşılaşdırılması ehtiyatlarının amillər üzrə təhlili metodikası 260
Yoxlama sualları 263

X FƏSİL. MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ 265
10.1. Gəlirlər və xərclər anlayışı. Gəlirlər və xərclər müəssisənin maliyyə nəticələrinin formalaşmasının iqtisadi bazası kimi .. 265
10.2. Zərərsiz fəaliyyət müəssisənin maliyyə sabitliyinin təmin edilməsi amili kimi 270
10.3. Təhlilin vəzifələri və informasiya mənbələri 271
10.4. Müəssisənin maliyyə nəticələrinin təhlilinin göstəricilər sistemi 273
10.5. Maliyyə hesabatının məlumatları əsasında balans mənfəətinin strukturu və dinamikasının təhlili 274
10.6. Satışdan alınan mənfəətin icmal hesablar üzrə təhlili 277
10.6.1. Satışın maya dəyərinin icmal smetasının tərtib edilməsi metodikası 277
10.6.2. Hesablama metodu 281
10.6.3. Analitik metod 281
10.7. Xalis mənfəətin formalaşmasının təhlili 283
10.8. Xalis mənfəətdən istifadənin təhlili 286
10.9. Satışdan alınan mənfəətin amillər üzrə təhlili metodikası 291
10.10. Satışdan alınan mənfəətə inflyasiya amilinin təsirinin təhlili və qiymətləndirilməsi 300
10.11. Müəssisənin uçot siyasətinin təsərrüfat subyektlərinin mənfəət göstəricilərinin reallığına təsirinin təhlili və qiymətləndirilməsi 302
10.12. Bir səhmə düşən mənfəətin təhlili və qiymətləndirilməsi metodikası 303
Yoxlama sualları 307

XI FƏSİL. RENTABELLİYİN VƏ TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN İŞGÜZAR FƏALLIĞININ TƏHLİLİ 309
11.1. Rentabelliyin təhlilinin göstəricilər sistemi və onların hesablanılması metodikası 309

11.2. Aktivlərin rentabelliyi göstəricilərinin modelləşdirilməsi amilli təhlilin təşkilinin əsas mərhələsi kimi ... 314
11.3. Aktivlərin rentabelliyi göstəricisi təsərrüfat subyektlərinin istehsal və kommersiya fəaliyyətinin səmərəlilik parametri kimi ... 317
11.4. Xalis aktivlərin rentabelliyi göstəricisi xüsusi kapitaldan istifadənin səmərəliliyini xarakterizə edən iqtisadi indikator kimi ... 318
11.5. İstehsal fondları rentabelliyinin amilli təhlili ... 323
11.6. Aktivlərin rentabelliyinin yüksəldilməsi ehtiyatlarının və amillərinin təsnifatı ... 324
11.7. Aktivlərin rentabellik səviyyəsinin dəyişməsi amillərinin təhlili və qiymətləndirilməsi ... 325
11.8. Xüsusi kapitalın rentabelliyinin amillər üzrə təhlili metodikası ... 333
11.9. Məhsulun (iş və xidmətlərin) rentabelliyi və onun səviyyəsinin yüksəldilməsi ehtiyatlarının amilli təhlili ... 336
11.10. Satılmış məhsulun rentabelliyi göstəricilərinin amilli təhlili metodikası ... 341
11.10.1. Məhsulun (iş və xidmətlərin) rentabellik səviyyəsinin dəyişmə dinamikasının amillər üzrə təhlili ... 341
11.10.2. Satışın həcminin bir manatına düşən gəlirlərlə xərclərin dinamikasının amillər üzrə təhlili ... 343
11.11. Müəssisənin işgüzar fəallığ göstəriciləri və onların yaxşılaşdırılması yolları ... 349
Yoxlama sualları ... 353

XI fəsilə əlavələr ... 354

XII FƏSİL. MALİYYƏ VƏZİYYƏTİNİN TƏHLİLİ ... 360
12.1. Maliyyə vəziyyətinin təhlilinin əhəmiyyəti, vəzifələri və əsas üsulları ... 360
12.2. Analitik informasiya və onun iqtisadi xarakteristikası ... 363
12.3. Müəssisənin maliyyə vəziyyəti və onun sabitlik səviyyəsinin qiymətləndirilməsi üsulları ... 393
12.4. Maliyyə vəziyyətinin ekspress-təhlili ... 396

12.5. Maliyyə müstəqilliyinin təhlili ... 400
12.6. Ödəmə qabiliyyətinin və likvidliyin təhlili ... 413
12.7. Xalis aktivlərin təhlili ... 423
12.8. Pul axınının təhlili ... 428
12.9. Maliyyə sabitliyinin səviyyəsinə təsir edən amillərin təhlili ... 451
12.9.1. Maliyyə sabitliyinin bölüşdürülməmiş mənfəətdən asılılığının təhlili ... 451
12.9.2. Borc kapitalının cəlb edilməsi səmərəliliyinin təhlili ... 459
12.9.3. Debitor və kreditor borclarının təhlili ... 472
12.9.4. Büdcə ilə hesablaşmaların vəziyyətinin təhlili ... 483
12.9.5. Dövriyyə aktivlərindən istifadənin səmərəliliyinin təhlili ... 489
12.10. Maliyyə vəziyyətinin sabitliyinin inteqral qiymətləndirilməsi ... 494
Yoxlama sualları ... 502

XIII FƏSİL. TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN KOMPLEKS QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASI ... 504
Yoxlama sualları ... 526

XIV FƏSİL. TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SAĞLAMLAŞDIRILMASINDA FUNKSİONAL DİAQNOSTİKANIN ROLU ... 527
14.1. Diaqnostik tədqiqat metodu müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin sağlamlaşdırılmasının mühüm vasitəsidir ... 527
14.2. Müəssisənin diaqnostikasının metodologiyası və metodikası ... 534
14.3. Müəssisənin potensial müflisləşmə ehtimalının qiymətləndirilməsi üçün zəruri olan göstəricilər sistemi ... 546
Yoxlama sualları ... 554

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT ... 555

GİRİŞ

Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin səmərəli fəaliyyət göstərməsi əhəmiyyətli dərəcədə qəbul edilən idarəetmə qərarlarının keyfiyyətindən asılıdır. Mikrosəviyyədə (təsərrüfatçılıq subyektləri səviyyəsində) elmi cəhətdən əsaslandırılmış qərarların qəbul edilməsində iqtisadiyyatın idarə edilməsi sisteminin mühüm elementlərindən biri olan iqtisadi təhlilin rolu böyükdür.

Bazarın vəziyyətinin dinamik dəyişilmələri şəraitində iqtisadi təhlilin müasir üsullarını və metodlarını mənimsəmək müəssisənin fəaliyyətinin səmərəli strategiyasını və taktikasını işləyib hazırlamaq, istehsalın səmərəliliyinin yüksəldilməsinin istifadə edilməmiş ehtiyatlarını aşkar etmək və onları əməli fəaliyyətdə həyata keçirmək imkanı yaradır.

Peşəkar iqtisadçı, mühasib, müəssisə rəhbəri nəinki yeni iqtisadi şəraitdə təşkilatın inkişafının ümumi meyllərini bilməlidirlər, həm də konkret təsərrüfat subyekti səviyyəsində əsas iqtisadi qanunların təsirinin necə təzahür etməsini anlamalıdırlar. Onlar müasir iqtisadi tədqiqatlar metodlarına, sistemli, kompleks təhlil metodikasına yaxşı yiyələnməli və onları təcrübədə tətbiq etməyi bacarmalıdırlar.

Bu dərslikdə iqtisadi təhlilin həm nəzəri əsasları, həm də tətbiqi məsələləri həmin fənn üzrə yeni dövlət standartlarına uyğun şərh edilir.

Dərsliyin birinci hissəsində təşkilatların təsərrüfat fəaliyyətinin təhlilinin nəzəri məsələləri, o cümlədən onun məzmunu və təşkilatın idarə edilməsində rolu, kompleks təhlil sistemi və metodologiyası, habelə iqtisadi təhlilin metodikası araşdırılmışdır.

İkinci hissə müəssisələrin təsərrüfat - maliyyə fəaliyyətinin kompleks təhlilinə, o cümlədən marketinq fəaliyyətinin, məhsul (iş və xidmət) istehsalı və satışının, əmək, material ehtiyatlarından və əsas fondlardan istifadənin səmərəliliyinin təhlilinin metodiki məsələlərinin öyrənilməsinə həsr edilmişdir. Bu bölmədə həmçinin məhsulun maya dəyərinin, maliyyə nəticələrinin (mənfəətinin və rentabelliyinin), maliyyə vəziyyətinin təhlilinə xüsusi diqqət yetirilir. Arı-ayrı fəsillərdə təşkilatın maliyyə - təsərrüfat fəaliyyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsi metodikası, habelə müəssisənin müflisləşməsi ehtimalının qiymətləndirilməsi vasitəsi kimi funksional iqtisadi diaqnostikanın metodologiyası və metodikası şərh edilmişdir.

Dərslikdə iqtisadi təhlilin müxtəlif metodlarını səciyyələndirən analitik hesablamaların konkret rəqəmli nümunələri verilmişdir.

Qeyd etmək lazımdır ki, təşkilatların təsərrüfat fəaliyyətinin təhlilinin nəzəri əsaslarının və metodoloji məsələlərinin araşdırılması zamanı düsturlardakı göstəricilər latın hərflərilə işarə edilir. 12-ci fəsildə təşkilatın maliyyə vəziyyətinin təhlili metodikası təfsilatı ilə təqdim edilir, göstəricilərin işarə edilməsi təcrübədə qəbul edildiyi kimi verilir.

Bu dərslik iqtisadiyyat və idarəetmə ixtisası üzrə təhsil alan tələbələr, aspirantlar, müəllimlər, iş adamları, mühasiblər, auditlər, o cümlədən iqtisadi təhlillə marağlananlar üçündür.

Dərslik azərbaycan dilində yazılmış birinci geniş həcmli dərslik olduğu üçün yol verilmiş nöqsan və çatışmamazlığa görə müəllif oxucudan üzr istəyir. Nöqsanları, çatışmamazlıqları, rəy, arzu və təklifləri müəllifə çatdıran (ünvan: Bakı şəhəri, Az 1001, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi təhlil və aidit» kafedrası) hər bir oxucuya o, əvvəlcədən öz dərin minnətdarlığını bildirir. Oxucuların nəzərinə çatdırır ki, təklifləri kitabın növbəti nəşrlərində nəzərə alınacaqdır.

Müəllif kitabın nəşrə hazırlanmasında ona yaxından kömək göstərən və qiymətli məsləhətlərini verən Azərbaycan Dövlət İqtisad Universitetinin bütün kollektivinə, xüsusən «İqtisadi təhlil və aidit», «Mühasibat uçotu» və «Statistika» kafedralarının bütün əməkdaşlarına, bütün iqtisadçı alimlərmizə, iqtisadçılara və sıravi vətəndaşlara öz dərin minnətdarlığını bildirir.

Müəllif özünü xoşbəxt hiss edir ki, milli kadırların hazırlanmasında az da olsa onun da xidmətləri var.

I HİSSƏ

TƏSƏRRÜFAT SUBYEKTLƏRİNDƏ İQTİSADİ TƏHLİLİN TƏŞKİLİNİN NƏZƏRİ ƏSASLARI

I FƏSİL

KOMMERSİYA TƏŞKİLATLARININ MALİYYƏ – TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ İQTİSADİ TƏHLİLİN ROLU

1.1. İqtisadi təhlilin məzmunu, vəzifələri və onun digər iqtisad elmləri ilə qarşılıqlı əlaqəsi

İqtisadi təhlil – iqtisad elminin xüsusi sahəsidir. İqtisadi təhlilin bir elm kimi təşəkkülü ümumi obyektiv tələbatlarla:

- əvvəla, təsərrüfatçılığ təcrübəsinin tələbatları ilə;
- ikincisi, ümumiyyətlə iqtisad elminin və onun ayrı - ayrı sahələrinin inkişafı ilə əlaqədardır.

Birinci şərt. İqtisadi təhlilin təşəkkülü praktiki tələbatın təmin olunması ilə əlaqədardır. O, məhsuldar qüvvələrin inkişafı, istehsal münasibətlərinin təkmilləşdirilməsi, istehsal miqyasının genişlənməsi ilə əlaqədar yaranmışdır. Təsərrüfatçılığın ilk mərhələlərində kiçik müəssisələrdə vəziyyətin intuitiv təhlili, təxmini yoxlamalar və hesablamalar kifayət qədər olurdu. İqtisadiyyatın durmadan inkişafı, istehsalın təmərküzləşməsi, təsərrüfat subyektləri arasında əlaqələrin dərinləşməsi idarəçilik fəaliyyətinin xüsusi sahəsinin – iqtisadi təhlilin seçilib ayrılmasına tələbat yaratdı.

Hazırda müxtəlif mülkiyyət növləri əsasında qurulmuş, habelə müxtəlif təşkilati - hüquqi formaları (təsərrüfat birlikləri, açıq və qapalı tipli səhmdar cəmiyyətləri, istehsal kooperativləri, məhdud məsuliyyətli cəmiyyətlər və b.) olan kommersiya təşkilatları fəaliyyət göstərir. Belə təsərrüfatların fəaliyyəti iqtisadi təhlil nəzəriyyəsinin və təcrübəsinin daha da inkişaf etdirilməsini tələb edir.

İqtisadi təhlil – kommersiya təşkilatının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə onun fəaliyyətinin dərin, elmi cəhətdən əsaslanmış tədqiqatıdır.

İkinci şərt. Bu bütövlükdə iqtisad elminin inkişafı ilə əlaqədardır. Məlumdur ki, hər hansı bir elmin inkişafı ilə onun sahələrinin differensasiyası baş verir. İqtisad elmlərinin differensasiyası və inteqrasiyasının dialektik prosesi xüsusi fənlərin, məsələn, planlaşdırma, idarəetmə (marketinq, menecment), mühasibat uçotu, statistika, iqtisadi kibernetika kimi fənlərin ayrılmasını şərtləndirmişdir. Dialektik differensasiya və inteqrasiya prosesi həmin elmlərlə sıx və qaşılıqlı əlaqədə olan iqtisadi təhlildə şamil edilir. Əvvəllər iqtsadi təhlilin funksiyaları həmin dövrlərdə mövcud olan balanssünaslıq, mühasibat uçotu, maliyyə, statistika kimi elmlərin tərkibində nəzərdən keçirilmişdir. Bu elmlər çərçivəsində analitik tədqiqatın ilk sadə üsulları meydana gəlmişdir. Lakin müəssisələrin iqtisadi və sosial inkişafının elmi cəhətdən əsaslandırılması üçün müəssisənin fəaliyyətinin kompleks tədqiq edilməsinə zəruriyyət yarandı. Yuxarıda adları qeyd olunan elmlər bütün praktiki sorğuları təmin edə bilmədi. Buda iqtisadi təhlilin müstəqil elm sahəsi kimi ayrılması ilə nəticələnmişdir.

Bununla belə, qeyd etmək lazımdır ki, iqtisadi təhlil ilə həmin xüsusi elmlər arasında qəti müəyyən edilmiş sərhədlər mövcud deyil. Mühasibat uçotu və iqtisadi təhlil arasında daha sıx əlaqə mövcuddur. Beləki, mühasibat uçotu iqtisadi təhlil üçün əsas informasiya mənbəyi hesab edilir. Mütəxəssislər hesablamışlar ki, iqtisadi təhlildə istifadə olunan informasiyanın təxminən 70%-i mühasibat uçotundan, qalan hissəsi isə planlaşdırma, marketinq və statistika uçotu prosesində yaranır. Tamamilə təbiidir ki, məhz mühasiblər ilk olaraq müəssisələrin təsərrüfat fəaliyyətini təhlil etməyi başlamışlar. Hər mühasib balansı tərtib edərək, mütləq təşkilatın əmlakının tərkibi və qurluşuna, onun formalaşması mənbələrinin qiymətləndirilməsinə maraq göstərir, təşkilatın maliyyə vəziyyətinin müsbət və mənfi məqamlarını, onun maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin aşağı olması səbəblərini və s. aydınlaşdırır.

Statistika və iqtisadi təhlil arasında hədd daha az müəyyəndir.

Statistikanın iqtisadi təhlildən əsas fərqi ondan ibarətdir ki, o, kütləvi halları, yəni makrosəviyyədə milli iqtisadiyyatın, onun ayrı-ayrı sahələrinin inkişafını əks etdirən makrogöstəriciləri öyrənir. Statistikanın köməyilə makroiqtisadi tədqiqatlar həyata keçirilir. İqtisadi təhlil isə konkret təsərrüfat subyektlərinin (kommersiya təşkilatlarının), onların struktur bölmələrinin təsərrüfat fəaliyyətinin öyrənilməsinə istiqamətlənmişdir.

Nəticə olaraq qeyd etmək lazımdır ki, mikrotəhlil mühasib – analitiklər, iqtisadçı – analitiklər, makrotəhlil isə iqtisadçı – statistiklər tərəfindən aparılır.

İqtisadi təhlil biznes – planların tərtib edilməsilə sıx əlaqədardır. Təsərrüfat ilinin sonunda aparılmış iqtisadi təhlilin nəticələri qarşıdakı dövrə biznes-planların işlənib hazırlanması üçün baza hesab olunur. Cari müqayisəli iqtisadi təhlilin aparılması prosesində həmin məlumatlardan informasiya mənbəyi kimi istifadə edilir.

İqtisadi təhlil bir elm kimi:

- obyektiv iqtisadi qanunların və subyektiv xarakterli amillərin təsirilə yaranan iqtisadi proseslərin qarşılıqlı əlaqədə tədqiqatı ilə;
- biznes – planların elmi əsaslandırılması və onların yerinə yetirilməsinin obyektiv qiymətləndirilməsi ilə;
- müsbət və mənfi amillərin müəyyən edilməsi və onların nəticə göstəricilərinə təsirinin kəmiyyətcə ölçülməsi ilə;
- təsərrüfatın inkişaf meyilləri və nisbətlərinin istifadə edilməmiş təsərrüfatdaxili ehtiyatların müəyyən edilməsi ilə;
- qabaqcıl təcrübənin ümumiləşdirilməsi və optimal idarəetmə qərarlarının qəbul edilməsi ilə əlaqədar olan xüsusi biliklər sistemidir.

İqtisadi təhlilin məzmunu onun digər tətbiqi iqtisad elmləri sistemində yerinə yetirdiyi funksiyalardan irəli gəlir:

1) iqtisadi qanunların təsirinin öyrənilməsi, konkret müəssisə səviyyəsində iqtisadi hal və proseslərin qanunuyğunluğunun və meylinin müəyyən edilməsi;

2) cari və perespektiv planların elmi cəhətdən əsaslandırılması;

3) planların, idarəetmə qərarlarının yerinə yetirilməsi, resurslardan səmərəli istifadə olunması üzərində nəzarət;

4) qabaqcıl təcrübənin, elm və texnikanın nailiyyətlərinin öyrənilməsi əsasında istehsalın səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının aşkar edilməsi;

5) planların icrası, iqtisadiyyatın əldə edilmiş inkişaf səviyyəsi, mövcud imkanlardan istifadə üzrə müəssisənin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi;

6) təhlil prosesində müəyyən edilmiş ehtiyatlardan istifadə üzrə tədbirlərin hazırlanması.

İqtisadi təhlilin məzmunu onun digər tətbiqi iqtisad elmləri sistemində həll etdiyi aşağıdakı vəzifələrlə müəyyən edilir:

1) konkret kommersiya təşkilatı səviyyəsində iqtisadi qanunların təsirinin xarakterinin öyrənilməsi, iqtisadi inkişafın qanunauyğunluqlarının və meyllərinin müəyyən edilməsi;

2) cari və perspektiv biznes – planların elmi əsaslandırılması, onların reallığının və optimallığının təmin edilməsi. Firmanın keçmiş illər (üç-beş il) ərzində fəaliyyətinin nəticələrini dərin iqtisadi təhlil etmədən və perspektiv üçün əsaslandırılmış proqnozlar olmadan, habelə mövcud nöqsan və səhvlər araşdırılmadan, elmi cəhətdən əsaslandırılmış biznes – plan işləyib hazırlamaq, optimal variant seçmək, idarəetmə qərarı qəbul etmək olmaz;

3) biznes – planların və idarəetmə qərarlarının yerinə yetirilməsinə, istehsal və maliyyə ehtiyatlarından qənaətlə istifadə edilməsinə nəzarət. Bir sıra iqtisadçılar iqtisadi təhlilin bu funksiyasını inkar edir və onu müstəsna olaraq mühasibat uçotuna aid edirlər. Şübhəsiz, mühasibat uçotu təsərrüfat əməliyyatları və prosesləri haqqında informasiyanın qeydə alınması, ümumiləşdirilməsi və sistemləşdirilməsi zamanı nəzarət funksiyalarını yerinə yetirir. Lakin bu, iqtisadi təhlil həyata keçirilərkən də nəzarəti istisna etmir, o, yalnız faktların təsdiq edilməsi məqsədilə deyil, həm də idarə edilən obyektə operativ təsir edilməsi üçün nöqsanların və səhvlərin aydınlaşdırılması məqsədilə həyata keçirilir;

4) biznes – planın yerinə yetirilməsi, nail olunmuş inkişaf səviyyəsi və mövcud imkanlardan istifadə edilməsi üzrə kommersiya təşkilatının fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi. Obyektiv qiymətləndirmə istehsalın və satışın artmasına, onların səmərəliliyinin

yüksəlməsinə kömək edir;

5) qabaqcıl təcrübənin, elmin və praktikanın nailiyyətlərinin öyrənilməsi əsasında istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin istifadə edilməmiş daxili ehtiyatlarının müəyyən edilməsi;

6) daxili ehtiyatlardan istifadə edilməsi, mənfi amillərin təsirinin aradan qaldırılması üzrə tədbirlərin işlənib hazırlanması.

1.2. İqtisadi təhlil idarəetmə qərarlarının qəbul edilməsinin əsas elementi kimi

Müasir dövrdə iqtisadiyyatın, eləcə də onun ayrı-ayrı sahələrinin, təsərrüfat subyektlərinin idarə edilməsinin təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi ön plana çəkilmişdir. İdarəetmənin elmi nəzəriyyəsi onun funksiyaları və elementlərinin mürəkkəbliyi ilə səciyyələnir.

İdarəetmə idaredən orqanın (şəxsin) idarəedilən obyektin səmərəli fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə onun inkişafına fəal təsir etməsi prosesidir.

İdarəetmənin mahiyyəti onun funksiyaları ilə xarakterizə olunur. İdarəetmənin ayrı-ayrı funksiyaları idarəçilik əməyinin bölünməsi və ixtisaslaşması prosesində ayrılmışlar. Onlardan əsasları planlaşdırma, uçot, təhlil və tənzimləmədir.

Funksiyalardan hər biri daha kiçik elementlərə və ya alt funksiyalara bölünə bilər. Məsələn, planlaşdırma funksiyasında proqnozlaşdırmanı, proqramlaşdırmanı, tənzimlənməni və s. ayırmaq olar.

Planlaşdırma qarşıya qoyulmuş məqsədə nail olunması üçün idarə edilən obyektin (müəssisənin, onun struktur bölmələrinin) inkişafının istiqamətlərinin və parametrlərinin işlənib hazırlanmasını təmin edir.

Uçot zəruri informasiyanın formalaşmasını, vaxtaşırı toplanmasını, təsnifatını və ümumiləşdirilməsini təmin edir. Bu informasiya idarə edilən obyektdə baş verən bütün faktiki prosesləri doğru və tam əks etdirməlidir. Onun yaranması, toplanması və

ümumiləşdirilməsi xüsusi işlənib hazırlanmış metodologiya üzrə həyata keçirilir.

Təhlil idarə edilən obyektdə baş verən dəyişikliklərin kəmiyyətcə və keyfiyyətcə qiymətləndirilməsini təmin edir. O, həm mütərəqqi, həm də arzuedilməz halların inkişafı meyllərini vaxtında görmək imkanı yaradır. Aparılan iqtisadi təhlil mənfi meyllərin inkişafının aradan qaldırılmasına, mütərəqqi meyllərin inkişafına əlverişli şərait yaratmaq imkanı verir.

Təhlilin köməyilə nəticə göstəricilərinə təsir edən müxtəlif amillərin təsiri kəmiyyətcə qiymətləndirilməlidir, kommersiya təşkilatlarında istifadə edilməmiş daxili ehtiyatlar, habelə yeni idarəetmə qərarları qəbul edən zaman əlavə yaranan ehtiyatlar aşkara çıxarılır. Daxili ehtiyatlardan istifadə edilməsi isə idarə edilən obyektin inkişafının sürətləndirilməsinə, onun daha səmərəli fəaliyyət üsuluna keçməsinə imkan yaradır.

İqtisadi təhlil müvafiq idarəetmə qərarları hazırlanması üçün əsas hesab edilir. İdarəetmə qərarları variantları idarə edilən obyektdə baş verən dəyişikliklərin dərindən öyrənilməsi sayəsində işlənib hazırlanır və analitik qiymətləndirilir.

Tənzimləmə idarəetmə qərarlarının qəbul edilməsini, habelə təhlilin nəticələri əsasında onların icrasını təmin edir.

İdarəetmənin bütün funksiyaları qarşılıqlı əlaqəlidir və məcmu halında idarəetmə prosesini təşkil edir.

1.3. İqtisadi təhlilin predmeti və obyekti

İqtisadi təhlilin predmeti dedikdə obyektiv və subyektiv amillərin təsiri altında formalaşan, iqtisadi informasiya sistemində öz əksini tapan təsərrüfat subyektlərinin (firmaların, şirkətlərin, cəmiyyətlərin və d.,) təsərrüfat prosesləri, onların fəaliyyətlərinin sosial – iqtisadi səmərəliliyi və son maliyyə nəticələri başa düşülür.

İqtisadi təhlilin obyektlərinə müxtəlif təşkilati - hüquqi formalı kommersiya və qeyri-kommersiya təşkilatlarının fəaliyyətinin iqtisadi nəticələri aid edilir.

Kommersiya və qeyri-kommersiya təşkilatlarının ümumi xarakteristikası Azərbaycan Respublikasının Mülki məcəlləsində göstərilir [4-cü fəsil, maddə 43] .

Kommersiya təşkilatları öz fəaliyyətinin əsas məqsədi kimi mənfəət alınmasını qarşıya qoyan hüquqi şəxslərdir. Onlar təsərrüfat birlikləri və cəmiyyətləri, istehsal kooperativləri, dövlət və bələdiyyə unitar müəssisələri formasında yaradıla bilər.

Qeyri-kommersiya təşkilatları öz məqsədlərinin əsası kimi mənfəət alınmasını qarşıya qoymurlar. Onlar ictimai birliklər, fondlar, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər.

Təsərrüfat birlikləri və cəmiyyətlərinə təsisçilərin (iştirakçıların) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan təşkilatlar aid edilir [Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 64-cü maddə] .

Təsərrüfat birlikləri tam şərikli (ortaqlıq) və etibara əsaslanan şəriklik (kommandit birlikləri) formasında yaradıla bilər. Tam şəriklik formalı birliklərin iştirakçıları və etibara əsaslanan şəriklik formalı birliklərdə tam şəriklər (ortaqlar) fərdi sahibkarlar və (və ya) kommersiya təşkilatları ola bilər.

O birliklər tam ortaqlı hesab edilir ki, onların iştirakçıları (tam şərikləri) aralarında bağlanmış müqaviləyə uyğun olaraq birliyin adından sahibkarlıq fəaliyyətilə məşğul olurlar və özlərinə mənsub olan əmlakla onun (birliyin) öhdəliklərinə görə məsuliyyət daşıyırlar [Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 69-cu maddə] .

Etibara əsaslanan birlik (kommandit birliyi) o birlik qəbul edilir ki, orada birliyin adından sahibkarlıq fəaliyyəti həyata keçirən və onun öhdəliklərinə görə öz əmlakı ilə cavabdeh olan iştirakçılarla (tam şəriklərlə) yanaşı bir və ya bir neçə iştirakçılar – payçılar (kommanditistlər) olur və onlar birliyin fəaliyyətilə əlaqədar zərərlərə görə verdikləri payın məbləği həddində risk edirlər və birliyin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində iştirak etmirlər

[Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 82-ci maddə] .

Təsərrüfat cəmiyyətləri səhmdar cəmiyyətləri, məhdud və ya əlavə məsuliyyətli cəmiyyətlər formasında yaradıla bilər. Təsərrüfat cəmiyyətlərinin iştirakçıları və şərikli birliklərin payçıları vətəndaşlar və hüquqi şəxslər ola bilərlər.

Səhmdar cəmiyyəti o cəmiyyət hesab edilir ki, onun nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüşdür; səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) onun öhdəliklərinə görə cavabdeh deyillər və cəmiyyətin fəaliyyətilə əlaqədar zərərlərə görə onlara mənsub olan səhmlərin dəyəri həddində risk edirlər [Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 98-ci maddə] .


İştirakçıları onlara mənsub olan səhmləri digər səhmdarların razılığı alınmadan özgəninkiləşdirə bilən səhmdar cəmiyyəti *açıq səhmdar cəmiyyəti* (ASC) adlanır [Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 99-cı maddə] .

Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşidirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyəti *qapalı səhmdar cəmiyyəti* (QSC) hesab edilir [Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 100-ci maddə] .

İstehsal kooperativi fiziki və hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsəi ilə yaradılır [Azərbaycan Respublikasının Mülki məcəlləsi 4-cü fəsil, 109-cı maddə] .

Unitar (vahid) müəssisə mülkiyyətçi (sahibkarlar) tərəfindən ona təhkim edilmiş əmlak üzərində mülkiyyət hüququ verilməyən kommersiya təşkilatıdır. Unitar formada yalnız dövlət və bələdiyyə müəssisələri yaradıla bilər.

İqtisadi təhlil obyektlərinin (hüquqi şəxslərin) təsnifatı 1.1. sxemində təqdim edilmişdir.



Sxem 1.1. Hüquqi şəxslərin təsnifatı

1.4. İqtisadi təhlilin növləri və kommersiya təşkilatlarının fəaliyyətinin idarə edilməsində onların rolu

İqtisadi təhlilin metodlarının işlənib hazırlanması onun idarəetmə təcrübəsinin tələbləri ilə şərtlənən növlərinin elmi cəhətdən əsaslandırılmış təsnifatına əsaslanır. İdarəetmənin funksiyalarının təsnifatı iqtisadi təhlilin növlərinin təsnif edilməsinin əsasını təşkil edir. Çünki iqtisadi təhlil iqtisadiyyatın idarə edilməsinin hər bir funksiyasının icrasının mühüm elementi hesab olunur.

İqtisadi təhlilin növləri aşağıdakı əlamətlər üzrə təsnif olunur:

1) sahə əlamətləri üzrə;
2) iqtisadi təhlilin subyektləri üzrə;
3) vaxt əlaməti üzrə;
4) idarəetmənin obyektləri üzrə;
5) proqramın məzmunu üzrə;
6) obyektin öyrənilməsi metodikası üzrə.

Xüsusi ədəbiyyatda iqtisadi təhlilin növlərinin digər təsnifatına da rast gəlmək olar. Məsələn, professor A.D.Şermet ilk və ümumiqtisadi təhlilləri əlahiddə növlər kimi ayırır [1]. O, konkret qərarlar qəbul edilməsindən öncə edilən təhlili ilk təhlil adlandırır və onu biznes-planların yerinə yetirilməsinə yekun vurulmasına kömək edən sonrakı (yekun) təhlildən fərqləndirir. A.D.Şeremetin rəyinə görə ümumiqtisadi təhlil iqtisadiyyatın inkişafının əsas qanunauyğunluqlarının öyrənilməsi məqsədilə aparılır, onları bilmək isə iqtisadi siyasətin aparıcı məqsədlərinin və konsepsiyalarının müəyyən edilməsi üçün zəruridir.

1. Əməyin ictimai bölgüsünə əsaslanan sahə əlaməti üzrə təhlil sahəvi (iqtisadiyyatın müxtəlif sahələrinin – sənayenin, tikintinin, nəqliyyatın, ticarətin və i. a. - xüsusiyyətləri nəzərə alınır) və sahələrarası (milli iqtisadiyyatın bütün sahələrində təsərrüfat fəaliyyətinin təhlilinin nəzəri və metodoloji əsaslarını təşkil edən) təhlilə bölünür.

2. İqtisadi təhlilin subyektləri üzrə daxili və xarici təhlili fərqləndirirlər.

2.1. Daxili iqtisadi təhlil daxili subyektlər, yəni əməkdaşlar, müdiriyyət tərəfindən həyata keçirilir. O, kommersiya təşkilatlarının idarə edilməsi məqsədləri üçün istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün aparılır.

2.2. Xarici iqtisadi təhlil nəşr olunmuş maliyyə hesabatları əsasında xarici subyektlər tərəfindən onların hər birinin qarşısında qoyulmuş konkret məqsədlərə görə həyata keçirilir.

3. İqtisadi təhlil vaxt əlaməti üzrə aşağıdakı qaydada təsnif edilir.

3.1. Sonradan aparılan (retrospektiv) təhlil – istehsal, təsərrüfat və maliyyə əməliyyatları başa çatdıqdan sonra aparılan iqtisadi təhlildir. Təhlilin bu növündən planların icrasına nəzarət, istifadə olunmamış ehtiyyatları aşkar etmək, təsərrüfat fəaliyyətinin nəticələrini obyektiv qiymətləndirmək üçün istifadə edilir.

3.2. Qabaqcadan (perspektiv, proqnoz) təhlil – istehsal, təsərrüfat və maliyyə əməliyyatları həyata keçirilməzdən əvvəl aparılan iqtisadi təhlildir. Proqnoz təhlilin informasiyası – nisbətən az dəqiqdir, lakin vaxtlı - vaxtında idarəetmə qərarları qəbul etmək, kommersiya təşkilatının perspektiv inkişafı parametrlərini müəyyən etmək imkanı yaradır.

3.3. Operativ (situasiya) təhlil – istehsal, təsərrüfat və maliyyə əməliyyatları başa çatdıqdan sonra və ya qısa vaxt çərçivəsində situasiyanın dəyişməsi zaman aparılan iqtisadi təhlildir. Onun həyata keçirilməsi zamanı gündəlik təsbit edilən və işlənən informasiyadan istifadə edilir. Operativ təhlil idarəetmə qərarlarını «yolüstü» qəbul etmək, yetişən çətinlikləri izləmək və onların qarşısını almaq imkanı yaradır. Bir qayda olaraq, operativ təhlil kompleks xarakter daşımır, yəni kommersiya təşkilatının fəaliyyətini hər tərəfli əhatə etmir. Bununla belə, hətta məhdud məsələlər dairəsi üzrə operativ təhlilin təşkil edilməsi müəyyən əmək xərci tələb edirsə də, idarəetmənin səmərəliliyinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir edir. İdarəetmə uçotunun vahid metodikasının olmaması operativ təhlilin idarəetmə təcrübəsinə geniş tətbiqinə mane olur. İdarəetmə uçotu sistemi (operativ təhlil üçün mühüm informasiya bazası) kommersiya təşkilatının, əsas etibarilə, sahə mənsubiyyəti, istehsal texnologiyası və əməyin təşkilinin xüsusiyyətləri üzrə şərtləndirilir. İdarəetmə

uçotunun (mühasibat və statistika uçotundan fərqli olaraq) təşkili məsələləri hər bir müəssisədə müxtəlif formada həll edilir.

Dövri, operativ və perspektiv təhlil növləri qarşılıqlı əlaqəlidir və bir-birini tamamlayır. Bu, idarəetmənin müasir atvomatlaşdırılması vasitələrinin tətbiqi zamanı özünü daha qabarıq göstərir. Belə ki, operativ təhlilin aparılmasında istifadə olunan operativ məlumatlar (məsələn, təsərrüfat əməliyyatı həyata keçirilən zaman), sonralar (məsələn, ay qurtaranda) hesabat – dövri təhlil üçün çox mühüm informasiya hesab edilir.

Perspektiv və retrospektiv təhlil arasında qarşılıqlı əlaqə mövcuddur. Retrospektiv təhlil perspektiv təhlil üçün əsas hesab edilir. Belə ki, iqtisadi göstəricilərin mövcud səviyyəsinin qiymətləndirilməsi onların perspektivə əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edir.

4. İdarəetmənin obyektlərinə görə təhlilin aşagıdakı növlərini fərqləndirirlər.

4.1. Texniki - iqtisadi təhlil müəssisənin texniki xidməti (baş mühəndis, baş texnoloq və s.) tərəfindən aparılır. Onun məzmunu texniki və iqtisadi proseslərin qarşılıqlı təsirini və onların müəssisənin fəaliyyətinin iqtisadi nəticələrinə təsirinin öyrənilməsi ilə xarakterizə olunur.

4.2. Maliyyə - iqtisadi təhlil zamanı əsas diqqət müəssisənin maliyyə nəticələrinə: maliyyə planının yerinə yetirilməsinə, xüsusi və borc kapitalından istifadənin səmərəliliyinə, mənfəətin, rentabelliyin yüksəldilməsi, müəssisənin maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin yaxşılaşdırılması ehtiyatlarının aşkar edilməsinə yönəldilir.

4.3. Sosial – iqtisadi təhlil sosial və iqtisadi proseslərin qarşılıqlı əlaqəsini, onların biri-birinə və eləcədə təsərrüfat fəaliyyətinin iqtisadi nəticəsinə təsirini öyrənir.

4.4. İqtisadi – statistik təhlil (statistika orqanları tərəfindən aparılır) idarəetmənin müxtəlif səviyyələrində (müəssisə, sahə, region və s.) kütləvi ictimai halların öyrənilməsi üçün tətbiq edilir.

4.5. Marketinq təhlili (müəssisənin marketinq xidməti tərəfindən aparılır) müəssisənin xarici mühütinin, xammal və məhsul satışı bazarının, onun rəqabətə davamlılığının, tələb və təklifin,

kommersiya riskinin, qiymət siyasətinin formalaşmasının, marketinq fəaliyyətinin taktikasının və strategiyasının hazırlanmasının öyrənilməsi üçün tətbiq edilir.

5. Proqramın məzmunu və səviyyəsinə görə kompleks və tematik təhlili fərqləndirirlər.

5.1. Kompleks təhlil kommersiya təşkilatının istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin bütün tərəflərini əhatə edir.

5.2. Tematik təhlil xüsusi məsələlərin tədqiqi zamanı tətbiq edilir. Məsələn, konkret məmulatın satışından əldə edilən mənfəətin təhlili, məhsulun keyfiyyətinin təhlili, əmək məhsuldarlığının təhlili və i. a.

6. Obyektin öyrənilməsi metodikasına görə təhlilin aşağıdakı növlərindən istifadə olunur.

6.1. Müqayisəli təhlil. Təhlilin bu növünün tətbiqi zamanı müəssisənin təsərrüfat fəaliyyətinin hesabat göstəriciləri cari ilin plan göstəriciləri ilə, keçmiş illərin məlumatları ilə müqayisə edilir.

6.2. Amilli və ya çox amilli təhlil nəticə göstəricilərinin artımına və səviyyəsinə təsir edən amillərin təsirinin müəyyən edilməsinə istiqamətlənmişdir.

6.3. Diaqnostik təhlil – hər hansı bir mənfi hala xas olan tipik əlamətlər əsasında iqtisadi proseslərin normal axının pozulmasının xarakterini müəyyən etmək üsulu kimi çıxış edir.

6.4. Ekspress təhlil – az sayda əsas göstəricidən istifadə etməklə müəyyən dövrə öyrənilən məsələlərin real vəziyyətini qiymətləndirməyə imkan verir. Məsələn, müəssisənin maliyyə vəziyyətinin ekspress təhlili zamanı onun əmlak vəziyyətini, maliyyə sabitliyini, işgüzar fəallığını xarakterizə edən çox saylı göstəricilərin hesablanması üçün ilkin üçot məlumatları əsasında informasiyanın toplanması, işlənməsi, təhlil edilməsi və qiymətləndirilməsi üçün çox vaxt tələb olunur. Lakin həmin istiqamətləri xarakterizə edən göstəricilərdən ən əsasını hesablamaqla qarşıya qoyulan vəzifəni həll etmək olar.

6.5. Marjinal təhlil satışın həcmi, maya dəyəri və mənfəət göstəriciləri arasında qarşılıqlı əlaqənin öyrənilməsi və xərclərin daimi və dəyişən xərclərə bölünməsi əsasında biznesdə idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi və əsaslandırılması metodu olmaqla uçotun direkt – kostinq sistemində tətbiq olunur.

6.6. Diterminləşdirilmiş təhlil amil və nəticə göstəriciləri arasında funksional qarşılıqlı əlaqələrin öyrənilməsi üçün tətbiq olunur.

6.7. Stoxastik (dispersiya, korrelyasiya, komponent və i.a.) təhlilindən müəssisənin təsərrüfat fəaliyyətinin tədqiq edilən prosesləri arasında stoxastik asılılığın öyrənilməsi zamanı istifadə edilir.

6.8. Funksional – dəyər təhlili ehtiyatların aşkar edilməsi metodudur. Bu zaman obyektin icra etdiyi funksiya əsas götürülməklə məmulatın bütün həyat tsikli mərhələsində həmin funksiyaların reallaşdırılmasının optimal metodlarına orientir edilir. Onun əsas təyinatı lazımsız qovşaq, hissələrin ləğv edilməsi, məmulatın layihəsinin sadələşdirilməsi, materialların dəyişdirilməsi hesabına artıq xərcləri müəyyən etməkdir.

İqtisadi təhlilin növlərə bölünməsi xeyli dərəcədə şərtidir və əməli fəaliyyətdə ciddi əhəmiyyətə malik deyil. İqtisadi təhlilin bütün növləri qarşılıqlı əlaqəlidir, onların nəticələrindən qarşılıqlı istifadə edilməsini nəzərdə tutur, idarəetmənin səmərəliliyinin yüksəldilməsinə – düzgün, düşünülmüş idarəetmə qərarları hazırlanmasına və qəbul edilməsinə kömək edir.

1.5. İqtisadi informasiyanın istifadəçiləri və iqtisadi təhlilin subyektləri

Təhlilin subyektləri daxili və xarici informasiya istifadəçiləridir.

Təhlilin daxili subyektlərinə (informasiya istifadəçilərinə) kommersiya təşkilatının müdiriyyəti, onun şəxsi heyəti, mülkiyyətçiləri (onlar təşkilatda işləyən hallarda) aid edilir.

Təhlilin xarici subyektləri – mülkiyyətçilər, borc verənlər (banklar, hüquqi şəxslər, fiziki şəxslər), mal göndərənlər, alıcılar, rəqiblər, vergi orqanları, auditor firmaları, konsultantlar (məsləhətçilər), hüquqşünaslar, cəmiyyətlər və digərləridir.

Təhlil subyektlərinin məqsədləri çox müxtəlif ola bilər (cədvəl 1.1), lakin obyektin həm cari vəziyyətinin, həm də gözlənilən inkişafı perspektivlərinin dəqiq qiymətini vermək imkanı yaradan iqtisadi informasiyaların alınması onların (subyektlərin) hamısı üçün başlıca məsələdir.

Cədvəl 1.1.

Təhlilin subyektləri və əsas istiqamətləri

Təhlilin subyektləri	Təhlilin əsas istiqamətləri (mövzuları)
Mülkiyyətçilər	Maliyyə nəticələri, maliyyə vəziyyətinin sabitliyi, imtiyazlı və adi səhmlər üzrə dividendlərin ölçüsü, mənfəətin bölüşdürülməsi, yəni ondan istifadə edilməsi istiqamətləri.
Müdriyyət, Şəxsi heyət	Firmanın fəaliyyətinin bütün aspektləri, onun təsərrüfat və maliyyə fəaliyyətinin səmərəliliyi.
Borc verənlər	Firmanın ödəmə qabiliyyəti, krediti ödəmə qabiliyyəti və likvidliyi.
Mal göndərənlər Alıcılar	Firmanın maliyyə vəziyyəti, ödəmə qabiliyyəti. Məhsulun, malların keyfiyyəti, qiymətləri və maya dəyəri, onların istehsalı, saxlanılması, göndərilməsi şəraiti (şərtləri), firmanın maliyyə vəziyyəti.
Rəqiblər	Texnoloji prosesin xüsusiyyətləri, məhsulun əmək tutumu, maya dəyəri, keyfiyyət xarakteristikaları, firmanın bazarda davamlılığı.
Vergi orqanları	Firmanın maliyyə nəticələri, vergi tutulma obyektləri, ödəmə qabiliyyəti.

Təhlilin hər subyekti öz mənafelərinə əsaslanaraq informasiyanı öyrənir. Belə ki, mülkiyyətçilər üçün kommersiya təşkilatının öz kapitalının payının artmasını yaxud azalmasını müəyyən etmək və müdriyyət tərəfindən ehtiyatlardan istifadə edilməsinin səmərəliliyini qiymətləndirmək lazımdır. Kreditorlara kreditin davam etdirilməsinin məqsədəuyğunluğunu, kreditləşdirmə şərtlərinin dəyişilməsini, kreditin qaytarılmasına zəmanət olmasını bilmək lazımdır. Potensial mülkiyyətçilərə, kreditorlara və mal göndərənlərə öz kapitallarının həmin müəssisəyə yerləşdirilməsinin faydalılığını hesaba almaq lazımdır.

Yalnız təşkilatın müdiriyyəti və şəxsi heyəti idarəetmə uçotu ilə yaranan daxili informasiyaya əsaslanan dərin təhlil edə bilərlər.

1.6. Maliyyə və idarəetmə təhlilinin qarşılıqlı əlaqəsi. Maliyyə və idarəetmə təhlilinin xarakterik əlamətləri


Yuxarıda qeyd edildiyi kimi, təhlil idarəetmənin əsas funksiyalarından biridir və iqtisadi təhlil əsaslandırılmış idarəetmə qərarları qəbul edilməsinin əsasını təşkil edir.

İdarəetmə təhlilinin başlıca məqsədi – kommersiya təşkilatının istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə və onun rəqabət qabiliyyətinin saxlanmasına kömək etməkdir.

İdarəetmə təhlili daxili istehsal və daxili maliyyə təhlillərini əhatə edir. Digər tərəfdən maliyyə təhlili həm daxili, həm də xarici ola bilər. İdarəetmə və maliyyə təhlilinin qarşılıqlı əlaqəsi 1.2 sxemində göstərilmişdir.

1.7. Mühasibat uçotu və hesabatı iqtisadi təhlilin informasiya bazası kimi

İqtisadi təhlil zamanı müxtəlif informasiyalardan istifadə edilir ki, onların sırasında maliyyə hesabatları və mühasibat uçotu məlumatları aparıcı yer tutur. Həmin informasiya mənbələrində iqtisadi subyektlərin fəaliyyəti haqqında ən mühüm və mötəbər məlumatlar əks olunur. Bu məlumatlar informasiyanın qruplaşdırılmasının elmi cəhətdən işlənib hazırlanmış prinsipləri əsasında hesabat formalarına və uçot registrlərinə (cədvəllərinə) yazılı daxil edilir. Hesabat kommersiya fəaliyyəti haqqında toplu informasiyadır, çünki orada nəticələr yekunlaşdırılmış olur və ümumiləşdirilmiş göstəricilərlə ifadə edilir.



Sxem 1.2. ***İdarəetmə və maliyyə təhlilinin qarşılıqlı əlaqəsi***

Maliyyə (mühasibat) hesabatı – təşkilatın hesabat tarixinə əmlak və maliyyə vəziyyətini, habelə hesabat dövrü ərzində onun fəaliyyətinin maliyyə nəticələrini əks etdirən göstəricilər sistemidir.

Maliyyə hesabatının təqdim edilməsi qaydası, həcmi və tərkibi Azərbaysan Respublikasının «Mühasibat uçotu haqqında» 29 iyun 2004-cı il tarixli 716-IIQ saylı qanunu ilə (sonralar «Mühasibat uçotu haqqında» qanun); nizamlanır.

Kommersiya Təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi aşağıdakı sənədlərdən ibarət olur:

- 1 saylı forma «Müəssisə balansı»;
- 2 saylı forma «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat;
- 5 saylı forma «Müəssisə balansına əlavə»;
- Balansa yazılı izahat;
- Əgər təşkilat mütləq auditdən keçməlidirsə (Azərbaysan Respublikasının «Auditor xidməti haqqında» 16 sentyabr 1994-ci il tarixli qanununa uyğun olaraq), maliyyə hesabatının mötəbərliyini təsdiqləyən auditor rəyi.

Əgər təşkilat maliyyə hesabatının auditini öz təşəbbüsü ilə aparmışdırsa, onda auditor rəyi də maliyyə hesabatının tərkibinə daxil edilə bilər.

Kiçik sahibkarlıq subyektlərinin maliyyə hesabatlarının tərtib edilməsi:

1) kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun qaydalarına uyğun olaraq maliyyə hesabatları tərtib edilməlidir; və ya

2) öz seçimlərindən asılı olaraq maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib edə bilərlər.

Qeyri-kommersiya təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi:

1) bələdiyyə orqanları, büdcə təşkilatları və büdcədən kənar dövlət fondları «Mühasibat uçotu haqqında» qanuna əsasən tələb

olunan maliyyə hesabatlarını Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun;

2) qeyri - hökümət təşkilatları «Mühasibat uçotu haqqında» qanuna əsasən tələb olunan maliyyə hesabatlarını Qeyri – hökümət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edirlər.

Təqdim edilən maliyyə hesabatı təşkilatın maliyyə hesabatının tərkibində əhatə edilənləri göstərməklə müəyyən edilmiş qaydada tərtib edilmiş qoşma məktubu ilə müşayiət edilir.

Maliyyə hesabatı qarşısında qoyulan ümumi tələblər tamlıq, əhəmiyyətlilik, neytrallıq, müqayisə edilə bilmək, tutuşdurula bilməkdir.

İqtisadi təhlilin aparılması prosesində aşağıdakı informasiyadan istifadə edilir:

1) idarəetmə uçotunun məlumatları;

2) təsərrüfat-hüquq sənədləri: təsis sənədləri (nizamnamə, təsisçilərin iclasının protokolu, qeydiyyata alınma haqqında şəhadətnamə), kontraktlar və digər təsərrüfat müqavilələri, mal göndərənlərlə və alıcılarla yazışmalar, iddialar və reklamasiyalar, banklarla yazışma və müqavilələr, auditor yoxlamalarının və vergi orqanının yoxlamalarının aktları;

3) normativ hüquqi sənədlər:

- Azərbaycanınnın bütün ərazisində məcburi olan normativlərə: vergilərin dərəcələri; əsas vəsaitlərin ayrı-ayrı qrupları üzrə amortizasiya normaları; dövlət sosial və pensiya sığortası üçün tarif dərəcələri; aylıq əmək haqqının minimal ölçüsü; səhmdar cəmiyyətlərinin ehtiyat fondlarına xalis gəlirdən ayrılmaların normativləri; səhmdar cəmiyyətləri üçün nizamnamə kapitalının minimal ölçüsü və digərləri daxildir;

- Azərbaycan Respublikasının ayrı-ayrı subyektlərində qüvvədə olan və icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilən regional və yerli normativlər bir qayda olaraq, regional vergilərin və rüsumların dərəcələrini əhatə edirlər;

- ayrı-ayrı sahələr çərçivəsində yaxud müəssisələrin təşkilati - hüquqi formaları qrupları üzrə tətbiq edilən sahə normativləri, məsələn, kiçik müəssisələr üçün vergi normativləri;

- təşkilatın təsərrüfatçılıq subyektlərinin özlərinin işləyib hazırladığı və istehsal proseslərinin tənzimlənməsi üçün, habelə ehtiyatlardan səmərəli istifadə edilməsinə nəzarət məqsədilə tətbiq edilən normativlərə: dövriyyə aktivlərinə plan tələbatı normativləri, təşkilatın dövriyyəsində daim olan kreditor borcu normaları, məhsul vahidinə düşən material və əmək sərfləri normaları, anbarlarda hazır məhsul ehtiyatları, bitməmiş istehsal qalıqları normaları, xalis mənfəətdən ehtiyat fondlarına ayrılmaların normativləri, təmir fonduna ayrılmaların normativi və s.;

4) plan sənədləri: təşkilatın inkişafının perspektiv planı, biznes-plan və ona əlavə hesablamalar, təşkilatın texniki inkişafı planı, kapital qoyuluşları, təmir işləri üçün layihə-smeta sənədləri;

5) texniki sənədlər: texnoloji proseslərin layihələri, işlərin icrası qrafikləri, texnoloji xəritələr, avadanlığın texniki pasportları və s.;

6) digər informasiya: xüsusi müşahidələrin və tədqiqatların materialları (məsələn, iş gününün fotoşəkilləri və fotoşəkillərin materialları), xronometraj müşahidələrinin materialları, məhsulun və xammalın keyfiyyəti üzrə ekspert rəyləri, təşkilatın əməkdaşları ilə söhbətlərin (müsahibələrin) nəticələri.

Maliyyə hesabatları və mühasibat uçotunun məlumatları iqtisadi təhlil üçün əsas informasiya mənbələridir, çünki:

- maliyyə hesabatında və mühasibat uçotunda təşkilat haqqında ən mühüm və mötəbər məlumatlar əks edilir;
- hesabatda və uçot cədvəllərində informasiya müəyyən surətdə sistemləşdirilmişdir, qruplaşdırılmışdır;
- uçotda və hesabatda göstəricilərin müəyyən edilməsi və əks olunması metodikası birinci səviyyəli normativ sənədlərlə, Azərbaycan Respublikası Hökumətinin qərarları ilə və Maliyyə Nazirliyinin, Mərkəzi Bankın qərarları, Vergilər Nazirliyinin əmrləriləə tənzimlənmişdir.

1.8. İllik maliyyə hesabatlarında əks etdirilən analitik informasiyanın açıqlanması qaydası

Analitik informasiyanın yazılı açıqlanması barədə tələb «Mühasibat uçotu haqqında» qanunda, habelə mühasibat uçotu haqqında digər əsasnamələrdə müəyyən edilmiş və mühasibat hesabatı formalarında əks etdirilməmiş göstəricilər haqqında informasiya daxil edilməlidir. Yazılı izahatda təşkilatın fəaliyyətinin növlərinin qısa xarakteristikası, onun əsas göstəriciləri və təşkilatın maliyyə nəticələrinə və maliyyə vəziyyətinə təsir etmiş amillər, habelə illik maliyyə hesabatının nəzərdən keçirilməsinin (araşdırılmasının) yekunları və təşkilatın sərəncamında qalan mənfəətin bölüşdürülməsi üzrə qərarlar ehtiva edilməlidir.

Yazılı izahatda Müəssisə balansında və Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabatda əks etdirilən maddələrin digər aktivlər, digər debitorlar və kreditorlar, digər öhdəliklər, mənfəət və zərərlərin məzmunu açılmalıdır.

Vergi tutulması zamanı satışın həcminin, məhsulun (iş və xidmətlərin) dəyəri ödənildikcə müəyyən edilməsi metodunu tətbiq edən təşkilat, təsərrüfat fəaliyyəti aktlarının vaxt etibarı ilə müəyyənləşdirilməsinə yol verilməsinə əsaslanaraq, təqdim edilmiş vergi hesablamaları əsasında hesablanmış ödənilməli olan vergi ödənişləri haqqında məlumatlar, məhsulun (iş və xidmətlərin) satışı və mühasibat uçotunda göstərilmiş maliyyə nəticələri haqqında məlumatlar əsasında hesablanmış məlumatları ayrıca (əlahiddə) əks etdirir.

Təşkilatın fəaliyyətini səciyyələndirən əsas göstəricilərin tərkibində əsas vəsaitlərin, qeyri-material aktivlərin, maliyyə qoyuluşlarının strukturunu və vəziyyətini, məhsulun elmi - texniki səviyyəsini əks etdirən göstəricilər təqdim edilə bilər.

Qısamüddətli perspektivdə təşkilatın maliyyə vəziyyətinin qiymətləndirilməsi üçün balansın strukturunun (ödəmə qabiliyyəti əmsallarını, xüsusi dövriyyə vəsaiti ilə təmin edilməsini, ödəmə qabiliyyətinin bərpa edilməsini (itirilməsini)), qənaətbəxşliyini,

vəsaitlərin mənbələrinin strukturunu, maliyyə müstəqilliyinin səviyyəsini əks etdirən göstəricilər təqdim edilə bilər.

Ödəmə qabiliyyətini səciyyələndirən zaman banklardakı hesablarda və təşkilatın kassasında pul vəsaitlərinin olması, zərərlər, ödəniş vaxtı keçmiş debitor və kreditor borcları, vaxtında ödənilməmiş kreditlər və borclar, vergilərin büdcəyə köçürülməsinin tamlığı, büdcə qarşısında öhdəliklərin icra edilməməsinə görə ödənilmiş (ödənilməli olan) cərimə sanksiyaları kimi göstəricilərə diqqət yetirmək lazımdır. Təşkilatın qiymətli kağızlar bazarında vəziyyətini səciyyələndirmək və mövcud mənfi halların səbəblərini göstərmək də lazımdır.

Uzunmüddətli perspektivdə təşkilatın maliyyə vəziyyətini qiymətləndirən zaman vəsaitlərin strukturunu səciyyələndirmək, təşkilatın xarici investorlardan və kreditorlardan asılılığı dərəcəsini müəyyən etmək, əvvəlki illərdə və perspektivdə investisiyaların dinamikasını səmərəli qiymətləndirməklə əks etdirmək lazımdır.

Bundan əlavə, təşkilatın məhsul satışı bazarının genişliyi, o cümlədən ixrac əməliyyatlarına görə işgüzar fəaliyyətin qiyməti; təşkilatın, xüsusən, xidmətlərdən istifadə edən müştərilərin məşhurluğu ilə ifadə olunan nüfuzu; plan göstəricilərinin yerinə yetirilməsi; onlara tapşırılmış artım (azalma) templərinin təmin edilməsi dərəcəsi; təşkilatın ehtiyatlarından istifadə edilməsi səviyyəsi də göstərilə bilər. Yazılı izahata təşkilatın fəaliyyətini əks etdirən ən mühüm iqtisadi göstəricilərinin bir sıra illər üzrə dinamikası barədə məlumatları, gələcək kapital qoyuluşlarının şərhini, həyata keçirilən iqtisadi, sosial və təbiəti mühafizə tədbirlərini, habelə maliyyə hesabatının mümkün istifadəçiləri üçün maraqlı olan digər informasiyanı daxil etmək məqsədəuyğundur.

Əlavə informasiya zəruri olduğu halda analitik cədvəllər, qrafiklər və diaqramlar şəklində təqdim edilə bilər. Bundan əlavə, ayrı-ayrı analitik göstəricilərin hesablanması qaydası göstərilə bilər.

Yoxlama sualları?

1. İqtisadi təhlilin bir elm kimi təşəkkülü hansı obyektiv tələbatlarla əlaqədardır?
2. İqtisadi təhlilin məzmunu və onun əsas vəzifələri hansılardır?
3. İdarəetmənin məzmunu və onun funksiyaları hansılardır?
4. İqtisadi təhlilin idarəetmənin mühüm funksiyası kimi rolu necədir?
5. İqtisadi təhlilin predmetini nə təşkil edir və obyektləri hansılardır?
6. Azərbaycan Respublikasının Mülki məcəlləsinə uyğun olaraq kommersiya və qeyri-kommersiya təşkilatları necə səciyyələnir?
7. Kommersiya və qeyri-kommersiya təşkilatlarının hansı təşkilati - hüquqi formaları mövcuddur?
8. İqtisadi təhlilin növlərinin təsnifatının əsas əlamətləri hansılardır və həmin növlərin hər biri necə səciyyələndirilir?
9. İdarəetmə və maliyyə təhlilinin qarşılıqlı əlaqəsini necə səciyyələndirmək olar?
10. Xarici və daxili maliyyə təhlilinin əsas istiqamətləri hansılardır?
11. Maliyyə hesabatı nədir, onun tərkibi necədir və belə hesabatın hazırlanması zamanı qarşıya qoyulan əsas tələblər hansılardır?
12. İqtisadi təhlil üçün əsas informasiya mənbələri hansılardır?
13. İllik maliyyə hesabatına daxil edilən yazılı izahatın vəzifəsi və məzmunu nədən ibarətdir?

II FƏSİL

KOMPLEKS İQTİSADİ TƏHLİL SİSTEMİ VƏ ONUN TƏŞKİLİ METODOLOGİYASI

2.1. İqtisadi göstəricilər sistemi və onların müxtəlif əlamətlər üzrə tipologiyası

İstehsal və təsərrüfat prosesləri (təchizat, istehsal, satış) məcmu halda kommersiya təşkilatının istehsal - təsərrüfat fəaliyyətini təşkil edir, onlar dəqiq rəqəmlə ifadə olunmalıdır. Bu proseslərin kəmiyyət və keyfiyyət xarakteristikaları analitik göstəricilər sistemində əks etdirilir.

Analitik göstəricilər təşkilatın həm bütövlükdə, həm də ayrı - ayrı istiqamətlər üzrə fəaliyyətinin - istehsal, maliyyə və təsərrüfat proseslərinin həcmini, səviyyəsini və iqtisadi səmərəliliyini əks etdirir.

Analitik göstəricilər bilavasitə plan, uçot, hesabat informasiya mənbələrindən, habelə onların birləşməsi, dəyişilməsi və işlənməsi nəticəsində alına bilər.

Göstəricilərin məzmununu və onların rəqəmli qiymətini fərqləndirmək lazımdır.

Göstəricilərin məzmununda öyrənilən proseslərin iqtisadi mahiyyəti, *rəqəmli qiymətində isə* – onların dəqiq ölçüsü ifadə edilir. Məsələn, «Satışdan daxil olan pul» göstəricisinin məzmunu alıcılara göndərilmiş məhsulun həcmidir (yerinə yetirilmiş, sifarişçilərə təhvil verilmiş işlərin və yaxud göstərilmiş xidmətlərin həcmidir), onun rəqəmli qiyməti isə – həmin satışdan daxil olan pulun məbləği, onun dinamikası haqqında məlumatlar, planın yerinə yetirilməsi faizləri və sairdir.

Analitik göstəricilər aşağıdakı kimi təsnif edilir:

1) məzmunu üzrə;
2) ifadə edilmə üsulu üzrə;
3) istifadə dairəsi üzrə;
4) tətbiq edilməsi xarakteri üzrə.

1. Məzmunu üzrə göstəricilər iki qrupa bölünür.

Kəmiyyət göstəriciləri. Onlar təsərrüfat proseslərinin ölçüsünü və həmin proseslərdə baş verən dəyişilmələri səciyyələndirir. Belə göstəricilərə, məsələn, satışdan daxil olan pul gəlirləri, işləyənlərin sayı, maşınların, dəzgahların miqdarı və s. aiddir.

Keyfiyyət göstəriciləri. Onlar təsərrüfat proseslərinin əhəmiyyətli xüsusiyyətlərini, onların iqtisadi səmərəliliyini və məqsədəuyğunluğunu əks etdirirlər. Bu qəbildən olan göstəricilərə, məsələn, məhsulun maya dəyəri, əmək məhsuldarlığı və rentabellik göstəriciləri aiddir.

Keyfiyyət və kəmiyyət göstəriciləri ayrı - ayrılıqda öyrənilmir, çünki onlar biri-birilə qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır. Belə ki, məhsulun həcmi (kəmiyyət göstəricisi) fəhlələrin orta illik siyahı sayının (kəmiyyət göstəricisi) və bir fəhlə hesabı ilə orta illik məhsul istehsalı həcminin (keyfiyyət göstəricisi) hasili kimi təqdim edilə bilər. Digər misal: məhsul buraxılışının həcminin artması (kəmiyyət göstəricisi) digər şərtlər eyni olduqda, məhsul vahidinə düşən şərti - daimi xərclərin payının azalması hesabına maya dəyərinin (keyfiyyət göstəricisi) aşağı düşməsinə səbəb olur.

2. İfadə edilmə üsulu üzrə göstəriciləri iki qrupa bölmək olar.

2.1. Mütləq (həcmi) göstəricilər. Onlar istehsal, maliyyə və təsərrüfat proseslərinin həcmini, strukturunu və keyfiyyət xüsusiyyətlərini əks etdirir.

Mütləq göstəricilər tətbiq edilən ölçülmələrdən asılı olaraq natural, əmək, dəyər (pul) göstəricilərinə bölünür. Belə ki, məhsul buraxılışının həcmi natural (tonlar, kub metrlər, kiloqramlar, metrlər, ədədlər), əmək (norma-saatlar), pul vahidlərilə (manatla) ölçülə bilər.

Mütləq göstəricilər hesablanma qaydasından asılı olaraq intervallı, ani, orta xronoloji göstəricilər ola bilər.

Fasiləli göstəricilər müəyyən vaxt – gün, ay, rüb ərzində prosesin ölçüsünü və ya onun nəticəsini səciyyələndirir, məsələn, hesabat ilinin sentyabr ayında satışdan daxil olan pul vəsaiti.

Ani göstəricilər təsərrüfat ehtiyatlarının müəyyən tarixə ölçüsünü əks etdirir, məsələn, «Materiallar» adlı 10-cu hesab üzrə balans tarixinə qalıq.

Orta xronoloji göstəricilər müəyyən vaxt dövrü ərzində ehtiyatların orta ölçüsünü əks etdirir, məsələn, il ərzində şəxsi heyətin orta siyahı sayı, əsas fondların orta illik dəyəri.

2.2. Nisbi göstəricilər. Onlar iki qarşılıqlı əlaqəli mütləq göstəricinin bölünməsindən alınan qismət kimi müəyyən edilir və öyrənilən halların strukturunun, onların səmərəliliyinin və vaxt ərzində dəyişilməsinin intensivliyini səciyyələndirir.

Hesablamaya daxil edilən mütləq göstəricilərin xarakterindən asılı olaraq nisbi göstəricilər əmsallar, xüsusi və struktur göstəriciləri ola bilər.

Əmsallar eyni ölçülü iki mütləq göstəricinin bölünməsindən alınan qismət kimi müəyyən edilir, məsələn:

$$\text{fond verimi əmsalı} = \frac{\text{dövr ərzində satışdan daxil olan pul (netto), min man.}}{\text{dövr ərzində əsas istehsal fondlarının orta dəyəri, min man.}};$$

$$\text{material tutumu əmsalı (satışdan daxil olan pulun bir manatına düşən material xərcləri, qəpiklə);\%} = \frac{\text{dövr ərzində material xərcləri, min man.}}{\text{dövr ərzində satışdan daxil olan pul (netto), min man.}} \times 100.$$

Xüsusi göstəricilər müxtəlif ölçülü iki mütləq göstəricinin bölünməsindən alınan qismət kimi müəyyən edilir, məsələn:

$$\text{şəxsi heyətin orta siyahı sayının bir nəfərinə düşən məhsulun həsmi (orta istehsal)} = \frac{\text{dövr ərzində satışdan daxil olan pul (netto), min man.}}{\text{dövr ərzində şəxsi heyətin orta siyahı sayı nəfər}}.$$

Struktur göstəriciləri struktur komponentinin yekuna bölünməsindən alınan qismət kimi müəyyən edilir, məsələn:

$$\text{təşkilatın aktivlərinin ümumi dəyərində dövriyyə aktivlərinin xüsusi çəkisi, \%} = \frac{\text{balans tarixinə dövriyyə aktivlərinin dəyəri, min man.}}{\text{balans tarixinə təşkilatın bütün aktivlərinin dəyəri, min man.}} \times 100.$$

3. İstifadə dairəsi üzrə göstəricilər aşağıdakı kimi bölünürlər.

3.1. Milli iqtisadiyyatın bütün sahələrində təşkilatların fəaliyyətinin təhlili zamanı tətbiq edilən göstəricilər. Onlara satışdan daxil olan pul, şəxsi heyətin bir nəfərinə düşən orta istehsal, əmək haqqı fondu, balans mənfəəti, xalis mənfəət, xüsus kapitalın rentabelliyi və s. aiddir.

3.2. Sənayenin, kənd təsərrüfatının, ticarətin və s., iqtisadiyyatın digər sahələri üçün səciyyəvi olan göstəricilər. Belə ki, sənaye üçün məhsulun növü, etibarlığı, kənd təsərrüfatı üçün – taxılın nəmliyi, südün yağlılığı və s. səciyyəvidir.

4. Tətbiq edilməsi xarakteri üzrə göstəricilər aşağıdakı kimi bölünürlər.

4.1. Təsərrüfat proseslərinin xarakteristikasını əks etdirən göstəricilər. Onlar bu suallara cavab verirlər: təsərrüfat proseslərinin strukturu necədir, biznes-planın göstəriciləri hansı dərəcədə yerinə yetirilmişdir, proseslərin dinamikası necədir, onlar üzrə hansı nəticələr əldə edilmişdir?

4.2. Nail olunmuş nəticələrə təsir göstərmiş amilləri əks etdirən göstəricilər. Bu halda analitik göstəricilər istehsal, maliyyə və

təsərrüfat proseslərində bu və ya digər dəyişikliklərin hansı şərtlər və səbəblər nəticəsində baş verməsini əks etdirir.

Məsələn, satışdan daxil olan pulun dinamikasının indeksi (I_v) - təsərrüfat prosesinin xarakteristikasıdır, satışın həcminin dinamikasının indeksi (I_q) və satılmış məhsullar üzrə qiymət indeksi (I_p) - amillərdir:

$$I_v = I_q \times I_p,$$


və ya

$$\frac{\Sigma q_1 p_1}{\Sigma q_0 p_0} = \frac{\Sigma q_1 p_0}{\Sigma q_0 p_0} x \frac{\Sigma q_1 p_1}{\Sigma q_1 p_0},$$

burada q_0 - q_1 əvvəlki və hesabat dövründə realizə edilmiş məhsulların konkret növlərinin natural ifadə də miqdarıdır; p_0, p_1 - əvvəlki və hesabat dövrlərində konkret məmulatların qiymətləridir.

Bütün analitik göstəricilər qarşılıqlı əlaqəlidir və qarşılıqlı şərtlənirlər, yalnız həmin göstəricilər sistemindən istifadə etməklə iqtisadi təhlildə qarşıya qoyulmuş məqsədə nail olmaq mümkündür.

İqtisadi ədəbiyyatlarda iqtisadi göstəricilərin çoxsaylı təsnifatları və onların formalaşmasının və qarşılıqlı əlaqəsinin müxtəlif sxemlərinə rast gəlinir. Bizim nöqteyi - nəzərimizcə, A.D.Şeremetin, R.S.Sayfulinin, Y.V.Neqaşevin [30] əsərlərində kompleks təhlildə istifadə edilən iqtisadi göstəricilərin formalaşması sxemi (sxem 2.1) daha uğurludur.



Sxem 2.1. İqtisadi göstəricilərin formalaşması sxemi

İqtisadi göstəricilər sistemi 11 qrup göstəricilərdən ibarətdir. Onun əsasını istehsalın texniki-təşkili səviyyəsinin göstəriciləri (1-ci qrup) təşkil edir, onlar texnikanın və texnologiyanın səviyyəsini, texnoloji proseslərin mütərəqqiliyini, əməyin texniki və enerji təchizatını, istehsalın təmərküzləşməsi, ixtisaslaşması və kooperasiyası səviyyəsini, istehsal silsiləsinin (dövrünün) müddətini (uzunluğunu), istehsalın təşkili səviyyəsini səciyyələndirirlər.

Texniki, təşkilati və sosial şərait istehsal ehtiyatlarından: əmək vasitələrindən (2-ci qrup), əmək predmetlərindən (3-cü qrup), əmək ehtiyatlarından (4-cü qrup) istifadə edilməsinin səmərəliliyinə təsir edir.

İstehsal olunmuş və realizə edilmiş məhsulun həcmi (5-ci qrup), istehsal xərclərinin məbləği və məhsulun maya dəyəri (6-cı qrup), dövriyyədənkənar və dövriyyə aktivlərinin formalaşmasına yönəldilmiş kapitalın həcmi (7-ci qrup) istehsal ehtiyatlarından istifadənin səmərəliliyindən asılıdır.

Məhsul buraxılışının həcmi və onun maya dəyəri göstəricilərinin nisbəti əsasında mənfəətin ölçüsü və məhsulun rentabelliyi səviyyəsi (8-ci qrup) müəyyən edilir.

Məhsul buraxılışının həcmi və dövriyyədən kənar və dövriyyə aktivləri formalaşmasına yönəldilmiş kapitalın həcmi göstəricilərini müqayisə etməklə kapitaldan istifadənin səmərəliliyini (dövriyyədən kənar və dövriyyə aktivlərinin dövranı, 9-cu qrup) müəyyən etmək olar. Yuxarıda göstərilmiş doqquz qrupun göstəriciləri maliyyə nəticələrinin həcminə təsir edir ki, onların da əsasında kapitalın rentabelliyi göstəriciləri (10-cu qrup) aktivlər və onların formalaşması mənbələrinin nisbəti əsasında müəyyən edilir.

2.2. Kompleks iqtisadi təhlilin məzmunu və mərhələləri

Analitik işin müvəffəqiyyətlə həyata keçirilməsi onun təşkil edilməsinin səviyyəsindən asılıdır. Firmada daxili analitik iş bütöv və düşünülmüş sistem kimi təşkil edilməlidir. Bura istehsal və maliyyə, retrospektiv, operativ və perspektiv, kompleks və tematik təhlil, habelə digər kommersiya təşkilatlarının – rəqiblərin, mal göndərənlərin, alıcıların, borc verənlərin xarici təhlili daxil edilməlidir. *İqtisadi təhlil müxtəlif formada təşkil edilə bilər:*

- iri firmalarda – xüsusi bölmələr, maliyyə direktoru yanında qruplar (şöbələr və ya laboratoriyalar);
- orta firmalarda – maliyyə məsələləri üzrə qrup və ya heç olmazsa bir mütəxəssis (maliyyə meneceri yaxud direktorun maliyyə məsələləri üzrə müavini);
- kiçik firmalarda - baş mühasib.

Analitik tədqiqat, onun nəticələri və istehsalın idarə edilməsində onlardan istifadə olunması müəyyən prinsiplərə uyğun olmalıdır. Bu

prinsiplər analitik tədqiqat zamanı nəzərə alınmalı və təhlilin təşkili, aparılması və onun nəticələrindən əməli istifadə edilməsi zamanı mütləq yerinə yetirilməlidir.

İqtisadi təhlilin ən mühüm prinsiplərini nəzərdən keçirək [42].

1. Təhlil elmi xarakter daşımalıdır, yəni dialektik idrak nəzəriyyəsi müddəalarına əsaslanmalı, istehsalın inkişafının iqtisadi qanunlarının tələblərini nəzərə almalı, elm və texnikanın qabaqcıl nailiyyətlərinə, ən yeni iqtisadi tədqiqat metodlarına əsaslanmalıdır.

2. Təhlil kompleks olmalıdır. Tədqiqatın kompleksliliyi təşkilatın bütün struktur bölmələrinin və onun fəaliyyətinin bütün tərəflərinin əhatə edilməsini, habelə səbəb – nəticə qarşılıqlı asılılıqlarının öyrənilməsini tələb edir.

3. Təhlil sistemli yanaşma əsasında aparılmalıdır, bu zaman hər bir öyrənilən obyekt müəyyən üsulla öz aralarında və xarici mühitlə əlaqəli olan bir sıra elementlərdən ibarət mürəkkəb dinamik sistem kimi qəbul edilir. Hər obyektin öyrənilməsi bütün daxili və xarici əlaqələri, onun ayrı-ayrı elementlərinin qarşılıqlı asılılığını və qarşılıqlı tabeçiliyini nəzərə almaqla həyata keçirilməlidir.

4. Təhlil obyektiv, konkret, dəqiq olmalıdır. O, mötəbər, yoxlanılmış informasiyaya əsaslanmalı, onun çıxardığı nəticələr isə dəqiq analitik hesablamalarla əsaslandırılmalıdır.

5. Təhlil təsirli olmalıdır, istehsal və satış proseslərinə, habelə onların nəticələrinə fəal təsir etməlidir, yəni işdə olan nöqsanları, səhvləri, xətaları vaxtlı-vaxtında aşkar etməlidir ki, bu da təşkilatın rəhbərliyinə onların aradan qaldırılması üçün vaxtında lazımi tədbirlər görmək imkanı verəcəkdir.

6. Təhlil təsadüfi hallarda deyil, vaxtaşırı (sistematik) aparılmalıdır.

7. Təhlil operativ olmalıdır. Operativlik təhlilin tez və dəqiq aparılması və onun əsasında idarəetmə qərarları qəbul etmək bacarığı deməkdir.

8. Təhlil səmərəli olmalıdır, yəni onun aparılmasına çəkilən xərclər çoxdəfəli səmərə verməlidir.

Analitik iş aşağıda verilən ardıcıllıqla həyata keçirilən bir neçə mərhələlərdən yaranır:

1) təhlilin məqsədli istiqamətinin və obyektinin müəyyən edilməsi;

2) obyektlə ümumi tanışlıq və təhlilin ilk planının işlənib hazırlanması: informasiya mənbələrinin müəyyən edilməsi, təhlil metodikasının seçilməsi;

3) informasiya sistemi, onun mötəbərliyinin və keyfiyyətinin ilkin yoxlanılması;

4) informasiyanın öyrənilməsi, təhlilin konkret metodikasının tətbiqi, hesablamalar aparılması;

5) yekun vurulması: nəticələrin ümumiləşdirilməsi və onların iqtisadi interpretasiyası (şərhi), yəni yekun rəyinin tərtib edilməsi;

6) daxili ehtiyatların səfərbər edilməsinə, aşkar edilmiş nöqsanların ləğv edilməsinə və onlara gələcəkdə yol verilməməsinə yönəldilmiş idarəetmə (iqtisadi, texniki, təşkili) qərarlarının formalaşdırılması.

2.3. Təsərrüfat fəaliyyətinin təhlilinə sistemli yanaşma

«Sistemli yanaşma» termini iqtisadi təhlil elmindən xeyli əvvəl işlənmişdir. İlk öncə onu təbii elmlərdə və texnikada tətbiq etmişlər, sonralar bəzi ictimai elmlərdə və iqtisadiyyatda istifadə edilmişdir. Sistemli təhlil metodunun nəzəri əsası dialektikadır, onun ən mühüm xüsusiyyəti hadisələrin qarşılıqlı əlaqədə və inkişafda, hissənin və bütövün dialektik vəhdətində araşdırılmasından ibarətdir.

İqtisadi təzahürlərin öyrənilməsinə sistemli yanaşmanın, yəni bütöv bir təsərrüfat subyektinin iqtisadiyyatının kompleks öyrənilməsinin zəruriliyi təşkilatların tez və fasiləsiz inkişafı, onların istehsal, maliyyə və təsərrüfat fəaliyyətinin miqyaslarının artması, iqtisadi əlaqələrin mürəkkəbləşməsi, riyazi metodların, müasir kompüter texnikasının daha geniş tətbiqi, idarəetmə təcrübəsində optimallıq prinsiplərinin həyata keçirilməsi ilə izah edilməlidir.

İqtisadi təhlilə sistemli yanaşma iki aspektdə təzahür edir:

əvvəla, iqtisadi təhlilin hər bir obyekti, yəni hər bir kommersiya təşkilatı sistem kimi nəzərdən keçirilir;

ikincisi, kommersiya təşkilatının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi çoxsaylı göstəricilər sisteminin, məsələn, maya dəyəri göstəriciləri sisteminin, mənfəət göstəriciləri sisteminin, rentabellik göstəriciləri sisteminin, işgüzar fəallıq göstəriciləri sisteminin, kommersiya təşkilatının maliyyə vəziyyətini əks etdirən göstəricilər sisteminin və digərlərinin köməyilə həyata keçirilir.

Elmi nöqteyi-nəzərdən təşkilatların istehsal-təsərrüfat fəaliyyəti «xərclər-məhsullar» sistemi kimi təqdim edilə bilər.


«Xərclər – məhsullar» sistemi üç qarşılıqlı əlaqəli alt sistemdən ibarətdir:

1) ehtiyatlar;
2) istehsal prosesi;
3) hazır məhsul.

«Xərclər-məhsullar» *sisteminin girişi* aşağıdakı ehtiyatların: əsas fondların, dövriyyə vəsaitlərinin, əmək ehtiyatlarının maddi – cismi axınlarından ibarətdir. *Sistemin çıxışı* hazır məhsulun maddi - cismi axınıdır.

İstehsal prosesi sistemin girişini onun çıxışına keçirir, yəni istehsal prosesi nəticəsində ehtiyatlar hazır məhsula çevrilir.

Əmtəə-pul münasibətləri şəraitində maddi – cismi axınların hərəkəti dəyər qiymətinə malik olur, yəni istehsal ehtiyatlarının hərəkətilə yanaşı maliyyə ehtiyatlarının dövriyyəsi baş verir. Məsələn, təşkilat xammal və materiallar alır, məhsul istehsal edir, sonra isə onu, bir qayda olaraq, kreditlə satır, nəticədə debitor borcu alınır və o, bir neçə vaxtdan sonra pul vəsaitlərinə çevrilir, və ya, başqa sözlə, dövriyyə aktivlərinin dövr etməsi baş verir (sxem 2.2).



Sxem 2.2. ***Dövriyyə aktivlərinin dövr etməsi***

Kommersiya təşkilatlarının istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin öyrənilməsinə sistemli yanaşma istehsalın ayrı-ayrı elementləri haqqında informasiyanın bütöv vahid kimi formalaşması və sistemin bütövlükdə fəaliyyət prosesinin onun ayrı-ayrı elementlərinə təsiri üsullarının tədqiq edilməsindən ibarətdir.

Təşkilatın fəaliyyətinin təhlili o zaman sistemli xarakterə malik olur ki, bu halda onun bütün tərəfləri və elementləri qarşılıqlı təsirlə əhatələnir, həmin fəaliyyət məqsədyönlü bütöv vahid kimi, yəni sistem kimi nəzərdən keçirilir. Məsələn, satışın təhlilini istehsal şəraitinin təhlilindən ayrılıqda aparmaq olmaz; kommersiya təşkilatının maliyyə vəziyyətini araşdırmadan istehsalın səmərəliliyini bütövlükdə təhlil etmək mümkün deyil.

2.4. Təsərrüfat subyektlərinin istehsal və kommersiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi amillərinin və ehtiyatlarının təsnifatı

İqtisadi təhlilin ən mühüm vəzifələrindən biri, artıq qeyd edildiyi kimi, nəticə göstəricilərinin ölçüsünü şərtləndirən amillərin aşkar edilməsindən, habelə onların təsirinin istiqamətinin və ölçüsünün müəyyən edilməsindən ibarətdir.

Amillər istehsal, maliyyə və təsərrüfat proseslərinin həyata keçirildiyi şəraiti səciyyələndirən dəyişən kəmiyyətlərə, habelə təsərrüfat proseslərinin özünün və onların nəticələrinin dəyişilməsinə təsir edən səbəblərə deyilir.

Təşkilatın fəaliyyətinə və onun nəticələrinə təsir edən amillər saysız-hesabsız dərəcədə çoxdur. Təbii ki , onların hamısını nəzərə almaq mümkün deyil, buna zərurət də yoxdur. Amillərin bütün müxtəlifliyini dərk etmək üçün onların təsnifatı tərtib edilir.

Hazırda həm nəzərə alınmalı amillərin miqdarına dair, həm də onların təsnifatına dair vahid fikir yoxdur.

Müxtəlif təsnifatları qiymətləndirmək və seçilmişi əsaslandırmaq məqsədilə amillərin elmi əsaslandırılmış təsnifatının cavab verməli olduğu tələblərə istinad etmək lazımdır. Bu tələblər aşağıdakılardır:

1) amillərin siyahısı nəzəri cəhətdən əsaslandırılmış və praktiki cəhətdən məqsədəuyğun olmalıdır, yəni təhlil edilən göstəricinin artımının (azalmasının) əhəmiyyətli hissəsini şərtləndirən ən mühüm amilləri əhatə etməlidir;

2) ayrı-ayrı amillər arasında sərhəd elə müəyyən edilməlidir ki, əlahiddə amillərin təkrar hesablanması mümkünlüyü minimuma endirilsin;

3) təsnifata daxil edilən amilləri elə sistemləşdirmək lazımdır ki, nəticə göstəricisinin bütün ən əhəmiyyətli dəyişilmələri əhatə edilsin və nəzərə alınsın, eyni zamanda amillərin kəmiyyətcə müqayisə edilə bilməsi mümkünlüyü təmin edilsin.

İqtisadi ədəbiyyatlarda amillərin müxtəlif əlamətlər üzrə təsnifatına rast gəlinir, məsələn:

- müsbət və mənfi amillər;
- təşkilatın işindən aslı olan (daxili) və asılı olmayan (xarici) amillər;
- istehsalın ekstensiv və intensiv inkişafı amilləri;
- istehsal və tədavül sahəsi ilə bağlı amillər.

İstifadə edilən ehtiyatlar nöqteyi - nəzərindən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- əmək amilləri;
- əmək vasitələri və onların tətbiqinin səmərəliliyi ilə əlaqədar amillər;
- əmək predmetləri və onlardan səmərəli istifadə edilməsi ilə əlaqədar amillər.

Təsnifatın digər əlamətlərini də göstərmək olar. Kommersiya təşkilatlarının fəaliyyətinin nəticə göstəricilərini (satışdan alınan

mədaxil – netto və mənfəət, vergi tutulmaya qədər mənfəət, xalis mənfəət, aktivlərin rentabelliyi və s.) müəyyən edən amillərin vahid təsnifatı hələ hazırlanmamışdır. Xüsusi səmərəlilik göstəricilərinin: orta istehsalın, fond veriminin, dövriyyə aktivlərinin dövranının və s. səviyyəsini və dinamikasını şərtləndirən amillərə münasibətdə də belə təsnifat yoxdur.

Bununla belə yadda saxlamaq lazımdır ki, bütün amillər öz aralarında üzvi sürətdə əlaqəlidir, ona görə də onların qruplara bölünməsi və ayrılıqda öyrənilməsi iqtisadi təhlilin xeyli dərəcədə şərti, lakin zəruri üsuludur.

Vergi tutulmaya qədər mənfəətə təsir edən amillərin təsnifatına aid nümunə 2.3 sxemində təqdim edilmişdir.

«Rezerv» (ehtiyat) fransızca «reserve», azərbaycan dilində ehtiyat, (rus dilinə tərcümədə zapas) latın sözü «reservere» - azərbaycanca qorumaq, saxlamaq (rusca сберегать, сохранять) deməkdir. Bununla əlaqədar olaraq xüsusi ədəbiyyatda və iqtisadi təhlil təcrübəsində «rezervlər» termini ikili mənada işlədilir [18].

Əvvəla, təşkilatın fasiləsiz işləməsi üçün lazım olan resursların (xammalın, materialların, avadanlığın, yanacağın və s.) ehtiyatları rezervlər (ehtiyatlar) hesab edilir. Onlar əlavə ehtiyac olan hallar üçün yaradılır.

İkincisi, iqtisadi təhlil nəzəriyyəsində istehsalın səmərəliliyinin əldə edilmiş səviyyəyə nisbətən yüksəldilməsi imkanları da ehtiyatlar (rezervlər) adlanır. Buradan görünür ki, ehtiyatlar (rezervlər) həm ehtiyatlar, həm də istehsalın səmərəliliyinin yüksəldilməsi imkanları kimi – müxtəlif anlayışlardır və onların arasında dəqiq hədd olmaması terminoloji çaşqınlığa səbəb olur.

Ehtiyatların iqtisadi mahiyyəti və onların obyektiv xarakteri vaxta qənaət ümumi qanun əsasında düzgün açıla bilər. Vaxta qənaət edilməsi ictimai nöqteyi - nəzərdən canlı və maddiləşmiş əməyin azaldılmasında, yəni maddi və əmək ehtiyatlarından (resurslarından) daha səmərəli istifadə edilməsində ifadə olunur.

Beləliklə, *istehsalın səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının iqtisadi mahiyyəti* məhsul (iş və xidmətlərin) vahidinə düşən canlı və maddiləşdirilmiş əməyin azaldılması, maksimal miqdarda yüksək keyfiyyətli məhsul (iş və xidmətlər) alınması məqsədilə istehsal potensialından tam və səmərəli istifadə edilməsindən ibarətdir. Ehtiyatlar müxtəlif: məkan, zaman və digər əlamətlər üzrə təsnif edilirlər.

Məkan əlaməti üzrə təsərrüfatdaxili, sahə, regional və ümumdövlət ehtiyatlarına ayırırlar.


Təsərrüfatdaxili ehtiyatlara yalnız tədqiq edilən müəssisədə aşkar edilən və istifadə edilə bilən ehtiyatlar aiddir. Onlar ilk növbədə resursların itkisi və qeyri-məhsuldar sərf edilməsinin qarşısının alınması ilə əlaqədardır. Bu qəbildən olan itkilərə istehsalın təşkilinin və texnologiyasının aşağı səviyyəsi, təsərrüfatsızlıq və s. sayəsində iş vaxtının və material ehtiyatlarının itkiləri aiddir.

Sahə ehtiyatları – sahə səviyyəsində aşkar edilə bilən ehtiyatlardır, məsələn, yeni texnologiyaların işlənib hazırlanması, məmulatların konstruksiyasının yaxşılaşdırılması, yeni bitki növlərinin, heyvan cinslərinin yetişdirilməsi və s. Bir qayda olaraq, bu ehtiyatların müəyyən edilməsi (aşkara çıxarılması) sahə nazirliklərin, birliklərin (assosiasiyaların) səlahiyyətindədir.

Regional ehtiyatlar coğrafi rayon hüdudlarında aşkara çıxarıla və istifadə edilə bilər (yerli xammaldan və yanacaqdan, enerji ehtiyatlarından istifadə edilməsi; sahə (idarə) tabeçiliyindən asılı olmayaraq yardımçı istehsalatların mərkəzləşdirilməsi və s.).

Ümumdövlət ehtiyatlarına müxtəlif istehsal sahələrinin inkişafında uyğunsuzluğun (disproporssiyanın) aradan qaldırılmasını, mülkiyyət formalarının, milli iqtisadiyyatın idarə edilməsi sisteminin dəyişilməsini və s. aid etmək olar. Belə ehtiyatlardan istifadə edilməsi ümumdövlət idarəetmə səviyyəsində tədbirlər görülməsi yolu ilə mümkündür.

Zaman əlaməti üzrə ehtiyatlar istifadə edilməmiş, cari və perspektiv ehtiyatlara bölünürlər.



Sxem 2.3. ***Vergi tutulmasına qədər mənfəətin miqdarına təsir edən amillər***

[1] *Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəssisənin xərclərinə aid edilən vergilər və rüsumlar nəzərdə tutulur.*

İstifadə edilməmiş ehtiyatlar – biznes - plana yaxud elmin və sahə liderlərinin nailiyyətlərinə nisbətən təşkilatın fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üzrə keçən vaxt ərzində istifadə olunmamış, buraxılmış imkanlardır.

Cari ehtiyatlar deyəndə ən yaxın vaxt ərzində hesabat dövrünün (ayın, rübün, ilin) sonuna qədər həyata keçirilə bilən təsərrüfat fəaliyyəti nəticələrinin yaxşılaşdırılması imkanları başa düşülür.

Perspektiv ehtiyatlar uzun müddət üçün hesablanır. Onlardan istifadə edilməsi əhəmiyyətli investisiyalarla, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqilə, istehsalın yenidən qurulması ilə, texnologiyanın dəyişilməsilə, ixtisaslaşma və s. ilə əlaqədardır.

Yoxlama sualları?

1. Analitik göstəricilər nədir və onların təsnifatının əsas əlamətləri hansılardır?
2. Kəmiyyət və keyfiyyət göstəricilərinin, mütləq və nisbi göstəricilərin xarakteristikası necədir?
3. İqtisadi təhlilin mühüm prinsipləri hansılardır?
4. Siz analitik işin təşkilinin hansı əsas mərhələlərini bilirsiniz?
5. Təsərrüfat fəaliyyətinin təhlilinə sistemli yanaşmanın mahiyyəti nədir?
6. «Xərclər-məhsullar» sisteminin mahiyyəti nədən ibarətdir?
7. «Amil» anlayışı necə ifadə edilir və amillərin elmi əsaslandırılmış təsnifatı hansı əsas tələblərə cavab verməlidir?
8. Amillərin təsnifatının əsas əlamətləri hansılardır?
9. Ehtiyatlar (rezervlər) nədir və onların təsnifatının əsas əlamətləri hansılardır?

III FƏSİL

İQTİSADİ TƏHLİLİN METODU VƏ ONUN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

3.1. İqtisadi təhlilin kəmiyyət və keyfiyyət metodları

İqtisadi təhlil metodlarının müxtəlif təsnifatları mövcuddur. Onlar iqtisadi və maliyyə təhlili üzrə dərsliklərdə və monoqrafiyalarda şərh edilmişdir.

İqtisadi təhlil metodlarının keyfiyyət (formalaşdırılmamış) və kəmiyyət (formallaşdırılmış) metodlarına bölünməsini aparıcı təsnifatlaşdırma əlaməti hesab etmək olar [5].

Keyfiyyət (formalaşdırılmamış) metodu təsərrüfat fəaliyyətinin səbəblərinin və şərtlərinin məntiqi səviyyədə şərhinə əsaslanır. Onlar elə halda tətbiq edilir ki, öyrənmə obyekti ya həddindən artıq sadə olur, yaxud o qədər mürəkkəb olur ki, bütün qarşılıqlı əlaqələri nəzərə almaq mümkün olmur. Formallaşdırılmamış metodlardan əsas etibarilə qeyri-müəyyənlik şəraitində obyektin vəziyyətini proqnozlaşdırarkən, yəni hadisələrin inkişafının mümkün yolları haqqında informasiya olmadıqda istifadə edilir.

Formallaşdırılmamış metodlardan istifadə edərkən təhlilin nəticələrinin keyfiyyəti:

- öyrənilən halların əhatə genişliyilə;
- məlum məlumatların analitik ümumiləşdirilməsinin səviyyəsilə;
- halların (hadisələrin) və proseslərin inkişaf perspektivlərinin nəzərə alınması dərəcəsilə müəyyən edilir.

Formalaşdırılmamış metodların tətbiqi müəyyən subyektivliklə səciyyələnir, iqtisadi təhlil üzrə mütəxəssislərin intuisiyası, bilikləri və təcrübəsi böyük əhəmiyyət kəsb edir.

İqtisadi təhlilin keyfiyyət metodlarına müqayisə metodu, ekspert metodu, səviyyə proqnozlaşdırılması metodu, qərarların ardıcıl qəbul edilməsi metodu, müsahibə metodu, ssenarilər metodu, habelə ideyaların kollektiv generasiyası (beyin həmləsi) metodları və digərləri aid edilə bilər.

İqtisadi təhlilin keyfiyyət metodlarından istifadə edilməsinə misal (nümunə) olaraq konkret investisiya layihəsinin həyata keçirilməsi prosesində mümkün risklərin təsnifatını göstərmək olar. Risklərin təsnifatı risklə əlaqədar mümkün vəziyyətlərin, onların qarşısının alınması və gözlənilən mənfəətə təsiri metodlarının məntiqi dərk edilməsi əsasında qurulmuşdur (cədvəl 3.1).

Cədvəl 3.1

İnvestisiya layihəsi üzrə risklərin təsnifatı

(kabel televiziyası şəbəkəsinin təşkili)

Riskin növü	Gözlənilən mənfəətə mənfi təsiri	Risk vəziyyətlərinin qarşısının alınması və onların təsirinin azaldılması metodları
1	2	3
Hazırlıq mərhələsi		
Xidmətlərə lisenziyanın tələb olunan müddətdə alınmaması və onun dəyərinin artması	Kapital xərclərinin artması; layihənin həyata keçirilməsinin sonrakı mərhələlərinin ləngiməsi	Lisenziya alınması üçün sənədlər paketinin düzgün hazırlanması
Magistral kanalların yaşayış evlərindən uzaqlığı	Xidmətlərdən potensial istifadəçilər dairəsinin daralması	Şəhərin magistral kanallarının yerləşməsinin öyrənilməsi və məqsədli reklam kampaniyası aparılması
Yerli hakimiyyət nümayəndələrinin münasibəti	Yaşayış evində evdaxili şəbəkənin çəkilməsi üzrə quraşdırma işləri üçün icazə alınması ilə əlaqədar problemlər	Texniki-iqtisadi əsaslandırılmanın diqqətli işlənib hazırlanması
Alternativ iş icraçılarının olması	Optik lifli kanalın çəkilməsinin dəyərinin artması təhlükəsi	Gözlənilməmiş xərclərin ödənilməsi üçün ehtiyat fondunun yaradılması

Cədvəl 3.1 –in davamı

Tikinti-quraşdırma briqadasının ixtisaslaşması	Obyektlərdə tikinti-quraşdırma işlərinin keyfiyyətsiz yerinə yetirilməsi riski	Quraşdırma briqadasının vaxtında düzgün seçilməsi və işə cəlb edilməsi
İşlərin və alınan avadanlığın dəyərinin yüksəlməsi	Kapital xərclərinin artması	Ehtiyat fondunun yaradılması
İşlərin və avadanlığın dəyərinin smetaya uyğun olmaması	Kapital xərclərinin artması	Maliyyə planının peşəkarlıqla tərtib edilməsi
Avadanlığın işində gözlənilməyən pozulmaların baş verməsi riski	Pozulmaların aradan qaldırılmasına əlavə xərclər	Tədbirlər planına mümkün ola bilən «ştatdan kənar» vəziyyətlər üzrə pilot layihəsinin daxil edilməsi
Fəaliyyət mərhələsi		
Xidmətlərin keyfiyyətinin aşağı olması	Müştərilərin sayının azalması	Provayderin düzgün seçilməsi. İnternet
Quraşdırılmış avadanlığın keyfiyyətinin aşağı olması	Zəruri informasiyanın miqdarının, müştərilərin sayının azalması, avadanlığın təmirinə əlavə xərclər	Avadanlığın seçilməsinin peşəkarlıqla həyata keçirilməsi
Quraşdırılmış avadanlığın vaxtından əvvəl mənəvi köhnəlməsi	Xidmətlərin keyfiyyətinin aşağı düşməsi, müştərilərin daha müasir provayderlərə üz tutması	Avadanlıq alınmasına peşəkarlıqla yanaşma
İcarə qiymətinin artması	Satışın rentabelliyinin azalması	Ehtiyat fondlarının yaradılması, digər mövqelər üzrə xərclərin azaldılması imkanlarının axtarılıb tapılması
Əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi	Satışdan alınan pul gəlirinin azalması	Orijinal reklam kampaniyalarının hazırlanması, daimi marketinq tədqiqatların aparılması, nadir informasiya xidmətlərinin göstərilməsi, xidmətlərin geniş dairəsi, ödənişsiz məsləhət xidmətinin göstərilməsi

Cədvəl 3.1 –in davamı

Alternativ xidmətlərin meydana çıxması	Təşəbbüsün digər ələ keçməsi	Xidmətlər bazarının daimi monitorinqi
Layihənin bütün mərhələlərinin həyata keçirilməsi prosesində səciyyəvi risklər		
Vergi qanunvericiliyinin dəyişilməsi	Vergi dərəcələrinin artırılması	Vergilərin peşəkarlıqla planlaşdırılması; ixtisaslı mühasibat və hüquq xidmətinin göstərilməsi
İqtisadi şəraitin dəyişilməsi	İnflyasiya	İnflyasiya nəzərə alınmaqla möhkəm pul vahidlərilə planlaşdırılması, yaxud fəaliyyətin diskont edilməsinin tətbiqi
Xalis risk	Fövqəladə halların baş verməsindən dəyən zərərlər	Əmlakın sığortalanması

Kəmiyyət metodları – elə metodlardır ki, onların əsasında kifayət qədər ciddi formalaşdırılmış asılılıqlar durur, yəni təhlil edilən göstəricilərin və onları müəyyən edən amillərin qarşılıqlı əlaqəsi düsturların köməyilə ifadə edilir. Belə metodlara riyazi modelləşdirmə metodları, iqtisadi - statistika metodları, indeks metodu, zəncirvari yerdəyişmə metodu, inteqral metod, amillərin tədric edilmiş təsirinin aşkar edilməsi metodu və s. aiddir. İqtisadi təhlilin kəmiyyət metodlarının tətbiqinin mahiyyəti və qaydası 3.3-3.9 paraqraflarında nəzərdən keçirilir.

3.2. İqtisadi təhlilin metodu və metodikası anlayışı

İqtisadi təhlilin metodikası təsərrüfat proseslərinin və onların nəticələrinin tədqiqatının xüsusi yollarının və üsullarının məcmusudur. İqtisadi təhlil metodikasının əsas üsulları və metodları aşağıdakılardır:

- iqtisadi proseslərin ölçülməsi üçün göstəricilər sisteminin işlənib hazırlanması (2.1-ə baxın);

- müqayisə;
- detallaşdırma və qruplaşdırma;
- istehsal, maliyyə və təsərrüfat proseslərinin qarşılıqlı əlaqədə və vəhdətdə öyrənilməsi;
- kənarlaşdırma, təcrid etmə;
- təhlilin nəticələrinin ümumiləşdirilməsi.

Bəzi iqtisadçılar iqtisadi təhlilin daha bir neçə üsulunu qeyd edirlər: zəncirvari yerdəyişmə üsulu, pay iştirakı üsulu, zəif cəhətlərin və aparıcı hissələrin aşkara çıxarılması üsulu, balans metodu, qrafika metodu, iqtisadi-riyazi metodlar və s. Bizim fikirmizcə, göstərilən üsullar ya iqtisadi təhlilin yuxarıda adları çəkilən əsas üsullarının törəməsidir, yaxud digər elmlərə, məsələn, statistikaya, riyaziyyata mənsubdur.

İqtisadi təhlilin metodikasının ümumi və xüsusi metodikalara bölünməsi qəbul edilmişdir. Yuxarıda adları çəkilən üsullar *ümumi metodikaya* aiddir. Onlar müxtəlif təsərrüfat proseslərinin öyrənilməsində, müxtəlif təşkilatların fəaliyyətinin, habelə milli iqtisadiyyatın istənilən sahəsinin vəziyyətinin araşdırılmasında tətbiq edilir.

Təhlilin *xüsusi metodikası* daha konkretdir, o, müəyyən təsərrüfat proseslərinin öyrənilməsi üçün tətbiq edilən tədqiqat üsullarının məcmusudur. Məsələn, təhlilin xüsusi metodikası konkret təsərrüfat prosesinin səciyyələndirilməsi üçün tətbiq edilərək, iqtisadi göstəricilərin lazımi informasiya mənbələrini, toplanmış məlumatların işlənilməsi qaydasını, aparılacaq hesablamaların, təhlilin yekunu üzrə çıxarılacaq nəticəni müəyyən etmək imkanı yaradır.

İqtisadi təhlil zamanı digər elmlərdən götürülmüş üsullar və metodlar da tətbiq edilir. İqtisadi təhlil onları öz predmetinin öyrənilməsinə uyğunlaşdırır. Belə ki, təşkilatın fəaliyyətinin səmərəliliyi təhlil edilən zaman aşağıdakı statistik üsullardan istifadə edilir: indeks metodu, nisbi və orta kəmiyyət metodu, kombinasiya edilmiş cədvəllərin tərtib edilməsi, təhlilin nəticələrinin qrafiklər və

diaqramlar şəklində təqdim edilməsi, seçmə metodu, variasiya göstəricilərinin hesablanması və s.

Son illər iqtisadi təhlildə tətbiqi riyaziyyat üsullarından geniş istifadə edilir. Bu, qarşılıqlı təsir edən amillər arasında əlaqələrin ölçülməsi imkanlarını genişləndirir və onların istehsalın səmərəliliyinə təsirini müəyyən etmək imkanı yaradır. Təhlil edilən zaman istifadə edilən əsas iqtisadi-riyazi metodlar korrelyasiya və reqressiya, xətti proqramlaşdırma, iqtisadi - riyazi modelləşdirmə, şəbəkə qrafiklərinin qurulması və digərləridir.

İqtisadi təhlilin bütün üsulları qarşılıqlı əlaqəlidir və eyni zamanda müxtəlif birləşmələrlə tətbiq edilir. Bu, kommersiya təşkilatının fəaliyyətini dərin və kompleksli təhlil etmək və onun səmərəliliyinin mümkün qədər yüksəldilməsi ehtiyatlarını aşkar etmək imkanı yaradır.

3.2.1. Müqayisə üsulu

Müqayisə – iqtisadi təhlilin çox mühüm üsuludur. Müqayisə bazası plan göstəriciləri, layihə məlumatları, normativlər, əvvəlki dövrlərin göstəriciləri, analoji obyektlərin göstəriciləri, orta sahə göstəriciləri ola bilər.

Təhlil məhz müqayisədən başlanır. Təşkilatın fəaliyyətinin nəticələrinin necə olması sualına cavab vermək üçün onun öz istehsal imkanlarından necə istifadə etməsini və biznes-planı əsas göstəricilər üzrə necə yerinə yetirməsini bilmək, yəni əldə edilmiş nəticələri istehsal gücü ilə, satışın həcmi, mənfəətin məbləği, rentabellik səviyyəsi üzrə plan göstəricilərilə müqayisə etmək lazımdır.

Texnoloji prosesin xarakteristikası faktiki texnoloji parametrlərin texnoloji təlimatlarla müəyyən edilmiş parametrlərlə müqayisə edilməsi yolu ilə verilir.

Ayrı-ayrı xammal növləri üzrə faktiki sərf əmsalları, ayrı-ayrı məmulatların hazırlanmasına və ya konkret əməliyyatların həyata keçirilməsinə həqiqi əmək məsrəfləri normativ göstəriciləri ilə müqayisə edilir.

İqtisadi təhlildə aşağıdakı müqayisə növləri ən çox yayılmışdır:

• hesabat və plan göstəricilərinin müqayisəsi. Biznes-plan kommersiya təşkilatının təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi üçün mühüm meyardır.

• plan göstəricilərinin əvvəlki dövrün göstəricilərilə müqayisəsi. Bu, plan tapşırıqlarının optimallığını, biznes-planın keyfiyyətini müəyyən etmək imkanı yaradır.

• hesabat göstəricilərinin əvvəlki dövrlərin göstəricilərilə müqayisəsi. Bu, iqtisadi göstəricilərin dinamikasını qiymətləndirməyə, kommersiya təşkilatının inkişaf meyllərini müəyyən etməyə imkan verir.

• hesabat dövrünün plan və faktiki göstəricilərinin normativlərlə müqayisəsi. Bu, təşkilatın təsərrüfat fəaliyyətinin nəticələrinin obyektiv qiymətləndirilməsi və istifadə olunmamuş ehtiyatların aşkar edilməsi imkanını təmin edir.

• kommersiya təşkilatının daxili struktur bölmələri üzrə göstəricilərin müqayisəsi.

• təşkilatın göstəricilərinin Azərbaycanda və sabit bazar iqtisadiyyatı olan ölkələrdə analoji müəssisələrin göstəricilərilə müqayisəsi.

Müqayisənin nəticələri mütləq, bazis göstəricilərinə faiz ifadəsində indeks şəklində fərqlənmələr kimi təqdim edilir. Müqayisənin nəticələrini obyektiv qiymətləndirmək üçün müqayisə edilən göstəriciləri müqayisə olunan səviyyəyə (tutuşdurula bilən) gətirmək lazımdır.

Göstəricilərin müqayisə olunan (tutuşdurula bilən) hala gətirilməsinin əsas üsullarına aşağıdakılar aiddir:

1) qiymətlərin dəyişilməsinin təsirinin aradan qaldırılması. Bu məqsədlə müqayisə edilən həcm göstəriciləri eyni qiymətlərlə ifadə olunur. Məsələn, əvvəlki və hesabat dövrləri üzrə satışın faktiki həcmi vahid qiymətdə, yəni hesabat dövrünün qiymətində ifadə edilir;

2) keyfiyyət göstəriciləri müqayisə edilən zaman məhsulun həcmində və çeşidində fərqlərin təsirinin aradan qaldırılması. Bu,

keyfiyyət göstəricilərinin məhsulun eyni həcminə və çeşidində görə yenidən hesablanması yolu ilə əldə edilir;

3) müqayisə edilən göstəricilərin eyni hesablanma metodikasına gətirilməsi. Ayrı-ayrı göstəricilərin hesablanması metodikasını nizama salan təlimatlar sistematik olaraq dəyişilir. Belə hallarda göstəricilərin müqayisəliliyinin təmin edilməsi üçün əvvəlki metodika üzrə hesablanmış göstəricilər hesabat dövrünün metodikası üzrə yenidən hesablanır;

4) müqayisə edilən vaxt dövrələrinin eyniliyi.

İqtisadi təhlilin praktikasında sahənin xüsusiyyətlərindən asılı olaraq göstəricilərin müqayisə olunan səviyyəyə gətirilməsinin digər üsullarından (məsələn, mövsümi xüsusiyyətlərin, ərazi fərqlənmələrinin aradan qaldırılması və s.) da istifadə edilir. Qeyd etmək lazımdır ki, yuxarıda göstərilmiş üsullar onların ən mühümləridir.

3.2.2. Detallaşdırma və qruplaşdırma üsulu

Kommersiya təşkilatının uçot siyahılarında (reyestrlərində) və hesabat materiallarında təqdim olunan göstəricilər, bir qayda olaraq, ayrı-ayrı təsərrüfat faktlarının qruplaşdırılmasının və ümumiləşdirilməsinin nəticəsindən ibarətdir. *Detallaşdırma* tədqiqatın dərinliyini, onun hərtərəfli xarakterini, öyrənilən proseslərin dərk edilməsinin konkretliyini təmin edir, son nəticələrə təsir edən səbəbləri aydınlaşdırmağa imkan verir.

Öyrənilən göstəricilərin detallaşdırılması bir çox istiqamətlər üzrə: əməliyyatların aparılması vaxtına və yerinə, tərkib hissələrinə görə, habelə əldə olunmuş nəticələri şərtləndirən amillər üzrə həyata keçirilə bilər.

Vaxt üzrə detallaşdırma: illik göstəricilərin detallaşdırılması rüblər üzrə, rüblük göstəricilərin – aylar üzrə, aylıq göstəricilərin – ongünlüklər və ya beşgünlüklər üzrə, ongünlüklər və ya beşgünlüklər daxilində – iş günləri, növbələri, saatları üzrə həyata keçirilir. Belə detallaşdırma ayrı-ayrı proseslərin ahəngdarlığına, məsələn, məhsulun buraxılışı və göndərilməsinin, xammal və materialların müntəzəm

daxil olması nəzarət etmək, habelə proseslərin dinamikasında meylləri aşkar etmək imkanı yaradır.

Təsərrüfat proseslərinin həyata keçirilməsi yeri üzrə detallaşdırma: sahə göstəricilərinin təşkilatlar üzrə, təşkilatlar daxilində – ayrı-ayrı struktur bölmələri üzrə bölüşdürülməsi. Belə detallaşdırma aparıcı və geridə qalan bölmələri aşkar etmək, onların fəaliyyətinin nəticələrini qiymətləndirmək imkanı verir.

Göstəricilərin tərkib hissələri üzrə detallaşdırılması məcmuların strukturunun öyrənilməsi, mürəkkəb göstəricilərin formalaşmasında və dəyişilməsində ayrı-ayrı hissələrin rolunu aydınlaşdırmaq üçün lazımdır. Belə ki, realizə edilmiş məhsulun maya dəyəri:

- kalkulyasiya maddələri;
- mənimsənilmiş və yeni məhsullar;
- ən mühüm məhsul növləri üzrə detallaşdırılır.

Ehtiyatlardan (əmək, material ehtiyatlarından, əsas istehsal fondlarından) istifadə edilməsinin səmərəliliyini təhlil edən zaman ehtiyatların ayrı-ayrı növlərinin məhsul buraxılışının həcmi ilə qarşılıqlı əlaqəsinin xarakteri üzrə detallaşdırılması böyük əhəmiyyət kəsb edir. Ehtiyatların (vəsaitlərin) dəyişən və şərti - sabit hissələrinin onların həmin növünün məcmusundan istifadə edilməsinin ümumi göstəricisinə təsirini müəyyən etmək lazımdır. Belə ki, təşkilatın şəxsi heyətinin bir nəfərinə düşən orta istehsalın səviyyəsini və dinamikasını təhlil etdikdə bir işçinin orta istehsalının və şəxsi heyətin sayının dəyişilməsinin məhsulun həcminin dəyişilməsinə təsirini aydınlaşdırmaq zərurəti yaranır. Əsas istehsal fondlarının fond verimi səviyyəsi təhlil edildikdə əsas fondların aktiv hissəsinin fond verimi səviyyəsinin və onların passiv hissəsinin ölçüsünün dəyişilməsinə münasibətdə ayrılıqda təsirini qiymətləndirmək məqsədəuyğundur.

Göstəricilərin ardıcıl detallaşdırılması onların analitik olaraq ardıcıl öyrənilməsi üsuludur. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, ilkin detallaşdırma zamanı müəyyən edilmiş göstəricilər sonrakı detallaşdırmaya məruz qalır, yeni göstəricilər aşkar edildikdə onlar da öz növbəsində detallaşdırılır və b.

Qruplaşdırma üsulu iqtisadi təhlildə geniş yayılan üsullardan biridir. Qruplaşdırma üsulunun statistikada və təhlildə tətbiqi arasında əhəmiyyətli fərq vardır. Belə ki, onlar statistikada öyrənilən məcmuları obyektiv səciyyələndirən, elmi əsaslandırılmış orta kəmiyyətlərin alınması şərtidir, yəni qruplaşdırma hadisələrin ümumiləşdirilməsi və tipləşdirilməsi üçün istifadə edilir. İqtisadi təhlildə, əksinə, orta kəmiyyətlərin məzmununun açılması, ayrı-ayrı vahidlərin həmin orta kəmiyyətlərə təsirinin aydınlaşdırılması üçün tətbiq edilir.

İqtisadi təhlildə əmək ehtiyatlarından, əsas istehsal fondlarından, material və maliyyə ehtiyatlarından istifadə edilməsilə əlaqədar amillər üzrə qruplaşdırmalar daha çox tətbiq edilir.

Digər əlamətlər üzrə amillərin qruplaşdırılması da tətbiq olunur. Məsələn, amillər kəmiyyət və keyfiyyət, xarici və daxili, təhlil edilən obyektdən asılı olan və asılı olmayan, əsas və ikinci dərəcəli və s. amillərə bölünür.

3.2.3. İstehsal, maliyyə və təsərrüfat proseslərinin qarşılıqlı əlaqədə və vəhdətdə öyrənilməsi metodu

İstehsal, maliyyə və təsərrüfat proseslərinin qarşılıqlı əlaqəli öyrənilməsi iqtisadi təhlilin çox mühüm üsuludur.

İqtisadi təhlilin qarşılıqlı əlaqəli, kompleks aparılması istehsal, maliyyə və təsərrüfat proseslərinin gedişinə və nəticələrinə təsir göstərən əsas amilləri meydana çıxartmaq və düzgün qruplaşdırmaq imkanı verir.

Qarşılıqlı əlaqəli öyrənmə:

əvvəla, göstəricilər arasında asılılıqların aşkar edilməsini;

ikincisi, asılılıqların xarakterinin müəyyən edilməsini;

üçüncüsü, nəticə göstəricisinin və onu şərtləndirən amillərin əlaqəsi sxeminin müəyyən edilməsini əhatə edir.

Qarşılıqlı əlaqələri öyrənən zaman onların iki əsas növünü: determinləşdirilmiş və ehtimal olunan (korrelyasiyalı) əlaqələri ayırırlar.

Determinləşdirilmiş əlaqələr səbəb və nəticə arasında müəyyən uyğunluğun olması ilə səciyyələnir. Amilin hər kəmiyyətinə nəticənin bir və ya bir neçə tam konkret kəmiyyəti uyğun gəlir, ona görə də amilin müəyyən qədər dəyişildiyi halda nəticə göstəricisinin nə qədər dəyişiləcəyini dəqiq hesablamaq olar. Məsələn, işlənmiş vaxt və vaxtamuzd işləyən işçinin tarif əmək haqqı arasındakı asılılıq determinləşdirilmişdir.

Lakin əks hallarda istehsal, maliyyə və təsərrüfat proseslərinin nəticələri eyni zamanda və daha çox əks istiqamətdə təsir edən çoxsaylı səbəblərin təsiri altında yaranır. Bu zaman nəticə göstəricisinin kəmiyyətinə hər səbəbin nə dərəcədə təsir etməsi dəqiq məlum olmur. Belə əlaqələr *ehtimal olunan (korrelyasiyalı) əlaqələr* adlanır. Ehtimal olunan əlaqələr zamanı səbəb və nəticə arasında dəqiq uyğunluq olmur, lakin müəyyən nisbət müşahidə edilir. Məsələn, işçilərin iş stajı və əmək haqqının səviyyəsi arasında müəyyən nisbət olur. Əksər hallarda iş stajı çox olduqca orta əmək haqqı yüksək olur. Lakin bu asılılıq heç də bütün hallarda təzahür etmir, bir sıra amillər (işçilərin ixtisası, təşkilatın sahə mənsubiyyəti, onun yerləşdiyi yer, avadanlığın vəziyyəti, alətlərlə təminat, materialların keyfiyyəti və s.) vardır ki, onların təsiri altında müxtəlif işçilərin stajı və əmək haqqının artım səviyyəsi müxtəlifdir.

Bundan savayı, elə hallar da mümkündür ki, bir təşkilatda işçi (fəhlə) az stajı olmasına baxmayaraq digər təşkilatda işləyən işçidən (fəhlədən) daha çox əmək haqqı alır.

Ehtimal olunan (korrelyasiyalı) əlaqələrdə korrelyasiya təhlili üsullarından istifadə edilir. Korrelyasiya üsulunun müvəffəqiyyətlə tətbiqinin mühüm şərti tədqiq edilən halların real qarşılıqlı əlaqələrini aşkar etmək imkanı yaradan ilk keyfiyyətli iqtisadi təhlilin aparılmasından ibarətdir.

Təhlildə qoşa və çoxsaylı korrelyasiyadan istifadə edəndə riyazi statistikanın seçimin ölçüsünə, seçilmiş məcmunun keyfiyyətcə bircinsli olmasına və seçimin mötəbərliyini təmin edən digər məqamlara riayət edilməlidir.

3.2.4. Kənarlaşdırma, təcrid etmə üsulu

İqtisadi təhlil prosesində nəinki nəticə göstəricisinə təsir göstərən amillərin miqdarını aydınlaşdırmaq, həm də onların hər birinin nəticənin dəyişilməsinə təsirinin kəmiyyətini müəyyən etmək lazımdır.

Tədqiqat prosesində amillərdən hansının daha əhəmiyyətli, hansının ikinci dərəcəli olması, yəni onların nəticə göstəricisinin dəyişilməsində çox və ya az əhəmiyyəti olması müəyyən edilir.

Müxtəlif amillərin təsiri müxtəlifdir: təşkilatın fəaliyyətinin nəticələrinə bəziləri müsbət, digərləri isə – mənfi təsir göstərir. Bununla belə bir qisim amillərin təsiri o birilərinin təsirilə neytrallaşdırıla bilər. Bununla əlaqədar hər amilin nəticə göstəricisinin dəyişilməsinə təsirinin kəmiyyətcə ölçülməsi zərurəti yaranır.

Bu vəzifənin yerinə yetirilməsi üçün iqtisadi təhlil metodikasının elementlərindən biri olan kənarlaşdırma, təcrid etmə üsulundan istifadə edilir.

Kənarlaşdırma, təcrid etmə məntiqi üsuldur, onun köməyilə bir sıra amillərin təsiri aradan qaldırılır (kənarlaşdırılır) və öyrənmə obyekti olan hər-hansı bir amil seçilir.

Kənarlaşdırma, təcrid etmə o hallarda tətbiq edilir ki, nəticə göstəricisi və onu müəyyən edən amillər arasında qarşılıqlı əlaqə multiplikativ (ardıcıl), bölünən (dəfəli) və ya kombinasiya edilmiş modellə ifadə edilir.

Kənarlaşdırma, təcrid etmə müxtəlif metodlarla həyata keçirilə bilər. Onlardan ən mühümləri zəncirvari yerdəyişmə metodu, indeks metodu, amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodu, inteqral metod, loqarifmik metoddur.

Hazırda iqtisadi təhlilin inkişaf etdirilməsi sahəsində tədqiqatlar aparmış müəlliflər təhlilin tövsiyə edilən metodikalarının və üsullarının nəzəri əsaslanmasına kifayət qədər diqqət ayırmırlar. Əksinə, 1950-1960-cı illərdə sovet iqtisadçılarının əsərlərində

kənarlaşdırma, təcrid etmə metodu geniş yayılmışdı və elmi cəhətdən əsaslandırılırdı[2, 4, 7, 8, 9, 10].

Müasir dərsliklərdə və monoqrafiyalarda iqtisadi təhlilin metodikalarının şərh edilməsi zamanı onların tədqiqatın əsas prinsiplərini müəyyən edən elementləri və təhlilin hesablamalar aparmaq imkanı yaradan texniki üsulları arasında dəqiq hədd yoxdur. Metodikanın bəzi elementləri: detallaşdırma, qarşılıqlı əlaqəli öyrənmə, ümumiləşdirmə ədalətsiz olaraq unudulmuşdur. Təhlil metodikasının ayrı - ayrı elementlərini şərh edən zaman bəzi müəlliflər kənarlaşdırmanı (eliminasiya etməni) zəncirvari yerdəyişmə metodu ilə eyniləşdirirlər. Bunun nəticəsində ayrı - ayrı amillərin nəticə göstəricisinin kəmiyyətcə dəyişilməsinə təsirini qiymətləndirən üsulu kimi təqdim edilir. Bununla belə kənarlaşdırma, təcrid etmə zamanı hesablamaların əsasında iki prinsip:

1) amillərin ardıcıl dəyişilməsi prinsipi;

2) amillərin eyni zamanda dəyişilməsi prinsipi qoyula bilər.

Birinci prinsip:

- amillər üzrə təhlilin indeks metodu;
- zəncirvari yerdəyişmələr metodu uyğundur.

İkinci prinsipə:

- inteqral metod;
- amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodu uyğun gəlir.

İndeks metodu və zəncirvari yerdəyişmə metodu tətbiq edildikdə hesablamada birinci növbədə dəyişiləcək amilin təsiri qalan amillərin bazis qiymətləri şəraitində müəyyən edilir, ikinci növbədə dəyişilməsi nəzərdə tutulan amilin təsiri birinci amilin hesabat dövründə və qalan amillərin bazis dövrünün qiymətlərinə əsaslanaraq qiymətləndirilir və s. Dəyişilməsi son növbədə baş verəcəyi nəzərdə tutulan amilin təsiri isə bütün əvvəlki amillərin hesabat qiymətlərinə əsaslanaraq müəyyən edilir.

İndeks və zəncirvari yerdəyişmə metodu nəticə göstəricisinin amillər üzrə təhlilinin müxtəlif variantlarını əks etdirir. Rəsmiyyət nöqteyi-nəzərdən onların bütün variantları bərabər hüquqludur.

Lakin nəticə göstəricisinin dəyişilməsi kəmiyyətinin onu təşkil edən amillərə bölünməsi müxtəlif variantlar üzrə eyni deyil. Amillərin modeldə yerləşdirilməsi qaydasından asılı olaraq eyni amilin rolu barədə suala bir neçə müxtəlif cavab ola bilər. Amillərin sıralanmasının müəyyən sxeminin seçilməsi onların dəyişilməsi ardıcıllığının seçilməsinə çevrilir.

İnteqral metod o halda tətbiq edilir ki, nəticə göstəricisi bir neçə arqumentin funksiyası kimi təqdim edilə bilir. Arqumentlərin dəyişilməsindən asılı olaraq funksiyanın dəyişilməsi müvafiq inteqral tənliklərlə təsvir olunur.

İnteqral metodundan istifadə edilməsi modeldə amillərin yerləşmə qaydasından asılı olmayaraq hesablamalarda nəticə göstəricisinin dəyişilməsinə amillərin təsirinin birmənalı nəticələrini almaq imkanı yaradır.

Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodunun mahiyyəti ondan ibarətdir ki, nəticə göstəricisinin dəyişilməsinə hər amilin təsiri modeldəki qalan amillərin bazis qiymətləri şəraitində müəyyən edilir, yəni bütün amillərə eyni hesablanma qaydası tətbiq edilir və onların nəticələri multiplikativ modeldə amillərin yerləşməsindən asılı olmur. Bu metodun çatışmamazlığı ondan ibarətdir ki, amillərin təsirinin cəmi nəticə göstəricisinin dəyişilməsinin miqdarına bərabər deyil, yəni «bölüşdürülməmiş qalıq» yaranır və o, amillər üzrə onların təcrid edilmiş təsirinin ölçüsünə mütənasib bölüşdürülür.

3.2.5. Ümumiləşdirmə metodu

İqtisadi təhlilin nəticələrinin ümumiləşdirilməsi – kommersiya təşkilatının maliyyə-təsərrüfat fəaliyyətinin öyrənilməsinin tamamlayıcı mərhələsidir. O, xülasələri, ehtiyatlar haqqında məlumatı və onlardan istifadə edilməsi üzrə tövsiyələri əhatə edir.

Xülasələr (nəticələr), bir qayda olaraq, kommersiya təşkilatının fəaliyyətinin qiymətləndirilməsini ehtiva edir, onlarda ən mühüm nailiyyətlər və nöqsanlar qeyd edilir. Xülasələrdə cədvəllər, qrafiklər, diaqramlar təqdim edilə bilər. Ümumiləşdirmə zamanı təşkilatın ayrı-

ayrı bölmələrinin və icraçıların fəaliyyətinin yekunları arasında əlaqə açıqlanır, habelə bütövlükdə kommersiya tçəşkilatının fəaliyyətinin ümumi nəticələrinə onların təsiri dərəcəsi müəyyən edilir.

Xülasədə istehsalın səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin təhlili gedişində aşkar edilmiş *istifadə olunmamış ehtiyatlar barədə məlumat* tərtib edilməlidir. Təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ehtiyatlarını iki böyük qrupa: aşkar (aydın) və gizli ehtiyatlara bölmək olar.

Aşkar ehtiyatlar yol verilmiş israfların, səmərəsiz xərclərin, iş vaxtı itgilərinin, avadanlıqlar üzrə boşdayanmaların, plandan artıq xammal və material tullantılarının, istehsalda zay məhsulun və s. aradan qaldırılması və ya qarşısının alınması şərtilə hərəkətə gətirilə bilər.

Gizli ehtiyatlar istehsalın texnikasının və texnologiyasının təkimlləşdirilməsi, plan tapşırıqlarının gərginliyinin yüksəldilməsi, sahə liderləri olan müəssisələrin təcrübəsindən istifadə edilməsi ilə əlaqədardır.

Ehtiyatları hesablayan zaman təkrar (yaxud çoxdəfəli) hesaba alınmalara yol verilməməlidir. Eyni amillər təsərrüfat fəaliyyətinin müxtəlif tərəflərinə təsir edirlər. Belə ki, istehsalda zay məhsul eyni zamanda əmək məhsuldarlığının səviyyəsinə də, fond veriminin səviyyəsinə də, material ehtiyatlarından istifadə edilməsinin səmərəliliyinə də mənfi təsir edir. Zay məhsula yol verilməməsi və ya onun azaldılması hesabına istehsalın həcminin artırılması ehtiyatlarını hesablayanda bütün üç amil üzrə ehtiyatları cəmləmək olmaz, bu halda üçqat hesab alınır. İstehsal prosesinin bütün üç amilləri:

- əmək resurslarından səmərəli istifadə edilməsi ilə əlaqədar amilləri;
- əsas fondların mövcudluğu və onlardan səmərəli istifadə edilməsi ilə əlaqədar olan amilləri;
- material ehtiyatlarının mövcudluğu və onlardan səmərəli istifadə edilməsi ilə əlaqədar olan amillər qrupu üzrə müəyyən etmək lazımdır.

Aşkar edilmiş ehtiyatların səfərbər edilməsi təhlil nəticəsində hazırlanmış təkliflər üzrə müəyyən tədbirlərin həyata keçirilməsini tələb edir. Nəzərdə tutulan təşkilati - texniki tədbirlər təşkilatın fəaliyyətinin səmərəliliyinin təhlili zamanı aşkar edilmiş ehtiyatlardan istifadə edilməsi üzrə tövsiyyələrdir.

3.3. Statistik, iqtisadi-riyazi təhlil metodları və üsulları

İqtisadi təhlildə aşağıdakı *statistik metodlardan* istifadə edilir:

1) iqtisadi göstəricilərin müəyyən əlamətlər üzrə qruplaşdırılması;
2) mütləq və nisbi göstəricilər (əmsallar, faizlər);
3) orta kəmiyyətlər: sadə, orta çəkili, xronoloji, orta hesabi (arifmetik) kəmiyyətlər;
4) indeks;
5) mütləq artım, artım tempi, inkişaf (artma) tempi və s. göstəricilərlə səciyyələnən dinamika sıraları;
6) statistik müşahidələr;
7) qrafik metodu.

Planlaşdırmada və iqtisadi təhlildə statistik metodlarla yanaşı *iqtisadi-riyazi metodlar* geniş tətbiq edilir. Onların əsasını ali riyaziyyat və riyazi statistika elementləri təşkil edir. Bura korrelyasiya və reqressiya təhlili, differensial və inteqral hesablamaları, xətti proqramlaşdırma, iqtisadi-riyazi modelləşdirmə, oyunlar nəzəriyyəsi, kütləvi xidmət nəzəriyyəsi və digərləri daxildir. Bəzi müəlliflər iqtisadi - riyazi metodlara habelə seçim metodunu, şəbəkə qrafikləri metodunu, ekstremal eksperimentlərin planlaşdırılmasının riyazi nəzəriyyəsi metodlarını və digərlərini də aid edirlər.

Korrelyasiya təhlili nəticə göstəriciləri və amillər arasında stoxastik (ehtimal edilən) asılılıqlarının tədqiqatı üçün, yəni təhlil edilən göstəricilərin dəyişilməsini təsadüfi proses kimi təsəvvür edilən halda tətbiq edilir.

Korrelyasiya təhlilinə üç mərhələ daxildir:

- korrelyasiya modelinin (korrelyasiya tənliyinin) qurulması;
- seçilmiş korrelyasiya tənliyinin (modelinin) onun parametrlərinin tapılması yolu ilə həll edilməsi;
- alınmış nəticələrin qiymətləndirilməsi və təhlili.

Xətti proqramlaşdırma – təşkilatın fəaliyyətinin optimallaşdırılması məsələsinin həllinin əsas üsuludur. O, ilk növbədə plan hesablamaları üçün vasitədir. İqtisadi təhlil zamanı xətti proqramlaşdırma plan tapşırıqlarının optimallığını qiymətləndirmək, avadanlığın limitləşdirici (məhdudlaşdırıcı) qruplarını müəyyən etmək, istehsal ehtiyatlarının defisitliyini qiymətləndirmək imkanı yaradır.

Xətti proqramlaşdırma xətti tənliklər sisteminin həllinə əsaslanır və öyrənilən amillər arasında ciddi funksional asılılıqlar mövcuddur. Xətti proqramlaşdırmanın tətbiqi ilə bir çox ekstremal məsələlər həll edilir ki, bu, dəyişən kəmiyyətlərin bəzi funksiyalarının son kəmiyyətinin (maksimumun və minimumun) tapılmasından ibarətdir.

Bu metodu öyrənilən dəyişən kəmiyyətlərin (amillərin) riyazi müəyyənliyi və miqdarca məhdudiyyəti olduğu hallarda tətbiq etmək olar. Xətti proqramlaşdırma zamanı hesablamaların müəyyən ardıcıllığı nəticəsində amillərin qarşılıqlı əvəz edilməsi baş verir, bu zaman hesablamaların məntiqi isə öyrənilən halın (hadisənin) mahiyyətinin məntiqi dərk edilməsinə uyğun olmalıdır.

Xətti proqramlaşdırmanın tətbiqi müəssisədə istehsalın düzgün təşkili şəraitində ehtiyatlardan (xammaldan, materiallardan, yanacaqlardan və s.) istifadə edilməsinin ən yaxşı (optimal) variantını müəyyən etmək imkanı yaradır. Belə proqramlaşdırmanın köməyilə optimal istehsal proqramının, məhsulun müəyyən edilmiş çeşidlərinə uyğun olaraq avadanlığın yüklənməsinin optimal variantının, optimal daşımalar qrafiklərinin və s. işlənib hazırlanması məsələləri həll edilir.

Xətti proqramlaşdırmanın tətbiqi sahəsi məhduddur, bu həll edilən tənliklərin xəttiliyi və amillərin mütənasibliyi tələblərilə əlaqədardır. Lakin riyazi proqramlaşdırma aralarında xətti əlaqə

olmayan iqtisadi halların (təzahürlərin) tədqiq edilməsi üçün də tətbiq edilə bilər. Bu məqsədlə qeyri-xətti, dinamik proqramlaşdırma metodlarından istifadə etmək olar.

Oyunlar nəzəriyyəsi oyun xarakterli vəziyyətlərdən istifadə etməklə optimal strategiyaları tədqiq edir, bu metoddan, məsələn, səmərəli istehsal qərarları, elmi və təsərrüfat eksperimentləri sistemlərinin seçilməsi, statistik nəzarətin təşkil edilməsi və b. zaman istifadə edilə bilər.

Oyunlar nəzəriyyəsinin köməyilə məsələlərin həlli zamanı onların şərtləri dəqiq ifadə edilməlidir, yəni oyunçuların miqdarı, oyun qaydaları müəyyən edilməli, oyunçuların mümkün olan strategiyaları və mümkün olan uduşları aydınlaşdırılmalıdır. Mümkün olan strategiyaların, yəni qaydalar məcmusunun müəyyən edilməsi xüsusilə mühüm elementdir, onlar oyundakı vəziyyətdən asılı olaraq oyunçunun birmənalı seçimini müəyyən edirlər. Məsələlərin həlli üçün xətti tənliklər və bərabərsizliklər sisteminə əsaslanan cəbri metodlar, iterasiya (çoxdəfəli) metodları, habelə differensial tənliklər sistemi tətbiq edilir.

Kütləvi xidmət nəzəriyyəsinin mahiyyəti kütləvi xidmət proseslərinin miqdar təhlilinin, riyazi metodlarının işlənib hazırlanmasından, xidmət edən sistemlərin fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsindən ibarətdir.

Bu nəzəriyyədə əsas anlayışlar aşağıdakılardır: xidmət tələbləri daxil olmasının sıxlığı və ya vaxt vahidi ərzində tələblərin sayının riyazi gözlənməsi, xidmət edən qurğuların məcmusu, satıcıların, avtomatların və s. sayı, xidmət müddəti ehtimallarının bölüşdürülməsi, vaxt vahidi ərzində başlanan yaxud qurtaran xidmətlərin sayının riyazi gözlənməsi, xidmət edən şəxsi heyətin hamısının məşğul olması ilə əlaqədar dərhal xidmət etməkdən imtina edilməsi.

Təşkilatın fəaliyyətinin iqtisadi təhlili zamanı kütləvi xidmət nəzəriyyəsi təmir işçiləri tərəfindən dəzgahlara və aqreqatlara xidmət edilməsinin, istehsal avadanlığının xammalla və materiallarla, fəhlələrin alətlərlə təmin edilməsinin və s. öyrənilməsi zamanı istifadə edilə bilər.

3.4. İqtisadi-riyazi modelləşdirmə təsərrüfat fəaliyyətinin öyrənilməsi və qiymətləndirilməsi üsulu kimi

İqtisadi-riyazi modelləşdirmə təşkilatın fəaliyyətinin nəticələrinin öyrənilməsinin və qiymətləndirilməsinin mühüm üsullarından biridur.

İqtisadi-riyazi modelləşdirmə nəticə göstəricisi və onun ölçüsünə təsir edən amillər arasında qarşılıqlı əlaqələrin kəmiyyətcə ifadəsini müəyyən etmək imkanı yaradır. Bu qarşılıqlı əlaqə iqtisadi-riyazi model şəklində təqdim edilir.

İqtisadi-riyazi modelin qurulmasına aşağıdakı mərhələlər daxildir:

- müəyyən vaxt ərzində nəticə göstəricisinin dinamikasının öyrənilməsi və ona təsir edən amillərin aşkar edilməsi;
- nəticə göstəricisi üzrə onu müəyyən edən amillərdən funksional asılılıqı modelinin qurulması:
- nəticə göstəricisinin müxtəlif proqnoz variantlarının işlənib hazırlanması;
- nəticə göstəricisinin gələcəkdə mümkün kəmiyyətinin təhlili və ekspert qiymətləndirilməsi.

İqtisadi təhlildə istifadə edilən riyazi modellərin əsas növlərinə additiv (latınca additio – üstə gəlmə, toplama), multiplikativ, dəfəli (bölünən), kombinasiya edilmiş modellər aiddir.

Additiv modelin ümumi düsturu

$$Q = a + b - c + d - f + ... + n.$$

Additiv modeldə nəticə göstəricisi toplanan amillərin cəbri cəmidir. Addiativ modelə nümunə (misal) kimi «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formada mühasibat üzrə balans mənfəətinin məbləğinin hesablanması metodikasını göstərmək olar. Balans üzrə mənfəət (vergi tutulana qədər) aşağıdakı toplananların cəbri cəmidir:

Satışdan alınan mənfəət + alınmalı faizlər – ödənilməli faizlər + digər təşkilatlarda iştirak etməkdən alınan gəlirlər + digər əməliyyat

gəlirləri – digər əməliyyat xərcləri + realizasiyadan kənar gəlirlər – realizasiya kənar xərclər.

Multiplikativ modelin ümumi düsturu

$$Q = a \times b \times c \times ... \times d.$$

Multiplikativ modeldə nəticə göstəricisi amillərin hasili kimi hesablanır. Multiplikativ modelə yalnız bir növ mal satışı ilə məşğul olan ticarət məntəqəsində satışdan mədaxil misal ola bilər:

$$M_{əd} = q \times p,$$

Burada $M_{əd}$ -malların satışından daxil olan pul vəsaiti-mədaxil; q-satılmış malın natural ifadə də miqdarıdır; p-mal vahidinin satış qiymətidir.

Dəfəli (bölünən) modelin ümumi dusturu

$$Q = \frac{a}{b}.$$

Dəfəli (bölünən) modeldə nəticə göstəricisi amillərin nisbətini əks etdirən nisbi kəmiyyətdən ibarətdir. Dəfəli (bölünən) modelə müxtəlif rentabellik əmsalları misal ola bilər. Məsələn, xüsusi kapitalının rentabelliyi (R_{XK}) bu düsturla ifadə edilir:

$$R_{XK} = \frac{M}{XK},$$

burada M-dövr ərzində mühasibat üzrə mənfəətdir; XK-dövr ərzində xüsusi kapitalın orta məbləğidir.

Kombinasiya edilmiş modelin ümumi düsturu

$$Q = \frac{a + b - c}{d \times f}.$$

Analitik məsələləri həll edəndə iqtisadi-riyazi modelləri bir növdən o birinə çevirmək olar. Dəfəli (bölünən) modelin kombinasiya edilmiş modelə çevrilməsi misalını nəzərdən keçirək.

$$R = \frac{M}{K},$$

burada M-dövr ərzində balans üzrə mənfəətdir; K-dövr ərzində təşkilatın kapitalının orta məbləğini göstərir. Təşkilatın kapitalının orta məbləğini iki toplanan amilin cəmi kimi təsəvvür etmək olar

$$K = F + E,$$

burada F, E - müvafiq surətdə əsas və dövriyyə kapitalının orta məbləğidir.

Beləliklə, kapitalın rentabelliyi düsturu mürəkkəbləşir

$$R = \frac{M}{F + E}.$$

Daha sonra rentabellik düsturuna satışdan alınan mədaxil ($M_{əd}$) göstəricisini daxil edirik.

Kapitalın rentabelliyi düsturu mürəkkəbləşir və aşağıdakı şəkli alır:

$$R = \frac{\frac{M}{M_{əd}}}{\frac{F}{M_{əd}} + \frac{E}{M_{əd}}},$$

burada $\frac{M}{M_{əd}}$ - satışın rentabelliyi əmsalıdır; $\frac{F}{M_{əd}}$ - məhsulun fondtutumu əmsalıdır (əsas kapital üzrə); $\frac{E}{M_{əd}}$ - dövriyyə kpaitalının dövretmə əmsalıdır (möhkəmlənmə əmsalıdır).

İqtisadi-riyazi modellərin çevrilməsinin (şəkil dəyişməsinin) nəzərdən keçirilən prosedurasını *modellərin uzadılması* adlandırırlar. Əks prosedura – iqtisadi-riyazi *modellərin qısaldılması* da mümkündür.

3.5. İqtisadi göstəricilərin amillər üzrə təhlili metodları

İqtisadi təhlildə amillərin tədqiq edilən iqtisadi göstəricilərin həcminə təsirinin öyrənilməsi və kəmiyyətcə müəyyən edilməsi mühüm metodoloji məsələdir. Amilləri dərin və hərtərəfli təhlil etmədən təşkilatın fəaliyyətinin nəticələri haqqında əsaslandırılmış fikir ifadə etmək, onun səmərəliliyinin yüksəldilməsi ehtiyatlarını aşkar etmək, idarəetmə qərarlarını əsaslandırmaq mümkün deyil.

Amilli təhlil – nəticə göstəricisinin dəyişilməsinə amillərin təsirinin təhlilidir. Amillər üzrə təhlil metodları aşağıdakı məsələ qoyulan hallarda tətbiq edilir: nəticə göstəricisinin dəyişilməsinə ayrı-ayrı amillərin təsirini hesablamaq.

Amilli təhlilin əsas vəzifələri aşağıdakılardır:

- nəticə göstəricilərinin dinamikasını müəyyən edən amillərin seçilməsi;
- sistemli yanaşma imkanlarının təmin edilməsi məqsədilə amillərin təsnif edilməsi və sistemləşdirilməsi;
- amillər və nəticə göstəriciləri arasında asılılığın növünün müəyyən edilməsi və qarşılıqlı əlaqələrin modelləşdirilməsi;
- nəticə göstəricisinin həcminin dəyişilməsində amillərin təsirinin hesablanması və onların hər birinin rolunun qiymətləndirilməsi;
- amilli təhlilin nəticələri əsasında idarəetmə qərarlarının qəbul edilməsi.

İqtisadi göstəricilərin amillər üzrə determinasiyalı (müəyyən edici) təhlil metodlarına aşağıdakılar aiddir:

1) iqtisadi-riyazi modelləşdirmə metodu;
2) müqayisə metodu;
3) kənarlaşdırma, təcrid etmə metodu;
4) indeks metodu;
5) zəncirvari yerdəyişmə metodu;
6) inteqral metodu;
7) amillərin təcrid edilmiş təsininin aydınlaşdırılması metodu və digərləri.

Amilli təhlilin adı çəkilən metodlarının multiplikativ modelin misalında tətbiqini nəzərdən keçirək.

Aşağıdakı məsələ qoyulmuşdur: bir növ mal realizə edən (satan) ticarət məntəqəsində satışdan daxil olan pul gəlirini amillər üzrə təhlil etməli.

1. *İqtisadi-riyazi modelləşdirmə metodunu* tətbiq edirik. Nəticə göstəricisinin (mədaxilin) və onun dəyişilməsini müəyyən edən amillərin qarşılıqlı əlaqəsi modeli aşağıdakı kimidir:

$$M_{əd} = q \times p,$$

burada q-satılmış malın natural ifadədə miqdarıdır; p-mal vahidinin qiymətidir.

2. *Müqayisə metodunu* tətbiq edirik. İki iş günü ərzində satışdan mədaxilin məbləğini düstur şəklində təsbit edək.

Baza variantı (birinci gündə mədaxil):

$$M_{əd0} = q_0 \times p_0.$$

Hesabat variantı (ikinci gündə mədaxil):

$$M_{əd1} = q_1 \times p_1.$$

İkinci gündə birinci gün ilə müqavisədə mədaxilin dəyişilməsi:

$$\Delta M_{əd} = Məd_1 - Məd_0.$$

3. *Kənarlaşdırma, təcrid etmə metodunu* tətbiq edirik. Amillərin mədaxilin dəyişilməsinə təsirini hesablayaq:

1) mədaxilə satılmış malın miqdarının dəyişilməsinin təsiri

$$\Delta M_{əd}(q) = (q_1 - q_0) \times p_0;$$

2) mədaxilə mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$$\Delta M_{əd}(p) = (p_1 - p_0) \times q_0.$$

Təhlildə kənarlaşdırma metodundan klassik variantda istifadə etdikdə çətinlik yaranır. Bu çətinlik ondan ibarətdir ki, amillərin təsirinin cəmi nəticə göstəricisi üzrə kənarlaşmaya bərabər deyil:

$$\Delta Məd_1 - Məd_0 \neq \Delta Məd(q) + \Delta Məd(p)$$

«Bölüşdürülməmiş qalıq» (B) adlanan qalıq yaranır. Riyazi surətdə onu aşağıdakı kimi təsəvvür etmək olar:

$$B = \Delta q \times \Delta p$$

Yuxarıda şərh edilənləri təcrübədə konkret rəqəmlərlə nümayiş etdirək:

$Məd_0$ = 10 min ədəd × 6 man. = 60 min man.;

$Məd_1$ = 12 min ədəd × 9 man. = 108 min man.

$\Delta Məd$ = 108 – 60 = + 48 min man.

Amillərin təsirinin hesablanması;

1) $\Delta Məd(q) = (12 - 10) \times 6 = +12$ min man.;

2) $\Delta Məd(p) = (9 - 6) \times 10 = +30$ min man.

Cəmi +42 min man.

«Bölüşdürülməmiş qalıq» 6 min man. təşkil etmişdir, yəni

$\Delta q = +2$ min ədəd;

$\Delta p = +3$ man.;

$B = 2 \times 3 = 6$ min man.

«Bölüşdürülməmiş qalıq» olması iqtisadçıları qane etməmişdir və onlar daim amilli təhlilin elə yeni metodlarını axtarmışlar ki, onlar nəticə göstəricisinin dəyişilməsini amillər üzrə qalıqsız bölüşdürmək imkanı yaratsın. Bu vəziyyətlə əlaqədar olaraq amilli təhlilin indeks metodu, zəncirvari yerdəyişmə metodu, inteqral metodu, amillərin tədric edilmiş təsirinin aydınlaşdırılması metodu və digərləri meydana çıxmışdır.

3.6. İndeks metodu

Amillər üzrə təhlilin *indeks metodunun* mahiyyəti aşağıdakılardan ibarətdir: əvvəla, nəticə göstəricisinin indeksi və amillərin indeksləri müəyyən edilir; ikincisi, nəticə göstəricisi indeksinin amillərin indekslərilə qarşılıqlı əlaqəsinin sxemi qurulur; üçüncüsü, nəticə göstəricisinə amillərin təsirinin hesablanmasının alqoritmi tərtib edilir.

Amillər üzrə təhlilin indeks metodunun tətbiqini misalla nəzərdən keçirək. İki analoji vaxt dövrü ərzində ticarət məntəqəsində satışdan alınan mədaxil haqqında məlumatımız var.

Baza variantı: $Məd_0 = q_0 \times p_0$;

$Məd_0$ = 10 min ədəd × 6 man. = 60 min man.

Hesabat variantı: $Məd_1 = q_1 \times p_1$;

$Məd_1$ = 12 min ədəd × 9 man. = 108 min man.

$\Delta Məd = Məd_1 - Məd_0$ = 108 – 60 = + 48 min man.

Nəticə göstəricisinin indeksini və amillərin indekslərini hesablayaq:

$$I_{Məd} = \frac{M_{əd_1}}{M_{əd_0}} = \frac{108}{60} = 1{,}8;$$

$$I_q = \frac{q_1}{q_0} = \frac{12}{10} = 1{,}2;$$

$$I_p = \frac{p_1}{p_0} = \frac{9}{6} = 1{,}5;$$

Nəticə göstəricisinin indeksinin amillərin indekslərilə qarşılıqlı əlaqəsi nəticə göstəricisinin özünün amillərlə qarşılıqlı əlaqəsinə analojidir, yəni

$$I_{məd} = Iq \times Ip \rightarrow 1{,}8 = 1{,}2 \times 1{,}5.$$

Amillərin təsirinin indeks metodu ilə hesablanmasının 1-ci alqoritmi

1) mədaxilə satılmış malların miqdarının dəyişilməsinin təsiri

$\Delta Məd\ (q) = (Iq - 1) \times Məd_0$;

2) mədaxilə mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$\Delta Məd\ (p) = (Iq \times Ip - Iq) \times Məd_0$;

Yoxlama: $\Delta Məd = Məd_1 - Məd_0 = \Delta Məd(q) + \Delta Məd(p)$

Amillərin təsirinin hesablanması:

1) $\Delta Məd(q) = (1{,}2 - 1{,}0) \times 60$ min man. = + 12 min man.;

2) $\Delta Məd(p) = (1{,}2 \times 1{,}5 - 1{,}2) \times 60$ min man. = + 36 min man.

Yoxlama: $\Delta Məd = 108 - 60 = 12 + 36$, yaxud

48 min man. = 48 min man.

İndeks metodunun əhəmiyyəti ondan ibarətdir ki, nəticə göstəricisinin dəyişilməsi amillər üzrə qalıqsız bölüşdürülür. Bununla belə bu metodda ciddi nöqsan – subyektivlik elementi mövcuddur. Həmin nöqsan buruqlar zəncirində amillərin yerləşməsi qaydasının müəyyən edilməsindən ibarətdir.

Yuxarıda nəzərdən keçirilmiş alqoritm amillərin yerləşməsinin yalnız bir variantına uyğun gəlir, yəni

$$Məd = q \times p.$$

Riyazi mövqedən amillərin yerləşməsinin digər variantı da bərabər hüquqludur, yəni

$$Məd = p \times q.$$

Lakin amillərin yerləşməsinin ikinci variantına digər alqoritn və hesablamaların digər nəticələri uyğun gəlir.

Amillərin təsirinin indeks metodu ilə hesablanmasının 2-ci alqoritmi

1) mədaxilə mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$\Delta Məd(p) = (Ip - 1) \times Məd_0$;

2) mədaxilə satılmış malların miqdarının dəyişilməsinin təsiri

$\Delta Məd(q) = (Ip \times Iq - Ip) \times Məd_0$.

Yoxlama: $\Delta Məd = Məd_1 - Məd_0 = \Delta Məd(p) + \Delta Məd(q)$

Amillərin təsirinin hesablanması:

1) $\Delta Məd(p) = (1{,}5 - 1{,}0) \times 60$ min man. = + 30 min man.;

2) $\Delta Məd(q) = (1{,}5 \times 1{,}2 - 1{,}5) \times 60$ min man. = + 18 min man.

Yoxlama: $\Delta Məd = 108 - 60 = 30 + 18$, yaxud

48 min man. = 48 min man.

Beləliklə, amillərin təsirinin hesablanmasının nəticələri iki variant üzrə üst-üstə düşmür. Üst-üstə düşməmənin səbəbi «bölüşdürülməmiş qalıqdır». Birinci variantda o, «mal vahidinin qiymətinin dəyişilməsi» amilinə, ikinci halda – «satılmış malın miqdarının dəyişilməsi» amilinə birləşir.

Amillərin hasili sayı artdıqca hesablamaların bərabər hüquqlu variantlarının miqdarı kəskin surətdə artır, çünki amillərin mümkün olan yerdəyişmələrinin sayı çoxalır. Məsələn, üçdən üç-üç yerdəyişmələrin sayı altıya, dörddən dörd-dörd – 24-ə, beşdən beş-beş isə – 120-yə bərabərdir.

İqtisadçılar bir çox variantlardan yalnız birinin düzgünlüyünün əsaslandırılması üçün amilli təhlilin indeks metodunun aşağıdakı qaydasını müəyyən etmişlər. Bütün amilləri iki qrupa bölmək olar:

1) kəmiyyət (ilk və ya ekstensiv) amilləri;

2) keyfiyyət (ikinci və ya intensiv) amilləri.

Modeldə amillər yerləşdirilən zaman birinci yerə kəmiyyət amili, ikinci yerə – keyfiyyət amili qoyulur. Bu müddəaya uyğun olaraq bizim nəzərdən keçirdiyimiz alqoritmlərdən birincini düzgün qəbul

etmək lazımdır. Bununla belə yadda saxlamaq lazımdır ki, bu qayda subyektivdir.

İndeks metodunun mahiyyətinin daha yaxşı dərk edilməsi üçün üçamilli multiplikativ modelin həlli üçün hesablamaların alqoritmini təqdim edək.

Üçamilli multiplikativ modelin həlli üçün amillərin təsirinin indeks metodu ilə hesablanmasının alqoritmi

Baza variantı: $Q_0 = a_0 \times b_0 \times c_0$.

Hesabat variantı: $Q_1 = a_1 \times b_1 \times c_1$.

$\Delta Q = Q_1 - Q_0$.

Amillərin təsirinin hesablanması:

1) $\Delta Q(a) = (I_a - 1) \times Q_0$;

2) $\Delta Q(b) = (I_a \times I_b - I_a) \times Q_0$;

3) $\Delta Q(c) = (I_a \times I_b \times I_c - I_a \times I_b) \times Q_0$.

$Q_1 - Q_0 = \Delta Q(a) + \Delta Q(b) + \Delta Q(c)$.

3.7. Zəncirvari yerdəyişmə metodu

Zəncirvari yerdəyişmə metodu amilli təhlilin indeks metodundan törəmədir. Onun mahiyyəti aşağıdakından ibarətdir. Nəticə göstəricisinin dəyişilməsinə amillərin təsirinin hesablanması üçün şərti kəmiyyət (əvəz edən, yerdəyişən, yerinə qoyulan) müəyyən edilir, o, bir amil dəyişildiyi, digərləri isə dəyişməz qaldığı halda nəticə göstəricisinin mümkün kəmiyyətini əks etdirir.

Əgər modeldə fərdi amillərin sayı ikidən çoxdursa, onda bir neçə qarşılıqlı yerdəyişənləri (yerdəyişənlər zəncirini) müəyyən etmək lazım gəlir. Metodun adı də buradan götürülmüşdür – zəncirvari yerdəyişmə (əvəzetmə) metodu.

Amillərin təsirinin zəncirvari yerdəyişmə metodu ilə hesablanmasının 1-ci alqoritmi

Baza variantı: $Məd_0 = q_0 \times p_0$.

Yerdəyişmə: $Məd_{şərti} = q_1 \times p_0$.

Hesabat variantı $Məd_1 = q_1 \times p_1$.

$\Delta Məd_{(q)} = Məd_{şərti} - Məd_0 = q_1p_0 - q_0p_0 = (q_1 - q_0) \times p_0 = \boxed{\Delta q \times p_0}$;

$\Delta Məd_{(p)} = Məd_1 - Məd_{şərti} = q_1p_1 - q_1p_0 = (p_1 - p_0) \times q_1 = \boxed{\Delta p \times q_1}$

İki amilin təsirinin cəmi nəticə göstəricisinin dəyişilməsinə bərabərdir:

$Məd_1 - Məd_0 = \Delta Məd(q) + \Delta Məd(p)$.

Amillərin təsirinin hesablanması:

1) mədaxilə satılmış malın miqdarının dəyişilməsinin təsiri

$\Delta Məd(q) = (12 - 10)$ min ədəd $\times$ 6 man. = +12 min man;

2) mədaxilə mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$\Delta Məd(p) = (9 - 6)$ man. $\times$ 12 min ədəd = +36 min man.

Yoxlama: $\Delta Məd = 108 - 60 = 12 + 36$, yaxud

48 min man. = 48 min man.

Zəncirvari yerdəyişmə metodunun dəyəri; indeks metodunda olduğu kimi, nəticə göstəricisinin dəyişilməsi amillər üzrə qalıqsız bölüşdürülür. Bununla belə, zəncirvari yerdəyişmə metoduna da subyektivlik elementi xasdır, bu, vuruqlar zəncirində amillərin yerləşməsi qaydasının seçilməsindən ibarətdir.

Yuxarıda nəzərdən keçirilmiş alqoritm amillərin yerləşdirilməsinin yalnız bir variantına, yəni

$Məd = q \times p$

variantına uyğun gəlir.

Riyazi yanaşma mövqeyindən amillərin yerləşməsinin digər, yəni

$Məd = p \times q$

variantı da bərabər hüquqludur.

Lakin amillərin yerləşməsinin ikinci variantına digər alqoritm və hesablamaların digər nəticələri uyğun gəlir.

Amillərin təsirinin zəncirvari yerdəyişmə metodu ilə hesablanmasının 2-ci alqoritmi

Baza variantı: $Məd_0 = p_0 \times q_0$.
Yerdəyişmə: $Məd_{şərti} = p_1 \times q_0$.

Hesabat variantı: $Məd_1 = p_1 \times q_1$.

$\Delta Məd_{(p)} = Məd_{şərti} - Məd_0 = p_1q_0 - p_0q_0 = (p_1 - p_0) \times q_0 = \boxed{\Delta p \times q_0}$;

$\Delta Məd_{(q)} = Məd_1 - Məd_{şərti} = p_1q_1 - p_1q_0 = (q_1 - q_0) \times p_1 = \boxed{\Delta q \times p_1}$.

$\Delta Məd = Məd_1 - Məd_0 = \Delta Məd(p) + \Delta Məd(q)$.

Amillərin təsirinin hesablanması:

1) mədaxilə mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$\Delta Məd(p) = (9 - 6)$ man. $\times$ 10 min ədəd = +30 min man.;

2) mədaxilə satılmış malların miqdarının dəyişilməsinin təsiri

$\Delta Məd(q) = (12 - 10)$ min ədəd $\times$ 9 man. = +18 min man.

Yoxlama: $\Delta Məd = 108 - 60 = 30 + 18$, yaxud

48 min man. = 48 min man.

İqtisadçılar çoxsaylı variantlardan birinin düzgünlüyünü əsaslandırmaq üçün zəncirvari yerdəyişmə metodunun aşağıdakı subyektiv variantını təklif etmişlər.

Nəticə göstəricisinə kəmiyyət amilinin dəyişilməsinin təsiri keyfiyyət amilinin baza qiymətilə hesablanır, yəni

$$\Delta Məd(q) = \Delta q \times p_0.$$

Nəticə göstəricisinə keyfiyyət amilinin dəyişilməsinin təsiri kəmiyyət amilinin hesabat qiymətilə hesablanır, yəni

$$\Delta Məd(p) = \Delta p \times q_1.$$

Bu qayda mövqeyindən nəzərdən keçirilmiş alqoritmlərdən birincisini əsaslanmış qəbul etmək lazımdır. Bununla belə, yadda saxlamaq lazımdır ki, bu qayda subyektivdir.

Zəncirvari yerdəyişmə metodunun mahiyyətini tam göstərmək üçün üçamilli multiplikativ modelin həlli üçün nəticə göstəricisinə amillərin təsirinin hesbalanmasının alqoritmini təqdim edək.

Üçamilli multiplikativ modelin həlli üçün amillərin təsirinin zəncirvari yerdəyişmə metodu ilə hesablanmasının alqoritmi

Baza variantı: $Q_0 = a_0 \times b_0 \times c_0$.

Hesabat variantı: $Q_1 = a_1 \times b_1 \times c_1$.

$$\Delta Q = Q_1 - Q_0$$

Amillərin təsirlərinin hesablanması:

1) $\Delta Q(a) = \Delta a \times b_0 \times c_0$;

2) $\Delta Q(b) = a_1 \times \Delta b \times c_0$;

3) $\Delta Q(c) = a_1 \times b_1 \times \Delta c$.

$Q_1 - Q_0 = \Delta Q(a) + \Delta Q(b) + \Delta Q(c)$.

Zəncirvari yerdəyişmələrin təcrübədə tətbiqi zamanı bu metodun hesablamaların sadələşdirilməsinə yönəlmiş müxtəlif modifikasiyaları – mütləq fərqlənmələr üsulu, nisbi fərqlənmələr üsulu, faiz fərqləri üsulu yaranmışdır.

3.8. İnteqral metodu

Amilli təhlilin *inteqral metodu* o hallarda tətbiq edilir ki, nəticə göstəricisi bir neçə arqumentin funksiyası kimi təqdim edilə bilsin. Arqumentlərin dəyişilməsindən asılı olaraq funksiyanın dəyişilməsi müvafiq inteqral ifadələrilə şərh edilir.

Amilli təhlil zamanı inteqral metoddan iki tip məsələlərin həlli üçün istifadə edilə bilər.

Birinci tipə elə məsələlər aid edilir ki, onlarda təhlil edilən dövrə amillərin dəyişilməsi barədə informaisya olmur, yaxud bu dəyişilməni nəzərə almamaq olar. Bu halda nəticə göstəricisinin dəyişilməsinin həcmi modeldə amillərin yerləşməsi qaydasından asılı olmur. Bu tip məsələlər statistik məsələlər adlanır. Buna misal olaraq iki analoji obyektin göstəricilərinin müqayisəli təhlilini göstərmək olar.

İkinci tip məsələlər göstəricilərin dinamikada, yəni təhlil edilən dövr daxilində amillərin dəyişilməsi barədə məlumatların mövcud olması şəraitində təhlil aparılması ilə əlaqədardır.

Amilli təhlilin inteqral metodu modelə daxil olan amillərin miqdarından, onların arasındakı qarşılıqlı əlaqənin sxemindən və

modeldə amillərin yerləşməsi qaydasından asılı olmayaraq müxtəlif tip məsələlərin həllinə ümumi yanaşmanı əks etdirir. Bu metod multiplikativ, dəfəli (bölünən) və qarışıq modellərdə «bölüşdürülməmiş qalıqlar» yaratmadan nəticə göstəricisinə amillərin təsirinin hesablanması üçün imkan yaradır.

İnteqral metodunun tətbiqi nəticə göstəricisinin dəyişilməsinə amillərin təsirinin hesablanmasının birmənalı nəticələrini almaq imkanı verir.

İnteqral metodundan istifadə edildikdə satışdan mədaxilin dəyişilməsini iki inteqralın cəmi kimi təsəvvür etmək olar. Onlardan biri mədaxilin satılmış malın miqdarından, ikincisi isə – mal vahidinin qiymətindən asılılığını səciyyələndirir.

İki amilli multiplikativ modelin həlli üçün amillərin təsirinin inteqral metodu ilə hesablanmasının alqoritmi

Baza variantı: $Məd_0 = q_0 \times p_0$.

Hesabat variantı: $Məd_1 = q_1 \times p_1$.

$\Delta Məd - Məd_1 - Məd_0 = \int f'(q)dq + \int f'(p)dp$,

burada f '(q), f '(p) - müvafiq surətdə satılmış malların miqdarından və onun vahidinin qiymətindən asılı olaraq mədaxilin dəyişilməsi funksiyalarıdır.

Belə fərziyyəyə əsaslanaraq, həmin amillər kiçik vaxt arasında xətti qanun üzrə dəyişilirlər, mədaxilin dəyişilməsinə amillərin təsirinin hesablanmasını aşağıdakı kimi əks etdirmək olar:

1) satılmış malların miqdarının dəyişilməsinin təsiri

$$\Delta Məd(q) = \Delta q \times p_0 + \frac{\Delta q + \Delta p}{2};$$

2) mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$$\Delta Məd(p) = \Delta p \times q_0 + \frac{\Delta q + \Delta p}{2}.$$

Yoxlama: $\Delta Məd = Məd_1 - Məd_0 = \Delta Məd(q) + \Delta Məd(p)$.

Aşağıdakı rəqəmlərlə misali nəzərdən keçirək.

Baza variantı: $Məd_0$ = 10 min ədəd × 6 man. = 60 min man.

Hesabat variantı: $Məd_1$ = 12 min ədəd × 9 man. = 108 min man.

Yoxlama: $\Delta Məd$ = 108 – 60 = +48 min man.

Amillərin təsirinin hesablanması:

1) $\Delta Məd(q)$ = (12 min ədəd - 10 min ədəd) × 6 man. + $\frac{(+2 \text{ min ədəd}) \times (+3 \text{ man.})}{2}$ = +15 min man.;

2) $\Delta Məd(p)$ = (9 man. - 6 man.) x 10 min ədəd + $\frac{(+2 \text{ min ədəd}) \text{ x } (+3 \text{ man.})}{2}$ = +33 min man.

Yoxlama: $\Delta Məd$ = 108 – 60 = 15 + 33, yaxud

48 min man. = 48 min man.

Lakin inteqral metodunun da müəyyən nöqsanı var: modeldə fərdi amillərin sayı artdıqca hesablamaların mürəkkəbliyi kəskin surətdə yüksəlir, yəni nəticə göstəricisinin dəyişilməsinə hər amilin təsirinin hesablanmasının həcmi və əmək tutumu çoxalır.

Üçamilli multiplikativ modelin həlli üçün amillərin təsirinin inteqral metodu ilə hesablanmasının alqoritmini nəzərdən keçirək.

Üçamilli multiplikativ modelin həlli üçün amillərin təsirinin inteqral metodu ilə hesablanmasının alqoritmi

Baza variantı: $Q_0 = a_0 \times b_0 \times c_0$.

Hesabat variantı: $Q_1 = a_1 \times b_1 \times c_1$.

$\Delta Q = Q_1 - Q_0$.

Amillərin təsirinin hesablanması:

1) $\Delta Q(a) = \Delta a \times b_0 \times c_0 + \frac{1}{2} b_0 \times \Delta a \times \Delta c + \frac{1}{2} c_0 \times \Delta b \times \Delta a + \frac{1}{3} \Delta a \times \Delta b \times \Delta c$;

2) $\Delta Q(b) = \Delta b \times a_0 \times c_0 + \frac{1}{2} a_0 \times \Delta b \times \Delta c + \frac{1}{2} c_0 \times \Delta b \times \Delta a + \frac{1}{3} \Delta a \times \Delta b \times \Delta c$;

3) $\Delta Q(c) = \Delta c \times a_0 \times b_0 + \frac{1}{2} b_0 \times \Delta a \times \Delta c + \frac{1}{2} a_0 \times \Delta b \times \Delta c + \frac{1}{3} \Delta a \times \Delta b \times \Delta c$.

$Q_1 - Q_0 = \Delta Q(a) + \Delta Q(b) + \Delta Q(c)$.

Analitik iş təcrübəsində inteqral metodun tətbiqi geniş yayılmamışdır. O, əsas etibarilə, iqtisadi təhlil sahəsində elmi-tədqiqat işlərində istifadə edilir.

3.9. Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodu

Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodunun nəzəri bazası kənarlaşdırma, təcrid etmə (eliminasiya etmə) üsuludur. Bu metodun köməyilə hesablamaların əsasını amillərin paralel (eyni zamanda) dəyişilməsi prinsipi təşkil edir.

Bu metodun mahiyyəti aşağıdakından ibarətdir. Nəticə göstəricisinin dəyişilməsinə hər amilin təsiri bütün qalan amillərin baza qiymətlərində müəyyən edilir. Bu bütün amillərə eyni hesablanma şəraiti tətbiq etmək imkanı yaradır. Hesablamaların nəticələri vuruqlar zəncirində amillərin yerləşdiyi yerdən asılı olmur.

Nəzərdən keçirilən metodun nöqsanı ondan ibarətdir ki, amillərin təsirinin cəbri cəmi nəticə göstəricisinin dəyişilməsinə bərabər deyil, yəni «bölüşdürülməmiş qalıq» (B) yaranır.

«Bölüşdürülməmiş qalığın» şərhinə iki yanaşma ola bilər:

- əvvəla, o, nəticə göstəricisinin dəyişilməsini şərtləndirmiş bütün amillərin qarşılıqlı təsirinin nəticəsi kimi şərh edilə bilər;
- ikincisi, o, amillər üzrə onların təcrid edilmiş təsirinin ölçüsünə mütənasib bölüşdürülə bilər.

Bizim fikrimizcə, ikinci yanaşma düzgündür.

Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodunun tətbiqini misalla nəzərdən keçirək.

Baza variantı: $Məd_0 = q_0 \times p_0$.

Hesabat variantı: $Məd_1 = q_1 \times p_1$.

$\Delta Məd = Məd_1 - Məd_0$.

Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodu ilə hesablamaların alqoritmi

1) $\Delta Məd(q) = \Delta q \times p_0$;

2) $\Delta Məd(p) = \Delta p \times q_0$.

$Məd_1 - Məd_0 \neq \Delta Məd(q) + \Delta Məd(p)$.

«Bölüşdürülməmiş qalıq»

$B = \Delta q \times \Delta p$

Əgər «bölüşdürülməmiş qalığı» amillərin təcrid edilmiş təsirinə mütənasib bölüşdürsək, onda:

1) q - amili üçün

$$\frac{\Delta q \times \Delta p}{\Delta Məd(q) + \Delta Məd(p)} \times Məd(q);$$

2) p - amili üçün

$$\frac{\Delta q \times \Delta p}{\Delta Məd(q) + \Delta Məd(p)} \times Məd(p).$$

«Bölüşdürülməmiş qalığın» bölüşdürülməsini (paylaşdırılmasını) nəzərə almaqla amillərin təsirinin hesablanmasının son nəticələri aşağıdakı kimi olacaqdır:

1) $\Delta Məd'(q) = \Delta q \times p_0 + \frac{\Delta q \times \Delta p}{\Delta Məd(q) + \Delta Məd(p)} \times \Delta Məd(q)$;

2) $\Delta Məd'(p) = \Delta p \times q_0 + \frac{\Delta q \times \Delta p}{\Delta Məd(q) + \Delta Məd(p)} \times \Delta Məd(p)$.

Yoxlama: $\Delta Məd = Məd_1 - Məd_0 = \Delta Məd'(q) + \Delta Məd'(p)$.

Aşağıdakı rəqəmlərlə ifadə olunan misalı nəzərdən keçirək:

Baza variantı: $Məd_0$ = 10 min ədəd × 6 man. = 60 min man.

Hesabat variantı: $Məd_1$ = 12 min ədəd × 9 man. = 108 min man.

Yoxlama: $\Delta Məd$ = 108 – 60 = + 48 min man.

Amillərin təcrid edilmiş təsirinin hesablanması:

1) mədaxilə satılmış malların miqdarının dəyişilməsinin təsiri

$\Delta Məd(q)$ = (12 - 10) min ədəd × 6 man. = +12 min man.;

2) mədaxilə mal vahidinin qiymətinin dəyişilməsinin təsiri

$\Delta Məd(p)$ = (9 - 6) man. × 10 min ədəd = +30 min man.

Yekunu: +42 min man.

«Bölüşdürülməmiş qalıq» 6 min man. təşkil etmişdir, yəni

Δq = +2 min ədəd; Δp = +3 man.; B = 2 × 3 = 6 min man.

«Bölüşdürülməmiş qalığın» paylaşdırılması:

1) q amili üçün

$$\frac{(+2 \text{ min ədəd}) \times (+3 \text{ man.})}{12 \text{ min man.} + 30 \text{ min man.}} \times 12 \text{ min man.} = +1{,}7 \text{ min man.};$$

2) p amili üçün

$$\frac{(+2 \text{ min ədəd}) \times (+3 \text{ man.})}{12 \text{ min man.} + 30 \text{ min man.}} \times 30 \text{ min man.} = +4{,}3 \text{ min man.}$$

«Bölüşdürülməmiş qalığın» paylaşdırılmasını nəzərə almaqla amillərin təsirinin hesablanması:

1) Δ Məd'(q) = 12 + 1,7 = +13,7 min man.;

2) Δ Məd'(p) = 30 + 4,3 = 34,3 min man.

Yekunu: +48 min man.

Amillərin tədric edilmiş təsirinin aydınlaşdırılması metodunu üçamilli model misalında da nəzərdən keçirək.

Üçamilli multiplikativ modelin həlli üçün amillərin tədric edilmiş təsirinin aydınlaşdırılması metodu ilə hesablanmasının alqoritmi

Baza variantı: $Q_0 = a_0 \times b_0 \times c_0$.

Hesabat variantı: $Q_1 = a_1 \times b_1 \times c_1$.

$\Delta Q = Q_1 - Q_0$.

Amillərin təcrid edilmiş təsirinin hesablanması:

1) $\Delta Q(a) = \Delta a \times b_0 \times c_0$;

2) $\Delta Q(b) = \Delta b \times a_0 \times c_0$;

3) $\Delta Q(c) = \Delta c \times a_0 \times b_0$.

«Bölüşdürülməmiş qalıq»

$B = \Delta a \times \Delta b \times \Delta c$

«Bölüşdürülməmiş qalığın» paylaşdırılmasını nəzərə almaqla amillərin təsirinin hesablanması:

$$1)\ \Delta Q'(a) = \Delta a \times b_0 \times c_0 = \frac{\Delta a \times \Delta b \times \Delta c}{\Delta Q(a) + \Delta Q(b) + \Delta Q(c)} \times \Delta Q(a);$$

$$2)\ \Delta Q'(b) = \Delta b \times a_0 \times c_0 = \frac{\Delta a \times \Delta b \times \Delta c}{\Delta Q(a) + \Delta Q(b) + \Delta Q(c)} \times \Delta Q(b);$$

$$3)\ \Delta Q'(c) = \Delta c \times a_0 \times b_0 = \frac{\Delta a \times \Delta b \times \Delta c}{\Delta Q(a) + \Delta Q(b) + \Delta Q(c)} \times \Delta Q(c).$$

$\Delta Q = Q_1 - Q_0 = \Delta Q'(a) + \Delta Q'(b) + \Delta Q'(c)$.

İqtisadi təhlil təcrübəsində amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodu, inteqral metodu kimi, geniş yayılmamışdır. O, əsas etibarilə elmi araşdırmalarda tətbiq edilir.

Biz amilli təhlilin müxtəlif metodlarını tədqiq edərək amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metoduna üstunlük veririk ki, onun əsasında amillərin eyni zamanda dəyişilməsi prinsipi durur. Həmin metodun üstünlüyü ondan ibarətdir ki, hər amilin təsiri modeldəki qalan amillərin bazis qiymətləri şəraitində müəyyən edilir, yəni bütün amillərə hesablamaların eyni şərtləri tətbiq olunur və onların nəticələri multiplikativ modeldə amillərin yerləşdiyi yerdən asılı deyil.

Biz hesab edirik ki, «bölüşdürülməmiş qalıq» amillərin təcrid edilmiş təsirinin ölçüsünə mütənasib paylanmalıdır.

Bir neçə təşkilatın fəaliyyətinin müqayisəli təhlili zamanı amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodunun tətbiqinə obyektiv zərurət yaranır. Belə ki, hətta iki analoji təşkilatın göstəricilərini müqayisə edərkən bir təşkilatın göstəricilərini baza variantında, o birinin isə - hesabat variantında təqdim edilməsi qanunauyğun deyil.

Çoxamilli kombinasiya edilmiş modellərin təhlili zamanı iqtisadi təhlilin nəzəri əsaslarına çox halda riayət edilmir. Məsələn, bir çox müəlliflər tərəfindən zəncirvari yerdəyişmə metodu düzgün olmayaraq kombinasiya edilmiş modellərin tərkib hissəsi olan additiv qarşılıqlı əlaqələrin təhlilinə də, məsələn, satışdan əldə edilən mənfəətin və aktivlərin rentabelliyinin amilli təhlilinə tətbiq edilir.

Amilli təhlil aparıldıqca aşağıdakı prinsipə ciddi riayət edilməlidir: tətbiq edilən təhlil metodları amillərin və nəticə göstəricisinin qarşılıqlı əlaqəsi modelinə ciddi surətdə uyğun olmalıdır.

Kombinasiya edilmiş modellər şəklində təqdim edilmiş nəticə göstəricilərinin amillər üzrə bölüşdürülməsinin bu dərslikdə təklif edilən metodikalarından biz satışdan mədaxilin nomenklatura mövqeyindən amillər üzrə təhlilində, habelə aktivlərin rentabelliyinin amillər üzrə təhlilində istifadə etmişik. Məsələn, aktivlərin rentabelliyinin kombinasiya edilmiş modeli təhlilin birinci mərhələsində ikiamilli multiplikativ modelə çevrilmiş, sonra onun təhlili üçün zəncirvari yerdəyişmə metodu tətbiq edilmişdir. İkinci mərhələdə biz birinci dərəcəli amillərin hər birini additiv model şəklində ikinci dərəcəli amillərə detallaşdırmışıq ki, bu model əsasında amillərin təsiri nisbət (pay iştirakı) üsulu ilə hesablanır.

Yoxlama sualları?

1. İqtisadi təhlilin kəmiyyət (formalaşdırılmış) və keyfiyyət (formalaşdırılmamış) metodları necə səciyyələnir və onların tətbiq edilməsi şərtləri hansılardır?
2. İqtisadi təhlilin metodunun mahiyyəti nədən ibarətdir və onun əsas elementləri hansılardır?
3. İqtisadi təhlildə istifadə edilən müqayisələrin hansı növləri vardır?
4. Hansı əsas üsullar vasitəsilə göstəriciləri müqayisə edilən səviyyəyə gətirmək olar?
5. İqtisadi təhlil metodikasının elementləri kimi detallaşdırma və qruplaşdırma üsullarının mahiyyəti nədən ibarətdir?
6. Determinləşdirilmiş və ehtimal olunan qarşılıqlı əlaqələrin əsas xarakteristikaları necədir?
7. İqtisadi təhlil metodikası kimi kənarlaşdırma, təcrid etmə üsulunun mahiyyəti nədir və amillərin təsirinin hesablanmasının hansı əsas metodları bu üsula əsaslanmışdır?
8. İqtisadi təhlil zamanı hansı statistik və iqtisadi-riyazi metodlar tətbiq edilir?
9. İqtisadi-riyazi modellərin əsas növləri necə səciyyələndirilir və onların qurulmasının əsas mərhələləri hansılardır?
10. Amilli təhlilin əsas vəzifələri nədən ibarətdir və onun əsas metodlarının qısa xarakteristikası necədir?
11. Amilli təhlilin indeks metodunun mahiyyəti nədən ibarətdir, onun üstünlükləri və nöqsanları hansılardır və bu metodda amillərin təsirinin hesablanmasının hansı alqoritmləri tətbiq edilir?
12. Zəncirvari yerdəyişmə metodunun mahiyyəti, onun üstünlükləri və çatışmamazlığı nədən ibarətdir və bu metodda amillərin təsirinin hesablanmsının hansı alqoritmləri tətbiq edilir?
13. Amilli təhlilin inteqral metodunun mahiyyəti, onun üstünlükləri və çatışmamazlığı nədən ibarətdir və bu metodda amillərin təsirinin hesablanmasının hansı alqoritmi tətbiq edilir?
14. Amillərin təcrid edilmiş təsirinin aydınlaşdırılması metodunun mahiyyəti, onun üstünlükləri və nöqsanları nədən ibarətdir və bu metodda amillərin təsirinin hesablanmasının hansı alqoritmi tətbiq edilir?

II HİSSƏ

TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN KOMPLEKS TƏHLİLİ METODİKASI

IV FƏSİL

MARKETİNQ SİSTEMİNDƏ İQTİSADİ TƏHLİL

4.1. Marketinq fəaliyyətinin sistemli təhlili anlayışı, onun məqsədi və vəzifələri

Marketinq fəaliyyəti təşkilatın mənfəət və rəqabət üstünlüklərini əldə etmək məqsədilə istehlakçının tələbatlarının öyrənilməsinə və bu tələbatların ödənilməsinə, özünün imkanlarını bazardakı vəziyyətlə uyğunlaşdırılmasına yönəldilmiş fəaliyyətdir. Marketinq fəaliyyətinin bütün istiqamətlər üzrə səmərəliliyi əhəmiyyətli dərəcədə aparılan marketinq tədqiqatlarının keyfiyyətindən asılıdır.

Marketinq tədqiqatı yaranmış bazar vəziyyətinin öyrənilməsini və qiymətləndirilməsini əhatə edir, bu prosesdə təşkilatın ətraf aləmə dair informasiya bazası formalaşır ki, onlar işlənilir, təhlil edilir və ümumiləşdirilir ki, bu da marketinq sistemində idarəetmə qərarlarının qəbul edilməsinin əsasını təşkil edir.

İqtisadi təhlil elm kimi hadisələrin (halların) tədqiqi və dərk edilməsi prosesidir, bu proses onların (hadisələrin, halların) qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılığının öyrənilməsinə əsaslanır.

"Marketinq tədqiqatları" və "iqtisadi təhlil" anlayışlarının tərifləri nə uyğun olaraq belə nəticəyə gəlmək olar ki, marketinq fəaliyyəti öz mahiyyəti etibarilə bazarın öyrənilməsinin analitik üsullarına əsaslanır və təhlil fəaliyyət növü kimi marketinqin bazar mexanizmi fəaliyyətinin meyllərini və qanunauyğunluqlarını aydınlaşdıran ayrılmaz hissəsidir. Bu zaman iqtisadi təhlil sistemində yeni istiqamət-marketinq fəaliyyətinin təhlili, yaxud marketinq təhlili yaranır.

Marketinq təhlili tədqiqat prosesi kimi təşkilatın fəaliyyət göstərdiyi yaxud fəaliyyət göstərməsini planlaşdırdığı bazar mühitinin öyrənilməsinə yönəldilmiş xüsusi biliklər sistemidir. Marketinq təhlilinin bütövlükdə, habelə müxtəlif səviyyələrdə və mərhələlərdə məzmunu marketinq tədqiqatlarının məqsədlərilə və onların aparılması prosesində yerinə yetirilən vəzifələrlə (həll edilən məsələlərlə) müəyyən edilir.

Marketinq fəaliyyətinin təhlilinin əsas məqsədi bazarın vəziyyətinin qeyri-müəyyənliyi şəraitində elmi cəhətdən əsaslandırılmış idarəetmə qərarlarının qəbul edilməsi üçün informasiyanın toplanmasından, sistemləşdirilməsindən və ümumiləşdirilməsindən ibarətdir. Təşkilatın xüsusi məqsədləri marketinq strategiyası və taktikasının formalaşması şəraitində onun konkret tələbatları ilə müəyyən edilir.

Fikirmizcə, təşkilatın marketinq tədqiqatı prosesində təhlilin kompleks obyektləri, əvvəla, real bazar prosesləri, o cümlədən istehlakçılar və rəqiblər, ikincisi isə, təşkilatın konkret məhsul növləri istehsalı üzrə iqtisadi və istehsal imkanlarıdır.

Həmin obyektlərin qarşılıqlı əlaqəli öyrənilməsi bazar vəziyyətini və təşkilatın imkanlarını nəzərə alaraq optimal çeşid proqramını formalaşdırmaq imkanı yaradır ki, bu da konkret təşkilat nöqteyi-nəzərindən marketinq təhlilinin ən əhəmiyyətli prioritet (əsas) məqsədlərindən biridir. Həmin məqsədə nail olunması məhsulu bazarda nəzərdə tutulmuş həcmdə səmərəli realizə etmək, təşkilatın rəqabət qabiliyyətini, maliyyə sabitliyini, davamlılığını yüksəltmək və ümumiyyətlə "yaşamasını" təmin etmək imkanı yaradır.

Bu məqsədə nail olunması üçün aşağıdakı əsas vəzifələri həll etmək tələb olunur:

1) ümumiyyətlə bazarın tutumunu və konkret təşkilatın bazar payını qiymətləndirmək;

2) cari bazar tələbini müəyyən etmək, tələbin elastikliyini təhlil etmək;

3) qiymət siyasətini və çeşid portfelinin formalaşmasını təhlil etmək;

4) məhsulun rəqabət qabiliyyətini təhlil etmək və qiymətləndirmək.

Yuxarıda göstərilən, habelə marketinq tədqiqatlarının konkretləşdirilməsi prosesində qarşıya qoyula bilən digər vəzifələrin həll edilməsi geniş miqyasda təhlilin metodlarından və üsullarından istifadə olunmasını nəzərdə tutur. Marketinq fəaliyyətinin öyrənilməsinin bütün mərhələlərində təhlilin hansı səmərəli metodunun tətbiq edilə bilməsini müəyyən etmək vacibdir.

4.2. Marketinq sistemində aparılan təhlilin əsas metodları və növləri

Marketinq tədqiqatları prosesində təhlilin həm ənənəvi, həm də spesifik metodlarının və üsullarının geniş dairəsindən istifadə edilir. Marketinq fəaliyyətinin təhlil edilməsinin ən çox istifadə olunan metodlarını səciyyələndirək.

1. ***İqtisadi təhlilin ənənəvi metodları:***

- *analitik göstəricilər sistemi;*
- *amillər üzrə modelləşdirmə;*
- *müqayisə, qruplaşdırma metodları və d.*

Bu metodların məzmunu və tətbiqi sahəsi "Təsərrüfat subyektlərində iqtisadi təhlilin təşkilinin nəzəri əsasları" adlanan I hissədə nəzərdən keçirilmişdir.

2. ***İqtisadi-riyazi metodlar*** təhlil edilən göstəricilər arasında bazar mühiti üçün səciyyəvi olan təsadüfi, stoxastik əlaqələr olduğu hallarda tətbiq edilir. Marketinq tədqiqatları aparan zaman ən çox yayılmış metodlar aşağıdakılardır:

- *çoxölcülü metodlar* (ilk növbədə klaster təhlil). Onlar marketinq nəticələrinin əsaslandırılması məsələsini həll edirlər: böyük miqdarda qarşılıqlı əlaqəli dəyişənlər olduqda onların ən mühümləri seçilir, məsələn, məhsul satışının həcmi onun qiymətindən, rəqabət qabiliyyətindən, reklam xərclərindən və s., asılı olaraq müəyyən edilir;

- *korrelyasiya və reqressiya metodları.* Onlardan marketinq fəaliyyətini təsvir edən dəyişənlər qrupları arasında qarşılıqlı əlaqələr

qurulması üçün istifadə edilir, məsələn, reklam xərclərinin həcmini 10% azaltsaq, satışın həcmi necə dəyişər;

• *statistik metodları.* Onlar kütləvi, təkrar olunan halların öyrənilməsi üçün əsas vasitədir və bazarın davranış tərzinin proqnozlaşdırılmasında istifadə edilir;

• *qərarların qəbul edilməsi nəzəriyyəsi metodları* (oyunlar nəzəriyyəsi, kütləvi xidmət nəzəriyyəsi, stoxastik proqramlaşdırma). Marketinq fəaliyyətində belə nəzəriyyələr bazarın vəziyyətinin dəyişilməsinə istehlakçıların davranışı öyrənilərdə tətbiq edilir və bu zaman tədqiq edilən hallar təsadüfi xarakter daşıyır, məsələn, bazarda payın proqnozlaşdırılması, ticarət markasından asılılıq dərəcəsinin araşdırılması;

• *variasiyalı təhlil* (yaxud imitasiya metodları). Bu metodlar o halda tətbiq edilir ki, marketinq vəziyyətinə təsir edən amilləri (məsələn, reklam elanının rəngi, qablaşdırmanın növü) analitik proseduraların köməyilə müəyyən etmək mümkün deyil.

• *xətti və qeyri-xətti proqramlaşdırma metodları.* Onlar çoxsaylı qarşılıqlı əlaqəli dəyişənləri müəyyən etmək və optimal həll yolunu tapmaq üçün tətbiq edilir, məsələn, malın istehlakçıya çatdırılması üzrə malların hərəkətinin mümkün variantlarından maksimal mənfəəti təmin edən variantı seçmək.

3. *Evristik metodlar, yaxud ekspert qiymətləndirmə metodu* – yaranmış müxtəlif bazar vəziyyəti ilə əlaqədar marketinq məsələlərinin mütəxəssislərin intuisiyası, təcrübəsi əsasında həlli metodudur. Onlar elə vəziyyətlərin kəmiyyətcə ölçülməsi üçün tətbiq edilir ki, onlar üçün digər ölçülmə üsulu mövcud deyil, məsələn, məqsədlərin mühümlüyünü, ayrı-ayrı metodların üstünlüyünü qiymətləndirən zaman və s. evristik metodlara aşağıdakılar aiddir:

• *"Delfi" metodu.* O, ən çox tanınmış və səmərəli metoddur. Onun mahiyyəti rəylərin anonimliyi saxlanmaqla və ekspertlərin öz aralarında bilavasitə əlaqə yaratmasına yol verilməməklə bir neçə mərhələdə ekspert sorğuları keçirilməsindən ibarətdir.

• *İdeyaların kollektiv generasiyası metodu* (yaxud "beyin həmləsi" metodu). O, ekspertlərin fəal yaradıcılıq prosesinə cəlb

edilməsinə əsaslanmışdır. Məsələ ideyaların ümumi sırasında orijinal ideyaların təmərküzləşməsinin yüksəldilməsi yolu ilə həll edilir.

• *fəlakətlər nəzəriyyəsi.* O, sistemin qeyri-sabitliyinin (davamsızlığının) öyrənilməsinin və proqnozlaşdırılmasının yaxınlaşan fəlakətlərin əlamətlərinin aşkar edilməsinin və s. analitik proqramıdır.

4. ***Çoxölçülü (matrisa) metodlar*** – təşkilatın bazarda mövqeyini səciyyələndirmək, yaranmış bazar vəziyyətinin və öz imkanlarının kombinasiyasını əks etdirmək imkanı yaradan çoxölçülü matrisaların, davranış modellərinin qurulması və təhlili əsasında vəziyyətlərin modelləşdirilməsidir.

Onlardan ən çox tanınmışları və geniş tətbiq edilənləri aşağıdakılardır:

• *SWOT-təhlil.* O, təşkilatın bütün güclü (S) və zəif (W) tərəflərinin müəyyən edilməsinə, habelə bazar imkanlarının (O) və potensial təhlükələrin (T) öyrənilməsinə yönəlmişdir. Aparılmış təhlil əsasında təşkilatın ümumiyyətlə və (və ya) ayrı-ayrı məhsul növlərinin rəqabət qabiliyyətinə qiymət verilir və bazar strategiyası formalaşdırılır;

• *"Mək-Kinsi" matrisası* ("biznes ekranı"). Bu metoddan bazarın iki istiqamət üzrə: konkret təşkilat üçün sahənin cəlbediciliyinin qiymətləndirilməsi və həmin təşkilatın rəqabət qabiliyyətinin qiymətləndirilməsi üzrə təhlil edilməsi zamanı istifadə edilir;

• *BKQ matrisası* (BKQ-Boston konsaltinq qrupu). O, iki əsas meyar: bazarın hissəsi və inkişafı üzərində qurulur. Təşkilat işlənib hazırlanmış matrisanın təhlili əsasında məhsul buraxılışının balanslaşdırılmış (tarazlaşdırılmış) proqramını tərtib edir. Bu matrisa bir çox marketoloqlar tərəfindən nümunə kimi qəbul edilmişdir.

Təhlilin dəqiq alqoritminin olmaması və təhlil edilən informasiyanın birmənalı şərh edilməməsinin mümkünlüyü matrisa metodlarının ciddi çatışmamazlığıdır, bu isə, həmin metodlar əsasında qəbul edilən idarəetmə qərarlarının əsaslandırılması səviyyəsini aşağı salır.

Təhlilin bu və ya digər metodunun tətbiq edilməsinin səmərəliliyi təşkilatın fəaliyyət göstərdiyi konkret bazar məkanından asılıdır və yalnız bazarın tədqiq edilməsi üzrə ümumi tədbirlər sistemində müəyyən edilə bilər.

Ümumiyyətlə marketinq fəaliyyətinin təhlili zamanı strateji və operativ təhlildən geniş istifadə edilir.

Marketinq sistemində ***strateji təhlil*** – təşkilatın uzunmüddətli perspektivə bazarda mövqeyinin tədqiqatı və proqnozlaşdırılmasıdır.

Operativ (taktiki) təhlil – bazarın vəziyyətini nəzərə almaqla təşkilatın cari imkanlarının fəal öyrənilməsi prosesidir, yəni, qısamüddətli dövrdə bazarda təşkilatın davranış taktikasının müəyyən edilməsidir.

Operativ təhlilin nəticələri bazarın tələblərinə daha tam uyğun olacaq, kifayət qədər mənfəət əldə edilməsinə və sabit olaraq pul vəsaitlərinin daxil olmasına kömək edəcək, habelə rəqabət üstünlüyünü təmin edəcək optimal çeşid proqramı işləyib hazırlamaq imkanı yaradacaqdır.

Konkret təşkilat çərçivəsində məhsulların (iş və xidmətlərin) istehsalının və realizə edilməsinin optimal proqramının formalaşdırılması (tərtib edilməsi) üçün təhlilə yanaşma variantları işlənib hazırlanır, çünki marketinq üzrə ədəbiyyatda tövsiyə edilən nəzəri istiqamətlərin dairəsi olduqca genişdir (bazarın tutumunun qiymətləndirilməsi, bazar payının (hissəsinin), istehlakçı tələbinin təhlili, qiymət siyasətinin öyrənilməsi, məhsulun yaşama (həyat) dövrünün (silsiləsinin) qiymətləndirilməsi, rəqabət qabiliyyətinin təhlili və s.). Daha sonra məhsulların (iş və xidmətlərin) istehsalının və realizə edilməsinin optimal çeşid proqramının formalaşması (tərtib edilməsi) zərurətilə əlaqədar daha çox istifadə edilən istiqamətlərini nəzərdən keçirəcəyik.

4.3. Bazarın tutumunun və təşkilatın bazar payının təhlili və qiymətləndirilməsi

Bazarın tutumu orada müəyyən vaxt dövrü ərzində konkret məhsul növünün satışının natural və ya dəyər ifadəsində məcmu həcmilə müəyyən edilir. Bu göstərici konkret bazarda real işləmək imkanını səciyyələndirir. Bazarın potensial tutumunun hesablanması üçün aşağıdakı üsullardan istifadə edilə bilər.

1. Potensial istehlakçılar dairəsinin müəyyən edilməsi yolları:

- ən əhəmiyyətli topdan satış istehlakçılarının həmin məhsula tələbatının təhlili;
- ən tipik (nümunəvi) regionda satışın ilkin həcminin modelləşdirilməsi və nəticələrin bütün bazara şamil edilməsi yolu ilə müəyyən edilməsi.

2. Trendlərin təhlili – bir neçə dövr ərzində məhsulun realizə edilməsinin dinamikasının və strukturunun öyrənilməsi və keçmiş dövr üzrə meyllərin gələcək dövrlərə şamil edilməsi.

3. Bazarın tutumunun dinamikasına təsir edən amillərin (tələbin genişlənməsinin, rəqabət qabiliyyətinin, inflyasiyanın və s.) aşkar edilməsi və təhlili.

Bazarın tutumunun daha dəqiq qiymətləndirilməsi üçün hesablama bir neçə metodun tətbiqi ilə həyata keçirilir və alınmış nəticələr tutuşdurulur. Əgər qiymətlərin fərqlənməsi 10-12%-dən az olarsa, onda hesab edilir ki, hesablama düzgün aparılmışdır və bazarın təhlilinin digər elementlərinə keçmək olar. Əgər fərqlənmə 15%-dən yüksək olarsa, onda hesablama metodologiyasını dəqiqləşdirmək lazımdır. Konkret təşkilat mövqeyindən (nöqteyi-nəzərindən) marketinq fəaliyyətini təhlil edən zaman bazar payı (d_p) daha böyük maraq yaradır. Bu göstərici təşkilatın həm maliyyə-təsərrüfat, həm də marketinq fəaliyyətinin nəticələrini kifayət qədər mötəbər əks etdirir. O, konkret məhsul növü və ya çeşid qrupu üzrə satışının həcminin (V_i) həmin məhsul bazarının potensial tutumuna (V_{potens}) nisbəti kimi hesablanır

$$d_p = \frac{V_i}{V_{potens}}. \quad (4.1.)$$

Göstəricinin müsbət dinamikası təşkilatın bazarda mövqeyinin möhkəmləndirilməsini və onun rəqabət qabiliyyətinin yüksəldilməsini sübut edir.

Bu göstərici çeşid proqramının formalaşması zamanı, konkret olaraq – təşkilatın bazar siyasətinə və bazarın tələbatına əsaslanaraq müəyyən məhsul növü üzrə satışının həcminin artmasının (yaxud azalmasının) mümkünlüyü və zəruriliyi barədə məsələnin həlli zamanı ən mühüm praktiki əhəmiyyət kəsb edir.

Təşkilatın marketinq imkanlarının qiymətləndirilməsi üzrə zəruri tədqiqatların aparılması, bir qayda olaraq, portfel təhlili (portfolio-analiz) üsullarına əsaslanır.

Portfel təhlili – o tədqiqat və vasitədir ki, onun köməyilə təşkilat vəsaitlərini ən mənfəətli və perspektivli məhsul istehsalına qoymaq və az rentabelli və ya rentabelli olmayan məhsulun buraxılışını azaltmaq yaxud dayandırmaq məqsədilə özünün maliyyə-təsərrüfat fəaliyyətini qiymətləndirir.

Tədqiqat BKQ matrisasının köməyilə aparılır, o, təşkilatın bazarda payında hansı məhsulun aparıcı vəziyyət tutmasını və satışın dinamikasının necə olmasını müəyyən etməyə imkan yaradır. Matrisa iki göstəricinin:

1) satışın həcminin artımının onların fiziki həcminin indeksi kimi hesablanan templəri;

2) təşkilatın konkret məhsul növü üzrə tutduğu nisbi bazar payının ((4.1) düsturuna baxın) hesablanması əsasında qurulur.

Matrisa çərçivəsində məhsulun dörd mövqeyini seçirlər: "ulduzlar", "sağmal inəklər", "vəhşi pişiklər" ("dəcəl uşaqlar") və "uğursuz" ("it").[1] Hər tip üçün müvafiq əmtəə strategiyası təklif edilir.

[1] Marketinq üzrə ədəbiyyatda eyni tip məhsulların digər adlarına rast gəlinir[29].

"Ulduzlar" lider vəziyyəti tuturlar (bazarda payı yüksəkdir). Onlar əhəmiyyətli dərəcədə mənfəət gətirir, lakin eyni zamanda bazar payının davam edən artımının və ya saxlanılmasının, maliyyələşdirilməsi üçün böyük həcmdə vəsaitlər, habelə həmin vəsaitlər üzərində ciddi nəzarət tələb edir.

Bazarın inkişafı templəri zəiflədikcə "ulduzlar" "sağmal inəklərə" çevrilirlər və onlar nisbətən sabit yaxud azalan bazarda (yavaş, zəif artım) lider vəziyyəti tuturlar.

Hər-hansı əlavə xərc tələb olunmadan satışın nisbətən sabit olması sayəsində həmin mal onun bazardakı payının saxlanması üçün tələb olunan vəsaitlərdən artıq mənfəət gətirir.

"Vəhşi pişik" bazara zəif təsir edir (bazarda payı azdır). Bir qayda olaraq, o, alıcıların zəif dəstəyi və aydın olmayan rəqabət üstünlüyü ilə səciyyələnir. Bazarda rəqiblər aparıcı vəziyyət tuturlar.

Bu halda marketinq strategiyası – həmin bazarda firmanın səylərinin intensivləşdirilməsi yaxud oradan getməkdir.

"Uğursuz" – satış həcmi məhdud olan məhsuldur, çünki o, bir çox göstəricilər üzrə rəqiblərdən geri qalır. Bu halda bazarda strategiya – belə məhsul istehsalının ləğv edilməsidir.

BKQ matrisasının xarici ölkələrdə tətbiq edilməsi təcrübəsi göstərir ki, o, təşkilatın çeşid portfelinin formalaşması üçün olduqca faydalıdır. BKQ matrisasından təcrübədə istifadə edilməsi qaydasını şərti misal əsasında nəzərdən keçirək. 4.1. cədvəlində verilmiş məlumatlar əsasında BKQ matrisası qurulmasü üçün zəruri göstəriciləri hesablayaq:

1) hər məhsul növü üzrə satışın artması (azalması) tempi;

2) bazarda hər məhsul növü üzrə liderlik əmsalı ($Ə_{lid}$), (konkret məhsul növü üzrə təşkilatın bazar payının ən güclü rəqibin bazar payına nisbəti);

3) satışın ümumi həcmində ayrı-ayrı növ məhsulun payı.

Cədvəl 4.1.

X təşkilatında buraxılan konkret məhsul növləri üzrə bazar vəziyyətinin xarakteristikası

Məhsulun növü	X təşkilatı üzrə məhsul satışının həcmi, müqayisəli qiymətlərlə, min man.		2007-ci ildə bazarın tutumu, min man.	2007-ci ildə rəqibin satışının həcmi, min man.	2007-ci ildə bazar payı, %	
	2006-cı il	2007-ci il			X təşkilatının	Ən güclü rəqibin
A	5800	5000	14706	2500	34	17
B	1180	1298	3933	826	33	21
C	180	260	5200	364	5	7
Ç	3700	4810	43727	3935	11	9
D	560	896	5973	597	15	10
E	120	200	20000	1400	1	7
Ə	1160	696	1740	313	40	18
F	1960	1372	8575	1372	16	16
G	1800	800	40000	8000	2	2

Hesablamaların nəticələri 4.2 cədvəlində təqdim edilmişdir.

Cədvəl 4.2.

BKQ matrisası qurulması üçün ilkin informasiya

Məhsulun növü	Məhsul satışının həcminin artması (azalması) tempi, %	Əlid	Satışın ümumi həcmində məhsulların payı, %
A	86,2	2,0	32,6
B	110,0	1,6	8,5
C	144,4	0,7	1,7
Ç	130,0	1,2	31,4
D	160,0	1,5	5,8
E	166,7	0,1	1,3
Ə	60,0	2,2	4,5
F	70,0	1,0	8,9
G	44,4	1,0	5,2

Matrisanın qurulması üçün əlavə olaraq aşağıdakıları hesablamaq lazımdır:

1) satış həcminin artımının orta tempi

$$T_{or} = \frac{86,2 + 110,0 + 144,4 + 130,0 + 160,0 + 166,7 + 60,0 + 70,0 + 44,4}{9} = \frac{971,7}{9} = 107,97 \approx 108\%.$$

Həmin göstəricinin daha dəqiq hesablanması üçün orta çəkili hesablama düsturundan istifadə edilə bilər


$$T_{or} = \frac{\Sigma T_i \times d_i}{\Sigma d_i}, \qquad (4.2)$$

burada T_i konkret məhsul növü üzrə satışın həcminin artması (azalması) tempidir; d_i satışın ümumi həcmində konkret məhsul növünün payını göstərir;

2) bütün məhsul növləri üzrə bazarda orta liderlik əmsalı

$$Əlid.or = \frac{2,0 + 1,6 + 0,7 + 1,2 + 1,5 + 0,1 + 2,2 + 1,0 + 1,0}{9} = 1,44;$$

3) matrisada dairənin diametri-satışın ümumi həcmində ayrı-ayrı növ məhsulun payı ilə müəyyən edilir. BKQ matrisası 4.1 sxemində təqdim edilmişdir.



Sxem 4.1. ***BKQ matrisası.***

Məhsulun bazarda mövqeyini təyin edən zaman onun həyat (yaşayış) silsiləsinin (dövrünün) hansı mərhələsində (niyyət, tətbiq edilmə, yetkinlik, tənəzzül) olmasını nəzərə almaq və çeşid portfelinin formalaşmasının aşağıdakı prinsiplərinə istiqamətlənmək lazımdır:

1) "ulduzları" qorumaq və möhkəmləndirmək lazımdır;

2) "uğursuzları" mümkün qədər aradan çıxartmaq lazımdır;

3) "sağmal inəklər" üçün – istehsal həcminin inkişafı perspektivlərinin müəyyən edilməsi məqsədilə satış həcminin dinamikasının dərin təhlili tələb edilir;

4) "vəhşi pişikləri" xüsusilə öyrənmək lazımdır ki, onların "ulduzlara" çevrilə bilməsi ya çevrilə bilməməsi müəyyən edilsin;

5) "vəhşi pişiklər", "ulduzlar" və "sağlam inəklər" məhsullarının kombinasiyası təşkilatın fəaliyyətinin ən yaxşı nəticələrini - orta rentabelliyini, yaxşı satış (satılma) qabiliyyətini və satışın uzunmüddətli artımını təmin edir;

6) "vəhşi pişiklər" və "ulduzlar" kombinasiyası qeyri-sabit rentabelliyə və aşağı satış (satılma) qabiliyyətinə gətirib çıxarır;

7) "sağlam inək" və "uğursuzlar" kombinasiyası – satışın tənəzzülü və rentabelliyin azalmasıdır.

Bazarın təhlilinin bu mərhələsində çeşid proqramının formalaşması baxımından ona A; B; Ç və D məhsul növlərini daxil etmək məsləhətdir, C, E və Ə məhsul növləri üzrə isə onların bazar imkanları əlavə təhlil edildikdən sonra qərar qəbul etmək lazımdır.

Nəzərdən keçirilən analitik üsulun əsas çatışmamazlığı ondan ibarətdir ki, təşkilatın bazarda mövqeyi yalnız iki meyar üzrə qiymətləndirilir. Digər amillər (qiymət, rəqabət səviyyəsi və s.) nəzərə alınmır.

4.4. Qiymət siyasətinin formalaşdırılmasının təhlili

Marketinq təhlili prosesində satışın optimal çeşid (assortiment) siyasətinin formalaşması təşkilatın qiymət siyasətindən əhəmiyyətli dərəcədə asılıdır.

Qiymət siyasəti – təşkilatın bazarda fəaliyyətinin məqsədlərinə və şərtlərinə uyğun olaraq, məhsulların qiymətlərinin müəyyən edilməsi və tənzimlənməsi prosesidir.

Qiymətlərin formalaşması prosesi "Qiymətlər və bazarın konyunkturası" kursunda dərindən öyrənilir, bu zaman marketinq təhlili sisteimndə məhz qiymət siyasəti ən əhəmiyyətli amildir. Təhlil prosesində qiymətqoyma mexanizmi tədqiq edilir, o, təşkilatın bazarda konkret məqsədləri (mənfəətin maksimuma çatdırılması, satış bazarlarının genişləndirilməsi, satışın həcminin artırılması və s.) nöqteyi-nəzərindən tələb və təklifin dəyişilməsi ilə əlaqədar məhsulların qiymətlərinin diapazonunu formalaşdırır və onların dəyişilməsi hədlərini müəyyən edir.

Marketinq təhlili üsullarından biri təşkilatın və ən əhəmiyyətli rəqiblərin məhsullarının qiymət səviyyəsi, habelə onların bazarda (sahədə, regionda və s.) orta qiymətlərilə müqayisəli təhlilidir. Bazarın tutumunun və təşkilatın konkret məhsul növü üzrə payının 4.3-cü cədvəldə aparılmış təhlilinin məlumatlarına əsasən çeşid proqramına məhsulun A, B, Ç və D növlərini daxil etmək tövsiyə olunur.

Yuxarıda adları çəkilən məmulatlar üzrə qiymət siyasətini təhlil edək (cədvəl 4.3).

Cədvəl 4.3

Məhsulların qiymətinin səviyyəsinin müqayisəli təhlili

Məhsulun növü	Təhlil edilən müəssisə		Ən güclü rəqib müəssisələrdə						Orta çəkili qiymət
			1		2		3		
	qiyməti, min man.	miqdarı ədəd	qiyməti, min man.	miqdarı, ədəd	qiyməti, min man.	miqdarı, ədəd	qiyməti, min man.	miqdarı, ədəd	
A	10	5000	12	2400	15	2000	9	2100	11,10
B	20	1298	21	800	21	780	23	750	21,06
Ç	5	4810	4	4010	7	2500	6	3100	5,28
D	30	896	29	600	29	570	30	530	29,55

Verilən məlumatlar qiymət siyasətinin imkanlarına əsaslanaraq məhsulun nəzərdə tutulan satış qiymətləri haqqında aşağıdakı ilkin nəticəyə gəlmək üçün əsas verir:

a) rəqiblərin satış bazarından sıxışdırılıb çıxardılması (A məmulatı);

b) maksimum mənfəət alınması (D məmulatı);

s) kifayət səviyyədə mənfəət norması olmaqla bazarda sabit vəziyyətin saxlanması (B və Ç məmulatları) və s.

Qiymət siyasətinin, habelə məhsul satışı həcmiinn formalaşdırılması prosesində məhsulun həyat (yaşama) silsiləsinin (dövrünün) mərhələsini nəzərə almaq lazımdır.


4.5. Təşkilatın və məhsulun rəqabət qabiliyyətinin təhlili və qiymətləndirilməsi

Malın rəqabət qabiliyyəti əksər halda həmin malı rəqib maldan həm konkret tələbatın ödənilməsi dərəcəsi üzrə, həm də onun ödənilməsinə çəkilən xərclər üzrə fərqləndirən xarakteristikaların, habelə onların satışı və istehlakı ilə əlaqədar xidmətlərin məcmusu kimi müəyyən edilir.

Bazar iqtisadiyyatı şəraitində məhsulun rəqabət qabiliyyəti müəssisəsinin təsərrüfat fəaliyyətini qiymətləndirən göstəricilər sistemində mərkəzi yer tutur. Bununla əlaqədar olaraq istehsalçı öz işinin maksimum səmərəliliyinə nail olmaq məqsədilə buraxdığı məhsulun rəqabət qabiliyyətini idarə etməlidir. Həmin göstəricinin idarə edilməsi mexanizminin elementlərindən biri məhsulun rəqabət qabiliyyətinin təhlilinin aparılması və onun səviyyəsinin müəyyən edilməsidir.

Rəqabət qabiliyyətinin təhlili məhsulun həyat (yaşama) silsiləsinin (dövrünün) bütün mərhələlərində fasiləsiz və sistematik aparılmalıdır. Belə yanaşma sahibkara onun buraxdığı məhsulun rəqabət qabiliyyətinin nə vaxt aşağı düşməyə başlaması anını müəyyən etmək və mal çeşidinin optimal dəyişilmələri, yeni bazarlar axtarılması zərurəti, yeni və təkmilləşdirilmiş məmulatların işlənib hazırlanması və istehsalı, istehsal güclərinin genişləndirilməsi və yaradılması və s. haqqında vaxtlı-vaxtında qərar qəbul etmək imkanı yaradır.

Məhsulun rəqabət qabiliyyətinin təhlili və qiymətləndirilməsi sxem üzrə (sxem 4.2) aparıla bilər. Bu sxemdə həmin proseduranın ən əhəmiyyətli mərhələləri qeyd edilmişdir.



Sxem 4.2. ***Məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsinin nümunəvi sxemi***

Belə yanaşma əsasında rəqabət qabiliyyətinin qiymətləndirilməsi təhlil edilən və rəqabət aparan malların parametrlərinin[1] alıcıların tələblərilə müəyyən edilmiş səviyyə ilə müqayisə edilməsini və alınmış nəticələrin tutuşdurulmasını nəzərdə tutur.

Birinci mərhələdə *təhlilin və rəqabət qabiliyyətinin qiymətləndirilməsinin məqsədləri* müəyyən edilməlidir, çünki onlar məhsulun həyat (yaşama) silsiləsinin (dövrünün) hər mərhələsində ilkin informasiyanın məzmununu və həcmini (işlənib hazırlanma, istehsal, satış, istismar yaxud istehlak) müəyyən edir. Belə ki, əgər bu malın oxşar mallar sırasında bugünkü vəziyyətini müəyyən etmək tələb olunarsa, onların ən əsas parametrlər üzrə müqayisə edilməsi kifayətdir. Əgər məhsulun konkret bazarda satışı perspektivlərini qiymətləndirmək lazımdırsa, belə təhlil üçün həmin bazara hələ yenicə çıxmağa başlayan mallar, satışın dinamikası, müvafiq qanunvericilikdə gözlənilən dəyişilmələr və s. haqqında məlumatları əhatə edən informasiyadan istifadə etmək lazımdır.

Lakin məhsulun rəqabət qabiliyyətinin təhlilinin məqsədlərindən asılı olmayaraq təhlil üçün əsas şərt bazar şəraitinin öyrənilməsidir. Bununla əlaqədar olaraq *bazarın marketinq tədqiqatlarının* (rəqiblər haqqında məlumat toplanması, alıcılar və onların tələbləri barədə informasiyanın öyrənilməsi və s.) müntəzəm aparılmasını rəqabət qabiliyyətinin qiymətləndirilməsinin çox mühüm mərhələsi hesab etmək olar. Belə tədqiqatın ən əsas vəzifəsi – bazarın müəyyən seqmentində tələbin formalaşmasına təsir edən amillər qrupunun seçilib ayrılması və təhlilidir. Təhlilin məqsədi məhsul üçün ən əlverişli seqmentin seçilməsindən, malın tələb olunan texniki-iqtisadi göstəricilərinin, onun bazar potensialının (bazarın mümkün olan tutumunun) müəyyən edilməsindən ibarətdir.

Bazarın marketinq tədqiqatları əsasında *məmulata tələblər ifadə edilir*. Bu zaman nəzərə alınan əsas meyarlar aşağıdakılardır:

- məhsulun texniki səviyyəsi;

[1] Parametrlər məmulatın xassələrini kəmiyyətcə səciyyələndirir.

• beynəlxalq standartlar, idxal edən ölkənin qanunvericiliyi və istehlakçının spesifik tələbləri;

• istismar və ya istehlak zamanı məhsulun keyfiyyətinin səviyyəsinə tələbləri ehtiva edən normativ-texniki sənədlər;

• məhsulun əldə edilməsinə və istismarına istehlakçının xərclərinin (gömrük rüsumlarının ödənilməsi xərclərinin, vergilərin, daşınma, təmir və s. xərclərinin) səviyyəsi.

Məhsula qarşı ifadə edilmiş tələblər *onun qiymətləndirilməli olan parametrlərinin siyahısının müəyyən edilməsi üçün* bazadır. Qeyd etmək lazımdır ki, məhsulun rəqabət qabiliyyəti onun yalnız konkret istehlakçı üçün maraqlı olan xassələrilə müəyyən edilir. Beləliklə, malın istehlakçı maraqları çərçivəsindən kənara çıxan bütün xassələri, bütün parametrləri rəqabət qabiliyyəti qiymətləndirilməsi üçün zəruri olmadığından nəzərdən keçirilməməlidir. Bununla əlaqədar normaların, standartların, qaydaların, istehlakçıların konkret tələblərinin həddinin ötüb keçilməsi (əgəp bu həddi keçmə, daha da yüksəlmə bir neçə vaxtdan sonra tətbiq ediləcək dövləti və digər tələblərin qabaqcadan nəzərə alınması nəticəsində yaranmamışdırsa) malın rəqabət qabiliyyətinin yüksəlməsinə kömək etmir. O, istehlakçı nöqteyi-nəzərindən nəinki faydasızdır, hətta, məsələn, əgər məhsulun qiymətinin artmasına şərait yaradarsa, onun rəqabət qabiliyyətini aşağı sala bilər.

Malın rəqabət qabiliyyətinin qiymətləndirilməsi və müqayisə edilməsi üçün zəruri olan parametrlər dəstinin müəyyən edilməsi ona əsaslanılır ki, əsas parametrlərin bir hissəsi məhsulun istehlak xassələrini (texniki parametrləri), digər hissəsi isə – iqtisadi xassələrini (dəyəri) səciyyələndirir.

Məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsi zamanı *normativ parametrlərinə*, yəni həmin məhsulun satışı nəzərdə tutulan bazarın yerləşdiyi ölkələrin qanunvericilik aktlarına, beynəlxalq standartlara, (təhlükəsizlik, ekologiya və s. göstəriciləri üzrə məhdudiyyətlər də daxil olmaqla), texniki reqlamentlərə (qaydalara), standartlara, texniki şərtlərə və məhsula aid digər qüvvədə olan normativ sənədlərə uyğun olmalı parametrlərin təhlilinə əhəmiyyətli

yer ayırmaq lazımdır. Bu parametrlərin dəyişilməsi beynəlxalq sazişlərin, müqavilələrin, kontraktların pozulması ilə nəticələnə bilər və məhsul istehsalçısının (ixrac edənin) bazarda mövqeyinin itirilməsinə səbəb olar. Məhsulun rəqabət qabiliyyətinin normativ parametrlərinə və şərtlərinə patent təmizliyi, habelə ticarətdə qeyri-tarif məhdudiyyətlər (kəmiyyət üzrə – embarqo, kvotalaşdırma, lisenziyalaşdırma; texniki - reqlamentlərin (qaydaların) və standartların tələbləri; malların qablaşdırılmasına və markalanmasına xüsusi tələblər; mal göndərənin məhsuluna və keyfiyyət sisteminə sertifikatların olması tələbləri) aiddir.

Təhlilin bu mərhələsində malın parametrlərinin onların (bu parametrlərin) səviyyəsini və hədlərini müəyyən edən məcburi reqlamentlərə (qaydalara), standartlara və normalara uyğunluğu müəyyən edilir. Əgər onlardan hətta biri qüvvədə olan normalarla və standartlarla təsdiq edilmiş məcburi səviyyəyə uyğun gəlməzsə, onda digər parametrlər üzrə müqayisənin nəticələrindən asılı olmayaraq, məhsul rəqabət qabiliyyətli hesab edilə bilməz. Bununla əlaqədar olaraq, ilk növbədə malın parametrlərinin konkret ölkənin bazarında qüvvədə olan standartlara və qanunvericilik aktlarına uyğunluğu təhlil edilməlidir və yalnız belə uyğunluq aşkar edildiyi halda məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsi davam etdirilməlidir.

Məhsulun qiymətləndirilməli olan parametrlərinin siyahısının müəyyən edilməsi, habelə normativ parametrlərin təhlili zamanı:

- qüvvədə olan beynəlxalq (İSO, MEK və b) və regional standartlarını;
- xarici ölkələrin və ölkəmizin milli standartlarını;
- ixrac edən ölkənin və idxal edən ölkənin ölkəyə gətirilən məhsula qarşı tələbləri müəyyən edən qüvvədə olan qanunvericiliyini, normativ aktlarını, texniki reqlamentlərini (qaydalarını);
- göndərmə sənədlərini;
- həmin məhsulu istehsal edən firmaların kataloqlarını, prospektlərini və standartlarını;
- patent və konyunktura-iqtisadiyyat sənədlərini;

- məhsulun sertifikatlaşdırılmasının nəticələrini rəhbər tutmaq məqsəduyğundur.

Məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsinin nəticələrinin düzgünlüyü və müvafiq olaraq, sonralar qəbul edilən qərarların əsaslı olması müqayisə bazasının seçilməsindən asılıdır. İstehsalçı müqayisə bazası kimi alıcıların tələbatını, rəqib malı, hipotetik (təxmini) nümunəni, analoqlar qrupunu və s. seçə bilər.

Alıcıların tələbatı nəzərə alınmaqla müqayisə bazası kimi nomenklatura seçilir və alıcıların tələbatının parametrlərinin ölçüsü, habelə həmin parametrlərin ümumi parametrlər dəstəsində xüsusi çəkisi (payı) müəyyən edilir.

Əgər alıcıların tələbatı haqqında geniş və dəqiq informasiya almaq çətindirsə, onda artıq tələb edilən mal nümunəsinin köməyilə rəqabət qabiliyyətinin qiymətləndirilməsinin dolayı metodu tətbiq edilə bilər. Nümunə tələbatı modelləşdirilir və qiymətləndirilməli olan məhsulun ödəməli olduğu materiallaşdırılmış tələblər şəklində çıxış edir[32].

Bəzən müqayisə bazası kimi hipotetik nümunədən istifadə edirlər. O, məmulatlar qrupunun parametrlərinin orta qiymətini təmsil edir. Belə prosedura konkret analoji nümunə üzrə kifayət qədər informasiya olmadıqda tətbiq edilir. Əslində elə bir tələbatın təhlilindən söz gedir ki, o, mövcud olmaya da bilər, odur ki, bu halda qiymətləndirmə təxmini kimi nəzərdən keçirilir.

Əksər hallarda müqayisə bazası kimi analoqlar qrupu qəbul edilir. Onlar nümunənin və qiymətləndirilən məhsulun təsnifat parametrlərinin[1] uyğunlaşdırılması nöqteyi-nəzərindən seçilir və onlardan satışın daha da genişləndirilməsi üçün ən yaxşı perspektivi olan məhsullar seçilir.

Nəzərdən keçirilən nümunəvi metodikaya uyğun olaraq məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsinin növbəti mərhələsi analoqlar, yəni bazarda satılan və müqayisə üçün istifadə

[1] Təsnifat parametrləri məhsulun müəyyən təsnifat qrupuna aid olmasını səciyyələndirir.

edilən *analoji mallar qrupunun formalaşdırılmasıdır.* Analoqlar qrupuna daxil edilən bütün mallar aşağıdakı meyarlara cavab verməlidir:

1) rəqib məhsul və qiymətləndirilən məhsul təyinatı və istismar şərtləri üzrə analoji (oxşar) olmalı və istehlakçıların bir qrupuna istiqamətlənməlidirlər;

2) rəqib mal rəqabət qabiliyyəti səviyyəsinin qiymətləndirilməsi məqsədlərinə cavab verməlidir;

3) rəqib malın qiymətləndirilmə anında bazarda mötəbərliyi və perspektivdə onun dəyişilməsi meylləri etibarlı informasiya ilə təsdiqlənməlidir.

Analoqlar qrupuna aşağıdakılar daxildir:

- *hazırlanan məhsul qiymətləndirilərdə* – qiymətləndirilən məhsulun buraxılması dövründə dünya bazarına daxil olması proqnozlaşdırılan perspektivli və eksperimental nümunələr, yaxud perspektiv tələbatı 100% ödəyən ideal istehlak modeli;
- *buraxılan məhsul qiymətləndirilərdə* – göstəricilərinin ölçüləri onlarda olan sənədlər və (və ya) sınaqlar nəticəsində müəyyən edilən, dünya bazarında satılan nümunələr (yaxud ideal istehlak modeli). Buraxılan məhsul qiymətləndirilən zaman analoq kimi istehsalı mənimsənilməmiş məhsulların reklam və eksperimental nümunələrindən istifadə etməyə icazə verilmir.

Qiymətləndirmənin növbəti mərhələsi – *baza nümunələrinin seçilməsidir.* Belə nümunələr kimi bütün analoqların seçilmiş qiymətləndirmə göstəricilərinin kəmiyyətləri üzrə ardıcıl surətdə cüt-cüt tutuşdurulması metodu əsasında analoqlar qrupundan ən yaxşıları seçilib ayrılır. Bu zaman:

- əgər analoq qiymətləndirmə göstəricilərinin məcmusu üzrə digər analoqdan geri qalırsa, yəni ondan hətta bir göstərici üzrə geri qalarsa və heç bir digər göstərici üzrə ondan yüksək olmazsa baza nümunəsi kimi qəbul edilə bilməz və sonrakı tutuşdurmalardan çıxarılır;
- əgər iki analoqdan biri bəzi göstəricilər üzrə, ikincisi isə – digərləri üzrə daha yaxşıdırsa hər iki analoq qalanları ilə sonrakı

tutuşdurma üçün qalır. Bu zaman analoqlarda bəzi göstəricilərin qiymətləri eyni ola bilər.

Cüt-cüt tutuşdurma nəticəsində qiymətləndirmə göstəricilərinin məcmusu üzrə qalanların heç birindən geri qalmayan analoqlar qalır. Onlar baza nümunələri rolunu oynayır.

Məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsinin növbəti mərhələsi – *onun keyfiyyətinin, istehlak qiymətinin və təşkilati-kommersiya göstəricilərinin təhlilidir.*

Məhsulun keyfiyyətinin təhlili və qiymətləndirilməsi üçün onun texniki mükəmməlliyini səciyyələndirən göstəricilərin (texniki göstəricilərin) aşağıdakı qruplarından istifadə edilir.

1. *Təyinat göstəriciləri* – məhsulun tətbiq sahəsini və onun yerinə yetirməli olduğu əsas funksiyaları səciyyələndirir.

2. *Mötəbərlik göstəriciləri* – məhsulun tələb olunan vaxt ərzində yaxud tələb olunan istehsal həcmi ərzində özünün istismar göstəricilərini saxlamaqla müəyyən funksiyaları yerinə yetirmək qabiliyyətini müəyyən edir.

3. *Erqonometriya göstəriciləri* – məhsulun istehlakçının "insan-məmulat-istifadə mühiti" sistemində təzahür edən gigiyenik, antropometrik, fiziki, psixofizioloji və psixoloji xassələrinə uyğunlaşma qabiliyyətini səciyyələndirir.

4. *Estetik göstəricilər* – məhsulun estetik xassələrini: onun informasiya səlisliyini, formasının səmərəliliyini, dizaynının orijinallığını, kompozisiyasının bütövlüyünü və s. səciyyələndirir.

5. *Texnoloji göstəricilər* – məhsulun hazırlanması, təmiri və istismarı zamanı yüksək əmək məhsuldarlığının təmin edilməsi üçün konstruktiv-texnoloji qərarların səmərəliliyini müəyyən edir (əmək tutumu, material tutumu və s.).

6. *Unifikasiya göstəriciləri* – məhsulda standart, unifikasiya edilmiş (vahid şəklə salınmış) və orijinal tərkib hissələrindən istifadə edilməsi dərəcəsini, habelə digəp məmulatlarla unifikasiyası səviyyəsini səciyyələndirir.

7. *Daşınılma mümkünlüyü (münasibliyi) göstəriciləri* – məhsulun daşınılmaya (öz hərəkətilə və ya konkret nəqliyyat vasitəsi növünə münasibətdə) uyğunlaşma qabiliyyətini müəyyən edir.

8. *Patent-hüquq göstəriciləri* – məhsulun patent saflığını (onun yenilik dərəcəsini) və patent müdafiəsini (məhsulun Azərbaycandada müəlliflik şəhadətnamələrilə və ölkəmizin ixtiralarının ixrac edilməsi və ya onlara lisenziya satılması nəzərdə tutulan ölkələrdə müdafiəsi dərəcəsini) səciyyələndirir. Bu göstəricilər məhsulun rəqabət qabiliyyətinin müəyyən edilməsində əhəmiyyətli rol oynayır. Onlar mahiyyət etibarı ilə yalnız malın keyfiyyət göstəriciləri kimi deyil, həm də onun rəqabət qabiliyyətinin normativ göstəriciləri kimi nəzərdən keçirilə bilər.

9. *Ekologiya göstəriciləri* – məhsulun istismarı yaxud istehlakı zamanı ətraf mühitə zərərli təsirlərin səviyyəsini səciyyələndirir.

10. *Təhlükəsizlik göstəriciləri* – məhsulun istismarı və ya istehlakı zamanı insanın (xidmət edən şəxsi heyətin) təhlükəsizliyini şərtləndirən xüsusiyyətlərini müəyyən edir.

Məhsulun spesifik xüsusiyyətlərindən və onun tətbiqi şəraitindən asılı olaraq istifadə edilən qiymətləndirmə göstəriciləri sistemi tamamlana yaxud azaldıla bilər. Bundan əlavə, həll edilən məsələnin xarakterindən asılı olaraq, adı çəkilən göstəricilərin bir hissəsindən qiymətləndirmə zamanı məhdudiyyətlər kimi, məsələn, normativ parametrləri arasında istifadə edilə bilər

Alıcı bazarda təklif edilən malları qiymətləndirərkən onların istehlak keyfiyyətlərilə yanaşı, onları əldə etməklə və onlardan istifadə etməklə əlaqədar onun sərf edəcəyi xərclərin ölçüsünü, yəni istehlak qiymətini də nəzərə almaya bilməz. Alıcı malın istehlak xassələrinin və özünün xərclərinin optimal nisbətinə nail olmağa çalışıraq o məhsulu seçir ki, onun əldə edilməsi nəticəsində xərc vahidinə maksimum fayda, səmərə əldə ediləcəkdir.

Beləliklə, *istehlak qiyməti* məhsulun bütün xidməti dövrü ərzində alıcının onun əldə edilməsinə və istismarına (və ya istehlakına) çəkdiyi tam xərcləri səciyyələndirir. Rəqabət qabiliyyətinin qiymətləndirilməsi zamanı tətbiq olunan iqtisadi göstəricilərin (parametrlərin) nomenklaturası həmin xərclərin strukturu ilə səciyyələnir, sonuncu isə məhsulun xassələrilə, habelə əldə etmə və istifadə etmə şəraitilə müəyyən edilir.

İstehlak qiyməti ümumi şəkildə birdəfəlik və cari xərcləri əks etdirən aşağıdakı elementlərin məcmusudur:

- malın satış qiyməti;
- malın istifadə edilmə yerinə qədər daşınmasına və onun saxlanılmasına çəkilən xərclər;
- yerləşdirmə, quraşdırma, işləmə qabiliyyətli vəziyyətə gətirilmə dəyəri;
- xidmətedici şəxsi heyətin öyrədilməsinə çəkilən xərclər;
- yanacaq (elektrik enerjisi) xərcləri;
- xidmətedici şəxsi heyətin əmək haqqı;
- zəmanətdən sonrakı servis və ehtiyat hissələri alınması üçün xərclər;
- vergilər;
- sığorta rüsumları;
- ehtiyat (resurs) işlənib qurtarandan sonra məmulatın utilizasiyasına (istifadə edilməsinə) çəkilən xərclər;
- gözlənilməyən (qabaqcadan nəzərdə tutula bilməyən) xərclər.

Yuxarıda adları çəkilən xərc növləri ilə yanaşı, istehlak qiymətinə habelə malın fərdi xüsusiyyətlərini səciyyələndirən digər elementlər də daxil edilə bilər.

Məhsulun rəqabət qabiliyyətini qiymətləndirən zaman onun satış şəraitini əks etdirən təşkilati-kommersiya göstəriciləri də nəzərə alınmalıdır. Bu göstəricilərdən rəqabət qabiliyyətinin hərtərəfli qiymətləndirilməsi üçün əlavə kimi istifadə edilir. Onlara göndərmə və zəmanət müddətlərini, ödəniş şərtlərini səciyyələndirən göstəricilər (məsələn, qabaqcadan ödəniş, alınma faktına əsasən ödəniş, müddətin uzadılması, kredit verilməsi, ilkin və sonrakı ödəmələr) və s. aid edilə bilər.

Yuxarıda 4.2. sxemində göstərilmişdir ki, malın keyfiyyətinin və istehlak qiymətinin təhlili zamanı əlahiddə və qruplaşdırılmış göstəricilər hesablanır və onların bazasında *məhsulun rəqabət qabiliyyətinin inteqral göstəricisi* müəyyən edilir.

Əlahiddə göstərici, yaxud parametr indeksi *(q)* qiymətləndirilən məhsulun hər-hansı texniki və ya iqtisadi parametrlərinin kəmiyyətinin baza nümunəsinin müvafiq parametrinin kəmiyyətinə faiz ifadəsində nisbəti kimi müəyyən edilir. Parametr indeksini aşağıdakı düsturlar şəklində təqdim etmək olar:

$$q_i = \frac{B_i}{B_{ib}} (i = 1,...,n); \tag{4.3}$$

$$q_i = \frac{B_{ib}}{B_i}, \tag{4.4}$$

burada B_i -qiymətləndirən məhsulun i-ci göstəricisinin qiymətidir; B_{ib} - i-ci göstəricisinin baza qiymətidir; n-göstəricilərin sayıdır.

Təhlil zamanı (4.3) və (4.4) düsturlarından elə birisi seçilir ki, orada nisbi göstəricinin artması qiymətləndirilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsini əks etdirir. Məsələn, məhsulun gücünün nisbi qiyməti (4.3) düsturu ilə hesablanır, yanacağın xüsusi xərcinin nisbi göstəricisinin hesablanması üçün isə (4.4) düsturundan istifadə edilir.

Qruplaşdırılmış göstərici *(Q)* əlahiddə göstəricilər əsasında məcmu parametr indeksi kimi (yəni parametrlərin bircinsli qrupu – texniki, iqtisadi qruplar üzrə əlahiddə parametrləri birləşdirən) orta çəkili metodu ilə hesablanır:

$$Qtex(iqt) = \sum_{i=1}^{n} a_i \times q_i \tag{4.5}$$

burada q_i - i-ci parametrin parametr indeksidir; a_i -i-ci parametrin çəkisidir (payıdır); n-parametrlərin sayıdır.

Parametrin çəkisinin (payının) müəyyən edilməsi zərurəti istehlakçı üçün malın müxtəlif parametrlərinin eyni əhəmiyyətə malik olmaması ilə izah edilir. Bununla əlaqədar olaraq, ekspert yolu ilə bütün tələbatı 100% qəbul etmək şərtilə istehlakçı üçün hər parametrin əhəmiyyəti (çəkisi, payı) müəyyən edilir.

Beləliklə, qruplaşdırılmış göstərici parametrlərin eyni (texniki və ya iqtisadi) qrupları üzrə rəqabət qabiliyyətinin səviyyəsini əks etdirir.

İnteqral göstəricisi *(K)* məhsulun istismarından və ya istehlakından alınan məcmu faydalı effektin (səmərənin) həmin məhsulun əldə edilməsinə və istifadə olunmasına çəkilən məcmu xərclərə nisbəti kimi müəyyən edilir, yəni əslində bu texniki parametrlər üzrə qruplaşdırılmış göstəricinin (Q_{tex}) iqtisadi parametrlər üzrə qruplaşdırılmış göstəriciyə (Q_{iqt}) nisbətidir:

$$K = \frac{Q_{tex}}{Q_{iqt}} \qquad (4.6)$$

K>1 olduqda qiymətləndirilən məhsul konkret bazarda rəqabət qabiliyyətlidir, K<1 olduqda isə – deyil.

Beləliklə, təşkilati-kommersiya göstəricilərinin hesablanması və təhlili nəticəsində *məhsulun baza nümunələrilə müqayisədə rəqabət qabiliyyəti haqqında nəticə* çıxarılır.

Çıxarılmış nəticə əsasında müəssisənin qiymətləndirilən məmulata dair siyasəti formalaşdırılır. Qiymətləndirmənin nəticəsi müsbət olduğu halda (əgər həmin məmulatın göstəriciləri baza nümunəsinin göstəricilərindən yüksəkdirsə) müəssisə *istehsal və sınaq satışları ilə bazara çıxmaq haqqında qərar* qəbul edir. Qiymət mənfi olan halda *sənaye məhsulunun rəqabət qabiliyyətinin yüksəldilməsinə dair texniki-iqtisadi qərarlar hazırlanır.*

Bəzi müəlliflər iqtisadi parametrlərin qiymətləndirilməsini qiymətləndirilən və baza mallarının müvafiq olaraq istehlak qiymətlərinin hesablanması və tutuşdurulması yolu ilə yerinə yetirməyi təklif edirlər ki, bu da malın bütün xidmət müddəti üçün istismar xərclərinin ölçüsünün hesablanmasının dəqiqliyini yüksəldir. Onun istehlak qiyməti (Qiy_{ist}) aşağıdakı düsturla müəyyən edilə bilər.

$$Qiy_{ist} = Qiy_{mal} + \sum_{i=1}^{t} I_{st} x_i \times \frac{1}{(1+r)^i}, \qquad (4.7)$$

burada Qiy_{mal} -malın satış qiymətidir; $İ_{st}x_i$ – i-ci xidmət ili üçün istismar xərcləridir; $\frac{1}{(1+r)^i}$ - müasir dəyərə gətirilmə əmsalıdır (diskontlaşdırma əmsalıdır); t - malın xidmət müddətidir; i -gətirilmə ilidir; r - diskont normasıdır.

Yuxarıda şərh edilmiş metodikanın köməyilə konkret misal əsasında rəqabət qabiliyyətini təhlil edək (texniki göstəriciləri, habelə istehlak qiymətini (4.7) düsturu ilə hesablayaq). İstehsal edilməsi və sınaq satışlarının keçirilməsi təklif olunan mikrodalğalı sobaların yeni modellərinin rəqabət qabiliyyətini qiymətləndirək. Baza nümunəsi kimi bazarda satılan modeldən istifadə edək. Göstərilən modellərin texniki parametrləri ekspertlər tərəfindən 10 ballı şkala üzrə qiymətləndirilmişdir (cədvəl 4.4). Üç modelin xidmət müddəti – 10 ildir. Diskont norması – 0,1-dir.

Cədvəl 4.4

Mikrodalğalı sobaların rəqabət qabiliyyətinin əlahiddə və qruplaşdırılmış göstəriciləri

Göstəricilər	Qiymətləndirilən model		Baza nümunəsi	q_1	q_2	a_i	Q_1	Q_2
	1	2						
Texniki parametrlər								
Əsas funksiyaların yerinə yetirilməsi	5,5	7	6	0,916	1,166	0,5	0,458	0,583
İstifadə edilməsinin rahatlığı	5	5,5	4,5	1,111	1,222	0,3	0,333	0,336
Dizayn	4,5	4,5	4	1,125	1,125	0,2	0,225	0,225
Yekun				-	-	-	1,016	1,174
İqtisadi parametrlər								
Qiyməti, ş.v (şərti vahid)	120	100	130	-	-	x	-	-
İstismar xərcləri, ş.v./il	3	1,5	2	-	-	x	-	-
Yekun: bütün xidmət dövrü ərzində əldə edilməsi və istismarı üçün tam xərclər (Qiy_{ist})	140,277	110,139	143,518	-	-	-	0,977	0,767

Qeyd. Burada və sonra cədvəllərdə "X" işarəsi o deməkdir ki, iqtisadi göstəricilər şərti olaraq eyni əhəmiyyətli qəbul edilmişdir.

İstehlak qiymətinin hesablanması metodikası (1-ci model nümunəsində) aşağıdakı kimidir:

$$Qiy_{İ} = 120 + 3 + 3\times\frac{1}{(1+0{,}1)^2} + 3\times\frac{1}{(1+0{,}1)^3} + 3\times\frac{1}{(1+0{,}1)^4} + 3\times\frac{1}{(1+0{,}1)^5} +$$

$$+3\times\frac{1}{(1+0{,}1)^6} + 3\times\frac{1}{(1+0{,}1)^7} + 3\times\frac{1}{(1+01)^8} + 3\times\frac{1}{(1+0{,}1)^9} + 3\times\frac{1}{(1+0{,}1)^{10}} = 140{,}277.$$

Qiymətləndirilən 1 və 2 modellərin rəqabət qabiliyyətinin inteqral göstəriciləri

$K_1 = 1{,}016 : 0{,}977 = 1{,}039;$

$K_2 = 1{,}174 : 0{,}767 = 1{,}530$ təşkil edir.

Beləliklə, mikrodalğalı sobaların hər iki yeni modeli baza nümunəsinə nisbətən daha yüksək rəqabət qabiliyyətlidir, lakin 2-ci model daha rəqabət qabiliyyətli hesab edilir.

Məhsulun rəqabət qabiliyyəti əmtəə istehsalçısının ümumi rəqabət qabiliyyətinin yalnız tərkib hissəsidir. Bununla əlaqədar olaraq, müəssisənin rəqabət qabiliyyətinin təhlilinin və qiymətləndirilməsinin xeyli az tədqiq edilmiş metodlarının araşdırılması zərurəti yaranır.

Müəssisənin rəqabət qabiliyyəti dedikdə satışın və mənfəətin əldə edilmiş həcmini, bazar payını saxlamaqla və artırmaqla onun bazar rəqabəti şərtlərinin dəyişilmələrinə operativ və adekvat (uyğun) reaksiya vermək qabiliyyəti başa düşülür.

Müəssisənin rəqabət qabiliyyəti onun həyat fəaliyyətinin daxili və xarici mühit amilləri kompleksinin təsirindən asılıdır. Daxili amillərə müəssisənin iqtisadi potensialını təşkil edən elementlər daxildir. Bu potensial müəssisənin ehtiyatlarının məcmusu və onlardan istifadə edilməsinin səmərəliliyi ilə müəyyən edilir. Xarici amillərə dövlətin iqtisadi siyasəti, müəssisənin fəaliyyət göstərdiyi bazarın əsas xarakteristikaları və s. aid edilə bilər.

Müəssisənin rəqabət qabiliyyətinin təhlilinin öz spesifik xüsusiyyətləri və vəzifələri vardır. Əvvəla, onun qiymətləndirilməsi müəssisənin fəaliyyətinin strateji məqsədlərinin hazırlanması üçün ilkin şərtdir. İkincisi, bu məqsədlə bir sıra göstəricilərdən istifadə etmək lazımdır ki, onları təhlil etmədən müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin ümumi qiymətləndirilməsini həyata keçirmək

olar. Bu göstəricilər ilk növbədə müəssisənin vəziyyətinin sabitliyi dərəcəsini, istehlakçılar tərəfindən tələb olunan və sabit mənfəəti təmin edən məhsul buraxmaq qabiliyyətini sübut edir.

Qeyd etmək lazımdır ki, iqtisadçılar tərəfindən firma, əlahiddə müəssisə, sahə yaxud bütün iqtisadiyyat kimi nəzərdən keçirilən istehsalçıların rəqabət qabiliyyətinin qiymətləndirilməsinin hamılıqla qəbul edilmiş vahid metodikası hələlik yoxdur. Ədəbiyyatda bu problemin həllinə bir sıra yanaşmalara rast gəlinir. Lakin onların əksəriyyətinin köməyilə müəssisənin rəqabət qabiliyyətinin yalnız ayrı-ayrı aspektlərini qiymətləndirmək mümkün olsa da, onun fəaliyyətinə xarici mühitin təsirini təhlil etmək və müəssisənin daxili imkanlarını nəzərdə tutan kompleks qiymətini vermək olmaz.

Hazırda aşağıdakı yanaşmalar daha geniş yayılmışdır.

1. *Rəqabət qabiliyyətinin müqayisəli üstünlüklər mövqeyindən öyrənilməsi.* Bu metod aşağıdakıları nəzərdə tutur: ölkə ona ucuz başa gələn malları istehsal və ixrac edir və o məhsulu idxal edir ki, onu maliyyə baxımından istehsal etməkdənsə almaq daha faydalıdır.

Ölkələr arasında istehsalın bölüşdürülməsi müqayisəli məsariflər qanunu ilə uzlaşdırılmalıdır: hər ölkə o malların istehsalı üzrə ixtisaslaşır ki, həmin mallar üzrə onun məsrəfləri daha aşağıdır, hərçənd onların mütləq ölçüləri bəzən bir qədər yüksək də ola bilər. Əgər ölkə hər-hansı sahədə daha aşağı məsrəfləri təmin etmək imkanı yaradan üstünlüklərə malikdirsə (bu həmin sahənin güclü bazar mövqeləri tutmasına zəmin yaradır), onda onun rəqabət qabiliyyətli olması barədə danışırlar.

Müqayisəli üstünlükləri bilavasitə ölçmək mümkün deyil, odur ki, bir neçə dolayı variantlar təklif edilmişdir. Daha çox istifadə edilən metodlardan biri aşağıdakı fərziyyə üzərində qurulmuşdur: sahədə istehsal xərcləri nə qədər aşağı olarsa, o, rəqiblərə nisbətən daha böyük üstünlüklərə malik olur.

Müqayisəli üstünlüklər metodologiyasına əsaslanaraq ixrac edən firmanın ümumi şəkildə rəqabət qabiliyyətinə qiymət vermək çətindir, çünki mövcud üstünlüklər yalnız konkret firmanın deyil, həm də bütün sahənin rəqabət qabiliyyətini səciyyələndirir.

2. *İstehsalçının rəqabət qabiliyyətinin qiymətləndirilməsinin firma və sahənin tarazlığı nəzəriyyəsinə* (A.Marşall nəzəriyyəsi) *və istehsal amilləri nəzəriyyəsinə əsaslanan metodları.* Tarazlıq (müqavimət) deyəndə elə vəziyyət başa düşülür ki, bu halda istehsalçıda digər vəziyyətə keçmək üçün, yəni istehsal həcminin dəyişilməsi (bazarda öz payının dəyişilməsi) üçün stimul olmur.

İstehsalçının tarazlığı şəraitində (həmin bazarda tələb və texnikanın inkişafının xarakteri dəyişməz qalmaqla malların buraxılmasının və satışının maksimum mümkün olan həcminə nail olunduqda) istehsal amillərinin hər birindən eyni və həm də ən yüksək məhsuldarlıqla istifadə edilir. Bu zaman sahənin firmalarında istehsal amillərindən hər-hansının təsirilə yaranan həddindən artıq mənfəət olmur, deməli, kənar firmalarda bu sahəyə daxil olmaq üçün stimullar yoxdur.

Məhsul buraxılışının genişləndirilməsi üçün o halda imkan yaranır ki, hər-hansı istehsal amilindən tam istifadə edilmir və istehsalın mövcud miqyasları məsrəflərin minimum olmasını təmin etmir. Həmin model çərçivəsində rəqabət qabiliyyətinin meyarı istehsalçıda digər rəqiblərdəkinə nisbətən daha yaxşı məhsuldarlıqla istifadə edilə bilən amillərin olmasından ibarətdir.

Həmin metodların təcrübədə tətbiqi məhduddur.

3. *Səmərəli rəqabət nəzəriyyəsi.* Bu nəzəriyyə çərçivəsində rəqabət qabiliyyəti meyarının müəyyən edilməsinə iki əsas yanaşma: struktur və funksional cəhətdən yanaşma mövcuddur.

Struktur cəhətdən yanaşmaya uyğun olaraq müəssisənin vəziyyətinin qiymətləndirilməsi sahənin inhisarlaşmasının, yəni istehsalın və kapitalın təmərküzləşməsinin və şirkətlərin sahə bazarlarına yeni daxil olanlar üçün maneələrin səviyyəsini bilməyə əsaslanaraq həyata keçirilə bilər. Yəni rəqiblər üçün əsas maneələr sırasına adətən irimiqyaslı istehsalın qənaətçiliyini, məhsulun diferensiasiya dərəcəsini, bazarda fəaliyyət göstərən firmaların məsrəflərdə mütləq üstünlüklərini, səmərəli istehsal təşkili üçün lazım olan kapitalın ölçüsünü aid edirlər.

Beynəlxalq marketinq nəzəriyyəsində firmaların rəqabət qabiliyyətinə xarici şəraitin təsiri araşdırılır. Firmanın istənilən bazarı

ələ keçirməsi imkanı yalnız daxili amillərdən deyil, həm də bazarda yaranan vəziyyətdən asılıdır. Rəqabətin intensivliyinə təsir göstərən və bununla da şirkətlərin rəqabət qabiliyyəti səviyyəsinə təsir edən aşağıdakı amilləri qeyd etmək lazımdır: bazarın potensialı (mümkün tutumu); əlçatan olmasının asanlığı; malın növü; giriş maneələri (zəruri investisiyalar, dövlət tənzimlənməsi); bazarın bircinsliliyi; sahənin strukturu və ya firmaların rəqabət mövqeləri; firmaların bu sahəyə cəlb edilməsi dərəcəsi; texnoloji yeniliklərin tətbiqi imkanları; qənaət edilməsi; firmaların diversifikasiyası.

Funksional yanaşma vasitəsilə də müəssisənin rəqabət qabiliyyətini müəyyən etmək olar. Bu yanaşmaya uyğun olaraq, məhsulun istehsalı və satışı, maliyyə vəsaitlərinin səmərəli idarə edilməsi ən yaxşı təşkil edilmiş müəssisə daha rəqabət qabiliyyətli hesab edilir. Təhlil predmeti üç qrup göstəricilərdən ibarətdir.

Birinci qrupa müəssisənin istehsal-satış fəaliyyətinin səmərəliliyini əks etdirən göstəricilər, məsələn, xalis mənfəətin xalis dövriyyə kapitalına nisbəti göstəricisi daxildir.

İkinci qrup göstəricilər müəssisənin istehsal sahəsinin vəziyyətini (əsas və dövriyyə kapitalından istifadənin intensivliyini), məsələn, dövriyyənin (pul dəyərinin) material aktivlərinin xalis dəyərinə, xalis dövriyyə kapitalına, maddi-istehsal ehtiyatlarının dəyərinə nisbəti və s. səciyyələndirir.

Üçüncü qrupa müəssisənin maliyyə fəaliyyətilə əlaqədar göstəricilər: dövriyyə kapitalının cari borca nisbəti, cari hesabların ödəniş dövrü, cari borcun material aktivlərin dəyərinə nisbəti, uzunmüddətli öhdəliklərin xalis dövriyyə kapitalına nisbəti və s. təşkil edir.

Funksional metodun şübhəsiz üstünlüyü müəssisənin işini təhlil etmək və təsərrüfat fəaliyyətinin müxtəlif tərəfləri barədə nəticələr çıxarmaq imkanı yaradan göstəricilərdən istifadə edilməsindən, maliyyə vəziyyətinin, kredit ödəmə qabiliyyətinin, habelə kommersiya riski dərəcəsinin qiymətləndirilməsiinn mümkünlüyündən ibarətdir.

Bununla belə, bu metodun nöqsanları da vardır. Əvvəla, çox zaman bir-birini təkrarlayan çox sayda göstəricilərdən istifadə edilməsi vəziyyətin təhlil edilməsini çətinləşdirir. İkincisi, o, ayrı-ayrı

göstəricilərin qiymətləndirmədə əhəmiyyətinin fərqlənməsini nəzərə almır, bu isə rəqabət qabiliyyəti haqqında mülahizələrin birmənalı olmamasına gətirib çıxara bilər. Üçüncüsü, bu metodda məhsulun rəqabət qabiliyyəti göstəriciləri nəzərə alınmır. Belə ki, istifadə edilən ikinci qrup göstəricilərindən bəziləri malın rəqabət qabiliyyətindən daha çox onun satışı və hərəkəti sisteminin təşkilinin və fəaliyyətinin səmərəliliyini səciyyələndirir.

4. *İstehsalçının rəqabət qabiliyyətinin məhsulun keyfiyyəti üzrə qiymətləndirilməsi.* O, "profillər metodu" ilə həyata keçirilir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, istehlakçıların hər-hansı məhsula münasibətdə tələblərinin ödənilməsinin müxtəlif meyarları aydınlaşdırılır, istehlakçının anlaya və qiymətləndirə biləcəyi xarakteristikalar dairəsi daxilində onların (tələblərin) iyerarxiyası və müqayisəli əhəmiyyəti müəyyən edilir, məhsulun texniki-iqtisadi göstəriciləri rəqabət aparan digər məmularlarla müqayisə edilir.

Beləliklə, bu metod belə bir mülahizəyə əsaslanır ki, istehsalçının məhsulunun rəqabət qabiliyyəti nə qədər yüksək olarsa, onun özünün rəqabət qabiliyyəti də o qədər yüksək olar. Bu metodun üstünlüyü müəssisənin rəqabət qabiliyyətinə təsir edən mühüm meyarı – malın rəqabət qabiliyyətini nəzərə almasından ibarətdir. Lakin bu zaman müəssisənin işində olan üstünlüklər və çatışmamazlıqlar barədə təsəvvür olduqca məhduddur, çünki onun rəqabət qabiliyyəti malın rəqabət qabiliyyətinə bərabər tutulur, sonuncu isə müəssisənin fəaliyyətinin digər aspektlərini əks etdirmir.

5. *Rəqabət qabiliyyətinin qiymətləndirilməsinin matrisa metodu.* O, yalnız malların xarakteristikalarının təhlili üçün deyil, həm də «strateji biznes vahidlərinin – malların, satış fəaliyyətinin, ayrı-ayrı şirkətlərin, sahələrin (yəni malların istehsalçılarının) rəqabət qabiliyyətinin öyrənilməsi zamanı tətbiq edilir.

Əsas tədqiqat vasitəsi iki göstəricidən istifadə etməklə koordinatlar sistemi prinsipi üzrə qurulmuş matrisadır. Vertikal (şaquli) üzrə bazarın tutumunun artımının xətti miqyasda templəri, horizontal (üfqi) üzrə isə – istehsalçının bazarda nisbi payı loqarifm miqyasında qeyd edilir.

Biznesin bütün strateji vahidləri bu matrisada öz xarakteristikalarından və bazarın şərtlərindən asılı olaraq yerləşdirilə bilərlər. Sürətlə inkişaf edən bazarda əhəmiyyətli sayı olanlar ən çox rəqabət qabiliyyətli olacaqlar.

Həmin metoddan istifadə edərək, «biznesin strateji vahidlərinin» rəqabət mövqelərini qiymətləndirmək, bazarda davranış strategiyasını hazırlamaq olar. Bununla belə bu metod baş verənlərin səbəblərini təhlil etmək imkanı yaratmır və idarəetmə qərarları hazırlanmasını mürəkkəbləşdirir.

Yoxlama sualları?

1. Marketinq fəaliyyəti nədir və onun təhlil edilməsində məqsəd nədən ibarətdir?
2. Marketinq təhlili qarşısında hansı əsas vəzifələr durur?
3. Marketinq sistemində hansı əsas təhlil metodları və növləri tətbiq edilir?
4. Bazarın tutumunun hesablanması üçün hansı üsullardan istifadə edilə bilər?
5. Bazar payı göstəricisi necə hesablanır və o, nəyi əks etdirir?
6. Portfel təhlilinin mahiyyəti nədən ibarətdir?
7. BKQ matrisası əsasında məhsulun çeşidinin təhlilinin mahiyyəti nədən ibarətdir?
8. Məhsulun rəqabət qabiliyyəti dedikdə nə başa düşülür və siz onun təhlilinin hansı əsas mərhələlərini bilirsiniz?
9. Məhsulun keyfiyyət göstəriciləri hansılardır?
10. İstehlak qiyməti nədir və onun əsas tərkib elementləri hansılardır?
11. Təşkilati-kommersiya göstəricilərinə hansılar aiddir?
12. Rəqabət qabiliyyətinin qiymətləndirilməsi prosesində əlahiddə və qruplaşdırılmış göstəriciləri necə müəyyən etmək olar?
13. «Məhsulun rəqabət qabiliyyəti» və «müəssisənin rəqabət qabiliyyəti» anlayışları arasında hansı əlaqə vardır və sonuncunu hansı metodların köməyilə qiymətləndirmək olar?

V FƏSİL

MƏHSUL (İŞ VƏ XİDMƏT) İSTEHSALI VƏ SATIŞININ TƏHLİLİ

5.1. Təhlilin məqsədi, vəzifələri və informasiya mənbələri

Təsərrüfat subyektlərinin (müəssisə, təşkilat və s.) fəaliyyətinin təhlili məhsulların (iş və xidmətlərin) istehsalı və satışının öyrənilməsindən başlanır, çünki məhsul istehsalı və satışı onların fəaliyyətinin ən mühüm aspektləridir. Təşkilatın məsrəfləri, mənfəəti, rentabelliyi, rəqabət qabiliyyəti və bazarda fəallığı buraxılan və realizə edilən məhsulun həcmindən, çeşidindən və keyfiyyətindən asılıdır.

Məhsul (iş və xidmət) istehsalı və satışının məqsədləri aşağıdakı əsas məsələlərin həlli ilə əlaqədardır:

- müəssisənin istehsal edə biləcəyi məhsulların (iş və xidmətlərin) seçilməsi;
- müəssisə üçün ən perspektivli məhsul növlərinin müəyyən edilməsi, malların bazarda hərəkətinin və reklamının təşkili;
- sifarişlər portfelinin formalaşdırılması və istehsalın həcmi üzrə planların əsaslandırılması;
- məhsulun satışı bazarının və yayılma üsullarının axtarılıb tapılması;
- satışın zərərsizliyi səviyyəsinin qiymətləndirilməsi;
- məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri haqqında qərarların qəbul edilməsi;
- müəssisənin qiymət siyasətinin seçilməsi.

İşlənib hazırlanmış və sistemləşdirilmiş informasiya əsasında aparılan təhlil həmin məsələlərin həllini təmin etməlidir.

Bu istiqamətdə aparılan təhlilin məqsədləri aşağıdakılardır:

1) işə yekun vurulması və onun əsaslandırılmış stimullaşdırılması üçün istehsal – təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi;

2) istehsal prosesinin gedişinə operativ təsir etmək məqsədilə məhsulun istehsalının və satışının təhlili;

3) mümkün nəticələrin proqnozlaşdırılması üçün istehsal proqramının yerinə yetirilməsinin təhlili.

Aparılan təhlilin nəticələri aşağıdakı hallarda konkret idarəçilik qərarları qəbul edilməsi üçün istifadə edilə bilər:

- sifarişlər portfelinin formalaşdırılması;
- dəqiqləşdirilmiş istehsal planının tərtib edilməsi və onun istehsal güclərinə uyğunlaşdırılması;
- istehsal xərclərinin smetasının tərtib edilməsi;
- maddi-texniki ehtiyatlar təchizatı, əsas fondların və istehsal güclərinin işə buraxılması planlarının formalaşdırılması;
- əmək ehtiyatlarına tələbatın qiymətləndirilməsi.

Məhsul (iş və xidmət) istehsalı və satışının təhlilinin əsas vəzifələri aşağıdakılardır:

- məhsulun istehsalı və satışı üzrə planın yerinə yetirilməsinin və göstəricilərin dinamikasının, onun tərkibində və keyfiyyətində dəyişilmələrin qiymətləndirilməsi;
- məhsul istehsalı və satışı həcminə təsir göstərən amillərin müəyyən edilməsi və onların təsirinin kəmiyyətcə hesablanması;
- məhsul istehsalının və satışının artırılmasının təsərrüfatdaxili ehtiyatlarının müəyyən edilməsi;
- aşkar edilmiş ehtiyatların səfərbər edilməsi üzrə tədbirlərin işlənib hazırlanması.

Məhsul (iş və xidmət) istehsalı və satışının təhlil üçün istifadə olunan informasiya mənbələri aşağıdakılardır:

- təşkilatın biznes-planı, məhsulun istehsalı və göndərilməsi üzrə operativ planlar;

• «Məhsulların (iş və xidmətlərin) istehsalı və göndərilməsi haqqında hesabat», «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı forma üzrə hesabatlar və s. məlumatlar.

Faktiki informasiyanın ən əsas bloku-mühasibat uçotu məlumatlarıdır. Onlara məhsulun uçotu sənədləri və siyahılar (registrlər): təhvil-təslim qaimələri, ay ərzində məhsul buraxılması cədvəlləri, anbar uçotu vərəqələri, məhsulun göndərilməsi qaimələri, hesab-fakturalar və s. daxildir.

Məhsulların (iş və xidmətlərin) alıcıları ilə bağlanmış təsərrüfat müqavilələri təhlil üçün mühüm ilkin sənədlərdir. Onlara məhsulun nomenklaturası, həcmi, keyfiyyəti, komplektliliyi (dəstliliyi), qablanması, qiyməti, müqavilənin məbləği, göndərmə qaydası və müddətləri, hesablaşmalar və çatdırılma qaydası, müqavilənin müddətləri, şərtlərin pozulmasına görə sanksiyalar haqqında informasiya daxildir.

Müəssisələr müqavilələr əsasında məhsulun həcmi və nomenklaturası üzrə sifarişlər portfeli formalaşdırır və özlərinin istehsal imkanlarını nəzərə almaqla məhsulun istehsalının həcmini planlaşdırır, onun anbara verilməsi və alıcılara göndərilməsi qrafiklərini tərtib edir.

Məhsul buraxılışının həcminin və müddətlərinin müfəssəl şərh edilməsi plan istehsal proqramı adlanır.

5.2. Məhsul (iş və xidmət) istehsalı və satışının həcmini xarakterizə edən göstəricilər sistemi və onların formalaşması prinsipləri

İstehsalın və satışın həcminin səciyyələndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə edilir: ümumi məhsul, əmtəəlik məhsul və realizə edilmiş məhsul (satışın həcmi).

Ümumi məhsul (ÜM) müəssisənin müəyyən dövr ərzində sənaye istehsalının ümumi həcmini səciyyələndirir.

Əmtəəlik məhsul (ƏM) müəssisənin satış məqsədi ilə hazırladığı məhsulun həcmini səciyyələndirir. O, ümumi məhsuldan onunla fərqlənir ki, ona bitməmiş istehsalın, öz istehsalı olan

yarımfabrikatların və alətlərin qalıqlarının dəyişilmələri, habelə təsərrüfatdaxili dövriyyə daxil edilmir.

Realizə edilmiş məhsul (RM) alıcılara göndərilmiş və mədaxili mühasibat uçotunda qəbul edilmiş məhsulun həcmini səciyyələndirir.

Sadalanmış göstəricilərin hamısı aşağıdakı kimi qarşılıqlı əlaqəlidir:

$$ÜM = ƏM + (Bİ_{d.ə.} - Bİ_{d.s})$$

burada $Bİ_{d.ə.}$ və $Bİ_{d.s.}$ - bitməmiş istehsalın, öz istehsalı olan yarımfabrikatların və alətlərin müvafiq olaraq dövrün əvvəlinə və sonuna qalıqlarıdır;

$$RM = ƏM + (HMQ_{d.ə.} - HMQ_{d.s.})$$

burada $HMQ_{d.ə.}$ və $HMQ_{d.s.}$ - anbarlarda hazır məhsulun müvafiq olaraq dövrün əvvəlinə və sonuna qalıqlarıdır.

İqtisadi təhlildə istehsalın və satışın həcmlərinin ölçülməsi üçün müxtəlif göstəricilərdən:

1) dəyər göstəricilərindən:

a) tam dəyər (müəssisələrin topdan satış qiymətləri) göstəriciləri;

b) elementlərin dəyəri (normativ əmək haqqı, normativ emal dəyəri, normativ xalis məhsul, xalis məhsul) göstəricilərindən;

2) natural göstəricilərdən (ədəd, metr, ton və s.);

3) şərti natural göstəricilərdən (şərti yanacaq-saatları) istifadə edilir;

4) əmək göstəricilərindən (əmək sərfi norma-saatları) istifadə edilir.

5.3. Məhsul (iş və xidmət) istehsalı həcminin təhlili və qiymətləndirilməsi. Struktur dəyişilmələrinin məhsulun həcminə təsiri

Məhsul istehsalı həcminin təhlili, bir qayda olaraq, təhlil edilən dövr ərzində planın yerinə yetirilməsi dərəcəsinin və dəyər ifadəsində ümumi və əmtəəlik məhsulun göstəricilərinin dinamikasının qiymətləndirilməsindən başlanır. Bu zaman dövr ərzində göstəricilər üzrə mütləq kənarlaşmalar, onların inkişafı və artım templəri, planın yerinə yetirilməsi səviyyəsi müəyyən edilir.

Ümumi, əmtəəlik və realizə edilmiş məhsulun planlaşdırılması və uçotu planda qəbul topdan satış qiymətlərilə və müəssisənin qüvvədə olan topdan satış qiymətlərilə həyata keçirilir. Bu göstəricilərin tərkibində konkret müəssisədə sərf edilmiş canlı əmək məsrəfləri deyil, həm də istifadə edilmiş materialların, alınan yarımfabrikatların, komplektləşdirici məmulatların, yanacağın, enerjinin, amortizasiya olunan qeyri-maddi aktivlərin və əsas fondların dəyərinin bir hissəsi şəklində maddiləşmiş əmək məsrəfləri nəzərə alınır.

Müəssisələrin topdan satış qiymətinə yalnız maya dəyəri deyil, həm də mənfəət daxildir. Müxtəlif məhsul növlərinin topdan satış qiymətində canlı və maddiləşmiş əmək məsrəflərinin nisbətləri, həmçinin mənfəətin payı eyni olmur. Məhsul növləri material tutumu, əmək tutumu, rentabellik üzrə fərqlənirlər. Hesabat dövründə məhsulun strukturunun dəyişilməsi ÜM, ƏM və RM dəyər göstəricilərində məhsulun fiziki həcminin dəyişilməsinə, habelə təşkilatın işçilərinin əmək məsrəflərinə müvafiq olmayan dəyişilmələrə səbəb olur.

Bununla əlaqədar olaraq məhsul istehsalı həcminin qiymətləndirilməsi üçün sadalananlarla yanaşı digər göstəricilər: normativ əmək tutumu (NƏT), normativ əmək haqqı (NƏH), normativ emal dəyəri (NED), normativ xalis məhsul (NXM), xalis məhsul (XM) göstəricilərindən də istifadə edilir.

Normativ əmək tutumu (NƏT) göstəricisi məhsulun hazırlanması üçün zəruri olan canlı əməyin miqdarını səciyyələndirir. Əgər hər məhsul növü vahidlərinin sayını q_i, vahidin normativ əmək tutumunu t_i ilə işarə etsək, onda onların vurma hasilinin cəmi $\Sigma q_i t_i$ həmin dövr ərzində məhsulun ümumi normativ əmək tutumunu təşkil edəcəkdir.

Beləliklə, hesablanmış göstərici fəhlələr tərəfindən sərf edilmiş əməyin həcmini ifadə edir. Məhsulun plan üzrə və faktiki buraxılışına normalaşdırılmış vaxt sərfləri plan-istehsal şöbəsi tərəfindən hesablanır və cari planların hesablamalarında və məhsul buraxılışı cədvəllərində olur.

Bu göstəricinin çatışmayan cəhəti ondan ibarətdir ki, o, yalnız əsas fəhlələrin əmək sərflərini əhatə edir və işçilərin digər

kateqoriyalarının əmək sərflərini nəzərə almır. Bundan əlavə, o, müxtəlif mürəkkəbliyə malik əməyin keyfiyyət fərqlərini əks etdirmir.

Normativ əmək haqqı (NƏH) göstəricisi müxtəlif məhsul növlərini və istehsal əməliyyatlarını normativ əmək haqqı üzrə tutuşduraraq ölçür. O, tətbiq edilən əməyin yalnız miqdarını deyil, həm də keyfiyyətini və mürəkkəbliyini əks etdirir. İstehsal fəhlələrinin məhsul istehsalı üçün normativ əmək haqqı sərfi aşağıdakı düsturla müəyyən edilir

$$NƏH = \sum_{i=1}^{n} q_i Əh_i,$$

burada q_i - istehsal olunmuş i növ məhsulun miqdarıdır; $Əh_i$ - i növ məhsul üzrə istehsal fəhlələrinin normativ əmək haqqıdır.

Normativ əmək haqqı göstəricisinin çatışmamazlığı ondan ibarətdir ki, yalnız istehsal fəhlələrinin məmulatların texnoloji əmək tutumu ilə müəyyən edilən əmək haqqı sərfi normalaşdırılır. Bütün qalan işçi kateqoriyalarının məmulatlar üzrə əmək məsrəflərinin uçotunun mürəkkəb olması səbəbindən bu normativə daxil edilmir. Deməli, normativ əmək haqqının köməyilə istehsalın həcmini tam səciyyələndirmək olmaz.

İstehsal həcminin dəyər göstəriciləri ya mənfəətin miqdarını əks etdirə, yaxud onu əhatə etməyə bilər.

Normativ emal dəyəri (NED) göstəricisi normativ əmək haqqı məsrəflərindən, ümumiistehsal və idarəetmə xərclərindən ibarətdir. Bu göstəricinin tətbiq edilməsi hər məmulat üçün qabaqcadan normativlər işlənib hazırlanmasını, habelə onlara sistematik olaraq yenidən baxılmasını tələb edir. Bu hal NƏD göstəricisinin sənayedə geniş tətbiqinə mane olur. Bu göstəricidən tikiş, poliqrafiya, meyvə-tərəvəz, ayaqqabı, yun və bəzi digər sahələrdə daha çox istifadə edilir.

Məhsul buraxılışı strukturunda dəyişilmələrin onun dəyər ifadəsində həcminə təsirini müəyyən etmək üçün 5.1. cədvəlini tərtib edək.

5.1. cədvəlində verilmiş məlumatlar göstərir ki, bütün göstəricilər üzrə plan artıqlaması ilə yerinə yetirilmişdir. Lakin planın faizlə yerinə yetirilməsində fərqlər vardır.

Cədvəl 5.1.

Məhsulun həcmi üzrə illik planın yerinə yetirilməsinin təhlili

Göstəricilər		Plan	Hesabat	Plandan fərqlənmə	Planın yerinə yetirilməsi faizi
A	B	1	2	3	4
Müəssisənin planda qəbul edilmiş topdan satış qiymətləri ilə realizə edilmiş məhsulu, min man.	1	51000	52530	+1530	103,0
Müəssisənin planda qəbul edilmiş topdan satış qiymətləri ilə əmtəəlik məhsulu, min man.	2	50700	52660	+1960	103,87
Normativ xalis məhsul (sabit normativlərdə), min man.	3	21500	23220	+1720	108,0
Əmtəəlik məhsulun tərkibində sabit normativlər üzrə material xərcləri (amortizasiya daxil olmaqla), min man.	4	29250	29520	+270	100,92
Normativ əmək haqqı (vahid sosial vergi üzrə ayrılmalarla birlikdə), min man.	5	15050	16120	+1070	107,11
Normativ mənfəət, min man.	6	6450	7100	+650	110,08

Əmtəəlik və realizə edilmiş məhsullar üzrə planın yerinə yetirilməsi səviyyəsi müxtəlifdir-(103,87%) və (103%). Bu istehsal və realizə edilmiş məhsulun fiziki həcmlərinin eyni olmaması ilə izah edilir və realizə edilməmiş malların qalığının dəyişilməsində təzahür edir.

Realizə edilmiş məhsulun planda nəzərdə tutulmuş həcmi plan üzrə əmtəəlik məhsulun həcmindən çoxdur, deməli, planda realizə edilməmiş məhsul qalıqlarının dövrün əvvəlinə nisbətən sonunda azalması nəzərdə tutulmuşdur. Faktiki olaraq bu alınmamışdır. Realizə edilmiş məhsulun həcmi üzrə planın yerinə yetirilməsi səviyyəsi məhsul buraxılışı planının yerinə yetirilməsindən 0,87% aşağıdır, deməli, realizə edilməmiş məhsul qalıqları artmışdır və müəssisə satışın həcminin artması imkanlarından tam istifadə etməmişdir.

Planda nəzərdə tutulmuş topdansatış qiymətləri ilə əmtəəlik məhsul istehsalı planı 103,87%, normativ xalis məhsulun istehsalı planı

isə 108% yerinə yetirilmişdir. Əmtəəlik və normativ xalis məhsul istehsalı planlarının icra səviyyəsində belə fərqlənmə buraxılmış məhsulun çeşid strukturunda planla müqayisədə topdan satış qiymətlərində material xərclərinin səviyyəsi orta hesabla bütün məhsul üzrə aşağı olan məmulatların xüsusi çəkisinin yüksəlməsi ilə izah edilir. Sabit normativlər üzrə material xərcləri planının yerinə yetirilməsi faizi (100,92%) də bunu sübut edir.

Belə şəraitdə topdan satış qiymətlərində müəssisə kollektivi tərəfindən yeni yaranmış dəyər yekun nəticədə nəzərə çarpacaq dərəcədə artmışdır.

Material xərcləri aşağı olan məmulatların xüsusi çəkisinin yüksəlməsi iki səbəbdən yarana bilər:

1) daha çox əmək tutumlu məmulatların xüsusi çəkisinin artması;

2) bütün məhsulların tərkibində daha yüksək rentabelli məmulatların xüsusi çəkisinin artması.

Normativ əmək haqqı göstəricisi məhsul istehsalının normativ əmək tutumu üzrə həcmini əks etdirir. O, mənfəəti də özündə birləşdirən NXM-a nisbətən kollektivin əmək məsrəflərinin daha dəqiq xarakteristikasını verir.

NXM və NƏH göstəriciləri üzrə planın yerinə yetirilməsi səviyyəsini müqayisə etmək lazımdır. Bu göstəricilər üzrə planın yerinə yetirilməsi səviyyəsi arasındakı fərq rentabellik səviyyəsi müxtəlif olan ayrı-ayrı məhsul növlərinin xüsusi çəkisinin plana nisbətən dəyişilməsilə əlaqədardır. Məsələn 5.1 cədvəlinin məlumatları göstərir ki, NXM həcmi üzrə plan 108%, NƏH üzrə isə – 107,11% yerinə yetirilmişdir. Faizlərdəki belə fərqlənmə rentabellik səviyyəsi yüksək olan məmulatların xüsusi çəkisinin plana nisbətən artması ilə izah edilir. Bunu normativ mənfəət göstəricisi üzrə planın yerinə yetirilməsi faizi (110,08%) də sübut edir.

İstehsal nəticələrini əks etdirən müxtəlif göstəricilər arasında nəzərdən keçirilmiş qarşılıqlı əlaqə məhsulun strukturunun dəyişilməsinin istiqamətlərini və onun ƏM və NXM həcmlərinə təsirini müəyyən etmək imkanı yaradır. Təhlilin metodikası 5.2 cədvəlində göstərilmişdir [31].

Cədvəl 5.2

Məhsulun strukturunun dəyişilməsinin əmtəəlik məhsulun həcminə təsirinin təhlili

Göstəricilər	Satır №-si	Planın yerinə yetirilməsi %,	Faiz fərqləri	Amillər	Amillərin təsirinin hesablanması (plan qiymətlərində)
NƏH, min man.	01	107,11	107,11-100=+7,11	Kollektivin əmək töhfəsinin dəyişilməsi (məhsulun fiziki həcminin dəyişilməsi)	$\frac{50700 \text{ min man.} \times 7,11\%}{100\%} = +3605 \text{ min man.}$
NXM müqayisəli qiymətlə, min man.	02	108,0	108-107,11=+0,89	Məhsulun strukturunun (onun ayrı-ayrı növlərinin rentabellik səviyyəsi ilə qarşılıqlı əlaqəli) dəyişilməsi	$\frac{50700 \text{ min man.} \times 0,89\%}{100\%} = +451 \text{ min man.}$
ƏM planda qəbul edilmiş topdan satış qiymətlərində, min man	03	103,87	103,87-108=-4,13	Məhsulun strukturunun (onun ayrı-ayrı növlərinin material tutumu nöqteyi-nəzərindən) dəyişilməsi	$\frac{50700 \text{ min man.} \times (-4,13\%)}{100\%} = -2094 \text{ min man.}$
Yekunu	04	x	+3,87	x	52660 min man.-50700 min man.=+1960 min man.

Amillərin dəyər ifadəsində təsirinin hesablanması üçün planın yerinə yetirilməsi üzrə faiz fərqlərini topdan satış qiymətlərilə plan üzrə ƏM həcminə (50700 min man.) vururuq və 100%-ə bölürük.

Struktur dəyişilmələrinin təhlili ƏM buraxılması üzrə planın yerinə yetirilməsi dərəcəsini şərtləndirən əsas amilləri aydınlaşdırmaq imkanı yaratmışdır. İndiki halda kollektivin plandan artıq əmək səyləri hesabına ƏM həcmi plandan 3605 min man. məbləğində artıq olmuşdur. Məhsulun tərkibində onun daha çox rentabelli növlərinin xüsusi çəkisinin yüksəlməsinə struktur dəyişilikləri kömək etmişdir. Nəticədə ƏM həcmi 451 min man. artmışdır. Bununla belə material tutumu az olan məmulatların xüsusi çəkisinin yüksəlməsinə səbəb də struktur dəyişiklikləri olmuşdur, odur ki, əmtəəlik məhsul 2094 min man. azalmışdır.

Məhsulun tərkibində struktur dəyişilmələri təşkilatın fəaliyyətindən həm asılı olmayan, həm də asılı olan səbəblərdən yarana bilər.

5.4. Satışın həcminin amillər üzrə təhlili metodikası

Təşkilatın maliyyə vəziyyəti, onun fəaliyyətinin maliyyə nəticələri, ödəmə qabiliyyəti satışın həcmindən çox asılıdır. Satışın həcminin təhlili prosesində məhsulun satışı üzrə planın yerinə yetirilməsi səviyyəsini müəyyən etmək, onun dəyişilməsinə təsir edən amilləri aydınlaşdırmaq, müqavilə öhdəliklərinin yerinə yetirilməsinə qiymət vermək lazımdır.

Satış planının yerinə yetirilməsinin və onun dinamikasının təhlili müqayisə metodu ilə həyata keçirilir. O, faktiki göstəricilərin hesabat dövrünün plan və əvvəlki dövrlərin faktiki göstəricilərilə müqayisə edilməsindən ibarətdir. Bu zaman mütləq kənarlaşmalar, artım templəri, planın yerinə yetirilməsi faizləri hesablanır.

Satışın həcminin dəyişilməsinə təsir edən əsas amillərin qarşılıqlı əlaqəsi balans əlaqələndirmə metodunun köməyilə müəyyən edilir:

$$\Delta RM=\Delta ƏM+(\Delta HMQ_{d.ə}-\Delta HMQ_{d.s}),$$

burada ΔRM - faktiki realizə edilmiş məhsulun planla və ya əvvəlki dövrlə müqayisədə dəyişilməsidir; ΔƏM - əmtəəlik məhsulunun dəyişilməsi; $\Delta HMQ_{d.ə}$ və $\Delta HMQ_{d.s.}$ - təhlil edilən dövrün müvafiq olaraq əvvəlinə və sonuna anbarda hazır məhsul qalıqlarının dəyişilməsidir.

Amillərin təsirinin təhlili üçün əmtəəlik məhsulun topdan satış qiymətlərində balans hesablanır (cədvəl 5.3)

Cədvəl 5.3

Satışın həcminin dəyişilməsi amillərinin təhlili, min man.
(müəssisənin plan üzrə topdan satış qiymətləri ilə)

Sıra sayı	Göstəricilər	Baza dövrü	Hesabat dövrü	Müxtəlif amillərin satışın həcminə təsiri
1	İlin əvvəlinə anbarda hazır məhsul qalıqları	125	140	15
2	Əmtəəlik məhsul buraxılışı	5440	5800	360
3	İlin sonuna anbarda hazır məhsul qalıqları	130	120	10
4	Məhsul satışı (b.1+ b.2 --b.3)	5435	5820	385

Hesabat dövründə baza dövründən 385 min man. məbləğində artıq məhsul realizə edilmişdir. Satışın həcminin dəyişilməsinə aşağıdakı amillər təsir göstərmişlər: əmtəəlik məhsul buraxılışının artması (+360 min man.), ilin əvvəlinə anbarda hazır məhsul ehtiyatlarının artımı (+15 min man.), ilin sonuna anbarda hazır məhsul qalıqlarının azalması (+10 min man.).

Təhlilin detallaşdırılması hazır və buraxılmış məhsul qalıqlarının dinamikasının öyrənilməsindən ibarətdir. Bu zaman

- istehsalla (ΔƏM);
- satışla (ΔHMQ) əlaqədar amillər qrupları öyrənilir.

Əmtəəlik məhsul istehsalı ilə əlaqədar olan amillər aşağıda nəzərdən keçiriləcəkdir. Hazır məhsul qalıqlarının təhlili zamanı fərqlənmələrin müddətlərini və səbəblərini seçmək lazımdır.

Məhsul satışının təhlili mal göndərilmələri üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməsinin təhlililə sıx əlaqədardır. Müəssisənin müqavilə öhdəliklərini yerinə yetirməməsi onun pul gəlirinin, mənfəətinin azalmasına, cərimələrin ödənilməsinə səbəb olur. Bundan əlavə, müəssisə rəqabət şəraitində məhsul satışı bazarlarını, potensial alıcılarını itirir, bu isə istehsalın azalmasına gətirib çıxara bilər.

Təhlil prosesində bütövlükdə müəssisə üzrə, ayrı-ayrı istehlakçılar və məhsul növləri üzrə ay ərzində və artan yekunla mal göndərilməsi planının yerinə yetirilməsi öyrənilir. Planın yerinə yetirilməməsinin səbəbləri aydınlaşdırılır və müqavilə öhdəliklərinə riayət edilməsinə qiymət verilir.

Müqavilə öhdəliklərinin yerinə yetirilməsi səviyyəsi (faizi) (konkret məlumatlar 5.4. cədvəlində verilmişdir) aşağıdakı düsturla hesablanır:

$$K_{m.f.} = \frac{MG_{pl} - MG_{kəs}}{MG_{pl}} \times 100\% = \frac{1110 - 100}{1110} \times 100\% = 90\%,$$

burada MG_{pl}, $MG_{kəs}$-müqavilə öhdəlikləri üzrə məhsul göndərilməsinin müvafiq surətdə plan üzrə həcmi və onun yerinə yetirilməsində kəsirdir.

Cədvəl 5.4

Ay ərzində məhsul göndərilməsi üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməsinin təhlili, min man.

Məmulat	Alıcı	Müqavilə üzrə göndərilmə	Faktiki göndərilmişdir	Məhsul göndərilməsində kənarlaşma (+, -)	Göndərilmə həcminə hesaba alınmışdır
A	1	200	150	- 50	150
	2	300	300	-	300
B	1	210	220	+10	220
	2	400	340	- 60	340
və b.k.	-	-	-	-	-
Yekun		1110	1010	-100	1010

Məhsulun göndərilməsində kəsir olması yalnız həmin müəssisənin fəaliyyətinin nəticələrinə deyil, həm də ticarət təşkilatlarının, əlaqəli müəssisələrin, nəqliyyat təşkilatlarının və s. işinə mənfi təsir edir.

Təhlilin növbəti mərhələsində müqavilə öhdəlikləri üzrə satış planının kəsirlə ödənilməsinə təsir etmiş xarici və daxili səbəbləri müəyyən etmək lazımdır.

Məhsul istehsalı prosesini üç mərhələyə bölmək olar: istehsalatdan çıxma, hazır məhsul anbarına daxil olma və istehlakçılara göndərilmə. Bu mərhələlər qarşılıqlı əlaqəlidir və qarşılıqlı şərtlənirlər. Müqavilə öhdəliklərinin yerinə yetirilməsi həmin mərhələlərin hər birindən asılıdır. Məhsul satışı elə həyata keçirilməlidir ki, əvvəlki mərhələdə sonrakı mərhələdə əməliyyatların aparılması üçün normal şərait yaransın. Əgər hər-hansı mərhələdə gərgin vəziyyət yaranarsa, o, sonrakı mərhələyə də təsir edir. Planın yerinə yetirilməsinin təmin edilməsi üçün satış prosesinin idarə edilməsi üzrə operativ qərar qəbul etmək lazımdır. Qərar qəbul edilməzdən əvvəl operativ təhlil aparılmalıdır.

Satış prosesinin idarə edilməsi üçün mal *göndərmələrinin kəsirlə yerinə yetirilməsinin daxili səbəblərini* məsuliyyət mərkəzləri üzrə qruplaşdırmaq olar.

1. Təchizat şöbəsi ilə əlaqədar olan səbəblər:
- sifarişlərin vaxtında tərtib edilməməsi (rəsmiləşdirilməməsi);
- materialların, kompleksləşdirici məmulatların və yarımfabrikatların vaxtında gətirilməməsi;
- materialların və kompleksləşdirici məmulatların ayrı-ayrı növlərinin əvəz edilməsi.

2. İstehsalatla əlaqədar olan səbəblər:
- istehsal edilmiş zay məhsul;
- texnoloji intizamın pozulması;
- avadanlıqlar üzrə boş dayanmalar;
- enerji çatışmamazlığı;
- işçi qüvvəsinin çatışmamazlığı;
- kompleksləşdirici məmulatların və yarımfabrikatların olmaması;

- əsas və köməkçi materialların olmaması.

3. Satış şöbəsinin işi ilə əlaqədar olan səbəblər:
- məhsul partiyasının göndərilmə üçün natamam hazırlanması;
- anbarların çatışmamazlığı;
- məhsulun geri qaytarılması;
- yükləmə-boşaltma işlərinin zəif mexanikləşdirilməsi;
- işçi qüvvəsilə təmin edilməmə;
- tara və köməkçi materialların olmaması;
- taranın düzgün markalanmaması;
- göndərmə sənədlərinin tərtib edilməsi müddətlərinin pozulması;
- göndərilən malların əvəz edilməsinin vaxtında razılaşdırılmaması.

Göndərilmələrin kəsirlə yerinə yetirilməsinin xarici səbəblərinə aşağıdakılar aid edilir:
- göndərmə planının dəyişilməsi;
- alıcıların tərkibinin dəyişilməsi;
- göndərmə üçün naryadların vaxtında verilməməsi;
- alıcının məhsuldan imtina etməsi;
- göndərilən materialların, yarımfabrikatların və kompleksləşdirici məmulatların aşağı keyfiyyəti;
- materiallar, yarımfabriktalar və kompleksləşdirici məmulatları göndərməkdən imtina edilməsi;
- planda nəzərdə tutulmuş avtomobil və ya dəmir yolu nəqliyyat vasitələrinin ayrılmaması.

Hesabat və əvvəlki dövrlər ərzində məhsulun növlər üzrə göndərilməsində kəsirin təhlili zamanı xalq istehlak malları və əhaliyə xidmət göstərilməsi xüsusi nəzarətdə olmalıdır. Sonra, kompleksləşdirici məmulatlar və ixrac üzrə göndərilmələrin kəsiri ətraflı təhlil edilir. Məhsulun xarici ticarət birliklərinə ixracını nomenklatura baxımından təhlil edirlər.

Məhsul göndərilməsi üzrə müqavilə şərtlərinə yalnız məhsulun həcmi üzrə deyil, həmçinin də göndərmə müddətləri, nomenklaturası və keyfiyyəti üzrə riayət edilməlidir. Müqavilə öhdəliklərinə riayət edilmədikdə müəssisəyə qarşı cərimə sanksiyaları tətbiq edilir. O,

istehlakçıya vurulmuş ziyanın əvəzini ödəməlidir. Bu zaman *ziyan* deyəndə əlavə xərc, əmlakın itirilməsi və ya zədələnməsi, alınmamış fayda başa düşülür. Onun ölçüsü müqavilə öhdəliklərinin pozulmasının nəticələrinə əsaslanaraq müəyyən edilir. Beləliklə, mal göndərilməsi üzrə müqavilənin yerinə yetirilməməsi aşağıdakı mənfi nəticələr ilə müşayiət olunur:

- alınmamış mənfəət;
- sanksiyaların ödənilməsi üzrə xərclər.

Məhsulun keyfiyyətinin aşağı olması aşağıdakı neqativ nəticələrlə şərtlənə bilər:

- alınmamış mənfəət;
- ziyanın ödənilməsinə çəkilən xərclər;
- nöqsanların aradan qaldırılması üzrə xərclər;
- zəmanətli təmir üzrə əlavə xərclər;
- ziyan vurulmasına görə sanksiyaların ödənilməsi üzrə xərclər.

Müəssisənin fəaliyyətinin, o cümlədən, satış fəaliyyətinin operativ idarə edilməsinin ən qənaətli prinsipi yaranan kənarlaşmalar haqqında analitik informasiya əsasında qərarlar qəbul edilməsindən ibarətdir. *Fərqlənmələr üzrə idarə etmə* ondan ibarətdir ki, satış şöbəsinin işinə təshihedici təsirlər edilməsi haqqında qərarlar yalnız yol verilən kənarlaşmaların hədlərinin plandan yüksək olması haqqında informasiya alındıqdan sonra qəbul edilir.

Məhsulun göndərilməsi üzrə kənarlaşmalar yol verilə bilən elə həddir ki, ondan yüksək olan halda satış fəaliyyətinə satış şöbəsinin rəisindən daha yüksək dərəcəli rəhbərlərin müdaxilə etməsi zərurəti yaranır, istehsal edilən və göndərilən məmulatların xarakterindən, müqavilə və məhsulun daşınması şərtlərini nəzərə almaqla müəyyən edilir. Yol verilmə həddi kimi, məsələn, nəqliyyat partiyası (vaqona və ya konteynerə yerləşən məhsulun miqdarı) qəbul edilə bilər.

Kənarlaşmalar üzrə idarə etmə təhlilin aparılması və idarəetmənin özünün təsirliliyinin yüksəldilməsi vacibdir, çünki yalnız istehsalın və satışın normal gedişindən kənarlaşmalar yol verilən həddən yüksək olduğu anda və sahələrdə tənzimləmə tələb edilir. Bunun sayəsində analitik informasiya axını azalır, əksər

qərarların standart vəziyyətlərdə qəbul edilməsi isə idarəetmənin daha aşağı səviyyəsində, və deməli, daha operativ yerinə yetirilir. Belə yanaşma ilkin və sonrakı operativ təhlilə əsaslanır.

Müqavilə öhdəliklərinin pozulmasının qarşısının alınmasında ən təsirli üsul göndərmə şərtlərinə riayət edilməsi üzərində ilkin nəzarəti təmin edən ilkin təhlildir [24]. Belə təhlil, əsas etibarilə, satış şöbəsinin səlahiyyətli işçiləri tərəfindən müqavilə üzrə məhsulun hər göndərilməsi üçün anbar işçilərinə əmrin tərtib edilməsi zamanı həyata keçirilir. O, nəzərdə tutulmuş mal göndərmələri üzrə:

- məmulatların miqdarı və dəyəri üzrə normalara riayət olunmasını qiymətləndirir;
- onların nomenklaturası (əvəz edilməsi) üzrə kənarlaşma səbəblərinin aşkar edilməsini əhatə edir.

Əmrin hazırlanması zamanı müqavilə öhdəliklərinin pozulmasının bütün səbəbləri ətraflı araşdırılır, müəyyən edilir və əmrin təsviri hissəsində dəqiq və müfəssəl şərh edilir.

Göndərmə şərtlərinin yol verilən həddən artıq pozulması isə məhsul göndərilməsi haqqında əmri fərqlənən siqnal əlamətləri olan blankda yazmaq tövsiyə olunur. Anbar işçiləri yalnız müəssisə rəhbərinin və ya onun müavininin imzası olan əmri yerinə yetirə bilərlər. Satış planının yerinə yetirilməsinin operativ və yekun təhlilinin dərindən həyata keçirilməsi üçün məzmunlu informasiya kütləsinin formalaşdırılması məhsul göndərilməsi üzrə əmrlərdə müqavilə öhdəliklərinin pozulması səbəblərinin əks etdirilməsinin mühüm nəticəsidir.

İş gününün əvvəlinə məhsulun çeşidləri üzrə qalıqlar haqqında məlumatlar əsasında və gün ərzində göndərmələrin təqvim qrafiklərini və məhsul buraxılışını nəzərə almaqla hər gün təhlil aparılır və göndərmə üzrə qərarlar hazırlanır. Təhlilin əsas üsulu məhsul çeşidləri üzrə qalıqların göndərmə normaları ilə müqayisə edilməsidir. Bu zaman alıcıların yerləşməsi və günə ayrılmış nəqliyyat vasitələri nəzərə alınır.

Ayın (yaxud rübün – müqavilələr üzrə məsuliyyət dövrünü nəzərə almaqla) əvvəlindən artan yekunla məhsulun göndərilməsinin

sonrakı operativ təhlilinin vəzifələri hesabat dövrü ərzində göndərmələr planının bərabər qaydada və dəqiq yerinə yetirilməsini təmin etməkdən, müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməməsinin vaxtında qarşısını almaqdan ibarətdir.

Müqavilə şərtlərinin pozulması əsas etibarilə məhsulun istehsalı prosesində baş verir. Bununla əlaqədar olaraq operativ təhlil eyni zamanda mal göndərilməsini də, istehsalını da əhatə etməlidir. Yalnız bu qaydada istehsalın ibarətmə vasitəsi kimi təhlilin təsirli xarakteri təzahür edir.

Operativ təhlil üçün informasiya mənbələri operativ planlaşdırma və uçot sənədləridir. Bu baxımdan məhsulun buraxılışı və göndərilməsi üzrə plan-qrafiklərin tərtib edilməsinin əhəmiyyəti böyükdür.

Plan-qrafikdə (cədvəl 5.5) hazır məhsul anbarında olan məmulatlar ayın əvvəlinə onların qarşıdakı göndərilməsi qaydasında yerləşdirilməlidir. Ay ərzində buraxılmış məmulatlar sənəd dövriyyəsi müddətləri ardıcıllığı ilə və tranzit normanın yaradılması üçün məhsulun anbarda saxlanmasını nəzərə almaqla göstərilir.

Bu qrafik üç xidmətin: maliyyə, satış və istehsal-dispetçer xidmətlərinin işində tərtib edilir və tətbiq olunur. İstehsal-dispetçer xidməti bu qrafikə uyğun olaraq məmulatların istehsalı müddətlərinin sexlər üzrə bölüşdürülməsini təmin edir və məhsulun buraxılışının operativ uçotunu aparır.

Cədvəl 5.5

İyun ayı üçün məhsul buraxılışı və göndərilməsinin plan-qrafiki

Məmulat	Alıcı	Müqavilə üzrə məmulatların miqdarı, ədəd	Məbləği, min man.	İstehsalatdan buraxılma müddəti, gün	Göndərilmə müddəti, gün
A	X	4	5,0	9	10
B	U	3	4,2	15	16
C	Z	2	7,8	20	23

Satış xidməti məhsulun göndərilməsi müddətlərinin paylaşdırılmasını təmin edir və göndərmənin uçotunu aparır. Maliyyə xidməti pul vəsaitlərinin gündəlik daxil olmalarını planlaşdırır.

Hesabat məlumatlarının plan-qrafikin göstəricilərilə tutuşdurulması ayrı-ayrı müqavilə öhdəliklərinin planlaşdırılmış yerinə yetirilməsi müddətindən fərqlənməsini (günlərlə) aşkar etmək imkanı yaradır. Belə təhlil əsasında ayrı-ayrı sexlər və xidmətlər tərəfindən öhdəliklərin vaxtında yerinə yetirilməməsini müəyyən etmək və onların fəaliyyətinin yaxşılaşmasına operativ təsir etmək, yol verilmiş pozulmaların aradan qaldırılması üçün tədbirlər görmək olar.

Beləliklə, operativ informasiya əsasında həyata keçirilən ilkin təhlilin məlumatları hesabat dövrü qurtarmağa çox vaxt qalmış müəssisələrin fəaliyyətinin nəticələrini olduqca dəqiq proqnozlaşdırmaq və vaxtlı-vaxtında müvafiq tədbirlər görmək imkanı yaradır. Müqavilələr üzrə satış planının yerinə yetirilməsinin ilkin qiymətləndirilməsi kompüter texnikasının köməyilə hesablamalar aparan zaman daha dəqiq olur.

5.5. İstehsalın ahəngdarlığının təhlili

Məhsul buraxılışının ahəngdarlığı (ritmliliyi) rüb, ay, gün üçün plan tapşırıqlarına ciddi uyğunluq deməkdir. Ahəngdarlığ heç də həmişə bərabərlik demək deyil. Belə ki, plan tapşırıqları, məsələn, ilin ayları üzrə, habelə istehsal mövsümlü olduğu halda bölüşdürülə bilməz.

Ahəngdarlığın təhlili (cədvəl 5.6) məhsul buraxılışının aylar, rüblər, habelə ongünlüklər üzrə xüsusi çəkiləri haqqında faktiki və plan göstəricilərinin müqayisə edilməsi yolu ilə həyata keçirilir.

Bütün rüblərdə sonuncu ayda məhsul buraxılışının xüsusi çəkisi rüblük buraxılışın üçdə birindən bir qədər yüksək planlaşdırılmışdır. Faktiki xüsusi çəkilərin planlaşdırılan səviyyə ilə müqayisəsi göstərir ki, müəssisədə ahəngdarlığ əhəmiyyətli dərəcədə pozulmuşdur. Üçüncü ayda məhsul buraxılışının xüsusi çəkisi planlaşdırılandan 9-12% yüksəkdir.

Cədvəl 5.6

Rüblər üzrə məhsul buraxılışının ahəngdarlığı

Göstəricilər	Plan, %	Fakt, %
Müvafiq rübün üçüncü ayında məhsul buraxılışının onun rüb ərzində buraxılışının ümumi həcmində xüsusi çəkisi:		
Martda	34,5	44,0
İyunda	34,2	43,0
Sentyabrda	34,4	45,0
Dekabrda	36,0	48,0
IV rübdə məhsul buraxılışının onun il ərzində buraxılışının ümumi həcmində xüsusi çəkisi	27,2	28,4

Sonra bütün 12 ayın birinci, ikinci və üçüncü ongünlükləri ərzində məhsul buraxılışı həcminin illik məhsul buraxılışı həcminə nisbətən xüsusi çəkiləri göstəricilərinin planla müqayisəsi yolu ilə istehsalın ay daxili ahəngdarlığını qiymətləndirmək lazımdır. Belə hesablama üçün informasiya mənbəyi kimi ongünlüklər üzrə məhsul buraxılışı üzrə istehsal şöbəsinin məlumatlarından ibarətdir.

Təşkilatın hazır məhsul buraxılışının ahəngdarlığı ayrı-ayrı sexlərin işinin ahəngdarlığından asılı olduğunu nəzərə alaraq, sexlər üzrə də ahəngdarlığın təhlili aparılır (cədvəl 5.7).

Cədvəl 5.7

Müəssisənin sexlərində ongünlüklər üzrə məhsul buraxılışının aylıq buraxılışa nisbətən ahəngdarlığı, %-lə

Sexlər	I ongünlük		II ongünlük		III ongünlük	
	Plan	Fakt	plan	fakt	plan	fakt
Hazırlıq	32,5	25,0	33,5	30,0	34,0	45,0
Mexaniki	32,5	23,0	33,5	30,0	34,0	47,0
Quraşdırma (yığma)	35,0	20,0	33,0	40,0	32,0	40,0

Ahəngdarlığın məcmu qiyməti adətən ahəngdarlıq əmsalının (∂_a) hesablanması yolu ilə verilir. O, çeşid üzrə planın yerinə yetirilməsinin orta faizi kimi müəyyən edilir: planın yerinə yetirilməsinə plan həddində faktiki buraxılış hesablanır və alınmış

məbləğ buraxılış planı ilə tutuşdurulur. Bu, hesablamanı həm buraxılışın mütləq göstəriciləri üzrə, həm də xüsusi çəkiləri üzrə aparmaq olar.

Bizim misalda ahəngdarlıq əmsalları aşağıdakı kimi alınmışdır:

Hazırlıq sexində $\partial_{a.h} = \frac{25+30+34}{100} = 0,89;$

Quraşdırma (yığma) sexində $\partial_{a.q} = \frac{20+33+32}{100} = 0,85;$

Mexaniki sexdə $\partial_{a.m} = \frac{23+30+34}{100} = 0,87.$

Ümumiyyətlə, müəssisə üzrə ahəngdarlıq əmsalı quraşdırma (yığma) sexinin ahəngdarlıq əmsalına bərabər qəbul edilir, çünki o, məhsul istehsalının son mərhələsidir. Alınmış nəticələr üzrə ən aşağı $\partial_{a.q}$ kəmiyyətidir. Bu, onunla izah olunur ki, qrupaşdırma (yığma) mərhələsində istehsal prosesinin pozulması əvvəlki hazırlıq və mexaniki sexlərin (istehsalatların) qeyri-ahəngdar işi ilə əlaqədardır.

Aparılan təhlil göstərir ki, bütün sexlər (istehsalatlar) üzrə məhsul istehsalı birinci ongünlükdə aylıq buraxılışın yalnız 20-25%-i, üçüncü ongünlükdə isə – 40-47%-i təşkil edir.

İstehsalın ahəngdarlığının pozulması mənfi nəticələrə gətirib çıxarır. Bu, ilk növbədə ayın əvvəlində istehsal güclərinin və işçi qüvvəsinin tam yüklənməməsində özünü göstərir, üçüncü ongünlükdə isə gərgin və vaxtından artıq işlər başlayır və bu da zay məhsulun xüsusi çəkisini artırır. Gərginlik ayın axırında bitməmiş istehsal qalıqlarının normativlərlə müqayisədə kəskin azalmasına və anbarda plandan artıq hazır məhsul qalıqların yığılıb qalmasına səbəb olur. Onların ayın son günlərində göndərilməsi mümkün olmadığından mal göndərilməsi üzrə müqavilə şərtləri yerinə yetirilmir. Buna görə müəssisə cərimələr ödəyir və bu satış planının yerinə yetirilməməsilə bərabər mənfəətin məbləğini də azaldır. Qeyri-məhsuldar xərclər (fəhlələrin təqsiri olmayan boşdayanmaların, vaxtından artıq işlərin ödənilməsi, zay məhsul) hesabına məhsulun maya dəyəri artır, mənfəət planı yerinə yetirilmir. Bu, öz növbəsində büdcəyə ödəmələrin pozulmasına, xüsusi dövriyyə vəsaitlərinin

çatışmamazlığına gətirib çıxarır. Normativdən artıq hazır məhsul qalıqlarının olması dövriyyə vəsaitlərinin dövretməsini ləngidir. Bundan əlavə, mal göndərənin qeyri- ahəngdar işi əlaqədar müəssisələrin istehsal silsilələrində müəyyən pozulmalara səbəb olur.

Pozulmaların vaxtlı-vaxtında aşkar edilməsi üçün öngünlük ərzində plan tapşırıqlarının gündəlik yerinə yetirilməsi haqqında məlumatlara əsasən ahəngdarlığı operativ təhlil etmək lazımdır.

5.6. Məhsulun çeşidinin təhlili və qiymətləndirilməsi

Əhalinin tələbatının daha tam ödənilməsinin təmin edilməsi üçün müəssisənin yalnız məhsulun ümumi həcmi üzrə deyil, həm də çeşidlər (nomenklatura) üzrə planı yerinə yetirməsi lazımdır. Dövlət ehtiyatları üçün malların göndərilməsinə dair kontraktların yerinə yetirilməsinin xüsusi əhəmiyyəti vardır. O, müəssisənin məhsulunun satılmasına, onun vaxtlı-vaxtında ödənilməsinə, vergilər, kreditlər üzrə güzəştlər almasına və s. zəmin yaradır.

Nomenklatura – məmulatların adlarının və MDB ərazilərində qüvvədə olan ümumibirlik sənaye məhsulları klassifikatorunda (ÜSMK) müvafiq məhsul növləri üçün onların müəyyən edilmiş kodlarının siyahısıdır.

Çeşid – məhsulun hər növü üzrə buraxılışının həcmini göstərməklə adlarının siyahısıdır. O, tam, qruplaşmış və qrupdaxili olur.

Müəssisə məhsulun çeşidi və buraxılış strukturunu formalaşdıran zaman, bir tərəfdən, məhsulun həmin növlərinə tələbi, digər tərəfdən isə – sərəncamında olan əmək, xammal, texniki, texnoloji, maliyyə və digər ehtiyatlardan ən səmərəli istifadə edilməsini nəzərə almalıdır. Çeşidin formalaşdırılması sistemini aşağıdakılar təşkil edir:

- alıcıların cari və perspektiv tələbatının müəyyən edilməsi;
- buraxılan yaxud buraxılması planlaşdırılan məhsulun rəqabət qabiliyyəti səviyyəsinin qiymətləndirilməsi;

- məmulatın həyat silsiləsinin öyrənilməsi, yeni, daha mükəmməl məhsul növlərinin yaradılması üzrə vaxtlı-vaxtında tədbirlərin görülməsi, mənəvi köhnəlmiş və iqtisadi cəhətdən səmərəsiz məmulatların istehsal proqramından çıxardılması;
- məhsulun çeşidində dəyişiklikərin iqtisadi səmərəliliyinin və risk dərəcəsinin qiymətləndirilməsi.

Məhsulun çeşidi üzrə istehsal planının yerinə yetirilməsi adətən eyni adlı əmsalın köməyilə qiymətləndirilir. O, çeşid üzrə istehsal planının yerinə yetirilməsində hesaba alınmış ümumi faktiki məhsul buraxılışının onun plan üzrə ümumi buraxılışına bölünməsi yolu ilə hesablanır (plandan artıq hazırlanmış və ya planda nəzərdə tutulmuş məhsul çeşidi üzrə planın yerinə yetirilməsində hesaba alınmır). 5.8 cədvəlinin məlumatlarından görünür ki, məhsul çeşidləri üzrə plan 93,76 % (902 : 962 x 100) yerinə yetirilmişdir [28].

Cədvəl 5.8

Məhsulun çeşidi üzrə planının yerinə yetirilməsi

Məmulat	Məhsul istehsalının həcmi, plan qiymətlərində, min man.		Planın yerinə yetirilməsi faizi	Çeşid üzrə planın yerinə yetirilməsində hesaba alınmış məhsulun həcmi, min man.
	Plan üzrə	Faktiki		
A	288	350	121,8	288
B	340	320	94,1	320
C	190	150	78,9	150
Ç	144	165	114,6	144
Yekunu	962	985	102,4	902

Çeşid üzrə planın kəsirlə yerinə yetirilməsi həm xarici, həm də daxili amillərlə bağlıdır. Xarici amillərə bazarın konyunkturası, məhsulun bəzi növlərinə tələbin dəyişilməsi, maddi-texniki təminatın vəziyyəti, müəssisənin istehsal güclərinin ondan asılı olmayan səbəblərdən vaxtlı-vaxtında istifadəyə verilməməsi aid edilir. Daxili səbəblər istehsalın təşkilində, idarəetmə sistemində və maddi həvəsləndirmədə nöqsanlarla, avadanlığın pis vəziyyəti və onun

boşdayanmaları, qəzaları ilə, elektrik enerjisinin çatışmamazlığı ilə, istehsal mədəniyyətinin aşağı olması ilə əlaqədardır.

5.7. Məhsulun (iş və xidmətlərin) keyfiyyətinin təhlili

Məhsulun keyfiyyəti dedikdə əmək məhsulunun insanın və cəmiyyətin müəyyən tələbatını ödəmək qabiliyyətini müəyyən edən faydalı istehlak xassələrinin məcmusu başa düşülür.

Məhsulun keyfiyyətinin yaxşılaşdırılması istehsalın səmərəliliyinin artmasının mühüm amillərindən biridir, məhsulun rəqabət qabiliyyətinin yüksəlməsinə, mənfəətin artmasına kömək edir, sabit satış bazarı formalaşdırır.

Məhsulun keyfiyyəti uyğunluq sertifikatları ilə təsdiq edilir. Sertifikatlaşdırma lazımi surətdə eyniləşdirilmiş məhsulun, prosesin, xidmətin konkret standarta yaxud digər normativ sənədə uyğunluğunu müəyyən etməyə imkan verir.

Sertifikatlaşdırmanın məqsədləri aşağıdakılardır:

- istehlakçının həyatı, sağlamlığı və əmlakı üçün təhlükəli olan məhsulu əldə etməkdən müdafiə edilməsi;
- məhsulun ixracına kömək edilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi.

Sertifikatlaşdırma müvəffəqiyyətlə keçdiyi halda məhsulun istehsalçısı olan müəssisəyə uyğunluq sertifikatı verilir, habelə məmulatı və (və ya) qablaşdırmanı uyğunluq nişanı ilə markalamaq hüququ təyin edilir. Sertifikatlaşdırılmış məhsulun müəyyən edilmiş tələblərə cavab verməkdə davam etməsini yoxlamaq məqsədilə təftiş nəzarəti keçirilir.

Məhsulun keyfiyyətini səciyyələndirən göstəricilər ümumiləşdirici və fərdi (spesifik) göstəricilərə bölünür:

Ümumiləşdirici göstəricilərə aşağıdakılar aid edilir:

- məhsulun ümumi həcmində yeni məmulatların xüsusi çəkisi;
- ümumi məhsulun həcmində Azərbaycanda ilk dəfə hazırlanmış məhsulun xüsusi çəkisi;
- məhsulun ümumi həcmində beynəlxalq keyfiyyət standartlarına uyğun sertifikatlaşdırılmış məhsulun xüsusi çəkisi;
- məhsulun ümumi həcmində milli standartlara uyğun sertifikatlanmış məhsulun xüsusi çəkisi.

Fərdi göstəricilər məhsulun ayrı-ayrı xassələrini səciyyələndirir. Onlara aşağıdakı göstəricilər aiddir:

- təyinat göstəriciləri – məhsulun təyinatı üzrə istifadə edilməsindən alınan səmərəni (effekti) səciyyələndirirlər;
- mötəbər göstəriciləri (müntəzəmlik, saxlanıla bilmək, uzunmüddətlilik, təmirə yararlılıq);
- texnologiyalılıq göstəriciləri – konstruktor-texnologiya qərarlarının səmərəliliyini səciyyələndirirlər (material tutumu, əmək tutumu, enerji tutumu);
- eqronometrlik göstəriciləri – istehlakın münasibliyini və rahatlığını əks etdirir;
- təhlükəsizlik göstəriciləri – istismar zamanı təhlükəsizlik dərəcəsini qiymətləndirirlər;
- estetiklik göstəriciləri – formanın səmərəliliyini və icranın təkmilliyini əks etdirirlər;
- ekoloji göstəricilər və s.

Məhsulun keyfiyyətinin təhlil zamanı ümumiləşdirici keyfiyyət göstəriciləri müəyyən edilir və onların dinamikası öyrənilir. Həm ayrı-ayrı məhsul növlərinin keyfiyyətinin yüksəldilməsi, həm də məhsulun satışının ümumi həcmində onların xüsusi çəkisinin artması satışın dəyər ifadəsində həcminin artırılmasına gətirib çıxarır. Bu onunla izah edilir ki, məhsulun keyfiyyətinin yüksək səviyyəsi ona tələbin artmasına kömək edir və satış qiymətinin yüksəldilməsinə imkan yaradır.

Məhsulun keyfiyyətinin yüksəldilməsinin satışın ümumi həcminə (SÜH) və satışdan əldə edilən mənfəətə (M_{sat}) təsiri aşağıdakı kimi hesablanır [29]:

$$SÜH = V_1 \times (Q_1 - Q_0); \quad (5.1)$$

$$M_{sat} = V_1 \times (Q_1 - Q_0) - V_1 \times (MD_1 - MD_0), \quad (5.2)$$

Burada V_1-yüksək keyfiyyətli məhsu lsatışının həcmidir; Q_1 və Q_0-məmulatın müvafiq olaraq keyfiyyətin yüksəldilməsindən sonra və ona qədər qiymətidir; MD_1 və MD_0-müvafiq olaraq keyfiyyətin yüksəldilməsindən sonra və onu qədər məhsul vahidinin maya dəyəridir.

Əgər buraxılan məhsul çeşidlərlə (sortlarla) qiymətləndirilirsə, onda onun dəyişilməsinin satışın həcminə və satışdan alınan mənfəətə təsirini hesablamaq olur. Hesablama (5.1) və (5.2) düsturları əsasında aparılır, bu zaman nəzərə almaq lazımdır ki, Q_1 və Q_0, MD_1 və MD_0 - müvafiq olaraq məhsul çeşidləri üzrə məhsul vahidinin faktiki və baza strukturuna uyğun orta qiymətləri və maya dəyərləridir.

Təhlilin sonrakı mərhələsində aşağı çeşidlu məmulat buraxılması səbəblərinin və nöqsanların baş verdiyi yerlərin aşkar edilməsinə yönəldilməlidir.

Məhsulun keyfiyyətinin dolayı xarakteristikaları məhsulun istehlakçılarından reklamasiyaların olması və zay məhsul istehsalıdır.

Təhlil zamanı istehlakçıların *reklamasiyalarını* aşağıdakı istiqamətlərdə öyrənirlər: məmulatların növləri, reklamasiyaya səbəb olmuş qüsurların xarakteri, reklamasiya verilmiş məmulatların miqdarı və satılmış məhsulun ümumi həcmində onların xüsusi çəkisi, qəbul edilmiş reklamasiyalar üzrə itkilər.

Reklamasiyalar dinamikada öyrənilir, qüsurların aradan qaldırılmasına yönəldilmiş təşkilati-texniki tədbirlər işlənib hazırlanır.

İstehsal edilmiş zay məhsul onun hazırlanması üzrə istehsal prosesinin təşkilinin və yerinə yetirilməsinin keyfiyyətini əks etdirir. Zay məhsul – öz xassələri üzrə DÖST-lərdə, TŞ-lərdə nəzərdə tutulan tələblər səviyyəsinə uyğun olmayan və birbaşa təyinatı üzrə istifadə üçün yararsız məmulatlar və ya detallardır.

Zay məhsul (brak) öz xarakterinə görə iki qrupa bölünür: düzəldilə bilən və düzəldilə bilməyən. *Düzəldilə bilən zay məhsul* – elə zay məhsuldur ki, qüsurların aradan qaldırılması nəticəsində məmulat yararlı məhsul qarşısında qoyulan tələbləri ödəyən səviyyəyə çatdırıla bilər. Bu ana qədər zay məmulatlar bitməmiş istehsalın tərkibində hesablanır.

Düzəldilə bilməyən (qəti) zay məhsul düzəldilməsi mümkün olmayan yaxud iqtisadi cəhətdən məqsədəuyğun olmayan zay məhsuldur.

Zay məhsulu həmçinin yaranmasının aşkar edilməsi yerinə və onun səbəblərinə görə fərqləndirirlər. *Yerinin aşkar edilməsi* üzrə zay məhsul daxili – müəssisənin özündə üzə çıxarılmış və xarici – istehlakçı tərəfindən aşkar edilmiş olur. Zay məhsulun belə bölgüsü müəssisənin texniki nəzarət şöbəsinin (TNŞ), habelə müvafiq struktur bölmələrinin işini düzgün qiymətləndirməyə imkan verir.

Zay məhsulun səbəbləri istehsalın texnologiyasının və təşkilinin sahə xüsusiyyətlərini nəzərə almaqla təsnif edilir. Sənayenin istənilən sahələri üçün ən çox ümumi olan səbəblər aşağıdakılardır: fəhlələrin ixtisas səviyyəsinin aşağı olması, nasaz avadanlıqlardan, alətlərdən və qurğulardan istifadə edilməsi, texniki sənədlərdə səhvlər olması, istehsal texnologiyasının pozulması, keyfiyyətsiz materiallardan istifadə edilməsi; nəzarət-ölçü cihazlarının kifayət qədər olmaması və nasazlığı.

Zay məhsul haqqında ilkin sənədləri tərtib edən zaman zay məhsulun növlərini, səbəblərini və təqsirkarlarının şifrini göstərən klassifikatorlardan istifadə edirlər. Yoxlamanın nəticələri hazır məhsulla birlikdə yoxlamaya təqdim edilən qoşma sənəddə (iş naryadında və ya növbə tapşırığında) qeyd edilir. Düzəldilə bilməyən zay məhsul aktla rəsmiləşdirilir, orada məmulatın adı, məhsulun zay olduğu əməliyyatlar, növü, səbəbləri və təqsirkarları göstərilməklə zay məhsulun xarakteristikası, təqsirkarlardan tutulmalı olan itkilərin məbləği göstərilir.

İstehsal edilmiş zay məhsulun ümumi həcmi qəti zay hesab edilmiş məmulatların maya dəyərilə və onun düzəldilməsinə sərf edilən xərclərlə müəyyən edilir.

İstehsal edilmiş zay məhsula çəkilən xərclər üzrə mənfi meyllər aşkar ediləndə onun ayrı-ayrı istehsalatlar üzrə səbəblərinin və təqsirkarlarının diqqətli təhlili tələb olunur. O, operativ hesabatın məlumatları əsasında həyata keçirilir. Bü halda istehsal edilmiş zay məhsulun ümumi məhsul istehsalı həcminə təsirini hesablamaq lazımdır. Adətən, təcrübədə bunu sadələşdirilmiş sxem üzrə edirlər: qəti zay məhsulun maya dəyərinin və zay məhsulun düzəldilməsinə sərf edilən xərclərin toplanması yolu ilə zay məhsulun mütləq ölçüsü (həcmi) hesablanır, alınmış məbləğin əmtəəlik məhsulun istehsal maya dəyərində xüsusi çəkisi (və ya faizi) tapılır, sonra alınmış faiz əmtəəlik məhsulun həcminə vurulur və beləliklə əldə edilməmiş məhsulun ölçüsü (həcmi) müəyyən edilir.

Bazarın istehlak edilən məhsula tələbkarlığının yüksəlməsi, habelə istehsal proseslərinin mürəkkəbləşməsi müəssisəni keyfiyyət probleminə münasibəti dəyişməyə məcbur edir. Hazırda son məhsulun və istehsal prosesinin ayrı-ayrı tərkib hissələrinin keyfiyyətinə nəzarət etmək kifayət deyil.

İstehsalın hazır məhsulun keyfiyyətinə təsir edən bütün mərhələlərini – materiallar göndərənlərlə kontrakt bağlanmasından hazır məhsulun satışına qədər əhatə edən keyfiyyət sistemi yaradılması rəqabət mübarizəsində yaşamanın zəruri şərti olmuşdur.

Keyfiyyət sistemi – məhsulun keyfiyyətinin ümumi idarə edilməsi üçün zəruri olan təşkilati strukturun, metodikaların, proseslərin və ehtiyatların məcmusudur. Bu sistemin təsiri, «Keyfiyyət dairəsi» (ilməsi) yaradaraq, məhsulun həyat (yaşama) silsiləsinin bütün mərhələlərinə yayılır. «Keyfiyyət dairəsi» – müxtəlif mərhələlərdə: tələbatın müəyyən edilməsindən onun ödənilməsinin qiymətləndirilməsinə qədər keyfiyyətə təsir edən qarşılıqlı asılı fəaliyyət növləri modelidir [27]. Keyfiyyət sistemi müəssisənin konkret fəaliyyətini nəzərə almaqla işlənib hazırlanır, lakin istənilən halda o, «keyfiyyət dairəsinin» aşağıdakı bütün mərhələlərini:

- marketinqi, bazarın axtarılmasını və öyrənilməsini;
- məhsulun qarşısında qoyulan texniki tələblərin layihələndirilməsini və (və ya) işlənib hazırlanmasını;


- material-texniki təchizatı;
- istehsal proseslərinin hazırlanmasını və tərtib edilməsini;
- istehsalı;
- nəzarəti və yoxlmaları;
- qablaşdırmanı və saxlamanı;
- məhsulun realizasiyasını və yayılmasını;
- quraşdırmanı və istismarı;
- xidmət edilmədə texniki köməyi;
- məmulatın istifadə ediləndən sonra işlədilməsini əhatə etməlidir.

Keyfiyyət sistemi onun «keyfiyyət dairəsinin» bütün mərhələlərində idarə edilməsini, son məhsulun keyfiyyətli olmasında bütün işçilərin iştirakını, keyfiyyətin yüksəldilməsi və xərclərin azaldılması üzrə fəaliyyətin əlaqələndirilməsini, qüsurların aşkar edilməsinin və onları yaradan səbəblərin aradan qaldırılmasının məcburiliyini təmin etməlidir.

5.8. Məhsul istehsalı və satışının həcminin artırılması amilləri və ehtiyatlarının təsnifatı

Məhsulun istehsalına və satışına təsir edən əsas amillər istehsalın ekstensiv və intensiv inkişafını müəyyən edən amillər, habelə istehsaldan kənar amillərdir. Amillərin təsnifatı 5.1 sxemində təqdim edilmişdir.

İstehsalın inkişafı ehtiyatlarının müəyyən edilməsi məqsədi ilə onların təsərrüfat fəaliyyətinin intensivləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi amilləri və şərtləri üzrə təsnifləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Müəssisələr belə təsnifatlara uyğun olaraq ehtiyatların axtarılıb tapılması və səfərbər edilməsi yollarını planlaşdırırlar, yəni ehtiyatların aşkar edilməsi və onlardan istifadə olunması üzrə təşkilati-texniki tədbirlər planı tərtib edirlər.



Sxem 5.1. ***İstehsalın ekstensiv və intensiv inkişafının amillərinin və ehtiyatlarının təsnifatı***

Ehtiyatlar onların təsir etdiyi son nəticələr üzrə təsnifləşdirilir. İqtisadi ədəbiyyatlarda aşağıdakı ehtiyatları fərqləndirirlər: məhsulun həcminin artırılması; məmulatların strukturunun və çeşidinin təkmilləşdirilməsi; məhsulun maya dəyərinin ya məsrəf elementləri və ya kalkulyasiya maddələri üzrə, yaxud məsuliyyət mərkəzləri üzrə aşağı salınması; məhsulun mənfəətliliyinin yüksəldilməsi; təşkilatın maliyyə vəziyyətinin yaxşılaşdırılması; rentabellik səviyyəsinin yüksəldilməsi.

Məcmu ehtiyatların hesablanması zamanı təkrar və ikiqat hesablama istisna edilməlidir, bunun üçün onların təsnifatının müəyyən prinsiplərinə ciddi riayət etmək lazımdır. Məsələn, məhsulun həcminin artırılması və keyfiyyətinin yüksəldilməsi ehtiyatları, habelə maya dəyərinin aşağı salınması ehtiyatları eyni zamanda mənfəətin və təsərrüfatçılığın rentabellik səviyyəsinin yüksəldilməsi ehtiyatlarıdır.

Hazır məhsulun tədavülü sahəsində satışın həcminin artması amillərinə və ehtiyatlarına aşağıdakılar aiddir:

- anbarda normativdən artıq, gərəksiz və lazımsız hazır məhsul ehtiyatlarının ləğv edilməsi; keyfiyyətinin aşağı olması səbəbindən satılmamış və tələbat olmayan məhsul çeşidlərinin aşkar edilməsi;
- məhsulun alıcılara göndərilməsi və çatdırılması tempinin sürətləndirilməsi, ödəmə-hesablaşma sənədlərinin hərəkəti müddətlərinin qısaldılması;
- satışın həcminin artırılması ehtiyatları;
- hazır məhsul istehsalının mümkün olan qədər artırılması (əmək amilləri üzrə kompleks ehtiyat);
- zay məhsul istehsalının aradan qaldırılması və keyfiyyətin yaxşılaşdırılması hesabına məhsulun qiymətinin mümkün olan qədər yüksəldilməsi;
- məhsulun istehsalı və satışının strukturunda dəyişikliklər;
- satılmamış məhsul qalıqlarının azaldılması;
- qiymət strategiyasının təkmilləşdirilməsi;
- marketinqin təkmilləşdirilməsi.

Yoxlama sualları?

1. Məhsul istehsalının və satışının həcmi hansı göstəricilərlə səciyyələnir?
2. Məhsul istehsalı həcminin təhlili prosesində hansı əsas məsələlər həll edilir?
3. Satışın həcminə hansı amillər təsir edir?
4. İstehsalın və satışın həcminin tədqiqi prosesində iqtisadi təhlilin hansı metodlarından istifadə edilir?
5. Məhsul çeşidinin strukturu hansı məqsədlə təhlil edilir?
6. Məhsul çeşidi üzrə planın yerinə yetirilməsinin təhlili zamanı hansı metodlardan istifadə edilir?
7. Məhsul istehsalı və satışının operativ təhlili hansı məqsədlə həyata keçirilir?
8. Qeyri-ahəngdar istehsal təşkilatın fəaliyyətinin maliyyə vəziyyətinə necə təsir göstərir?
9. Məhsulun keyfiyyəti hansı göstəricilərlə səciyyələnir?
10. Siz istehsalın həcminin artmasının hansı ekstensiv və intensiv amillərini və ehtiyatlarını bilirsiniz?

VI FƏSİL

ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ

6.1. Təhlilin vəzifələri və informasiya mənbələri

Təşkilatın lazımi tərkibdə və ixtisaslı şəxsi heyətlə təminatı, tapşırılmış əmək məhsuldarlığı parametrlərinə riayət edilməsi və bunun əsaslandırılması, iş vaxtından səmərəli istifadə edilməsi – təşkilatın əmək ehtiyatlarının və onlardan istifadə edilməsinin səmərəliliyinin təhlilinin əsas istiqamətləridir.

Əmək ehtiyatlarının və onlardan istifadə edilməsinin səmərəliliyinin təhlilinin əsas vəzifələrinə:

1) təşkilatın zəruri işçi qüvvəsilə təminatının qiymətləndirilməsi;

2) əmək ehtiyatlarının hərəkətinin təhlili;

3) əmək ehtiyatlarından istifadə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi;

4) əmək məhsuldarlığının yüksəldilməsi ehtiyatlarının aşkar edilməsi və onlardan istifadə üzrə əməli təkliflərin hazırlanması aid edilir.

Əmək ehtiyatları ilə təminatın və onlardan istifadə edilməsinin təhlili istifadə olunan geniş informasiya tələb edən çoxsaylı göstəricilər dairəsini əhatə edir. Belə informasiya aşağıdakı mənbələrdə ehtiva edilir:

- «Mühasibat balansına Əlavə» 5 saylı forma;
- Sintetik və analitik mühasibat uçotunun ilkin sənədləri.
- «İşçilərin sayı, əmək haqqı və hərəkəti haqqında məlumatlar» adlı 4 saylı forma (aylıq);

• «Fəaliyyət növləri üzrə işçilərin sayı və əmək haqqı barədə məlumatlar» adlı 1-Ə saylı forma (aylıq).

6.2. Əmək ehtiyatlarının tərkibi, strukturu və hərəkətinin təhlili

Təşkilatın əmək ehtiyatları göstəricilər sistemilə səciyyələndirilir. Onların arasında şəxsi heyətin tərkibi və onun struktur göstəriciləri mühüm yer tutur.

Sənayedə təşkilatın şəxsi heyəti tərkibinə görə sənaye-istehsal və qeyri-sənaye işçilərinə bölünür.

Sənaye-istehsal heyəti məhsulun hazırlanmasında bilavasitə iştirak edir. O, aşağıdakı kateqoriyalardan ibarətdir: fəhlələr, şagirdlər, mühəndis-texniki işçilər, qulluqçular, kiçik xidmət heyəti, mühafizə işçiləri.

Sənaye-istehsal heyətinin tərkibini təhlil edərkən onların peşələr, təhsil səviyyəsi, iş stajı, cinsi üzrə qruplaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məsələn, mühəndis-texniki işçilərin tərkibi təhsil səviyyəsi üzrə təhlil edildikdə ali, natamam ali və orta texniki təhsili olan mütəxəssislər ayrıca göstərilir.

Fəhlələri cinsinə, yaşına, iş stajına, peşəsinə, ixtisasına görə qruplaşdırmaq olar.

Sənaye-istehsal heyətinin strukturu sənaye sahəsinin xüsusiyyətindən, istehsalın ixtisaslaşmasından və miqyasından, buraxılan məhsulun çeşidindən asılıdır.

Fəhlələrin xüsusi çəkisinin artması, digər şərtlər eyni olduqda, sənaye-istehsal heyətinin strukturunun keyfiyyət dəyişikliyini sübut edir. Sənaye-istehsal heyətinin ümumi sayında fəhlələrin payının artırılmasını müəyyən edən amillərə təşkilatın idarə edilməsinin strukturu, xidmət edən heyətin əməyinin təşkili sistemi, təşkilatın idarə edilməsinin avtomatlaşdırılması, işçilərin ixtisası və peşəkarlıq səviyyəsi aid edilir.

Mühəndis-texnik işçilərinin payının artması istehsalın təşkilinin yaxşılaşdırılmasının, avtomatlaşdırılmış istehsal xətlərinin tətbiqinin,

buraxılan məhsulun ayrı-ayrı parametrlərinin mürəkkəbləşməsinin nəticəsidir.

6.1 cədvəlində verilmiş məlumatlar üzrə təşkilatın şəxsi heyətinin tərkibinin, strukturunun və orta siyahı sayının dinamikasını təhlil edək.

Cədvəl 6.1

Təşkilatın şəxsi heyətinin tərkibinin, strukturunun və orta siyahı sayının dinamikasının təhlili

Sıra sayı	Şəxsi heyətin tərkibi	Baza dövrü		Hesabat dövrü		Dövr ərzində dəyişilmələr (+,-)	
		miqdarı, nəfər	orta siyahı sayında xüsusi çəkisi, %	miqdarı, nəfər	orta siyahı sayında xüsusi çəkisi, %	miqdarı, nəfər	orta siyahı sayında xüsusi çəkisi, %
A	B	1	2	3	4	5	6
1	Şəxsi heyətin orta siyahı sayı (OSS), cəmi	670	100	671	100	+1	-
2	O cümlədən: sənaye-istehsal heyəti (SİH) ondan:	480	71,64	472	70,34	-8	-1,3
3	fəhlələr	307	45,82	293	43,67	-14	-2,15
4	mühəndis-texniki işçilər	130	19,4	133	19,82	+3	+0,42
5	qulluqçular	23	3,44	27	4,02	+4	+0,58
6	kiçik xidmət işçiləri	7	1,04	8	1,19	+1	+0,15
7	mühafizə işçiləri	13	1,94	11	1,64	-2	-0,3

Cədvəlin məlumatlarından göründüyü kimi baza dövrü ilə müqayisədə təşkilatın şəxsi heyətinin orta siyahı sayı hesabat dövründə praktik olaraq dəyişilməmişdir. Hesabat dövründə heyətin strukturu baza dövrünün strukturundan cüzi fərqlənir. Fəhlələrin və mühafizə işçilərinin sayının bir qədər azalması və mühəndis-texniki işçilərinin, qulluqçuların və kiçik xidmət işçilərinin sayının artması müşahidə olunur.

Fəhlələrin tərkibinin keyfiyyət xarakteristikası onların tarif dərəcələri üzrə müəyyən edilən ixtisas səviyyəsidir.

Fəhlələrin ixtisas dərəcəsinin ümumi (ümumiləşdirici) qiymətləndirilməsi üçün orta tarif dərəcəsi göstəricisindən istifadə edilir. O, müvafiq dərəcələr üzrə fəhlələrin sayı üzrə tarif dərəcələrinin çəkisinin orta hesab göstəricisi kimi hesablanır. Məsələn, əgər fəhlələrin dərəcələr üzrə sayı: I-30 nəfər, II-18 nəfər, III-100 nəfər, IV-110 nəfər, V-60 nəfər, VI-70 nəfər, cəmi – 388 nəfərdirsə, onda orta tarif dərəcəsi 3,93-ə bərabərdir.

$$\frac{30\times1+18\times2+100\times3+110\times4+60\times5+70\times6}{30+18+100+110+60+70}=\frac{1526}{388}=3{,}93$$

Orta tarif dərəcəsi haqqında məlumatlardan fəhlələrin ixtisas səviyyəsinin yerinə yetirilən əməliyyatların mürəkkəbliyinə uyğunluğunun müəyyən edilməsi üçün də istifadə edilir. Belə ki, əgər yerinə yetirilən işlərin orta tarif dərəcəsi 4.2-ə bərabərdirsə, onda təşkilat fəhlələrin ixtisasının 3,93-dən 4,2-ə qaldırılmasını nəzərdə tutmalıdır. İxtisasın yüksəldilməsi həm işləyən fəhlələrin öyrədilməsi yolu ilə və yaxud yüksək ixtisaslı fəhlələrin işə qəbul edilməsi və aşağı ixtisaslı fəhlələrin işdən azad edilməsi hesabına əldə oluna bilər.

İşçilərin işə qəbulu və işdən azal edilməsi işçi qüvvəsinin *xarici dövriyyəsidir*. İşçilərin sənaye-istehsal heyətinin bir qrupundan digərinə keçirilməsi – *daxili dövriyyədir*. İşçi qüvvəsinin dövriyyəsinin hər iki növü təşkilatda daxili təhlilin aparılması üçün əhəmiyyətlidir.

İşçi qüvvəsinin hərəkəti mütləq və nisbi göstəricilərlə səciyyələndirilir. *Mütləq göstəricilərə* aşağıdakılar aiddir: təhlil edilən dövrdə işə qəbul edilən işçilərin sayı; bir kateqoriyadan digər kateqoriyaya keçirilmiş işçilərin sayı; təhlil edilən dövrdə işdən azad edilmiş işçilərin sayı. *Nisbi göstəricilər* işçi qüvvəsinin hərəkətinin səciyyələndirilməsi üçün istifadə edilir. Onlar – kadrların qəbulu, azad edilməsi (işdən çıxması) və sabitliyi əmsallarıdır.

Qəbul üzrə dövriyyə əmsalı ($Ə_q$) təhlil edilən dövrdə işə qəbul edilmiş işçilərin sayının (S_q) həmin dövrün sonuna işçilərin orta siyahı sayına (OSS) nisbətilə müəyyən edilir.

$$Ə_q=\frac{S_q}{OSS}$$

İşdən çıxma əmsalı ($Ə_{iç}$) öyrənilən dövrdə işdən çıxan (azad edilən) işçilərin sayının ($S_{iç}$) həmin dövrün əvvəlinə şəxsi heyətin orta siyahı sayına nisbətinə bərabərdir:

$$Ə_{iç}=\frac{S_{iç}}{OSS}$$

Kadrların sabitliyi əmsalı ($Ə_{sab}$) 1 yanvardan 31 dekabra qədər təşkilatın siyahılarında göstərilən işçilərin sayının (S_{sab}) həmin ildə işçilərin orta siyahı sayına bölünməsilə müəyyən edilir:

$$Ə_{sab.}=\frac{S_{sab}}{OSS}$$

İşçi qüvvəsinin hərəkətini təşkilatın şəxsi heyətinin kateqoriyaları üzrə il, rüb, ay ərzində təhlil etmək lazımdır. Burada əsas məqsəd işçilərin işdən çıxmasının səbəblərinin aydınlaşdırılmasından ibarətdir. Səbəblər obyektiv xarakter daşıya bilər: hərbi xidmətə çağırış, yaşayış yerinin dəyişilməsi, pensiya yaşına çatma və s. Əmək haqqının miqdarı ilə razı olmamaq, əlverişsiz əmək şəraiti və rejimi, ixtisas üzrə istifadə edilməmək, sosial proqramlar paketinin olmaması və s. subyektiv səbəblərdir.

Əmək ehtiyatlarının müxtəlif səbəblərdən dəyişkənliyi iş vaxtı itkilərinə səbəb olur. Çox zaman işçi qüvvəsinin çatışmamazlığı iş vaxtının faktiki itkilərinə uyğun gəlir. İş vaxtından istifadənin təhlili zamanı aşağıdakı göstəricilərdən istifadə olunur:

- dövr (ay, rüb, il) ərzində bir işçinin işlədiyi günlərin orta sayı;
- iş gününün orta müddəti (uzunluğu);
- müəyyən dövr ərzində bir işçinin işlədiyi saatların orta sayı.

Təhlilin gedişində iş vaxtı itkilərinin azaldılması məqsədilə bütün gün və növbədaxili itkilərin səbəbləri aydınlaşdırılır, iş vaxtından qeyri-məhsuldar istifadə edilməsi zay edilmiş məhsulun istehsalına, onun düzəldilməsinə vaxt sərfi araşdırılır. İş vaxtından qeyri-məhsuldar istifadəyə standartdan kənar xammaldan, avadanlıqdan istifadə edilməsilə yaranan əlavə əmək sərfləri aiddir.

İşçi qüvvəsinin sayının, hərəkətinin, ixtisas səviyyəsinin təhlili təşkilatın işçilərinin əməyinin əsaslandırılması sisteminin yaxşılaşdırılması üzrə tədbirlər işlənib hazırlanması ilə yekunlaşır.

6.3. Əmək ehtiyatlarından istifadənin səmərəliliyini xarakterizə edən göstəricilər sistemi və onların təhlili metodikası

Ənənəvi olaraq canlı əməkdən istifadə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi üçün ***əmək məhsuldarlığı (ƏMəh.)*** göstəricisindən istifadə edirlər. O, məhsulun (iş və xidmətlərin) satış qiymətlərində həcminin, yəni əmtəəlik məhsulun (ƏM) təşkilatın əsas fəaliyyətində məşğul olan işçilərin orta siyahı sayına (OSS) nisbəti kimi hesablanır:

$$\text{ƏMəh.} = \frac{\text{ƏM}}{\text{OSS}}$$

Əmək məhsuldarlığının təhlili üçün aşağıdakı ***istehsal göstəricilərindən*** istifadə edilir:

- bir işçinin (fəhlənin, əsas fəhlənin) orta illik istehsalı;
- bir işçinin (fəhlənin, əsas fəhlənin) orta günlük istehsalı;
- bir işçinin (fəhlənin, əsas fəhlənin) orta saatlıq istehsalı.

Məhsulların (işlərin, xidmətlərin) ölçü vahidindən asılı olaraq istehsal dəyər, natura və əmək göstəricilərinin köməyilə müəyyən edilir.

İstehsalın əmək ölçüləri (norma-saatlar), əsas etibarilə, işçi qüvvəsinə tələbatın daxili planlaşdırılması zamanı istifadə edilir. Natural ölçülər (tonlar, ədədlər və s.) bircinsli məhsullar istehsalında tətbiq olunur. Dəyər ölçüləri daha geniş yayılmışdır, çünki məmulatların geniş nomenklaturası istehsal ediləndə istifadə olunur.

Əmək məhsuldarlığının artması təşkilatın işçilərinin sayına qənaət edilməsinə ($Qən._{say}$) imkan verir və aşağıdakı kimi hesablanır:

$$Qən.say = Say_1 - Say_0 \times Jv,$$

Burada Say_1 və Say_0 - işçilərin müvafiq olaraq hesabat və baza dövrlərində orta siyahı sayıdır; Jv - məhsulların (iş və xidmətlərin) həcminin indeksidir.

Əmək məhsuldarlığının səciyyələndirilməsi üçün istehsalla yanaşı *əmək tutumu göstəricilərindən* - məhsulun hissələrinin, qovşaqlarının, məmulat parametrlərinin istehsalına iş vaxtı sərflərindən də istifadə edilir. Məhsulun əmək tutumu və istehsal göstəriciləri arasında tərs mütənasib asılılıq vardır, yəni əmək tutumu azaldıqda istehsal artır və əksinə.

Məhsulların (iş və xidmətlərin) əmək tutumunun azalmasına müxtəlif amillər təsir göstərir. Onlardan ən əhəmiyyətliləri mütərəqqi texnika və texnologiyanın tətbiqi, istehsalın və əməyin təşkilinin yaxşılaşdırılması, işçilərin ixtisasının artırılması, mütərəqqi istehsal normalarının tətbiq edilməsidir.

İstehsalın təhlili həmin göstəricinin dinamikasının qiymətləndirilməsindən başlanır ki, bunun üçün əmək məhsuldarlığının artması və artımı göstəricilərindən istifadə edilir. Sonra, müəyyən amillər dairəsinin əmək məhsuldarlığının dəyişilməsinə təsirinin ölçüsü müəyyən edilir.

Sənaye-istehsal heyətinin bir işçisinə düşən məhsulun həcminin şəxsi heyətin ümumi sayında fəhlələrin xüsusi çəkisindən və bir fəhlə hesabı ilə istehsalın həcmindən asılılığı aşağıdakı modellə müəyyən edilir:

$$Ist_{sih} = XÇ_{fəh} \times Ist_{fəh} = \frac{Say_{fəh}}{OSS_{sih}} \times \frac{ƏM}{Say_{fəh}};$$

burada $İst_{sih}$ - sənaye-istehsal heyətinin bir işçisinə düşən orta istehsaldır; $XÇ_{fəh}$ - sənaye-istehsal heyətinin ümumi sayında fəhlələrin xüsusi çəkisidir; $İst_{fəh}$-bir fəhlənin orta istehsalıdır; $Say_{fəh}$ - fəhlələrin orta siyahısıdır.

Təhlilin növbəti mərhələsində kənarlaşdırma, təcrid etmə üsullarının köməyilə əmək məhsuldarlığının və digər əmək amillərinin məhsul buraxılışı həcminin dəyişilməsinə təsiri öyrənilir.

Bu məqsədlə iki, üç və çoxamilli modellərdən istifadə edilir, məsələn,

$$ƏM = OSS_{sih} \times İst_{sih} = OSS_{sih} \times \frac{ƏM}{OSS_{sih}};$$

$$ƏM = OSS_{sih} \times XÇ_{fəh} \times Ist_{fəh} = OSS_{sih} \times \frac{ƏM}{OSS_{sih}} \times \frac{ƏM}{Say_{fəh}};$$

$$ƏM = Say_{fəh} \times G \times t \times İst^{saat}_{sih},$$

Burada G-sənaye-istehsal heyətinin bir fəhləsinin işlədiyi günlərin orta sayıdır; t-iş gününün orta müddətidir; $İst.^{saat}_{sih}$-bir fəhlənin orta saatlıq istehsalıdır.

Yoxlama sualları?

1. Əmək ehtiyatlarından istifadənin səmərəliliyinin təhlili üçün hansı əsas informasiya mənbələrindən istifadə edilir?
2. Şəxsi heyətin dəyişkənliyini hansı göstəricilər səciyyələndirir?
3. Əmək məhsuldarlığı və əmək tutumu arasında hansı qarşılıqlı əlaqə vardır?
4. İstehsal göstəricilərinin hesablanması metodikası necədir?
5. Məhsul buraxılışını təşkilatın işçilərinin sayından və onunla qarşılıqlı əlaqəli amildən asılılığının iki amilli modeli necə qurulur?

VII FƏSİL

ƏSAS İSTEHSAL FONDLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ

7.1. Təhlilin vəzifələri və informasiya mənbələri

Kommersiya təşkilatının sahibkarlıq fəaliyyətinin əsas məqsədinə – mənfəət əldə edilməsinə nail olması bir çox amillərlə təmin edilir. Onların arasında fəaliyyətdə olan əsas istehsal fondlarının, o cümlədən avadanlığların təkmilləşdirilməsi və yenilərinin istismara verilməsi, habelə onlardan səmərəli istifadə edilməsi böyük əhəmiyyətə malikdir.

Əmlakının tərkibində əsas istehsal fondları böyük xüsusi çəkiyə malik olan sənaye, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə fəaliyyət göstərən müəssisələr üçün bu amil xüsusilə aktualdır.

Müəssisədə istifadə olunan avadanlıqların tərkibi, strukturu, texniki səviyyəsi buraxılan məhsulların, (yerinə yetirilən işlərin, göstərilən xidmətlərin) həcminə və istehlak xassələrinə birbaşa təsir göstərir.

Əsas istehsal fondlarının və onlardan istifadə edilməsinin səmərəliliyinin təhlilinin əsas vəzifələrinə aşağıdakılar aiddir:

1) Əsas istehsal fondlarının tərkibinin, strukturunun, hərəkətinin və vəziyyətinin təhlili;

2) Əsas istehsal fondlarının işə buraxılması, yeniləşdirilməsi, təkmilləşdirilməsi və yenidən qurulması üzrə planın yerinə yetirilməsinin qiymətləndirilməsi;

3) Əsas istehsal fondlarından istifadənin səmərəliliyinin təhlili;

4) Əsas istehsal fondlarından istifadənin səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının aşkar edilməsi.

Adı çəkilən məsələlərin həlli üçün aşağıdakı informasiya mənbələrindən istifadə olunur. Müəssisənin balansı (1 saylı forma), müəssisə balansına əlavə (5 saylı forma) və aşağıdakı mənbələrdə ehtiva edilən məlumatlar əsasında formalaşa bilər:

- statistik hesabatın «Əsas fondların (vəsaitlərin) və digər qeyri-maliyyə aktivlərinin mövcudluğu və hərəkəti haqqında» (illik) 11 saylı forması;
- statistik hesabatın «Obyektlərin, əsas fondların istifadəyə verilməsi və investisiyalar haqqında» (rüblük) 2-investisiya saylı forması;
- əsas vəsaitlərin uçot vərəqələri;
- inventarizasiya cədvəlləri və uçot vərəqələrinə əlavələr;
- uçot və vergi siyasəti üzrə sərəncam sənədləri;
- biznes-plan;
- sintetik və analitik mühasibat uçotunun müvafiq hesabları.

7.2. Əsas istehsal fondlarının tərkibi, strukturu, hərəkəti və texniki vəziyyətinin təhlili

Təhlilin ilkin mərhələsində ***əsas istehsal fondlarının (ƏİF) tərkibi və strukturu*** öyrənilir. Onlar istehsalın xarakterindən və xüsusiyyətlərindən, təşkili növündən (seriyalı, kütləvi, fərdi), texnologiyasından, bütövlükdə istehsalatın, həm də onun bölmələrinin ixtisaslaşması və kooperasiyası səviyyəsindən asılıdır.

Təhlilin gedişi zamanı yeni güclərin işə salınması, köhnə fondların yeniləşdirilməsi, texnoloji proseslərin təkmilləşdirilməsi və bununla əlaqədar istehsal sahələrində avadanlığın daha səmərəli yerləşdirilməsi nəticəsində əsas istehsal fondlarının strukturunun dəyişilməsini tədqiq etmək lazımdır.

Əsas istehsal fondlarının strukturunun təhlili zamanı onların aktiv hissəsinin dəyərinin, xüsusi çəkisinin və onların dəyişməsi

meylinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Müəssisənin güclərinin artımı və fond verimi əsas istehsal fondlarının aktiv hissəsindən çox asılıdır. Qeyd etmək lazımdır ki, böyük müəssisələrdə (metallurgiya, energetika və maşınqayırma) ƏİF-nın aktiv hissəsinin xüsusi çəkisi kiçik müəssisələrə nisbətən xeyli yüksəkdir. Belə hesablama nümunəsi 7.1 cədvəlində verilmişdir.

Cədvəl 7.1

Müəssisənin əsas istehsal fondlarının strukturunun təhlili

Sıra sayı	Əsas istehsal fondlarının növləri	Dövrün əvvəlinə		Dövrün sonuna		Dövr ərzində dəyişilmə (+, -)	
		məbləği, min man.	xüsusi çəkisi, %	məbləği, min man.	xüsusi çəkisi, %	məbləği, min man.	xüsusi çəkisi, %
A	B	1	2	3	4	5	6
1.	Cəmi əsas istehsal fondları	16470	100	16810	100	+340	-
	O cümlədən:						
2.	aktiv hissəsi	8960	54,4	9100	54,13	+140	-0,27
3.	passiv hissəsi	7510	45,6	7710	45,87	+200	+0,27

7.1 cədvəlində təqdim edilmiş hesablamalardan görünür ki, təhlil edilən dövr ərzində əsas istehsal fondlarının dəyəri 16470 min manatdan 16810 min manata qədər, yəni 340 min manat artmışdır. Əsas fondların aktiv hissəsinin dəyəri də artmışdır. Lakin ƏİF-nun ümumi dəyərində onun payı 54,4-dən 54,13%-ə qədər, yəni 0,27% azalmışdır. Passiv hissənin (binaların, qurğuların və s.) dəyəri 200 min manat, xüsusi çəkisi isə 0,27% artmışdır.

Əsas istehsal fondlarının tərkibinin və strukturunun dinamikada təhlili təşkilatın texniki inkişaf meylini qiymətləndirmək və fond verimi səviyyəsini proqnozlaşdırmaq imkanı yaradır.

Əsas istehsal fondlarının təhlilinin ikinci vəzifəsi həm yeni yaradılan təşkilatlar üçün, həm də əsas istehsal fondlarının yeniləşdirilməsi və təkmilləşdirilməsi ilə əlaqədar olan istehsal

prosesinin yenidən qurulmasını həyata keçirən müəssisələr üçün aktualdır.

Əgər yeni təşkilat işə başlayırsa, onun istehsal güclərinin işə salınması əsas istehsal fondlarının istismarı üzrə planın yerinə yetirilməsi və onların yüklənməsi səviyyəsi nöqteyi-nəzərindən qiymətləndirilməlidir. Bu məqsədlə biznes-planın istehsal gücləri üzrə bölməsinin göstəriciləri faktiki məlumatlarla müqayisə edilməlidir.

Əgər fəaliyyətdə olan təşkilat əsas istehsal fondlarının yeniləşdirilməsilə və ya təkmilləşdirilməsilə məşğuldursa, onda analitik (təhlil edən) ƏİF yeniləşdirilməsi və ya təkmilləşdirilməsi planının müddətlər, istifadə yerləri (sexlər, sahələr) üzrə yerinə yetirilməsi dərəcəsini aydınlaşdırmalı, avadanlıqların gücü və vaxt üzrə işləməsini öyrənməlidir.

Əsas istehsal fondlarının işə salınması müddətləri üzrə planın yerinə yetirilməsinin qiymətləndirilməsi nümunəsi 7.2 cədvəlində verilmişdir.

Cədvəl 7.2

Əsas istehsal fondlarının işə salınması planının yerinə yetirilməsinin qiymətləndirilməsi

Sıra sayı	Struktur bölməsi. Əsas istehsal fondlarının obyektləri	Plan üzrə işə salınmalıdır	Faktiki işə salınmışdır	Planın yerinə yetirilməsi	Kənarlaşmanın səbəbləri
A	B	1	2	3	4
1	*1 saylı Sex* Yulaf peçenyesi buraxılması üzrə istehsal xətti	Yanvar 2003-cü il	Aprel 2003-cü il	Üç ay pozulma ilə yerinə yetirilmişdir	Avadanlığın göndərilməsi müddətlərinin pozulması
2	*3 saylı Sex* Çörək bişirən sobanın təkmilləşdirilməsi	Avqust 2003-cü il	İyul 2003-cü il	Bir ay tez yerinə yetirilmişdir	İki növbəli iş rejiminin təcili tətbiqi zəruriliyi

7.2 cədvəlinin məlumatlarından görünür ki, çörək zavodunda yulaf peçenyesinin istehsalına nəzərdə tutulmuş müddətdən üç ay gec başlanmışdır. Gecikmənin səbəbi mal göndərənin təqsirindən istehsal xəttinin komplektləşdirici hissələrinin göndərmə müddətlərinin pozulmasıdır. Çörək zavodu itkiləri kompensasiya etmək üçün (əvəzinin ödənilməsi) mal göndərənə qarşı cərimə sanksiyaları irəli sürməlidir.

Əsas istehsal fondlarının *köhnəlməsi səviyyəsinin göstəricisi* onların texniki vəziyyətini səciyyələndirir və hesablanmış amortizasiya məbləğinin ($A_{əİF}$) əsas istehsal fondlarının ilkin dəyərinə ($ƏİF_{id}$) nisbətinin 100%-ə vurulması kimi müəyyən edilir:

$$Ə_{köh} = \frac{A_{əİF}}{ƏİF_{i.d}} \times 100\%.$$

Bu göstəricinin dinamikada öyrənilməsi əsas istehsal fondlarının «yaşını» və yeniləşməsi tempini qiymətləndirmək imkanı verir. Köhnəlmə faizinin artması əsas istehsal fondlarının yeniləşməsinin aşağı tempini və onların fiziki köhnəlməsini göstərir. Köhnəlmə səviyyəsini bütün əsas istehsal fondları üzrə, onların qrupları və növləri üzrə hesablamaq lazımdır.

Avadanlıqların köhnəlməsi (aşınması) dərəcəsi haqqında informasiya cədvəl formasında verilə bilər (cədvəl 7.3).

Cədvəl 7.3

Avadanlığın köhnəlməsi dərəcəsi haqqında informasiya

Sıra sayı	Struktur bölməsi. Əsas istehsal fondlarının obyektləri	İlkin dəyəri, min man.	Köhnəlmə məbləği, min man.	Köhnəlmə faizi
A	B	1	2	3
1	*1 saylı Sex* Çörək-bulka məmulatları bişirən sobalar	1860	658	35
2	*2 saylı Sex* Peçenye bişirən avadanlıq	1190	870	73

7.3 cədvəlində verilmiş məlumatlardan görünür ki, 1 və 2 saylı sexlərdə, yüksək dərəcədə köhnəlmiş avadanlıqdan istifadə edilir. Bu xüsusilə peçenye bişirən avadanlıq qrupuna aiddir.

Təhlil edərkən yadda saxlamaq lazımdır ki, hesablanmış amortizasiya məbləği heç də həmişə əsas istehsal fondlarının fiziki və mənəvi köhnəlməsini real əks etdirmir, belə ki, amortizasiya ayrılmaları norması avadanlığın bircinsli qrupları üzrə müxtəlif ola bilər və təşkilatın uçot siyasəti variantlarından asılıdır.

Əgər avadanlığın köhnəlməsi (aşınması) dərəcəsi böyük olarsa, onun vaxtlı-vaxtında yeniləşdirilməsini nəzərdə tutmaq lazımdır. Köhnə avadanlığın istismardan çıxarılması və yeni avadanlığın istismara verilməsi əsas istehsal fondlarının hərəkətidir. İqtisadi təhlildə onun səciyyələndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə edilir:

- *Əsas istehsal fondlarının yeniləşməsi əmsalı* – istismara verilmiş yeni əsas istehsal fondlarının dəyərinin təhlil edilən dövrün sonuna əsas istehsal fondlarının dəyərinə nisbəti kimi müəyyən edilir:

$$Ə_{yeni} = \frac{ƏİF_{ist.ver.}}{ƏİF_{ilin\ sonu}}$$

- *Əsas istehsal fondlarının istismardan çıxması əmsalı* - istismardan çıxmış əsas istehsal fondlarının dəyərinin ilin sonuna əsas istehsal fondlarının dəyərinə nisbətinə bərabərdir:

$$Ə_{ist.çıx} = \frac{ƏİF_{ist.çıx.}}{ƏİF_{ilin\ sonu}}$$

Bu göstəricilər əsas istehsal fondlarının bütün məcmusu üzrə, onların ayrı-ayrı qrupları və növləri üzrə hesablanır.

ƏİF hərəkətinin təhlili prosesində əsas istehsal fondlarının yeniləşməsi templəri və onların köhnəlməsi səviyyəsinin qarşılıqlı əlaqəsi öyrənilir.

Əgər avadanlıqların yeniləşməsi tempi yüksəkdirsə və köhnəlmiş avadanlıqların payı azdırsa, keyfiyyət tərkibi yaxşılaşırsa (mütərəqqi, ən yeni avadanlığın xüsusi çəkisi yüksəkdirsə), onda əmək məhsuldarlığı artır və bununla da mövcud əmək ehtiyatları və əsas istehsal fondlarının yeniləşməsi templəri arasında tarazlıq təmin edilir.

Yeni avadanlıqların istismara verilməsi müddətlərinin dəyişilməsinin məhsul buraxılışının həcminə təsirini aşağıdakı düsturla hesablamaq olar:

$$\Delta ƏM = \Delta G \times f_0$$

burada ΔƏM-məhsul buraxılışı həcminin (əmtəəlik məhsulun) dəyişilməsidir; ΔG-istismara verilmənin plan üzrə müddətindən fərqlənən günlərin sayıdır; f_0-yeni avadanlığın plan üzrə gündəlik məhsuldarlığıdır.

7.3. Əsas istehsal fondlarından istifadənin səmərəliliyini xarakterizə edən göstəricilər sistemi və onların təhlili metodikası

Əsas istehsal fondlarından istifadə edilməsinin səmərəliliyi ümumi və xüsusi göstəricilər sistemilə səciyyələnir.

Ümumi göstəricilər təşkilatın və onun istehsal bölmələrinin əsas istehsal fondlarının bütün məcmusundan istifadə edilməsi səviyyəsini əks etdirir.

Xüsusi göstəricilər əsas vəsaitlərin ayrı-ayrı növlərinin tətbiqinə qiymət verir, yaxud onların istehsal prosesində fəaliyyətinin hansısa tərəfini səciyyələndirir.

Ümumi göstəricilərə aşağıdakılar aiddir:

1) fond verimi əmsalı (FV);
2) fond tutumu əmsalı (FT);

3) Əsas istehsal fondlarının nisbi qənaəti (azad edilməsi) (Qənəif).

Fond verimi əmsalı istehsal edilmiş məhsulun (işlərin, xidmətlərin) istehsalçı müəssisənin qiymətlərində dəyərinin (ƏM) əsas istehsal fondlarının təhlil edilən dövrdə orta dəyərinə nisbəti kimi müəyyən edilir:

$$FV = \frac{ƏM}{\overline{ƏİF}}.$$

$\overline{ƏİF}$ qiyməti ilkin (bərpa) dəyərinə əsaslanaraq xronoloji orta miqdar kimi hesablanır.

Fond verimi əmsalı təşkilatın əsas vəsaitlərə qoyulmuş hər manatdan (100 manatdan; 1000 manatdan) nə qədər məhsul (iş və xidmət) almasını göstərir. Fond verimi göstəricisi bircinsli məhsul buraxılan halda natural ölçülərdə də hesablana bilər. O, əsas istehsal fondlarından istifadə edilməsinin səmərəliliyini daha dəqiq səciyyələndirir.

Fond tutumu əmsalı əsas istehsal fondlarının orta dəyərinin istehsal edilmiş məhsulun istehsalçı müəssisənin qiymətlərində dəyərinə nisbəti kimi müəyyən edilir:

$$FT = \frac{\overline{ƏİF}}{ƏM}.$$

Fond tutumu əmsalı – fond verimi əmsalının əks göstəricisidir. O, istehsal edilmiş məhsulun dəyərinin bir manatına (100 manatına, 1000 manatına) düşən əsas istehsal fondlarının dəyərini əks etdirir. Fond veriminin artması əsas istehsal fondlarının nisbi qənaətinə (azad edilməsinə) (Qənəif) gətirib çıxarır. O, aşağıdakı kimi hesablanır:

$$Qənəif = ƏİF_1 - ƏİF_0 \times J_v,$$

Burada $ƏİF_1$ və $ƏİF_0$ - müvafiq olaraq təhlil edilən və baza dövrlərində əsas istehsal fondlarının dəyəridir; J_v - məhsulun (iş və xidmətlərin) həcminin indeksidir.

Fond veriminin təhlili həmin göstəricinin dinamikasının tədqiq edilməsindən başlanır. Sonra ayrı-ayrı amillərin fond veriminin dəyişilməsinə təsiri müəyyən edilir.

Fond verimi əmsalının iki amilli multiplikativ modeli aşağıdakı kimi təqdim edilir:

$$FV = XÇ_a \times FV_a = \frac{\overline{ƏİF_a}}{\overline{ƏİF}} \times \frac{ƏM}{ƏİF_a},$$

burada $XÇ_a$ - əsas istehsal fondlarının ümumi dəyərində aktiv hissənin dəyərinin xüsusi çəkisidir; $\overline{ƏİF_a}$ - əsas istehsal fondlarının aktiv hissəsinin təhlil edilən dövrdə orta dəyəridir və onların ilkin (bərpa) dəyərinə əsaslanaraq xronoloji orta rəqəm kimi hesablanır; FV_a - əsas istehsal fondlarının aktiv hissəsinin fond verimidir.

Əsas istehsal fondlarının aktiv hissəsinin xüsusi çəkisinin və fond veriminin dəyişilməsinin fond veriminin hesabat dövründə baza dövründəki səviyyəsinə nisbətən ümumi dəyişilməsinə təsirinin ölçüsünü eliminasiya edilmə (kənarlaşdırma) üsullarından birilə müəyyən edirlər.

Amillərin fond veriminə təsirinin mütləq fərqlənmələr üsulu ilə hesablanılmasının alqoritmi

$$\Delta FV(\Delta XÇ_a) = (XÇ_{a1} - XÇ_{a0}) \times FV_{a0};$$
$$\Delta FV(\Delta FV_a) = XÇ_{a1} \times (FV_{a1} - FV_{a0});$$
$$\Delta FV = FV_1 - FV_0 = \Delta FV(\Delta XÇ_a) + \Delta FV(\Delta FV_a).$$

Fond veriminin amillər üzrə təhlilinin nümunəsi 7.4 cədvəlində verilmişdir.

Cədvəl 7.4

Fond veriminin amillər üzrə təhlili

Sıra sayı	Göstəricilər	Şərti işarələr	Baza dövrü	Hesabat dövrü	Dövr ərzində dəyişilmələr (+,-)
A	B	C	1	2	3
1	Məhsul buraxılışı, müqayisəli qiymətlərlə, min man.	ƏM	31300	32800	+1500
2	Əsas istehsal fondlarının orta illik dəyəri, min man.	ƏİF	16470	16810	+340
3	O cümlədən: əsas istehsal fondlarının aktiv hissəsinin dəyəri, min man.	$ƏİF_a$	8960	9100	+140
4	Fond verimi əmsalı (sətir 1: sətir 2)	FV	1,9004	1,9512	+0,0508
5	Əsas istehsal fondlarının aktiv hissəsinin fond verimi (sətir 1: sətir 3)	FV_a	3,4933	3,6044	+0,1111
6	Əsas istehsal fondlarının aktiv hissəsinin xüsusi çəkisi (sətir 3: sətir 2)	$XÇ_a$	0,544	0,5413	-0,0027

7.4 cədvəlində verilmiş məlumatlara uyğun olaraq baza dövründə fond verimi modeli aşağıdakı kimi təqdim edilir:

$$\frac{31300}{16470} = \frac{8960}{16470} \times \frac{31300}{8960}, \text{ yaxud } 1,9004 = 0,5440 \times 3,4933;$$

hesabat dövründə:

$$\frac{32800}{16810} = \frac{9100}{16810} \times \frac{32800}{9100}, \text{ yaxud } 1,9512 = 0,5413 \times 3,6044.$$

Amillərin təsirinin ölçüsünün fond veriminin dəyişilməsinə təsirini fərq üsulu ilə müəyyən edək.

Fond veriminin bütövlükdə dövr ərzində dəyişilməsi belə olacaqdır:

$$1,9512 - 1,9004 = +0,0508.$$

O cümlədən:

1) ƏİF aktiv hissəsinin xüsusi çəkisinin dəyişilməsinin təsiri:

$(0,5413 - 0,5440) \times 3,4933 = 0,0027 \times 3,4933 = -0,0094;$

2) ƏİF aktiv hissəsinin fond veriminin dəyişilməsinin təsiri:

$0,5413 \times (3,6044 - 3,4933) = 0,5413 \times 0,1111 = +0,0601;$

fərqlənmələrin balansı:

$-0,0094 + 0,0601 = +0,0507$[1]

Beləliklə, təhlil edilən dövr ərzində təşkilatda fond verimi, əsas istehsal fondlarının dəyərinin hər manatına 1,9004-dən 1,9512-ə qədər, yəni 0,0508 manat artmışdır.

ƏİF aktiv hissəsinin fond veriminin dəyişilməsi müsbət təsir etmişdir və əsas istehsal fondlarının bütün məcmusunun fond veriminin 0,0601 manat artmasına səbəb olmuşdur. ƏİF aktiv hissəsinin xüsusi çəkisinin azalmasının təsiri mənfi olmuşdur və ümumi fond verimini 0,0094 manat azaltmışdır.

Təhlildə əsas istehsal fondlarının fond veriminin iki amilli modelindən başqa çoxamilli modellərindən də, məsələn beş amilli modeldən istifadə edilir:

$$FV = Ə_{mx} \times Məh_{av} \times Ə_{növbə} \times \frac{1}{D_{vahid}} \times XÇ_a,$$

burada – $Ə_{mx}$ - material xərcləri əmsalıdır, müqayisəli qiymətlərlə istehsal edilmiş məhsulun həcminin material xərcləri nəzərə alınmadan istehsal edilmiş məhsulun həcminə nisbəti kimi müəyyən edilir; $Məh_{av}$ - avadanlığın məhsuldarlığıdır, material xərcləri nəzərə alınmadan istehsal edilmiş məhsulun həcminin avadanlığın maşın - növbə işləməsi miqdarına nisbəti kimi hesablanır; $Ə_{növbə}$ - avadanlığın işinin növbəlik əmsalıdır; D_{vahid} - avadanlıq vahidinin dəyəridir; $XÇ_a$ - əsas istehsal fondlarının ümumi dəyərində maşınların və avadanlığın xüsusi çəkisidir.

Daha sonra təhlil edilən zaman əsas istehsal fondlarından istifadə edilməsinin səmərəliliyinin xüsusi göstəricisi onların aktiv hissəsinin fond verimi göstəricisi aşağıdakı amillərin təsirindən asılı olaraq öyrənilir:

- işləyən avadanlığın orta hesabla bir iş saatına düşən məhsulun dəyərinin (V_{saat});

[1] Fond veriminin ümumi dəyişilməsi (0,0508) hesablamalarda rəqəmlərin yuvarlaqlaşdırılması ilə əlaqədardır.

• işləyən avadanlığın dəyərinin vahidinə düşən orta vaxtın, T_{vahid};

• işləyən avadanlığın (İA) dəyərinin əsas istehsal fondlarının aktiv hissəsinin ümumi dəyərində xüsusi çəkisinin ($XÇ_{a.i}$)

Beləliklə,

$$FV_a = XÇ_{a.i} \times T_{vahid} \times V_{saat} = \frac{İA}{ƏİF_a} \times \frac{T}{İA} \times \frac{ƏM}{T}.$$

Göstərilən amillərin əsas istehsal fondlarının aktiv hissəsinin fond veriminin dəyişilməsinə təsirinin ölçüsü kənarlaşdırma, təcrid etmə üsullarından biri ilə müəyyən edilir.

Amillərin əsas istehsal fondlarının aktiv hissəsinin fond veriminə təsiri aşağıdakı kimi hesablanır (ilk məlumatlar 7.5 cədvəlində verilmişdir).

1. İşləyən (işdə olan) avadanlığın xüsusi çəkisinin dəyişilməsinin təsiri:

$-0,0182 \times 2,36891 \times 1,78551 = -0,07698.$

2. Avadanlıq vahidinin orta iş vaxtının dəyişilməsinin təsiri:

$0,82589 \times (+0,08143) \times 1,78551 = +0,12008.$

3. Avadanlığın saatlıq istehsalının dəyişilməsinin təsiri:

$0,82589 \times 2,45034 \times (+0,0357) = +0,072246.$

Fərqlənmələrin balansı:

$+0,1111 = -0,07698 + 0,12008 + 0,072246 \approx 0,1153.$

Müəssisədə fond veriminin artması ehtiyatları əsas istehsal fondlarının ümumi dəyərində maşınların və avadanlığın və onlarla əlaqədar olan amillərin payının artmasından ibarətdir.

Təhlil edilən zaman müxtəlif amillərin fond veriminə təsirinin müəyyən edilməsilə yanaşı, fond verimi göstəricisinin özünün və onunla əlaqədar olan amillərin məhsul buraxılışı həcminin dəyişilməsinə təsirini də öyrənirlər.

Cədvəl 7.5

Əsas istehsal fondlarının aktiv hissəsinin fond veriminin təhlili üçün ilkin məlumatlar

Sıra sayı	Göstəricilər	Şərti işarələr	Baza dövrü	Hesabat dövrü	Dövr ərzində dəyişilmələr (+,-)
A	B	C	1	2	3
1	Məhsul buraxılışı, müqayisəli qiymətlərlə, min man.	ƏM	31300	32800	+340
2	Əsas istehsal fondlarının aktiv hissəsinin orta illik dəyəri, min man.	$ƏİF_a$	8960	9100	+140
3	O cümlədən: İşləyən avadanlığın dəyəri, min man.	$ƏİF_{a.i}$	7400	7350	-50
4	Əsas istehsal fondlarının aktiv hissəsinin fond verimi (sətir 1: sətir 2)	FV_a	3,4933	3,6044	+0,1111
5	İşləyən avadanlığın xüsusi çəkisi, % (sətir 4: sətir 3x100)	$XÇ_{a.i}$	82,589	80,769	-1,82
6	İşləyən avadanlığın iş vaxtı fondu, min dəzgah-saat	T	17530	18010	+480
7	İşləyən avadanlığın dəyərinin vahidinə düşən orta vaxt, min dəzgah-saat	T_{vahid}	2,36891	2,45034	+0,08143
8	İşləyən avadanlığın bir saat işinə düşən məhsulun dəyəri, min man. (sətir 1: sətir 5)	V_{saat}	1,78551	1,82121	+0,0357

Məhsul buraxılışı həcminin fond verimindən və əsas istehsal fondlarının dəyərindən asılılığının amillər üzrə modelini aşağıdakı kimi qurmaq olar:

$$ƏM = \overline{ƏİF} \times \frac{ƏM}{ƏİF} = \overline{ƏİF} \times FV;$$

$$ƏM = \overline{ƏİF} \times \frac{\overline{ƏİFa}}{ƏİF} \times \frac{ƏM}{ƏİF_a} = \overline{ƏİF} \times XÇ_a \times FV_a;$$

Göstərilən amillərin məhsul buraxılışı həcminin dəyişilməsinə təsiri kənarlaşdırma, təcrid etmə üsullarından biri ilə müəyyən edilir.

Yoxlama sualları?

1. Əsas istehsal fondlarından istifadənin səmərəliliyinin təhlili qarşısında duran əsas vəzifələr hansılardır?
2. Əsas istehsal fondlarından istifadənin iqtisadi səmərəliliyini hansı göstəricilər səciyyələndirir?
3. Əsas istehsal fondlarından istifadənin səmərəliliyinin ümumi göstəricilərinin hesablanmasının və təhlilinin metodikası necədir?
4. Əsas istehsal fondlarından istifadənin məhsul buraxılışına təsirinin təhlili metodikası necədir?
5. Aşağıda verilən göstəricilər əsasında əsas istehsal fondlarından istifadənin məhsul buraxılışının həcminə təsirini hesablayın: baza dövründə əsas istehsal fondlarının orta illik dəyəri – 9010 min man., hesabat dövründə – 8900 min man., o cümlədən aktiv hissənin müvafiq olaraq 8100 min man. və 8120 min man.; istehsal edilmiş məhsulun baza dövründə həcmi – 17146 min man., hesabat dövründə - 16840 min man. ?

VIII FƏSİL

MATERİAL EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ

8.1. Təhlilin vəzifələri və informasiya mənbələri

Müəssisənin lazımi çeşidə və keyfiyyətə malik xammalla və materiallarla tam və vaxtlı - vaxtında təmin edilməsi, habelə onlardan səmərəli istifadə məhsul istehsalı, onun maya dəyərinin aşağı salınması, mənfəətin və rentabelliyin artırılması üzrə planın yerinə yetirilməsinin zəruri şərtidir.

Material ehtiyatlarından istifadənin təhlilinin qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

1) müəssisənin material ehtiyatları ilə təminatının qiymətləndirilməsi;

2) material ehtiyatlarından istifadə edilməsinin səmərəliliyinin araşdırılması;

3) material ehtiyatlarının və xərclərinin (sərflərin) səmərəli idarə edilməsinin öyrənilməsi.

Təhlilin yerinə yetirilməsi üçün aşağıdakı informasiya mənbələrindən istifadə edilir:

- material-texniki təchizat planı;
- material ehtiyatlarının miqdarı və istifadə edilməsi haqqında statistik hesabat formaları;
- müəssisənin məhsul (iş və xidmət) istehsalına sərf etdiyi xərclər haqqında məlumatlar» adlı hesabat forması;
- xammal və materialların göndərilməsi (gətirilməsi) üçün sifarişlər və müqavilələr;

- material-texniki təchizat şöbəsinin operativ məlumatları;
- xammalın və materialların daxil olması, sərfi və qalıqları haqqında analitik mühasibat uçotunun məlumatları.

8.2. Material ehtiyatlarından istifadəni xarakterizə edən göstəricilər sistemi və onların hesablanılması və qiymətləndirilməsi metodikası

Xammal və materiallardan istifadənin səmərəliliyinin qiymətləndirilməsi üçün tətbiq edilən göstəricilər sisteminin işlənib hazırlanması mühüm nəzəri və praktiki əhəmiyyətə malikdir. Onun yaradılmasının zəruriliyi material ehtiyatlarına qənaət edilməsi ehtiyatlarının sistematik aşkar edilməsi, məhsulun material tutumunun aşağı salınması prosesinin məqsədəuyğun idarə edilməsi tələblərilə əlaqədardır.

İqtisadi məzmunu və tətbiq dairəsi üzrə səmərəlilik göstəricilərinin iki qrupunu qeyd etmək olar:

1) material ehtiyatlarından istifadə edilməsi göstəriciləri;
2) sərf edilmiş material xərcləri göstəriciləri.

Maddi dəyərlər istehsalında material sərfinin səviyyəsi üzrə material tutumu göstəriciləri ümumi və xüsusi göstəricilərə bölünə bilər.

Sənaye müəssisəsində bütün material ehtiyatları məcmusundan istifadə edilməsini səciyyələndirən *ümumi göstəricilər* aşağıdakılardır.

1. Məhsulun material tutumu (MT) göstəricisi – məhsul istehsalında istifadə olunmuş material xərcləri (MX) məbləğinin istehsalçı müəssisənin qiymətləri ilə məhsulun buraxılışı həcminə (MH) nisbəti kimi müəyyən edilir:

$$MT = MX / MH \qquad (8.1)$$

2. Material verimi (MV) göstəricisi – material xərclərinin hər vahidinə nə qədər məhsul buraxılmasını göstərir:

$$MV = MH / MX \qquad (8.2)$$

O, material tutumu göstəricisinə nisbətən əks kəmiyyətdir.

3. Material xərclərinin hər manatına düşən mənfəət - satışdan alınan mənfəət (M_{RM}) məbləğinin dövr ərzində material xərclərinin məbləğinə bölünməsilə müəyyən edilir:

$$M = M_{RM} / MX \qquad (8.3)$$

4. Material xərclərinə nisbi qənaət (israf) göstəricisi ($Q_{ən}$) - material xərclərinin məhsulun maya dəyərində nəzərə alınmış faktiki məbləği (MX_1) və məhsulun həcmi indeksilə yenidən hesablanmış xərclərin baza məbləği ($MX_0 \times J_{MN}$) arasında fərq kimi hesablanır:

$$Q_{ən} = MX_1 - MX_0 \times J_{MH}. \qquad (8.4)$$

Məhsulun material tutumunun və material veriminin ümumi göstəricilərini tədqiq edərkən nəzərə almaq lazımdır ki, onlar material ehtiyatlarından istifadə edilməsinin səmərəliliyinin dinamikasını yalnız o şərtlə səciyyələndirir ki, göstəricilərin surəti və məxrəci məhsulun və material ehtiyatlarının baza dövrü ilə müqayisəli qiymətlərilə ifadə edilmiş olsun.

Xüsusi göstəricilər ehtiyatların ayrı-ayrı elementlərindən istifadə edilməsini səciyyələndirir, onların dəyəri material tutumunun ümumi göstəricilərinin hesablanması metodikası kimi düsturların surətində göstərilir. Xammal və materiallar üzrə material tutumu, yanacaq tutumu, enerji tutumu, kənardan alınan məmulatların və yarımfabrikatların tutumu, metal tutumu və s. belə göstəricilərə aiddir. Onların hesablanması və təhlili konkret məhsul növləri istehsalı və konkret materiallardan istifadə edilməsi zamanı material xərclərinə qənaət edilməsi ehtiyatlarının müəyyən edilməsi üçün lazımdır.

Xammal və materiallardan istifadə edilməsi göstəriciləri təhlilin obyektlərinin xarakteristikası üzrə texniki-iqtisadi və ümumiqtisadi göstəricilərə bölünür.

Material ehtiyatlarından istifadə edilməsi sahəsində *texniki-iqtisadi göstəricilər* məhsul istehsalının sahə və texnologiyası xüsusiyyətlərindən asılı olaraq fərqlənirlər. Onlar materiallardan istifadə əmsalları (maşınqayırmada və emal sənayesi sahələrində), ilkin xammaldan hazır məhsul (filizdən metal, çuğundurdan şəkər, xammal qatışığından yun və s.) çıxımı (alınması) əmsalları, məhsul istehsalına sərf edilmiş materialların ümumi həcmində tullantıların və itkilərin xüsusi çəkisi, biçim əmsalları və s. ola bilər.

Xammaldan və materiallardan istifadə edilməsi sahəsində ümumiqtisadi göstəricilərə material tutumu göstəriciləri, materiallardan istifadə edilməsi əmsalları və materialların ümumi dəyərində tullantıların faizi aiddir.

8.3. Təşkilatın material ehtiyatları ilə təmin olunması səviyyəsinin təhlili

Satışın həcminin və mənfəətin artırılması üçün müəssisənin material ehtiyatları ilə təmin olunması və onlardan səmərəli istifadə edilməsi mühüm şərtdir. Bir tərəfdən lazımi miqdarda, çeşiddə və keyfiyyətli materialların alınmaması yaxud onların vaxtlı - vaxtında gətirilməməsi boşdayanmalara, səmərəsiz əvəz edilmələrə və onlardan çıxan bütün nəticələrə (məhsulun keyfiyyətinin pisləşməsinə, maya dəyərinin yüksəlməsinə və s.) səbəb ola bilər. Digər tərəfdən, xammalın, az işlənən materialların lüzumsuz ehtiyatlarının yaranması vəsaitlərin dondurulmasına gətirib çıxarır, müəssisənin maliyyə vəziyyətinə mənfi təsir edir. Bununla əlaqədar olaraq, təhlil prosesində normal iş üçün lazım olan material - texniki ehtiyatların optimal miqdarı müəyyən edilməlidir.

Təhlil üçün müəssisənin mühüm material ehtiyatları növlərilə təminatı əmsalından istifadə edirlər.

$$Ə_{təm} = \frac{M_{fakt}}{M_{təl}}, \qquad (8.5)$$

burada M_{fakt} və $M_{təl}$ - müəyyən qrup materialların müvafiq olaraq faktiki daxil olması (varlığıdır) və onlara sifariş verilmiş tələbatdır.

Ehtiyatların bütün mühüm növləri üzrə təminat əmsalları bəzi materiallar üzrə plandan artıq ehtiyatların olmasını və digərləri üzrə kəsir (defisit) yaranmasını göstərir.

Bazar münasibətləri şəraitində material ehtiyatları ilə təminatın operativ təhlili vacibdir. Bununla əlaqədar A. R. Kankovskayanın və A.B.Taruşkinin rəylərilə razılaşmaq lazım gəlir. Onlar hesab edirlər ki, müəssisənin anbarlarında material ehtiyatlarının vəziyyətinin vaxtaşırı təhlil edilməsi vacibdir. Aparılan təhlil:

- faktiki ehtiyatların normativlərə uyğunluğunun qiymətləndirilməsini;
- lazım olmayan ehtiyatların aşkar edilməsini təmin edir.

Materialların *normativ ehtiyatları* cari və sığorta ehtiyatlarının cəmidir

$$E_{norm} = E_{cari} + E_{sığ} \qquad (8.6)$$

Cari ehtiyatlar müəyyən material növünün gətirilməsi üzrə günlərlə hesablanan intervala (İnt) və onların orta günlük sərfinə ($S_{gün}$) əsaslanaraq müəyyən edilir.

$$E_{cari} = İnt \times S_{gün} \qquad (8.7)$$

Sığorta ehtiyatları müəssisənin fasiləsiz işləməsini təmin etmək və materiallar çatışmadıqda və ya göndərmə (gətirilmə) qrafikləri pozulan hallarda boşdayanmalara yol verməmək üçün yaradılır.

Materialların anbara daxil olması və onların istehsal üçün buraxılması proseslərini müqayisə edərkən lazımsız az işlənən materiallar aşkar edilə bilər. Beləliklə bir il ərzində sərf edilməmiş materiallardır. Həmin material ehtiyatları realizə edilməlidir, çünki həmin materialların saxlanması müəyyən xərclər tələb edir və müəssisənin təsərrüfat dövriyyəsində vəsaitlərin dondurulmasına səbəb olur.

8.4. Material ehtiyatlarından istifadənin səmərəliliyinin təhlili və qiymətləndirilməsi

Qeyd etmək lazımdır ki, maya dəyərinin kalkulyasiyasında material xərclərinin bir hissəsi:

- xammal və materiallar;
- qaytarılan tullantılar;
- kənardan alınan məmulatlar və yarımfabrikatlar, xidmətlər;
- texnoloji məqsədlərə işlədilən yanacaq və enerji sərbəst maddələrlə təqdim edilir.

Bu material xərcləri birbaşa xərclərdir, onlar məhsul vahidi üzrə planlaşdırılır və hesablanır.

Material xərclərinin digər hissəsi istehsala və idarəçiliyə xidmət göstərilməsilə əlaqədardır, onlar maya dəyərin kompleks maddələrində ehtiva olunur.

Birbaşa material xərclərinin təhlilinin birinci istiqamətini nəzərdən keçirək. O, *material xərclərinin dəyişməsinə müxtəlif amillərin təsirinin* öyrənilməsindən ibarətdir. Bu amilləri şərti olaraq iki qrupa bölmək olar:

- materialların kəmiyyətcə sərfi (K_i) amilləri (normalar amilləri);
- materialların hər növünün tədarükünün maya dəyərini müəyyən edən (S_i) amillər (qiymət amilləri).

Amillərin hər qrupunun təsiri zəncirvari yerdəyişmə üsulu ilə müəyyən edilə bilər.

Bu zaman aşağdakı düsturlardan istifadə olunur:

Plan: $MX_0 = \sum Ki_0 \times Si_0$,

Burada Ki_0 - müəyyən məhsul növü üçün materialın i növünün natural ifadədə sərfidir; Si_0 - materialın i növü vahidinin tədarükünün maya dəyəridir;

- yerdəyişmə:

Hesabat: $MX_{şərti} = \sum Ki_1 \times Si_0$;

$MX_1 = \sum Ki_1 \times Si_1$.

Amillərin təsiri:

1) norma amillərinin (K) $\Delta MX_{(K)} = MX_{şərti} - MX_0$;

2) qiymət amillərinin (S) $\Delta MX_{(S)} = MX_1 - MX_{şərti}$;

Yoxlama: $\Delta MX_{(K)} + \Delta MX_{(S)} = \Delta MX$;

Belə təhlilin aparılması üçün məlumatlar ayrı-ayrı məmulatların, işlərin və xidmətlərin maya dəyərinin plan üzrə və hesabat kalkulyasiyalarından (onlarda material xərclərinin açıqlanması olduğu halda) götürülür.

L məmulatının maya dəyərinin kalkulyasiyasından çıxarışı təqdim edək (cədvəl 8.1).

Məmulat üzrə material xərclərinə qənaət:

294 – 480 = -186 man.

Məhsul vahidinə ayrı - ayrı amillərin təsiri:

1) sərf edilmiş materialların miqdarının dəyişilməsinin:

a) məhsul vahidinə

2 × 100 – 400 = -200 man.;

b) bütün məhsul buraxılışına[1)]

-200 × 6000 = -1200 000 man.

2) qiymətlərin dəyişilməsinin:

a) məhsul vahidinə

240 – 2 × 100 = 40 man. (material xərclərinin israfı);

b) bütün məhsul buraxılışına

40 × 6000 = 240 000 man.;

3) B materialının C materialı ilə əvəz edilməsinin:

a) məhsul vahidinə

54 – 80 = -26 man., yəni səmərəli, faydalı əvəz edilmə;

b) bütün məhsul buraxılışına

-26 × 6000 = -156 000 man.

[1)] Bütün buraxılış üzrə fərqin müəyyən edilməsi üçün bir məmulat üzrə amillərin alınmış təsirini hesabat dövründə onun faktiki buraxılışına vurmaq lazımdır.
Cəmi: - 1200 000 + 240 000 - 156 000 = -1116 000 man.
Yoxlama: - 186 × 6000 = -1116 000 man.

Cədvəl 8.1

L məmulatının maya dəyərinin kalkulyasiyasından çıxarış

Material növləri	Ölçü vahidi	Baza kalkulyasiyası üzrə			Hesabat kalkulyasiyası üzrə		
		Məmulat vahidinə sərfin miqdarı	Material vahidinin tədarükü üzrə məsrəflər, man.	Material xərclərinin məbləği, man. (qr.3xqr.4)	Məmulat vahidinə sərfin miqdarı	Material vahidinin tədarükü üzrə məsrəflər, man.	Material xərclərinin məbləği, man. (qr.6xqr.7)
1	2	3	4	5	6	7	8
A	ədəd	4	100	400	2	120	240
B	metr	2,0	40	80	İstifadə edilməmişdir		
C	metr	-	-	-	1,2	45	54
Məmulat üçün cəmi	man.			480			294
Hesabat dövründə məmulat buraxılışı	ədəd	x	X	x	6000	x	x

Məhsul vahidinə hesablamanın yoxlanması:

- 200 + 40 – 26 = -186 man. (əsas etibarilə A materialı hesabına)

Təhlilin növbəti mərhələsində *birbaşa material xərclərinin strukturu* nəzərdən keçirilir.

Amillər üzrə asılılığ modeli additiv (toplanan) əlaqə növü kimi təsəvvür edilir:

$$MX = X \text{ və } M + AM - QT + Y \text{ və } E + Dig.$$

Burada X və M – xammal və materiallardır; AM - kənardan alınan məmulatlar və yarımfabrikatlardır; QT - qaytarılan tullantılar; Y və E – yanacaq və enerjidir; Dig. - digərləridir.

Material xərclərinin həcminin dəyişilməsi (ΔMX) bütün toplananların (tərkib hissələrinin) dəyişilmələrinin cəmi kimi hesablanır:

$$\Delta MX = \Delta X \text{ və } M + \Delta AM - \Delta QT + \Delta Y \text{ və } E + \Delta Dig.$$

Material ehtiyatlarından istifadənin səmərəliliyi ümumi və xüsusi göstəricilər sisteminin köməyilə təhlil edilir.

Ümumi göstəricilərdən biri məhsulun material tutumudur.

$$MT = MX / MH$$

Məhsulun material tutumunun amilli təhlil edilməsi üçün aşağıdakı formada analitik cədvəl (cədvəl 8.2) cədvəl tərtib edilir.

Cədvəl 8.2

Məhsulun material tutumunun təhlili

Sıra sayı	Göstəricilər	Plan	Hesabat
1	Məhsul buraxılışının həcmi, min man.	80 000	80 032
2	Məhsul istehsalına material xərcləri, cəmi, min man.	50 000	60 600
3	Məhsulun material tutumu, man. (sətir 2: sətir 1)	0,625	0,757

Göstərilmiş məlumatlara uyğun olaraq material tutumunun dəyişilməsi 0,132 man. təşkil etmişdir. Hesabat ilində müəssisədə material tutumu səviyyəsi daha yüksək olan məhsulların xüsusi çəkisi artmışdır.

Təhlilin növbəti mərhələsində material ehtiyatlarından istifadənin səmərəliliyinin xüsusi göstəriciləri: xammal və material sərfini əks etirən sahəsində material tutumu, yanacaq tutumu, enerji tutumu və s. göstəricilər öyrənilir.

Material tutumu göstəricisinin birbaşa material xərclərilə qarşılıqlı əlaqəsi aşağıdakı additiv modellə ifadə edilir:

$$\frac{MX}{MH} = \frac{X \text{ və } M + AM + Y \text{ və } E + Dig}{MH};$$

$$\frac{MX}{MH} = \frac{X \text{ və } M}{MH} + \frac{AM}{MH} + \frac{Y \text{ və } E}{MH} + \frac{Dig}{MH};$$

$$\Delta MT = \Delta MT_{X \text{ və } M} + \Delta MT_{AM} + \Delta MT_{Y \text{ və } E} + \Delta MT_{Dig.}$$

Təhlil prosesində məhsulun ayrı-ayrı növlərinin material tutumu və onun səviyyəsinin dəyişilməsinə təsir edən amillər müəyyən edilir. Həmin amillərə:

- materialların xüsusu sərfinin (XS);
- materialların dəyərinin (MD);
- məhsulların topdan satış qiymətlərinin (MQ) dəyişilməsi aid edilir.

Göstərilən amillərin məsələn, i növ məmulatın material tutumuna (MT) təsirinin hesablanmasını zəncirvari yerdəyişmə üsulu ilə yerinə yetirmək olar.

Plan: $$MT_{iPl} = \frac{\Sigma(XS_{iPl} \times MD_{iPl})}{MQ_{iPl}} \times 100\%.$$

Şərti yerdəyişmə 1: $$MT_i^1 = \frac{\Sigma(XS_{iA} \times MD_{iPl})}{MQ_{iPl}} \times 100\%$$

Şərti yerdəyişmə 2: $$MT_i^2 = \frac{\Sigma(XS_{iPl} \times MD_{iA})}{MQ_{iPl}} \times 100\%$$

Hesabat: $$MT_{iF} = \frac{\Sigma(XS_{iA} \times MD_{iA})}{MQ_{iA}} \times 100\%$$

Amillərin təsiri:
- materialların xüsusi sərfinin dəyişilməsinin

$$\Delta MT_i(XS) = MT_i^1 - MT_{iPl};$$

- tədarük üzrə xərclərin dəyişilməsinin

$$\Delta MT_{i(MD)} = MT_i^2 - MT_i^1;$$

- məhsulun topdan satış qiymətlərinin

$$\Delta MT_{i(MQ)} = MT_{iA} - MT_i^2.$$

Analoji hesablamalar məhsulun bütün növləri üzrə həyata keçirilir.

Sonrakı təhlil məhsul vahidinə material ehtiyatı sərfinin və xammal və materialların dəyərinin dəyişməsinə təsir edən səbəblərin öyrənilməsinə istiqamətlənməlidir.

Məhsul vahidinə material ehtiyatları sərfi müxtəlif keyfiyyətli materiallardan istifadə edilməsi, materialın bir növünün digərilə əvəz edilməsi, istehsalın texnikasının və texnologiyasının, material-texniki təchizatın və istehsalın təşkilinin dəyişilməsi, material sərfi normalarının, itkilərin dəyişilməsi və s. hesabına dəyişilə bilər. Butün bu səbəblər müvafiq aktlarda öz əksini tapır.

Materialların tədarükü üzrə xərclər onların keyfiyyətindən, qrupdaxili strukturundan, materiallar bazarlarında mövcud vəziyyət, inflyasiya ilə əlaqədar onların qiymətlərinin, nəqliyyat-tədarük xərclərinin artmasından asılıdır.

Material ehtiyatlarından istifadənin səmərəliliyi göstəricilərindən biri material xərclərinin bir manatına düşən mənfəətdir. Onun yüksəlməsi müəssisənin müsbət işini səciyyələndirir. Təhlil prosesində həmin göstəricinin dinamikasını, onun səviyyəsi üzrə planın yerinə yetirilməsini öyrənmək, təsərrüfatlararası müqayisələr aparmaq və mənfəətin həcminin dəyişilməsi səbəblərini müəyyən etmək lazımdır.

Bu məqsədlə aşağıdakı amilli modeldən istifadə etmək olar:

$$\frac{M}{MX} = \frac{M}{Məd_{sat.}} \times \frac{Məd_{sat.}}{MH} \times \frac{MH}{MX} = R_{sat.} \times K \times MV,$$

burada M-dövr ərzində satışdan alınan mənfəətdir; MX - birbaşa material xərcləridir; $Məd_{sat}$ - dövr ərzində satışdan mədaxildir; MH - məhsul buraxılışının dəyər ifadəsində həcmidir; R_{sat} - satışın rentabelliyidir; K - mədaxilin məhsul buraxılışının ümumi həcminə nisbətidir; MV - material verimidir.

Amillərin material xərclərinin bir manatına düşən mənfəətin dəyişilməsinə təsirini mütləq fərq üsulu ilə hesablamaq olar:

a) material veriminin dəyişilməsi (ΔMV) hesabına:

$$\Delta\frac{M}{MX_{(MV)}} = \Delta MV \times K_{pl} \times R_{sat.pl};$$

b) mənfəətin (mədaxilin) məhsul buraxılışının ümumi həcminə nisbətinin dəyişilməsi (ΔK) hesabına:

$$\Delta\frac{M}{MX_{(K)}} = MV_A \times \Delta K \times R_{sat.pl};$$

c) satışın rentabelliyinin dəyişilməsi (ΔR_{sat}) hesabına:

$$\Delta\frac{M}{MX_{(R_{sat})}} = \Delta MV_A \times K_A \times \Delta R_{sat}.$$

Təhlilin digər istiqaməti material ehtiyatlarından istifadənin məhsul istehsalının həcminə təsirinin müəyyən edilməsidir. Bu zaman asılılıq modeli aşağıdakı kimi olur:

$$MH = MX \times MV;$$

$$\Delta MH_{(MX)} = \Delta MX \times MV_{Pl};$$

$$\Delta MH_{(MV)} = MX_A \times \Delta MV.$$

Hesablamanı yalnız nəzərdən keçirilmiş mütləq fərq üsulunun deyil, həm də zəncirvari yerdəyişmə, indeks, nisbi fərq üsullarının köməyilə də yerinə yetirmək olar.

8.5. Ehtiyatların və xərclərin idarə edilməsi səmərəliliyinin təhlili

Müəssisənin fəaliyyətinin son nəticələri ehtiyatların optimallığından asılıdır.

Ehtiyatların və xərclərin idarə edilməsinin səmərəliliyi məsələlərini aşağıdakılar əhatə edir:

1) mal - material dəyərləri ehtiyatlarının ümumi miqdarının və strukturunun optimallaşdırılması;

2) onlara xidmət edilməsi üzrə xərclərin minimuma endirilməsi;

3) onların hərəkətinə səmərəli nəzarətin təmin edilməsi.

Bizim nöqteyi - nəzərimizcə, V.V. Kovalyovun o fikrilə razılaşmaq lazımdır ki, bu halda istehsal ehtiyatları sadəcə istehsal prosesi üçün lazım olan xammal və materiallara nisbətən daha geniş anlaşılmalıdır, yəni onlara xammal, materiallar, bitməmiş istehsal, hazır məhsul, yenidən satılmalı mallar və s. aiddir. Texnoloji (istehsal) silsilə ərzində ehtiyatlarda dondurulmuş pul vəsaitlərinin ümumi məbləği maliyyə menecerləri və analitikləri üçün mühüm əhəmiyyət kəsb edir: məhz ona görə də ilk baxışdan müxtəlif görünən həmin aktivləri bir qrupda birləşdirmək olar.

Ehtiyatların idarə edilməsi texnoloji və maliyyə aspektindən çox böyük əhəmiyyətə malikdir. Müəssisənin maliyyə vəsaitlərinin idarə edilməsi mövqeyindən - bu immobilizasiya (dövriyyə kapitalının əsas kapitala cevrilməsi) vəsaitləridir, yəni dövriyyədən yayındırılmış vəsaitlərdir. Belə məcburi yayındırma olmadan keçinmək olmaz, lakin həmin prosesin yaratdığı dolayı itkiləri minimuma endirmək istəyi tamamilə təbiidir. Bu itkilərin, müəyyən dərəcədə şərtiliklə, müvafiq məbləği hər-hansı alternativ layihəyə investisiya qoymaqla (məsələn, pulları faizlərlə banka qoymaqla) alınan gəlirə bərabərdir. Bu dolayı itkilər müəyyən hallarda birbaşa itkilərə də çevrilə bilər. Tədqiqatlar göstərir ki, aktivləri məcburi surətdə realizə edəndə, məsələn, şirkət iflas olduqda, bir çox dövriyyə vəsaitləri satıla bilməyənlər sırasına düşür, onların satışından alınan məbləğ isə uçot dəyərindən xeyli az ola bilər.

Yuxarıda qeyd olunanlar mütəşəkkil və ciddi strukturlaşmış istehsal-texnoloji prosesə malik olan şirkətlərdə – mövcud olan ehtiyatların idarə edilməsinin formallaşdırılmış modellərinin yayılmasını qismən izah edirlər. Formallaşdırılmış modellərdən istifadə edilməsindən və ya edilməməsindən asılı olmayaraq, istənilən şirkətin rəhbərləri ehtiyatların idarə edilməsinin bəzi prinsiplərinə riayət edirlər və onların maliyyələşdirilməsi strategiyasını seçirlər. Bu prinsiplər aşağıdakı iki suala cavab verilməsini nəzərdə tutur [33]:

1) ehtiyatların mənbələrinin strukturu necə olmalıdır?

2) ehtiyatların həcmi nə qədər olmalıdır?

Birinci suala dörd davranış modellərindən: ideal, təcavüzkar, mühafizəkar və kompromis modellərdən birinin köməyilə cavab alına bilər. *İdeal modelin* mahiyyəti ondan ibarətdir ki, dövriyyə vəsaitləri qısamüddətli passivlərlə, yəni kreditor borcu ilə tam həcmdə örtülməlidir. Belə yanaşma çox risklidir, belə ki, ona uyğun olaraq bütün xüsüsi vəsaitlər dövriyyədən kənar aktivlərə qoyulmalıdır və kreditorlarla mümkün çətinliklər baş verdiyi halda onların hər hansı bir hissəsini satmaq lazım gələcəkdir, bu isə müxtəlif, o cümlədən müvəqqəti xarakterli çətinliklərlə əlaqədardır.

Təcavüzkar model nəzərdə tutur ki, uzunmüddətli passivlər (xüsusi və borc kapitalı) dövriyyədən kənar aktivlərin və dövriyyə vəsaitlərinin sistemli hissəsinin, yəni cari təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan minimumun örtülməsi (ödənilməsi) mənbələridir.

Mühafizəkar model nəzərdə tutur ki, dövriyyə vəsaitlərinin dəyişilən hissəsi də (dövriyyə vəsaitlərinin sistemli tərkib hissəsindən artıq olan və yalnız qızğın dövrlərdə yaranan hissəsidir) uzunmüddətli passivlərlə örtülür (ödənilir). Bu halda qısamüddətli kreditor borcu olmur, satış qabiliyyətinin itirilməsi riski də yoxdur. Qeyd edək ki, kreditor borcu olmaması haqqında deyilən ifadəni tam mənası ilə başa düşmək lazım deyil. Bu halda söhbət idarəetmə heyətinin dövriyyə aktivlərinə və kreditorlarla hesablamalara münasibətdə davranışının modelləşdirilməsindən gedir. Xüsusi halda, nəzəri olaraq belə vəziyyəti təsəvvür etmək olar ki, müəssisə xammal və materialları nağd hesablaşma ilə əldə edir, büdcəyə borcunu hesablama anında ödəyir, qısamüddətli bank kreditlərindən istifadə etmir və s. Bir halda ki, qısamüddətli vəsait mənbələrində kreditor borcu əsas yer tutur, xammalın nağd hesabla əldə edilməsinə dair şərh edilmiş şərti vəziyyət məhz kreditor borcunun olmamasına gətirib çıxardır, daha dəqiqi, o, qalır, lakin cüzi olur.

Kompromis model daha realdır. Bu halda dövriyyədən kənar aktivlər, dövriyyə vəsaitinin sistemli hissəsi və onların dəyişilən hissəsinin təxminən yarısı uzunmüddətli passivlərlə örtülür.

Ehtiyatların idarə edilməsinin səmərəliliyilə əlaqədar olan ikinci suala cavab vermək üçün aşağıdakıları müəyyən etmək lazımdır:

a) ehtiyatların miqdarının idarə edilməsi siyasətini prinsipcə optimallaşdırmaq olarmı?

b) minimal zəruri ehtiyatların həcmi nə qədərdir?

c) ehtiyatların növbəti partiyasını nə vaxt sifariş vermək lazımdır?

ç) sifariş verilən partiyanın optimal həcmi nə qədər olmalıdır?

İstənilən optimallaşdırma məsələsinin həlli məqsəd meyarının seçilməsini nəzərdə tutur. Ehtiyatların miqdarının müəyyən edilməsi üçün belə meyar ehtiyatların səviyyəsinin saxlanması ilə əlaqədar xərclərdir. Onlar əsasən iki elementdən: saxlanma üzrə xərclərdən və sifarişlərin yerləşdirilməsi və yerinə yetirilməsi üzrə xərclərdən ibarətdir. Aydındır ki, bu iki element bir-birinə tərs mütənasib dəyişilir. Məsələn, gətirilmiş ehtiyatlar partiyası nə qədər böyük olarsa, eyni zamanda onun saxlanması üçün daha çox xərclər tələb olunur (belə ki, kifayət qədər həcmə malik anbarlar olmalıdır) və gətirilməsi üçün az xərc lazım olar (bir neçə dəfə nəqliyyat təşkilatının xidmətlərindən istifadə etmək lazım olmaz).

Bir çox dərsliklərdə sifarişin optimal partiyasının ölçüsünün (EOQ-Economic Order Quality) hesablanmasını aşağıdakı düsturla yerinə yetirmək təklif olunur:

$$EOQ = \sqrt{\frac{2 \times F \times D}{H}},$$

burada EOQ - partiyanın həcmidir, ədəd (vahid); F - bir partiyanın sifarişinin yerinə yetirilməsinin dəyəridir, pul vahidləri; D - dövr ərzində xammala ümumi tələbatdır, vahid; H - xammal vahidinin saxlanılması xərcləridir, pul vahidləri.

Buradan istehsal ehtiyatının optimal həcmi belə müəyyən edilir.

$$İE_{opt} = \frac{EOQ}{2}.$$

Aşağıdakı misalı nəzərdən keçirək. Metala illik tələbat 80 000 tondur, orta yerləşdirmə dəyəri 2000 manat, malın vahidinin saxlanılmasının orta dəyəri 20 manatdır, onda

$$EOQ = \sqrt{\frac{2 \times 80000 \times 20}{2}} = 4000 \text{ ton.}$$

$$İE_{opt} = \frac{4000}{2} = 2000 \text{ ton.}$$

Xammalın orta gətirilmə partiyasının və orta ehtiyatının belə həcmləri olduqda müəssisənin xidmət xərcləri minimum olacaqdır.

Bu nəzəriyyə çərçivəsində ehtiyatların idarə edilməsi sxemləri işlənib hazırlanmışdır. Bu sxemlər bir sıra parametrlər vasitəsilə ehtiyatların yeniləşməsi proseduralarını formalaşdırmaq, o cümlədən, növbəti sifariş vermək üçün lazım olan səviyyəsini müəyyən etmək imkanı yaradır. Belə sxemlərdən biri aşağıdakı modellərdən ibarətdir:

$$RP = MU \times MD;$$
$$SS = RP - AU \times AD;$$
$$MS = RP + EOQ - LU \times LD,$$

Burada AU - xammala orta gündəlik tələbatdır, vahid; AD - sifarişin yerinə yetirilməsinin orta müddətidir (yerləşdirmə anından xammalın alınması anına qədər), gün; SS - ehtiyatların ən çıx ehtimal edilən minimal səviyyəsidir, vahid; MS - ehtiyatların maksimal səviyyəsidir, vahid; RP - ehtiyatların sifariş verilən zaman səviyyəsidir, vahid; LU - xammala minimum gündəlik tələbatdır, vahid; MU - xammala maksimal gündəlik tələbatdır, vahid; MD - sifarişin yerinə yetirilməsi üçün günlərin maksimal sayıdır; LD - sifarişin yerinə yetirilməsi üçün günlərin minimal sayıdır.

Maliyyə meneceri üçün istehsal ehtiyatlarının təhlilinin məntiqini də bilmək çox böyük rol oynayır. Təhlilin metodikasını ətraflı şərh etmədən, yalnız qeyd edək ki, onun əsasında həm də ehtiyatların hesabatda təqdim edilməsi prinsiplərinin anlaşılması durur. Təsərrüfat subyektinin uçot siyasətilə ehtiyatların uçotunun hansı metodlarından istifadə olunmasından asılı olaraq, ehtiyatlara

qoyulan vəsaitlərin müxtəlif qiymətləndirilməsi və deməli, onların idarə edilməsinin optimal siyasətinin müəyyən edilməsində iştirak edən parametrlərin müxtəlif qiymətləndirilməsi mümkündür.

Firmadaxili maliyyə təhlili çərçivəsində ehtiyatların təhlilinin mühüm proseduralarından (üsullarından) biri onların dövranının qiymətləndirilməsidir. Əsas göstərici günlərlə hesablanan dövretmə vaxtıdır. O, dövr ərzində ehtiyatların orta qalığının həmin dövrdə onların bir günlük dövriyyəsinə nisbəti kimi hesablanır. Dövr etmənin sürətləndirilməsi təsərrüfat dövriyyəsinə əlavə vəsaitlər cəlb edilməsinə, ləngidilməsi isə – onların dövriyyədən çıxarılmasına, ehtiyatlarda nisbətən daha uzun müddət dondurulmasına (başqa sözlə – öz dövriyyə vəsaitinin immobilizasiyasına) səbəb olur. Dövriyyəyə əlavə cəlb edilmiş (yaxud ondan çıxarılmış) vəsaitlərin məbləği aşağıdakı düsturla hesablanır:

$$\Delta_b C = (b_1 - b_0) \times m_1 = \Delta_b \times m_1,$$

burada, $\Delta_b C$ - dövriyyəyə əlavə cəlb edilmiş vəsaitlərin məbləğidir (əgər $\Delta_b C<0$), yaxud dövriyyədən çıxarılan vəsaitlərin məbləğidir (əgər $\Delta_b C>0$) olarsa; b_0 və b_1 - ehtiyatların müvafiq olaraq baza və hesabat dövründə dövr etməsidir, günlərlə; m_1 - hesabat dövründə bir günlük faktiki dövriyyədir.

İstehsal və mal ehtiyatlarının təhlili ciddi determinləşdirilmiş amillər üzrə modellərdən istifadə etməklə yerinə yetirilə bilər. Düsturun çıxarılması nisbətən sadədir; bu məqsədlə amillər üzrə təhlildə məlum üsul tətbiq edilir. O, ciddi determinləşdirilmiş (müəyyən edilmiş, şərtləndirilmiş) amillər üzrə modelin eyni zamanda əlavə vurulması və bölünməsi yolu ilə genişləndirilməsindən ibarətdir [33]:

$$\frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_0} = \frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_1} \times \frac{\Sigma b_0 \times m_1}{\Sigma b_0 \times m_0} = \frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_1} \times \left(\frac{\Sigma b_0 \times m_1}{\Sigma b_0 \times m_0} : \frac{\Sigma m_1}{\Sigma m_0} \right) \times \frac{\Sigma m_1}{\Sigma m_0} =$$

$$= \frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_1} \times \frac{\Sigma b_0 \times m_1}{\frac{\Sigma b_0 \times m_0}{\Sigma m_0} \times \Sigma m_1} \times \frac{\overline{b_0} \Sigma m_1}{\overline{b_0} \Sigma m_0} = \frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_1} \times \frac{\Sigma b_0 \times m_1}{\overline{b_0} \Sigma m_1} \times \frac{\Sigma \overline{b_0} \times m_1}{\Sigma b_0 \times m_0};$$

(8.8)

Bir halda ki, tərifinə görə $\overline{b_0} \frac{\Sigma b_0 \times m_0}{\Sigma m_0}$ toplanma işarəsindən asılı deyil, onda $\Sigma \overline{b_0} \times m_0 = \Sigma b_0 \times m_0$. Bu qeydi nəzərə almaqla (8.8) düsturu asanlıqla aşağıdakına çevrilir:

$$\frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_0} = \frac{\Sigma b_1 \times m_1}{\Sigma b_0 \times m_1} \times \frac{\Sigma b_0 \times m_1}{\Sigma b_0 \times m_1} \times \frac{\Sigma \overline{b_0} \times m_1}{\Sigma b_0 \times m_0}, \qquad (8.9)$$

burada b - i mal qrupunun dövr etmə vaxtıdır, gün; m - i mal qrupunun bir günlük əmtəə dövriyyəsidir.

Bu düstur (8.9) üç amilli ciddi determinləşdirilmiş multiplikativ modeli şərh edir. Bu modelə uyğun olaraq mal ehtiyatlarının miqdarı üç parametrin: ayrı-ayrı malların (mal qruplarının) əmtəə dövriyyəsiinin, əmtəə dövriyyəsinin strukturunun, əmtəə dövriyyəsinin həcminin funksiyası kimi təqdim edilə bilər. Həmin modelin köməyilə bu amillərdən hər birinin mal ehtiyatlarının həcminin dəyişməsinə necə təsir etməsini müəyyən etmək olar [33]:

$$\Delta_t IN = \Delta_b IN + \Delta_s IN + \Delta_m IN,$$

burada $\Delta_t IN = \Sigma b_1 \times m_1 - \Sigma b_0 \times m_0$ - dövr ərzində mal ehtiyatlarının ümumi dəyişməsidir; $\Delta_b IN = \Sigma b \times m_1 - \Sigma b_0 \times m_1$ – ayrı - ayrı mal qrupları üzrə dövr etmənin dəyişməsi nəticəsində mal ehtiyatlarının dəyişməsidir; $\Delta_s IN = \Sigma b_0 \times m_1 - \Sigma \overline{b_0} \times m_1$ - əmtəə dövriyyəsinin strukturunun dəyişməsi nəticəsində mal ehtiyatlarının dəyişilməsidir;

$\Delta_m IN = \Sigma \overline{b_0} \times m_1 - \Sigma \overline{b_0} \times m_0$ -əmtəə dövriyyəsinin həcminin dəyişməsi nəticəsində mal ehtiyatlarının dəyişməsidir.

Mal ehtiyatlarının təhlilinin təqdim edilmiş metodikası ticarət müəssisələri üçün daha böyük əhəmiyyətə malikdir. Məlum olduğu kimi, o həmin müəssisələrdə dövriyyə aktivlərinin əsas hissəsini məhz mal ehtiyatları təşkil edir. Yuxarıda qeyd edildiyi kimi, müəssisələrin cari fəaliyyətinin səmərəliliyi xeyli dərəcədə dövriyyə aktivlərinin bir formadan digərinə çevrilməsi surətilə müəyyən edilir. Mal ehtiyatları dövriyyə aktivlərinin bir növüdür. Əmtəə dövriyyəli ehtiyatlara qoyulmuş vəsaitlərin dövr etməsi nə qədər yüksək olarsa, ticarət-istehsal prosesini onların o qədər az miqdarı ilə təmin etmək olar. Və əksinə, dövretmə nə qədər aşağı olarsa, pul vəsaitləri o qədər uzun müddət dondurulmuş olur və onlar o qədər az fayda verir.

Təhlilin nəticələri əsasında müəssisədə material ehtiyatlarından istifadə edilməsinin, səmərəliliyin yüksəldilməsinə yönəldilmiş tədbirlər işlənib hazırlanır.

Yoxlama sualları?

1. Təhlilin vəzifələri və onun aparılması üçün informasiya mənbələri hansılardır?
2. Material ehtiyatlarından istifadənin səmərəliliyinin təhlili üçün hansı göstəricilərdən istifadə edilir?
3. Müəssisənin material ehtiyatları ilə təminatını hansı göstəricilər səciyyələndirir və onların iqtisadi məzmunu necədir?
4. Material ehtiyatlarından istifadənin təhlilinin əsas istiqamətləri hansılardır?
5. Material xərclərinin həcminə hansı amillər təsir edir?
6. Birbaşa material xərclərinin həcminə hansı amillər təsir edir?
7. Material ehtiyatlarından istifadənin səmərəliliyinin təhlili üçün hansı ümumi və xüsusi göstəricilər tətbiq olunur?
8. Material tutumu göstəricisinin birbaşa material xərclərilə qarşılıqlı əlaqəsinin amillər üzrə modeli necə qurulur?
9. Material xərclərinin bir manatına düşən mənfəətin və bu göstəriciyə təsir edən amillərin asılılığının amillər üzrə modeli necədir?
10. Material ehtiyatlarının vəziyyətinin təhlilinin perspektiv istiqamətləri hansılardır?

11. Məhsul buraxılışının həcmi və onun istehsalına material xərcləri, müvafiq olaraq əvvəlki il ərzində 100 və 160 min man., hesabat ilində isə – 120 və 200,5 min man. təşkil etmişdirsə, material ehtiyatlarından istifadənin təhlilinin nəticələri necə olacaqdır?
12. Alınmış nəticələr əsasında material ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi üçün hansı təkliflər vermək olar?

IX FƏSİL

MƏHSULUN (İŞ VƏ XİDMƏTLƏRİN) MAYA DƏYƏRİNİN TƏHLİLİ

9.1. Məhsulun maya dəyərini xarakterizə edən iqtisadi göstəricilər sistemi və onların təhlili metodikası

9.1.1. Məhsulun maya dəyərinin təhlilinin vəzifələri və informasiya mənbələri

Maya dəyəri - pul formasında məhsulun istehsalına və satışına çəkilən (sərf) olunan xərclərdir. Məhsulun (iş və xidmətlərin) istehsalına xərclərin uçotu üzrə Metodik göstərişlərə uyğun olaraq bu xərclər xammalın, materialların, yanacağın, enerjinin, təbii ehtiyatların, əsas vəsaitlərin və digər əmlakın, əmək ehtiyatlarının, habelə məhsulun hazırlanmasına, istehsalın və bütövlükdə təşkilatın idarə edilməsinə, məhsulun satışına digər məsariflərin dəyər qiymətidir.

Məhsulun (iş və xidmətlərin)[1] maya dəyəri – sintetik göstəricidir. Onda müəssisənin təsərrüfat fəaliyyətinin bütün tərəfləri: ehtiyatlardan istifadə edilməsinin səmərəliliyi, əməyin və idarə etmənin təşkilinin səmərəliliyi cəmlənmişdir.

Maya dəyəri istehsalın proqnozlaşdırılmasının əsasıdır, satış qiymətlərinin hesablanması və maliyyə nəticələrinin formalaşması üçün bazadır, mənfəətin yüksəlməsinin ən mühüm mənbəyidir. Mənfəətin formalaşması amili kimi maya dəyərinin kifayət qədər

[1] Sonralar – məhsulun.

qiymətləndirilməməsi təsərrüfat fəaliyyətinin səmərəli təşkilinin prinsiplərinə uyğun deyil və mənfi (neqativ) nəticələrə səbəb ola bilər.

Məhsulun maya dəyərinin təhlilinin məzmunu onun vəzifələrində açıqlanır. Məhsulun maya dəyərinin vəzifələri aşağıdakılardır:

1) məhsulun maya dəyərinin ən mühüm göstəriciləri üzrə dinamikasının (planın yerinə yetirilməsinin) qiymətləndirilməsi və plan tapşırıqlarından kənarlaşmaların aşkar edilməsi;

2) plandan kənarlaşmaların səbəblərinin müəyyən edilməsi və kəmiyyətcə qiymətləndirilməsi. Bunun üçün maya dəyəri aşağıdakı istiqamətlər: müəssisənin struktur bölmələri, xərc maddələri və elementləri, məhsulun növləri, xərclərin yaranması yerləri, amillər üzrə öyrənilir;

3) istehsal ehtiyatlarından (əmək, material ehtiyatlarından, əsas fondlardan) istifadənin səmərəliliyinin maya dəyərinə təsirinin təhlili;

4) məhsulun maya dəyərinin aşağı salınması ehtiyatlarının aşkar edilməsi, qiymətləndirilməsi və onların səfərbər edilməsi üzrə tədbirlərin işlənib hazırlanması.

Maya dəyərinin təhlilinin sadalanmış vəzifələri ənənəvi, tipik vəzifələrdir. Lakin maya dəyərinin idarə edilməsinin vəzifələri göstərilmiş siyahı ilə məhdudlaşmır. Bu ümumi vəzifələr təsərrüfatın müxtəlif sahələrinə; sənayeyə, tikintiyə, kənd təsərrüfatına, xidmət sahəsinə və s. mənsubiyyətdə dəyişilir, konkretləşir. Bazar iqtisadiyyatı şəraitində aparılan təhlil zamanı kiçik bizneslə məşğul olan müəssisələrin və müxtəlif təşkilati-hüquqi formalı müəssisələrin fəaliyyətinin xüsusiyyətlərinin nəzərə alınmasını, xərclərin satışın həcmi və mənfəətlə qarşılıqlı əlaqəsinin təhlilini, satışın zərərsizlik həddinin müəyyən edilməsini və digər əlavə məsələlərin həllini tələb edir.

Məhsulun maya dəyərinin təhlili maya dəyəri üzrə plan tapşırıqlarının əsaslandırılmasının, müəyyən edilmiş normaların və normativlərin reallığının yoxlanmasını tələb edir. Əgər plan real deyilsə, onun yerinə yetirilməsinin təhlili iqtisadi mənasını itirir.

Məhsulun maya dəyərinin və istehsal xərclərinin təhlil edilməsi üçün aşağıdakı informasiya mənbələrindən istifadə olunur.

1. Mühasibat hesabatı (2 saylı forma, "Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat", 5 saylı forma "Müəssisə balansına əlavə"), illik hesabata yazılı izahatın materialları.

2. Statistika hesabatı ("Müəssisənin (təşkilatın) məhsulun (işlərin, xidmətlərin) istehsal və realizə xərcləri haqqında məlumatlar", "İşçilərin sayı, əmək haqqı və hərəkəti haqqında məlumatlar" və s.).

3. Maya dəyəri və əsas xammal ehtiyatlarından istifadə edilməsi haqqında spesifik sahə hesabatları – mədən sənayesində, yüngül, yeyinti sənayeləri və bir sıra digər sənaye sahələrində tərtib edilir.

4. Biznes-plan və ona əlavə hesablamalar, xərclərin smetası, qiymətlərin hesablanması və s.

5. Ayrı-ayrı məmulatların maya dəyərinin kalkulyasiyası (plan üzrə, hesabat, normativ).

6. Analitik uçotun istehsal xərclərinin mühasibat hesablarına (20, 23, 25, 26, 28, 29), "Məhsul (iş, xidmət) satışı" adlı 46-cı hesaba aid materialları, habelə mühasibat uçotunun digər registrləri və sənədləri, o cümlədən inventarizasiya materialları.

7. Müxtəlif uçotdan kənar informasiya (uçot siyasəti üzrə əmr, məhsulun alıcıları və mal-material dəyərləri göndərənlərlə müqavilələrin materialları və s.).

9.1.2. Məhsulun maya dəyərini xarakterizə edən göstəricilər sistemi

Maya dəyərin idarə edilməsi onun səviyyəsini və dinamikasını əks etdirən göstəricilər sistemi vasitəsi ilə həyata keçirilir.

Hazırda məhsulun maya dəyərinin planlaşdırılması və qiymətləndirilməsi üçün əvvəllər tətbiq edilmiş ümumi göstəricilər sistemi yenədə aktualdır. Bu sistemin əsas göstəriciləri – məhsul vahidinin maya dəyəri, bütün məhsulun maya dəyəri, məhsulun bir manatına xərc səviyyəsi – hazırda da ümumi göstəricilər kimi istifadə olunur.


Qəbul edilmiş natural vahidlərə *məhsul vahidinin maya dəyəri* məhsulun maya dəyərinə daxil edilən istehsal xərclərinin bircinsli məmulatların ayrı-ayrı növləri (qrupları üzrə yaxud şərti – bircinsli ölçüyə gətirilə bilən məhsul növləri üzrə bölüşdürülməsi yolu ilə müəyyən edilir, məsələn, elektrik enerjisinin bir kilovat-saatının maya dəyəri, şərti yanacağın bir tonunun maya dəyəri və s.

Təşkilatın (müəssisənin) bütün məhsulunun maya dəyəri – buraxılmış (satılmış) məhsulun həcminə daxil edilən məmulatların, işlərin, xidmətlərin bütün növlərinin maya dəyərinin məcmu maya dəyəridir. Bu universal göstəricidir, belə ki, istehsalın tipindən və buraxılan məhsulun xarakterindən asılı olmayaraq müxtəlif təşkilatlarda hesablanır.

Məhsulun bir manatına (100 və ya 1000 manatına) *düşən xərc* göstəricisi həm müqayisə edilən, həm də ilk dəfə mənimsənilmiş bütün məhsulun maya dəyərinin dinamikasının səciyyələndirilməsi üçün istifadə edilir. O, bütün istehsal edilmiş, yaxud realizə edilmiş məhsulun maya dəyərinin onun satış qiymətlərində (dolayı vergilərsiz) həcminə nisbəti kimi hesablanır. Bu göstərici də hər yerdə hesablanır və universal əhəmiyyətlidir. Bu zaman əvvəlki (baza) dövrlərdə istehsal edilmiş məhsullar müqayisə edilən məhsula aid edilir.

Həm məhsul vahidinin, həm də bütövlükdə məcmu məhsulun bütün maya dəyəri onun istehsal prosesində formalaşması mərhələlərindən asılı olaraq əməliyyat, sex, istehsal, tam maya dəyərini fərqləndirmək lazımdır.

Əməliyyat maya dəyəri – şərti-dəyişilən material xərcləri və əmək haqqı xərcləridir. *Sex maya dəyəri* əməliyyat maya dəyərinin və ümumistehsal xərclərinin cəmindən yaranır. *İstehsal maya dəyəri* sex maya dəyəri və umumtəsərrüfat xərclərinin cəmindən ibarətdir. *Tam maya dəyəri* məhsulun istehsal maya dəyəri və onun satış xərclərinin cəmindən ibarətdir.



Sxem 9.1. ***Məhsulun maya dəyərinin təhlilinin əsas istiqamətlərinin sxemi***

İqtisadi təhlil prosesində maya dəyərinin digər göstəricilərindən: xərc maddələri, elementləri və növləri üzrə, məhsulun ayrı-ayrı növləri üzrə, təsərrüfat fəaliyyəti sexləri və sahələri üzrə, habelə məhsulun sahə xüsusiyyətlərini əks etdirən spesifik maya dəyərləri göstəricilərindən də istifadə edilir.

9.1. sxemində məhsulun maya dəyərinin ümumi göstəricilərinin təhlilinin əsas istiqamətlərinin sxemi təqdim edilmişdir. Onların metodikası növbəti paraqraflarda nəzərdən keçiriləcəkdir.

9.1.3. Məhsulun tam maya dəyəri göstəricisi üzrə dinamikanın (planın yerinə yetirilməsinin) təhlili

Bütün istehsal edilmiş (satılmış) məhsulun tam maya dəyəri – universal xarakterli ümumi göstəricidir. Məhsulun maya dəyərinin təhlili məhz bu göstəricinin dinamikada qiymətləndirilməsi ilə başlanır. Təhlilin əsas məqsədi həmin göstərici əsasında təşkilatda xərclər üzrə mövcud meylin (artım və azalma) müəyyən edilməsidir. Növbəti mərhələdə məhsulun tam maya dəyərinin təhlili aparılır.

Nəzərdə saxlamaq lazımdır ki, hesabat dövründə məhsulun maya dəyəri aşağıdakı parametrlər üzrə əvvəlki yaxud plan dövrünün analoji göstəricisilə müqayisəyə gələn deyil:

- məhsulun həcmi və strukturu;
- material ehtiyatlarının qiymətləri, enerji və daşınma tarifləri;
- istehsal ehtiyatlarına[1] sərf edilən xərclərin səviyyəsi üzrə.

Bütün bunlar təhlil zamanı göstəricilərin müqayisə olunan səviyyəyə gətirilməsini tələb edir.

Bu amillərin təsirinin hesablanması zəncirvari yerdəyişmə üsulu ilə həyata keçirilə bilər. Göstəricilərin şərti işarələri və ilkin qiymətləri 9.1 cədvəlində, amillər üzrə təhlil metodikası və hesablanması isə – 9.2 cədvəlində təqdim edilmişdir.

[1] Burada və sonra istehsal ehtiyatları deyəndə material, əmək və pul (maliyyə) ehtiyatları başa düşülür.

Cədvəl 9.1

Məhsulun tam maya dəyəri göstəricisinin amillər üzrə təhlili üçün ilkin məlumatlar

Göstəricilər	Şərti işarələr	Məbləğ, min man.
1. Məhsulun maya dəyəri: a) baza dövründə həcmi	$\sum_{i=1}^{n} q_{i0}c_{i0} = C_0$	29 000
b) hesabat dövründə həcmi	$\sum_{i=1}^{n} q_{i1}c_{i1} = C_1$	42 000
c) hesabat dövründə baza dövrünün maya dəyəri üzrə həcmi	$\sum_{i=1}^{n} q_{i_1}c_{i0}$	31 800
Material ehtiyatlarının qiymətlərinin, enerji və daşınma tariflərinin artması	$\Delta Q_{MƏ}$	500
Məhsulun (satış qiymətlərilə) həcmi: a) baza dövründə	$\sum_{i=1}^{n} q_{i0}p_{i0} = MH_0$	30 000
b) hesabat dövründə	$\sum_{i=1}^{n} q_{i1}p_{i1} = MH_1$	47 060
c) hesabat dövründə baza dövrünün qiymətlərində	$\sum_{i=1}^{n} q_{i1}p_{i0} = MH_1^0$	36 200

Qeyd. 9.1 və 9.2 cədvəllərində göstəricilərin aşağıdakı işarələri qəbul edilmişdir: q_i -məhsulun i növlərinin natural ifadə də miqdarı ($i=1,\ldots,n$); c_i -məhsulun i növünün vahidinin istehsalına fərdi xərclər; p_i -məhsulun i növünün vahidinin qiyməti; 0; 1 - göstəricisinin müvafiq olaraq baza və hesabat dövrlərinə mənsub olmasını bildirən sətiraltı indekslərdir.

Cədvəl 9.2

Məhsulun maya dəyərinin dəyişilməsinə amillərin təsirinin zəncirvari yerdəyişmə üsulu ilə hesablanılması

Amillər (şərti işarələr)	Düsturlar	Düsturun sıra sayı	Tam maya dəyərinin dəyişilməsi, min man.	
			Hesablama	Nəticə
Məhsulun həcminin və çeşid strukturunun dəyişilməsi ($\Delta C_{q.ç}$)	$\sum_{i=1}^{n} q_{i_1} c_{i_0} - C_0$	9.1	31800 – 29000	+2800
O cümlədən: a) məhsulun həcminin dəyişilməsi (ΔC_q)	$C_0 \times (J_{MH} - 1)$, burada $J_{MH} = \frac{MH_1^0}{MH_0}$	9.2	29000× ×(36200:30000-1)	+5993
b) məhsulun çeşid strukturunun dəyişilməsi ($\Delta C_ç$)	$\sum_{i=1}^{n} q_{i_1} c_{i_0} - C_0 \times J_{MH}$	9.3	31800 – (29000 × × 36200 : 30000)	-3193
Material ehtiyatlarının qiymətlərinin və tariflərinin dəyişilməsi (ΔCQ_{ME})	ΔQ_{ME}	9.4	+500	+500
İstehsal ehtiyatları xərclərinin dəyişilməsi (ΔC_{EX})	$C_1 - \Delta Q_{ME} - -\sum q_{i1} c_{i0}$	9.5	42000 – 500 – – 31800	+9700
Yekun	$\Delta C_q + \Delta C_ç + +\Delta CQ_{ME} + \Delta C_{EX} = = C_1 - C_0$	9.6	42000 – 29000	+13000

Təqdim edilmiş misalda hesabat dövründə məhsulun maya dəyəri baza dövrü ilə müqayisədə 13000 min man. (42000 - 29000) artmışdır.

Xərclərin artmasına aşağıdakı amillər təsir göstərmişdir:

- məhsulun həcminin artması – 5993 min man.;

- bilavasitə xərclərin artması – 9700 min man. (bu israf müəssisədə istehsal ehtiyatlarından istifadənin pisləşməsini əks etdirir);
- material ehtiyatlarına qiymətlərinin və tariflərin yüksəlməsi - 500 min man.

Ümumiyyətlə yuxarıda sadalanmış bütün amillərin təsiri nəticəsində maya dəyəri 16193 min man. (5993 + 9700 + 500) artmışdır. Qiymətləndirmə üçün isə müəssisədə ehtiyatlardan istifadənin pisləşməsini əks etdirən israfın 9700 min manata bərabər məbləği qəbul edilir.

Məhsulun çeşid strukturunun əlverişli dəyişilməsi məhsulun maya dəyərinin 3193 min man. məbləğində aşağı düşməsinə səbəb olmuşdur. Bu o deməkdir ki, məhsulun ümumi həcmində fərdi baza xərclərinin səviyyəsi (bütün məhsul üzrə orta baza səviyyəsindən) aşağı olan məmulatların (iş və xidmətlərin) payı artmışdır.

9.1.4. Əmtəəlik məhsulun bir manatına düşən xərclərin amilli təhlili

Məhsulun həcminin bir manatına düşən xərc göstəricisi (X) bütün məhsulun (buraxılmış və ya satılmış) maya dəyərinin (MD) onun satış qiymətlərində ifadə edilmiş (dolayı vergilərsiz) həcminə (MH) nisbəti kimi hesablanır.

$$X = \frac{MD}{MH} = \frac{\sum_{i=1}^{n} q_i c_i}{\sum_{i=1}^{n} q_i p_i} \qquad (9.7)$$

Məhsulun ümumi həcminin bir manatına düşən xərc göstəricisi aşağıdakı üstünlüklərə malikdir:

- həm müqayisə edilən, həm də müqayisə edilməyən (yeni) məhsulun xərclərinin məcmu səviyyəsini ölçmək imkanı yaradır;
- nisbi göstərici olmaqla, dinamikada təhlil üçün yararlıdır;
- maya dəyərinin və mənfəətin təhlilinin nəticələrinin uyğunlaşmasını təmin edir;
- unversal göstəricidir və həm məcmu məhsul, həm də onun ayrı - ayrı növləri üzrə hesablana bilir.

Lakin məhsulun həcminin bir manatına düşən xərclərin dəyişilməsi yalnız bilavasitə xərclərin dəyişilməsindən deyil, həm də bir sıra digər amillərdən asılıdır. Bununla əlaqədar olaraq müvafiq amillər üzrə təhlil aparılmadan bu göstəricidən istifadə məhsulun maya dəyərinin dinamikasının (planın yerinə yetirilməsinin) düzgün qiymətləndirilməsini təmin edə bilməz.

Xərclərin səviyyəsinin dəyişilməsinə aşağıdakı amillər bilavasitə təsir göstərir:

- məhsulun çeşid strukturunun dəyişilməsi;
- istehsal ehtiyatlarından istifadənin səmərəliliyilə əlaqədar xərclərin dəyişilməsi;
- material ehtiyatlarının qiymətlərinin və tariflərinin dəyişilməsi;
- satış qiymətlərinin dəyişilməsi.

Bu amillərin məhsulun həcminin bir manatına düşən xərclərin dəyişilməsinə təsirinin zəncirvari yerdəyişmə üsulu ilə müəyyən edilməsi 9.3 cədvəlində, konkret hesablama nümunəsi isə – 9.4 cədvəlində verilmişdir.

Cədvəl 9.3

Amillərin məhsulun həcminin bir manatına düşən xərclərin dəyişilməsinə təsirinin zəncirvari yerdəyişmə üsulu ilə hesablanılmasının alqoritmi

Amillər (şərti işarələr)	Düsturlar	Düsturun sıra sayı
1	2	3
Məhsulun çeşid strukturunun dəyişilməsi ($\Delta X_ç$)	$\frac{\sum_{i=1}^{n} qi_1 c_{i0}}{\sum_{i=1}^{n} qi_1 p_{i0}} - \frac{\sum_{i=1}^{n} q_{i0} c_{i0}}{\sum_{i=1}^{n} q_{i_0} p_{i_0}}$	9.8
İstehsal ehtiyatları xərclərinin dəyişilməsi (ΔX_{IE})	$\frac{\sum_{i=1}^{n} qi_1 c_{i_1} - \Delta Q_{ME}}{\sum_{i=1}^{n} qi_1 p_{i0}} - \frac{\sum_{i=1}^{n} q_{i_1} c_{i0}}{\sum_{i=1}^{n} q_{i_1} p_{i_0}}$	9.9
Material ehtiyatlarının qiymətlərinin və tariflərinin dəyişilməsi (ΔXQ_{ME})	$\frac{\sum_{i=1}^{n} qi_1 c_{i1}}{\sum_{i=1}^{n} qi_1 p_{i0}} - \frac{\sum_{i=1}^{n} q_{i_1} c_{i1} - \Delta Q_{ME}}{\sum_{i=1}^{n} q_{i_1} p_{i_0}}$ və ya $\frac{\Delta Q_{ME}}{\sum_{i=1}^{n} q_{i_1} p_{i_0}}$	9.10
Satış qiymətlərinin dəyişilməsi (ΔXQ_{sat})	$\frac{\sum_{i=1}^{n} qi_1 c_{i1}}{\sum_{i=1}^{n} qi_1 p_{i_1}} - \frac{\sum_{i=1}^{n} q_{i_1} c_{i_1}}{\sum_{i=1}^{n} q_{i_1} p_{i_0}}$	9.11
Yekun ($\Delta X = \Delta X_ç + \Delta X_{İE} + \Delta XQ_{ME} + \Delta XQ_{sat}$)	$X_1 - X_0 = \frac{\sum_{i=1}^{n} q_{i_1} c_{i_1}}{\sum_{i=1}^{n} q_{i_1} p_{i_1}} - \frac{\sum_{i=1}^{n} q_{i_0} c_{i_0}}{\sum_{i=1}^{n} q_{i_0} p_{i_0}}$	9.12

Cədvəl 9.4

Məhsulun həcminin bir manatına düşən xərclərin dəyişilməsinin amillər üzrə təhlili

Göstəricilər	Sətrin sıra sayı	Baza dövrü	Baza məlumatları məhsulun hesabat həcminə hesablanmaqla	Hesabat dövrü		
				Məhsulun baza qiymətlərində və materialların hesabat qiymətlərində	Məhsulun və materialların baza qiymətlərində	Qüvvədə olan qiymətlərdə
1	2	3	4	5	6	7
Məhsulun həcmi, min man.	1	30000	36200	36200	36200	47060
Məhsulun tam maya dəyəri, min man.	2	29000	31800	41500	42000	42000
Məhsulun həcminin bir manatına düşən xərc, qəpik (sətr 2: sətir 1x100)	3	96,67	87,85	114,64	116,02	89,25

9.4 cədvəlində verilmiş məlumatlardan göründüyü kimi, məhsulun hər manatına xərclərin səviyyəsi 7,42 qəpik (89,25 - 96,67) aşağı düşmüşdür. Bu azalmaya ayrı-ayrı amillərin təsiri aşağıdakı kimi olmuşdur:

1) məhsulun çeşid strukturunun dəyişilməsi:
87,85 - 96,67 = -8,82 qəpik;
2) bilavasitə xərclərin dəyişilməsi
114,64 - 87,85 = +26,79 qəpik;
3) material ehtiyatlarının qiymətlərinin artması
116,02 - 114,64 = +1,38 qəpik;
4) məhsulun satış qiymətlərinin artması
89,25 - 116,02 = -26,77 qəpik;
5) yoxlama: -8,82 + 26,79 + 1,38 - 26,77 = -7,42 qəpik

Hesablamalar göstərir ki, xərclərin səviyyəsinin aşağı düşməsinə məhsulun çeşid strukturunun dəyişilməsi (-8,82 qəpik) və qiymətinin artması (-26,77 qəpik) müsbət təsir etmişdir.

Nəzərdən keçirilən göstəriciyə xərclərin səviyyəsinin yüksəlməsi (26,79 qəpik), habelə material ehtiyatlarının qiymətlərinin və tariflərinin yüksəlməsi (1,38 qəpik) mənfi təsir göstərmişdir. Məhsulun hər manatına hesablamada bilavasitə xərclərin 26,79 qəpik artması istehsal ehtiyatlarından istifadənin pisləşməsini, əməyin və idarə etmənin təşkilinin səmərəliliyinin aşağı düşməsini sübut edir. Müəssisədə yaranmış israf məhsulun qiymətlərinin artırılması, habelə daha faydalı məmulatların istehsalı hesabına, yəni fərdi baza xərclərinin kiçik səviyyəsilə kompensasiya edilmişdir.

Nəzərdən keçirilən amillərin mənfəətin məbləğinə təsirini müəyyən etmək üçün hər amil üzrə məhsulun bir manatına düşən xərclərdəki fərqləri baza dövrünün satış qiymətləri ilə məhsulun faktiki həcminə vurmaq, alınmış nəticələri əks işarə ilə götürmək lazımdır (cədvəl 9.5).

Cədvəl 9.5

Amillərin mənfəət məbləğinin dəyişilməsinə təsirinin hesablanılması

Amillər	Sətrin sıra sayı	Maya dəyərinə təsirin hesablanması, min man.	Mənfəətə təsir, min man. (+,-)
Məhsulun çeşid strukturunun dəyişilməsi	1	-8,82×36200:100=-3192,8	+3193
İstehsal xərclərinin səviyyəsinin dəyişilməsi	2	26,79×36200:100=9698	-9700
Material ehtiyatlarının qiymətlərinin və tariflərinin artması	3	1,38×36200:100=499,6	-500
Satış qiymətlərinin artması	4	-26,77×36200:100=-9690,7	+9691
Yekun	5	-7,42×36200:100=-2686	+2686

Qeydlər. 1. Sətrin sıra sayı hər amilin təsirinin və onların yekun nəticəsinin 9.4 cədvəlindən sonra aparılmış hesablanma zamanı sıralanmaya uyğundur.

2. Bu misalda məhsulun buraxılışının və onun satışının həcminin məbləğləri eyni qəbul edilmişdir.

Təqdim edilmiş hesablamalardan görünür ki, mənfəətin artmasına satış qiymətlərinin artması və realizə olunan məhsulun tərkibində faydalı struktur dəyişiklikləri müsbət təsir göstərmişdir. Mənfəətin azalmasına material ehtiyatlarının qiymətlərinin bahalanması və istehsal ehtiyatlarına xərclərin səviyyəsinin yüksəlməsi təsir etmişdir.

Qeyd etmək lazımdır ki, məhsulun maya dəyərinin amilli təhlilinin 9.1.3 və 9.1.4 - də təqdim edilmiş metodikasından əməli surətdə (praktik olaraq) istifadə edilməsi zəruri informasiyanın olmaması səbəbindən çətinləşir. Bir çox müəssisələrdə məhsul istehsalının (satışının) ikili qiymətdə – hesabat və baza dövrlərinin qüvvədə olan qiymətlərində uçotu aparılmır. Həmçinin məhsulun ayrı-ayrı növlərinin hesabat və plan kalkulyasiyaları da olmur. Bununla əlaqədar olaraq maya dəyərinin amilli təhlili adətən istehsal xərclərinin tərkibinin elementlər üzrə təhlilindən ibarət olur.

9.2. İstehsal ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsinin məhsulun maya dəyərinə təsirinin təhlili

Maya dəyəri və istehsal ehtiyatlarından istifadə edilməsinin səmərəliliyinin qarşılıqlı əlaqəsi məhsulun həcminin bir manatına düşən xərc göstəricisinin xərc elementləri üzrə paylanması vasitəsilə müəyyən edilir.

Məhsulun (iş və xidmətlərin) istehsal xərclərinin uçotu üzrə Metodik göstərişlərin layihəsinə uyğun olaraq xərclərin elementlər üzrə qruplaşdırılması müəssisənin fəaliyyətinin müvafiq keyfiyyət göstəricilərinin planlaşdırılması və onlara nəzarət edilməsi, bütövlükdə hesabat dövründə təyinatından və istiqamətlərindən asılı olmayaraq material, əmək və pul ehtiyatlarından istifadənin həcminin müəyyən edilməsi, hesabat dövründə adi fəaliyyət növləri üzrə maliyyə nəticəsinin hesablanması məqsədlərilə həyata keçirilir.

Hər bir xərc elementi onun iqtisadi məzmununu səciyyələndirir. Elementlərin siyahısı nümunəvidir və MUƏ-də "Təşkilatın xərcləri" ilə müəyyən edilir:

- material xərcləri (MX);
- əmək haqqı xərcləri (ƏHX);
- sosial ehtiyaclara ayırmalar (SEA);
- amortizasiya (A);
- digər xərclər (DX).

Xərclərin elementlər üzrə qruplaşdırılmasının analitik əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- istehsal xərclərinin strukturunun təhlili, məhsulun material, fond və əmək tutumlarının onun maya dəyərinə təsirinin müəyyən edilməsi üçün bu qruplaşmadan istifadə edilir;
- o, biznes - planın və hesabatların müxtəlif bölmələrinin, məsələn, maya dəyəri bölməsinin gəlirlər və xərclər balansı ilə, əmək və mənfəət bölmələri ilə, istehsal proqramı ilə uyğunlaşdırılmasına xidmət edir;
- istehsal ehtiyatlarına, əmək ehtiyatlarına, əsas fondlara tələbatın müəyyən edilməsi üçün əsasdır;
- dövriyyə vəsaitlərinin dövr etməsinin xüsusi göstəricilərinin hesablanması üçün istifadə edilir.

Məhsulun həcminin bir manatına düşən xərclərin istehsal ehtiyatlarından istifadənin səmərəliliyi göstəricilərilə qarşılıqlı əlaqəsi məhsulun həcminin bir manatına düşən xərclərin ümumi göstəricisinin aşağıdakı additiv model şəklində təqdim edilməsi vasitəsilə ifadə olunur:

$$X = \frac{MD}{MH} = \frac{MX}{MH} + \frac{ƏHX + SEA}{MH} + \frac{A}{MH} + \frac{DX}{MH} \qquad (9.13)$$

Burada birinci toplanan amil məhsulun material tutumudur (m), ikinci – məhsulun əmək haqqı tutumudur (vahid sosial vergilə birlikdə((p), üçüncü – məhsulun amortizasiya tutumudur (a) və dördüncü – məhsulun bir manatına düşən digər xüsusi xərclərdir (dx).

Additiv, modellərin əsas xassəsinə uyğun olaraq hər amilin təhlil edilən göstəricinin dəyişilməsinə təsiri həmin amilin özünün baza qiymətinə nisbətən dəyişilməsinə bərabərdir:

$$\Delta X = \Delta m + \Delta p + \Delta a + \Delta dx \qquad (9.14)$$

Bu amillərin bütün maya dəyərinin, deməli, mənfəətin də, qənaət (israf) məbləğinə təsirinin ölçüsünü müəyyən etmək üçün hər amilin hesabına xüsusi xərclərin dəyişilməsini məhsulun baza qiymətlərində ifadə edilmiş hesabat həcminə (MH_1^0) vurmaq lazımdır:

Bütün maya dəyəri üzrə Qən (İsr) = $\Delta X \times MH_1^0$,

o cümlədən aşağıdakıların dəyişilməsi hesabına:

məhsulun material tutumunun

$$Qən(İsr)_m = \Delta m \times MH_1^0; \qquad (9.15)$$

məhsulun əmək haqqı tutumunun

$$Qən(İsr)_p = \Delta p \times MH_1^0; \qquad (9.16)$$

amortizasiya tutumu

$$Qən(İsr)_a = \Delta a \times MH_1^0; \qquad (9.17)$$

digər xüsusi xərclər hesabına

$$Qən(İsr)_{dx} = \Delta dx \times MH_1^0. \qquad (9.18)$$

Təhlilin aparılması üçün ilkin informasiya statistika hesabatının 1İF saylı formasında, müəssisə balansına əlavə 5 saylı formasında "Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat" adlı 2 saylı formada ehtiva edilir.

Xatırladırıq ki, bu fəsildə məhsul buraxılışı və satışının həcmlərinin bərabər hesab edilməsi qəbul olunmuşdur. Bundan əlavə, şərtləşək ki, bu müəssisədə məhsulun maya dəyəri və istehsal xərcləri üst-üstə düşür.

Həqiqətdə məhsulun maya dəyəri və istehsal xərcləri arasında qarşılıqlı əlaqə aşağıdakı düsturun köməyilə ifadə edilir:

Məhsulun maya dəyəri = istehsal xərcləri minus bitməmiş istehsalın, öz istehsalı olan yarımfabrikatların və alətlərin qalıqlarının artımı (plyus azalması) plyus "Gələcək dövrlərin ehtiyatları" hesabı üzrə qalıqların artımı (minus azalması) minus "Gələcək dövrlərin xərcləri" hesabı üzrə qalıqların artımı (plyus azalması).

Nəzərdən keçirilən metodika üzrə analitik hesablamalar 9.6 və 9.7 cədvəllərində yerinə yetirilmişdir.

9.6 cədvəlinin məlumatlarından görünür ki, məhsulun həcminin bir manatına düşən xərclər hesabat dövründə baza dövrü ilə müqayisədə bütövlükdə 19,36 qəpik, o cümlədən məhsulun material tutumunun yüksəlməsi hesabına 13,83 qəpik və əmək haqqı tutumunun artması hesabına 10,02 qəpik artmışdır. Xüsusi xərclərin azalmasına amortizasiya tutumunun 2,18 və məhsulun bir manatına düşən digər xərclərin 2,32 qəpik azalması təsir etmişdir.

Cədvəl 9.6

Məhsulun həcminin bir manatına düşən xərclərin iqtisadi elementlər üzrə təhlili

Göstəricilər	Sətrin sıra sayı	Baza dövrü	Hesabat dövrü	Dəyişilmə (+, -)
İstehsal xərcləri, cəmi, min man.	1	29000	42000	x
O cümlədən:				
a) material xərcləri	2	19800	28900	x
b) əməyin ödənilməsi xərcləri (sosial ehtiyaclara ayırmalarla birlikdə)	3	5200	9900	x
c) əsas fondların amortizasiyası	4	2520	2250	x
ç) digər xərclər	5	1480	950	x
Məhsulun həcmi, baza dövrünün qiymətlərində, min man.	6	30000	36200	x
Məhsulun bir manatına düşən xərclər, cəmi, qəpik (sət. 1: sət. 6 x 100)	7	96,67	116,02	+19,35
O cümlədən:				
a) məhsulun material tutumu (sət. 2 : sət. 6 x 100)	8	66,0	79,83	+13,83
b) məhsulun əmək haqqı tutumu (sət. 3 : sət. 6 x 100)	9	17,33	27,35	+10,02
c) məhsulun amortizasiya tutumu (sət. 4 : sət. 6 x 100)	10	8,40	6,22	-2,18
ç) digər xüsusi xərclər (sət. 5 : sət. 6 x x100) və ya (sət. 7 – sət. 8 – sət. 9 – - sət. 10)	11	4,94	2,62	-2,32

Cədvəl 9.7

İstehsal ehtiyatlarından istifadənin səmərəliliyinin məhsulun maya dəyərinin və mənfəətin dəyişilməsinə təsiri

Amillər	Sətrin sıra sayı	Məhsulun həcminin bir manatına düşən xərclərin dəyişilməsi, qəpik (9.6 cədvəlinə baxın)	Tam maya dəyərinin dəyişilməsi, min man.		Məhsulun dəyişilməsi, min man.
			Hesablama	Nəticə (+,-)	
Məhsulun material tutumunun dəyişməsi	1	+13,83	$+13,83\times\frac{36200}{100}$	+5006,5	-5006,5
Məhsulun əmək haqqı tutumunun dəyişməsi	2	+10,02	$+10,02\times\frac{36200}{100}$	+3627,2	-3627,2
Məhsulun amortizasiya tutumunun dəyişməsi	3	-2,18	$-2,18\times\frac{36200}{100}$	-789,2	+789,2
Digər xüsusi xərclərin dəyişməsi	4	-2,32	$-2,32\times\frac{36200}{100}$	-839,8	+839,8
Yekun	5	+19,35	$+19,35\times\frac{36200}{100}$	+7004,7	-7004,7

Ümumiyyətlə, təşkilatda ehtiyatlardan istifadənin pisləşməsi hesabına, əsas etibarilə, məhsulun material və əmək haqqı tutumlarının artması nəticəsində, mənfəətin məbləği 7004,7 min manat azalmışdır. Bu halda material və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi mənfəətin artırılması üçün ən əsas ehtiyatlardır. Lakin bu məhsulun maya dəyərinin aşağı salınması ehtiyatları kimi məhsulun amortizasiya tutumunun və onun həcminin bir manatına düşən digər xərclərin azalmasının rolunu inkar etmir. Onlar müsbət amillərin təsirilə pərdələnmişdir, örtülmüşdür və həmin

müsbət nəticələri əlavə, daha ətraflı təhlil aparmaqla müəyyən etmək mümkündür.

Sonrakı bölmələrdə ikinci qəbildən olan amillərin məhsulun material, əmək haqqı və amortizasiya tutumlarına təsirinin aydınlaşdırılması metodikasını nəzərdən keçirəcəyik.

Məhsulun material tutumunun dəyişilməsi amillərinin təfsilatı

Material xərclərinin bircinsli olmayan tərkibini və məhsulun maya dəyərində ayrı-ayrı material ehtiyatlarının rolunun eyni olmamasını nəzərə alaraq material tutumunun ümumi dəyişilməsini onu təşkil edən xüsusi göstəricilərin dəyişilmələri üzrə öyrənmək lazımdır:

$$m = \frac{MX}{MH} = \frac{XM}{MH} + \frac{KM}{MH} + \frac{Y}{MH} + \frac{E}{MH} \qquad (9.19)$$

Burada toplananlar ardıcıl olaraq material tutumunun tərkib elementlərini: xammal və materiallar (XM), kompleksləşdirici məmulatlar və yarımfabrikatlar (KM), yanacaq (Y) və enerji (E) tutumunu əks etdirir.

(9.19) düsturu material tutumu göstəricisi ilə amillər arasında additiv asılılığı səciyyələndirir. Deməli, hər amilin nəzərdən keçirilən göstəricinin dəyişilməsinə təsiri həmin amilin özünün baza qiymətinə nisbətən dəyişilməsinə bərabərdir:

$$\Delta m = \Delta m_{XM} + \Delta m_{KM} + \Delta m_{Y} + \Delta m_{E} \qquad (9.20)$$

Məhsulun material tutumunun amillər üzrə təhlili yuxarıda təqdim edilmiş metodika üzrə həyata keçirilir. Təhlilin informasiya mənbələri kimi məhsulun maya dəyərinin kalkulyasiyalarında yaxud müvafiq statistika hesabatında verilən material xərcləri üzrə açıqlamalardan istifadə edilir.

Məhsulun material tutumunun xüsusi göstəricilərinin hər birinin dəyişilməsini (xüsusilə onlar artdığı halda) şərtləndirən amillər diqqətlə öyrənilməlidir. Məsələn, məhsulun enerji tutumu enerji ehtiyatlarının qiymətlərinin və tariflərinin artması, enerjidən səmərəsiz istifadə edilməsi, məhsulun tərkibində enerji tutumlu məmulatların payının yüksəlməsi nəticəsində arta bilər. Qeyd etmək lazımdır ki, məhsulun yanacaq və enerji tutumunun təhlili bu ehtiyatların xüsusiyyətlərilə əlaqədar spesifikaya malikdir və texniki - iqtisadi xarakter daşıyır.

Məhsulun əmək haqqı tutumunun dəyişilməsi amillərin təfsilatı

Məhsulun əmək haqqı tutumu məhsulun həcminin bir manatına düşən xərclər göstəricisinin çox mühüm tərkib hissəsidir:

$$p = \frac{\text{ƏHX} + \text{SEA}}{\text{MH}} \qquad (9.21)$$

Amillər sisteminin genişləndirilməsi metodundan istifadə edərək, (9.21) düsturunda surəti və məxrəci şəxsi heyətin orta sayına (ŞH) vuraq:

$$p = \frac{\text{ƏHX} + \text{SEA}}{\text{MH}} \times \frac{\text{ŞHS}}{\text{ŞHS}} = \frac{\text{ŞHS}}{\text{MH}} \times \frac{\text{ƏHX} + \text{SEA}}{\text{ŞHS}} = \overline{\text{ət}} \times \overline{\text{əh}} \qquad (9.22)$$

(9.22) düsturu iki amilli multiplikativ modeldir. Burada birinci toplanan – amil məhsulun orta əmək tutumunu ($\overline{\text{ət}}$), ikinci – dövr ərzində bir işçinin orta əmək haqqını ($\overline{\text{əh}}$) səciyyələndirir (sosial ehtiyaclara ayırmaları nəzərə almaqla).

Məhsulun əmək tutumu məhsul vahidinə əmək sərflərilə ifadə edilir, onlar isə öz növbəsində bütün şəxsi heyətin sayı ilə, fəhlələr tərəfindən işlənmiş adam – günlərin və ya adam – saatların miqdarı ilə müəyyən edilə bilər. Bu zaman bütün şəxsi heyətin sayı əməyin

tam sərfini əks etdirir, lakin belə əmək tutumu göstəricisi iş vaxtından istifadə edilməsini (vaxtından artıq işlənmiş saatları yaxud, əksinə, iş vaxtının itirilməsini) nəzərə almır. Məhsulun əmək tutumu adam – günlərlə və adam – saatlarla daha dəqiq ölçülür.

Məhsulun əmək haqqı tutumunun dəyişilməsinə amillərin təsirinin yuxarıda təqdim edilmiş model üzrə müəyyən edilməsi məsələsi istənilən eliminasiya (kənarlaşdırma) üsulu ilə həll edilir. Şəxsi heyətin sayı haqqında məlumatlar müvafiq statistika hesabatından götürülür.

9.6 cədvəlində verilmiş misalda məhsulun həcminin bir manatına düşən əmək haqqı 10,02 qəpik artmışdır. Deməli, bu müəssisədə əmək haqqının artım tempi bir işçinin orta əmək haqqının artım tempindən geri qalmışdır. Təhlil prosesində həmin faktın səbəblərini aydınlaşdırmaq lazımdır. Məsələn, əmək məhsuldarlığına aşağıdakı amillər mənfi təsir göstərə bilər: şəxsi heyətin tərkibində fəhlələrin xüsusi çəksinin azalması; dövr ərzində bir işçi tərəfindən işlənmiş günlərin sayının və (və ya) növbənin uzunluğunun azalması; orta saatlıq istehsalın aşağı düşməsi. Öz növbəsində bütövlükdə müəssisə üzrə orta əmək haqqı səviyyəsi şəxsi heyətin strukturundan və işləyənlərin hər kateqoriyasının orta əmək haqqından asılıdır.

Məhsulun amortizasiya tutumunun dəyişilməsi amillərinin təfsilatı

Məhsulun bir manatına düşən xərclərin mühüm tərkib elementlərindən biri məhsulun amortizasiya tutumudur.

$$a = \frac{A}{MH} \qquad (9.23)$$

Amillər sisteminin genişləndirilməsi metodundan istifadə edərək (9.23) düsturunda surəti və məxrəci əsas istehsal fondlarının orta illik dəyəri ($\overline{\text{ƏİF}}$) göstəricisinə vuraq. Nəticədə iki amilli multiplikativ model alırıq

$$a = \frac{A \times \overline{\text{ƏİF}}}{MH \times \overline{\text{ƏİF}}} = \frac{A}{\overline{\text{ƏİF}}} \times \frac{\overline{\text{ƏİF}}}{\text{MH}} = \bar{a}_n \times f, \qquad (9.24)$$

burada $\bar{a}_n$ – orta amortizasiya normasıdır; f - məhsulun fond tutumu əmsalıdır.

Təqdim edilmiş amillər üzrə model eliminasiya (kənarlaşdırma) üsullarının köməyilə asan həll edilir. Bu halda nəzərə almaq lazımdır ki, orta amortizasiya norması əsas vəsaitlərin tərkibində baha qiymətli obyektlərin payının dəyişilməsi nəticəsində, habelə yeni istismara verilmiş obyektlər üzrə amortizasiya hesablanması metodundan asılı olaraq dəyişilə bilər. Məhsulun fond tutumunun artması fond veriminin aşağı düşməsi, yəni əsas fondlardan istifadənin pisləşməsi deməkdir. Sonuncu istehsal güclərindən qeyri - qənaətbəxş istifadə edilməsi, avadanlığın məhsuldarlığının aşağı düşməsi, onun iş növbəliliyinin azalması, əsas fondların ümumi həcmində aktiv hissəsinin payının azalması ilə izah edilə bilər.

Ehtiyatlardan istifadənin səmərəliliyinin məhsulun maya dəyərinə təsirinin şərh edilmiş metodika üzrə təhlili həmin göstəricilərin aşağı salınmasının və müvafiq olaraq məhsulun material, fond və əmək tutumunun azaldılması hesabına mənfəətin artırılmasının gizli ehtiyatlarını aşkar etmək imkanı yaradır.

9.3. Məhsulun maya dəyərinin xərc maddələri üzrə təhlili

Məhsulun maya dəyərinin idarə edilməsi, xərclərin analitik uçotunun və maya dəyərinin kalkulyasiya edilməsinin təşkili xərclərin kalkulyasiya maddələri üzrə qruplaşdırılması ilə əlaqədardır. Maddələrin siyahısını təşkilat müstəqil müəyyən edir. Belə qruplaşdırmanın məqsədi ayrı-ayrı məmulat növlərinin faktiki istehsal və satış xərclərinin aydınlaşdırılması, bütün məhsul buraxılışının faktiki maya dəyərinin müəyyən edilməsi üçün, habelə xərclərin planlaşdırılması (proqnozlaşdırılması) üçün zəruri informasiya formalaşdırmaqdan ibarətdir.

Xərclərin kalkulyasiya maddələri üzrə qruplaşmasının əsasını onların məqsədli təyinatı: yaranma yeri, xərclərin daşıyıcısı – məhsulun (qrupun) konkret növü və s. üzrə xərclərin iqtisadi cəhətdən bircinsliliyi təşkil edir.

Sənaye məhsulları istehsal edən müəssisələr üçün məhsulun (iş və xidmətlərin) istehsalına xərclərin uçotu üzrə Metodik göstərişlərdə xərc maddələrinin aşağıdakı təsnifatı tövsiyə edilir.

1. Xammal və materiallar.
2. Qaytarılan tullantılar (çıxılır).
3. Kənardan alınan komplekslaşdirici məmulatlar, yarımfabrikatlar və kənar təşkilatların istehsal xarakterli xidmətləri.
4. Texnoloji məqsədlər üçün yanacaq və enerji.
5. Məhsul istehsalında bilavasitə iştirak edən işçilərin əməyinin ödənilməsi xərcləri.
6. Sosial ehtiyaclara ayırmalar.
7. İstehsalın hazırlanması və mənimsənilməsi üçün xərclər.
8. Ümumistehsal xərcləri.
9. Ümumtəsərrüfat xərcləri.
10. Zay məhsulla əlaqədar itkilər.
11. Digər istehsal xərcləri.
12. Satış xərcləri.

Kalkulyasiyanın ilk 11 maddəsi istehsal maya dəyərini yaradır. Məhsulun tam maya dəyəri istehsal maya dəyəri və satış xərclərinin cəmidir.

Məhsulun ayrı-ayrı növlərinin maya dəyərinə aid edilməsi əlamətinə görə xərclər birbaşa və dolayı xərclərə bölünür. *Birbaşa xərclər* – məhsulun konkret növlərinin maya dəyərinə birbaşa və bilavasitə aid edilə bilən xərclərdir. Onlara 1-4 maddələrinə daxil olan material xərcləri, habelə istehsal prosesində bilavasitə iştirak edən işçilərin əmək haqqı (5 və 6-cı maddələr) aid edilir.

Dolayı xərclər dedikdə məhsulun müvafiq növləri üzrə xərclərə bilavasitə daxil edilməsi mümkün olmayan və onlar üzrə təşkilatın müəyyən etdiyi xüsusi metodların köməyilə bölüşdürülən xərclər başa düşülür. Belələrinə, bir qayda olaraq, istehsalın və bütövlükdə

təşkilatın idarə edilməsi və ona xidmət edilməsi ilə əlaqədar olan xərclər aiddir.

Yuxarıda təqdim edilmiş nomenklaturaya uyğun olaraq 7-12-ci maddələr üzrə xərclər dolayı xərclər hesab edilə bilər, hərçənd məhsulun istehsalına və satışına xidmət edilməsilə və onların idarə edilməsilə əlaqədar olan xərclərin bir hissəsi konkret məhsul növlərinə bilavasitə aid edilə, yəni birbaşa xərclər ola bilər.

Birbaşa xərclər, əsas etibarilə, bir elementlidir, dolayı xərclər isə kompleks maddələrdən ibarətdir, yəni bir neçə elementləri: materialları, əmək haqqını, amortizasiyanı və s. əhatə edir.

Xərclərin nəzərdən keçirilən təsnifatının analitik dəyəri aşağıdakılardan ibarətdir. O, bütövlükdə məhsul üzrə maya dəyərinin təhlilinin nəticələrini xərclərin yaranması yerləri və məlumatların növləri üzrə fərqləndirmək, yəni nəticələri xərclərlə uyğunlaşdırmaq imkanı yaradır. Sonuncu xərclərin səviyyəsinə nəzarət edilməsi, onlara qənaət edilməsi ehtiyatlarının daha tam aşkar edilməsi üçün və bütövlükdə maya dəyərinin idarə edilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Kalkulyasiya maddələri üzrə xərclərin təhlili zamanı əvvəlcə hesabat dövründə xərclərin faktiki məbləğinin (MD_1) hər məmulat üzrə hesabat dövründə məhsulun həcminə və çeşidinə görə yenidən hesablanmış baza dövrünün göstəricisindən kənarlaşma müəyyən edilir (9.8 cədvəlinə baxın):

$$\Delta MD = MD_1 - \Delta Q_{ME} - \sum q_{i_1} C_{i_0} \qquad (9.25)$$

Bu zaman hesabat dövrünün faktiki xərcləri əvvəldən material ehtiyatlarının qiymətlərinin və tariflərinin yüksəlməsi məbləğində (ΔQ_{ME}) təshih edilir. Belə təhlilə şərti misal 9.8 cədvəlində verilmişdir.

Kənarlaşmalar mütləq məbləğdə və məhsulun hesabat dövründəki həcminin tam baza maya dəyərinə nisbətdə faizlərlə ifadə olunur. Sonuncu hər maddə üzrə xərclərin məhsulun hesabat maya dəyərinin onun baza ölçüsü ilə müqayisədə dəyişilməsində iştirak payını səciyyələndirir.

Cədvəl 9.8

Kalkulyasiya maddələri üzrə məhsulun maya dəyərinin təhlili, min man.

Kalkulyasiya maddələri	Sətrin sıra sayı	Məhsulun hesabat həcmi və çeşidi üzrə maya dəyəri		Kənarlaşma (+, -)	
		Baza kalkulyasiyası üzrə	Hesabat kalkulyasiyası üzrə	Məbləğ (qr. 4 – qr. 3)	Tam baza maya dəyərinə nisbətən faizlə (qr. 6 = qr. 5: : sətir 16 qr. 3 x 100)
1	2	3	4	5	6
Xammal və materiallar	1	16000	21340	+5340	+16,79
Qaytarılan tullantılar (-)	2	240	350	+110	+0,34
Kənardan alınan məmulatlar, yarımfabrikatlar və xidmətlər	3	-	-	-	-
Texnoloji məqsədlər üçün yanacaq və enerji	4	6080	7960	+1880	+5,91
Material xərclərinin cəmi (sətir 1 - sətir 2+ sətir 3 + sətir 4)	5	21840	28950	+7110	+22,36
Əməyin ödənilməsi xərcləri	6	4670	7030	+2360	+7,42
Sosial ehtiyaclara ayırmalar	7	1640	2420	+780	+2,45
Əmək haqqı, cəmi (sətir 6 + sətir 7)	8	6310	9450	+3140	+9,87
Ümumistehsal xərcləri	9	1600	1700	+100	+0,31
Ümumtəsərrüfat xərcləri	10	1000	1020	+20	+0,07
İstehsala xidmət edilməsi və idarəetmə üzrə xərclərin cəmi (sətir 9 + sətir 10)	11	2600	2720	+120	+0,38
Zay məhsula görə itkilər	12	150	200	+50	+0,16
Digər istehsal xərcləri	13	-	-	-	-
Məhsulun istehsal maya dəyəri (sətir 5+ sətir 8+ + sətir 11+ sətir 12 + sətir 13)	14	30900	41320	+10420	+32,77
Satış xərcləri	15	900	680	-220	-0,69
Məhsulun tam maya dəyəri (sətir 14+sətir 15)	16	31800	42000	+10200	+32,08

Təqdim edilmiş misalda məhsulun tam maya dəyəri 10200 min manat, yaxud 32,08% artmışdır. Bu artıma əsasən birbaşa material xərclərinin 7110 min manat artması təsir göstərmişdir. Lakin qiymətlərin yüksəlməsi hesabına materialların bahalanmasını həmin

məbləğdən çıxsaq, onda material xərclərinin artımı 6610 min manat təşkil edəcəkdir. Əhəmiyyətinə görə maya dəyərinin artmasına təsir edən növbəti amillərə əmək haqqı xərclərinin artması (+3140 min manat), istehsala xidmət və onun idarə edilməsi xərclərinin artması (+120 min manat), zay məhsula görə itkilərin artımı (50 min manat) aiddir. Əgər həmin təşkilatda zay məhsul olmamışdırsa, onda hesabat dövründə zay məhsula görə 200 min manat məbləğində itki məhsulun maya dəyərinin aşağı salınması ehtiyatlarına aid edilməlidir.

Yalnız satış xərclərinə 220 min manat qənaət edilmişdir və bu, məhsulun tam maya dəyərini 0,69% aşağı salmışdır. Ola bilər ki, təşkilat məhsulun alıcıya çatdırılmasının daha ucuz variantını tapmışdır, yaxud reklam xərclərini azaltmışdır.

Bütün kənarlaşmaların konkret səbəbləri yalnız ayrı-ayrı məhsul növlərinin maya dəyərinin kalkulyasiya maddələri üzrə müfəssəl təhlili nəticəsində müəyyən oluna bilər.

9.3.1. Material xərclərinin təhlili

İstehsal xərclərinin strukturunda material xərcləri, bir qayda olaraq, ən böyük xüsusi çəkiyə malik olur.

Məhsulun maya dəyərinin kalkulyasiyasında material xərclərinin bir hissəsi: xammal və materiallar (qaytarılan tullantılar çıxılmaqla); kənardan alınan məmulatlar, yarımfabrikatlar və kənar təşkilatların xidmətləri; texnoloji məqsədlər üçün yanacaq və enerji müstəqil maddələrə ayrılır (9.8 cədvəlinə baxın). Artıq qeyd edildiyi kimi, onlar birbaşa material xərcləridir.

Material xərclərinin istehsala xidmət edilməsi və onun idarə olunması ilə əlaqədar digər hissəsi kalkulyasiyada ayrılmır. Onlar kompleks maddələrin: ümumistehsal xərclərinin, ümumtəsərrüfat xərclərinin, satış xərclərinin və bir sıra digərlərinin tərkibinə daxil olur. Belə material xərclərinin təhlili xərclərin göstərilmiş kompleks maddələrinin tərkibində həyata keçirilir.

Birbaşa material xərclərinin təhlili metodikasını nəzərdən keçirək. O, əsas etibarilə, istifadə edilən materialların növü, istehsalın texnologiyası və təşkili ilə müəyyən edilir. Lakin əksəriyyət hallarda

material xərclərinin dəyişilməsi amillərini şərti olaraq iki qrupa bölmək olar: I – materialların miqdarca sərfini əks etdirən amillər (norma amilləri), II - onların tədarükü dəyərini müəyyən edən amillər (qiymət amilləri).

Hər qrupun material xərclərinin dəyişilməsinə təsirini şərti kəmiyyətin köməyilə tapmaq olar. O, belə suala cavab vermək imkanı yaradır: sərf olunmuş materialların faktiki həcmi və onların tədarükünün baza (plan üzrə yaxud əvvəlki dövr ərzində faktiki) dəyəri şəraitində material xərclərinin məbləği necə olardı? Amillərin I qrupunun təsirini material xərclərinin şərti məbləğindən ($MX_{şərti}$) baza məbləğini (MX_0) çıxmaqla, II qrupun təsirini – material xərclərinin faktiki məbləğindən (MX_1) onun şərti məbləğini ($MX_{şərti}$) çıxmaq yolu ilə müəyyən etmək olar (cədvəl 9.9).

Cədvəl 9.9

Material xərclərinin dəyişilməsinə amillərin təsirinin hesablanılması

Material xərcləri (MX)	Amillər		Hesablama düsturu
	Materialların miqdarca sərfi (K_i)	Material vahidinin tədarükünün dəyəri (S_i)	
Baza	Baza	Baza	$MX_0 = \sum_{i=1}^{n} Ki_0 \times Si_0$
Şərti hesablanmış	Hesabat	Baza	$MX_{şərti} = \sum_{i=1}^{n} Ki_1 \times Si_0$
Hesabat	Hesabat	Hesabat	$MX_1 = \sum_{i=1}^{n} Ki_1 \times Si_1$
MX-nin dəyişilməsi	$MX_{şərti}-MX_0$	$MX_1-MX_{şərti}$	$\Delta MX=MX_1-MX_0$

Qeyd. Burada n-həmin məhsulun istehsalında istifadə olunmuş material növlərinin miqdarıdır; $i = 1,\ldots,n$.

Təhlilin aparılması üçün məlumatlar ayrı-ayrı məmulatların maya dəyərinin hesabat kalkulyasiyalarından (onlarda material xərclərinin açıqlanması olduqda) götürülür (cədvəl 9.10).

Cədvəl 9.10

X məmulatı üzrə kalkulyasiyadan çıxarış

Materialların növləri	Baza kalkulyasiyası üzrə			Faktiki kalkulyasiya üzrə		
	Məmulat vahidinə material sərfinin miqdarı	Material vahidinin dəyəri, man.	Məbləğ, man. (qr.2×qr.3)	Məmulat vahidinə material sərfinin miqdarı	Material vahidinin dəyəri, man.	Məbləğ, man. (qr 5×qr6)
1	2	3	4	5	6	7
A	3 (kq)	100	300	2 (kq)	120	240
B	1,5 (m)	40	60	-	-	-
C	-	-	-	1,2 (m)	45	54
Bir məmulat üçün cəmi	x	x	360	x	x	294
Hesabat dövründə məmulat buraxılışı	x	x	x	500 (ədəd)	x	x

Təcrübədə bəzi materialların digərlərilə əvəz edilməsi halları çox olur. Bizim misalda B materialı C materialı ilə əvəz edilmişdir. Bu halda yalnız materialların miqdarı deyil, həm də dəyəri dəyişilmişdir. Əvəz edilmənin nəticəsi iki kəmiyyətin toplanması ilə müəyyən edilir. Əvəz edən və əvəz edilən materialın sərfi miqdarının fərqini əvəz edilənin qiymətinə vurmaq, sonra onların qiymətlərinin fərqini əvəz edənin sərfi miqdarına vurmaq, bundan sonra isə alınmış məbləğləri toplamaq lazımdır.

Material xərclərinin amillər üzrə təhlili 9.11 cədvəlində göstərilmişdir. Bu məmulatın bütün buraxılışı üzrə material xərclərinin dəyişilməsinə amillərin təsiri məmulat vahidinə düşən amillər üzrə fərqlərin onun hesabat dövründə faktiki buraxılışına vurulması yolu ilə hesablanmışdır.


Cədvəl 9.11

Material xərclərinin dəyişilməsinə amillərin təsirinin hesablanılması

Amillər	Sətrin sıra sayı	Bir məmulata, man. (qənaət «-», israf «+»)	Bütün buraxılışa, man. (qənaət «-», israf (artım) «+»)
A materialının sərfi miqdarının dəyişilməsi	1	2×100 –300 = -100	-100×500 : 1000 =-50
A materialının tədarük dəyərinin dəyişilməsi	2	120×2 – 100 = +40	40×500 : 1000 =+20
B materialının C materialı ilə əvəz edilməsi: a) miqdarın dəyişilməsi b) tədarük dəyərinin dəyişilməsi	 3 4	 (1,2-1,5)×40 = -12 (45-40)×1,2 = +6 } = –6	 -6×500 : 1000 =-3
Yekun	5	294 -360=-66	-66×500 : 1000 = -33

Nəzərdən keçirilən misalda məmulat üzrə material xərclərinin qənaəti sərf edilən A materialının miqdarının azalması və səmərəli əvəz edilmə hesabına əldə edilmişdir, onların artması (israfı) isə A materialının tədarük dəyərinin yüksəlməsilə əlaqədardır.

Təhlilin sonrakı mərhələsində baş vermiş kənarlaşmaların səbəbləri müəyyən edilir. Məsələn, sərf edilən materialların miqdarı normaların dəyişilməsi və normalardan kənarlaşma amillərilə müəyyən edilir, onlar da öz növbəsində 9.2 sxemində təqdim edilmiş növbəti qəbildən olan amillər üzrə təfsilatlanırlar.



Sxem 9.2. ***Materialların sərfi miqdarının dəyişilməsi amillərinin sxemi***

Belə təhlil istehsal xərclərinin normativ uçotu metodu tətbiq edildikdə daha yaxşı nəticələr verir. Bu zaman sistemli mühasibat uçotunda materialların sərfi normalarının və materialların növlərinin dəyişilməsi, bu dəyişilməni yaradan səbəblər üzrə normadan kənarlaşmaları təsbit edilir.

Amillərin II qrupu – materialların tədarük dəyərinin dəyişilməsi də diqqətlə öyrənilməlidir.

MUHP-nın İstehsal ehtiyatları bölməsinə «Materiallar» uyğun olaraq material ehtiyatları mühasibat uçotuna faktiki maya dəyərilə qəbul edilir. O, təşkilatın materialların əldə edilməsinə faktiki xərclərin məbləğini (ƏDV və digər ödənilən vergiləri istisna etməklə) əks etdirir.

Material - istehsal ehtiyatlarının əldə edilməsi üzrə faktiki xərclərə:

- müqavilə əsasında mal göndərənə ödənilən məbləğlər;
- ehtiyatların əldə edilməsilə əlaqədar informasiya və konsultasiya xidmətlərinə görə ixtisaslaşmış təşkilatlara ödənilən məbləğlər;
- gömrük rusumları;
- vasitəçi təşkilatlara ödənilən haqlar;
- material - istehsal ehtiyatlarının tədarükü və istifadə yerinə çatdırılması üzrə xərclər, o cümlədən sığorta xərcləri;
- material - istehsal ehtiyatlarından planlaşdırılan məqsədlərlə istifadəyə yararlı vəziyyətə gətirilməsi üzrə xərclər;
- material ehtiyatlarının əldə edilməsilə əlaqədar olan digər xərclər daxildir.

Material xərclərinin dəyişilməsinə amillərin təsirinin təhlilinin yuxarıda göstərilmiş alqoritmi məhsul vahidinə material sərfini (xüsusi sərfi) hesablayan təşkilatlarda tətbiq edilə bilər. Lakin, bir sıra sənaye sahələrində (şəkər istehsalı, çörəkbişirmə, ət-konserv və digər sahələrdə) isə xüsusi sərfi deyil, ilkin xammaldan faizlə məhsul çıxımını müəyyən edirlər. Bu halda material xərclərinin asılılıq amili aşağıdakı düsturla hesablana bilər:

$$MX = \frac{100}{b} \times S, \qquad (9.26)$$

burada b - ilkin xammaldan məhsul çıxımı faizidir; S - xammal ehtiyatı vahidinin tədarük dəyəridir.

Nəzərdən keçirilən asılılığa mütləq kənarlaşma üsulunu tətbiq edərək, material xərclərinin dəyişilməsinə aşağıdakı amillərin təsirini müəyyən edək:

a) ilkin xammaldan məhsul çıxımı faizinin dəyişilməsi:

$$\Delta MX_{(b)} = \left(\frac{100}{b_1} - \frac{100}{b_0}\right) \times S_0 = \frac{-\Delta b}{b_1} \times MX_0, \qquad (9.27)^{1)}$$

yəni məhsul çıxımı faizinin dəyişilməsini hesabat üzrə çıxım faizinə bölmək və baza material xərclərinə vurmaq lazımdır. «-» işarəsi həmin amilin öyrənilən göstəriciyə əksinə təsir etməsi deməkdir: məhsul çıxımı faizinin azalması material xərclərinin artımına səbəb olur və əksinə:

b) xammal vahidinin tədarük dəyərinin dəyişilməsi:

$$\Delta MX_{(S)} = \frac{(S_1 - S_0) \times 100}{b_1} = \frac{\Delta S \times 100}{b_1}, \qquad (9.28)$$

yəni xammal vahidinin tədarük dəyərinin dəyişilməsi məhsul çıxımı faizinin hesabat qiymətinə bölünməsidir.

İlkin xammaldan məhsul çıxımı faizinin yüksəlməsi texnoloji proseslərin və istehsalın təşkilinin təkmilləşdirilməsi, yəni yeni, məhsuldan texnikanın tətbiqi yolu ilə əldə edilir.

[1)] 9.27 düsturunun çıxarışı

$$\left(\frac{100}{b_1} - \frac{100}{b_0}\right) \times S_0 = \frac{(b_0 - b_1) \times S_0 \times 100}{b_1 \times b_0} = \frac{b_0 - b_1}{b_1} \times \frac{S_0 \times 100}{b_0} = \frac{-\Delta b}{b_1} \times MX_0$$

9.3.2. Əməyin ödənilməsi xərclərinin təhlili

Maya dəyərinin idarə edilməsi üçün əməyin ödənilməsi xərcləri iki istiqamətdə:

1) istehsal xərclərinin elementi kimi;

2) məhsulun maya dəyərinin kalkulyasiyasının maddəsi kimi təhlil edilir.

Kalkulyasiya maddəsi kimi əmək haqqının təhlili qaydasını nəzərdən keçirək. Məhsulun (iş və xidmətlərin) istehsal xərclərinin uçotu üzrə Metodik göstərişə uyğun olaraq «Əməyin ödənilməsi xərcləri» maddəsində fəaliyyəti məhsul istehsalı prosesində bilavasitə (bu və ya digər dərəcədə) iştirakla əlaqədar olan işçilərin faktiki yerinə yetirilmiş işə görə əməyinin ödənilməsi, habelə qüvvədə olan əmək qanunvericiliyilə, təşkilatın kollektiv müqavilələrilə, lokal normativ aktları ilə nəzərdə tutulmuş digər ödəmələr əks etdirilir.

İşəmuzd işləyən fəhlələrin əmək haqqı və istehsal nəticələrinə görə ödənilən mükafatlar istehsal planının yerinə yetirilməsindən asılıdır (birbaşa və ya dolayı). İşəmuzd işləyən fəhlələrin əməyinin ödənilməsinin təhlili ayrı - ayrı məmulatların (işlərin, xidmətlərin) maya dəyərinin kalkulyasiyası əsasında həyata keçirilir. Bu göstəricinin məhsulun maya dəyərində əhəmiyyətli xüsusi çəkiyə malik olduğu sənaye sahələrində kalkulyasiyanın xüsusi bölməsində onun açıqlanması nəzərdə tutulur. Ayrı-ayrı əməliyyatlar üzrə yerinə yetirilən işlərin əmək tutumu və tarif qiymətləri haqqında plan və faktiki məlumatlar verilir.

Məmulata düşən əmək haqqının məbləği ($Əh_{məm}$) həmin iki amildən asılı olaraq nəzərdən keçirilir:

$$Əh_{məm} = \sum_{i=1}^{m} H_i \times p_i, \qquad (9.29)$$

burada H_i - həmin məmulat hazırlanan zaman i - ci əməliyyatın əmək tutumudur, norma - saat; p_i -bir norma – saatın tarif qiymətidir, manat (qəpik); m - məmulatın hazırlanması ilə əlaqədar əməliyyatların sayıdır; $i = 1, \ldots, m$.

Göstərilən amillərin məmulat üzrə işəmuzd əmək haqqının dəyişilməsinə təsirini mütləq fərqlənmə üsulunun köməyilə müəyyən edirlər:

$$\Delta Əh_i = \sum_{i=1}^{m} \Delta H_i \times p_{i0} + \sum_{i=1}^{m} H_{i1} \times \Delta p_i \qquad (9.30)$$

Sonra isə kənarlaşmaların səbəbləri aydınlaşdırılır. Məsələn, əməliyyatın əmək tutumunun dəyişilməsi istehsal normalarının yerinə yetirilməsi dərəcəsindən və onların dəyişilməsindən asılı ola bilər. Normaların dəyişilməsi istehsalata texnikanın, texnologiyanın və istehsalın təşkilinin təkmilləşdirilməsi üzrə təşkilati – texniki tədbirlərin tətbiq edilməsi səviyyəsi ilə, əmək intizamına riayət edilməsilə, iş yerlərinin təşkilinin səmərəliliyilə və bəzi digər amillərlə müəyyən edilir.

Əmək tutumu normalarının və məmulat üzrə tarif qiymətlərinin dəyişilməsi hesabına bütün məhsulun maya dəyərinin nə qədər dəyişiləcəyini müəyyən etmək üçün alınmış fərqləri hesabat dövründə həmin məmulatların natura ifadəsində faktiki buraxılışına vurmaq lazımdır.

Təhlil prosesində vaxt normalarının və tarif qiymətlərinin əsaslandırılması da yoxlanılır. Belə ki, əgər vaxt normaları aşağıdırsa, onda onlar asanlıqla və artıqlaması ilə yerinə yetirilir. Buradan isə əmək haqqının artıq ödənilməsi baş verir.

Vaxtamuzd işləyən fəhlələrin əmək haqqının təhlili zamanı nəzərə almaq lazımdır ki, onların yerinə yetirdikləri işlərin əmək tutumunun səhv hesablanması işçilərin sayının artırılmasına, deməli – əmək haqqına israf edilməsinə səbəb olur.

Təşkilatın bütün şəxsi heyətinin əmək haqqı istehsal xərclərində «əməyin ödənilməsi xərclərinin» elementi kimi əks etdirilir. Bu halda həmin göstəricinin təhlili aşağıdakı istiqamətlərdə həyata keçirilə bilər:

- əməyin ödənilməsi xərclərindən istifadənin ümumi qiymətləndirilməsi;

- şəxsi heyətin kateqoriyaları üzrə əməyin ödənilməsi xərclərinin tərkibinin və strukturunun təhlili;
- əmək haqqının amillər üzrə dəyişilməsinin öyrənilməsi.

Təhlilin aparılması əməyin ödənilməsi xərclərinə qənaət etmək məqsədilə istifadə edilməmiş ehtiyatların aşkar edilməsindən ibarətdir.

Təhlilin aparılması üçün informasiya mənbələri kimi əmək üzrə plan və hesabat göstəricilərindən, ayrı-ayrı məmulatların maya dəyərinin kalkulyasiyalarından, əməyin ödənilməsi xərclərinin (ƏÖX) «Əməyin ödənilməsi üzrə işçi heyəti ilə hesablaşmalar» adlı 70-ci mühasibat hesabına aid mühasibat uçotu registrlərindən istifadə edilir.

Əməyin ödənilməsi xərclərinin (ƏÖX) ümumi qiymətləndirilməsi göstəricisi üzrə mütləq və nisbi kənarlaşmaların müəyyən edilməsindən ibarətdir:

$$\Delta ƏÖX_{mütl.} = ƏÖX_1 - ƏÖX_0 \qquad (9.31)$$

Hesablama şəxsi heyət üzrə bütövlükdə və hər kateqoriya üzrə ələhiddə aparılır. Lakin əmək haqqının baza (plan) məbləğinə nisbətən yüksək olması məhsulun istehsalının artması ilə yarana bilər və bu məqbul hesab edilir. Bununla əlaqədar olaraq faktiki xərcləri məhsulun həcminin artım templərinə (J_{MH}) uyğun yenidən hesablanmış baza göstəricilərilə müqayisə etmək lazımdır:

$$\Delta ƏÖX_{nisbi} = ƏÖX_1 - ƏÖX_0 \times J_{MH} \qquad (9.32)$$

Nisbi kənarlaşmanın hesablanması bütövlükdə şəxsi heyət üzrə və o cümlədən fəhlələrin kateqoriyaları üzrə aparılır. Əmək haqqının baza məbləğinin əmək haqqının məhsulun həcmindən asılılığı dərəcəsini əks etdirən düzəliş əmsalını nəzərə almaqla yenidən hesablanması mümkündür.

Nisbi qənaətin olması əmək məhsuldarlığının artımının orta əmək haqqının artımı ilə müqayisədə daha yüksək olmasını göstərir və bu məhsulun həcminin bir manatına düşən əmək haqqının azalmasına və maya dəyəri üzrə qənaətə səbəb olur.

9.12 cədvəlində verilmiş məlumatlara əsasən bütün şəxsi heyətin əməyinin ödənilməsi xərcləri baza dövründəki analoji

xərclərlə müqayisədə 4700 min manat, o cümlədən fəhlələr üzrə 3130 min manat artmışdır.

Cədvəl 9.12

Əməyin ödənilməsi xərclərinin təhlili üçün ilkin məlumatlar, min manatla

Göstəricilər	Sətrin sıra sayı	Baza dövrü	Hesabat dövrü	Artım tempi (J), %	Mütləq kənarlaşma (qr.4-qr3) (+,-)
1	2	3	4	5	6
Məhsulun həcmi, baza dövrü ilə müqayisəli qiymətlərdə	1	30000	36200	120,67	x
Əməyin ödənilməsi xərcləri	2	5200	9900	190,38	+4700
O cümlədən fəhlələr üzrə	3	3800	6930	182,37	+3130
İşçilərin sayı	4	20	22	110,0	+2
O cümlədən fəhlələrin sayı	5	14	16	114,29	+2
Dövr ərzində bütün fəhlələr tərəfindən işlənmişdir, min saat	6	28,0	30,6	109,29	+2,6

İstehsalın həcminin artım tempini nəzərə almaqla kənarlaşmalar:

- şəxsi heyət üzrə bütövlükdə

9900 – 5200 × 1,2067 = 3625 min manat;

- fəhlələr kateqoriyası üzrə

6930 – 3800 × 1,2067=2345 min manat təşkil edir.

Əmək haqqı üzrə nisbi artımının olması əlverişsiz nisbəti göstərir: həm bütövlükdə şəxsi heyət üzrə, həm də fəhlə kateqoriyası üzrə orta əmək haqqının artım templəri əmək məhsuldarlığının artımından yüksəkdir. Deyilənlər aşağıdakı hesablamalarla təsdiqlənir:

Dövr və göstəricinin artım templəri, %	Baza	Hesabat	J
Bir işçinin orta əmək haqqı, min man.....	$\frac{5200}{20} = 260,0$	$\frac{9900}{22} = 450,0$	173,1
Bir işçinin orta istehsalı, min man.....	$\frac{30000}{20} = 1500,0$	$\frac{36200}{22} = 1645,5$	109,7
Bir fəhlənin orta əmək haqqı, min man..	$\frac{3800}{14} = 271,4$	$\frac{6930}{16} = 433,1$	159,6
Bir fəhlənin orta istehsalı, min man.....	$\frac{30000}{14} = 2142,9$	$\frac{36200}{16} = 2262,5$	105,6

Əmək məhsuldarlığının və orta əmək haqqının artım templərinin nisbətinin məhsulun maya dəyərinə təsiri bu düsturla müəyyən edilə bilər.

$$\frac{(J_{ƏÖX} - J_{MH}) \times ƏÖX_0}{100} \qquad (9.33)$$

Təşkilatın bütövlükdə şəxsi heyəti üzrə bu məbləğ:

(190,38 - 120,67) : 100 × 5200 = 3625 min manat;

o cümlədən fəhlələr kateqoriyası üzrə

(182,37 - 120,67) : 100 ×3 800 = 2345 min manat təşkil edir.

Maya dəyərinin artımının alınması qiymətləri (məbləğləri) əmək haqqı xərclərinin fərqlənməsinə dair yuxarıda hesablanmış məbləğlərilə üst-üstə düşür və 9.6 cədvəlinin göstəricilərinə uyğundur. Cədvəldəki məlumatlar üzrə məhsulun əmək haqqı tutumu onun həcminin hər manatına 10,02 qəpik artmışdır. Bu orta istehsal və orta əmək haqqı göstəricilərinin artım templəri arasında qeyri-qənaətbəxş nisbət nəticəsində yaranmışdır.

Sonrakı təhlilin gedişində şəxsi heyətin hər kateqoriyasının əmək haqqının dəyişilməsinə təsir edən səbəbləri aydınlaşdırmaq lazımdır (sxem 9.3).



Sxem 9.3. ***Əməyin ödənilməsi xərclərinin amillər üzrə bölüşdürülməsi sxemi***

Nəzərdən keçirilən sxemdə şəxsi heyətin hər kateqoriyası üzrə əməyin ödənilməsi xərcləri (ƏÖX) aşağıdakı üç amilli multiplikativ model şəklində təqdim edilmişdir:

$$ƏÖX = T \times S \times Əh_{saat} = T \times \frac{R}{T} \times \frac{ƏÖX}{R}, \qquad (9.34)$$

burada T - işçilərin orta siyahı sayıdır; S - bir işçinin dövr ərzində işlədiyi saatların orta miqdarıdır, $Əh_{saat}$ - bir işçinin orta saatlıq əmək haqqıdır; R - işçilərin işlədiyi adam - saatların ümumi miqdarıdır.

Amillərin əməyin ödənilməsi xərclərinin dəyişilməsinə təsirini faiz fərqləri üsulunun köməyilə qiymətləndirmək olar (cədvəl 9.13)

Cədvəl 9.13

Amillərin təsirinin faiz fərqi üsulu ilə hesablanılmasının alqoritmi

Göstəricilər	Planın yerinə yetirilməsi faizi	Amillər	Hesablama düsturları	Düsturun sıra sayı
1	2	3	4	5
İşçilərin orta siyahı sayı	J_T	Sayın dəyişilməsi ($\Delta ƏÖX_T$)	$\frac{(J_T - 100) \times ƏÖX_0}{100}$	9.35
Bütün işçilər tərəfindən işlənmiş adam – saatların ümumi sayı	J_R	Bir işçinin işlədiyi adam – saatların dəyişilməsi ($\Delta ƏÖX_R$)	$\frac{(J_R - J_T) \times ƏÖX_0}{100}$	9.36
Əməyin ödənilməsi xərcləri	$J_{əöx}$	Bir saatlıq əmək haqqının dəyişilməsi ($\Delta ƏÖX əh_{saat}$)	$\frac{(J_{əöx} - J_R) \times ƏÖX_0}{100}$	9.37
x	x	Yoxlama	1) $J_T - 100 + J_R - J_T + J_{əöx} - J_R = J_{əöx} - 100$; 2) $\Delta ƏÖX_{(T)} + \Delta ƏÖX_{(S)} + \Delta ƏÖX əh_{saat} = ƏÖX_1 - ƏÖX_0$	9.38 9.39

Fəhlələrin əməyinin ödənilməsi xərclərinin təhlili üçün bu metodikanın tətbiqi nümunəsi 9.14 cədvəlində təqdim edilmişdir.

Cədvəl 9.14

Fəhlələrin əməyinin ödənilməsi xərclərinin amillər üzrə təhlili

Göstəricilər	Artım (azalma) tempi, %	Faiz fərqləri	Amillər	Təsirin hesablanması, min man. (+,-)
1	2	3	4	5
Fəhlələrin orta siyahı sayı	114,29	14,29	Fəhlələrin sayının dəyişilməsi	$\frac{14,29\times3800}{100}=+543$
Dövr ərzində bütün fəhlələr tərəfindən işlənmiş adam-saatların ümumi sayı	109,29	-5,0	Dövr ərzində bir işçinin işlədiyi saatların orta sayının dəyişilməsi	$\frac{-5\times3800}{100}=-190$
Fəhlələrin əməyinin ödənilməsi xərcləri	182,37	73,08	Bir fəhlənin orta saatlıq əmək haqqının dəyişilməsi	$\frac{73,08\times3800}{100}=+2777$
Yekun	x	82,37	X	+3130

Nəzərdən keçirilən misalda fəhlələrin əməyinin ödənilməsi xərcləri, əsas etibarilə, fəhlələrin orta saatlıq əmək haqqının yüksəlməsi hesabına (2777 min manat) və qismən fəhlələrin sayının artması (543 min manat) hesabına çoxalmışdır.


Əmək haqqının qənaət edilməsinə bir işçinin dövr ərzində işlədiyi saatların orta miqdarının azalması təsir etmişdir. Bu iş vaxtının bütün günlərlə və növbədaxili itirilməsilə əlaqədar ola bilər.

Orta saatlıq əmək haqqının yüksəlməsi işəmuzd və (və ya) vaxtamuzd işləyənlərə orta saatlıq ödənişlərin artırılması ilə, əlavə ödənişlərin orta səviyyəsinin yüksəlməsilə, əlavə əmək haqqının artması ilə, əməyin ödənilməsi formalarının dəyişilməsilə yarana bilər (sxem 9.4).

Yaxşı olardı ki, orta saatlıq əmək haqqının artması orta saatlıq əmək məhsuldarlığı artdıqca, lakin daha yavaş templərlə, həyata keçirilərdi. Nəzərdən keçirilən misalda bir fəhlənin orta saatlıq istehsalının artım tempi $110,4\%\left(\frac{36200}{30,6}:\frac{3800}{28}\times100\right)$, orta saatlıq

əmək haqqının isə – $166,9\%\left(\frac{6930}{30,6}:\frac{3800}{28}\times100\right)$ təşkil etmişdir ki, bu da xeyli yüksəkdir.

Əməyin ödənilməsi xərclərinə qənaət edilməsi ehtiyatları ilk növbədə qeyri-məhsuldar (faydasız) xarakterli ödəmələrin: işəmuzd işləyənlərə əmək şəraitinin dəyişilməsilə əlaqədar əlavə ödənişlərin, vaxtından artıq işə görə ödəmələrin, məcburi boşdayanmaların, fəhlələrin təqsiri olmadan zay məhsul istehsalının ödənilməsinin və s. ləğv edilməsindən ibarətdir (sxem 9.4-ə baxın).



Sxem 9.4. ***Bir işçinin orta illik əmək haqqının dəyişilməsi amillərinin sxemi***

9.3.3 Kompleks xərc maddələrinin təhlili

Məhsulun maya dəyərinin tərkibində əsas kompleks xərclərə aşağıdakılar aid edilir:

1. Ümum istehsal xərcləri (ÜİX)
2. Ümum təsərrüfat xərcləri (ÜTX)
3. Zay məhsula görə itkilər
4. Digər istehsal xərcləri
5. Satış xərcləri (SX)

Bu zaman xərclərin ilk iki qrupunun «İstehsala xidmət edilməsi və onun idarə edilməsi xərcləri» altında birləşdirilməsi qəbul edilmişdir. Göstərilən xərclərin kompleksli xarakteri, artıq qeyd edildiyi kimi, o deməkdir ki, hər qrup iqtisadi məzmunu üzrə müxtəlif olan bir sıra elementləri əhatə edir. Bu material xərcləri, əmək haqqı, amortizasiya ayırmaları, icarə haqqı və s. ola bilər.

Xərclərin təqdim edilmiş qrupları dolayı xərclərdir, belə ki, bu və ya digər məmulatların istehsalına birbaşa deyil, dolayı yolla, yəni təşkilatın uçot siyasətilə müəyyən edilmiş hər-hansı bazaya mütənasib aid edilirlər.

Xərclərin kompleks maddələrinin təhlili üzrə vəzifələr aşağıdakılardır:

- onların dinamikasının və smeta xərclərinə riayət edilməsinin öyrənilməsi;
- xərclərin müvafiq maddələrinin dinamikada və smetalardan kənarlaşmaların səbəblərinin aşkar edilməsi;
- istehsalın və əməyin texniki səviyyəsinin və təşkilinin dəyişilməsinin nəzərdən keçirilən xidmətlərin səviyyəsinə təsirinin müəyyən edilməsi;
- məhsulun maya dəyərinin kompleks xərclər üzrə aşağı salınması ehtiyatlarının aşkar edilməsi.

Məhsulun həcmindən asılılığı əlamətinə görə kompleks xərclər *şərti dəyişən* və *şərti sabit* xərclərə bölünür. Şərti dəyişənlərə avadanlığın saxlanması və istismarı ilə (ümumistehsal xərclərinin

tərkibində[1]) əlaqədar olan xərclər, digər istehsal xərcləri, satış xərcləri aiddir. Onlar əhəmiyyətli dərəcədə məhsulun həcmindən asılıdır. İqtisadi təhlilin gedişində xərclərin hər qrupu ayrıca nəzərdən keçirilir.

İstehsala xidmət edilməsi və onun idarə olunması xərclərinin (İXİX) təhlili

İstehsala xidmət edilməsi və onun idarə olunması xərclərinin (İXİX) təhlilinin başlanğıc mərhələsində xərclərin mütləq məbləğinin, habelə istehsal edilmiş məhsulun bir manatına hesablanan səviyyəsinin dinamikası (planın yerinə yetirilməsi) müəyyən edilir. Bu zaman məhsulun həcminin artım tempinin İXİX tempindən yüksək olması, hətta onların mütləq məbləğləri artdığı halda, həmin xərclərin səviyyəsinin aşağı düşməsini göstərir və məhsulun maya dəyəri üzrə qənaət edilməsinə səbəb olur.

9.15 cədvəlindən görünür ki, planda məhsulun həcminin artım templərinin (106,67%) istehsala xidmət edilməsi və onun idarə olunması xərclərinin bütövlükdə artım tempindən (112,0%), o cümlədən onların hər qrupu üzrə də, geri qalması nəzərdə tutulmuşdu. Deməli, bütövlükdə və hər iki maddə üzrə məhsul həcminin bir manatına düşən (qəpiklərlə) İXİX-in yüksəlməsi planlaşdırılmışdır və bu məhsulun plan üzrə maya dəyərinin artmasına gətirib çıxartmışdır.

Həqiqətdə əvvəlki dövrə nisbətən həm bütövlükdə, həm də hər maddə üzrə istehsalın həcmi İXİX-dən daha sürətli artmışdır. Nəticədə məhsulun bir manatına düşən xərclər həm əvvəlki illə, həm də planla müqayisədə azalmışdır. Lakin bu halda planın real olması şübhə doğurur[2].

---

[1] Şərti sabit xərclərə aid edilən amortizasiyadan başqa, amortizasiyanın məhsulun həcminə mütənasib hesablanması üçülu istisna olmaqla (əgər təşkilatın uçot siyasətində belə üsul qəbul edilmişdirsə.

[2] Nəzərdən keçirilən xərclərin planlaşdırılmış dəyişilməsi xidmət edən və idarəetmə heyətinin sayının nəzərdə tutulmuş dəyişilməsindən, istehsalın təşkili-texniki səviyyəsinin dəyişilməsindən və təsərrüfatçılığın digər şəraitindən cəlb olunmalıdır.

9.15 cədvəlində təqdim edilmiş məlumatlar xərclərin dəyişilməsinin yalnız ümumi mənzərəsini təsəvvür etmək imkanı verir.

Alınmış nəticələrə çoxsaylı amillər təsir etmişdir. Xərclərə qənaət edilməsi ehtiyatlarının müəyyən edilməsi ayrılıqda xərclərin hər qrup üzrə, qrup daxilində isə – daha kiçik mövqelər üzrə yalnız onların dinamikasının və smetadan kənarlaşmaların diqqətlə öyrənilməsi əsasında mümkündür.

Bu zaman ümumistehsal xərclərinin tərkibindən avadanlığa xidmət edilməsi və onun istismar xərclərini (AXİX) ayırmaq lazımdır, onlar şərti dəyişilən xərclərdir (amortizasiyadan başqa). AXİX-ə avadanlığın təmiri və ona qulluq edilməsi üçün yağlama, silgi və digər material növləri; avadanlığın və nəqliyyat vasitələrinin (müəssisə daxili nəqliyyatın) amortizasiyası; avadanlığa xidmət edən fəhlələrin əmək haqqı və sosial ehtiyaclara ayırmalar; bütün enerji buxar, sıxılmış hava, su növləri; avadanlığa və iş yerlərinə xidmət edən köməkçi istehsalatların xidmətləri və avadanlıqdan istifadə edilməsilə əlaqədar olan digər xərclər aiddir.

Təhlil prosesində xərclərin bütün qrupu və o cümlədən onların hər növü üzrə mütləq və nisbi fərqlər müəyyən edilir

$$\Delta AXİX_{müt} = AXİX_1 - AXİX_0; \quad (9.40)$$

$$\Delta AXİX_{nisbi} = AXİX_1 - AXİX_0 \times J_{MH} \quad (9.41)$$

Məhsulun həcminə uyğun yenidən hesablama amortizasiyadan başqa xərclərin bütün növləri üzrə yerinə yetirilir. Amortizasiya, məhsulun həcminə mütənasib hesablanan hal istisna olmaqla, onun buraxılışına münasibətdə sabit kəmiyyətdir. Smetadan (yenidən hesablanmış plandan) kənarlaşmaların səbəbləri təhlil edilən zaman onların hansı səbəbdən: istehsal həcminin yaxud smeta dəyərinin dəyişilməsilə yaranması aydınlaşdırılır. Hər maddə üzrə nisbi kənarlaşma planlaşdırılmış xərclərə riayət edilməsi dərəcəsini, mütləq və nisbi kənarlaşmalar arasındakı fərq isə – məhsul istehsalı xərclərinin dəyişilməsinə təsirini əks etdirir, o, birbaşa hesablama yolu ilə müəyyən edilə bilər:

$$\Delta AXİX_{MH} = AXİX_0 \times (J_{MH} - 1). \quad (9.42)$$

Ümumistehsal xərclərinin digər hissəsi idarəetmə ilə əlaqədar olan ümumsex xərcləridir. Onlara: sexin şəxsi heyətinin əmək haqqı və sosial ehtiyaclara ayırmalar; istehsal ehtiyatları üçün istifadə edilən binaların, qurğuların, inventarın saxlanması və təmiri xərcləri; istehsal təyinatlı binaların və qurğuların amortizasiyası; istehsal binaları, maşınlar və avadanlıq üzrə icarə haqqı; fəhlələrin daxili səbəblərlə əlaqədar (təşkilatın təqsiri üzündən) boşdayanmalarının ödənilməsi; material dəyərlərinin və bitməmiş istehsalın əskikliyi və xarab olma nəticəsində itkiləri (əgər təqsirkarlar müəyyən edilməmişdirsə) və s. aiddir.

Sabit ümumistehsal xərclərinin təhlili onların hər növü üzrə əvvəlki dövrün məlumatları və smeta ilə müqayisədə mütləq kənarlaşmaların müəyyən edilməsindən, dəyişilmələrin səbəblərinin, o cümlədən məsrəflərin smeta xərclərindən yüksək olmasının səbəblərinin aydınlaşdırılmasından ibarətdir.

Bütün ümumistehsal xərcləri üçün ümumi cəhət ondan ibarətdir ki, onlar əsas etibarilə istehsal bölmələrində yaranır, baş verdikləri yerlər üzrə planlaşdırılır, nəzərə alınır və idarəetmə uçotu çərçivəsində yoxlanıla bilinər.

Ümumtəsərrüfat xərcləri (ÜTX) istehsal prosesilə bilavasitə əlaqəli deyil. Onlar bütün təşkilat çərçivəsində idarəetmə funksiyalarının təmin edilməsinə sərf olunur. Bu xərclər də kompleks xərclərdir, çünki iqtisadi məzmununa görə müxtəlif xərcləri birləşdirir. ÜTX tərkibinə inzibati idarəçilik xərcləri, ümumtəsərrüfat (idarəçilikdən başqa) heyətinin saxlanması xərcləri, ümumtəhsərrüfat təyinatlı əsas vəsaitlərə amortizasiya ayrılmaları və onların təmiri və saxlanması xərcləri, informasiya, auditor və konsultant xidmətlərinin, habelə rabitə və bank xidmətlərinin ödənilməsi üzrə xərclər, yanğından müdafiə və gözətçilər üzrə xərclər, kadrların hazırlanması və ixtisasının artırılması xərcləri və təsərrüfat təyinatlı digər xərclər daxildir.

Cədvəl 9.15

İstehsala xidmət edilməsi və onun idarə olunması xərclərinin dinamikasının təhlili

Göstəricilər	Sətrin sıra sayı	Əvvəlki dövr	Hesabat dövrü		Əvvəlki dövrə nisbətən planın yerinə yetirilməsi, % (qr.4: qr.3 x 100)	Hesabat ili üzrə icra səviyyəsi	
			Plan	Fakt		Əvvəlki ilə nisbətən, % (qr.5:qr.3x100)	Plana nisbətən, % (qr.5: qr.4x100)
1	2	3	4	5	6	7	8
Məhsulun (iş və xidmətlərin) həcmi, müqayisəli qiymətlərdə, min man.	1	30000	32000	36200	106,67	120,67	113,13
İstehsala xidmət edilməsi və onun idarə olunması xərcləri, cəmi, min man.	2	2500	2800	2720	112,0	108,8	97,14
O cümlədən:							
a) ümumistehsalat xərcləri	3	1500	1650	1700	110,0	113,33	103,0
b) ümumtəsərrüfat xərcləri	4	1000	1150	1020	115,0	102,0	88,70
Məhsulun həcminin bir manatına düşən xərclər, cəmi, qəpik (sət. 2: sət. 1x100)	5	8,33	8,75	7,51	+0,42 (qr.4-qr.3)	-0,82 (qr.5-qr.3)	-1,24 (qr.5-qr.4)
O cümlədən	6	5,0	5,16	4,69	+0,16	-0,31	-0,47
a) ümumistehsalat xərcləri (sət.3: sət.1x100)	7	3,33	3,59	2,82	+0,26	-0,51	-0,77
b) ümumtəsərrüfat xərcləri (sət.4:sət.1x100)							

Bütün kompleks xərclərin nomenklaturası məhsulun maya dəyərinin planlaşdırılması, uçotu və kalkulyasiya edilməsi üzrə sahə təlimatları ilə müəyyən edilir.

Digər şərti sabit xərclər kimi, ümumtəsərrüfat xərclərinin təhlili prosesində də həm bütövlükdə qrup üzrə, həm də ayrıca hər bir maddə üzrə plandan (smetadan) və əvvəlki dövrün məlumatlarından mütləq kənarlaşmalar müəyyən edilir:

$$\Delta ÜTX = ÜTX_1 - ÜTX_0. \qquad (9.43)$$

Qənaətin (israfın) məbləğləri xərclərin həmin qrupu daxilində hər mövqe üzrə açıqlanmış şəkildə müəyyən edilməlidir.

İstehsala xidmət edilməsi və onun idarə olunması üzrə xərclərə daxil olan məsarif növlərinin çox müxtəlif olması səyəsində onların kənarlaşmalarını şərtləndirən səbəblər də o qədər müxtəlifdir. Onların aşkar edilməsi üçün yalnız ayrı-ayrı məmulatların maya dəyərinin kalkulyasiyasının, xərc smetalarının, müəssisənin istehsal daxili hesabatının məlumatlarından deyil, həm də ilkin mühasibat sənədlərindən, hesablamalardan, normalardan, ştat cədvəllərindən və digər informasiya mənbələrindən istifadə edilir.

AXİX-in təhlilinin yekununda bu maddələr üzrə maya dəyərinin aşağı salınmasının mümkün ehtiyatları müəyyən edilir və aşkar edilmiş ehtiyatlardan istifadə edilməsi üzrə idarəetmə qərarları işlənib hazırlanır. Sonunculara ayrı-ayrı maddələr üzrə xərclərin əsassız artımının və səmərəsiz xərclərin məbləğinin azaldılması, onların həyata keçirilməsi üzrə tövsiyələrə isə – həmin kənarlaşmaları yaradan səbəblərin aradan qaldırılması üzrə konkret tədbirlər aiddir.

AXİX tərkibində ehtiyatlara aid edilə bilən səmərəsiz xərclər daxili səbəblərdən boşdayanmalardan yaranan itkilərin, təqsirkar şəxslər müəyyən edilmədiyi halda istehsalatda və anbarlarda material dəyərlərinin əskikliyinin və bəzi digər xərclərin qarşısının alınmasına sərf edilən məsarifləri əhatə edir.

Zay məhsula görə yaranan itkilərin təhlili

Zay məhsul görə yaranan itkilər öz mahiyyətinə görə səmərəsiz (faydasız) xərclərdir. Texnologiyanın müasir səviyyəsində zay məhsul

istehsalının qarşısının tamamilə alınması mümkün olmayan bir sıra istehsalatlarda həmin itkilər müəyyən ölçülərdə planlaşdırılır. Belə hallarda plandan artıq itkilərin məbləği istifadə edilməmiş ehtiyatları əks etdirir.

Zay məhsula görə itkilər məhsulun maya dəyərində zay məhsula sərf edilmiş xərclər və kompensasiya edilmiş (əvəzi ödənilmiş) xərclərin dəyəri arasındakı fərq kimi müəyyən edilir. Zay məhsula görə itkilər, öz növbəsində qəti zay edilmiş məmulatların maya dəyərindən və zay məhsulun düzəldilməsinə sərf edilən xərclərdən cəmlənir. Zay edilmiş məhsula sərf edilmiş xərclərin bir hissəsinin kompensasiyası (əvəzinin ödənilməsi) zay məhsula görə təqsirkar olan şəxslərdən və təşkilatlardan müəyyən məbləğlərin tutulması hesabına və ondan istifadə edilməsi hesabına həyata keçirilə bilər.

Zay məhsula görə yaranan itkilərdən və ona sərf edilən xərclərin mütləq göstəricilərindən başqa, iqtisadi təhlil prosesində habelə aşağıdakı nisbi göstəricilər müəyyən edilir:

- zay məhsula sərf edilən xərclərin orta səviyyəsi – zay məhsula sərf edilən xərclərin məbləğinin məhsulun sex maya dəyərinə nisbəti, %;
- zay məhsula görə yaranan itkilərin orta səviyyəsi – zay məhsula görə yaranan itkilərin məbləğinin məhsulun sex maya dəyərinə nisbəti, %;
- zay məhsula görə yaranan itkilərin orta səviyyəsi – zay məhsula görə yaranan itkilərin məbləğinin məhsulun sex maya dəyərinə nisbəti, %;
- əvəzi ödənilməmiş xərclərin payı –zay məhsula görə yaranan itkilərin məbləğinin zay məhsula sərf edilmiş xərclərin məbləğinə nisbəti, %.

Təhlil üçün ilkin məlumatlar ayrı-ayrı məmulatlar üzrə maya dəyərinin kalkulyasiyası, mühasibat uçotu registrləri (qeyd dəftərləri), « İstehsalatda zay» adlı 28-ci hesabın açıqlama məlumatları, zay məhsul haqqında bildiriş və onun aradan qaldırılması haqqında naryad və digər ilkin sənədlərdir.

Aşağıdakı misalı araşdıraq:

1) qəti zay məhsula sərf edilmiş xərclər – 380 min manat;

2) zay məhsun düzəldilməsi xərcləri – 340 min manat;

3) zay məhsula görə xərclərin cəmi (sətir 1+ sətir 2) – 720 min manat;

4) kompensasiya edilmiş (əvəzi ödənilmiş) xərclərin məbləği – 520 min manat.

5) məhsulun maya dəyərində zay məhsul görə itkilər (sətir 3-sətir 4) – 200 min manat;

6) buraxılmış məhsulun sex maya dəyəri – 40300 min manat.

Göstərilmiş məlumatlara uyğun olaraq zay məhsula sərf edilmiş xərclərin orta səviyyəsi 1,79% (720 : 40300 × 100); zay məhsul görə itkilərin orta səviyyəsi – 0,50% (200 : 40300 × 100); əvəzi ödənilməmiş xərclərin payı isə 27,8% (200 : 720 × 100) təşkil etmişdir. Bu göstəricilər bir sıra dövrlər ərzində dinamikada, əgər zay məhsul planlaşdırılırsa, onda həm də planla müqayisədə təhlil edilir.

Qeyd etmək lazımdır ki, qəti zay məhsula və onun düzəldilməsinə sərf edilmiş xərclərin nisbətinin dinamikasının öyrənilməsi zəruridir. Təqdim edilmiş misalda onun ölçüsü 1,12 (380 : 340), qəti zay məhsulun ümumi xərclərdə payı isə 52,8% (380 : 720 × 100) təşkil etmişdir. Qəti zay məhsulun xüsusi çəkisi nə qədər yüksək olarsa, müəssisədə hissələrin və yarımfabrikatların keyfiyyətinə əməliyyatlararası və sexlərarası nəzarət o qədər pis həyata keçirilir.

Təhlilin növbəti mərhələsində zay məhsul haqqında ümumi məlumatlar yaranma yerləri (istehsalatlar, sexlər, sahələr), səbəblər və təqsirkarlar üzrə təfsilatlanır. Zay məhsulun mümkün ola bilən səbəbləri – texnologiyaya riayət edilməməsi, fəhlənin ixtisasının aşağı olması, avadanlığın nasazlığı, materialların keyfiyyətsizliyi, məhsulun keyfiyyətinə nəzarətin olmamasıdır. Bütün bu məsələlərin araşdırılması məhsulun maya dəyərinin texniki-iqtisadi təhlilinin predmetidir.

Maya dəyərinin mümkün qədər aşağı salınması üçün istifadə olunmamış ehtiyatlara zay məhsul görə itkilərin nəticəsində onun bahalanması məbləği (200 min manat) aid edilməlidir.

Satış xərclərinin təhlili

Satış xərcləri – məhsulların, malların, işlərin və xidmətlərin satışı (realizasiyası) ilə əlaqədar olan kompleks (çox elementli) xərclərdir. Sənaye və digər istehsal fəaliyyəti həyata keçirən təşkilatlarda mühasibat uçotu hesabları Planına uyğun olaraq, onların tərkibində aşağıdakı xərclər əks etdirilir:

- hazır məhsul anbarlarında məmulatların çəkilməsi və qablanması xərcləri;
- məhsulun göndərilmə stansiyasına (gəmi körpüsünə) çatdırılması, nəqliyyat vasitələrinə yüklənməsi xərcləri;
- satış və digər vasitəçi təşkilatlara ödənilən komissiya rüsumları;
- məhsulun satış yerlərində saxlanması üçün binalara (otaqlara) aid xərclər və kənd təsərrüfatı istehsalı ilə məşğul olan təşkilatlarda satıcıların əmək haqqı xərcləri;
- reklam xərcləri;
- nümayəndəlik xərcləri;
- digər təyinatı üzrə analoji xərclər.

Göstərilmiş xərclərin böyük hissəsi dəyişən (şərti dəyişən) xərclərə aiddir, yəni onlar bu və ya digər dərəcədə satışın həcmindən asılıdır. Belə xərclərə məhsulun tara, qablanma, çatdırılması xərcləri, reklam, nümayəndəlik xərcləri aid edilə bilər.

Təhlilə xərclərin maddələri üzrə bütövlükdə və ayrılıqda onların hər növü üzrə mütləq kənarlaşmaların, dəyişən xərclərə münasibətdə isə – həm də nisbi kənarlaşmaların hesablanmasından başlamaq lazımdır:

$$\Delta RM_{\text{müt}} = RM_1 - RM_0; \qquad (9.44)$$

$$\Delta RM_{\text{nisbi}} = RM_1 - RM_0 \times J_{SH}; \qquad (9.45)$$

burada J_{SH}-satışın həcminin (SH) artım (azalma) tempidir; satışın həcmi baza (plan üzrə) satış qiymətləri, baza (plan üzrə) istehsal

maya dəyəri yaxud natural ifadədə realizasiyanın həcmi əsasında ölçülə bilər.[1)]

Dəyişən xərclərin hər növü üzrə nisbi kənarlaşmalar smeta xərclərinə riayət edilməsi hesabına qənaəti (israfı) səciyyələndirir.

Satışın həcminin dəyişilməsinin təsiri smetada nəzərdə tutulmuş xərclərin məbləğlərinin realizasiya həcminin artım (azalma) indeksinə vurulması yolu ilə müəyyən edilir:

$$\Delta RM_{SH} = RM_0 \times (J_{SH} - 1). \qquad (9.46)$$

Hər iki amilin birgə təsiri xərclərin hər maddəsi üzrə smetadan mütləq kənarlaşmanın həcmini əks etdirir:


$$\Delta RM_{\text{nisbi}} + \Delta RM_{SH} = RM_1 - RM_0 \times J_{SH} + RM_0 \times (J_{SH} - 1) = RM_1 - RM_0 \qquad (9.47)$$

Xərclərin hər növü üzrə xərclərin smetasından kənarlaşmaların səbəblərinin təfsilatlanması «Tədavül xərcləri» adlı 44-cü hesab üzrə analitik uçot məlumatları əsasında həyata keçirilir.

Məhsulun maya dəyərinin satış xərcləri ilə əlaqədar aşağı salınmasının mümkün ehtiyatlarına onların ayrı-ayrı növləri üzrə əsassız israf məbləğlərini aid etmək lazımdır.

Xərc maddələrinin təhlili nəticəsində məhsulun maya dəyərinin aşağı salınmasının mümkün ehtiyatlarının tərkibi və qruplaşdırılması 9.5 sxemində təqdim edilmişdir.

[1)] Belə rəy vardır ki, əgər göndərmənin natural həcminə əsaslanılarsa, satış xərclərinin təshih edilməsi daha düzgün hesab edilir, çünki məhsulun qablaşdırılması, yüklənməsi, çatdırılması xərcləri onun dəyərinə deyil, çəkisinə və qabaritinə (əndazələrinə) mütənasibdir.



Sxem 9.5. ***Məhsulun maya dəyərinin aşağı düşməsi ehtiyatlarının qruplaşdırılması sxemi***

9.4. Məhsulun maya dəyərinin marjinal təhlili

9.4.1. Marjinal təhlil anlayışı

Əvvəlki bölmədə ənənəvi mühasibat uçotu və məhsulun tam maya dəyərinin kalkulyasiyası sistemi bazasında maya dəyərinin təhlili metodikası nəzərdən keçirilmişdir. Belə təhlil adətən retrospektivdir (keçmişə aiddir), çünki təsərrüfatın keçmiş dövr ərzində təsərrüfat fəaliyyətinin yekunları əsasında aparılır, bu zaman isə artıq heç nəyi düzəltmək mümkün deyil, aşkar edilmiş ehtiyatlar isə itirilmiş imkanlar kimi qiymətləndirilir.

Bu zaman maya dəyərinin (MD) və mənfəətin (M) qarşılıqlı əlaqəsinin aşağıdakı modelindən istifadə edilirdi:

$$M = RH - MD \qquad (9.48)$$

və ya

$$M = \Sigma q \times p - \Sigma q \times c, \qquad (9.49)$$

burada q - realizə edilmiş məhsulun natural ölçüdə miqdarıdır; p - həmin məhsul növü vahidinin satış qiymətidir; c - həmin məhsul növü vahidinin maya dəyəridir; RH - realizasiyanın həcmidir (satışdan alınan mədaxildir).

Beləliklə, mənfəət satışdan alınan mədaxil və məhsulun tam maya dəyəri arasında fərq kimi nəzərdən keçirilirdi.

Metodika belə fərziyyəyə əsaslanırdı ki, bütün amillər biri-birindən asılı olmayaraq dəyişilir, mənfəətin miqdarı realizasiyanın həcmilə mütənasibdir, maya dəyəri isə mənfəətə özü dəyişildiyi məbləğdə, lakin əks işarə ilə təsir edir.

İş ondadır ki, istehsalın həcmi artanda məhsul vahidinin maya dəyəri aşağı düşür, çünki bu zaman adətən yalnız dəyişən xərclərin məbləği artır, sabit xərclərin məbləği isə dəyişməz qalır (istehsal güclərindən istifadə edilməsinin həmin səviyyəsində) və əksinə, istehsal azalanda məhsul vahidinin maya dəyəri yüksəlir, çünki məhsul vahidinə sabit xərclər artır.

Xərclər, mənfəət və satışın həcmi arasında daha dəqiq qarşılıqlı əlaqə xərclərin idarə edilməsi uçotunun «direkt-kostinq» sistemində müəyyən edilir. Bu sistem çərçivəsində *marjinal təhlil* aparılır. Bu ad «marjinal gəlir» anlayışından alınmışdır, o, isə mədaxil və xərclərdən törəmə kəmiyyətdir.

«Direkt-kostinq» sistemi təşkilatın bütün xərclərinin dəyişən (şərti dəyişən) və sabit (şərti sabit) xərclərə bölünməsi bazası və yalnız dəyişən məsarifləri ehtiva edən natamam maya dəyərinin uçotu üzərində qurulur. Xərclərin digər növləri mədaxildən ödənir.

Şərti dəyişən xərclərə istehsalın həcminin dəyişilməsindən asılı olaraq dəyişən xərclər: məhsula sərf olunan xammal, materiallar, yanacaq, enerji xərcləri, işəmuzd işləyən fəhlələrin əmək haqqı, sosial ehtiyaclara ayırmalar və s. aiddir. İstehsalın həcmi artdıqca məcmu dəyişən xərclər də artır, məhsulun həcminin vahidinə hesablamada onlar dəyişilmir. Əgər istehsalın həcmi azalırsa, onda məcmu dəyişən xərclər də azalır, məhsulun həcminin vahidinə hesablamada isə onlar əvvəlki kimi qalırlar.

Şərti sabit xərclərə məhsulun istehsalı və satışı həcmindən bilavasitə asılı olmayan xərclər: amortizasiya, icarə haqqı, bank kreditindən istifadə edilməsinə görə faizlər, inzibati-idarəçilik xərcləri və s. aiddir. Məhsulun həcminin vahidinə düşən sabit xərclər istehsalın həcmi artanda (azalanda) müvafiq surətdə azalır (artır).

Məcmu sabit xərclər isə istehsal həcminin dəyişmələrilə əlaqədar dəyişilmir.

Qeyd etmək lazımdır ki, sabit xərclər məhsulun həcmindən yalnız müəyyən həddə qədər, yəni istehsalın həcminin artırılması ilə bağlı istehsal güclərinin, idarəetmə aparatının və s. artmasını tələb edənə qədər asılı olmurlar. Bu diapazon ədəbiyyatda *relevant* hədd adlanır.

Daha *qarışıq* adlanan xərclər də vardır ki, onlar dəyişən və sabit hissələrdən ibarət olur. Məsələn, poçt və teleqraf xərcləri, avadanlığın təmiri xərcləri və s. Bu xərclər sabit və dəyişən xərclər arasında ya tən yarı, yaxud təşkilatda qəbul edilmiş nisbətdə bölünür.

Xərclərin sabit və dəyişən xərclər üzrə qruplaşdırılması hətta konkret təşkilatda həmişəlik müəyyən edilə bilməz, fəaliyyət şəraitinin dəyişilməsinə müvafiq surətdə yenidən baxılmalıdır.

İqtisadi ədəbiyyatlarda xərclərin dəyişən və sabit xərclərə bölünməsinin dəqiqliyinin və obyektivliyinin yüksəldilməsi məqsədilə bir sıra xüsusi metodlar: istehsal həcminin ən yüksək və ən aşağı nöqtələri metodu, qrafik üsul, ən kiçik nöqtə metodu və s. təklif edilir.

Konkret təşkilatların real iş şəraitində xərclərin miqdarına yalnız istehsalın həcmi deyil, həm də digər amillər, məsələn, material ehtiyatlarının qiymətlərinin və tariflərinin inflyasiya ilə əlaqədar dəyişilməsi; istehsalın təşkilati-texniki səviyyəsinin təkmilləşdirilməsi; vergi və mühasibat qanunvericiliklərində dəyişikliklər və s. təsir edə bilər.

Bununla əlaqədar olaraq maya dəyərinin marjinal təhlili yalnız aşağıdakı şərtlərə riayət ediləndə (verilmiş relevant diapazonunda) mötəbər nəticələr verir:

- istehsalın və satışın həcmi bərabər olanda;
- bütün xərclər dəyişən və sabit xərclərə bölünəndə;
- sabit xərclər istehsal həcminə nisbətən dəyişilməz olduqda;
- istehsal həcminin dəyişilmələrilə əlaqədar dəyişən xərclərin dəyişilməsi mütənasib olduqda;
- material ehtiyatlarının və məhsulun qiymətləri dəyişməz qaldıqda;
- istehsalın həcmində struktur dəyişmələri olmadıqda.

«Direkt-kostinq» sistemində əsas anlayışlardan biri marjinal gəlir (MG) (başqa sözlə – marja, ümumi marja, ümumi mənfəət) anlayışıdır. O, satışdan daxil olan pul gəlirinin dəyişən xərclərdən artıq hissəsidir:

$$MG = RH - X_{dəy} \qquad (9.50)$$

Digər tərəfdən, marjinal gəlir sabit xərclərin (X_{sabit}) ödənilməsi və mənfəətin yaranması mənbəyidir:

$$MG = X_{sabit} + M \qquad (9.51)$$


Bu zaman məhsulun satışından mənfəət marjinal gəlir və sabit xərclər arasında fərq kimi müəyyən edilir.

$$M = MG - X_{sabit} \qquad (9.52)$$

Marjinal gəlir göstəricisi idarəetmə uçotu və təhlili sistemində ən mühüm göstəricilərdən biridir. Rentabellik astanası (zərərsizlik nöqtəsi), təşkilatların maliyyə sabitliyi ehtiyatı, planlaşdırılan mənfəət məbləği onun əsasında hesablanır, qiymət siyasətilə və məhsulun assortimentinin strukturu ilə əlaqədar məsəllər ona əsaslanaraq həll edilir.

Rentabellik astanası tam xərclərin ödənilməsi (örtülməsi) üçün lazım olan mədaxilin məbləğindən ibarətdir. Bu zaman təşkilat mənfəət də almır, onun zərəri də olmur, $MG = X_{sabit}$. Rentabellik astanasının və təşkilatın maliyyə sabitliyi ehtiyatının hesablanması qaydası aşağıda şərh ediləcəkdir.

Məhsulun maya dəyərinin idarəetmə təhlilinin bizim araşdırdığımız ən mühüm anlayışları (dəyişən və sabit xərclər, marjinal gəlir, rentabellik astanası və ya istehsalın böhran həcmi) qrafikdə (sxem 9.6) əyani təqdim edilmişdir.



Sxem 9.6. ***Məhsulun həcmi, xərclər və mənfəət göstəricilərinin qarşılıqlı əlaqəsi qrafiki***

«Direkt-kostinq» sistemində xərclərin, mənfəətin və satış həcminin qarşılıqlı əlaqəsinin təhlili aşağıdakı bir sıra idarəetmə qərarlarının qəbul edilməsi üçün lazımi informasiya verir:

- əlavə sifarişlərin cəlb edilməsinə dair;
- müstəqil istehsal və kənardan satınalmalar arasında seçim haqqında;
- ayrı-ayrı məmulatların istehsaldan çıxarılması və istehsal edilən nomenklaturanın optimallaşdırılması haqqında;
- bazarın konyunkturası dəyişildiyi halda məmulatın qiymətinin aşağı salınması haqqında.

Göstərilən məsələlərin həlli üçün tam maya dəyərinin uçotu (nəzərə alınması) metodunun tətbiqi səhv nəticələrə səbəb ola bilər.

9.4.2. Rentabellik astanası və müəssisənin maliyyə sabitliyinin möhkəmləndirilməsi ehtiyatlarının müəyyən edilməsi üsulları

«Direkt-kostinq» sisteminin köməyilə həll edilən mühüm məsələlərdən biri istehsalın zərərsizliyinin (zərərsiz işləməsinin) təhlilidir. Onun məqsədi istehsal fəaliyyətinin səviyyəsi dəyişəndə maliyyə nəticələrinin müəyyən edilməsindən ibarətdir. Alınmış informasiya təşkilatın rəhbərliyi üçün böyük əhəmiyyətə malikdir, çünki istehsal güclərini düzgün əsaslandırmaq və istehsalın hansı buraxılış həcmində rentabelli olacağını, hansında isə mənfəət verməyəcəyini müəyyən etmək imkanı yaradır.

Zərərsiz işləmək – alınması zəruri olan mədaxillə, yaxud xərclərin tam ötürülməsini (ödənilməsini) təmin etmək üçün satılması lazım olan məhsulun natural vahidlərdə miqdarı ($q_{böh}$) ilə ifadə edilə bilər. $q_{böh}$ nöqtəsi mədaxil xəttinin məhsulun tam maya dəyəri xəttilə kəsişdiyi yerdə yerləşir (sxem 9.6).

Rentabellik astanasının (satışın zərərsiz həcminin, istehsalın böhran nöqtəsinin) müəyyən edilməsinin analitik üsullarını nəzərdən keçirək. *Böhran nöqtəsi* tərifinə görə məhsulun o həcmini əks etdirir

ki, bu halda mənfəət sıfıra bərabər (M=0), mədaxil isə – məhsulun tam maya dəyərinə bərabər olur (RH=X və ya RH=$X_{dəy}$+X_{sabit}).

Əgər mədaxili realizə edilmiş məhsulun həcmini (q) onun qiymətinə (p) vurma hasili kimi, yəni RH= q × p qəbul etsək, onda mononomenklaturalı istehsal üçün aşağıdakı ifadəni alarıq:

$$q \times p = X_{sabit} + X_{dəy} \times q \qquad (9.53)$$

(9.53) tənliyi müxtəlif qiymətlər alınması üçün əsasdır. Belə ki, məhsul istehsalının zərərsiz həcmi natura ifadəsində

$$q_{böh} = \frac{X_{sabit}}{p - X_{dəy}} \qquad (9.54)$$

Nəzərə alsaq ki, qiymət və dəyişən xərclərin fərqi məmulat üzrə marjinal gəlirdir (9.54) düsturu bu şəkildə olacaq:

$$q_{böh} = \frac{X_{sabit}}{MG} \qquad (9.55)$$

Əsas düsturdan (9.53) istifadə edərək, satışın böhran qiymətini (məmulatın aşağı qiymətini) müəyyən etmək olar ki, bu halda xərclər tam ödənilmiş olur:

$$p_{böh} = \frac{X_{sabit}}{q} + X_{dəy} \qquad (9.56)$$

Aşağıdakı misalı araşdıraq. Tutaq ki, təşkilat bir adda məhsul istehsal edir, bu halda

1) p = 1000 manat;
2) $X_{dəy}$ = 600 manat;
3) X_{sabit} = 80000 manat.

Müəssisə zərərsiz işləməyə nail olmaq üçün istehsal etməsi zəruri olan məmulatların həcmini (9.54) düsturu ilə hesablayırıq.

$$q_{böh} = 80000 : (1000 - 600) = 200 \text{ ədəd}$$

Əgər (9.54) bərabərliyinin sol və sağ hissələrini məmulatın qiymətinə vursaq satışın dəyər ifadəsində böhran həcminin müəyyən edilməsi üçün aşağıdakı düsturu alarıq:

$$RH_{böh} = \frac{X_{sabit}}{1 - d_{dəy}} \qquad (9.57)$$

və ya

$$RH_{böh} = \frac{X_{sabit}}{d_{MG}} \qquad (9.58)$$

burada $d_{dəy}$ - dəyişən xərclərin məmulatın qiymətində payıdır; d_{MG}- satışdan alınan mədaxildə marjinal gəlirin payıdır

$$d_{MG} = \frac{MG}{RH} = \frac{RH - X_{dəy}}{RH} = 1 - d_{dəy}$$

Bu misalda rentabellik astanası ((9.57) düsturuna baxın):

$$RH_{böh} = 80000 : \left(1 - \frac{600}{1000}\right) = 200 \text{ min manat təşkil edir.}$$

Yuxarıda təqdim edilmiş metodika yalnız o təşkilatlarda tətbiq oluna bilər ki, onlar ya bir növ məhsul istehsal edir, yaxud elə məhsul istehsal edirlər ki, onu vahid şərti bircinsli ölçüyə gətirmək olar.

Bazar şəraitində iflasa yol verilməməsi üçün təşkilatlar öz istehsal proqramlarını hətta ən faydalı bir nomenklatura mövqeyi əsasında tərtib edə bilməzlər, istehsalın diversifikasiyasını həyata keçirməyə məcburdurlar.

İqtisadi ədəbiyyatlarda çox nomenklaturalı məhsul istehsalı zamanı satışın böhran həcminin hesablanmasının müxtəlif variantları təklif olunur. Məsələn, [34] işində aşağıdakı düstur vasitəsi ilə aparılır:

$$q_{böh_i} = \frac{X_{sabit} \times y_i}{p_i - X_{dəyi}} \qquad (9.59)$$

burada $q_{böh_i}$ – i - ci məmulatın istehsal həcminin zərərsizlik (zərərsiz işləmək) nöqtəsində natural ifadədə astana miqdarıdır; y_i - satışdan alınan ümumi mədaxildə i - ci məmulatın xüsusi çəkisidir.

Bu üsulda sabit xərclərin məcmu məbləğinin və onların ayrı-ayrı məhsul növlərinə düşən payının düzgün əsaslandırılması ən əsas məsələdir. Sabit xərclərin məmulatlar üzrə bölüşdürülməsi satışdan alınan mənfəətə ((9.59) düsturunda olduğu kimi), dəyişən xərclərə və ya təşkilatın özünün seçdiyi digər bazalara mütənasib surətdə həyata keçirilə bilər.

Həmin məqsədlər üçün aşağıdakı tənlik təklif edilir:

$$\sum q_{böh_i}(p_i - X_{dəy_i}) = X_{sabit} = 0. \qquad (9.60)$$

Bu tənlikdə müəssisənin neçə növ məhsul istehsal etməsi zəruridirsə, o qədər dəyişmələr ($q_{böh\,i}$) olur.

Qeyd etmək lazımdır ki, çoxnomeklaturlu məhsul istehsal edən təşkilatlar üçün istehsal həcminin, maya dəyərinin və mənfəətin qarşılıqlı əlaqəsinin təhlili metodikası hələ kifayət qədər işlənib hazırlanmamışdır. Odur ki, ölkəmizin təşkilatlarının əməli fəaliyyətində marjinal təhlil hələlik geniş tətbiq edilmir.

Təşkilatın *maliyyə sabitliyi ehtiyatının (təhlükəsizlik zonasının)* müəyyən edilməsi «direkt-kostinq» sistemində təhlilin mühüm vəzifəsidir. Əgər rentabellik astanası məlumdursa, onda maliyyə sabitliyi ehtiyatı (MSE) aşağıdakı kimi müəyyən edilir:

$$MSE = RH - RH_{böh}, \qquad (9.61)$$

yəni o, faktiki əldə edilmiş (yaxud planlaşdırılan) realizasiya həcminin (satışdan alınan mədaxilin) böhran həcmindən yüksək olmasıdır. Nisbi ifadədə (satışın faktiki alınmış (planlaşdırılan) həcminə faizlə) aşağıdakı düsturla hesablanır:

$$MSE = \frac{RH - RH_{böh}}{RH} \times 100. \qquad (9.62)$$

Təhlükəsizlik zonası satış həcminin böhran həcmdən (rentabellik sıfıra bərabər olan həcmdən) neçə faiz yüksək olmasını göstərir. Əgər, əksinə, mədaxil rentabellik astanasından az olarsa, onda təşkilatda zərərlər yaranır, onun maliyyə vəziyyəti pisləşir.

Şərti misalı araşdıraq (cədvəl 9.16). Təqdim edilmiş məlumatlardan görünür ki, təşkilat işin zərərsizliyinə nail olmaq üçün baza dövründə 1047 min manat məbləğində məhsul satmalı idi. Əslində mədaxil 3200 min manat təşkil etmişdir ki, bu rentabellik astanasından 2153 min manat və ya 67,28% artıqdır. Bu təşkilatın maliyyə sabitliyi ehtiyatıdır (təhlükəsizlik zonasıdır). O, maliyyə sabitliyini itirmək riski olmadan satışdan alınan mədaxilin əldə edilmiş məbləğindən 67,28% aşağı düşməsinə davam gətirə bilərdi.

Hesabat dövründə faktiki alınmış mədaxil rentabellik astanasından 3716 min manat və ya 70,62% yüksək olmuşdur. Təhlükəsizlik zonası 3,34% genişlənmişdir. Bu, əsas etibarilə, məhsulun maya dəyərində sabit xərclərin payının azalması hesabına

alınmışdır. O, baza dövründə 13,59% (340:2501×100), hesabat dövründə isə – 11,22% (465:4144×100), yəni baza qiymətindən 2,37% az olmuşdur.

Cədvəl 9.16

Təşkilatın rentabellik astanasının və maliyyə sabitliyi ehtiyatının hesablanması

Göstəricilər	Sətrin sıra sayı	Baza dövrü	Hesabat dövrü	Kənarlaşma (+,-)
1	2	3	4	5
Məhsulun (iş və xidmətlərin) satışından alınan mədaxil, min manat	1	3200	5262	
Satışdan alınan mənfəət, min manat	2	699	1118	
Dəyişən xərclər, min manat	3	2161	3679	
Sabit xərclər, min manat	4	340	465	
Məcmu xərcləri, min manat	5	2501	4144	
Marjinal gəlir, min manat (sətir1-sətir 3 və ya sətir 2+sətir 4)	6	1039	1583	
Pul gəlirində marjinal gəlirin payı, % (sətir 6: sətir 1x100)	7	32,47	30,08	-2,39
Rentabellik astanası (sətir 4: sətir 7x100), min manat	8	1047	1546	+499
Maliyyə sabitliyi ehtiyatı a) məbləği, min manat (sətir 1 - sətir 8)	9	2153	3716	+1563
b) % (sətir 9 : sətir 1x100)	10	67,28	70,62	+3,34

9.4.3. Rentabellik astanası və müəssisənin maliyyə sabitliyinin yaxşılaşdırılması ehtiyatlarının amillər üzrə təhlili metodikası

Təşkilatın zərərsiz işləməsinə məqsədyönlü təsir edilməsi üçün onun dəyişilməsinin təsir edən amillər sistemini və onların təhlili metodikasını bilmək lazımdır.

(9.54) düsturundan görünür ki, məhsulun əlahiddə növünün rentabellik astanası sabit və dəyişən xərclərin miqdarından, habelə məmulatın qiymətindən asılıdır.

Sabit xərclərin artımı böhran həcminin artırılmasına səbəb olur, çünki artan məsariflərin örtülməsi üçün satışda əlavə məmulatın olması zərurəti yaranır. Bu düz mütənasib asılılıqdır. Beləliklə, zərərsizlik nöqtəsinin aşağı salınması üsullarından biri sabit xərclərin həcminin konkret azaldılması ola bilər.

Dəyişən xərclərin dəyişilməsi də bu istiqamətdə, lakin daimi xərclərlə bərabər olmayan dərəcədə təsir edir. Bu xərclərin hətta cüzi artımı əməliyyat linginin (rıçaqının) effektli təsiri sayəsində pul gəliri və mənfəətdə nəzərə çarpacaq dəyişikliklər yaradır.

Satış qiymətləri amili rentabellik astanasına münasibətdə kifayət qədər həssasdır. Qiymət nə qədər yüksək olarsa, zərərsizlik nöqtəsinə çatmaq üçün lazım olan satışın həcmi o qədər az olur və müvafiq surətdə, təşkilatın maliyyə vəziyyəti yaxşı olur.

Aşağıdakı ilkin məlumatlardan istifadə edərək məmulat üzrə istehsalın böhran həcminin ($q_{böh}$) dəyişilməsinə amillərin təsirini təhlil edək:

Variant	I	II
Məmulatın qiyməti (p), manat	1000	1100
Dəyişən xərclər ($X_{dəy}$), manat	600	660
Bütün məhsula sabit xərclər (X_{sabit}), manat	80000	84000
İstehsalın həcmi, ədəd	250	300

Aydındır ki, II variantda məmulatın qiymətinin və dəyişən xərclərin 10% və sabit xərclərin – 5% artması nəzərdə tutulmuşdur.

Amillərin rentabellik astanasının dəyişilməsinə təsirinin zəncirvari yerdəyişmələr üsulu ilə hesablanmasının alqoritmi:

baza göstəricisi $\frac{X_{sabit_0}}{p_0 - X_{dəy_0}} = \frac{80000}{1000-600} = 200$ vahid;

1-ci yerdəyişmə $\frac{X_{sabit_1}}{p_0 - X_{dəy_0}} = \frac{84000}{1000-600} = 210$ vahid;

2-ci yerdəyişmə $\frac{X_{sabit_1}}{p_1 - X_{dəy_0}} = \frac{84000}{1100-600} = 168$ vahid;

hesabat göstəricisi $\frac{X_{sabit_1}}{p_1 - X_{dəy_1}} = \frac{84000}{1100-660} = 191$ vahid.

Hesablamalardan görünür ki, satışın zərərsiz həcmi 9 vahid azalmışdır (191-200). Bu azalmaya amillərin təsiri belə olmuşdur:

1) sabit xərclərin məbləğinin artması: 210 –200 =+10 vahid;
2) məmulatın qiymətinin artması: 168 – 210 =-42 vahid;
3) dəyişən xərclərin yüksəlməsi: 191 – 168 =+23 vahid;
Yoxlama: 10 – 42 + 23 =-9 vahid.

Beləliklə, məmulatın qiymətinin 10% artması rentabellik astanasını 21% (42:200 × 100) azaltmaq imkanı yaratmışdır. Dəyişən xərclərin analoji dəyişilməsi (eyni 10%) rentabellik astanasının 11,5% (23 : 200 × 100) yüksəlməsinə səbəb olmuşdur. Sabit xərclərin 5% artması böhran nöqtəsini 5% (10:200×100) yüksəltmişdir.

Maliyyə sabitliyinin dəyişilməsinə rentabellik astanasına təsir edən amillər, o cümlədən satışın həcmi təsir edir. Həmin göstəricinin %-lə amillər üzrə təhlili üçün aşağıdakı kombinasiya edilmiş modeldən istifadə edilə bilər:

$$MSE = \frac{q - q_{böh}}{q} \times 100 = \frac{q - \frac{X_{sabit}}{p - X_{dəy}}}{q} \times 100. \qquad (9.63)$$

Maliyyə sabitliyi ehtiyatının formalaşması modelində aşağıdakı amillər nəzərə alınır: satışın həcmi (q), sabit xərclərin həcmi (X_{sabit}), məmulatın qiyməti (p) və dəyişən xərclər ($X_{dəy}$).

Hər amilin baza qiymətini ardıcıl surətdə (9.63) düsturunda hesabat qiymətilə əvəz etməklə, hər amil üzrə ayrıca maliyyə sabitliyi ehtiyatının dəyişilməsini müəyyən edirik:

$$MSE_{baza} = \frac{250-200}{250}\times 100 = 20\%;$$

$$MSE_{şərti_1} = \frac{300-200}{300}\times 100 = 33{,}3\%;$$

$$MSE_{şərti_2} = \frac{300-\frac{84000}{1000-600}}{300}\times 100 = 30\%;$$

$$MSE_{şərti_3} = \frac{300-\frac{84000}{1100-600}}{300}\times 100 = 44\%;$$

$$MSE_{hes} = \frac{300-191}{300}\times 100 = 36{,}3\%.$$

Təşkilatın maliyyə sabitliyi (təhlükəsizlik zonası) bütövlükdə 16,3% (36,3-20) artmışdır. Bu aşağıdakıların artmasının (azalmasının) təsirilə olmuşdur:

1) satışın həcminin 33,3-20=13,3%;
2) sabit xərclərin 30 - 33,3 =-3,3%;
3) məmulatın qiymətinin 44 – 30 =14%;
4) dəyişən xərclərin 36,3 – 44 =-7,7%.

Yoxlama: 13,3 - 3,3 + 14 - 7,7 = 16,3%.

Aydındır ki, təhlükəsizlik zonasının və rentabellik astanasının dəyişilməsinə sabit və dəyişən xərclərin artması mənfi, satışın həcminin və məmulatın qiymətinin artması müsbət təsir göstərmişdir.

Çox nomenklaturalı istehsal şəraitində struktur amilinin – satışın ümumi həcmində ayrı-ayrı məhsul növlərinin xüsusi çəkisinin təsirini nəzərə almaq lazımdır. Q.V.Savitskayanın işində amillər üzrə aşağıdakı model təklif edilir [35]:

$$RH_{böh} = \frac{X_{sabit}}{\sum_{i=1}^{n} y_i \frac{p_i - X_{dəy_i}}{p_i}} \qquad (9.64)$$

Satışın böhran həcmi dəyər ifadəsində, (9.64) düsturundan göründüyü kimi, aşağıdakı amillərin:

- bütün məhsula sərf edilən daimi xərclərin məbləğinin;
- məhsulun strukturunun;
- hər məmulatın qiymətinin;
- məmulatlar üzrə dəyişən xərclərin məbləğinin dəyişilməsinin

təsiri altında dəyişiləcəkdir.

Yoxlama sualları?

1. Məhsulun maya dəyəri nədir və onun təhlil edilməsinin vəzifələri hansılardır?
2. Məhsulun maya dəyəri hansı ümumi göstəricilərlə səciyyələnir və onların hesablanması qaydası necədir?
3. Tam maya dəyəri və məhsulun bir manatına düşən xərc göstəricilərinin dəyişilməsi amilləri hansılardır?
4. Tam maya dəyəri və məhsulun bir manatına düşən xərc göstəriciləri üzrə dinamikanı (planın yerinə yetirilməsini) necə qiymətləndirmək olar?
5. İstehsal ehtiyatlarından istifadə edilməsinin səmərəliliyi və məhsulun bir manatına düşən xərc göstəricilərinin qarşılıqlı əlaqəli modelinin görünüşü necədir və hansı xassələri vardır?
6. Material, əmək haqqı və amortizasiya tutumunun dəyişilməsi amilləri hansılardır?
7. Material, əmək haqqı və amortizasiya tutumunun dəyişilməsi amillərinin mənfəətin məbləğinin dəyişilməsinə təsirini necə müəyyən etmək olar?
8. Xərclərin maddələr üzrə qruplaşdırılması nədir və onun analitik əhəmiyyəti nədən ibarətdir?

9. Birbaşa material xərclərinin dəyişilməsi amilləri hansılardır və onların təhlili metodikası necədir?
10. İstehsal fəhlələrinin əmək haqqının dəyişilməsi amilləri hansılardır və təhlili metodikası necədir?
11. Əmək haqqı xərclərindən istifadə edilməsinin ümumi qiymətləndirilməsi qaydası necədir və ƏÖX-nin şəxsi heyətin kateqoriyaları üzrə mütləq dəyişilməsinə hansı amillər təsir edir?
12. Kompleks xərc maddələrinin tərkibi necədir və iqtisadi məzmunu nədən ibarətdir?
13. Məhsulun maya dəyərinin aşağı salınmasının mümkün istifadə edilməmiş ehtiyatları nədən ibarətdir?
14. «Direkt-kostinq» sisteminin mahiyyəti və xərclərin ənənəvi təhlillə müqayisədə üstünlüyü nədədir?
15. Marjinal təhlil sistemində hansı əsas anlayışlardan və göstəricilərdən istifadə edilir və onun nəticələrinin mötəbərliyi şərtləri hansılardır?
16. Rentabellik astanası və maliyyə sabitliyi ehtiyatı anlayışlarının iqtisadi məzmunu necə xarakterizə edilir və onların hesablanması üsulları hansılardır?
17. Rentabellik astanasının və maliyyə sabitliyi ehtiyatının dəyişilməsinə hansı amillər təsir göstərir?

X FƏSİL

MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

10.1. Gəlirlər və xərclər anlayışı. Gəlirlər və xərclər müəssisənin maliyyə nəticələrinin formalaşmasının iqtisadi bazası kimi

Kommersiya təşkilatlarının maliyyə nəticələrinin formalaşmasının iqtisadi əsası onların gəlirlərindən və xərclərindən ibarətdir. Onların mahiyyəti və tərkibi mühasibat uçotu üzrə normativ sənədlərlə müəyyən edilir.

Gəlirlər və xərclər haqqında əsas müddəalar 10.1 cədvəlində təqdim edilmişdir.

Cədvəl 10.1

Təşkilatın gəlirlərinin və xərclərinin mahiyyəti və tərkibi

Əsas anlayışlar	«Təşkilatın gəlirləri»	«Təşkilatın xərcləri»
1	2	3
Gəlirlərin və xərclərin mahiyyəti	Təşkilatın gəlirləri aktivlərin daxil olması və (və ya) öhdəliklərin ödənilməsi nəticəsində həmin təşkilatın kapitalının artmasını təmin edən (iştirakçıların payları istisna olmaqla) *iqtisadi faydanın artmasından* ibarətdir.	Təşkilatın xərcləri aktivlərin çıxılması və (və ya) öhdəliklərin yaranması nəticəsində həmin təşkilatın kapitalının azalması ilə nəticələnən (iştirakçıların qərarı ilə payların azalması istisna olmaqla) *iqtisadi faydanın azalmasından* ibarətdir.

Cədvəl 10.1-in davamı

1	2	3
Gəlirlərin və xərclərin tərkibi	Təşkilatın fəaliyyətinin xarakterindən, həyata keçirilməsi şəraitindən və istiqamətlərindən asılı olaraq gəlirlər və xərclər aşağıdakılara bölünür:	
	a) adi fəaliyyət növlərindən alınan gəlirlər; b) əməliyyat gəlirləri; c) satışdan kənar gəlirlər; ç) fövqəladə gəlirlər.	a) adi fəaliyyət növləri üzrə xərclər; b) əməliyyat xərcləri; c) satışdan kənar xərclər; ç) fövqəladə xərclər.
Adi fəaliyyət növləri üzrə gəlirlər və xərclər	Adi fəaliyyət növləri üzrə gəlirlər məhsulun və malların satışından alınan mədaxildən, işlərin yerinə yetirilməsi, xidmətlər göstərilməsi ilə əlaqədar daxil olmalardan ibarətdir. Mədaxil mühasibat uçotuna pul vəsaitlərinin və digər əmlakın daxil olmalarının həcminə və (və ya) debitor borclarının kəmiyyətinə bərabər pul ifadəsində hesablanmış məbləğlə qəbul edilir.	Adi fəaliyyət növləri üzrə xərclər məhsulun hazırlanması və satışı ilə, malların əldə edilməsi və satılması, habelə işlərin yerinə yetirilməsi, xidmətlər göstərilməsi ilə əlaqədar xərclərdən ibarətdir. Adi fəaliyyət növləri üzrə xərclər mühasibat üçotuna pul və digər formada ödənişlərin həcminin və ya kreditor borclarının miqdarına bərabər pul ifadəsində hesablanmış məbləğdə qəbul edilir.
Əməliyyat gəlirlərinin və xərclərinin tərkibi	a) təşkilatın aktivlərinin ödənişli əsasda müvəqqəti istifadəyə (müvəqqəti sahibliyə və istifadəyə) verilməsilə əlaqədar daxil olmalar; b) ixtiralara, sənaye nümunələrinə dair potentlər və intellektual (əqli) mülkiyyətin digər növləri üzrə yaranan hüquqların ödənişli əsasda təqdim edilməsilə əlaqədar daxilolmalar; c) digər təşkilatların nizamnamə kapitalında iştirak etməklə əlaqədar daxilolmalar (qiymətli kağızlar üzrə faizlər və digər gəlirlər daxilolmaqla) və təşkilatın birgə fəaliyyəti (sadə şəriklik müqaviləsi üzrə) nəticəsində alınmış mənfəət;	a) təşkilatın aktivlərinin ödənişli əsasda müvəqqəti istifadəyə (müvəqqəti sahibliyə və istifadəyə) verilməsilə əlaqədar xərclər; b) ixtiralara, sənaye nümunələrinə dair potentlər və intellektual (əqli) mülkiyyətin digər növləri üzrə yaranan hüquqların ödənişli əsasda təqdim edilməklə əlaqədar xərclər; c) digər təşkilatların nizamnamə kapitalında iştirak etməklə əlaqədar xərclər;

Cədvəl 10.1-in davamı

1	2	3
	ç) əsas vəsaitlərin və pul vəsaitlərindən (xarici valyutadan başqa) fərqli digər aktivlərin, məhsulların, malların satışından alınan daxilolmalar; d) digər təşkilatlara pul vəsaitlərinin istifadəyə verilməsinə görə alınmış faizlər, habelə pul vəsaitlərinin bankda saxlanmasına görə faizlər; e) -	ç) əsas vəsaitlərin və pul vəsaitlərindən (xarici valyutadan başqa) fərqli digər aktivlərin, malların, məhsulların satışı, sıradan çıxması və digər silinməsi ilə əlaqədar xərclər; d) təşkilata pul vəsaitlərinin (kreditlərin, istiqrazların) istifadəyə verilməsinə görə ödənilən faizlər; e) kredit təşkilatlarının göstərdiyi xidmətlərin haqqının ödənilməsilə əlaqədar xərclər;
	ə) - f) digər əməliyyat xərcləri.	ə) mühasibat uçotu qaydalarına uyğun olaraq yaradılan qiymətləndirmə ehtiyatlarına (şübhəli borclar üzrə ehtiyatlara, qiymətli kağızlara pul qoyulmasının təmin edilməsi üçün və s. ayırmalar) f) digər əməliyyat xərcləri.
Satışdan kənar gəlirlərin və xərclərin tərkibi	a) müqavilə şərtlərinin pozulmasına görə cərimələr; penyalar, dəbbələmə pulları; b) əvəzsiz (müftə) alınmış aktivlər, o cümlədən bağışlama müqaviləsi üzrə; c) təşkilata dəymiş zərərlərin ödənilməsi üzrə daxilolmalar; ç) hesabat ilində aşkar edilmiş keçən illərin mənfəəti; d) iddia müddəti keçmiş kreditor və deponent borclarının məbləğləri; e) kurs fərqləri; ə) aktivlərin əlavə qiymətləndirilməsi məbləği;	a) müqavilə şərtlərinin pozulmasına görə cərimələr, penyalar, dəbbələmə pulları; b) - c) təşkilat tərəfindən vurulmuş zərərlərin ödənilməsi; ç) hesabat ilində qəbul edilmiş keçən illərin zərərləri; d) iddia müddəti keçmiş debitor borclarının, alınması real olmayan digər borcların məbləğləri; e) kurs fərqləri; ə) aktivlərin qiymətinin azaldılması məbləği;

Cədvəl 10.1-in davamı

1	2	3
	f) - g) satışdan kənar digər gəlirlər.	f) xeyriyyəçilik fəaliyyətilə əlaqədar vəsaitlərin (haqqların, ödəmələrin və s.) köçürülməsi, idman və mədəni – maarif tədbirlərinin həyata keçirilməsi xərcləri; g) satışdan kənar digər xərclər.
Fövqəladə gəlirlərin və xərclərin tərkibi	Fövqəladə gəlirlər təsərrüfat fəaliyyətinin fövqəladə hadisələrinin nəticələri kimi yaranan daxilolmalardan: sığorta ödəmələrindən, bərpa edilməyə və sonrakı istifadəyə yararlı olmayan aktivlərin silinməsindən qalan maddi sərvətlərin dəyərindən v s. ibarətdir.	Fövqəladə xərclər təsərrüfat fəaliyyətinin fövqəladə hadisələrinin (təbii fəlakətlərin, yanğınların, qəzaların, əmlakın milliləşdirilməsinin və s.) nəticələri kimi yaranan xərclərdən ibarətdir.
Gəlirlərin və xərclərin qəbul edilməsi şərtləri	Mədaxil mühasibat uçotunda aşağıdakı şərtlər olduqda qəbul edilir: a) təşkilatın bu mədaxilin alınmasına konkret müqavilədən irəli gələn yaxud digər müvafiq surətdə təsdiqlənmiş hüquqi vardır; b) mədaxilin məbləği müəyyən edilə bilər; c) konkret əməliyyat nəticəsində təşkilatın iqtisadi faydalarının artması əminliyi var. Bu əminlik təşkilat ödənilmə üçün aktiv aldığı zaman yaxud aktivlərin alınmasına münasibətdə qeyri - müəyyənlik olmadığı halda mövcud olur;	Xərclər mühasibat uçotunda aşağıdakı şərtlər olduqda qəbul edilir: a) xərc konkret müqaviləyə, qanunvericilik və normativ aktların tələblərinə, işgüzar dövriyyə qaydalarına (adətlərinə) uyğun olaraq əmələ gəlir; b) xərcin məbləği müəyyən edilə bilər; c) konkret əməliyyat nəticəsində təşkilatın iqtisadi faydalarının azalması yəqinliyi var. Bu yəqinlik təşkilat aktivi verdiyi yaxud aktivin verilməsinə münasibətdə qeyri – müəyyənlik olmadığı halda mövcud olur;
	ç) məhsula (mala) mülkiyyət (sahiblik, istifadə və sərəncam) hüququ təşkilatdan alıcıya keçmişdir, işi sifarişçi qəbul etmişdir, xidmət göstərilmişdir; d) -	ç) amortitzasiya köhnələn aktivlərin dəyəri, faydalı istifadə müddəti və təşkilatın qəbul etdiyi amortizasiya hesablamaları üsulları əsasında müəyyən edilən amortizasiya ayrılmalarına əsaslanan xərc kimi qəbul edilir; d) bu əməliyyatla əlaqədar ödənilmiş və ya ödəniləcək xərclər müəyyən edilə bilər.

Cədvəl 10.1-in davamı

1	2	3
	Təşkilat mühasibat uçotunda uzun müddətdə yerinə yetirilən işlər, göstərilən xidmətlər, uzun müddətə hazırlanan məhsulların satışı üzrə mədaxili iş, xidmət, məhsul hazır olduqca yaxud bütövlükdə işin yerinə yetirilməsi, xidmət göstərilməsi, məhsul hazırlanması başa çatdıqda qəbul edə bilər.	Mədaxil, əməliyyat yaxud digər gəlirlər almaq niyyətindən və xərcin həyata keçirilməsi formasından (pulla, natural və digər formada) asılı olmayaraq xərclər mühasibat uçotunda qəbul edilməlidir.
	Əgər məhsulun satışından, işin yerinə yetirilməsindən, xidmət göstərilməsindən mədaxilin məbləği müəyyən edilə bilməzsə, onda o, mühasibat uçotunda bu məhsulun hazırlanması, bu işin yerinə yetirilməsi, bu xidmətin göstərilməsi üzrə gələcəkdə təşkilata ödəniləcək xərclərin mühasibat uçotunda qəbul edilmiş ölçüsündə nəzərə alınır.	Pul vəsaitlərinin ödənilməsinin və ya xərclərin həyata keçirilməsinin digər formasının (təsərrüfat fəaliyyəti faktlarının müvəqqəti müəyyənliyi ehtimalının) faktiki vaxtından asılı olmayaraq, xərclər mövcud olduğu hesabat dövründə qəbul edilir. Əgər təşkilat icazə verilmiş hallarda məhsulun və malların satışından alınan mədaxilin göndərilmiş məhsul, buxarılmış mal, yerinə yetirilmiş iş, göstərilmiş xidmət üzrə sahiblik, istifadə və sərəncam hüquqları verildikcə deyil, pul vəsaitləri daxil olandan və digər ödəniş formasından sonra nəzərə alınması qaydasını qəbul etmişdirsə, onda xərclər borcların ödənilməsindən sonra qəbul edilir.

10.2. Zərərsiz fəaliyyət müəssisənin maliyyə sabitliyinin təmin edilməsi amili kimi

Kommersiya təşkilatı anlayışı istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin nəticəsi kimi mənfəət alınmasını nəzərdə tutur. Azərbaycan Respublikasının Mülki məcəlləsinin 43-cü maddəsində deyilir: «Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsəd mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri - kommersiya hüquqi şəxsləri) qurumlar ola bilər».

Mənfəət – təşkilatın işinin səmərəliliyinin ən mühüm iqtisadi göstəricisidir. Onun məbləğinin dəyişməsində təşkilatın fəaliyyətinin bütün tərəfləri:

1) malların, məhsulların, işlərin, xidmətlərin istehsal və satışı həcmlərinin azalması və ya artması;

2) təşkilatın malik olduğu ehtiyatlardan (maddi, əmək ehtiyatlarından, əsas fondlardan və s.) səmərəli yaxud səmərəsiz istifadə edilməsi;

3) rəqabətlə əlaqədar satış bazarlarında qiymət siyasəti;

4) maliyyə əməliyyatlarının (pul vəsaitlərilə, qiymətli kağızlarla) səmərəliliyi;

5) əmlak üzrə əqdlərin (sazişlərin) səmərəliliyi;

6) digər təşkilatların fəaliyyətində iştirakın səmərəliliyi;

7) debitor borclarının idarə edilməsinin səmərəliliyi;

8) təsərrüfatsızlıq sayəsində zərərlərin (kontragentlərlə müqavilə şərtlərinin pozulmasına görə cərimələrin, penyaların, dəbbələmə pullarının, digər təşkilatlara vurulmuş zərərlərin əvəzinin ödənilməsinin və s.) olması və ya olmaması aydınlaşdırılır.

İdarəetmənin icraçı orqanı (baş direktor, direktorlar şurası) əsas fəaliyyət üzrə zərərli əməliyyatların, daşınmaz əmlak, valyuta və digər əmlak üzrə zərərli sazişlərin yaranması səbəblərini təşkilatın mülkiyyətçilərinə (səhmdarlarına) izah etməlidir.

Mənfəət 80-ci – «Mənfəət və zərər» hesabında ilin əvvəlindən başlayaraq artan yekunla nəzərə alınır:

- kredit üzrə – mənfəətlər, gəlirlər;
- debet üzrə – zərərlər, xərclər.

Mənfəətin göstəriciləri mühasibat hesabatında «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» üzrə 2 saylı formada təqdim edilir.

Mənfəət – kommersiya təşkilatlarında investisiyaların, habelə şəxsi heyətin maddi həsləndirilməsinin və sosial ödəmələrin ən mühüm mənbəyidir.

Hesabat ilinin və keçmiş illərin bölüşdürülməmiş mənfəəti təşkilatın öz dövriyyə kapitalının artırılması üçün istifadə edilir, yəni onun bazarda davamlılığının və ödəmə qabiliyyətinin yüksəldilməsinə şərait yaradır.

10.3. Təhlilin vəzifələri və informasiya mənbələri

Maliyyə nəticələrinin təhlilinin əsas vəzifələri aşağıdakılardır:

1) bütövlükdə təşkilat üzrə və onun daxili struktur bölmələri üzrə mənfəət planının yerinə yetirilməsinin qiymətləndirilməsi;

2) satışdan alınan mənfəətin, balans mənfəəti və xalis mənfəətin keçən dövrə nisbətən plan üzrə və faktiki artım templərinin müəyyən edilməsi. Plan üzrə artım templərinin müəyyən edilməsi plan tapşırıqlarının gərginlik dərəcəsini qiymətləndirməyə şərait yaradır, faktiki (həqiqi) artım templərinin müəyyən edilməsi isə satışdan alınan mənfəətin balans mənfəəti və xalis mənfəətin göstəricilərinin dinamikasını müşahidə etmək imkanı yaradır;

3) biznes-planın yerinə yetirilməsi dərəcəsini və satışdan alınan mənfəətin balans mənfəəti və xalis mənfəət göstəriciləri dinamikasını müəyyən edən amillərin təhlili;

4) ayrı-ayrı daxili struktur bölmələrinin fəaliyyətinin nəticələrinin təşkilatın biznes-planının yerinə yetirilməsi göstəricilərinə, habelə satışdan alınan mənfəətin, balans mənfəəti və xalis mənfəət göstəriciləri dinamikasına təsirinin aşkar edilməsi;

5) satışdan alınan mənfəətin, balans mənfəəti və xalis mənfəət məbləğlərinin artırılmasının mümkün olan ehtiyatlarının müəyyən edilməsi;

6) istehsalın səmərəliliyinin yüksəldilməsi üzrə daxili ehtiyatların aşkar edilməsi və onlardan istifadənin təşkili, idarəetmə qərarlarının hazırlanması.

İqtisadi təhlil istehsalatın daxili ehtiyatlarının müəyyən edilməsi və onlardan istifadə üzrə işi təşkil etmək üçün yardımçı olmalıdır. Bununla əlaqədar olaraq onlara iqtisadi qiymət vermək, sonra isə idarəetmə qərarlarının hazırlanması mərhələsinə keçmək lazımdır. Təhlillə məşğul olan analitik istehsalın idarə edilməsi üzrə qərarların variantlarını hazırlamalıdır. Bunun üçün hansı dəyişikliklərin baş verməsini və onların xarakterini bilmək lazımdır. Həmçinin dəyişikliklərin meylini (tendensiyasını) da izləmək lazımdır. Onlar mənfi və artan ola bilər, onda bu meylin inkişafına mane olan və yekunda belə meyllərin azalmasına gətirib çıxaran tədbirlər görmək lazımdır. Mənfi, lakin sönən xarakter daşıyan kənarlaşmalar ola bilər. Bu o deməkdir ki, istehsalın idarə edilməsi gedişində əvvəllər görülmüş tədbirlər təşkilatda vəziyyətin yaxşılaşmasına kömək edir. Bu halda belə tədbirlər görülməsini davam etdirmək və dəstəkləmək, lazım olduqda onların təsirini gücləndirmək lazımdır.

Rentabellik göstəricilərinin təhlilinin əsas vəzifələrinə aşağıdakılar aiddir:

1) məhsulun rentabelliyi göstəriciləri və kommersiya təşkilatlarında rentabelliyin göstəricilər sistemi üzrə planın yerinə yetirilməsinin qiymətləndirilməsi;

2) məhsulun rentabelliyi və kommersiya təşkilatının rentabelliyi göstəricilərinin dinamikasının təhlili;

3) məhsulun rentabelliyi və kommersiya təşkilatının rentabelliyi göstəricilərinin dinamikasını şərtləndirən amillərin təhlili;

4) məhsulun rentabelliyinin və kommersiya təşkilatının rentabelliyinin yüksəldilməsinin mümkün olan ehtiyatlarının aşkar edilməsi.

Rentabellik göstəricilərinin təhlili zamanı istifadə edilən informasiya mənbələri 1.7-də təqdim edilmişdir.

10.4. Müəssisənin maliyyə nəticələrinin təhlilinin göstəricilər sistemi

Kommersiya təşkilatlarının maliyyə nəticələrinin mühasibat hesabatında formalaşması (təşəkkülü) barədə informasiyanın əks etdirilməsi üçün «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» üzrə 2 saylı forma nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Maliyyə nazirliyinin «Təşkilatların mühasibat (maliyyə) hesabatı formaları haqqında» əmrində hesabat formalarının nümunələri təsdiq edilmişdir. Hesabat göstəricilərinin kodlaşdırılması qaydası Azərbaycan Respublikası Dövlət Statistika komitəsinin və Azərbaycan Respublikası Maliyyə nazirliyinin müvafiq əmrləri ilə müəyyən edilmişdir.

Planlaşdırma, uçot və iqtisadi təhlil zamanı mənfəət göstəricilərinin 2 saylı formada təqdim edilmiş aşağıdakı sistemindən istifadə edilir:

1) ümumi mənfəət;
2) satışdan alınan mənfəət (satışın nəticələri);
3) balans mənfəəti (vergi hesablanana qədər mənfəət);
4) xalis mənfəət.

1. Ümumi mənfəət iqtisadi mənasına görə marjinal (fərqli) gəlir göstəricisinə yaxındır. O, malların, məhsulların, işlərin, xidmətlərin satışından alınan mədaxillə (netto) (ƏDV, aksiz və analoji öhdəlik ödənişləri çıxılmaqla) satılmış malların, məhsulların, işlərin, xidmətlərin maya dəyəri arasında fərq kimi hesablanır (2 saylı forma üzrə: sətir 010 - sətir 040). 2 saylı formada o, 050-ci sətrdə əks etdirilir.

2. Satışdan alınan mənfəət (satışın nəticələri) – təşkilatın əsas fəaliyyətindən alınan maliyyə nəticəsidir. 2 saylı formada o, 050-ci sətrdə göstərilir.

3. Balans mənfəəti (vergi hesablanana qədər mənfəət) (BM) təşkilatın fəaliyyətinin bütün növləri üzrə toplu (məcmu) maliyyə nəticəsidir. 2 saylı formada o, 090-cı sətirdə göstərilir. Bu göstərici belə hesablanır: balans mənfəəti = satışdan alınan mənfəət (satışın nəticələri) + sair satışın nəticələrindən alınan gəlirlər - sair satışın

nəticələrindən alınan xərclər + alınmalı faizlər – ödənilməli faizlər + digər təşkilatlarda iştirak edilməsindən alınan gəlirlər + digər əməliyyat gəlirləri – digər əməliyyat xərcləri + satışdan kənar gəlirlər – satışdan kənar xərclər.

4. Xalis mənfəət (XM) – cari mənfəət vergisi (CMV) hesablanandan sonra, təxirə salınmış vergi aktivlərini (TVA) və təxirə salınmış vergi öhdəliklərini (TVÖ) nəzərə almaqla balans mənfəətinin təşkilatın sərəncamında qalan hissəsidir. Xalis mənfəət aşağıdakı düsturla müəyyən edilir:

$$XM = BM + TVA - TVÖ - CMV.$$

10.5. Maliyyə hesabatının məlumatları əsasında balans mənfəətinin strukturu və dinamikasının təhlili

«Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» üzrə 2 saylı formada *balans mənfəəti* (vergi hesablanana qədər) iki analoji (oxşar) vaxt dövrü ərzində toplananları baxımından tərkibi barədə məlumatlar verilir. Təhlil zamanı bu məlumatlar tutuşdurulur və hər toplamanın balans mənfəəti məbləğinin və faizinin dəyişilməsinə necə təsir etməsini hesablamaq olar. Beləliklə, vergi hesablanana qədər mənfəətin amillər üzrə (faktorlu) təhlili 2 saylı formanın məlumatları əsasında aparılır. Vergi hesablanana qədər mənfəətin dəyişilməsi amilləri (faktorları) onun toplananlarından ibarətdir. Təhlil edilməsi üçün 10.2 cədvəlini tərtib etmək olar.

10.2 cədvəlinin 8-ci qrafasında «müqayisə edilən» adlanan faizlər hesablanmışdır. Onlar ona görə belədir ki, hər biri eyni bazaya – əvvəlki dövrün balans mənfəətinin məbləğinə nisbətən hesablanmışdır. 8-ci qrafanın göstəriciləri balans mənfəətinin hər toplananın onun dəyişilməsinin ümumi faizinə təsirinin faizini əks etdirir.

Cədvəl 10.2

Balans mənfəətinin amilli (faktorlu) təhlili

Sıra sayı	Balans mənfəətinin toplananları (dəyişmə amilləri)	Əvvəlki analoji dövrdə		Hesabat dövründə		Balans mənfəətinə təsiri (+, -)	
		məbləği, min man.	xüsusi çəkisi, %	məbləği, min man.	xüsusi çəkisi, %	məbləği, min man.	faizlər
1	2	3	4	5	6	7	8
1	Satışdan alınan mənfəət	36500	91,25	49100	87,68	+12600	+31,5
2	Alınmalı faizlər	5400	13,50	7000	12,50	+1600	+4,0
3	Ödənilməli faizlər	-2700	-6,75	-3500	-6,25	-800	-2,0
4	Digər təşkilatlarda iştirak etməkdən alınan gəlirlər	-	-	-	-	-	-
5	Digər əməliyyat gəlirləri	4400	11,00	6400	11,43	+2000	+5,0
6	Digər əməliyyat xərcləri	-3700	-9,25	-3300	-5,89	+400	+1,0
7	Satışdan kənar gəlirlər	900	2,25	1000	1,78	+100	+0,25
8	Satışdan kənar xərclər	-800	-2,00	-700	-1,25	+100	+0,25
9	Balans mənfəəti	40000	100,0	56000	100,0	+16000	+40,0

Hesabat dövründə balans mənfəətinin məbləği 56000 min manat təşkil etmişdir. O, əvvəlki dövrdə müqayisədə 16000 min manat və ya 40% artmışdır. Balans mənfəətinin artmasına səbəb olan əsas amil – əsas fəaliyyətdən alınan mənfəətin artımıdır. Sonuncunun hesabına mühasibat üzrə mənfəət 12600 min manat və ya 31,5% artmışdır. Əhəmiyyətinə görə ikinci amil – əmlakla aparılan əqdlər (sazişlər) hesabına mənfəətin artmasıdır: digər əməliyyat gəlirləri mühasibat

üzrə mənfəətin 2000 min manat və ya 5% artımını təmin etmişdir və eyni zamanda digər əməliyyat xərcləri 400 min manat azalmışdır, bu isə, müvafiq olaraq, balans mənfəətini 1% artırmışdır. Əhəmiyyətinə görə növbəti amil – maliyyə əməliyyatları üzrə gəlirlərin yüksəlməsidir: alınmalı faizlər balans mənfəətinin 1600 min manat və ya 4% artmasını təmin etmişdir.

Analoji sürətdə balans mənfəətinin dəyişilməsinin qalan amillərini şərh etmək olar.

Sonrakı təhlil balans mənfəətinin hər bir tərkib elementinin ətraflı öyrənilməsinə yönəlməlidir. Bu məqsədlə mühasibat uçotu məlumatlarından («Mənfəət və zərər üzrə 80-ci hesabın debet və kredit əməliyyatlarının qeydləri) istifadə etmək lazımdır. Ətraflı təhlil zamanı maliyyə əməliyyatlarından məhz hansı faizlər alınmasını (hesablamasını) müəyyən etmək olar. Digər əməliyyat gəlirləri və xərcləri üzrə əmlakla məhz hansı əməliyyatlar aparılmasını, zərərli əqdlərin olub-olmamasını aydınlaşdırmaq arzu edilmişdir. Əgər bələləri olmuşdursa, onda onların təşəbbüskarının kim olmasını, zərərlərin hansı səbəbdən baş verməsini və onların təqsirkar şəxslərin hesabına ödənilməsinin mümkün olmasını aydınlaşdırmaq lazımdır.

Keçmiş illərin borclarının və zərərlərinin silinməsinə sərf olunmuş satışdan kənar xərclər, ödənilmiş cərimələr, penyalar, dəbbələmə pulları çox dəqiq surətdə öyrənilməlidir. Satışdan kənar zərərlərin bütün növləri üzrə təqsirkar şəxsləri müəyyən etmək, habelə gələcəkdə belə zərərlərə yol verilməməsi üzrə təşkilati-texniki tədbirlər hazırlayıb həyata keçirmək məqsədəuyğundur.

10.6. Satışdan alınan mənfəətin icmal hesablar üzrə təhlili

Malların, məhsulların (iş və xidmətlərin) satışından alınan mənfəətin plan məbləğinin əsaslandırılması üçün maliyyə planının tərkibində «Satışdan əldə edilən mənfəətin icmal hesablar» üzrə cədvəli hazırlanır.

Həmin hesablama tərtib edilən zaman aşağıdakı müxtəlif metodlardan istifadə edilə bilər:

1) Satışın maya dəyərinin icmal smetasının tərtib edilməsi metodikası;

2) Məhsulların (iş və xidmətlərin) növləri üzrə birbaşa hesablama metodu;

3) Ekspert qiymətləndirmələrindən istifadə etməklə analitik metodu (indeks metodu).

10.6.1. Satışın maya dəyərinin icmal smetasının tərtib edilməsi metodikası

Satışın maya dəyərinin icmal smetası - təşkilatın maliyyə planının mühüm bölməsidir. Smetanın tərkibində aşağıdakı plan göstəriciləri müəyyən edilir:

- istehsal xərclərinin plan üzrə həcmi;
- satışın planlaşdırılan həcmi;
- satışdan alınması planlaşdırılan mənfəətin həcmi.

Əgər təşkilat bir neçə fəaliyyət növü həyata keçirirsə, onda satışın maya dəyəri smetası hər əməliyyat seqmenti üzrə ayrıca tərtib edilir. Əməliyyat seqmentlərinin tərkibində eyni cür məhsullar yaxud işlər, xidmətlər qruplar üzrə smetalara ayrıla bilər. Sonra informasiya təşkilatın ümumi xərclər smetasında birləşdirilir. Satışın maya dəyərinin smetasını vaxt çərçivəsində, bir qayda olaraq, rüblər üzrə təfsilatı ilə tərtib edirlər.

10.3 cədvəlində nümunə kimi satışın maya dəyəri smetasının sadələşdirilmiş variantı verilmişdir.

Cədvəl 10.3

İstehsal təşkilatının satılmış məhsul üzrə maya dəyərinin smetası

Sıra sayı	Xərclərin elementləri	Məbləği, min man.
1	Material xərcləri (qaytarılan tullantıların dəyəri çıxılmaqla) O cümlədən: Xammal və materiallar təbii xammal yanacaq enerji	12585 12212 80 73 220
2	Əmək haqqı xərcləri	5881
3	Sosial ehtiyaclara ayırmalar	2015
4	Amortizasiya	1750
5	Digər xərclər	700
6	İstehsal xərclərinin yekunu (b.1+b.2+b.3+b.4+b.5)	22931
7	«Gələcək dövrlərin xərcləri» üzrə 31-ci hesabda qalığın artımı (+) yaxud azalması (-). Bu misalda qalığın artması planlaşdırılır	200
8	Bitməmiş istehsalın, öz istehsalı olan yarımfabrikatların və alətlərin qalıqlarının artımı (-) yaxud azalması (+). Bu misalda bitməmiş istehsalın qalıqlarının artması planlaşdırılır	550
9	Buraxılan məhsulun plan üzrə istehsal maya dəyəri [b.6+(-)b.7+(-)b.8]	22181
10	Satış xərcləri (əlahiddə smeta üzrə)	440
11	Buraxılan məhsulun plan üzrə tam maya dəyəri (b.9+b.10)	22621
12	Bütün məhsulun orta rentabellik faizi (xərclərə nisbətən)	15%
13	İstehsalçı müəssisəsinin qiymətlərilə buraxılan məhsulun plan üzrə dəyəri (n.11x1,15)	26014
14	Planlaşdırılan dövrün əvvəlinə hazır məhsulun plan üzrə qalıqları	1610
15	Planlaşdırılan dövrün sonuna hazır məhsulun plan üzrə qalıqları	1490
16	Plan üzrə satışdan mədaxil (netto) (b.13+b.14-b.15)	26134
17	Plan üzrə satışdan əldə edilən, mənfəət $\left(\frac{\text{b.16}\times 15\%}{100\%+15\%}\right)$	3409

10.3 cədvəlinə izahlar verək.

Smetada material xərcləri xammalın və materialların sərfi normaları (onlara qənaət edilməsi üzrə tədbirlər nəzərə alınmaqla), habelə istifadə olunan xammalın və materialların, yarımfabrikatların, yanacağın mühüm növləri üzrə planlaşdırılan tədarük maya dəyəri əsasında məhsulun planlaşdırılan nomenklaturası və çeşidləri üzrə hesablanır. Tədarük maya dəyərinə maddi dəyərlərin alınması qiyməti və nəqliyyat-tədarük xərcləri daxildir.

Əmək haqqının ödənilməsi xərcləri təşkilatın işçi qrupları üzrə şəxsi heyətinin (idarə heyəti, əsas və köməkçi işçilər mühafizə heyəti) planlaşdırılan sayına və nəzərdə tutulan artımı nəzərə almaqla hər qrup üzrə bir işçinin planlaşdırılan orta əmək haqqına əsaslanaraq müəyyən edilir.

Sosial ehtiyaclara ayrılmalar plan üzrə əmək haqqı fondu və Azərbaycan Hökumətinin təsdiq etdiyi vahid sosial vergi dərəcələri əsasında planlaşdırılır.

Amortizasiya - amortizasiya olunan aktivlərin dəyəri, onlardan faydalı istifadə müddətləri, amortizasiyanın təşkilatın qəbul etdiyi hesablanması üsulları, amortizasiya obyektlərinin nəzərdə tutulan hərəkəti əsasında planlaşdırılır.

Digər xərclər ayrı-ayrı növlər üzrə əvvəlki vaxt dövriyyəsinin məlumatları əsasında və nəzərdə tutulan dəyişiklikləri nəzərə almaqla planlaşdırılır.

Smetada «Gələcək dövrlərin xərcləri» üzrə 31-ci hesabda qalıqların ya artımı, yaxud azalması nəzərdə tutula bilər. Əgər bu qalığın artımı planlaşdırılırsa, onda buraxılan məhsulun plan üzrə istehsal maya dəyərinin hesablanması zamanı artımın məbləği çıxılır. Əgər bu qalığın azalması planlaşdırılırsa, onda buraxılan məhsulun plan üzrə istehsal maya dəyərinin hesablanması zamanı azalmasının məbləği əlavə edilir.

Smetada bitməmiş istehsalın, öz istehsalı olan yarımfabrikatların və alətlərin qalıqlarının artımı yaxud azalması planlaşdırıla bilər. Əgər həmin qalıqların artımı planlaşdırılırsa, onda buraxılan məhsulun plan üzrə istehsal maya dəyərinin hesablanması zamanı artımın məbləği çıxılır. Əgər bu qalıqların azalması planlaşdırılırsa,

onda buraxılan məhsulun plan üzrə istehsal maya dəyərinin hesablanması zamanı azalmanın məbləği əlavə edilir.

Satışa çəkilən xərclər əlahiddə (ayrıca) smeta üzrə planlaşdırılır.

Buraxılan məhsulun plan üzrə tam maya dəyəri plan üzrə istehsal maya dəyərinin və plan üzrə satış xərclərinin toplanması yolu ilə hesablanır.

Bütün məhsul buraxılışının plan üzrə orta rentabellik səviyyəsi ayrı-ayrı məmulatların rentabellik səviyyəsini və buraxılması planlaşdırılan məhsulların nomenklaturasını nəzərə almaqla müəyyən edilir.

Planlaşdırılan dövrün əvvəlinə hazır məhsul qalıqları və planlaşdırılan dövrün sonuna realizə edilməyəcək məhsulun qalıqları ayrıca planlaşdırılır.

Məhsulun buraxılışının plan dəyəri onun satış üzrə plan dəyərindən fərqlənir. Fərq planlaşdırılan dövrün əvvəlinə və sonuna hazır məhsul qalıqlarının olması ilə şərtləndirilir. Əgər satışdan alınan mədaxil göndərilmə anı üzrə planlaşdırılırsa, onu aşağıdakı düsturla hesablamaq olar:

$$M(N) = MB + Q_ə - Q_s,$$

burada M(N)-satışdan alınan plan üzrə mədaxildir (netto);

MB-məhsul buraxılışının plan üzrə həcmidir;

Qə və Qs-hazır məhsulun müvafiq olaraq planlaşdırılan dövrün əvvəlinə və sonuna qalıqlarıdır.

Satışın maya dəyərinin smetasının təhlilinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir.

1) smetanın göstəricilərinin reallığının qiymətləndirilməsi;

2) satışın maya dəyərinin smetalarının analoji (oxşar) vaxt dövrləri üzrə müqayisə edilməsi, kənarlaşmaların və onların səbəblərinin aşkar edilməsi;

3) smetanın icrasının təhlili, yəni xərclərin faktiki göstəricilərinin smeta göstəricilərilə müqayisə edilməsi, kənarlaşmaların və bu kənarlaşmalara səbəb olan amillərin aşkar edilməsi.

10.6.2. Hesablama metodu

Hesablama metodu məhsulun (iş və xidmətlərin) hər növü (adı) üzrə planlaşdırılan göstəricilərin müəyyən edilməsi üçün tətbiq olunur. Belə hesablama nünuməsi 10.4 cədvəlində təqdim edilmişdir.

Cədvəl 10.4

Satışdan plan üzrə əldə edilən mənfəətin hesablama metodu ilə müəyyən edilməsi nümunəsi

Məhsul növləri	Plan üzrə məhsul vahidinin orta qiyməti (Aksizsiz, ƏDV-siz və d.), man.	Plan üzrə məhsul vahidinin orta maya dəyəri, man.	Plan üzrə satışın həcmi, (natural ifadədə), min ədəd	Plan üzrə satışdan əldə olunan pul gəliri (netto), min man.	Plan üzrə satılmış məhsulun tam maya dəyəri, min man.	Plan üzrə satışdan mənfəət, min man.
A	10	8	3000	30000	24000	6000
B	20	16	6000	120000	96000	24000
C	60	55	800	48000	44000	4000
Ç	53	50,5	1000	53000	50500	2500
Cəmi	x	x	x	251000	214500	36500

Göstərilən plan hesablanması yalnız zahirən sadə görünür. Təcrübədə onun həyata keçirilməsindən əvvəl çox zəhmət tələb olunan işlər görülməlidir: buraxılması planlaşdırılan hər məhsul növü (adı) üzrə plan kalkulyasiyası tərtib edilməlidir, o, məhsul vahidlərinin planlaşdırılan orta maya dəyərini və orta satış qiymətini müəyyən etmək imkanı yaradır. Beləliklə, həmin metodu tətbiq edərkən plan hesablamalarının reallığı plan kalkulyasiyalarının reallığı ilə müəyyən edilir.

10.6.3. Analitik metod (İndeks metodu)

Satışdan əldə edilən mənfəətin planlaşdırılmasının analitik metodundan (indeks metodundan) ilkin planlaşdırmanın ilk mərhələlə-

rində, plan kalkulyasiyalarından alına bilən informasiya olmayan zaman istifadə etmək daha yaxşıdır.

Satışdan alınan mənfəətin ekspert qiymətləndirilmələrini nəzərə almaqla analitik metodu (indeks metod) vasitəsilə smeta hesabının nümunəsini nəzərdən keçirək.

1. Əvvəlki ildə satışdan alınan (gözlənilən) mədaxil (netto) 120 milyon manat təşkil edir.

2. Marketinq xidməti satışdan alınan mədaxilin artırılması imkanlarını müəyyən etməlidir.

Satışın həcminin nəzərdə tutulan artımı 5% təşkil edir, odur ki, satışın həcminin planlaşdırılan indeksi 1,05 bərabər olmalıdır.

Realizə edilən məhsulun qiymətinin nəzərdə tutulan artımı 7%-ə bərabərdir, odur ki, məhsulun qiymətinin planlaşdırılan indeksi 1,07 təşkil etməlidir.

3. Plan üzrə satışdan mədaxil (netto):

120 x 1,05 × 1,07 = 135 milyon manat təşkil edir.

4. Satışın planlaşdırılan tam maya dəyəri əvvəlki ilin şərtləri üzrə (satışın 1 manatına düşən xərclər 80 qəpik idi):

135 milyon manat × 80/100 = 108 milyon manat təşkil edir.

5. Maya dəyərinin xarici amillər üzrə planlaşdırılan bahalaşması 3%-ə bərabərdir, xarici amillər üzrə maya dəyərinin indeksi – 1,03-dir. Satışın xarici amilləri nəzərə almaqla planlaşdırılan maya dəyəri:

108 milyon man. × 1,03=111 milyon manat təşkil edir.

6. Satışın maya dəyərinin daxili amillər üzrə planlaşdırılan aşağı düşməsi – 1%, daxili amillər üzrə maya dəyərinin indeksi – 0,99-dur.

Satışın planlaşdırılan maya dəyəri xarici və daxili amilləri nəzərə almaqla

111 milyon man. × 0,99 = 110 milyon manat olacaqdır.

7. Satışdan alınan planlaşdırılan mənfəət

135 milyon man. – 110 milyon man. = 25 milyon manat

Müəssisədə planlaşdırma səmərəli təşkil edildikdə bütün mümkün üsullarla hesablamalar aparmaq lazımdır. Əgər hesablama-

lar düzdürsə, onların nəticələri öz qiymətlərinə görə bir-birinə yaxın olmalıdır. Nəzərdən keçirilən misalda onlar üst-üstə düşmür, çünki müxtəlif ilkin məlumatlar üzrə hesablanmışdır.

10.7. Xalis mənfəətin formalaşmasının təhlili

Xalis mənfəət – cari mənfəət vergisi hesablanandan sonra, habelə təxirə salınmış vergi aktivlərini və təxirə salınmış vergi öhdəliklərini nəzərə almaqla, yəni «Mənfəət vergisi hesablamalarının uçotu» üzrə MUQ - na uyğun olaraq balans mənfəətinin təşkilatın sərəncamında qalan hissəsidir. O, 2 saylı formada əks etdirilir.

Xalis mənfəət 10.4 - də verilmiş düsturla müəyyən edilir. Bizim misalda XM = 56000 + 480 – 280 – 13760 = 42440 min manat.

Xalis mənfəətin amilli təhlili xalis mənfəətin məbləğinin balans mənfəəti məbləğindən hansı səbəblərə görə fərqlənməsi barədə suala cavab vermək imkanı yaradır.

Xalis mənfəətin dəyişilməsini şərtləndirən amillərin siyahısı onun hesablanmasının metodikasının özü ilə müəyyən edilir:

1) balans mənfəətinin məbləği;

2) cari mənfəət vergisinin məbləği;

3) hesabat dövründə təxirə salınmış vergi aktivlərinin məbləğinin dəyişilməsi;

4) hesabat dövründə təxirə salınmış vergi öhdəliklərinin məbləğinin dəyişilməsi.

Göstərilən amillərin təsiri 2 saylı formanın məlumatlarından aydın görünür. Bu informasiyanı 10.5 cədvəli şəklində daha əyani surətdə təsəvvür etmək olar.

Cədvəl 10.5

Hesabat ilində xalis mənfəətin formalaşmasının təhlili

Sıra sayı	Xalis mənfəətin formalaşması amilləri	Məbləği, min man.	Xüsusi çəkisi, %
1	Balans mənfəəti	56000	100,00
2	Cari mənfəət vergisi (CMV)[1)]	-13760	-24,60
3	Təxirə salınmış vergi aktivlərinin məbləğinin dəyişilməsi	480	0,90
4	Təxirə salınmış vergi öhdəliklərinin məbləğinin dəyişilməsi	-280	-0,50
5	Xalis mənfəət (b.1-b.2+b.3-b.4)	42440	75,80

[1)] CMV=56000 × 0,24 + 120 + 480 – 280 =13760 min manat (burada 120 min manat daimi vergi öhdəliyinin məbləğidir (2 saylı forma)).

Hesabat ilində xalis mənfəət balans mənfəətinin təxminən 76%-i təşkil etmişdir. Beləliklə, xalis mənfəətin (XM) balans mənfəəti (BM) ilə müqayisədə miqdarının az olmasını şərtləndirən əsas amil cari mənfəət vergisi olmuşdur. TVA və TVÖ məbləğləri cüzi təsir etmişlər.

Xalis mənfəətin dinamikasının təhlili 10.6 cədvəlində təqdim edilmişdir.

Cədvəl 10.6

Xalis mənfəətin dinamikasının təhlili, min manat

Sıra sayı	Xalis mənfəətin dəyişilməsi amilləri	Əvvəlki analoji dövr	Hesabat dövrü	Kənarlaşma (+, -)	Xalis mənfəətə təsiri (+, -)
1	Balans mənfəəti	40000	56000	+16000	+16000
2	Cari mənfəət vergisi	9600	13760	+4160	-4160
3	Təxirə salınmış vergi aktivlərinin məbləğinin dəyişilməsi	-	480	+480	+480
4	Təxirə salınmış vergi öhdəliklərinin məbləğinin dəyişilməsi	-	280	+280	-280
5	Xalis mənfəət (b.1-b.2+b.3-b.4)	30400	42440	X	+12040

Nəzərdə tutulan misalda hesabat dövründə balans mənfəətinin məbləği əvvəlki dövrlə müqayisədə 16000 min manat, xalis mənfəətin məbləği isə yalnız 12040 min manat artmışdır. Buna əsasən bir amil, yəni cari mənfəət vergisinin artması təsir etmişdir, o, XM-in artımını 4160 min manat aşağı salmışdır. Digər iki amilin təsiri cüzidir.

Bir halda ki, xalis mənfəət balans mənfəətinin bir hissəsidir, onda BM-nin dəyişilməsinə səbəb olan amillərin XM-ə təsirini tənasüb (proporsiya) metodu ilə hesablamaq olar (cədvəl 10.7).

Cədvəl 10.7

Xalis mənfəətin dəyişilməsinə amillərin təsirinin hesablanması

Sıra sayı	Balans mənfəətinin toplananları	Balans mənfəətinə təsiri,* % (+, -)	Xalis mənfəətə təsiri, min man. (+, -)
1	Satışdan alınan mənfəət	+31,5	+9482
2	Alınmalı faizlər	+4,0	+1204
3	Ödənilməli faizlər	-2,0	-602
4	Digər əməliyyat gəlirləri	+5,0	+1505
5	Digər əməliyyat xərcləri	+1,0	+301
6	Satışdan kənar gəlirlər	+0,25	+75
7	Satışdan kənar xərclər	+0,25	+75
8	Balans mənfəəti	+40,0	+12040

+40,0% — +12040 min man.

+31,5% — x_1,

buradan

* Məlumatlar 10.2 cədvəlindən götürülmüşdür.

$$x_1 = \frac{+31,5\%}{+40,0\%} \text{x} 12040 = +9482 \text{ min man.;}$$

+40,0%—+12040 min man.

+4,0%—x_2.

buradan $x_2 = \frac{4,0\%}{+40,0\%} \times 12040 = +1204$ min man.; və s.

10.8. Xalis mənfəətdən istifadənin təhlili

Mövcud qaydaya görə son maliyyə nəticəsi (mənfəət və ya zərər) məhsul (iş və xidmət), digər maddi sərvətlərin satışından əldə edilən maliyyə nəticəsindən və qeyri – satış əməliyyatları üzrə xərc məbləğləri çıxılmaqla bu əməliyyatlardan əldə olunan gəlirlərdən ibarətdir. 80-cı «Mənfəət və zərər» hesabının debetində müəssisənin zərərləri (itkiləri), kreditində isə mənfəətləri (gəlirləri) əks etdirilir. Həmin hesabın debet və kredit dövriyyələrinin üzləşdirilməsi hesabat dövrünün son maliyyə nəticəsini göstərir.

Kommersiya təşkilatlarının mənfəətinin bölüşdürülməsi prinsiplərində istehsalın inkişafını stimullaşdıran (həvəsləndirən) amillər nəzərdə tutulmalıdır. Mənfəətin bölüşdürülməsi qaydası mülkiyyətçilərin (sahibkarların) və dövlətin maraqlarının uyğunlaşdırılmasını təmin etməlidir. Sonuncu mənfəət vergisi hesabına, habelə vergi və mühasibat qanunvericiliyinin pozulmasına görə cərimə sanksiyaları hesabına həyata keçirilir.

Qüvvədə olan Hesablar Planına uyğun olaraq mənfəət vergisinin uçotunda və vergilər, rüsumlar və büdcədənkənar fondlara ödəmələr üzrə cərimə sanksiyalarının uçotunda əhəmiyyətli dəyişikliklər baş verməmiişdir.

Hesablanmış mənfəət vergisinin və cərimə sanksiyalarının uçotu üçün «Mənfəətin istifadəsi» adlanan 81-ci hesabdan istifadə edilməsi nəzərdə tutulur. Qüvvədə olan Hesablar Planına uyğun

olaraq illik hesablamaya əsasən mənfəətdən büdcəyə köçürüləcək vergi məbləği, təşkilatlın fəaliyyətinin və kollektivin sosial inkişafını həyata keçirmək üçün zəruri olan ehtiyyat və digər fondlara, eləcədə mənfəətin təsisedici sənədlərdə nəzərdə tutulan istiqamətlərə istifadəsi üçün ayrılan məbləği 81-cı «Mənfəətin istifadəsi» hesabından silinərək 80-cı «Mənfəət və zərər» hesabın debeti üzrə əks etdirilir. Bu hesablamalar «Mənfəət və zərər» adlanan 80-cı hesabın debetinə yazılır. Deməli, təşkilatın xalis mənfəətinin məbləği 80-ci hesabda göstərilir. Müvafiq məbləğ 88-ci «Bölüşdürülməmüş mənfəət (ödənilməmiş zərər)» «(Hesabat ilinin bölüşdürülməmiş mənfəəti (zərəri)» subhesabı) hesabının kreditinə (debetinə) yazılır.

Təşkilatın gəlirlərinin və xərclərinin formalaşmasına qüvvədə olun yanaşmaya uyğun olaraq bütün cari xərclər onun fəaliyyətinin maliyyə nəticələrinin formalaşmasında iştirak edir və dörd qrupa bölünürlər:

1) adi fəaliyyət növləri üzrə xərclər;
2) əməliyyat xərcləri;
3) satışdan kənar xərclər;
4) fövqəladə xərclər.

Qüvvədə olan uçot qaydalarında cari ilin xalis mənfəəti hesabına cari ildə xüsusi təyinatlı fondlar yaradılması nəzərdə tutulmamışdır.

Hesablar Planı, ənənəvi olaraq mənfəət vergisi hesablandıqdan sonra qalan mənfəətdən yaradılan xüsusi təyinatlı fondların (XTF) uçotu üçün heç bir hesab mövqeyi (pozisiyası) və qeydləri nəzərdə tutmur. Bu anlayış Azərbaycan uçotundan mühasibat kateqoriyası kimi yox olur, bu təşkilatın xərclərinin maliyyələşdirilməsi qaydasını və bölüşdürülməmiş mənfəətin formalaşmasına yanaşmanın dəyişilməsilə aydınlaşdırılır. Əvvəllər XTF hesabına çəkilən xərclər indi ya məhsulun maya dəyərinə daxil edilməli, ya digər xərclərə aid edilməli yaxud kapitallaşdırılmalıdır. Belə ki, əvvəllər istehlak fondlarından maliyyələşdirilən xərclər indi məhsulun maya dəyərinə və ya digər xərclərə daxil edilməlidir. Yığım fondlarından olan xərclər

kapitallaşdırılmalıdır. Sosial sahə fondundan çəkilən xərclər ya kapitallaşdırılmalı, ya maya dəyərinə daxil edilməli yaxud digər xərclərə aid edilməlidir.

Əgər cəmiyyətin səhmdarlarının (iştirakçıları) hamısı məqsədli fondlar yaradılması barədə qərar qəbul etmişlərsə, onlara ehtiyat kapitalının bir hissəsi kimi baxmaq lazımdır. Onlar məqsədli xarakterə malik tədbirlərin (fəaliyyətin genişləndirilməsinin, mövcud istehsal güclərinin təkmilləşdirilməsinin və s.) maliyyə təminatı kimi ehtiyatda saxlanan mənfəət vəsaitləridir.

Mənfəətdən ehtiyat kapitalına ayırmalar 81-ci «Mənfəətin istifadəsi» hesabın debetində və «Ehtiyat kapitalı» adlı 86-cı hesabın kreditinə yazılmaqla əks etdirilir. Təşkilat müvafiq xüsusi fondu yaratmaqla qarşısına qoyduğu məqsədə nail olduğu zaman müvafiq məbləğ bərpa edilir, yəni bölüşdürülməmiş mənfəətə birləşdirilir. Bu zaman 86-ci hesabın debetində və 88-ci hesabın kreditində qeyd edilir. Analoji (oxşar) qeyd xüsusi fondun yaradılmasının ilkin məqsədinin dəyişilməsini müşayiət edir.

«Bölüşdürülməmiş mənfəət» adlı 88-ci hesabın debetində yalnız üç cür qeyd edilə bilər: dividentlərin (gəlirlərin) hesaba alınması, ehtiyat fonduna ayırmalar, mühasibat təshih edilməsi (düzəlişi, korrektirovkası). İlk iki növ daha tipikdir.

Təşkilatın xalis mənfəətinin bölüşdürülməsi (yaxud hesabat ilində fəaliyyətin nəticələrinə görə alınmış zərərin ödənilməsi mənbələrinin müəyyən edilməsi) qüvvədə olan qaydalara uyğun olaraq təşkilatın idarə orqanının qərarı əsasında (yaxud onun nizamnaməsinə uyğun olaraq digər qaydada) növbəti ildə həyata keçirilir. Səhmdar cəmiyyətlərinin xalis mənfəətinin bölüşdürülməsi qaydası Azərbaycan Respublikasının Mülki məcəlləsinin 107-ci «Səhmdar cəmiyyətində idarəetmə» maddəsinə uyğun müəyyən edilir.

Cəmiyyətdə onun nizamnaməsində nəzərdə tutulmuş ölçüdə, lakin nizamnamə kapitalının 5%-dən az olmayan məbləğdə ehtiyat fondu yaradılır. Ehtiyat fondu cəmiyyətin nizamnaməsində müəyyən edilmiş miqdara (ölçüyə) çatana qədər hər il məcburi ayrılmalar yolu

ilə fonmalaşdırılır. İllik ayrılmaların ölçüsü cəmiyyətin nizamnaməsində yazılmış, kəmiyyətə çatana qədər xalis mənfəətin 5%-dən az ola bilməz. Ehtiyat fondu zərərlərin ödənilməsi üçün, habelə istiqrazların ödənilməsi və digər vəsaitlər olmayan halda səhmlərin alınması üçün istifadə edilir.

Cəmiyyətin nizamnaməsində xalis mənfəətdən işçilərə səhmlərin verilməsi üzrə xüsusi fondun formalaşdırılması nəzərdə tutula bilər. Həmin fondun vəsaitlərindən səhmlərin əldə edilməsi, sonralar həmin səhmlərin işçilər arasında bölüşdürülməsi üçün istifadə edilir.

Səhmdarların illik ümumi yığıncağı maliyyə ili başa çatandan sonra iki aydan tez və altı aydın gec olmayaraq çağırılır. Onun gündəliyinə aşağıdakı iki müstəqil məsələ daxil edilir:

1) illik mühasibat (maliyyə) hesabatının təsdiq edilməsi;

2) maliyyə ilinin yekunlarına əsasən cəmiyyətin xalis mənfəətinin bölüşdürülməsi qaydası.

Xalis mənfəətin bölüşdürülməsi qaydası – forması səhmdar cəmiyyəti tərəfindən sərbəst müəyyən edilən sənəddir. Onu düzgün tərtib etdikdə ümumi yığıncaq eyni zamanda bir sıra məsələləri, o cümlədən aşağıdakıları həll edə bilər:

a) illik dividendlərin ölçüsünü elan etməyi;

b) direktorlar şurasının üzvləri üçün öz vəzifələrinin icrasına görə əmək haqqının və xərclərin kompensasiyasının (əvəzinin ödənilməsinin) ölçüsünü təsdiq etməyi;

c) təftiş komissiyasının üzvləri üçün öz vəzifələrinin icrasına görə əmək haqqının və xərclərin kompensasiyasının ölçüsünü təsdiq etməyi.

Mühasibat uçotunun Hesablar Planı bölüşdürülməmiş mənfəətin vəsaitlərindən istifadə edilməsinə nəzarətin təşkilini nəzərdə tutur. 88-cü hesaba izahatda analitik uçotda bölüşdürülməmiş mənfəətin vəsaitlərinin təşkilatın istehsalının inkişafının və yeni əmlak əldə edilməsi (yaradılması) üzrə digər oxşar tədbirlərin maliyyə təminatı kimi istifadə edilməsi məqsədilə xərclərə və hələlik istifadə edilməmiş hissəsinə bölünməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

Başqa sözlə, bölüşdürülməmiş mənfəətin vəsaitlərinin vəziyyətinə və hərəkətinə sistemli nəzarət qoyulması barədə söz gedir. Bölüşdürülməmiş mənfəətə münasibətdə «hərəkət» və «istifadə edilmə» anlayışlarının tətbiqi çaşqınlıq yaratmamalıdır. Bölüşdürülməmiş mənfəətin vəsaitləri həmişəlik (qaytarılmaz) xərclənmir. Onlar pul formasından əmtəə formasına və əksinə dəyişilməklə təşkilatda daim tədavüldə olurlar. Bu zaman aktivlərin məcmu miqdarı dəyişilmir. Bir qayda olaraq, 88-cü hesab üzrə saldo yalnız arta bilər, bu təşkilatın özünü maliyyələşdirməsi prosesini ilkin qoyulan vəsaitlərin məbləğinə nisbətən artmasını təsdiq edir.

88-cü hesaba əlavə bölüşdürülməmiş mənfəəti yaradan vəsaitlərin hərəkətinin hər mərhələsi üçün subhesablar, məsələn, «Bölüşdürülməli mənfəət», «Tədavüldə olan bölüşdürülməmiş mənfəət», «İstifadə edilmiş bölüşdürülməmiş mənfəət» subhesabları açılmalıdır.

«Bölüşdürülməli mənfəət» subhesabına hesabat ilinin xalis mənfəətinin bütün məbləği daxil edilir, sonra ondan dividentlər (gəlirlər) hesablanır və ehtiyat fondlarına ayrılmalar aparılır. Bu əməliyyatlar əks ediləndən sonra həmin subhesabın saldosu «Tədavüldə olan bölüşdürülməmiş mənfəət» subhesabının kreditinə köçürülür.

«Tədavüldə olan bölüşdürülməmiş mənfəət» subhesabında müəyyən vaxt ərzində səhmdarlar arasında bölüşdürülməmiş mənfəətin ümumi məbləği toplanır. Mahiyyətcə, həmin subhesabın saldosu əsas vəsaitlər və digər maddi ehtiyatlar formasında yeni əmlak yaradılması üçün toplanmış vəsaitlərin miqdarını göstərir. Bu subhesabın debeti üzrə qeydlər yalnız yeni əmlakın yaradılmasına müvafiq vəsaitlər həqiqətən tətbiq edildikdə «İstifadə edilmiş bölüşdürülməmiş mənfəət» subhesabı ilə müxabirələşdirməklə (korrespondensiya edilməklə) aparılır. Vəsaitlərdən istifadə edilməsi əks edildikdən sonra «Tədavüldə olan bölüşdürülməmiş mənfəət» subhesabının saldosu bölüşdürülməmiş mənfəətin sərbəst qalığının miqdarını göstərir.

«İstifadə edilmiş bölüşdürülməmiş mənfəət» subhesabında bölüşdürülməmiş mənfəətin vəsaitlərinin hansı hissəsinin pul formasından əmtəə formasına çevrilməsi, yəni hansı məbləğdə yeni əmlak əldə edilməsi barədə informasiyanı ümumiləşdirir. Məsələn, 01-ci (Əsas vəsaitlər) hesabının debeti və 08-ci (kapital qoyuluşları) hesabının krediti üzrə qeydlər aparıldıqca uçotda 88 hesab üzrə daxili qeydlər yazılır: «Tədavüldə olan bölüşdürülməmiş mənfəət» subhesabının debeti və «İstifadə edilmiş bölüşdürülməmiş mənfəət» subhesabının krediti. Digər subhesablar kimi, həmin subhesabın saldosu da yalnız kredit ola bilər, orada kredit yazıları isə (hesabat ilinin bölüşdürülməmiş mənfəəti hissəsində) yalnız səhmdarlar tərəfindən hesabat ilinin mənfəətinin bölüşdürülməsi barədə qərar qəbul edildikdən sonra mümkündür.

10.9. Satışdan alınan mənfəətin amillər üzrə təhlili metodikası

Satışdan alınan mənfəət (satışın nəticələri) – balans mənfəətinin çox mühüm tərkib hissəsidir. «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formada bu göstərici 050-ci sətirdə, mühasibat uçotunda – «Məhsul (iş və xidmət) satışı» adlı 46-cı hesabda əks etdirilir.

Satışdan əldə edilən mənfəət aşağıdakı üç əsas amildən asılıdır:

- nomenklaturanın (assortimentin) hər mövqeyi üzrə realizə edilən məhsulun miqdarından;
- nomenklaturanın (assortimentin), hər mövqeyi üzrə məhsul vahidinin maya dəyərinin səviyyəsindən. Müasir şəraitdə hesabat dövrü ərzində maya dəyəri inflyasiya ilə əlaqədar dəyişilir, odur ki, planlaşdırma və təhlil zamanı məhsul vahidinin maya dəyərinin orta göstəriciləri qəbul edilir.

• məhsulun konkret növlərinin realizə edildiyi qiymətlərin səviyyəsindən. Planlaşdırma və təhlil zamanı məhsul vahidinin orta qiymətlərindən istifadə etmək lazımdır.

İqtisadi ədəbiyyatda satışdan əldə edilən mənfəətin amillər üzrə təhlili metodikalarının çoxsaylı variantları təklif edilmişdir (V.V.Kovalyov, Y.V.Neqaşev, Q.V.Savitskaya, A.P.Çeçeta, A.D.Şeremet). Onların öyrənilməsi bizə nəzərdən keçirilən göstəricinin amillər üzrə təhlilinə iki əsas yanaşmanı qeyd etmək imkanı verir:

1). təhlil nomenklaturanın (assortimentin) ayrı-ayrı mövqeləri üzrə amillərin – satışın həcminin, məhsul vahidinin maya dəyərinin və qiymətinin təsirinin bilavasitə hesablanmasını nəzərdə tutur;

2). təhlil, 2 saylı formada olan informasiyaya əsaslanır, o, necə deyərlər, «ekspress təhlildir».

Təşkilatın operativ idarə edilməsi üçün birinci yanaşma daha münasibdir, çünki o, nomenklaturanın (assortimentin) ayrı-ayrı növləri üzrə satışın həcminə, məmulatların maya dəyərinə və qiymətinə dair əsaslandırılmış idarəetmə qərarları qəbul etmək imkanı yaradır. Bununla belə, menecerin sərəncamında öz təşkilatının və rəqib təşkilatların mühasibat hesabatları olan zaman ekspress- təhlil də aparmaq lazımdır.

Təhlilin birinci variantını nəzərdən keçirək (cədvəl 10.8).

Cədvəl 10.8

Məhsulların nomenklaturasının konkret növləri üzrə satışdan alınan mədaxilin və mənfəətin hesablanması

Məhsulların növləri	İstehsalçıda məhsul vahidinin orta qiyməti, man..	Məhsul vahidinin orta tam maya dəyəri, man.	Realizə edilmiş məhsulun miqdarı min ədəd	Satışdan alınan mədaxil (netto), min man. (qr.2xqr.4)	Məhsulun tam maya dəyəri, min man. (qr.3xqr.4)	Satışdan alınan mənfəət, min man. (qr.5-qr.6)
1	2	3	4	5	6	7
Əvvəlki dövr üzrə						
A	10	8	3000	30000	24000	6000
B	20	16	6000	120000	96000	24000
C	60	55	800	48000	44000	4000
Ç	53	50,5	1000	53000	50500	2500
Cəmi				251000 (2 saylı formanın 010-cu sətri)	214500 (2 saylı forma üzrə sətir 040)	36500 (2 saylı formanın 050-ci sətri)
Hesabat dövrü üzrə						
A	15	12	3500	52500	42000	10500
B	25	22	6000	150000	132000	18000
C	70	60	900	63000	54000	9000
Ç	66,3	54,7	1000	66300	54700	11600
Cəmi				331800 (2 saylı formanın 010-cu sətri)	282700 (2 saylı forma üzrə sətir 040)	49100 (2 saylı formanın 050-ci sətri)

10.8 cədvəlində verilən göstəricilərin hesablanması üçün düsturları göstərək

Satışdan alınan mədaxil (netto):

• baza variantı: $\sum q_0 \times p_0$=251000 min manat;

• hesabat variantı: $\sum q_1 \times p_1$=331800 min manat.

Realizasiya edilmiş məhsulun tam maya dəyəri:

• baza variantı: $\sum q_0 \times s_0$=214500 min manat;

• hesabat variantı: $\sum q_1 \times s_1$=282700 min manat.

Satışdan alınan mənfəət:

• baza variantı: $M_o=\sum q_o \times p_o-\sum q_o \times s_o=\sum q_o \times (p_o-s_o)$ =36500 min manat;

• hesabat variantı: $M_1=\sum q_1 \times p_1-\sum q_1 \times s_1=\sum q_1 \times (p_1-s_1)$=49100 min manat.

Burada aşağıdakı şərti işarələr tətbiq olunur:

q_o, q_1-baza və hesabat dövrlərində satılmış məhsulun miqdarı, min ədəd;

p_o,p_1-baza və hesabat dövrlərində məhsul vahidinin qiyməti, manat;

s_o, s_1 – baza və hesabat dövrlərində məhsul vahidinin tam maya dəyəridir, manat;

M_o, M_1 - baza və hesabat dövrlərində satışdan alınan mənfəət, min manat.

Bu misalda satışdan alınan mənfəət hesabat dövründə əvvəlki dövrə nisbətən 12600 min manat artıqdır.

Üç əsas amilin təsirini hesablayaq.

1. Realizə edilmiş məhsulun miqdarının dəyişilməsinin mənfəətə təsiri:

$$\Delta M(q) = (q_1 - q_0) \times (p_o - s_o)$$

Miqdar amilinin təsiri iki keyfiyyət amilinin (qiymətin və maya dəyərinin) baza qiymətlərində hesablanır:

• A qrupu məmulatları üzrə, A = (3500 - 3000) × (10 - 8) =+1000 min manat;

• B qrupu məmulatları üzrə realizasiya edilmiş məhsulun miqdarı dəyişilməmişdir;

• C qrupu məmulatları üzrə, C = (900 - 800) × (60 - 55) =+500 min manat;

• Ç qrupu məmulatları üzrə realizə edilmiş məhsulun miqdarı dəyişilməmişdir.

Cəmi birinci amil üzrə = +1500 min manat.

2. Məhsul vahidinin tam maya dəyərinin dəyişilməsinin mənfəətə təsiri

$$\Delta M_{(s)} = (s_1 - s_o) \times q_1.$$

Bu keyfiyyət amilidir, onun təsiri zəncirvari yerdəyişmə metodu ilə kəmiyyət amilinin hesabat qiymətində hesablanır, nəticə əks işarə ilə qəbul edilir.

• A qrupu məmulatları üzrə, A = (12 - 8) × 3500 =+14000 min manat, mənfəətə təsiri =-14000 min manat;

• B qrupu məmulatları üzrə, B = (22 - 16) × 6000 =+36000 min manat, mənfəətə təsiri =-36000 min manat;

• C qrupu məmulatları üzrə, C = (60 - 55) × 900 =+4500 min manat, mənfəətə təsiri =-4500 min manat;

• Ç qrupu məmulatları üzrə Ç = (54,7 - 50,5) × 1000 =+4200 min manat, mənfəətə təsiri =-4200 min manat.

Cəmi ikinci amil üzrə =- 58700 min manat.

3. Məhsul vahidinin qiymətinin dəyişilməsinin mənfəətə təsiri

$$\Delta M_{(p)} = (p_1 - p_o) \times q_1$$

Bu keyfiyyət amilidir, onun təsiri zəncirvari yerdəyişmələr metodu ilə kəmiyyət amilinin hesabat qiymətində hesablanır:

• A qrupu məmulatları üzrə, A = (15 - 10) × 3500 =+17500 min manat;

• B qrupu məmulatları üzrə, B = (25 - 20) × 6000 =+30000 min manat;

• C qrupu məmulatları üzrə, C = (70 - 60) × 900 =+9000 min manat;

• Ç qrupu məmulatları üzrə, Ç = (66,3 - 53) × 1000 =+13300 min manat.

Cəmi üçüncü amil üzrə =+ 69800 min manat.

Yoxlama ondan ibarətdir ki, amillərin təsirinin cəbri cəmi nəticə göstəricisinin dəyişilməsinə bərabər olmalıdır:

(+1500)+(-58700)+(+69800)=+12600 min manat.

Təhlil zamanı alınmış məlumatı başqa cür həm növlər üzrə, həm də amillər üzrə qruplaşdırmaq olar (cədvəl 10.9).

Təhlili dərinləşdirdikdə satışın həcminin dəyişilməsinin, konkret səbəblərini, maya dəyərinin bahalaşmasının səbəblərini və qiymətlərin sonrakı (böhran həddinə çatmamış) artırılması imkanlarını aydınlaşdırmaq lazımdır. Satışdan alınan mənfəətin amillər üzrə təhlilinin nəticələri əsasında gələcək dövrlər üçün məhsulun buxarılış nomenklaturasının və satışı həcminin planlaşdırılması üzrə konkret idarəetmə qərarları, habelə konkret məhsul növləri üzrə istehsalın həcminə, onların qiymətlərinə və hər məhsul növü üzrə yol verilən xərclərin həddinə aid qərarlar qəbul edilə bilər.

Cədvəl 10.9

Məhsul növləri üzrə satışdan alınan mənfəətin amillər üzrə təhlilin nəticələrinin ümumiləşdirilməsi

Məhsulların növləri	Satışdan alınan mənfəətə təsiri, min man. (+, -)			
	Birinci amilin (realizə edilmiş məhsulun miqdarının dəyişilməsinin)	İkinci amilin (məhsul vahidinin, tam maya dəyərinin dəyişilməsinin)	Üçüncü amilin (məhsul vahidinin qiymətinin dəyişilməsinin)	Cəmi
A	+1000	-14000	+17500	+4500
B	-	-36000	+30000	-6000
C	+500	-4500	+9000	+5000
Ç	-	-4200	+13300	+9100
Yekunu	+1500	-58700	+69800	+12600

Ekspress təhlil üçün ilkin informasiya 10.10 cədvəlində təqdim edilmişdir.

Cədvəl 10.10

Satışdan alınan mənfəətin amillər üzrə təhlili (2 saylı formanın məlumatlarına əsasən), min manat.

Sıra sayı	Göstəricilər	Əvvəlki dövrdə	Hesabat dövründə
1	2	3	4
1	Satışdan alınan mədaxil (netto)	$\Sigma q_0 p_0$=251000	$\Sigma q_1 p_1$=331800
2	Satılmış malların, məhsulların, işlərin, xidmətlərin maya dəyəri	152300	200700
3	İdarəetmə xərcləri	50100	66000
4	Kommersiya xərcləri	12100	16000
5	Satışın tam maya dəyəri (b.2+b.3+b.4)	$\Sigma q_0 s_0$=214500	$\Sigma q_1 s_1$=282700
6	Satışdan alınan mənfəət (b.1-b.5)	M_0=36500	M_1=49100
7	Hesabat dövrü qiymətlərinin əvvəlki dövrə nisbətən indeksi $J_{qiymət}=\frac{\Sigma q_1 \times p_1}{\Sigma q_1 \times p_0}$	1,0	1,259
8	Məhsulların, malların, işlərin xidmətlərin hesabat dövründə əvvəlki ilkin qiymətlərilə həcmi	x	$\Sigma q_1 p_0$=263542

Qeyd. Burada və sonralar mətn üzrə aşağıdakı işarələr tətbiq edilir: q_1-hesabat dövründə realizə edilmiş məhsulların konkret növlərinin natural ifadədə miqdarıdır; p_0, p_1-əvvəlki və hesabat dövrlərində konkret məmulatların qiymətləridir; s_0, s_1-əvvəlki və hesabat dövrlərində konkret məhsul növü vahidinin tam maya dəyəridir; M_0, M_1-əvvəlki və hesabat dövrlərində satışdan alınan mənfəətdir.

Hesabat dövrünün qiymətlərinin əvvəlki dövrə nisbətən indeksini 2 saylı formanın məlumatları əsasında informasiya çatışmazlığı səbəbindən hesablamaq mümkün deyil. O, mühasibat hesabatı məlumatları əsasında hesablanır. Bu indeks sübut edir ki, hesabat

dövründə realizasiya edilmiş bütün məhsullar üzrə orta hesabla hesabat dövrünün qiymətləri əvvəlki dövrün qiymətlərindən 25,9% yüksəkdir.

10.10 cədvəlində ehtiva edilən informasiya əsasında:

- hesabat dövründə satışdan alınan mənfəətin əvvəlki dövrlə müqayisədə dəyişilməsini müəyyən etmək;
- bu dəyişilməyə üç əsas amilin (satışın həcminin, realizə edilmiş məhsulun tam maya dəyərinin və qiymətlərinin dəyişilməsinin) təsirini hesablamaq olar.

Satışdan alınan mənfəət hesabat dövründə əvvəlki dövrün analoji göstəricisindən 12000 min manat çoxdur. Bu dəyişilmə aşağıdakı amillərin təsiri nəticəsində yaranmışdır.

1. Satışın həcminin dəyişilməsi.

1.1. Satışın həcminin indeksini hesablayaq:

$$Jq = \frac{\Sigma q_1 \times p_o}{\Sigma q_o \times p_o} = \frac{263542 \text{ min man.}}{251000 \text{ min man.}} = 1{,}05$$

1.2. Satışın həcminin artmasının mənfəətə təsirini hesablayaq:

$\Delta M_{(q)} = Mo \times (J\,q\text{-}1) = 36500 \times (1{,}05 - 1) = +1825$ min man.

2. Satışın tam maya dəyərinin dəyişilməsi

2.1. Satışın hesabat dövrünün tam maya dəyəri üzrə qiymətləndirilmiş həcmi

$$\Sigma q_1 s_1 = 282700 \text{ min man.}$$

2.2. Satışın əvvəlki dövrün maya dəyəri üzrə qiymətləndirilmiş həcmi

$$\Sigma q_1 s_o = \quad J_q = \Sigma q_o s_o = 1{,}05 \text{ x } 214500 = 225225 \text{ min man.}$$

2.3. Tam maya dəyərinin hesabat dövründə əvvəlki dövrlə müqayisədə dəyişilməsi

$$\Sigma q_1 s_1 - \Sigma q_1 s_o = 282700 - 225225 = +57475 \text{ min man.}$$

2.4. Bu amilin mənfəətə təsiri

$$\Delta M(s) = -(\Sigma q_1 s_1 - \Sigma q_1 s_o) = -57475 \text{ min man.}$$

3. Realizasiya edilən məhsulların qiymətlərinin dəyişilməsi.

3.1. Satışın hesabat dövrünün qiymətlərində hesabat üzrə həcmi

$$\Sigma q_1 p_1 = 331800 \text{ min man.}$$

3.2. Satışın əvvəlki dövrün qiymətlərində hesabat üzrə həcmi

$$\Sigma q_1 p_o = 263542 \text{ min man.}$$

3.3. Qiymətlərin dəyişilməsinin satışdan alınan mədaxilə və mənfəətə təsiri

$$\Delta M(p) = \Sigma q_1 p_1 - \Sigma q_1 p_o = 331800 - 263542 = +68258 \text{ min man.}$$

Yoxlama:

$\Delta M(q) + \Delta M(s) + \Delta M(p) = M_1 - Mo = (+1825) + (-57475) + (+68258) =$
$= 49100 - 36500 = +12608$ min man. ≈ 12600 min man. (8 min man. - satışın həcminin indeksinin yuvarlaqlaşdırılmasının nəticəsidir).

Təhlili dərinləşdirərkən nəzərdən keçirilən amillərin hər birinin təsirini təfsilatı ilə göstərmək yaxşı olar. Birinci amilin təsiri məhsulun nomenklaturasının konkret növləri üzrə, ikinci amilin (satışın tam maya dəyərinin dəyişilməsinin) isə – üç tərkib hissəsi üzrə ətraflı göstərilə bilər:

a) əməliyyat maya dəyərinin dəyişilməsinin təsiri

$200700 - 152300 \times 1{,}05 = 40785$ min man.;

mənfəətə təsiri =- 40785 min man.;

b) idarəetmə xərclərinin dəyişilməsinin təsiri

$66000 - 50100 \times 1{,}05 = 13395$ min man.;

mənfəətə təsiri =- 13395 min man.;

c) kommersiya xərclərinin dəyişilməsinin təsiri

$16000 - 12100 \times 1{,}05 = 3295$ min man.;

mənfəətə təsiri =- 3295 min man.

Cəmi =-57475 min man.

Üçüncü amilin (qiymətlərin dəyişilməsinin) təsirini realizasiya edilmiş məhsulların konkret növləri (adları) üzrə təfsilatı ilə göstərmək olar.

10.10. Satışdan alınan mənfəətə inflyasiya amilinin təsirinin təhlili və qiymətləndirilməsi

İnflyasiya milli pul vahidinin qiymətdən düşməsi və ölkə daxilində qiymətlərin səviyyəsinin ümumi yüksəlməsi ilə səciyyələnir. İnflyasiyanın tempi qiymət indeksinin köməyi ilə ölçülür. İlk olaraq zəruri malların qiymətləri uzun müddət istifadə olunan mallara nisbətən, bir qayda olaraq, daha tez artır. Qiymətlərin indeki müəyyən dövr ərzində onların səviyyəsinin orta hesabla dəyişilməsini səciyyələndirir:

$$J_{\text{qiymət}} = \frac{\begin{array}{c}\text{Malların, işlərin, xidmətlərin, təhlil edilən}\\ \text{dövrün qiymətlərində məcmu dəyəri, min man.}\end{array}}{\begin{array}{c}\text{Analoji malların, işlərin, xidmətlərin baza}\\ \text{dövrünün qiymətlərində məcmu dəyəri, min man.}\end{array}}$$

və ya

$$J_{\text{qiymət}} = \frac{\Sigma q_1 p_1}{\Sigma q_1 p_o}.$$

Kiçik inflyasiya (1,5-2%) yol verilən və hətta faydalı hesab edilir, çünki pul vahidlərinin fəallığının artmasına şərait yaradır, onları mənfəətli biznesə vəsait qoymağa həvəsləndirir. Lakin yüksək inflyasiya iqtisadiyyatın inkişafının sabitliyini pozan amildir.

Milli valyutada pul vəsaitləri və debitor borcu pul vahidi qiymətdən düşdükcə öz dəyərini itirir, bu isə təşkilatın öz dövriyyə vəsaitinin bir hissəsini itirməsinə gətirib çıxardır. Bundan əlavə, istifadə edilən xammalın, materialların, yanacağın və s. qiymətlərinin artması sayəsində dövriyyə aktivlərinə tələbatı artırır. Eyni zamanda əgər təşkilatın pul öhdəlikləri milli valyutada ifadə olunmuşdursa, o, həmin öhdəliklər üzrə qismən «uda» bilər.

Satışdan əldə edilən mənfəətə inflyasiyanın təsiri iki istiqamətdə təzahür edə bilər:

1) realizasiya edilən məhsulun, malların, işlərin, xidmətlərin qiymətlərinin və tariflərinin yüksəlməsi nəticəsində satışdan əldə edilən mədaxil və mənfəət artır;

2) alınan xammalın, materialların, yanacağın, elektrik enerjisinin, kənar təşkilatların xidmətlərinin qiymətlərinin və tariflərinin artması sayəsində istehsal xərcləri artır və deməli, satışdan əldə edilən mənfəət azalır.

Satışdan əldə edilən mənfəətə inflyasiyanın təsirini qiymətləndirmək məqsədilə təşkilatın həm gəlirlərini, həm də xərclərini artıran «inflyasiya əlavəsini» hesablamaq lazımdır. Satışdan alınan mədaxilə inflyasiyanın təsirini indekslər sistemi vasitəsilə hesablamaq olar:

Satışdan əldə edilən mədaxilin indeksi = satışın həcminin indeksi x qiymətlərin indeksi

və ya $\frac{\Sigma q_1 p_1}{\Sigma q_o p_o} = \frac{\Sigma q_1 p_o}{\Sigma q_o p_o} \times \frac{\Sigma q_1 p_1}{\Sigma q_1 p_o}$.

10.10 cədvəlinin məlumatlarından alırıq

$$\frac{331800}{251000} = \frac{263542}{251000} \times \frac{331800}{263542} = 1{,}3219 = 1{,}05 \times 1{,}259.$$

Satış qiymətlərinin dəyişilməsinin satışdan əldə edilən mənfəətin məbləğinə təsirini qiymətlərin indeksləri əsasında, indeksin surəti və məxrəci arasında fərq kimi hesablamaq olar:

$$\Delta M(p) = \Sigma q_1 p_1 - \Sigma q_1 p_o = \Sigma (p_1 - p_o) \times q_1.$$

İnflyasiyanın təşkilatın məhsulun, işlərin, xidmətlərin buraxılışına və satışına çəkdiyi xərclərə təsirini aşağıdakı düstur əsasında hesablamaq olar:

$$\Delta X_{(Q)} = \Sigma (Q_1 - Q_o) \times K_1,$$

burada $\Delta X_{(Q)}$ - təşkilatın xərclərinə istifadə edilən material ehtiyatlarının tədarük maya dəyərinin dəyişilməsinin təsiridir;

K_1 - hesabat dövründə istifadə olunmuş xammalın, materialların, yanacağın natural ifadədə miqdarıdır; Q_1, Q_o - hesabat və baza

dövrlərində konkret adlı xammalın, materialların, yanacağın konkret növünün vahidinin tədarük maya dəyəridir.

Təhlil zamanı alınmış iki məbləği müqayisə etmək maraqlıdır. Təşkilat üçün onun məhsulunun qiymətinin artması hesabına istehsal və tədavül xərclərinin yüksəlməsi artıqlaması ilə ödənilməsi faydalıdır, yəni

$$\Delta M(p) > \Delta X_{(Q)}.$$

10.11. Müəssisənin uçot siyasətinin təsərrüfat subyektlərinin mənfəət göstəricilərinin reallığına təsirinin təhlili və qiymətləndirilməsi

Mühasibat uçotu və hesabatı registrində (qeydiyyatında) təqdim edilmiş mənfəət göstəricilərinin reallığı bir çox amillərdən asılıdır. Müəssisənin gəlirlərinin və xərclərinin mühasibat uçotunun Hesablar Planına, «Təşkilatın gəlirləri» və «Təşkilatın xərcləri» adlı müddəalara (mövqelərə) müvafiq təşkil edilməsi onlardan ən əhəmiyyətlisidir.

Mühasibat uçotunda mənfəətin real göstəricilərinin formalaşdırılması üçün aşağıdakı şərtlər təmin edilməlidir.

1. Təşkilatın xərclərinin onların ödənilməsi mənbələrinə müvafiq surətdə bölüşdürülməsinin (bölgüsünün) düzgünlüyü.

İstehsal və tədavül məsrəflərinə aid edilən xərclər (20, 23, 25, 26, 28, 44-cü hesabların debetinə).

Maliyyə nəticələrinin dəyişilməsinə aid edilən xərclər («Mənfəət və zərər» adlı 80-ci hesabın debetinə).

Qeyri-istehsal hesablarına aid edilən xərclər «Kapital qoyuluşları» adlı 08-ci və «Xidmətedici istehsalat və təsərrüfatlar» adlı 29-cu hesabların debetinə).

2. Təşkilatın xərclərinin vaxt əlaməti üzrə bölgüsünün düzgünlüyü. Bu məqsədlə mühasibat uçotunda «Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar» adlı 89-cu və «Gələcək dövrün xərcləri» adlı 31-ci hesabları tətbiq edilir. 89-cu hesab üzrə analitik uçot ehtiyatların növləri üzrə aparılır. Təşkilatın uçot siyasətinə dair

əmrdə ehtiyatların növləri, onların hesablanması üsulları, habelə ilin sonunda müvafiq hesabların bağlanması qaydası müəyyən edilməlidir.

3. Sənayedə, inşaatda, elmi - tədqiqat təşkilatlarında hazır məhsul və bitməmiş istehsal qalıqları arasında xərclərin bölgüsünün düzgünlüyü.

4. Satışa çəkilən xərclərin göndərilmiş mallar (məhsullar) və onların anbarlarda qalıqları arasında bölgüsünün düzgünlüyü.

5. Satışdan alınan mənfəətin məbləği təşkilatın qəbul etdiyi uçot siyasəti elementlərindən, məsələn aşağıdakılardan asılıdır:

1) kommersiya təşkilatında tətbiq edilən istehsal və tədavül məsrəflərinə silinən material ehtiyatlarının qiymətləndirilməsi metodundan (materialların vahidinin qiymətləri üzrə, orta qiymətlərlə, FİFO və ya LİFO metodu ilə);

2) əsas fondların amortizasiyasının və qeyri - material aktivlərin hesablanmasının tətbiq edilən üsullarından.

6. Satışdan alınan mənfəətin göstəricilərinin mötəbərliyi satışdan alınan mədaxilin tam və mötəbər uçotu və uçota alınmış xərclərin reallığı ilə təmin edilir. Vergi orqanları ilə fikir ayrılıqları daha çox uzun müddətli maddi nəticəsi olmayan işlərin (xidmətlərin) dəyərini məsariflərə aid edərkən baş verir. Onlara, məsələn, müxtəlif təsərrüfat işləri, marketinq xidmətləri, təmir, konsultasiya, hüquq xidmətləri daxildir.

10.12. Bir səhmə düşən mənfəətin təhlili və qiymətləndirilməsi metodikası

Mühasibat uçotunun «Təşkilatın mühasibat hesabatı» qaydalarına uyğun olaraq bir səhmə düşən mənfəət barədə informasiya mühasibat hesabatında açıqlanmalıdır.

Bir səhmə düşən mənfəət barədə informasiyanın açılması üzrə Metodiki tövsiyyələrə uyğun olaraq, bir səhmə düşən mənfəətin göstəricilərinə aid, mühasibat hesabatının istifadəçiləri üçün hər hansı əhəmiyyətli informasiya izahat yazısında açılmalıdır.

Səhmdar cəmiyyəti bir səhmə düşən mənfəət barədə informasiyanı «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formada açır. Mənfəət barədə informasiya iki göstərici ilə təqdim edilir:

- hər səhmə düşən baza mənfəətilə (zərərlə);
- hər səhmə düşən durulaşmış mənfəətlə (zərərlə) (baza mənfəətinin səviyyəsinin mümkün olan aşağı düşməsini əks etdirir).

$$\text{Hər səhmə düşən baza mənfəəti} = \frac{\text{Hesabat dövründə baza mənfəəti}}{\text{Hesabat dövründə adi səhmlərin orta hesabla miqdarı}}$$

Hesabat dövründə baza mənfəəti = Hesabat dövründə xalis mənfəət - Hesabat dövründə sahiblərinə hesablanmış imtiyazlı səhmlər üzrə dividendlərin məbləği (nizamnamə sənədlərinə uyğun olaraq).

İmtiyazlı bir səhmə düşən mənfəətə dair məlumatların hesablanması təsis sənədlərinin tələblərinə uyğun qaydada həyata keçirilir.

Hesabat dövründə adi səhmlərin orta hesabla miqdarı hər ayın birinə adi səhmlərin miqdarının toplanması və alınmış məbləğin hesabat dövründəki ayların sayına bölünməsi yolu ilə müəyyən edilir.

Misalı nəzərdən keçirək. 2007-ci ildə X səhmdar cəmiyyətində adi səhmlərin hərəkəti belə olmuşdur (cədvəl 10.11).

Cədvəl 10.11

Adi səhmlərin hərəkəti

Tarix	Pul vəsaitilə ödənilmiş əlavə səhmlərin miqdarı	Satın alınmış (əldə edilmiş) səhmlərin miqdarı	Tədavüldə olan adi səhmlərin miqdarı
01.01	-	-	1000
01.04	800	-	1800
01.10	-	400	1400
Cəmi 31.12	800	400	1400

Tədavüldə olan adi səhmlərin orta hesabla miqdarı:

$$(1000 \times 3 + 1800 \times 6 + 1400 \times 3) : 12 = 1500$$

və ya $(1000 \times 12 + 800 \times 9 - 400 \times 3) : 12 = 1500$

Adi səhmlərin orta hesabla miqdarı barədə məlumatlar:

a) ödənişsiz;

b) bazar dəyərindən aşağı qiymətlə yerləşdirən zaman təshih edilir.

Mənfəətin durulaşması dedikdə gələcəkdə cəmiyyətin aktivlərini müvafiq surətdə artırmadan əlavə adi səhmlər buraxılmasının mümkünlüyü nəticəsində bir adi səhmə hesablanmış mənfəətin azalması anlaşılır. Əlavə adi səhmlər buraxılması:

1) səhmdar cəmiyyətinin bütün konvertasiya edilən qiymətli kağızlarının (imtiyazlı səhmlərinin, istiqrazlarının) adi səhmlərə konvertasiya edilməsi;

2) emitentdən adi səhmlərin alınıb - satılması (onların bazar dəyərindən aşağı qiymətə) müqavilələrinin icra edilməsi hallarında həyata keçirilir.

Bir səhmə düşən durulaşmış mənfəəti müəyyən edərkən kəsirin surəti və məxrəci, yəni hesabat dövründə baza mənfəətinin məbləğini və tədavüldə olan adi səhmlərin orta hesabla miqdarı təshih edilir. Təshih edilmə kəsirin surətinin və məxrəcinin baza mənfəətinin və tədavüldə olan adi səhmlərin orta hesabla miqdarının mümkün olan

artımının məbləği qədər artırılması yolu ilə həyata keçirilir (qiymətli kağızların konvertasiya edilməsi və müqavilələrin icra edilməsi hallarında).

Mənfəətin və tədavüldə olan adi səhmlərin orta hesabla miqdarının mümkün olan artımları:

- konvertasiya edilən qiymətli kağızların həm növü və buraxılışı üzrə;
- səhmlərin emitentdən alınıb-satılmasına dair hər müqavilə üzrə hesablanır.

Mənfəətin mümkün olan artımını müəyyən edən zaman konvertasiya edilən qiymətli kağızlara və müqavilələrə aid bütün gəlirlər və xərclər hesaba alınır.

Belə xərclər aşağıdakılar ola bilər:

- buraxılışı şərtlərinə uyğun olaraq adi aksiyalara konvertasiya edilə bilən imtiyazlı səhmlər üzrə hesablanan dividentlər;
- xüsusi konvertasiya edilən istiqrazlar üzrə ödənilən faizlər;
- konvertasiya edilən qiymətli kağızların yerləşdirilmə qiyməti və nominal dəyəri arasında fərqin silindiyi məbləğlər, əgər onlar nominal dəyərindən aşağı qiymətlə yerləşdirilmişdirsə;
- digər analoji xərclər.

Belə gəlirlər aşağıdakılar ola bilər:

- konvertasiya edilən qiymətli kağızların yerləşdirilmə qiyməti və nominal dəyəri arasında fərqin silindiyi məbləğlər, əgər onlar nominal dəyərindən yüksək qiymətə yerləşdirilmişdirsə;
- digər analoji gəlirlər.

Baza mənfəətinin məbləğinin mümkün olan dəyişilməsini hesablayarkən (yəni durulaşmış mənfəətin məbləğini müəyyən edərkən) göstərilən xərclərin miqdarı adı çəkilən gəlirlərin məbləğləri qədər azaldılır.

Cəmiyyətin aktivlərini müvafiq surətdə artırmadan tədavüldə olan adi səhmlərin miqdarının mümkün olan artımı aşağıdakı kimi müəyyən edilir:

$$\frac{(BD - YQ) \times SM}{BD},$$

burada BD - bir adi səhmin bazar dəyəridir, hesabat dövrü ərzində orta hesabla bazar dəyəri kimi müəyyən edilir; YQ - müqavilədə müəyyən edilmiş şərtlərə uyğun olaraq bir adi səhmin yerləşdirmə qiymətidir; SM-alınma müqaviləsi üzrə adi səhmlərin ümumi miqdarıdır.

Adi səhmlərin sayının mümkün olan artımı:

- hesabat dövrünün əvvəlindən;
- konvertasiya edilən qiymətli kağızların buraxılışı və ya alınma müqaviləsi bağlanması tarixindən (əgər bu hadisələr hesabat dövrü ərzində baş vermişdirsə) tədavüldə olan adi səhmlərin orta hesabla sayını hesablayarkən nəzərə alınır.

Yoxlama sualları?

1. Gəlirlərin və xərclərin mahiyyətini və tərkibini hansı normativ sənədlər nizama salır (reqlamentləşdirir)?
2. Siz kommersiya təşkilatının gəlirlərinin və xərclərinin hansı növlərini bilirsiniz?
3. Adi fəaliyyət növlərindən alınan gəlirlər və xərclər nədən ibarətdir və onların tərkibi necədir?
4. Əməliyyat və satışdan kənar gəlirlərin və xərclərin tərkibi necədir?
5. Kommersiya təşkilatının gəlirlərinin və xərclərinin qəbul edilməsi şərtləri hansılardır?
6. «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formada hansı mühüm göstəricilər təqdim edilir?
7. Balans mənfəətinin dəyişilməsi amillərini –toplananlarını göstərin.
8. Balans mənfəətinin strukturunun və dinamikasının təhlili metodikası nədən ibarətdir?
9. Xalis mənfəətin dinamikasının təhlili metodikası nədən ibarətdir?
10. Analitik uçot sistemində bölüşdürülmüş mənfəətin əks etdirilməsi qaydası necədir?
11. Satışdan əldə edilən mənfəətin planlaşdırılması zamanı hansı əsas metodlar tətbiq edilir?

12. Satışdan əldə edilən mənfəət amillər üzrə təhlil edilərkən hansı əsas variantlardan istifadə edilir?
13. İnflyasiya satışdan əldə edilən mənfəətə necə təsir edir?
14. Satışdan əldə edilən mənfəətin formalaşmasının mötəbərliyini təmin edən əsas şərtlər hansılardır?
15. Təşkilatın uçot siyasətinin ayrı-ayrı elementləri satışdan əldə edilən mənfəətin məbləğinə necə təsir edir?
16. Bir səhmə düşən baza mənfəəti və durulaşmış mənfəət nədir?
17. Tədavüldə olan adi səhmlərin orta hesabla miqdarının hesablanması metodikası necədir?
18. Mənfəətin mümkün olan artımı müəyyən edilərkən gəlirlərin və xərclərin hansı əsas növləri konvertasiya edilən qiymətli kağızlara aid edilir?

XI FƏSİL

RENTABELLİYİN VƏ TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN İŞGÜZAR FƏALLIĞININ TƏHLİLİ

11.1. Rentabelliyin təhlilinin göstəricilər sistemi və onların hesablanılması metodikası

Mənfəət göstəriciləri kommersiya təşkilatlarının fəaliyyətinin səmərəliliyi barədə dəqiq təsəvvür yaratmır, belə ki, eyni mənfəət məbləği müxtəlif iqtisadi şəraitdə alına bilər. Kommersiya təşkilatlarının səmərəliliyinin müəyyən edilməsi üçün rentabellik göstəriciləri tətbiq edilir.

Rentabellik – mənfəətlilik yaxud gəlirlilik səviyyəsini əks etdirir. Rentabellik göstəriciləri – nisbi göstəricilərdir (əmsallardır), onlarda mənfəətin məbləği təsərrüfatçılıq şəraitini əks etdirən hər-hansı digər göstərici ilə, məsələn satışdan alınan mədaxil (netto) ilə, xüsusi kapitalın məbləği və s. ilə müqayisə edilir (tutuşdurulur).

Kommersiya təşkilatlarının rəsmi mühasibat hesabatı məlumatlarına əsasən rentabelliyin çoxsaylı göstəricilərini hesablamaq olar, çünki kəsrin surətində və məxrəcində müxtəlif göstəricilər istifadə edilə bilər:

- surətdə – balans mənfəəti, xalis mənfəət, satışdan alınan mənfəət;
- məxrəcdə – satışdan alınan mədaxil (netto), satışın tam maya dəyəri, təşkilatın aktivlərinin (əmlakının) orta dəyəri, təşkilatın xüsusi kapitalının orta məbləği, nizamnamə kapitalının məbləği, əsas fondların orta dəyəri, dövriyyə aktivlərinin orta dəyəri, istehsal fondlarının orta dəyəri və s.

Rentabellik göstəriciləri sistemində dörd əsas qrupu xüsusi qeyd etmək olar:

1) kommersiya təşkilatının əmlakından istifadənin səmərəliliyini əks etdirən aktivlərin rentabelliyi göstəriciləri;

2) kapitaldan istifadənin səmərəliliyini əks etdirən kapitalın rentabelliyi göstəriciləri;

3) məhsulların, malların, xidmətlərin istehsalının və satışının səmərəliliyini əks etdirən satışın rentabelliyi göstəriciləri;

4) xərclərin səmərəliliyini əks etdirən xərclərin rentabellik göstəriciləri.

Hər qrupun tərkibində konkret göstəriciləri qeyd etmək olar:

1. Aktivlərin rentabelliyi.

Bütün aktivlərin rentabelliyi (iqtisadi rentabellik).

Dövriyyə aktivlərinin rentabelliyi.

Dövriyyədənkənar aktivlərin rentabelliyi.

Əsas fondların rentabelliyi.

İstehsal fondlarının (əsas fondların və dövriyyə material aktivlərinin) renbatelliyi; və s.

2. Kapitalın rentabelliyi.

Tətbiq edilmiş bütün kapitalın rentabelliyi - bütün aktivlərin rentabelliyinə bərabərdir, çünki balansın atkivinin və passivinin yekunları bərabərdir.

Xüsusi kapitalın rentabelliyi (maliyyə rentabelliyi); və s.

3. Satışın rentabelliyi.

Satışın məcmu rentabelliyi.

Təşkilatın fəaliyyətinin ayrı - ayrı seqmentlərinin rentabelliyi.

Məhsulların ayrı - ayrı növlərinin rentabelliyi; və s.

4. Xərclərin rentabelliyi.

Bütün xərclərin, yəni iqtisadi elementlər üzrə xərclərin cəminin rentabelliyi.

Xərclərin ayrı-ayrı elementlərinin, yəni material xərclərinin, ayrılmalarla birlikdə əmək haqqı xərclərinin və s. rentabelliyi.

Adi fəaliyyət növləri üzrə xərclərin rentabelliyi – yəni məxrəcdə satışın tam maya dəyəri olur.

Xərclərin gəlirliliyi, yəni bir manata düşən gəlirlərin miqdarı.

Mühasibat hesabatı məlumatlarına əsasən rentabellik göstəricilərinin hesablamasına dair misallar 11.1 cədvəlində verilmişdir.

Cədvəl 11.1

Mühasibat hesabatı məlumatlarına əsasən kommersiya təşkilatının rentabellik səviyyəsinin və dinamikasının təhlili

Sıra sayı	Göstəricilər	Əvvəlki analoji dövrdə	Hesabat dövründə	Kənarlaşma (+,-)	Artım tempi, %
1	2	3	4	5	6
1	Balans mənfəəti, min man.	40000	56000	+16000	140,00
2	Xalis mənfəət, min man.	30400	42440	+12040	139,60
3	Satışdan əldə edilən mədaxil (netto), min man.	251000	331800	+80800	132,19
4	Satışın tam maya dəyəri, min man.	214500	282700	+68200	131,79
5	**Adi fəaliyyət növləri üzrə xərclərin rentabelliyi**				
5.1	Balans mənfəətinə əsasən, % (b.1: b.4x100)	18,65	19,81	+1,16	x
5.2	Xalis mənfəətə əsasən, % (b.2: b.4x100)	14,17	15,01	+0,84	x
6	**Kommersiya təşkilatının satışının rentabelliyi**				
6.1	Balans mənfəətinə əsasən, % (b.1: b.3x100)	15,94	16,88	+0,94	x
6.2	Xalis mənfəətə əsasən, % (b.2: b.3x100)	12,11	12,79	+0,68	x
7	Aktivlərin (əmlakın) orta dəyəri, min man.	209800	247200	+37400	117,80
8	**Kommersiya təşkilatının aktivlərinin (əmlakının) rentabelliyi**				
8.1	Balans mənfəətinə əsasən, % (b.1: b.7x100)	19,07	22,65	+3,58	x
8.2	Xalis mənfəətə əsasən, % (b.2: b.7x100)	14,50	17,17	+2,67	x
9	Nizamnamə kapitalı	108000	108000	-	100,00

Cədvəl 11.1-in davamı

1	2	3	4	5	6
10	**Nizamnamə kapitalının rentabelliyi**				
10.1	Balans mənfəətinə əsasən, % (b.1: b.9x100)	37,04	51,85	+14,81	x
10.2	Xalis mənfəətə əsasən, % (b.2 : b.9x100)	28,15	39,30	+11,15	x
11	Xüsusi kapitalın orta məbləği, min man.	122300	155950	+33650	127,51
12	**Xüsusi kapitalın rentabelliyi**				
12.1	Balans mənfəətinə əsasən, % (b.1 : b.11x100)	32,71	35,91	+3,20	x
12.2	Xalis mənfəətə əsasən, % (b.2 : b.11x100)	24,86	27,20	+2,34	x
13	Əsas fondların orta dəyəri, min man.	101200	125350	+24150	123,86
14	**Əsas fondların rentabelliyi**				
14.1	Balans mənfəətinə əsasən, % (b.1: b.13x100)	39,53	44,67	+5,14	x
14.2	Xalis mənfəətə əsasən, % (b.2 : b.13x100)	30,01	33,86	+3,85	x
15	Dövriyyə material aktivlərinin orta dəyəri, min man.	59000	64500	+5500	109,32
16	**Dövriyyə material aktivlərinin rentabelliyi**				
16.1	Balans mənfəətinə əsasən, % (b.1: b.15x100)	67,80	86,82	19,02	x
16.2	Xalis mənfəətə əsasən, % (b.2 : b.15x100)	51,53	65,80	+14,27	x
17.	Əsas fondların və dövriyyə material aktivlərinin orta dəyəri (istehsal fondlarının), min man.	160200	189850	+29650	118,51
18	**Əsas fondların və dövriyyə material aktivlərinin (istehsal fondlarının) rentabelliyi**				
18.1	Balans mənfəətinə əsasən, % (b.1 : b.17x100)	24,97	29,50	+4,53	x
18.2	Xalis mənfəətə əsasən, % (b.2 : b.17x100)	18,98	22,35	+3,37	x

11.1. cədvəlinin müvafiq bəndlərinə izahatlar verək.

7-ci bənd. Kommersiya təşkilatının aktivlərinin konkret balans tarixinə olan dəyərini balansın aktivinin yekununa bərabər qəbul etmək olar. Statistika qaydalarına əsasən müəyyən dövr ərzində aktivlərin orta dəyəri orta xronologiya düsturu ilə təyin edilməlidir. İnformasiya olmadıqda onu az dəqiqliklə iki balans qalığından adi orta hesabi (arifmetik) rəqəm düsturu ilə hesablamaq olar. Cədvəldə hesabat dövründə əmlakın dəyəri bu üsulla hesablanmışdır.

Hesabat dövründə aktivlərin orta illik dəyəri

$$\frac{209800 + 284600}{2} = 247200$$ min manata bərabərdir.

Əvvəlki dövrdə bizə yalnız dövrün sonuna olan məlumatlar məlumdur. Bu göstəricini şərti olaraq əvvəlki dövrdə əmlakın orta dəyəri kimi qəbul edirik. O, 209800 min manata bərabərdir.

11-ci bənd. Təşkilatın xüsusi kapitalının konkret balans tarixinə olan məbləğini üç üsulla təyin etmək olar:

- xüsusi kapitalın məbləği Mühasibat balansının I-ci passiv «Xüsusi vəsaitlərinin mənbələri» bölməsinin yekununa bərabər qəbul edilir;
- xüsusi kapitalın məbləği = Mühasibat balansının I-ci passiv «Xüsusi vəsaitlərinin mənbələri» bölməsi + 730-cı «Gələcək dövrün gəlirləri» sətri;
- xüsusi kapitalın məbləği xalis aktivlərin məbləği kimi hesablanır.

Göstərilən misalda xüsusi kapitalın məbləği birinci variant üzrə hesablanmışdır. Dövrün əvvəlinə 122300 min manat, dövrün sonuna isə – 189600 min manat təşkil etmişdir.

Hesabat dövrü ərzində orta hesabi (arifmetik) məbləğ

$$\frac{122300 + 189600}{2} = 155950$$ min manata bərabərdir.

Əvvəlki dövr üzrə orta miqdar kimi əvvəlki dövrün sonuna olan məbləğ – 122300 min manat qəbul edilmişdir.

13-cü bənd. Əsas istehsal fondlarının konkret balans tarixinə (qalıq) dəyəri mühasibat balansında «Əsas vəsaitlər» adlı 012-ci

sətrdə göstərilmişdir. O, dövrün əvvəlinə 101200 min manat, sonuna isə – 149500 manat təşkil etmişdir.

Hesabat dövründə orta hesabi (arifmetik) məbləğ

$$\frac{101200 + 149500}{2} = 125350 \text{ min manata bərabərdir.}$$

Əvvəlki dövr üçün şərti olaraq 101200 min manata bərabər məbləğ qəbul edilmişdir.

15-ci bənd. Dövriyyə material aktivlərinin konkret balans tarixinə olan dəyəri Müəssisə (mühasibat) balansında «İstehsal ehtiyatları» üzrə əks etdirilir. Dövrün əvvəlinə 59000 min manat, sonuna isə – 70000 min manat təşkil etmişdir.

Hesabat dövründə orta hesabi (arifmetik) məbləğ

$$\frac{59000 + 70000}{2} = 64500 \text{ min manata bərabərdir.}$$

Əvvəlki dövr üçün şərti olaraq dövriyyə material aktivlərinin əvvəlki dövrün sonuna olan məbləği, yəni 59000 min manat qəbul edilmişdir.

17-ci bənd. Əsas istehsal fondlarının və dövriyyə material aktivlərinin orta dəyəri 11.1 cədvəlinin 13-cü və 15-ci bəndlərinin məlumatlarının cəmi kimi müəyyən edilmişdir:

- əvvəlki dövrdə: 101200 + 59000 = 160200 min manat;
- hesabat dövründə: 125350 + 64500 = 189850 min manat.

11.2. Aktivlərin rentabelliyi göstəricilərinin modelləşdirilməsi amilli təhlilin təşkilinin əsas mərhələsi kimi

İqtisadi-riyazi modelləşdirmə amillər üzrə təhlil metodikasının əsasıdır. İqtisadi-riyazi modellərin qurulması mərhələləri, habelə onların növləri 3.4-cü paraqrafda təqdim edilmişdir. Təhlilin məqsədlərindən asılı olaraq iqtisadi-riyazi modellər bir növdən digərinə çevrilə bilərlər. Təşkilatın aktivlərinin (əmlakının) rentabellik əmsalı misalında bölünən modelin kombinasiya edilmiş modelə çevrilməsi prosedurunu nəzərdən keçirək.

O, balans mənfəətinin aktivlərin orta dəyərinə nisbəti kimi hesablanır. Amillər üzrə təhlil metodikası aktivlərin rentabelliyinin ilkin modelinin istehsalın intensivləşməsini və təşkilatın təsərrüfat fəaliyyətinin səmərəliliyini səciyyələndirən əsas keyfiyyət göstəricilərinə bölüşdürməyi nəzərdə tutur.

Aktivlərin rentabelliyi əmsalı *(Ra)* modeli aşağıdakı kimi təqdim edilə bilər:

$$Ra = \frac{M}{A},$$

burada M - müəyyən dövr ərzində mənfəətin məbləğidir; A - təşkilatın həmin dövr ərzində aktivlərinin orta dəyəridir.

Aktivlərin orta dəyərini iki toplanan amil kimi təsəvvür etmək olar:

$$A = F + E,$$

burada F, E - müəyyən dövr ərzində müvafiq olaraq dövriyyədənkənar və dövriyyə aktivlərinin orta dəyəridir.

Rentabellik modeli mürəkkəbləşir

$$Ra = \frac{M}{F + E},$$

Sonra aktivlərin rentabelliyi əmsalı düsturuna satışdan əldə edilən mədaxil göstəricisini daxil edirik. Aktivlərin rentabelliyi düsturu aşağıdakı şəkli alır:

$$Ra = \frac{\frac{M}{S}}{\frac{F}{S} + \frac{E}{S}},$$

burada S - müəyyən dövr ərzində satışdan əldə edilən mədaxildir; $\frac{M}{S}$ - satışın rentabelliyi əmsalıdır; $\frac{F}{S}$ - satışdan əldə edilən mədaxilin fond tutumu əmsalıdır (dövriyyədənkənar aktivlər üzrə); $\frac{E}{S}$ - dövriyyə aktivlərinin təhkim ediləmə əmsalıdır.

Təhlili dərinləşdirdikdə aktivlərin rentabelliyi əmsalı modeli aşağıdakı amillərə bölüşdürülə bilər:

$$Ra = \frac{M}{A} = \frac{M}{F+E} = \frac{\frac{M}{S}}{\frac{F}{S}+\frac{E}{S}} = \frac{1-\frac{MD}{S}}{\frac{F}{S}+\frac{E}{S}} = \frac{1-\left(\frac{M}{S}+\frac{Ə}{S}+\frac{Am}{S}+\frac{Dx}{S}\right)}{\frac{F}{S}+\frac{E}{S}},$$

burada $\frac{MD}{S}$ - satışdan əldə edilən mədaxilin bir manatına düşən xərclərdir (tam maya dəyərilə); $\frac{Ə}{S}$ - satışın əmək haqqı tutumu əmsalıdır; $\frac{Am}{S}$ - satışın amortizasiya tutumu əmsalıdır; $\frac{Dx}{S}$ - digər xərclərin xüsusi çəki əmsalıdır.

Aktivlərin rentabelliyi əmsalının başqa növə çevrilməsinin (başqa şəkil almasının) digər variantı da mövcuddur. Məsələn, həmin göstəricini aşağıdakı amillərə bölüşdürmək olar:

$$R_a = \frac{\frac{M}{S}}{\frac{F}{S}+\frac{E}{S}} = \frac{M}{S}\times\frac{1}{\frac{F}{S}+\frac{E}{S}} = \frac{M}{S}\times\frac{1}{\frac{1}{\frac{S}{F}}+\frac{1}{\frac{S}{E}}} = \frac{M}{S}\times\frac{\frac{S}{F}\times\frac{S}{E}}{\frac{S}{F}+\frac{S}{E}} = R_s\times\frac{FV\times Ə_{da}}{FV+Ə_{da}} = R_s\times FV\times Ə_{da}\times\frac{1}{FV+Ə_{da}},$$

burada Rs - satışın rentabelliyi əmsalıdır; FV - dövriyyədən kənar aktivlərin fond verimi əmsalıdır; Əda - dövriyyə aktivlərinin dövr etməsi əmsalıdır.

Təşkilatın aktivlərinin rentabelliyinin səviyyəsi dövriyyədən kənar aktivlərin fond verimi əmsalının yüksəlməsindən, dövriyyə aktivlərinin dövr etməsinin sürətlənməsindən, satışdan alınan mədaxilin bir manatına düşən xərclərin azalmasından asılıdır.

Həmin amillərin aktivlərin rentabelliyi əmsalının dəyişilməsinə təsirinin hesablanması və qiymətləndirilməsi təhlilin zəncirvari yerdəyişmə metodu, amillərin təcrid edilmiş təsirinin aşkar edilməsi metodu, inteqral metoddan istifadə edilməsi əsasında həyata keçirilir.

Aktivlərin rentabelliyi əmsalının çevrilməsinə (şəkil dəyişməsinə) nəzərdən keçirilmiş yanaşmalar iqtisadi-riyazi modellərin uzadılması prosedurları adlandırılır. Əksinə prosedura – iqtisadi-riyazi modellərin qısaldılması da mümkündür.

11.3. Aktivlərin rentabelliyi göstəricisi təsərrüfat subyektlərinin istehsal və kommersiya fəaliyyətinin səmərəlilik parametri kimi

Kommersiya təşkilatlarının rentabelliyi göstəriciləri sistemində *aktivlərin (əmlakın) rantebilliyi göstəricisi* çox mühüm əhəmiyyətə malikdir.

$$\text{Təşkilatın aktivlərinin (əmlakının) rentabelliyi,\%} = \frac{\text{Müəyyən dövrdə balans mənfəəti yaxud xalis mənfəət və ya satışdan alınan mənfəət, min man.}}{\text{Həmin dövrdə təşkilatın aktivlərinin orta dəyəri, min man.}} \times 100.$$

Bu göstərici kommersiya təşkilatının fəaliyyətinin səmərəliliyini əks etdirir, belə ki, sürətdə maliyyə nəticələri, məxrəcdə isə – təşkilatın sərəncamında olan əmlakın dəyəri təqdim edilmişdir. Mənfəət göstəriciləri barədə informasiya «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formada verilir.

Konkret balans tarixində aktivlərin dəyəri Mühasibat balansının aktivinin yekununa bərabər qəbul edilə bilər. Müəyyən dövrdə aktivlərin orta dəyəri statistika qaydalarına əsasən orta xronologiya düsturu üzrə hesablanır. İnformasiya olmadıqda onu az dəqiqliklə iki balans qalıqlarından sadəcə orta hesabi (arifmetik) düsturu ilə təyin etmək olar.

Aktivlərin rentabelliyi göstəriciləri təhlil edilərkən onlar bir neçə analoji vaxt dövrü üzrə hesablanır, sonra müqayisə edilir və təşkilatın

rentabelliyinin səviyyəsinin dəyişilməsi barədə nəticələr çıxarılır. Rentabellik göstəriciləri habelə biznes-planın məlumatları üzrə hesablana bilər. Onların faktiki qiymətlərini analoji təşkilatların layihə göstəricilərilə, sahə üzrə orta göstəricilərlə və rəqib təşkilatların göstəricilərilə müqayisə etmək olar. Aktivlərin rentabelliyi göstəricilərinin hesablanması nümunələri 11.1 cədvəlində verilmişdir.

11.4. Xalis aktivlərin rentabelliyi göstəricisi xüsusi kapitaldan istifadənin səmərəliliyini xarakterizə edən iqtisadi indikator kimi

Xysusi kapitalın rentabelliyi ondan istifadə edilməsinin səmərəliliyinin səviyyəsini əks etdirir. Kommersiya təşkilatının xüsusi kapitalının məbləğini bir neçə üsullarla (müxtəlif dəqiqlik dərəcəsilə) hesablamaq olar:

- hesablamanın birinci üsulu (təxmini):

xüsusi kapitalın məbləği Mühasibat balansının I-ci passiv «Xüsusi vəsaitlərinin mənbələri» bölməsinin yekununa bərabər qəbul edilir;

- hesablamanın ikinci üsulu (dəqiqləşdirilmiş):

xüsusi kapitalın məbləği = Mühasibat balansının I-ci passiv «Xüsusi vəsaitlərinin mənbələri» bölməsinin yekunu + 730-cı «Gələcək dövrün gəlirləri» sətri;

- hesablamanın üçüncü üsulu:

xüsusi kapitalın məbləği xalis aktivlərin məbləği kimi hesablanır.

Xüsusi kapitalın rentabelliyi göstəricilərinin modelləşdirilməsi zamanı xüsusi kapitalın məbləğinin hesablanmasının üç variantından istənilәni qəbul edilə bilər.

$$\text{Təşkilatın xüsusi kapitalının rentabelliyi,\%} = \frac{\text{Müəyyən dövrdə balans mənfəəti, yaxud xalis mənfəət, yaxud satışdan alınan mənfəət, min man.}}{\text{Həmin dövrdə xüsusi kapitalın orta hesabla məbləği, min man.}} \times 100.$$

Xalis aktivlərin məbləğinin müəyyən edilməsi metodikası üzərində dayanaq.

Azərbaycan Respublikasının Mülki məcəlləsiləsinin 4-cü «Hüquqi şəxslər» fəsilinin müvafiq maddəsinə əsasən Səhmdar cəmiyyətlər haqqında və təşkilatların maliyyə vəziyyətinin qiymətləndirilməsi üçün xalis aktivlər göstəricisi nəzərdə tutulmuşdur. Onların dəyərinin hesablanması qaydası Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin «Səhmdar cəmiyyətlərinin xalis aktivlərinin dəyərinin qiymətləndirilməsi qaydasının təsdiq edilməsi haqqında razılaşdırılmış birgə əmrilə müəyyən edilməlidir. Xalis aktivlərin dəyəri Müəssisənin balansına əlavə 5 saylı formada əks etdirilir. Xalis aktivlər təşkilatın xüsusi kapitalı hesabına formalaşan əmlakının dəyərini göstərir.

$$\text{Xalis aktivlərin məbləği} = \text{Hesablama üçün qəbul edilən aktivlərin məbləği} - \text{Hesablama üçün qəbul edilən öhdəliklərin məbləği}$$

Hesablama üçün qəbul edilən aktivlərin məbləği = Mühasibat balansının aktivinin yekunu – «İştirakçıların (təsisçilərin) nizamnamə kapitalına pay ödəmələri üzrə borcu».

İştirakçıların (təsisçilərin) borcu barədə informasiyanı mühasibat uçotu məlumatlarına əsasən müəyyən etmək olar.

Nəzərdən keçirilən təşkilatın balansı üzrə hesablama üçün qəbul edilən aktivlərin məbləğini müəyyən edək:

- ilin əvvəlinə = 209800 min man.;
- ilin sonuna – 284600 minman.

Hesablama üçün qəbul edilən öhdəliklərin məbləği = Mühasibat balansının II-ci passiv «Hesablaşmalar və sair passivlər» bölməsinin yekunu (730-cı sətri çıxmaqla)

Təhlil edilən balans üzrə həmin məbləğ belə olacaqdır:

- ilin əvvəlinə = 25300+36000+24200=85500 min man.;
- ilin sonuna – 27500+30300+31700=89500 min man.

Kommersiya təşkilatının balansı üzrə xalis aktivlərin məbləği:

- ilin əvvəlinə = 209800 -85500=124300 min man.;
- ilin sonuna = 284600 -89500=195100 min manat təşkil edəcəkdir.

Xalis aktivlərin hesablanması 11.2 cədvəlində təqdim edilmişdir.

Xalis aktivlərin məbləğini təşkilatın nizamnamə kapitalı ilə müqayisə etmək lazımdır. Nəzərdən keçirilən misalda həm ilin əvvəlinə, həm də sonuna xalis aktivlərin məbləği nizamnamə kapitalının məbləğindən böyükdür:

124300 min man. > 108000 min man.;

195100 min man. > 108000 min man.

Səhmdar cəmiyyətləri haqqında qaydalara uyğun olaraq, əgər səhmdar cəmiyyətlərində ikinci və hər sonrakı il qurtaranda illik balansa uyğun olaraq xalis aktivlərin dəyəri nizamnamə kapitalından az olarsa, onda səhmdar cəmiyyəti özünün nizamnamə kapitalının xalis aktivlərinin dəyərindən artıq olmayan miqdara qədər azaldılmasını bəyan etməlidir.

Əgər xalis aktivlərin dəyəri nizamnamə kapitalının icazə verilən minimum məbləğindən az olarsa, onda səhmdar cəmiyyəti özünün ləğv edilməsi barədə qərar qəbul etməlidir.

Cədvəl 11.2

Təşkilatın xalis aktivlərinin hesablanması (min man.)

Sıra sayı	Göstəricilərin adları	Sətr kodu	İlin əvvəlinə	İlin sonuna
1	2	3	4	5
	I. Aktivlər			
1.	Əsas vəsaitlər	012	101200	149500
2.	Qeyri-maddi aktivlər	022	4000	4700
3.	Quraşdırılası avadanlıqlar	030	18300	25300
4.	Başa çatdırılmayan kapital qoyuluşları	040	6500	9520
5.	Uzunmüddətli maliyyə qoyuluşları	050	-	-
6.	Sair dövriyyədənkənar aktivlər	070	-	480
7.	İstehsal ehtiyatları	100+162+176	59000	70000
8.	Alınmış qiymətlilər üzrə ƏDV	175	800	900
9.	Debitor borcu[1)]	199+260	10450	11150
10.	Pul vəsaitləri	280	9550	13050
11.	Sair dövriyyə aktivləri	320	-	-
12.	Hesablama üçün qəbul edilən aktivlərin cəmi	x	209800	284600
	II. Passivlər			
13.	Uzunmüddətli bank kreditləri və borclar	500+510	22700	23200
14.	Qısamüddətli bank kreditləri və borclar	600+620	38600	34320
15.	İşçilər üçün bank kreditləri	610	-	280
16.	Kreditor borcu	630+720	24200	31700
17.	Təsisçilərlə hesablaşmalar	725	-	-
18.	Şübhəli borclar, qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar	740+750	-	-
19.	Sair qısamüddətli passivlər	760	-	-
20.	Hesablama üçün qəbul edilən passivlərin cəmi	x	85500	89500
21.	Səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri (b.12-b.20)	x	124300	195100
[1)]İştirakçıların (təsisçilərin) nizamnamə kapitalına pay ödəmələri üzrə borc istisna edilməklə (mühasibat hesabatı göstəricilərinin izahı üzrə yaxud mühasibat üçotu məlumatları üzrə müəyyən edilir)		x	Bizim misalda yoxdur	

Əgər cəmiyyət ağlabatan müddətdə nizamnamə kapitalının azaldılması yaxud ləğv edilməsi haqqında qərar qəbul etməsə, onda kreditorların cəmiyyətdəki öhdəliklərini vaxtından əvvəl yerinə yetirməyi və zərərlərin ödənilməsini tələb etmək hüququ vardır. Belə hallarda hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən orqan yaxud digər dövlət orqanları səhmdarlar cəmiyyətinin ləğv edilməsinə dair məhkəmə qarşısında tələb irəli sürmək hüququna malikdir.

Səhmdar cəmiyyəti, əgər onun xalis aktivlərinin dəyəri nizamnamə kapitalının məbləğindən, ehtiyat fondundan və yerləşdirilmiş imtiyazlı səhmlərin ləğvedilmə dəyərinin nominal dəyərindən artıq məbləğindən az olarsa, yaxud dividendlər ödənilməsi nəticəsində göstərilən məbləğdən az olacaqdırsa, bu halda dividentlər ödənilməsi barədə qərar qəbul etmək ixtiyarı yoxdur və səhmlər üzrə dividendlər ödəmək hüququna malik deyil.

Hesabat ilində xüsusi kapitalın rentabelliyi əmsalının hesablanmasına aid misal gətirək:

xüsusi kapitalın rentabelliyi
(balans mənfəətinə əsasən) =

$$= \frac{56000 \text{ min man.}}{(124300 \text{ min man.} + 195100 \text{ min man.}) : 2} \times 100 = 35{,}06\%;$$

xüsusi kapitalın rentabelliyi
(xalis mənfəətə əsasən) =

$$= \frac{42440 \text{ min man.}}{(124300 \text{ min man.} + 195100 \text{ min man.}) : 2} \times 100 = 26{,}57\%.$$

Rentabellik göstəricilərini layihə, plan və hesabat variantlarında hesablamaq olar. Təhlil zaman xüsusi kapitalın rentabelliyinin faktiki əmsalları layihə, plan göstəricilərilə, əvvəlki analoji vaxt dövrünün, analoji obyektlərin göstəricilərilə, sahə üzrə orta, yüksək və aşağı göstəricilərlə tutuşdurulur.

11.5. İstehsal fondları rentabelliyinin amilli təhlili

İstehsal fondlarının rentabelliyi göstəricisini aşağıdakı kimi təqdim edək:

$$\text{İstehsal fondlarının rentabelliyi əmsalı, \%} = \frac{\text{müəyyən dövrdə balans mənfəəti yaxud xalis mənfəət, yaxud satışdan alınan mənfəət, min man.}}{\text{həmin dövrdə əsas istehsal fondlarının orta dəyəri, min man.} + \text{həmin dövrdə maddi dövriyyə vəsaitlərinin orta dəyəri, min man.}} \times 100.$$

Əsas istehsal fondlarının və maddi dövriyyə vəsaitlərinin birlikdə dəyəri təşkilatın istehsal potensialının həcmini səciyyələndirir.

İstehsal fondlarının rentabelliyi əmsalı təşkilatın istehsal potensialından istifadəsinin səmərəliliyini əks etdirir, belə ki, surətdə maliyyə nəticələri, məxrəcdə isə – istehsal potensialının orta hesabla dəyəri təqdim edilmişdir.

Mənfəət göstəricilərinə dair informasiya «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formada verilir. Balans tarixinə əsas fondların dəyərini Mühasibat balansından 012-ci sətirdən götürmək olar. Müəyyən dövr ərzində əsas fondların orta dəyəri statistika qaydalarına əsasən orta xronoloji rəqəm düsturu ilə hesablanır, kifayət qədər informasiya olmadıqda isə o, az dəqiqliklə iki balans qalığının sadə orta hesabi (arifmetik) miqdarı düsturu ilə müəyyən edilir. Maddi dövriyyə vəsaitlərinin konkret balans tarixinə olan dəyəri Mühasibat balansında II-ci aktiv «Ehtiyatlar və məsrəflər» bölməsində göstərilmişdir.

Müəyyən dövrdə maddi dövriyyə vəsaitlərinin orta dəyəri, eynilə əsas fondların orta dəyəri kimi, dövrün əvvəlinə və sonuna balans qalıqlarının sadə orta hesabi (arifmetik) miqdarı düsturu ilə müəyyən edilir.

Təhlil zamanı istehsal fondlarının rentabelliyi göstəriciləri bir neçə analoji vaxt dövrləri üzrə hesablanır, sonra müqayisə edilir və rentabellik səviyyəsinin dəyişilməsinə dair nəticə çıxarılır. Rentabellik göstəriciləri həmçinin biznes-planın məlumatlarına əsasən hesablana bilər. Təhlil zamanı onların faktiki qiymətlərini plan göstəricilərilə, analoji təşkilatların göstəricilərilə, sahə üzrə orta, yüksək və aşağı göstəricilərilə müqayisə etmək olar.

İstehsal fondlarının rentabelliyi göstəricilərinin hesablanması nümunələri 11.1 cədvəlində verilmişdir. Bu, kommersiya təşkilatında əsas istehsal fondlarının və maddi dövriyyə vəsaitlərinin rentabellik səviyyəsi əvvəlki dövrdə 24,97%, hesabat dövründə isə 29,50% təşkil etmişdir. Rentabellik səviyyəsinin yüksəlməsi təşkilatın istehsal potensialından istifadə edilməsinin səmərəliliyinin artmasını sübut edir.

11.6. Aktivlərin rentabelliyinin yüksəldilməsi ehtiyatlarının və amillərinin təsnifatı

Kommersiya təşkilatında aktivlərin rentabelliyinin yüksəldilməsinə təsir edən amillərin[1] iki əsas qrupunu qeyd etmək olar:

- birinci qrup təşkilatın balans mənfəətinin və xalis mənfəətinin artırılması imkanlarını əks etdirir;
- ikinci qrup təşkilatın aktivlərinin miqdarının və strukturunun optimallaşdırılması imkanlarını göstərir.

Hər qrupun tərkibinə rentabelliyin yüksəldilməsinin konkret yollarını (ikinci qəbildən olan amilləri) göstərmək olar.

Kommersiya təşkilatının balans mənfəətini aşağıdakılar hesabına artırmaq olar:

1) məhsul (iş və xidmətlərin) buraxılışı və satışı həcmlərinin artırılması (bazarın konyunkturası əlverişli olduqda);
2) satışın maya dəyərinin aşağı salınması;
3) idarəetmə xərclərinin azaldılması;
4) kommersiya xərclərinin azaldılması;

1) Amillərin anlayışı və mahiyyəti 2.4-cü paraqrafda şərh edilmişdir.

5) realizə edilən malların, məhsulların (iş və xidmətlərin) qiymətlərinin yol verilən (böhran yaratmayan həddə) artırılması;
6) səmərəli maliyyə əməliyyatları;
7) əmlakla mənfəətli əməliyyatlar;
8) digər əməliyyat xərclərinin və digər satışdan kənar xərclərin azaldılması (müxtəlif əmlak obyektlərilə əqdlər keçirilməsinə və formalaşmasına görə vasitəçi təşkilatlara kommersiya ödəmələrinin məbləğlərinin, təşkilatın təsərrüfat müqavilələrinin pozulmasına görə ödədiyi cərimələrin, penyaların və dəbbələmə xərclərinin məbləğinin; təşkilatın öhdəliklərini lazımi səviyyədə yerinə yetirilməsilə əlaqədar ödəməli olduğu zərərlərin məbləğlərinin; material-istehsal ehtiyatların qiymətinin azaldılması məbləğlərinin; iddia müddəti ötüb keçmiş debitor borcu məbləğlərinin və s. azaldılması).

Təşkilatın aktivlərinin həcminin və strukturunun ortimallaşmasını aşağıdakılar hesabına həyata keçirmək olar:

1) lazımsız əmlak obyektlərinin satışı, ləğvi yaxud ödənişsiz verilməsi;
2) mal-material dəyərlilərinin cari ehtiyatlarını optimal səviyyəyə qədər azaldılması;
3) debitor borclarının qalıqlarının azaldılması.


İqtisadi ədəbiyyatda təşkilatın aktivlərinin rentabelliyi səviyyəsinə təsir edən amillərin təsnifatının çoxsaylı variantları təklif edilmişdir. Fikirmizcə, aktivlərin rentabelliyini (Ra) üç amilli mültiplikativ modeli əsasında təsnifatı (sxem 11.1) ən uğurlu variantdır:

$$R_a = y \times K_a \times R_s,$$

burada y – real halda dövriyyədə olan aktivlərin xüsusi çəkisidir; Ka - aktivlərin dövranı əmsalıdır; Rs - satışın rentabelliyidir.

11.7. Aktivlərin rentabellik səviyyəsinin dəyişməsi amillərinin təhlili və qiymətləndirilməsi

Hazırda nəzəriyyədə və təcrübədə rentabellik göstəricilərinin amillər üzrə təhlilinin çoxsaylı metodikaları təklif edilmişdir.



Sxem 11.1. ***Aktivlərin rentabelliyinə (Ra) təsir edən amillərin təsnifatı***

Təşkilatın aktivlərinin rentabelliyi göstəricisi üzrə bu metodikalardan birini nəzərdən keçirək.

Aktivlərin rentabelliyi əmsalı (faizi) kommersiya təşkilatının bütün əmlakından istifadənin səmərəliliyini əks etdirir. Ədəbiyyatda bu göstərici iqtisadi rentabellik adlanlandırılır.

Aktivlərin rentabelliyi səviyyəsinin müəyyən edilməsinin ənənəvi düsturu belədir:

$$Ra,\% = \frac{M}{A} \times 100.$$

Amillər üzrə təhlil üçün aktivlərin rentabelliyi düsturuna satışdan əldə edilən pul gəliri (netto) göstəricisini (S) daxil edək. Onda

$$Ra,\% = \frac{\frac{M}{S} \times 100}{\frac{A}{S}} = \frac{S}{A} \times \frac{M \times 100}{S},$$

burada M - müəyyən dövrdə mənfəətin məbləğidir; A - həmin dövrdə aktivlərin orta dəyəridir; $\frac{S}{A}$ - aktivlərin dövranı əmsalıdır; $\frac{M \times 100}{S}$ - satışın rentabelliyi faizidir.

Təhlil metodikasının alqoritmi

Baza variantı: $Ra_0,\% = \frac{S_0}{A_0} \times \frac{M_0 \times 100}{S_0}$;

Hesabat variantı: $Ra_1,\% = \frac{S_1}{A_1} \times \frac{M_1 \times 100}{S_1}$.

Təhlil edərkən ilk növbədə nəticə göstəricisinin, yəni aktivlərin rentabellik səviyyəsinin hesabat dövründə baza dövrünə nisbətən dəyişilməsini müəyyən edək.

$$\Delta Ra,\% = Ra_1,\% - Ra_0,\%.$$

Sonra həmin dəyişilməyə aşağıdakı iki əsas amilin təsirini hesablayaq:

1) aktivlərin dövranı əmsalının dəyişilməsinin təsirini:

$$\Delta Ra,\%\left(\frac{S}{A}\right)=\left(\frac{S_1}{A_1}-\frac{S_0}{A_0}\right)\times\frac{M_0\times100}{S_0};$$

2) satışın rentabellik faizinin dəyişilməsinin təsirini:

$$\Delta Ra,\%\left(\frac{M}{S}\times100\right)=\left(\frac{M_1\times100}{S_1}-\frac{M_0\times100}{S_0}\right)\times\frac{S_1}{A_1}$$

Hesablamaların düzgünlüyünün yoxlanması: amillərin təsirinin cəbri cəmi nəticə göstəricisinin dəyişilməsinə bərabər olmalıdır, yəni

$$\Delta Ra,\%\left(\frac{S}{A}\right)+\Delta Ra,\%\left(\frac{M\times100}{S}\right)=Ra_1,\%-Ra_0,\%$$

Aktivlərin rentabelliyinin amillər üzrə təhlili üçün ilkin məlumatlar 11.3 cədvəlində təqdim edilmişdir.

Cədvəl 11.3

Təşkilatın aktivlərinin rentabelliyinin amillər üzrə təhlili

Sıra sayı	Göstəricilər	Şərti işarələr	Əvvəlki analoji dövr ərzində	Hesabat dövrü ərzində
1	2	3	4	5
1	Balans mənfəəti, min man.	M	40000	56000
2	Dövriyyədən kənar aktivlərin orta hesabla dəyəri, min man.	DKA	129000	158000
3	Dövriyyə aktivlərinin orta dəyəri, min man.	DA	80800	89200
4	Aktivlərin orta dəyəri, min man. (b.2 + b.3)	A	209800	247200
5	Aktivlərin rentabelliyi, % (b.1 : b.4 x 100)	R_a	19,07	22,65
6	Satışdan əldə edilən pul gəliri (netto), min man.	S	251000	331800
7	Aktivləri dövranı əmsalı (b.6 : b.4)	$\frac{S}{A}$	1,1964	1,3422
8	Satışın rentabelliyi, % (b.1 : b.6 x 100)	$\frac{M}{S}$	15,94	16,88

Amillər üzrə təhlil üçün təşkilatın aktivlərinin rentabellik göstəricisini iki vurulan amillərin hasili kimi təsvir edək.

Aktivlərin rentabelliyi əmsalı, % = Aktivlərin dövranı əmsalı × Satışın rentabellik səviyyəsi, %

Baza variantı: 1, 1964 × 15,94 = 19,07%.

Hesabat variantı: 1,3422 × 16,88 = 22,65%.

Nəzərdən keçirilən misalda hesabat dövründə aktivlərin rentabelliyi əvvəlki dövrə nisbətən 3,58% artmışdır.

Aktivlərin rentabelliyinə aşağıdakı amillərin təsirinin hesablanması:

1) aktivlərin dövranı əmsalının dəyişilməsinin təsiri
(1,3422 - 1,1964) × 15,94 =+2,32%;

2) satışın rentabellik səviyyəsinin dəyişilməsinin təsiri
(16,88 - 15,94) × 1,3422 =+1,26%.

Yoxlama: 2,32 + 1,26 =-3,58%.

Bu metodika təhlilin dərinləşdirilməsi imkanlarını nəzərdə tutur. Hər iki əsas amil ikinci qəbildən olan amillərə paylana bilər. Məsələn, aktivlərin dövranı əmsalını əvvəlcə iki amil kimi dövriyyədən kənar aktivlərin dövranı əmsalı və dövriyyə aktivlərinin dövranı (dövr etməsi) əmsalı kimi təsəvvür etmək olar. Sonra ikinci qəbildən olan amillərin hər biri dövriyyədən kənar və dövriyyə aktivlərinin tərkibindən asılı olaraq üçüncü qəbildən olan bir neçə amilə paylaşdırılır.

İkinci əsas amilin – satışın rentabellik səviyyəsinin təsirini balans mənfəətinin tərkibinə uyğun olaraq ikinci qəbildən olan amillərə paylaşdırmaq olar.

Birinci amilin təsirinin detallaşdırılması misalı 11.4 cədvəlində təqdim edilmişdir.

Cədvəl 11.4

Birinci əsas amilin təsirinin detallaşdırılması

Sıra sayı	Göstəricilər	Əvvəlki analoji dövrdə	Hesabat dövründə	Satışdan əldə edilən pul gəlirinin indeksinə uyğun yeni hesablama ilə*	Faktiki göstəricilərin yeni hesablanmış göstəricilərdən kənarlaşması (+,-)	Aktivlərin rentabelliyinə təsiri, % (+,-)
1	2	3	4	5	6	7
1	Dövriyyədən kənar aktivlərin orta dəyəri, min man.	129000	158000	170525	-12525	+0,96
2	Dövriyyə aktivlərinin orta dəyəri, min man.	80800	89200	106810	-17610	+1,36
3	Aktivlərin orta dəyəri, min man.	209800	247200	277335	-30135	+2,32

* Satışdan əldə edilən pul gəlirinin indeksi $\frac{\Sigma q_1 p_1}{\Sigma q_0 p_0} = \frac{331800}{251000} = 1{,}3219$.

11.4. cədvəlinə izahatlar verək.

5-ci sütun. Burada əmlakın dövranı əmsalının əvvəlki dövrün səviyyəsində saxlanması şəraitində satışdan əldə edilən pul gəlirinin faktiki yaranmış məbləğinə uyğun dövriyyədən kənar və dövriyyə aktivlərinə tələbatını əks etdirən göstəricilər verilmişdir.

6-cı sütun. Burada baza dövrünün şərtlərilə müqayisədə ehtiyatların nisbi qənaəti (nisbi israfı) göstəriciləri verilmişdir.

11.4 cədvəlində verilmiş göstəricilər əsasında belə nəticə çıxarmaq olar ki, istifadə edilmiş ehtiyatların nisbi qənaəti 30135 min manat, o cümlədən dövriyyədən kənar aktivlərin – 12525 min manat, dövriyyə aktivlərinin isə – 17610 min manat təşkil etmişdir.

Dövriyyədən kənar aktivlərin nisbi qənaəti mədaxilin artım indeksi (1,3219) dövriyyə aktivlərinin artım indeksindən (1,104) yüksək olduğu halda əldə edilir. Bu nisbət dövriyyə aktivlərinin dövr etməsinin sürətlənməsini səciyyələndirir.

Aktivlərin nisbi qənaətinin ümumi məbləği (30135 min man.) rentabelliyin 2,32% yüksəlməsini təmin etmişdir. Təşkilatın əmlakının hər tərkib hissəsinin dəyişilməsinin aktivlərin rentabelliyinin dəyişilməsinə təsiri payını tapmaq lazımdır. Bunun üçün tənasüb (proporsiya) metodundan istifadə edəcəyik (11.4 cədvəlinin 7-ci sütunu).

Aktivlərin rentabelliyinə ikinci qəbildən olan amillərin təsirinin hesablanması:

1) dövriyyədən kənar aktivlərin dövranı əmsalının dəyişilməsinin təsiri

$$\frac{(+2{,}32)\times(-12525)}{(-30135)} = +0{,}96\%;$$

2) dövriyyə aktivlərinin dövranı əmsalının dəyişilməsinin təsiri

$$\frac{(+2{,}32)\times(-17610)}{(-30135)} = +1{,}36\%;$$

Yoxlama: 0,96 + 1,36 =+2,32%.

Analoji surətdə təşkilatın aktivlərinin rentabelliyinə dövriyyədən kənar aktivlərin ayrı - ayrı tərkib hissələrinin (əsas vəsaitlərin, qeyri - material aktivlərin, kapital qoyuluşlarının və s.) və dövriyyə aktivlərinin ayrı - ayrı tərkib hissələrinin (ehtiyatların, debtor borcunun, pul vəsaitlərinin, qısamüddətli maliyyə qoyuluşlarının və s.) təsirini hesablamaq olar.

Aktivlərin rentabelliyinə ikinci əsas amilin – satışın rentabellik səviyyəsinin təsirini detallaşdıraq (cədvəl 11.5).

Satışın rentabellik səviyyəsi əhəmiyyətli dərəcədə balans mənfəəti məbləğinin dəyişilməsindən asılıdır. Bununla əlaqədar olaraq detallaşdırılan (təfsilatlı) təhlil zamanı aktivlərin rentabelliyinə balans mənfəətinin ayrı-ayrı tərkib hissələrinin təsirini hesablamaq olar.

Cədvəl 11.5

İkinci əsas amilin detallaşdırılması (təfsilatı)

Sıra sayı	Balans mənfəətinin (vergi qoyulana qədər) tərkib hissələri – amilləri	Satışın rentabelliyini Formalaşdıran amillər			Aktivlərin rentabelliyinə satışın rentabelliyini formalaşdıran amillərin təsiri (+, -)
		Əvvəlki analoji dövrdə	Hesabat dövründə	Dəyişilmə (+, -)	
1	2	3	4	5	6
1	Satışdan alınan mənfəət	14,54	14,80	+0,26	+0,35
2	Alınmalı olan faizlər	2,15	2,11	-0,04	-0,05
3	Ödənilməli olan faizlər	-1,07	-1,05	+0,02	+0,03
4	Digər təşkilatlarda iştirak edilməsindən alınan gəlirlər	-	-	-	-
5	Digər əməliyyat gəlirləri	1,75	1,92	+0,17	+0,22
6	Digər əməliyyat xərcləri	-1,47	-0,99	+0,48	+0,64
7	Satışdan kənar gəlirlər	0,36	0,30	-0,06	-0,08
8	Satışdan kənar xərclər	-0,32	-0,21	+0,11	+0,15
9	Balans mənfəəti	15,94	16,88	+0,94	+1,26

Satışın rentabelliyinin hesabat dövründə əvvəlki dövrə nisbətən 0,94% (16,88% - 15,94%) artması aktivlərin rentabelliyinin 1,26% artmasına səbəb olmuşdur. Alınmış 1,26% artımı satışın

rentabelliyini formalaşdıran amillərin dəyişilməsinə mütənasib paylaşdırmaq lazımdır.

Hesablamalar üçün tənasüb (proporsiya) üsulundan istifadə edək:

$$\frac{1,26}{0,94} \times 0,26 = +0,35\%;$$

$$\frac{1,26}{0,94} \times (0,04) = -0,05\% \text{ və b.}$$

Hesablamaların nəticələri 11.5 cədvəlinin 6-cı sütununda verilmişdir.

Təhlil göstərdi ki, aktivlərin rentabelliyinin yüksəlməsinə səbəb olmuş əsas amil digər əməliyyat xərclərinin nisbətən azaldılması (+0,64%) olmuşdur. Əhəmiyyətinə görə ikinci amil - satışdan alınan mənfəətin artmasıdır (+0,35%), növbəti amil – digər əməliyyat gəlirlərinin yüksəlməsidir (+0,22%) və s.

11.8. Xüsusi kapitalın rentabelliyinin amillər üzrə təhlili metodikası

Təşkilatın xüsus kapitalının rentabelliyinin dəyişilməsi amillərinin təhlilini aktivlərin rentabelliyinin amillər üzrə təhlili metodikasına oxşar metodika üzrə aparmaq olar.

Təhlilin metodikasının alqoritmi

$$R_{XK},\% = \frac{M}{XK} \times 100,$$

burada R_{XK} - xüsus kapitalının rentabelliyidir, %; M - müəyyən dövrdə mənfəətin məbləğidir, min manat; XK - həmin dördə xüsus kapitalının orta məbləğidir, min manat.

Amillər üzrə təhlil üçün düstura satışdan alınan mədaxili (netto) (S) daxil edək:

$$R_{XK},\% = \frac{M}{XK}\times 100 = \frac{\frac{M}{S}\times 100}{\frac{XK}{S}} = \frac{S}{XK}\times\frac{M\times 100}{S},$$

burada $\frac{S}{XK}$ - xüsus kapitalının dövranı əmsalıdır, $\frac{M\times 100}{S}$ - satışın rentabellik səviyyəsidir.

Çevrilmələr nəticəsində iki amilli multiplikativ model alındı, bu isə zəncirvari (ardıcıl) yerdəyişmə metodunu tətbiq etmək imkanı verir.

Baza variantı: $R_{XK_0} = \frac{S_0}{XK_0}\times\frac{M_0\times 100}{S_0}$

Hesabat variantı: $R_{XK_1} = \frac{S_1}{XK_1}\times\frac{M_1\times 100}{S_1}$.

$$\Delta R_{XK} = R_{XK_1} - R_{XK_0}.$$

o cümlədən amillər üzrə:

1) xüsus kapitalının rentabelliyinə onun dövranı əmsalının dəyişilməsinin təsiri:

$$\Delta R_{XK}\left(\frac{S}{XK}\right) = \left(\frac{S_1}{XK_1} - \frac{S_0}{XK_0}\right)\times\frac{M_0\times 100}{S_0};$$

2) xüsus kapitalının rentabelliyinə satışın rentabellik faizinin dəyişilməsinin təsiri:

$$\Delta R_{XK}\left(\frac{M\times 100}{S}\right) = \left(\frac{M_1\times 100}{S_1} - \frac{M_0\times 100}{S_0}\right)\times\frac{S_1}{XK_1}.$$

Xüsusi kapitalın rentabelliyinin amillər üzrə təhlili 11.6 cədvəlində təqdim edilmişdir.

Cədvəl 11.6

Xüsusi kapitalın rentabelliyinin dinamikasının amillər üzrə təhlili

Sıra sayı	Göstəricilər	Şərti işarələr	Əvvəlki analoji dövrdə	Hesabat dövründə
1	2	3	4	5
1	Xalis mənfəət, min man.	XM	30400	42400
2	Xüsus kapitalın orta hesabla məbləği, min man.	XK	122300	155950
3	Xüsus kapitalın rentabelliyi, %, (b.1: b.2 x 100)	R_{XK}	24,86	27,21
4	Satışdan əldə edilən pul gəliri (netto), min man.	S	251000	331800
5	Xüsus kapitalın verimi əmsalı (b.4 : b.2)	$\frac{S}{XK}$	2,0524	2,1276
6	Satışın rentabelik səviyyəsi, %, (b.1: b.4 x 100)	$\frac{XM}{S}\times 100$	12,11	12,79

Baza variantı: 2,0524 × 12,11% = 24,86%.

Hesabat variantı: 2,1276 × 12,79% = 27,21%.

$$\Delta R_{XK} = 27,21 - 24,86 = +2,35\%$$

o cümlədən:

1) öz kapitalının rentabelliyinə onun verim əmsalının dəyişilməsinin təsiri:

$$\Delta R_{XK(S/XK)} = (2,1276 - 2,0524) \times 12,11\% = +0,91\%;$$

2) öz kapitalının rentabelliyinə satışın rentabellik faizinin dəyişilməsinin təsiri:

$$\Delta R_{XK(XM/S\times 100)} = (12,79\% - 12,11\%) \times 2,1276 = +1,44\%.$$

Yoxlama: (+0,91%) + (+1,44%) =+2,35%;

27,2 - 24,86 =+2,35%.

Təhlil göstərdi ki, əsas amillərin hər ikisi xüsusi kapitalın rentabellik səviyyəsinin dinamikasına müsbət təsir etmişdir.

Metodika təhlilin dərinləşdirilməsinin mümkünlüyünü nəzərdə tutur. Birinci əsas amilin, yəni xüsusi kapitalın dövranı əmsalının təsirini xüsusi kapitalın tərkib hissələri (nizamnamə kapitalı, əlavə kapital, bölüşdürülməmiş mənfəət və s.) üzrə detallaşdırmaq olar. İkinci əsas amilin, yəni satışın rentabellik səviyyəsinin təsirini xalis mənfəətin dəyişilməsi amilləri üzrə detallaşdırmaq olar.

11.9. Məhsulun (iş və xidmətlərin) rentabelliyi və onun səviyyəsinin yüksəldilməsi ehtiyatlarının amilli təhlili

Məhsulun rentabelliyi göstəriciləri məhsulların (iş və xidmətlərin) istehsalının və satışının səmərəliliyi səviyyəsinin səciyyələndirilməsi üçün tətbiq edilir.

Təhlilin məqsədinə uyğun olaraq rentabellik göstəricilərini üç qrupa bölmək olar:

1) satışın bütün həcminin rentabelliyi göstəriciləri;
2) hesabat seqmentləri üzrə rentabellik göstəriciləri;
3) konkret məhsul növləri üzrə rentabellik göstəriciləri.

Məcmu satışın rentabellik göstəricilərini "Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat" adlı 2 saylı formanın məlumatları üzrə hesablamaq olar (cədvəl 11.7).

Cədvəl 11.7.

Məcmu satışın rentabellik göstəricilərinin hesablanması

Sıra sayı	Göstəricilər	Əvvəlki analoji dövrdə	Hesabat dövründə
1	Satışdan alınan mədaxil (netto), min ma. (2 saylı formanın 010-cu sətri)	251000	331800
2	Satışın tam maya dəyəri, min man. (2 saylı forma: 040-cı sətir)	214500	282700
3	Satışdan alınan mənfəət, min man., (b.1-b.2) (2 saylı formanın 050-ci sətri)	36500	49100
4	Realizə edilmiş məhsulun rentabelliyi (tam maya dəyərinə nisbətən faizlə), % (b.3: b.2 x 100)	17,02	17,37
5	Realizə edilmiş məhsulun rentabelliyi (satışdan pul gəlirinə (netto) nisbətən faizlə), % (b.3: b.1x100)	14,54	14,80
6	Satışdan pul gəlirinin (netto) bir manatına düşən xərclər, qəpik, (%). (b.2 : b.1 x 100)	85,46	85,20

Hesabat seqmentləri üzrə rentabellik göstəriciləri satışın bütün həcminin rentabellik göstəricilərinin hesablandığı eyni metodika ilə hesablanır. Bu zaman fərq ondan ibarətdir ki, hesablamada satışdan pul gəlirinin, tam maya dəyərinin və mənfəətin göstəriciləri konkret hesabat seqmenti üzrə götürülür. Hesablama üçün lazım olan məlumatı mühasibat uçotu registrlərindən almaq olar.

Konkret məhsul növləri üzrə rentabelliyin göstəricilərini məhsul vahidinə hesablamaqla iki variantda müəyyən etmək məqsədəuyğundur:

1) məhsul vahidinin tam maya dəyərinə nisbətən;
2) istehsalçı müəssisənin məhsul vahidinin qiymətinə (aksizlərsiz, ƏDV-siz, gömrük rüsumlarsız və s.) nisbətən.

$$\text{Məhsul vahidinin rentabelliyi tam maya dəyərinə nisbətən faizlə, \%} = \frac{\text{Məhsul vahidinin qiymətində mənfəət, min man.}}{\text{Məhsul vahidinin tam maya dəyəri, min man.}} \times 100$$

$$\text{Məhsul vahidinin rentabelliyi = satış qiymətinə nisbətən faizlə, \%} = \frac{\text{Məhsul vahidinin qiymətində mənfəət, min man.}}{\text{İstehsalçı müəssisənin məhsul vahidinin qiyməti, min man.}} \times 100$$

Təhlil zaman konkret məhsul növlərinin rentabelliyinin göstəriciləri satışın bütün həcminin rentabelliyi səviyyəsi ilə müqayisə edilməsi də maraqlıdır. Bu yüksək və az rentabelli məmulatları aşkar etmək imkanı yaradır. Konkret məhsul növlərinin rentabellik göstəricilərinin hesablanması 11.8 cədvəlində verilmişdir.

Cədvəl 11.8

Konkret məhsul növlərinin rentabelliyinin hesabat göstəriciləri

Məhsulların növləri	Məhsul vahidinə hesablanmış göstəricilər, man.		Məhsul vahidinin rentabelliyi		Konkret məmulatların rentabelliyinin bütün məhsulların rentabelliyindən fərqi, % (+, -)		
	İstehsalçı müəssisədə qiyməti (aksizsiz, ƏDV-siz)	Tam maya dəyəri	Məhsul vahidinin qiymətində mənfəət	Tam maya dəyərinə nisbətən	İstehsalçı müəssisədə qiymətinə nisbətən	Xərclərə nisbətən rentabellik üzrə	Qiymətlərə nisbətən rentabellik üzrə
A	15	12	3	25	20	+7,63	+5,20
B	25	22	3	13,64	12	-3,73	-2,80
C	70	60	10	16,67	14,29	-0,70	-0,51
Ç	66,3	54,7	11,6	21,21	17,50	+3,84	+2,70
Satışın bütün həcmi üzrə	x	x	x	17,37	14,80	x	x

Konkret məhsul növlərinin rentabellik göstəricilərinin dinamikasının təhlili metodikası 11.9 cədvəldə verilmişdir.

Təhlil edilən zaman konkret məhsul növlərinin rentabelliyinin layihə, plan, normativ, hesabat, baza göstəricilərini hesablamaq olar. Onları öz aralarında müqayisə etmək və hesabat göstəricilərinin baza nisbətən dəyişilmələri barədə nəticə çıxarmaq olar. Təhlili dərinləşdirərkən ayrı - ayrı məmulatların rentabellik səviyyəsinin dəyişilməsinin səbəblərini aydınlaşdırmaq zəruridir. Bu səbəblər aşağıdakılar ola bilər:

- məhsul vahidinin tam maya dəyərinin artması yaxud azalması (o cümlədən material xərclərinin, əmək haqqı xərclərinin və s. dəyişilməsi hesabına);
- məhsul vahidinin qiymətinin artması yaxud azalması (bazar şəraitindən asılı olaraq).

Satışın rentabelliyi aşağıdakı amillər hesabına arta bilər:

1) satışın həcminin artırılması;

2) satışın strukturunun (yüksək rentabelli məhsul (iş və xidmət) növlərinin xüsusi çəkisinin artırılması) dəyişilməsi;

3) satışın maya dəyərinin, idarə və kommersiya xərclərinin azaldılması;

4) inflyasiya məsrəflərinin kompensasiyası məqsədilə realizə edilən malların, məhsulların (iş və xidmətlərin) qiymətlərinin və tariflərinin yol verilən həddə (böhran yaratmayan) artırılması.

Cədvəl 11.9

Konkret məhsul növlərinin rentabellik göstəricilərinin dinamikasının təhlili

Məhsul növləri	Xərclərə nisbətən rentabellik, %			Qiymətlərə nisbətən rentabellik, %			Ayrı-ayrı məmulatların rentabelliyinin bütün realizə edilmiş məhsulun rentabelliyindən fərqi, % (+, -)				
							əvvəlki dövrdə		hesabat dövründə		
	əvvəlki dövrdə	hesabat dövründə	kənarlaşma (+, -)	əvvəlki dövrdə	hesabat dövründə	kənarlaşma (+, -)	xərclərə nisbətən rentabellik üzrə	qiymətlərə nisbətən rentabellik üzrə	xərclərə nisbətən rentabellik üzrə	qiymətlərə nisbətən rentabellik üzrə
A	25	25	-	20	20	-	+7,98	+5,46	+7,63	+5,20
B	25	13,64	-11,36	20	12	-8	+7,98	+5,46	-3,73	-2,80
C	9,09	16,67	+7,58	8,33	14,29	+5,96	-7,93	-6,21	-0,70	-0,51
Ç	4,95	21,21	+16,26	4,72	17,50	+12,78	-12,07	-9,82	+3,84	+2,70
Bütün realizasiya üzrə	17,02	17,37	+0,35	14,54	14,80	+0,26	x	x	x	x

11.10. Satılmış məhsulun rentabelliyi göstəricilərinin amilli təhlili metodikası

Məhsulun rentabellik göstəricilərinin amillər üzrə təhlilinə iki yanaşma mümkündür:

1) məhsulun rentabelliyi səviyyəsinin dinamikasının təhlili əsasında;

2) satışın bir manatına düşən xərclərin (qəpiklərlə) dinamikasının təhlili əsasında.

11.10.1. Məhsulun (iş və xidmətlərin) rentabellik səviyyəsinin dəyişmə dinamikasının amillər üzrə təhlili

Satışdan alınan mənfəətin ekspress - təhlili zamanı hazırlanmış və istifadə edilmiş informasiya həmçinin realizə edilmiş məhsulun rentabelliyinin amillər üzrə təhlil edilməsinə də imkan yaradır.

Satışdan alınan mənfəətə aşağıdakı üç əsas amil təsir edir:

1) satışın həcminin dəyişilməsi;

2) satışın tam maya dəyərinin dəyişilməsi;

3) satış qiymətlərinin dəyişilməsi.

Realizə edilmiş məhsulun rentabelliyinə göstərilənlərdən iki amil, yəni satışın tam maya dəyərinin dəyişilməsi və satış qiymətlərinin dəyişilməsi təsir edir. Satışın rentabelliyinin amillər üzrə təhlili metodikası 11.10 cədvəlində təqdim edilmişdir.

Realizə edilmiş məhsulun rentabelliyinin dəyişilməsinə əsas amillərin təsirinin təhlili üçün zəncirvari (ardıcıl) yerdəyişmə (əvəzetmə) metodundan istifadə edilir. 11.10 cədvəlinə izahatlar verək.

3-cü və 6-cı sütunlar. Burada satışdan alınan mədaxilin (netto), tam maya dəyərinin və satışdan alınan mənfəətin müvafiq olaraq əvvəlki analoji dövrdə və hesabat dövründə real göstəriciləri təqdim edilmişdir.

4-cü və 5-ci sütunlar Burada şərti göstəricilər, yəni amillərin təsirinin hesablanması üçün lazım olan əvəzetmələr verilmişdir.

Cədvəl 11.10

Bütün realizə edilmiş məhsulun (satışın bütün həcminin) rentabelliyinin amillər üzrə təhlili

Sıra sayı	Göstəricilər	Əvvəlki analoji dövrdə	Hesabat dövründə		
			Hesabat dövründə realizasiyanın əvvəlki dövrün realizasiyasının maya dəyəri və qiymətləri üzrə hesablanmış göstəriciləri	Hesabat dövründə realizasiyanın əvvəlki dövrün realizasiya qiymətlərində, lakin hesabat dövründəki maya dəyəri üzrə hesablanmış göstəricilər	Hesabat dövründə faktiki göstəricilər
1	2	3	4	5	6
1	Satışdan daxil olan pul gəliri (netto), min man.	$\Sigma q_0 p_0$=251000	$\Sigma q_1 p_0$=263542	$\Sigma q_1 p_0$=263542	$\Sigma q_1 p_1$=331800
2	Satışın tam maya dəyəri, min man.	$\Sigma q_0 s_0$=214500	$\Sigma q_1 s_0$=225225	$\Sigma q_1 s_1$=282700	$\Sigma q_1 s_1$=282700
3	Satışdan əldə edilən mənfəət, min man. (b.1-b.2)	$\Sigma q_0 p_0$- -$\Sigma q_0 s_0$=36500	$\Sigma q_1 p_0$- -$\Sigma q_1 s_0$=38317	$\Sigma q_1 p_0$-$\Sigma q_1 s_1$= =-19158	$\Sigma q_1 p_1$- -$\Sigma q_1 s_1$=49100
4	Satışın (bütün həcminin) rentabelliyi,% (b.3 : b.1 x 100)	14,54*	14,54**	-7,26***	14,80****

$*\frac{(\Sigma q_0 p_0 - \Sigma q_0 s_0)\times 100}{\Sigma q_0 p_0}$;

$**\frac{(\Sigma q_1 p_0 - \Sigma q_1 s_0)\times 100}{\Sigma q_1 p_0}$;

$***\frac{(\Sigma q_1 p_0 - \Sigma q_1 s_1)\times 100}{\Sigma q_1 p_0}$;

$****\frac{(\Sigma q_1 p_1 - \Sigma q_1 s_1)\times 100}{\Sigma q_1 p_1}$

4-cü sütunda əvvəlki dövrün realizasiyasının tam maya dəyəri və qiymətlərilə yenidən hesablanmış göstəriciləri təqdim edilmişdir. Onlar 3-cü sütundakı göstəricilərin satışın həcminin indeksini ($İ_q$) nəzərə almaqla yenidən hesablanması yolu ilə alınmışdır. Bu səbəbdən rentabellik faizləri 3-cü və 4-cü sütunlarda eynidir, yəni satışın həcmi amili aradan qaldırılır. 5-ci sütunda əvvəlki dövrün satış qiymətlərində yenidən hesablanmış və hesabat dövrünün maya dəyəri göstəriciləri təqdim edilmişdir.

Nəzərdən keçirilən misalda realizə edilmiş məhsulun rentabelliyi hesabat dövründə 14,80%, əvvəlki dövrdə isə 14,54% təşkil etmiş, yəni 0,26% artmışdır.

Amillərin təsirinin hesablanması:

1) satışın tam maya dəyərinin dəyişilməsinin təsiri (süt.5 - süt.4):
(-7,26) - (+14,54) =-21,8%;

2) məhsulun satış qiymətlərinin dəyişilməsinin təsiri (süt.6 - süt.5):
(+14,80) - (-7,26) =+22,06%.

Yoxlama: (-21,8) + (+22,06) +=0,26%.

Göstərilən misalda maya dəyərinin yüksəlməsinin təsiri o qədər böyükdür ki, satılan məhsulun qiymətini artırmadan təşkilat zərərli işləməli olardı və zərər 19158 min manat, zərər faizi – 7,26% təşkil edərdi. Satış qiymətlərinin artırılması hesabına istehsal xərclərinin artmasının maliyyə nəticələrinə mənfi təsirini üstələmək mümkün olmuşdur.

11.10.2. Satışın həcminin bir manatına düşən gəlirlərlə xərclərin dinamikasının amillər üzrə təhlili

Təşkilatın mühasibatlığında il ərzində adi fəaliyyət növləri üzrə iqtisadi elementlər nöqteyi – nəzərindən xərclər barədə məlumatlar formalaşır.

İki dövr ərzində mütləq məbləğlərin müqayisəsi hesabat dövründə əvvəlki dövrə nisbətən xərclərin səmərəliliyinin dəyişilməsi ba-

rədə suala cavab vermir, çünki, xərclərin məbləğləri bir çox amillər üzrə fərqlənir, o cümlədən:

1) konkret hesabat dövrü ərzində xərclər həmin dövrün mallarının, məhsulunun, işlərinin, xidmətlərinin satışının həcminə hesablanır (yığılır);

2) hər hesabat dövrü ərzində xərclər malların, məhsulların, işlərin, xidmətlərin konkret strukturuna uyğun formalaşır;

3) inflyasiya prosesləri xərclərin ayrı - ayrı iqtisadi elementlərinə müxtəlif təsir edir. İnflyasiya ən çox «Material xərcləri» və «Digər xərclər» kimi kənar təşkilatların xidmətlərinin ödənilməsi üstünlük təşkil edən elementlərə, ən az dərəcədə isə – «Əməyin ödənilməsi xərclərinə» təsir edir.

Amortizasiya ayırmalarına inflyasiya o hallarda təsir edir ki, əsas fondlar yenidən qiymətləndirilir, əsas fondların obyektlərinin hərəkəti, amortizasiya əlavələrinin hesablanması üsullarının dəyişilməsi baş verir.

Xərclərin mütləq məbləğənə görə göstərilən amillərin təsirini dövrlər üzrə müqayisə etməyə imkan vermir. Bununla əlaqədar olaraq, təhlil məqsədilə nisbi göstəricilərdən, yəni satışdan əldə olunan pul gəlirinin (netto) bir manatına düşən xərclər əmsallarından qəpiklə (faizlə) istifadə etməyi zəruri hesab edirik, belə ki, yuxarıda adları çəkilən amillərin təsiri nisbi göstəricilərdə tarazlanır.

İki analoji dövr ərzində əmsalların müqayisəsi xərclərə nisbi qənaət edilməsi yaxud onların nisbətən artmasını müəyyən etmək imkanı verir.

Satışdan daxil olan pul gəlirinin (netto) bir manatına düşən xərc əmsallarını qəpiklərlə (yaxud faizlərlə) yalnız xərclərin yekunu üzrə deyil, həm də onların hər bir elementi üzrə hesablamaq olar:

$$\text{Satışdan pul gəlirinin (netto) bir manatına düşən xərc əmsalı, qəpik, (\%)} = \frac{\text{müəyyən dövr ərzində iqtisadi element üzrə xərclərin məbləği (yaxud xərclərin yekun məbləği), min man.}}{\text{həmin dövr ərzində satışdan pul gəliri (netto), min man.}} \times 100.$$

Hər iqtisadi element və xərclərin yekunu üzrə hesablanmış əmsalların iqtisadi mənasını əks etdirən konkret adları vardır. Məsələn:

1) material tutumu əmsalı göstərir ki, satışdan pul gəlirinin bir manatında material xərcləri neçə qəpik təşkil edir;

2) əmək haqqı tutumu əmsalı satışdan pul gəlirinin bir manatına düşən (qəpiklə) əməyin ödənilməsi xərclərinin səviyyəsini əks etdirir;

3) vahid sosial vergi üzrə ödəmələr əmsalı satışdan pul gəlirinin bir manatına düşən (qəpiklə) vahid sosial verginin məbləğini əks etdirir;

4) amortizasiyanın xüsusi çəkisi əmsalı pul gəlirinin bir manatında amortizasiya ayırmalarının neçə qəpik təşkil etdiyini göstərir;

5) digər xərclərin xüsusi çəkisi onların satışdan pul gəlirinin bir manatına düşən (qəpiklə) məbləğini əks etdirir;

6) tam xərclər əmsalı satışdan pul gəlirinin bir manatına təşkilatın neçə qəpik cəmi xərc çəkməsini göstərir.

Təhlili dərinləşdirmək məqsədilə xərclərin beş iqtisadi elementinin hər birini aşağıdakı kimi detallaşdırmaq (təfsilatlaşdırmaq) olar:

1. Material xərcləri.

Xammal və əsas materiallar.

Köməkçi materiallar.

Kənardan alınan yarımfabrikatlar və komplekslaşdirici məmulatlar.

Kənar təşkilatların istehsal xarakterli xidmətləri.

Yanacaq.

Elektrik enerjisi.

Digər material xərcləri.

Material xərcləri məbləğinin tərkib hissələrinə bölünməsi əsasında material tutumunun detallaşdırılmış (təfsilatı ilə) əmsallarını hesablamaq olar. Bu qaydada aparılan təhlil zamanı material tutumunun səviyyəsinin dəyişilməsinin konkret səbəblərini aydınlaşdırmaq imkanı yaranır.

2. *Əməyin ödənilməsi xərcləri.*

Təşkilatın şəxsi heyətinin qrupları üzrə.

Təşkilatın struktur bölmələri üzrə.

Şəxsi heyətin əməyin ödənilməsi və stimullaşdırılması formaları üzrə.

3. *Sosial ehtiyaclara ayırmalar.*

Pensiya fonduna.

Sosial sığorta fonduna.

Tibbi sığorta fonduna.

4. *Amortizasiya ayırmalarını təşkilatın struktur bölmələri, həmçinin amortizasiya olunan əmlakların qrupları üzrə detallaşdırmaq olar.*

5. *Digər xərclər.*

5.1 Azərbaycan Respublikasının vergilər və rüsumlar (tariflər) haqqında qanunvericiliyində müəyyən edilmiş məbləğlər.

5.2. Məhsulların və xidmətlərin sertifikatlaşdırılmasına çəkilən xərclər.

5.3. Kənar təşkilatların yerinə yetirdiyi işlərə (xidmətlərə) görə komissiya rüsumlarının və digər oxşar xərc məbləğləri.

5.4. Əmlakın qorunması üzrə xidmətlərin, yanğından müdafiə xidmətlərinin haqqının ödənilməsinə çəkilən xərclər.

5.5. Normal əmək və texniki təhlükəsizlik şəraitinin təmin edilməsi üzrə xərclər.

5.6. İşçilərin işə qəbulu ilə əlaqədar xərclər.

5.7. İcarəyə götürülən əmlaka görə icazə (lizinq) ödəmələri.

5.8. Xidməti avtonəqliyyatın saxlaması xərcləri.

5.9. Ezamiyyət xərcləri.

5.10. Hüquq, informasiya və auditor xidmətlərinin ödənilməsinə çəkilən xərclər.

5.11. Mühasibat hesabatlarının nəşr edilməsinə çəkilən xərclər.

5.12. Nümayəndəlik xərcləri.

5.13. Kadrların hazırlanması və yenidən hazırlanması xərcləri.

5.14. Reklam xərcləri.

5.15. Bazarın konyunkturasının öyrənilməsinə çəkilən xərclər.

5.16. Poçt, telefon, rabitə, hesablama mərkəzlərinin, bankların və s. xidmətlərin ödənilməsi xərcləri.

İqtisadi elementlərinin tərkibinə uyğun olaraq xərclərin detallaşdırılması hesabat dövründə baza dövrü ilə müqayisədə satışdan pul gəlirinin (netto) bir manatına düşən xərclərin əmsallarının dəyişilməsinin əsas səbəblərini aydınlaşdırmaq imkanı yaradır.

Xərclərin iqtisadi elementlər üzrə amilli təhlili 11.11 cədvəlində təqdim edilmişdir.

Cədvəl 11.11

Xərclərin iqtisadi elementlər üzrə amilli təhlili

Sıra sayı	Xərc elementləri və digər göstəricilər	Əvvəlki analoji dövrdə		Hesabat dövründə		Kənarlaşma, qəpik (+, -)
		Məbləği, min man.	Pul gəlirinin 1 manatına düşən xərc, qəpik	Məbləği, min man.	Pul gəlirinin 1 manatına düşən xərc, qəpik	
1	2	3	4	5	6	7 (qr.6 - qr.4)
1	Material xərcləri	75084	29,91	97947	29,52	-0,39
2	Əmək haqqı xərcləri	60628	24,15	86039	25,93	+1,78
3	Sosial ehtiyaclara ayırmalar (vahid sosial vergi) VSV))	23024	9,18	32695	9,85	+0,67 (qr.6-qr.4)
4	Amortizasiya ayırmaları	22522	8,97	25443	7,67	-1,3
5	Digər xərclər	33242	13,25	33924	10,23	-3,02
6	Xərclərin cəmi	214500	85,46	276048	83,20	-2,26
7	Satışdan pul gəliri (netto)	251000	x	331800	x	x
	Satışın rentabelliyi, qəpik	x	14,54	x	16,80	+2,26

Bu misalda hesabat dövründə əvvəlki dövrlə müqayisədə xərclərin qənaəti vardır. O, satışdan alınan mədaxilin bir manatına – 2,26 qəpik təşkil etmişdir. Bu digər xərclərin xüsusi çəkisinin daha aşağı (-3,02 qəpik) səviyyəsilə, amortizasiyanın (1,3 qəpik) və material tutu-

munun (-0,39 qəpik) xüsusi çəkisinin aşağı düşməsilə əlaqədardır. Lakin əmək haqqı tutumu (+1,78 qəpik) əmsalı və müvafiq surətdə vahid sosial vergini əks etdirən əmsal (+0,67 qəpik) xeyli yüksəkdir.

Yoxlama: (-0,39) + 1,78 + 0,67+ (-1,3) + (-3,02) =-2,26 qəpik.

Alınmış göstəricilər əsasında satışdan faktiki pul gəlirinə hesablanan xərclərin hər elementi üzrə nisbi qənaətin (nisbi israfın) məbləğini də hesablamaq olar.

1. Material tutumu əmsalı hesabat dövründə onun əvvəlki dövrdəki qiymətinə nisbətən 0,39 qəpik aşağı düşmüşdür. Buna uyğun olaraq satışdan faktiki pul gəlirinə xərclərin nisbi qənaəti:

$$\frac{(-0{,}39)\times 331800}{100} = -1294 \text{ min manat olmuşdur.}$$

2. Əmək haqqı tutumu əmsalı hesabat dövründə 1,78 qəpik artmışdır. Əmək haqqı xərclərinin nisbi artması:

$$\frac{(+1{,}78)\times 331800}{100} = +5906 \text{ min manat olmuşdur.}$$

3. Sosial ehtiyaclara ayırmaların əmsalının yüksəlməsilə əlaqədar olaraq xərclərin nisbi armtası:

$$\frac{(+0{,}67)\times 331800}{100} = +2223 \text{ min manat təşkil etmişdir.}$$

4. Amortizasiya ayırmalarının xüsusi çəkisi əmsalının azalması ilə əlaqədar olaraq xərclərin nisbi qənaəti:

$$\frac{(-1{,}3)\times 331800}{100} = -4313{,}4 \text{ min manat olmuşdur.}$$

5. Digər xərclərin nisbi qənaəti:

$$\frac{(-3{,}02)\times 331800}{100} = -10020{,}3 \text{ min manata çatmışdır.}$$

Yoxlama: nisbi qənaətin ümumi məbləği

$$\frac{(-2{,}26)\times 331800}{100} = -7498{,}7 \text{ min manat.}$$

və ya

(-1294) + 5906 + 2223 + (-4313,4) + (-10020,3) =-7498,7 manat təşkil etmişdir.

Satılmış məhsulların maya dəyərinin iqtisadi elementlər üzrə təhlilinin şərh edilmiş metodikası xərclərə qənaətin mümkün ehtiyatlarının aşkar edilməsi məqsədilə tətbiq olunur. Bu metodikadan həmçinin aşağıdakı hallarda istifadə edilə bilər:

- satışın maya dəyərinin smetasını tərtib edərkən və satışdan əldə ediləcək mənfəəti planlaşdıran zaman;
- realizə edilən malların, məhsulların, işlərin, xidmətlərin qiymətlərinin və tariflərinin dinamikasını əsaslandırmaq üçün;
- yeni məhsul və xidmət növlərinin qiymətlərinin və tariflərinin proqnozlaşdırılması üçün;
- kommersiya təşkilatlarının xərclərinin və maliyyə nəticələrinin auditi zamanı.

11.11. Müəssisənin işgüzar fəallığ göstəriciləri və onların yaxşılaşdırılması yolları

Kommersiya təşkilatlarının işgüzar fəallığı onun inkişafının dinamikliyi, qarşıya qoyduğu məqsədlərə nail olması, istehsal potensialından səmərəli istifadə edilməsi, məhsul satışı bazarlarının genişləndirilməsi ilə xarakterizə olunur. İşgüzar fəallığının keyfiyyət baxımından qiymətləndirilməsi həmin kommersiya təşkilatının və kapitalın tətbiqi sahəsi üzrə analoji təşkilatların fəaliyyətinin müqayisəsi nəticəsində mümkündür. Belə keyfiyyət meyarlarına məhsul satışı bazarlarının genişliyi; ixrac edilən məhsulların olması; kommersiya təşkilatının, məsələn, həmin təşkilatın xidmətlərindən istifadə edən müştərilərin məşhurluğu, müştərilərlə əlaqələrin davamlılığı ilə ifadə edilən nüfuzu və s. daxildir.

Kommersiya təşkilatlarının işgüzar fəallığının ən mühüm göstəriciləri satışın həcmindən, yəni məhsulların, işlərin, xidmətlərin satışından daxil olan pul gəlirinin (netto) həcmindən, həmçinin həmin göstəricinin artım tempindən ibarətdir.

Bundan başqa, təşkilatların işgüzar fəaliyyətinin səciyyələndirilməsi üçün kapital verimi, yəni əmlakdan və kapitaldan istifadənin sə-

mərəliliyi göstəricilərini tətbiq edirlər. Kapital verimi (dövriyyə) əmsalının ümumi düsturu aşağıdakı kimidir:

$$\text{Kapital verimi (dövriyyə) əmsalı} = \frac{\text{müəyyən dövr ərzində kommersiya təşkilatının fəaliyyətinin faydalı nəticəsi}}{\text{həmin dövr ərzində istifadə edilmiş ehtiyatların orta hesabla miqdarı}} \times 100.$$

Təşkilatın fəaliyyətinin müəyyən dövr ərzində faydalı nəticəsi dəyər və yaxud miqdar göstəricilərilə (məsələn, çıxarılan kömürün min tonu, elektrik enerjisinin min kilovat - saatı ilə) ölçülə bilər. Ticarət təşkilatında əmtəə dövriyyəsinin məbləği, tikinti təşkilatında isə – qurtarmış və sifarişçilərə təhvil verilmiş obyektlərin dəyəri faydalı nəticəni əks etdirir. Təşkilatların əksəriyyətində faydalı nəticənin qiymətləndirilməsi üçün müəyyən dövr ərzində satışdan daxil olan pul gəliri (netto) göstəricisindən istifadə edilir.

Verim əmsalı istifadə edilmiş ehtiyatlar vahidinə düşən faydalı nəticənin ölçüsünü səciyyələndirir. Ehtiyatların hansı növündən istifadə edilməsinin səmərəliliyinin ölçülməsinin lazım olmasından asılı olaraq verim əmsalı düsturu aşağıdakı kimi konkretləşdirilir:

$$\text{Aktivlərin verim (dövriyyə) əmsalı} = \frac{\text{müəyyən dövrdə satışdan daxil olan pul gəliri (netto), min man.}}{\text{həmin dövr aktivlərin orta hesabla dəyəri, min man.}}.$$

Aktivlərin verim əmsalını iki variantda şərh etmək olar:

1) təşkilatın əmlakından istifadə edilməsinin səmərəliliyini əks etdirir, yəni satışdan daxil olan pul gəliri (netto) əmlakın orta hesabla dəyərinin vahidinə düşən miqdarını göstərir.

2) Müəyyən dövr ərzində təşkilatın aktivlərinin dövretmələrinin miqdarını səciyyələndirir.

Satışdan alınan mədaxilin miqdarı barədə informasiya 2 saylı formanın 010-cu sətirində əks etdirilir. Təşkilatın aktivlərinin müəyyən dövr ərzində orta dəyərinin hesablanması metodikası 11.1- ci cədvəldə şərh edilmişdir.

$$\text{Xüsusi kapitalın verim (dövriyyə) əmsalı} = \frac{\text{Müəyyən dövrdə satışdan daxil olan pul gəliri (netto), min man.}}{\text{Həmin dövrdə xüsusi kapitalın orta məbləği, min man.}}.$$

Əmsal təşkilatın xüsusi kapitalından istifadənin səmərəliliyini və müəyyən dövr ərzində dövrlərinin miqdarını əks etdirir. Xüsusi kapitalın məbləğinin müəyyən dövr ərzində orta məbləğinin hesablanması metodikası 11.1- ci cədvəldə şərh edilmişdir.

$$\text{Əsas fondların verim (dövriyyə) əmsalı} = \frac{\text{Müəyyən dövrdə satışdan daxil olan pul gəliri (netto), min man.}}{\text{Həmin dövrdə əsas fondların orta dəyəri, min man.}}.$$

Əmsal əsas fondlardan istifadənin səmərəliliyini və müəyyən dövr ərzində dövrlərinin miqdarını əks etdirir. Müəyyən dövr ərzində əsas fondların orta dəyərinin hesablanması metodikası 11.1- ci cədvəldə şərh edilmişdir.

$$\text{Dövriyyə material aktivlərinin verim (dövriyyə) əmsalı} = \frac{\text{Müəyyən dövrdə satışdan daxil olan pul gəliri (netto), min man.}}{\text{Həmin dövrdə dövriyyə material aktivlərinin orta dəyəri, min man.}}.$$

Əmsal dövriyyə material aktivlərindən istifadənin səmərəliliyini və müəyyən dövr ərzində dövrlərinin miqdarını əks etdirir. Dövriyyə material aktivlərinin müəyyən dövr ərzində orta dəyərinin hesablanması metodikası 11.1- ci cədvəldə şərh edilmişdir.

$$\text{İstehsal fondlarının verim (dövriyyə) əmsalı} = \frac{\text{Müəyyən dövrdə satışdan daxil olan pul gəliri (netto), min man.}}{\text{Həmin dövrdə əsas fondların orta dəyəri, min man.} + \text{Həmin dövrdə dövriyyə material aktivlərinin orta dəyəri, min man.}}.$$

İstehsal fondlarının verim əmsalı təşkilatın istehsal potensialının bir manatına düşən faydalı nəticənin miqdarını göstərir.

$$\text{Dövriyyə aktivlərinin verim (dövriyyə) əmsalı} = \frac{\text{Müəyyən dövrdə satışdan daxil olan pul gəliri (netto), min man.}}{\text{Həmin dövrdə dövriyyə aktivlərinin orta məbləği, min man.}}.$$

Əmsal dövriyyə aktivlərindən istifadə edilməsinin səmərəliliyini əks etdirir. O, müəyyən dövrdə satışdan daxil olan pul gəlirinin (netto) dövriyyə aktivlərinin orta məbləğinin bir manatına düşən, manatla hesablanan həcminin yaxud həmin dövrdə dövriyyələrin orta miqdarını göstərir. Dövriyyə aktivlərinin müəyyən dövrdə orta məbləğini mühasibat balansının aktivinin II və III bölmələrinin yekun məlumatları üzrə hesablamaq olar.

İşgüzar fəallığ göstəricilərini müxtəlif variantlarda: layihə, plan, əvvəlki analoji dövr və s. üzrə hesablamaq olar. İşgüzar fəallığ əmsallarının faktiki qiymətlərini baza, layihə, plan, sahə üzrə orta göstəricilərlə müqayisə etmək olar.

İşgüzar fəallığ göstəricilərinin yaxşılaşdırılması məqsədilə aşağıdakı yollar seçilə bilər:

1) müəyyən dövr ərzində təşkilatın fəaliyyətinin faydalı nəticəsinin yüksəldilməsi, məsələn, satışın strukturunun ortimallaşdırılması, realizasiya qiymətlərinin artırılması və s. hesabına satışın həcminin artım imkanlarının araşdırılması;

2) istifadə edilən ehtiyatların miqdarının və strukturunun optimallaşdırılması.

Yoxlama sualları?

1. Kommersiya təşkilatının rentabelliyi nədir və onun göstəricilər sisteminin xarakteristikası (səciyyələnməsi) necədir?
2. Aktivlərin rentabellik əmsalı və onun dəyişilməsinin əsas amilləri arasında qarşılıqlı əlaqəni hansı iqtisadi - riyazi modellər əks etdirir?
3. Səhmdar cəmiyyətlərinin xalis aktivlərinin dəyərinin hesablaması qaydası hansı normativ sənədlərlə tənzimlənir və onun metodikası necədir?
4. İstehsal fondlarının rentabelliyi əmsalı necə hesablanır?
5. Kommersiya təşkilatının aktivlərinin rentabelliyinin yüksəldilməsinin əsas amilləri və yolları hansılardır?
6. Aktivlərin rentabelliyinin amillər üzrə təhlilinin əsasını təşkil edən ikiamilli multiplikativ modeli göstərin (şərh edin).
7. Aktivlərin verim (dövriyyə) əmsalının və satışın rentabelliyinin təsirinin detallaşdırılması zamanı ikinci qəbildən olan hansı amillər tətbiq edilir?
8. Satışın rentabelliyi göstəriciləri sistemi necədir və hansı idarəetmə qərarlarının köməyilə onların yüksəldilməsinə nail olmaq mümkündür?
9. Məhsulların ayrı - ayrı növlərinin rentabelliyi necə hesablanır?
10. Realizə edilmiş məhsulun rentabelliyinin amillər üzrə təhlilinin əsasını hansı iqtisadi təhlil metodu təşkil edir.
11. Satışdan alınan mənfəətin məbləğinin dəyişilməsinə səbəb olan əsas amillər hansılardır?
12. Ehtiyatların verim (dövriyyə) əmsalının ümumi düsturu necədir və onu müəyyən ehtiyatın dövriyyə əmsalının hesablanması üçün necə konkretləşdirmək olar?
13. İşgüzar fəallığ göstəricilərinin yüksəldilməsinin əsas yolları hansılardır?

XI FƏSİLƏ ƏLAVƏLƏR

VÖEN

Forma №1

MÜƏSSİSƏ BALANSI

«____»_____ il

Müəssisə, təşkilat_____ NOS üzrə
_____ MTT üzrə
_____ DİOQS üzrə
Sahə (fəaliyyət növü)_____ NƏOQS üzrə
Təşkilati-hüquqi forması/mülkiyyət forması_____ XTSBT üzrə
Yerləşdiyi yer (ünvanı)_____ MFTS üzrə
_____ TARİX
_____ NƏZARƏT
MƏBLƏĞ

Ölçü vahidi min manat

AKTİV	Sətr kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
1	2	3	4
I. ƏSAS VƏSAİTLƏR VƏ SAİR DÖVRİYYƏDƏNKƏNAR AKTİVLƏR			
Əsas vəsaitlər:			
ilk (bərpa) dəyəri* (01,03)	010		
Köhnəlmə* (02)	011		
Qalıq dəyəri	012	101200	149500
Qeyri - maddi aktivlər:			
ilk (bərpa) dəyəri* (04)	020		
Köhnəlmə* (05)	021		
Qalıq dəyəri	022	4000	4700
Quraşdırılası avadanlıqlar (07)	030	18300	25300
Başa çatdırılmayan kapital qoyuluşları (08, 61)	040	5500	7020
Uzunmüddətli maliyyə qoyuluşları (06)	050		
Təsisçilərlə hesablaşmalar (75)	060		
Sair dövriyyədənkənar aktivlər	070		480
I Bölmə üzrə cəmi	080	**129000**	**187000**

AKTİV	Sətr kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
II. DÖVRİYYƏ AKTİVLƏR			
İstehsal ehtiyatları (10,15,16)	100	7650	9450
Böyüdülməyə və kökəldilməyə qoyulmuş heyvanlar (11)	110		
Azqiymətli və tezköhnələn əşyalar:			
ilk dəyəri (12, 16)	120		
Köhnəlmə (13)	121		
Qalıq dəyəri	122		
Bitməmiş istehsal (20,21,23, 29, 30, 36, 44)	130	10000	12100
Gələcək dövrlərin xərcləri (31)	140		
Hazır məhsul (40)	150	41350	48450
Mallar (satış qiyməti) (41)	160		
Ticarət əlavəsi (42)	161		
Alış qiymətilə	162		
Alınmış qiymətlilər üzrə əlavə dəyər vergisi (19)	175	800	900
Sair ehtiyatlar və məsrəflər	176		
II Bölmə üzrə cəmi	180	**59800**	**70900**
III. PUL VƏSAİTLƏRİ, HESABLAŞMALAR VƏ SAİR AKTİVLƏR			
Yüklənmiş mallar (45)	199		
Debitorlarla hesablaşmalar: Mallara,iş və xidmətlərə görə (62, 76)	200	10450	11150
Alınmış veksellər üzrə (62)	210		
Törəmə (qız) müəssisələrlə (78)	220		
Büdcə ilə (68)	230		
sair əməliyyatlar üzrə heyətlərlə (73)	240		
sai debitorlarla	250		
Malsatan və podratçılara verilmiş avanslar (61)	260		
Qısamüddətli maliyyə qoyuluşları (58)	270	1000	2500
Pul vəsaitləri: Kassa (50)	280		
Hesablaşma hesabı (51)	290	9550	13050
Valyuta hesabı (52)	300		
Sair pul vəsaitləri (55, 56, 57)	310		
Sair dövriyyə aktivləri	320		
III bölmə üzrə cəmi	330	**21000**	**26700**
Zərərlər: Keçmiş illər (88)	340		
Hesabat ilində (dövründə)	350		
Balans (080, 180, 330, 340, və 350)	360	**209800**	**284600**

PASSİV	Sətr kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
1	2	3	4
I. XÜSUSİ VƏSAİTLƏRİN MƏNBƏLƏRİ			
Nizamnamə kapitalı (85)	400	108000	108000
Əlavə kapital (87)	401		32500
Ehtiyat kapitalı (86)	402	4300	4300
Yığım fondları (88)	410		
İstehlak fondları (88)	420		
Sosial sferalar fondu (88)	430		
Keçmiş illərdə bölüşdürülməmiş mənfəət (88)	440		
Məqsədli maliyyələşmələr və daxilolmalar (96)	450		
İçarə öhtəlikləri (97)	460		
Mənfəət: Hesabat ilində (dövründə)* (80)	470		
İstifadə edilmiş* (81)	471		
Hesabat ilində (dövründə) bölüşdürülməmiş mənfəət	472	10000	44800
I bölmə üzrə cəmi	480	**122300**	**189600**
II. HESABLAŞMALAR VƏ SAİR PASSİVLƏR			
Uzunmüddətli bank kreditləri (92)	500	22700	23200
Uzunmüddətli borclar (95)	510	2600	4020
Qısamüddətli bank kreditləri (90)	600		
İşçilər üçün bank kreditləri (93)	610		
Qısamüddətli borclar (94)	620		280
Kreditorlarla hesablaşmalar: Mallara, iş və xidmətlərə görə (60, 76)	630	36000	30300
Verilmiş veksellər üzrə (60)	640		
Əmək ödənişləri üzrə (70)	650	24200	31700
Sosial sığorta və təminat üzrə (69)	660		
Əmlak və şəxsi sığorta üzrə (65)	670		
Törəmə müəssisələrlə (78)	680		
Büdcədənkənar ödənişlər üzrə (67)	690		
Büdcə ilə (68)	700		
sair kreditorlar	710		
Alıcılardan və sifarişçilərdən alınmış avanslar (64)	720		
Təsisçilərlə hesablaşmalar (75)	725		
Gələcək dövrün gəlirləri (83)	730	2000	5500
Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar (89)	740		
Şübhəli borclar üzrə ehtiyatlar (82)	750		
Sair qısamüddətli passivlər	760		
II bölmə üzrə cəmi	770	**87500**	**95000**
Balans (480 və 770-çi sətirlərin məbləğləri)	780	**209800**	**284600**

*bu sətrlər üzrə məlumatlar balansın yekununa daxil edilmir

RƏHBƏR **MÜHASİB**

VÖEN

FORMA № 2

MALİYYƏ NƏTİCƏLƏRİ VƏ ONLARIN İSTİFADƏSİ HAQQINDA HESABAT

«____»_____ il

	KODLAR
Müəssisə, təşkilat_____ NOS üzrə	
_____ MTT üzrə	
_____ DİOQS üzrə	
Sahə (fəaliyyət növü)_____ NƏOQS üzrə	
Təşkilati-hüquqi (mülkiyyət) forması_____ XTSBT üzrə	
Yerləşdiyi yer (ünvanı)_____ MFTS üzrə	
_____ TARİX	
_____ NƏZARƏT	
MƏBLƏĞ	

I. MALİYYƏ NƏTİCƏLƏRİ

Ölçü vahidi min manat

Göstəricilər	Sətr kodu	Mənfəət	Zərərlər (xərclər)
1	2	3	4
Məhsulların, (iş və xidmətlərin) satışından mədaxil (ümumi gəlir)	010	331800	
Əlavə dəyər vergisi	015		
Aksizlər	020		
	030		
	035		
Satılmış məhsulların malların (iş və xidmətlərin) istehsal məsrəfləri	040		200700
Satışın nəticələri	050	131100	
Sair satışın nəticələri	060		82000
Satışdankənar əməliyyatlardan alınan gəlirlər və xərclər, o cümlədən:	070	7000	700
Qiymətli kağızlar və birgə müəssisələrin payda iştirakı üzrə	071		
Xarici valyuta əməliyyətları üzrə məzənnə (kurs) fərqi	072	1000	3500
Sair əməliyyat xərclər	073	6400	3300
	074		
Mənfəəti və zərərlərin cəmi	080	145500	89500
Balans mənfəəti yaxud zərəri	090	56000	
Maliyyə nəticələri üzrə müəssisələrin sayı	091		

II. MƏNFƏƏTDƏN İSTİFADƏ

Göstəricilər	Sətr kodu	Hesabat dövrünün sonuna
1	2	3
Büdcəyə ödəmələr	200	12320
Ayırmalar:		
Ehtiyat kapitalı və fondlarına	210	6000
Yığım fonduna	220	10920
İstehlak fonduna	230	10000
Xeyriyyə məqsədlərinə	240	6760
Başqa məqsədlərə	250	10000

III. BÜDCƏYƏ ÖDƏMƏLƏR

Göstəricilər	Sətr kodu	Hesablanmışdır	Faktiki ödənilmişdir
1	2	3	4
Əmlak vergisi	300		
Mənfəətdən (gəlirdən) vergi	310		
Yeraltı sərvətlərdən istifadəyə və ətraf mühiti sirkləndirməyə görə ödənişlər	340		
Torpaq vergisi (torpağa görə haqq)	350		
	351		
	352		
Əlavə dəyər vergisi	355		
Aksizlər	356		
İxrac kömrük rüsumları	360		
İdxal kömrük rüsumları	365		
Gəlir vergisi	380		
Nəqliyyat vergisi	381		
Sair vergilər	386		
İqtisadi sanksiyalar	390		

IV. MƏNFƏƏTDƏN VERGİ ÜZRƏ GÜZƏŞTLƏR HESABLANARKƏN NƏZƏRƏ ALINAN XƏRCLƏR VƏ MƏSRƏFLƏR

Göstəricilər	Sətr kodu	Hesabat dövründə faktiki	
1	2	3	
İstehsal və qeyri istehsal təyinatlı kapital qoyuluşlarının maliyyələşməsinə	500		
Elmi axtarış və təcrübə konstruktor işlərinin aparılmasına	510		
Təbiəti mühafizə tədbirlərinin keçirilməsinə	520		
Səhiyyə, xalq təhsil, mədəniyyət və idman obyekt və müəssisələrinin,qocalar və əlillər evlərinin məktəbəqədər uşaq müəssisələrinin, uşaq istirahət düşərgələrinin, mənzil fondunun (onlardan yerli icra hakimiyyətləri tərəfindən təsdiq olunmuş xərc norması daxilində) saxlanılması	530		
Xeyriyyə məqsədlərinə, ekologiya və saglamlıq fondlarına, əlillərə, içtimai və dini təşkilatlara (birliklərə) və buna bənzər başqa məqsədlərə	540		
	550		
	560		
	570		
	580		
	590		

RƏHBƏR **BAŞ MÜHASİB**

XII FƏSİL

MALİYYƏ VƏZİYYƏTİNİN TƏHLİLİ

12.1. Maliyyə vəziyyətinin təhlilinin əhəmiyyəti, vəzifələri və əsas üsulları

Maliyyə vəziyyətinin real (mötəbər) və obyektiv qiymətləndirilməsi həm təşkilatın sahiblərinə və rəhbərliyinə, həm də onun fəaliyyətində marağı olan xarici istifadəçilərə (banklara, investorlara, mal göndərənlərə, vergi orqanlarına və b.k.) lazımdır.

Maliyyə vəziyyəti təşkilatın istehsal və kommersiya fəaliyyətinə, material və maliyyə ehtiyatları ilə təmin edilməsinə bilavasitə təsir göstərir. Qeyri-qənaətbəxş maliyyə vəziyyəti təşkilatın işçilərilə, büdcə ilə, büdcədənkənar fondlarla, mal göndərənlərlə, banklarla və digər borc verənlərlə vaxtlı vaxtında hesablaşmalara imkan vermir ki, bu da nəticədə təşkilatın müflis olmasına gətirib çıxara bilər.

Təşkilatın investisiya fəaliyyəti onun maliyyə vəziyyətindən asılıdır. Maliyyə ehtiyatları çatışmamazlığı əsas istehsal fondlarını yeniləşdirməyə, elmi-tədqiqat, təcrübə-konstruktor və texnoloji işləri həyata keçirməyə, yeni texnologiyaları tətbiq etməyə imkan vermir, bu isə buraxılan məhsulun rəqabət qabiliyyətinə mənfi təsir edə bilər.

Maliyyə vəziyyəti öz növbəsində istehsal və kommersiya fəaliyyətinin nəticələrindən asılıdır. Belə ki, məhsul istehsalı və satışı ilə bağlı planlar yerinə yetirilmədikdə pul vəsaitləri daxil olması azalır və nəticədə təşkilatın maliyyə sabitliyi aşağı düşür.

Maliyyə vəziyyətinin təhlilinin əsas məqsədi əsas strateji vəzifə kimi təşkilatın aktivlərinin artırılması ilə xarakterizə edilir. Bunun üçün təşkilat ödəmə qabiliyyətini və rentabelliyini, balansın aktiv və passivinin optimal strukturunu daimi saxlamalıdır.

Təşkilatın maliyyə vəziyyətinin təhlilinin əsas vəzifələri aşağıdakılardır:

1) maliyyə sabitliyinin obyektiv qiymətləndirilməsi;

2) maliyyə sabitliyinə təsir edən amillərin və onların təsirinin kəmiyyətcə müəyyən edilməsi;

3) dövriyyə kapitalının idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi, ödəmə qabiliyyətinin təmin edilməsi və maliyyə sabitliyinin saxlanması ehtiyatlarının aşkar edilməsi;

4) maliyyə sabitliyinin möhkəmləndirilməsinə yönəldilmiş konkret idarəetmə qərarları variantlarının işlənib hazırlanması.

Bu məsələlərin həll edilməsi məqsədilə maliyyə vəziyyəti aşağıdakı əsas istiqamətlər üzrə təhlil edilir:

- maliyyə sərbəstliyinin təhlili;
- ödəmə qabiliyyəti və likvidliyi (pula çevrilə bilmə (satış) qabiliyyəti);
- pul axınları;
- xalis aktivlər;
- potensial müflisləşmə ehtimalının qiymətləndirilməsi üçün zəruri olan göstəricilər sistemi;
- maliyyə sabitliyinin:

-bölüşdürülməmüş xalis mənfəətdən;

- cəlb edilmş borc kapitalının səmərəliliyindən;

- debitor və kreditor borclarından, büdcə və hesablaşmaların vəziyyətindən;

- maliyyə vəziyyətinə təsir edən digər amillərdən asılılığı.

- dövriyyə aktivlərindən istifadənin səmərəliliyi;
- maliyyə vəziyyətinin inteqral şəkildə (bütövlükdə) qiymətləndirilməsi.

Maliyyə vəziyyəti təhlil edilən zamanı aşağıdakı ümumi üsullardan (metodlardan) istifadə edilir ki, onların məzmunu iqtisadi təhlil nəzəriyyəsində nəzərdən keçirilmişdir:

- analitik göstəricilər sistemi;
- müqayisə;

- detallaşdırma və qruplaşdırma;
- amillər üzrə modelləşdirmə;
- kənarlaşdırma, təcrid etmə üsulu;
- təhlilin nəticələrinin ümumiləşdirilməsi.

İqtisadi ədəbiyyatda, məsələn, A.D.Şeremetin, R.S.Sayfulinin işlərində maliyyə vəziyyətinin əmsallar və amillər üzrə təhlilinin sərbəst metodları kimi üfuqi, şaquli, müqayisəli təhlili nəzərdən keçirilir [43]. Bu zaman qeyd edilir ki, *üfuqi təhlil* aparılan zaman müəyyən dövr ərzində mühasibat balansının müxtəlif maddələrinin (göstəricilərinin) məbləğlərinin mütləq və nisbi dəyişilmələri müəyyən edilir. *Şaquli təhlilin* məqsədi balansın yekununda ayrı-ayrı maddələrin xüsusi çəkisinin müəyyən edilməsindən, yəni müəyyən tarixə aktivlərin və passivlərin strukturunun aydınlaşdırılmasından ibarətdir. *Müqayisəli təhlil (trend təhlili)* göstəricilərin dinamikasında əsas meyllərin aşkar edilməsi üçün bir neçə il (yaxud digər qonşu hesabat dövrü) ərzində balans maddələrinin qiymətlərinin müqayisə edilməsindən ibarətdir. *Əmsallar üzrə təhlil* maliyyə vəziyyətinin nisbi göstəricilərinin səviyyələrinin və dinamikasının öyrənilməsinə yönəlmişdir. Həmin nisbi göstəricilər balans maddələrinin yaxud hesabatlardan və ya mühasibat uçotundan alınan digər mütləq göstəricilərin müxtəlif qiymətlərinin nisbəti kimi hesablanır. Mütləq və nisbi maliyyə göstəricilərinin dəyişilmələri səbəblərinin, həmçinin araşdırılan göstəricilərin dəyişilməsinin kəmiyyətinə müxtəlif amillərin təsiri dərəcəsinin aydınlaşdırılması məqsədilə *amillər üzrə təhlil* tətbiq edilir.

Maliyyə vəziyyətinin təhlili daxili və xarici təhlilə bölünür.

Daxili təhlil təşkilatların iqtisadi xidmət sahələri tərəfindən aparılır, onun nəticələrindən maliyyə vəziyyətinin planlaşdırılması, cari yoxlanılması, qiymətləndirilməsi və proqnozlaşdırılması üçün istifadə edilir.

Xarici təhlil təşkilatın hesabatları əsasında onun fəaliyyətində marağlı olan kommersiya bankları, investorlar, mal göndərənlər, nəzarətedici, yuxarı səviyyəli və digər orqanlar tərəfindən həyata keçirilə bilər.

Xarici təhlilin aşağıdakı xüsusiyyətləri vardır:

- təhlil subyektlərinin (təşkilatın fəaliyyəti barədə informasiyadan istifadə edənlərin) çoxluğu;
- təhlil subyektlərinin məqsədlərinin və maraqlarının müxtəlifliyi;
- təhlilin yalnız xarici hesabatlara istiqamətlənməsi;
- xarici hesabatlardan istifadə edildikdə təhlilin imkanlarının məhdudluğu.

12.2. Analitik informasiya və onun iqtisadi xarakteristikası

Maliyyə fəaliyyətinin təhlili üçün əsas informasiya mənbələri aşağıdakılardır:

1) mühasibat (maliyyə) hesabatları;
2) statistika hesabatları (sahələr üzrə);
3) mühasibat uçotunun məlumatları;
4) biznes-planların, müqavilələrin, auditor arayışlarının məlumatları və yoxlama xülasələri, aktları, işgüzar yazışma və digər informasiya.

Çox mühüm informasiya mənbəyi mühasibat hesabatlarıdır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin İ-80 saylı 15.09.1995-ci il tarixli Əmrinə əsasən Təsərrüfat təşkilatlarının mühasibat hesabatlarının həcmi aşağıdakı siyahı üzrə təsdiq edilmişdir:

Həmin əmrə uyğun olaraq mühasibat hesabatına aşağıdakılar daxildir:

- Müəssisə (mühasibat) balansı (forma №1);
- Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat (forma №2);
- Müəssisə (mühasibat) balansına əlavə (forma №5);
- izahat (yazılı);
- əgər təşkilatın mühasibat (maliyyə) hesabatı mövcud qanunlara uyğun olaraq məcburi auditdən keçməlidirsə, onun reallığını (mötəbərliyini) təsdiq edən auditor rəyi.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq mühasibat hesabatının reallığını (mötəbərliyini) auditor yoxlamasın-

dan keçirməyə borcu olmayan kiçik sahibkarlıq subyektləri mühasibat hesabatını Mühasibat balansının maddələr qrupları üzrə və Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabatın (forma №2) göstəriciləri həcmində həmin formalarda əlavə açıqlamalarsız təqdim etmək haqqında qərar qəbul edə bilərlər və mühasibat hesabatının tərkibində digər hesabat formalarını və yazılı izahatı təqdim etməmək hüququna malikdirlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq mühasibat hesabatının reallığını (mötəbərliyini) auditor yoxlamasından keçirməyə borclu olan kiçik sahibkarlıq subyektləri isə müvafiq məlumatlar olmadıqda mühasibat hesabatı tərkibində digər hesabat formalarını təqdim etməmək hüququna malikdirlər.

Qeyri-kommersiya təşkilatları mühasibat hesabatı tərkibində digər hesabat formalarını müvafiq məlumatlar olmadıqda təqdim etməyə bilərlər. Belə təşkilatlara mühasibat hesabatlarının tərkibinə alınmış vəsaitlərdən məqsədli istifadə edilməsi haqqında müvafiq hesabatı daxil etmək məsləhət görülür.

Sahibkarlıq fəaliyyəti həyata keçirməyən və sıradan çıxmış əmlakından başqa malların (işlərin, xidmətlərin) satışı üzrə dövriyyəsi olmayan ictimai təşkilatlar (birliklər) mühasibat hesabatının tərkibində digər hesabat formalarını və yazılı izahatı təqdim etmirlər.

Mühasibat hesabatının tərtib edilməsi və təqdim edilməsi qaydası haqqında ehtiva edilən göstərişlərdə (sonralar – göstərişlər) mühasibat hesabatı formalarının formalaşması variantının seçilməsi, onların verilmiş nümunələri əsasında hesabat formalarının sərbəst işlənib hazırlanması yaxud mühasibat hesabatları formalarının tövsiyə olunan nümunələrindən istifadə edilməsi imkanı nəzərdə tutulmuşdur.

İkinci halda təşkilatda müvafiq aktivlər, öhdəliklər, gəlirlər, xərclər, təsərrüfat əməliyyatları üzrə məlumatlar olmadığı halda formaların nümunələrində belə qrafalar və sətirlər nəzərdə tutulan göstəricilər (qrafalar, sətirlər) təşkilatın hesabat formalarına daxil edilmir.

Qeyd etmək lazımdır ki, göstərilən variantların hər birində mühasibat hesabatının formalarının quruluşuna təsir edə bilən ümu-

mi tələblərə riayət edilməlidir. Mühasibat hesabatına qarşı ümumi tələblərə aşağıdakılar aiddir:[1]

- reallığ (mötəbərlik) və tamlıq;
- əhəmiyyətlilik;
- neytrallıq;
- ardıcıllıq;
- müqayisə edilə bilən və s.

Məsələn, müqayisə edilə bilən olması tələbinə uyğun olaraq mühasibat hesabatının hər rəqəmlə ifadə olunan göstəricisi üzrə birinci hesabat dövrü üzrə tərtib edilən hesabatdan əlavə ən azı iki il: hesabat ili və ondan əvvəlki il üzrə məlumatlar göstərilməlidir. Təşkilat məlumatları daha uzun dövr (üç, dörd, beş il) üzrə müqayisə etmək barədə qərar verə bilər. Bu müvafiq qrafaları və sətirləri mühasibat hesabatı formalarına daxil edilməsi və hətta hesabat formalarının və yazılı izahatın strukturunda müəyyən dəyişikliklər edilməsi zəruriyyəti yaradır.

Göstərişlərdə nəzərdə tutulmuşdur ki, təşkilat mühasibat hesabatının tərkibində məcburi formalardan başqa mühasibat balansına əlavənin bölünməsi hesabına yeni əlavə formalar da işləyib hazırlaya bilər. Bundan əlavə, təşkilat «Maliyyə nəticələri və onların istifadəsi haqqında» hesabatı (forma №2) mürəkkəbləşdirmək əvəzinə bir sıra göstəriciləri, məsələn, onda olan seqmentlər (əməliyyat və coğrafi seqmentlər) üzrə informasiyanı əlahiddə formaya (formalara) çıxarıb yaza bilər.

Bu zaman mühasibat hesabatına təşkilatın maliyyə vəziyyəti, onun fəaliyyətinin maliyyə göstəriciləri və maliyyə vəziyyətindəki dəyişikliklər barədə real (mötəbər) və tam təsəvvür yaradılması üçün zəruri olan göstəricilər daxil edilməlidir.

Belə təsəvvür yaranması aspektlərindən biri əhəmiyyətlilik tələbinin maksimum dərəcədə yerinə yetirilməsidir. Həmin tələbin həyata keçirilməsi bir çox amillərin hesaba alınmasını nəzərdə tutur. Burada nəzərə almaq lazımdır ki, mühasibat balansında və maliyyə nəticələri və onların istifadəsi haqqında hesabatın (forma №2) əlahiddə (ayrıca)

[1] Şərh edilənlərlə yanaşı «Təşkilatın uçot siyasəti haqqında əsasnamə» də göstərilən mühasibat uçotunun aparılması üsullarına aid icazələrə və tələblərə də riayət edilməlidir.

təqdim edilməsi kifayət qədər əhəmiyyətli olmayan bəzi göstəricilərin həmin sənədlərə əlavələrdə və izahatlarda, yəni digər hesabat formalarında, yazılı izahatda əlahiddə təqdim edilməsi üçün kifayət qədər əhəmiyyətli ola bilər.

Göstərici o halda əhəmiyyətli hesab edilir ki, onun açıqlanması maraqlı istifadəçilərin hesabat informasiyası əsasında qəbul etdikləri iqtisadi qərarlara təsir edə bilər. Müəyyən göstəricinin əhəmiyyətliliyi onun qiymətləndirilməsindən (qiymətləndirmədən), xarakterindən, yaranmasının konkret şəraitindən asılıdır. Təşkilat müəyyən məbləğin əhəmiyyətliliyi barədə o halda qərar verə bilər ki, onun hesabat ili ərzində müvafiq göstəricilərin ümumi yekununa nisbəti 5%-dən az olmasın.

Mühasibat hesabatı maliyyə göstəricilərilə yanaşı digər əlaqədar informasiyanı da (əgər icra orqanı maraqlı istifadəçilər üçün iqtisadi qərarlar qəbul edən zaman faydalı hesab edərsə) ehtiva edə bilər. Burada aşağıdakıları açıqlamaq tövsiyə olunur:

- təşkilatın fəaliyyətinin bir sıra illər ərzində iqtisadi və maliyyə göstəricilərinin dinamikasını;
- təşkilatın planlaşdırılan inkişafını;
- nəzərdə tutulan kapital və uzunmüddətli maliyyə qoyuluşlarını;
- borc vəsaitlərinə, risklərin idarə edilməsinə aid siyasətini;
- təşkilatın elmi-tədqiqat və təcrübə-konstruktor işləri SAhəsində fəaliyyətini;
- təbiəti mühafizə tədbirlərini və digər informasiyanı.

Göstərişlərdə müəyyən edilmişdir ki, mühasibat hesabatı göstəricilərini formalaşdıran zaman mühasibat uçotu üzrə əsasnamələri (MUƏ) rəhbər tutmaq lazımdır. Burada xatırlatmaq lazımdır ki, praktik olaraq hər MUƏ-də xüsusi "Mühasibat hesabatında informasiyanın açıqlanması" bölməsi vardır.

Ona da diqqət yetirmək lazımdır ki, Göstərişlərdə MUƏ-də və mühasibat uçotu üzrə digər normativ aktlarda qeyd edilməmiş bir sıra qaydalar ehtiva edilir.

Məsələn, Göstərişlərdə mühasibat uçotunda səhvlərin aşkar edilməsi dövründən asılı olaraq düzəlişlər edilməsi qaydaları göstərilmişdir:

- cari dövrün təsərrüfat əməliyyatlarının səhv əks etdirilməsi hesabat ili qurtarana qədər aşkar edildikdə düzəlişlər mühasibat uçotunun hesabat dövrünün təhriflərin aşkar edildiyi ayında müvafiq hesablar üzrə yazılmaqla həyata keçirilir;
- hesabat ilində təsərrüfat əməliyyatlarının səhv əks etdirilməsi o, qurtarandan sonra, lakin illik mühasibat hesabatı müəyyən edilmiş qaydada hələ təsdiq edilməmiş aşkar edildikdə düzəlişlər illik mühasibat hesabatı təsdiq edilməyə və müvafiq ünvanlara təqdim edilməyə hazırlandığı ildən əvvəlki dekabr ayının yazılarında həyata keçirilir;
- mühasibat uçotunun hesablarında əvvəlki ildə təsərrüfat əməliyyatlarının səhv əks etdirilməsi cari hesabat dövründə aşkar edildikdə əvvəlki hesabat ili üzrə mühasibat uçotuna və mühasibat hesabına (illik mühasibat hesabatı müəyyən edilmiş qaydada təsdiq edildikdən sonra) düzəlişlər edilmir.

Mühasibat hesabatında çıxılan və ya mənfi qiyməti olan göstəricilərin (ödənilməmiş zərərin, satılmış malların, məhsulların, işlərin, xidmətlərin maya dəyərinin, satışdan yaranan zərərin, ödənilməli faizlərin, əməliyyat xərclərinin, kapitalın azalmasının, əsas vəsaitlərin sıradan çıxmasının və s.) əks etdirilməsi qaydası da təsbit edilmişdir. Beynəlxalq təcrübəyə uyğun olaraq bu göstəricilər qövsşəkilli (girdə) mötərizələr arasında göstərilir. Mühasibat hesabatında təqdim edilən göstəricilərin məzmununu nəzərdən keçirək.

MÜHASİBAT (MÜƏSSİSƏ) BALANSI (1 saylı forma)

Mühasibat balansına rəqəmlə ifadə olunan göstəricilər netto-qiymətdə, yəni tənzimləyici maddələr çıxılmaqla daxil edilməlidir. Bu o deməkdir ki, Mühasibat balansında amortizasiya hesablanan aktivlər (əsas vəsaitlər, maddi sərvətlərə gəlirli qoyuluşlar) qalıq dəyərində, yəni hesablanmış amortizasiya ayırmaları çıxılmaqla ilkin dəyəri üzrə göstərilir, onlar üzrə qiymətləndirmə ehtiyatları yaradılan aktivlər isə belə ehtiyatlar çıxılmaqla əks etdirilir.

I. ƏSAS VƏSAİTLƏR VƏ SAİR DÖVRİYYƏDƏNKƏNAR AKTİVLƏR

"Əsas vəsaitlər" maddəsi üzrə əmlakın dəyəri əks etdirilir və o, eyni adlı 01-ci hesabda nəzərə alınır. MUƏ-də "Əsas vəsaitlərin uçotuna" uyğun olaraq əmlakın əsas vəsaitlərin tərkibinə daxil edilməsi üçün əsas meyar onun əmək vasitəsi kimi faydalı istifadə edilməsi müddətidir. 01-ci hesabda dəyərindən asılı olmayaraq faydalı istifadə müddəti 12 aydan artıq olan və ya adi əməliyyat dövrünə barəbər olan (əgər o, 12 aydan artıqdırsa) əmlak nəzərə alınır.

Həmin maddənin məzmununu nəzərdən keçirən zaman Azərbaycan Respublikası Maliyyə nazirliyi tərəfindən təsdiq edilmiş Xüsusi alətlərin, xüsusi qurğuların, xüsusi avadanlığın (sonralar – xüsusi ləvazimat) və xüsusi geyimin mühasibat uçotu üzrə Metodik göstərişləri nəzərə almaq lazımdır. Onlarda nəzərdə tutulmuşdur ki, xüsusi ləvazimat və xüsusi geyim təşkilatın qəbul etdiyi uçot siyasətindən asılı olaraq ya 01-ci "Əsas vəsaitlər" hesabında (əsas vəsaitlər obyektləri üçün müəyyən edilmiş amortizasiya hesablanması qaydasından istifadə etməklə), yaxud 10-cu "İstehsal ehtiyatları" hesabında (dəyərin ödənilməsinin Metodiki göstərişlərdə müəyyən edilmiş mexanizmi tətbiq edilməklə), yaxud onların bir hissəsi – 01-ci hesabda, digəri isə – 10-cu hesabda hesaba alına bilər. Göstərilən sərvətlər (dəyərlər) 10-cu hesabda uçota alındığı halda ona iki subhesab: "Anbarda xüsusi ləvazimat və xüsusi geyim" və " İstismarda olan xüsusi ləvazimat və xüsusi geyim " subhesablar açılır.

Xüsusi ləvazimatın və xüsusi geyimin uçotunun qəbul edilmiş variantından asılı olaraq göstərilən sərvətlərin qalıqları Mühasibat balansında ya "Əsas vəsaitlər" maddəsində, yaxud " İstehsal ehtiyatları " maddəsində ehtiyatların tərkibində əks etdirilir. Xüsusi ləvazimatın dəyəri əhəmiyyətli dərəcədə olduğu halda o, ayrıca maddə ilə təqdim edilə bilər.

Əsas vəsaitlər üzrə, o cümlədən onların ayrı-ayrı növləri üzrə informasiyanın

(ilkin (bərpa) dəyəri, hesablanmış amortizasiyanın məbləği, əsas vəsaitlər obyektlərinin yenidən qiymətləndirilməsinin nəticələri və s.) açıqlaması mühasibat hesabatının 5 saylı formasında həyata keçirilir.

«Qeyri-maddi aktivlər» maddəsi üzrə eyni adlı 04 saylı əmlak hesabında nəzərə alınmış dəyər göstərilir, o, "Qeyri-maddi aktivlərin uçotu" adlanan MUƏ-nə uyğun olaraq eyni zamanda:

- maddi-əşya (fiziki) struktura malik olmamalıdır;
- təşkilat tərəfindən digər əmlakdan identifikasiya edilmək (seçilmək, ayrılmaq) qabiliyyətli olmalıdır;
- məhsul istehsalında, işlərin yerinə yetirilməsində, xidmətlər göstərilməsində yaxud təşkilatın idarəçilik ehtiyacları məqsədilə uzun müddət ərzində (12 aydan artıq müddətdə yaxud 12 aydan artıq davam edən adi istehsal dövrü ərzində) istifadə edilməlidir;
- sonralar yenidən satış təyinatlı olmamalıdır;
- gələcəkdə iqtisadi fayda (gəlir) gətirmək qabiliyyətli olmalıdır;
- həm malın özünün, həm də təşkilatın intellektual (əqli) fəaliyyətin nəticələrinə (patentlərə, şəhadətnamələrə, patentin, əmtəə nişanının güzəşt edilməsinə (əldə edilməsinə) və s. müstəsna hüququnun mövcud olmasını təsdiqləyən sənədlərlə müşayiət edilməlidir.

Qeyri-maddi aktivlərin hesabat dövrü ərzində hərəkəti barədə bütövlükdə və aşağıdakı növlər üzrə məlumatlar 5 saylı formada göstərilir:

1) intellektual (əqli) mülkiyyət obyektlərinə – intellektual fəaliyyətin nəticələrinə müstəsna hüquqlar,

o cümlədən:

- patent sahibinin ixtiraya, sənaye nümunəsinə, faydalı modelə;
- hüquq sahibinin EHM proqramlarına, məlumatlar bazasına;
- hüquq sahibinin inteqral mikrosxemləri topologiyasına;
- əmtəə nişanı və xidmət nişanı sahibinin həmin nişanlara, malın yaranması yerinin adına;
- patent sahibinin seleksiya nailiyyətlərinə.

2) təşkilati xərclər;

3) təşkilatın işgüzar nüfuzu;

4) digər qeyri-maddi aktivlər.

"Qeyri- maddi aktivlər" maddəsi üzrə "Elmi-tədqiqat, təcrübə-konstruktor və texnologiya işlərinə" və Təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotu hesabları Planına uyğun olaraq müsbət nəticə vermiş və istehsalatda yaxud təşkilatın idarəçilik ehtiyacları üçün istifadə edilən elmi-tədqiqat, təcrübə-konstruktor və texnologiya işlərinə (ETTKİ) çəkilən xərclər də göstərilir. Bu aktiv qeyri-maddi aktivlərin tərkibində nəzərə alınırsa da, MUƏ –nə əsasən onlara aid deyil.

ETTKİ yerinə yetirildikdə xərclər ilk olaraq "Kapital qoyuluşlar" adlı 08 hesabında toplanır. Bununla əlaqədar qurtarmamış ETTKİ üzrə xərclər Mühasibat balansının "Quraşdırılası avadanlıqlar" maddəsində əks etdirilməlidir.

Müsbət nəticə verməmiş və yaxud nəticəsindən istifadə edilməsi dayandırılmış ETTKİ-nə çəkilən xərclər satışdan kənar xərclər kimi "Gələcək dövürlərin xərcləri" adlı 31-ci hesaba silinir.

ETTKİ-nə çəiklən xərclərin ayrı-ayrı iş növləri üzrə, o cümlədən qurtarmamış işlər və müsbət nəticə verməmiş satışdan kənar xərclərə aid edilmiş işlər üzrə xərclərin açıqlaması mühasibat hesabatının 5 saylı formasında göstərilir.

"Quraşdırılası avadanlıqlar" maddəsində 07-ci quraşdırılmalı avadanlıq, 08-ci "Kapital qoyuluşları" hesabları üzrə qalıqlar əks etdirilir. Bundan əlavə, inşaatçılara verilmiş avanslar (behlər) və kapital qoyuluşunun həyata keçirməsilə əlaqədar digər avans (beh) ödəmələri (61-ci hesab) əks etdirilir.

Həmin maddə üzrə, məsələn, aşağıdakılar göstərilir:

- qurtarmamış əsaslı tikinti üzrə xərclər;
- əsas vəsaitlərin və qeyri-material aktivlərin hələ istismara verilməmiş və son dəyəri hələ rəsmiləşdirilməmiş obyektlərinin əldə edilməsinə çəkilən xərclər;
- quraşdırılmaya (montaja) verilmiş (quraşdırılma üçün verilmiş, lakin tam quraşdırılmamış) avadanlığın dəyəri;
- elmi - tədqiqat, təcrübə - konstruktiv və texnologiya işlərinin yerinə yetirilməsilə əlaqədar xərclər.

Mülkiyyət hüququ hələlik zəruri sənədlərlə rəsmiləşdirilməmiş daşınmaz obyektlər şəklində əsas vəsaitlər də qurtarmamış kapital qoyuluşları hesab edilir. Sahibkar daşınmaz obyektə öz hüquqlarının dövlət qeydiyyatı haqqında şəhadətnamə almayana qədər həmin obyektin dəyəri 08-ci "Kapital qoyuluşları" hesabında əks etdirilir.[1]

" Uzunmüddətli icarəyə götürülmüş əsas vəsaitlər" maddəsi üzrə eyni adlı 03 hesabında əks etdirilmiş məlumatlar verilir. Burada təşkilat icarəyə, o cümlədən lizinqə yaxud kirəyə verilmək üçün istifadə etdiyi əmlakın dəyəri, həmçinin gəlir əldə edilməsi üçün istifadə edilən yaşayış fondu obyektlərinin dəyəri nəzərə alınır.

II. EHTİYYATLAR VƏ MƏSRƏFLƏR

"İstehsal ehtiyatları" maddələr qrupu üzrə təşkilatın bütün maddi-istehsal ehtiyatlarının və xərclərinin qalıqlarının yekun dəyəri əks etdirilir. Bu halda «Maddi-istehsal ehtiyatlarının uçotu» adlı MUƏ, «Maddi-istehsal ehtiyatlarının mühasibat uçotu üzrə Metodiki göstərişlər», «Təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunun hesablar planı» (sonralar – Hesablar planı) və onun tətbiqi üzrə təlimat, habelə digər normativ sənədlər rəhbər tutulmalıdır.

"İstehsal ehtiyatları" maddəsi üzrə "Materiallar" adlı 10-cu hesabda, «Materialların tədarükü və əldə edilməsi» adlı 15-ci hesabda və "Materialların dəyərindəki kənarlaşmalar" adlı 16-cı hesabdakı qalıqlar göstərilir. 10-cu hesabda təşkilatda olan xammalın, materialların, alınma yarımfabrikatların, komplektləşdirici məmulatların, yanacağın, taranın, ehtiyat hissələrinin və b.k. ehtiyatları barədə onların faktiki əldə edilməsini (tədarükünün) maya dəyərilə yaxud uçot qiymətlərilə (16-cı hesabdan istifadə edildikdə) hesablanan məlumatlar əks etdirilir. 15-ci hesab dövriyyədə olan vəsaitlərə aid maddi-qiymətlilərin tədarükü və əldə olunması haqqında

[1] Burada kapital qoyuluşları qurtarmış, təhvil-təslim üzrə müvafiq ilk uçot sənədləri rəsmiləşdirilmiş, sənədləri dövrlər qeydiyyatına verilmiş və faktiki istismar edilən daşınmaz obyektləri əsas vəsaitlərin uçotu hesabına ayrıca subhesabda qeyd edilməklə əsas vəsaitlər kimi uçota almağa icazə verilir. (Əsas vəsaitlərin uçotu üzrə Metodiki göstərişlərə əsasən).

məlumatların ümumiləşdirilməsi üçün nəzərdə tutulmuşdur. 16-cı hesab üzrə qalıq maddi-istehsal ehtiyatlarının əldə edilməsinin faktiki maya dəyərinin materialların qalığına düşən uçot qiymətlərindən fərqini göstərir.

"Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar" maddəsi belə heyvanları olan təşkilatlar tərəfindən doldurulur və eyni adlı 11-ci hesab üzrə debet saldosunu əks etdirir.

"Bitməmiş istehsal" maddəsi üzrə "Əsas istehsal" adlı 20-ci, "Öz istehsalının yarımfabrikatları" adlı 21-ci, "Köməkçi istehsalat" adlı 23-cü, "Xidmətedici istehsalat və təsərrüfatlar" adlı 29-cu, "Bitməmiş işlər üzrə yerinə yetirilmiş mərhələlər" adlı 36-cı və "Tədavül xərcləri" adlı 44-cü maddələr üzrə qalıqlar göstərilir. Beləliklə, ilk öncə nəzərdən keçirilən maddə üzrə texnoloji emalın bütün mərhələlərini keçməmiş məhsulların, habelə yoxlamadan (sınaqdan) və texniki qəbuldan keçməmiş məmulatların qalıqlarının dəyəri əks edilir.

Kütləvi və seriyalı məhsul istehsalında bitməmiş istehsal normativ (plan) üzrə istehsal maya dəyərində yaxud birbaşa xərclərin maddələri üzrə, habelə onun hazırlanması üçün istifadə edilmiş xammalın, materialların və yarımfabrikatların maya dəyərilə nəzərə alına bilər. Məhsulların fərdi (tək-tək) istehsalı zamanı bitməmiş istehsal balansda faktiki istehsal xərclərilə əks etdirilir.

"Gələcək dövrün xərcləri" maddəsində eyni adlı 31-ci hesab üzrə təşkilatın hesabat dövründə çəkdiyi, lakin onun gələcəkdəki fəaliyyətinə aid xərclər, məsələn, lisenziya alınması və məhsulun sertifikatlaşdırılması ilə əlaqədar xərclər, əsas vəsaitlərin təmirinə (əgər o, qeyri-mütəşəkkil aparılırsa) çəkilən xərclər, mövzunun sənaye sahələrində hazırlıq işlərinə çəkilən xərclər və s. əks etdirilir.

"Hazır məhsul" maddəsində eyni adlı 40-cü hesabda nəzərə alınmış istehsal edilmiş məhsulun qalığının faktiki yaxud normativ (plan üzrə) maya dəyəri göstərilməlidir. Burada həmçinin yenidən satış üçün əldə edilmiş və "Mallar" adlı 41-ci hesabda nəzərə alınmış malların qalığının dəyəri əks etdirilir.

"Alınmış sərvətlər üzrə əlavə dəyər vergisi" maddəsi üzrə hesabat dövrünün sonuna eyni adlı 19-cu hesabda silinməmiş ƏDV məbləği göstərilir.

II bölmənin əvvəlki maddələrində əks etdirilməmiş ehtiyatlar və məsrəflər "Sair ehtiyatlar və məsrəflər" maddəsində göstərilir. Məsələn, istehsal təşkilatları burada kommersiya xərclərinin realizasiya edilməmiş məhsulun qalığına aid edilmiş və "Tədavül xərcləri" adlı 44-cü hesabdan silinməmiş hissəsini əks etdirirlər.

III. PUL VƏSAİTLƏRİ, HESABLAŞMALAR VƏ SAİR AKTİVLƏR

"Yüklənmiş mallar" maddəsində eyni adlı 45-ci hesab üzrə hesabat dövrünün sonuna saldo göstərilir. 45-ci hesabda göndərilmiş malların faktiki maya dəyəri əks etdirilir, bu zaman həmin hesabda göndərilmiş mallar o halda nəzərə alınır ki, göndərilmə anında mədaxil mühasibat uçotunda qəbul edilmiş hesab edilə bilməz. Adətən bu aşağıdakı hallarda baş verir:

- alqı-satqı müqaviləsində nəzərdə tutulmuşdur ki, göndərilmiş mallara mülkiyyət (sahiblik) hüququ alıcıya əlavə şərtləri yerinə yetirəndən sonra (məsələn, malların pulu ödəniləndən sonra) keçir və bu şərtlər hələ yerinə yetirilməmişdir;
- mallar vasitəçilik müqaviləsi (komissiya müqaviləsi, tapşırığı yaxud agent müqaviləsi) üzrə satışa verilmişdir və vasitəçi tərəfindən hələ satılmamışdır;
- mallar alıcıya mübadilə müqaviləsi əsasında göndərilmişdir və qarşı göndərilmə hələ yerinə yetirilməmişdir.

Debitor borcunun ümumi məbləğinə: "Malsatan və podratçılarla hesablaşmalar" adlı 60-cı hesab, "Verilmiş avanslar üzrə hesablaşmalar" adlı 61-ci, "Alıcılar və sifarişçilərlə hesablaşmalar" adlı 62-ci, "Təhtəlhesab şəxslərlə hesablaşmalar" adlı 71-ci, "Sair əməliyyatlar üzrə işçi heyəti ilə hesablaşmalar" adlı 73-cü, "Törəmə (qız) müəssisələrlə hesablamalar" adlı 78-ci, "Müxtəlif debetor və kreditorlarla hesablaşmalar" adlı 76-cı hesablar üzrə debet saldoları daxil olmalıdır.

Xatırladaq ki, əvvəllər uzunmüddətli kimi əks edilmiş, lakin hesabat ilində ödənilməsi güman edilən debitor borcu hesabat ilinin

əvvəlinə qısamüddətli kimi əks etdirilə bilər. Uzunmüddətli borcun qısamüddətliyə keçirilməsini Mühasibat balansına izahatda açıqlamaq lazımdır.

"Qısamüddətli maliyyə qoyuluşları" maddəsində 58-ci hesab üzrə maliyyə qoyuluşları hesabında uçota alınmış təşkilatın qiymətli kağızlara və digər təşkilatların nizamnamə kapitalına investisiyaların məbləği, həmçinin uzunmüddətli verilmiş borcların məbləği göstərilir.

Əgər təşkilat bir ildən artıq olmayan müddətə qiymətli kağızlar alırsa, yaxud maliyyə qoyuluşları həyata keçirirsə, belə qoyuluşlar üzrə məlumat "Qısamüddətli maliyyə qoyuluşları" maddəsi üzrə göstərilir.

Mühasibat uçotunda və mühasibat hesabatlarında maliyyə qoyuluşları haqqında təsnifatın formalaşması qaydaları MUƏ-də müəyyən edilmişdir. Orada bəzi maliyyə qoyuluşları obyektlərinin ilkin və cari bazar dəyərilə qiymətləndirilməsindən istifadə edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

Müəyyən edilmiş qaydada bazar dəyərini (qiymətini) təyin etmək mümkün olan maliyyə qoyuluşları Mühasibat balansında ilin sonu üçün çox cari bazar dəyərində onların əvvəlki hesabat tarixinə qiymətləndirilməsinin təshih edilməsi yolu ilə əks etdirilir. Hesabat və əvvəlki tarixlərdəki qiymətlər arasındakı fərq təşkilatın Maliyyə qoyuluşları uçotunun hesabı ilə müxbirləşmədə (uyğunlaşdırılan) maliyyə nəticələrinə aid edilir (əməliyyat gəlirləri yaxud xərcləri timsalında). Beləliklə, təşkilat müsbət fərqi 58-ci " Qısamüddətli maliyyə qoyuluşları" hesabının debeti və 83-cü "Gələcək dövürlərin gəlirləri" hesabının krediti üzrə, mənfi fərqi isə – əksinə müxbirləşdirmə ilə əks etdirir.

Cari bazar dəyəri müəyyən edilməyən maliyyə qoyuluşları Mühasibat balansında ilkin dəyərində əks etdirilir. Bu halda MUƏ-də maliyyə qoyuluşlarının qiymətdən düşməsi anlayışı tətbiq etmişdir. O, ilkin (uçot dəyəri davamlı və əhəmiyyətli dərəcədə aşağı düşəndə baş verir. Əgər maliyyə qoyuluşlarının qiymətdən düşməsi vəziyyəti yaranarsa, təşkilat onların dəyərinin davamlı azalması üçün şəraitin olmasını yoxlamalıdır.

Göstərilən yoxlama təşkilatın qiymətdən düşmə əlamətləri olan bütün maliyyə qoyuluşları üzrə aparılır. Əgər o, maliyyə qoyuluşlarının davamlı surətdə əhəmiyyətli dərəcədə dəyərinin azalmasını təsdiq edərsə, onda təşkilat belə maliyyə qoyuluşlarının uçot və hesablama dəyərələri arasındakı fərq miqdarında qiymətdən düşməsinə uyğun ehtiyatlar yaradır. Təşkilat göstərilən ehtiyatları maliyyə nəticələri hesabına (əməliyyat xərclərinin tərkibində) yaradır. Bu halda Mühasibat balansında nəzərdən keçirilən maliyyə qoyuluşlarının dəyəri onların qiymətdən düşməsinə uyğun yaranmış məbləği çıxmaqla uçot dəyəri üzrə göstərilir.

Belə yoxlama qiymətdən düşmə əlamətləri olduqda ildə bir dəfədən az olmayaraq 31 dekabr tarixinə aparılır. Təşkilat onun nəticələrinin təsdiqlənməsini təmin etməlidir. Əgər bu zaman maliyyə qoyuluşlarının hesablama dəyərinin sonrakı azalması aşkar edilərsə, onların qiymətdən düşməsinə uyğun əvvəllər yaranmış ehtiyatların məbləği ehtiyatların artırılması və maliyyə nəticələrinin azaldılması istiqamətində təshih edilir (əməliyyat xərcləri tərkibində). Əgər yoxlama nəticəsində maliyyə qoyuluşlarının hesablama dəyərinin artması aşkar edilirsə, onların qiymətdən düşməsinə uyğun əvvəllər yaranmış ehtiyatların məbləği ehtiyatların azaldılması və maliyyə nəticələrinin artırılması istiqamətində təshih edilir (əməliyyat gəlirləri tərkibində).

Təşkilat borc qiymətli kağızlarının və təqdim edilmiş borcların qiymətləndirilməsini onların diskont edilmiş dəyəri üzrə apara bilər. Bu zaman mühasibat uçotunda qeydlər edilmir. Belə qiymətləndirmə tətbiq edilməsi və diskont edilmiş dəyərin hesablanması üsulları barədə informasiya yazılı izahatda verilməlidir. Bundan əlavə, təşkilat mütəxəssis auditorlar yaxud qiymətləndiricilər dəvət edilməsi yolu ilə hesablamanın əsaslandırılmasının təsdiqlənməsini təmin etməlidir.

Maliyyə qoyuluşları haqqında onların növləri üzrə informasiya Mühasibat balansına əlavə (5 saylı formada) verilir.

"Pul vəsaitləri" maddəsi üzrə əks edilən göstərici balansın tərtib edildiyi tarixə kassada, hesablaşma, xüsusi və valyuta hesablarında olan nağd və nağdsız vəsaitlərin, habelə yolda pul sənədlərinin və

köçürmələrinin məbləğindən yəni, 50-ci "Kassa", 51-ci "Hesablaşma hesabı", 52-ci "Valyuta hesabı", 55-ci "Banklarda olan xüsusi hesablar" və 57-ci "Yolda olan köçürmələr" hesabları üzrə qalıqlardan ibarətdir.

Əgər təşkilatın xarici valyutada pul vəsaitləri vardırsa, Mühasibat balansı tərtib edilərkən onlar Azərbaycan Mərkəzi Bankının hesabat dövrünün sonuna müəyyən etdiyi rəsmi kurs üzrə manatla hesablanır.

III. XÜSUSİ VƏSAİTLƏRİN MƏNBƏLƏRİ

"Nizamnamə kapitalı" maddəsində təşkilatın nizamnamə kapitalının məbləği əks etdirilir. Bu göstərici nizamnamə kapitalının təşkilatın təsisat sənədlərində təsbit edilmiş və eyni adlı 85-ci hesabın krediti üzrə əks edilmiş ölçüyə uyğun gəlməlidir. Nizamnamə kapitalının azalması yaxud artması yalnız təsisat sənədlərinə müvafiq dəyişikliklər edildikdən sonra 85-ci hesabda və müvafiq olaraq, mühasibat balansında təsbit edilməlidir.

Təsis edilən səhmdar cəmiyyətinin (qapalı (QSC) və ya açıq (ASC) tipli) nizamnamə kapitalı bu cəmiyyətin səhmdarları arasında paylaşdırılmış səhmlərin nominal dəyərinin məbləğindən ibarətdir. Cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. O, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz.

Məhdud məsuliyyətli cəmiyyətin (MMC) nizamnamə kapitalı cəmiyyətin iştirakçıları arasında bölünmüş payların nominal dəyərinin məbləğidir. Cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Cəmiyyətin nizamnamə kapitalının miqdarı onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən az ola bilməz.

"Ehtiyat kapitalı" maddəsində eyni adlı 86-ci hesab üzrə kredit saldosu göstərilir. Xatırladaq ki, ehtiyat kapitalı iki hissədən

qanunvericiliyə uyğun yaradılmış ehtiyatlardan və təsisat sənədlərinə əsasən yaradılmış ehtiyatlardan ibarət ola bilər.

Səhmdar cəmiyyəti ehtiyat kapitalını "Səhmdar cəmiyyət haqqında" mövcud qaydaların tələblərinə uyğun formalaşdırır. Onların ehtiyat fondunun ölçüsü nizamnamə kapitalının 5%-dən az olmamalıdır. Səhmdar cəmiyyəti hər il bu fonda xalis mənfəətlərinin ən azı 5%-ini keçirməlidir. Fond cəmiyyətin nizamnaməsilə müəyyən edilmiş ölçüyə çatanda ona ayrılmalar dayandırılır.

Göstərilən qanuna əsasən ehtiyat kapitalının azalması digər vəsaitlər olmadıqda onu zərərin ödənilməsinə, habelə cəmiyyətin istiqrazlarının ödənilməsinə və onun səhmlərinin alınmasına yönəldəndə baş verir.

Bununla yanaşı səhmdar cəmiyyətləri də, məhdud məsuliyyətli cəmiyyətlər də öz nizamnamələrinin müddəalarına uyğun olaraq xalis mənfəətləri hesabına da ehtiyatlar yarada bilərlər.

"Əlavə kapital" maddəsində eyni adlı 87-cü hesab üzrə kredit qalığı göstərilir.

Həmin hesabın kreditində aşağıdakılar əks etdirilir:

- əsas vəsaitlərin yenidən qiymətləndirilməndən sonra dəyərinin artırılması;
- emissiya gəliri (öz aksiyalarının satışı xərclərini nəzərə almaqla nominal qiymətlərindən yüksək qiymətə satışından alınan gəlir);
- nizamnamə kapitalına xarici valyutalarda ödəmələrin kurs fərqi və s.

87-cü hesabın debeti üzrə aşağıdakılar əks etdirilir.

- əsas vəsaitlər obyektlərinin yenidən qiymətləndirilməndən sonra qiymətinin azalması məbləği (əgər onların əvvəlki yenidən qiymətləndirilmələrində əlavə kapitala onların dəyərinin artması daxil edilmişdirsə);
- əsas vəsaitlər obyektlərinin sıradan çıxan zaman əlavə qiymətləndirilməsinin (qiymət artımının) silinməsi;
- nizamnamə kapitalının artırılmasına vəsait yönəldilməsi və s.

Qeyri-kommersiya təşkilatı bu bölmədə qalıqları "Məqsədli maliyyələşmə və daxilolmalar" adlı 96-cı hesabda əks etdirirlər.

Kommersiya təşkilatları, məlum olduğu kimi, mühasibat balansında 96-cı hesab üzrə vəsaitlərin qalığının növbəti bölmədə "Gələcək dövrün gəlirləri" maddələr qrupunda əks etdirirlər. Bu onunla əlaqədardır ki, əgər kommersiya təşkilatı vəsaitləri ödənişsiz (büdcədən, digər təşkilatlardan və (və ya) fiziki şəxslərdən) alırsa, onda "Təşkilatların gəlirləri" adlı MUƏ-nə uyğun olaraq ödənişsiz (müftə) alınmış aktivlər təşkilatın maliyyə nəticəsini formalaşdırır. Bu zaman maliyyə nəticəsinin formalaşması qaydası "Dövlət yardımının uçotu" adlı MUƏ-də şərh edilmiş qaydaya oxşardır.

"Bölüşdürülməmüş mənfəət (ödənilməmiş zərər)" maddəsində keçən illərin və hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti (ödənilməmiş xalis zərəri) cəm şəklində əks etdirilir.

II. HESABLAŞMALAR VƏ SAİR PASSİVLƏR

Bu bölmə üzrə təşkilatın bir ildən az yaxud bir ildən artıq müddətə aldığı borc vəsaitlərinin qalığı əks etdirilir. Bu maddə üçün məlumatlar "Qısamüddətli bank kreditləri" adlı 90-cı, "Uzunmüddətli bank kreditləri" adlı 92-ci, "İşçilər üçün bank kreditləri" adlı 93-cü, «Qısamüddətli borclar» adlı 94-cü və «Uzunmüddətli borclar» adlı 95-ci hesablardan götürülür, yəni burada hesabat dövrünün sonuna uzunmüddətli kreditlərin və borcların ödənilməmiş məbləğləri göstərilir. Mühasibat uçotunda, deməli, Mühasibat balansında da alınmış kreditlər və borclar üzrə qalıq ödənilməli olan faizləri nəzərə almaqla əks etdirilir.

İndiik halda "Borcların və kreditlərin və onlara xidmət edilməsi üzrə xərclərin uçotu" adlı MUƏ-ni rəhbər tutmaq lazımdır, o, alınmış qısa və uzunmüddətli kreditlər və borclar üzrə öhdəliklərin yerinə yetirilməsilə əlaqədar xərclər barədə informasiyanın mühasibat uçotunda formalaşması və mühasibat hesabatında açıqlanması qaydalarını müəyyən edir.

Kreditorlarla hesablaşmalar: maddəsi üzrə təşkilatın daxil olmuş maddi sərvətlərə mallara, iş və xidmətlərə görə ödənilməmiş borcu, yəni 60-cı və 76-cı hesablar üzrə kredit saldoları göstərilir.

"Təşkilatın şəxsi heyəti qarşısında borcu" maddəsi üzrə məlumatlara hesablanmış əmək haqqı, sosial və kompensasiya ödəmələri, habelə həmin təşkilatın səhmləri və digər qiymətli kağızlar üzrə işçilərinə ödəmələr üzrə borc daxil edilir.

Əməkdaşlarla (həm ştatlı, həm də ştatdan kənar) əməyin ödənilməsinin, mükafatlar, müavinətlər və digər hesablamalar daxil olmaqla bütün növləri üzrə hesablaşmaların uçotu "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar" adlı 70-ci hesabda aparılır. Bu hesabın krediti üzrə hesablanmış, debeti üzrə isə – ödənilmiş və tutulmuş məbləğlər əks etdirilir. Hesabat dövrünün sonuna 70-ci hesabın kredit saldosu Mühasibat balansında nəzərdən keçirilən maddə üzrə göstərilir.

"Dövlət büdcədənkənar fondları qarşısında borc" maddəsi üzrə Sosial müdafiə fondu (SMF), Sosial sığorta fondu (SSF) və Məcburi tibbi sığorta fondu (MTSF) qarşısında təşkilatın borcları əks etdirilir. Onlar hesablanmış, lakin ödənilməmiş məcburi pensiya sığortasına, bədbəxt hadisələrdən sığorta, həmçinin vahid sosial verginin (VSV) SSF-a və MTSF-a köçürülməli olan hissəsi hesabına yaranır. Həmin maddələr üzrə hesablaşmaların uçotu «Sosial sığorta və təminat üzrə hesablaşmalar» adlı 69-cu, "Büdcədənkənar ödənişlər üzrə hesablaşmalar" adlı 67-ci hesablarda aparılır.

"Büdcə qarşısında borc" maddəsi üzrə "Büdcə ilə hesablaşmalar" adlı 68-ci hesab üzrə qalıq göstərilir. Burada da VSV-nin dövlət büdcəsinə ödənilməli olan hissəsi əks etdirilməlidir.

"Sair kreditorlar" maddəsinin tərkibində təşkilatın əvvəlki maddələrdə əks etdirilməmiş hesablaşmalar üzrə borcu göstərilir. Məsələn, burada məcburi və könüllü sığorta, depozitə qoyulmuş əmək haqqı, təltəlhesab şəxslər və s. üzrə borcları əks etdirmək lazımdır. Həmin maddə üzrə alınmış avanslar üzrə kreditor borcu da əks etdirilə bilər.

"Gələcək dövrlərin gəlirləri" maddəsi üzrə cari hesabat dövründə alınmış, lakin təşkilatın gələcəkdə fəaliyyətinə aid daxilolmalar:

- hesabat dövründə alınmış, lakin gələcək hesabat dövrlərinə aid gəlirlər (icarə və ya mənzil haqqı, kommunal xidmətlərinin ödəmələri və s.);

- ödənişsiz alınmış sərvətlərin və (və ya) məqsədli maliyyələşdirmə vəsaitləri hesabına əldə edilmiş (istismara verilmiş) aktivlərin dəyəri;

- əvvəlki illərin əskikləri üzrə borcun qarşıdakı ödənilməsi;

- əskik gələn sərvətlərin balans dəyəri və taqsırkar şəxsdən tutulmalı məbləğ arasındakı fərq göstərilir.

"Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar" maddəsi üzrə eyni adlı 89-cu hesabda hesablanmış xərclərin istehsal və tədavül məsrəflərinə bərabər qaydada silinməsi üçün yaradılmış ehtiyatların məbləğləri göstərilir.

Məsələn, təşkilat:

- əsas vəsaitlərin baha qiymətli təmirinə;

- işçilərə məzuniyyət pullarının ödənilməsinə;

- illik əmək stajına görə və ilin yekunları üzrə mükafatların verilməsinə;

- zəmanət üzrə təmirə və zəmanət üzrə xidmətə və s. vəsaitləri ehtiyatda saxlaya bilər.

Vəsaitlərin ehtiyatda saxlanması barədə qərar, habelə onun qaydası uçot siyasətində nəzərdə tutulmalıdır.

BALANSARXASI HESABLARDA NƏZƏRƏ ALINAN SƏRVƏTLƏR HAQQINDA ARAYIŞ

"İcarəyə götürülmüş əsas vəsaitlər" maddəsi üzrə 001 saylı balansarxası (balansdan xaricdə) hesabda nəzərə alınmış, icarə və ya ödənişsiz istifadə müqavilələri üzrə digər təşkilatlardan və (və ya) fiziki şəxslərdən alınan əsas vəsaitlərin dəyəri əks etdirilir. Bu əmlak müqavilələrdə göstərilmiş qiymətlərdə hesablanır. Həmin sətirə açıqlamada lazinq müqaviləsi üzrə alınmış əsas vəsaitlərin dəyəri göstərilir (əgər lizinq bu sərvətlərin lizinq verənin balansında nəzərə alınmasını güman edirsə).

"Məsuliyyətli mühafizəyə qəbul edilmiş mal-material qiymətliləri" sətri üzrə təşkilatın ambarında saxlanan, lakin ona mənsub olmayan əmlakın dəyəri göstərilir, onlara, məsələn:

- mülkiyyət (sahiblik) hüququnun keçməsinin xüsusi şərtlərilə (tutaq ki, ödənişdən sonra) bağlanmış müqavilə üzrə alınmış mallar;

satılmış və müvəqqəti olaraq alıcı tərəfindən satıcının anbarında saxlanan mallar;

- mal göndərənlərdən daxil olmuş, lakin təşkilat hesablarına aksept verməimş materiallar daxildir.

Bu əmlakın hamısı 002 saylı balansarxası hesabda ilkin sənədlərdə nəzərdə tutulmuş qiymətlərlə hesaba alınır.

«Komissiyaya qəbul edilmiş mallar» sətri üzrə komissiya müqaviləsi (tapşırıq yaxud agentlik müqaviləsi) əsasında satış üçün alınmış malların dəyəri barədə məlumatlar göstərilir. Belə mallar üzərində mülkiyyət (sahiblik) hüququ komitentə (zəmanətçiyə, sahibinə) mənsubdur. Bu mallar 004 saylı balansarxası hesabda nəzərə alınır.

" Zərərə silinməsi ümidsiz debitor borcları " sətrində 007 saylı balansarxası hesabda nəzəpə alınan məbləğlər hesaba alınır. Xatırladırıq ki, belə borcu aşağıdakı iki halda balansdan silmək olar:

- iddia müddətinin vaxtı ötəndə;

- borclunun müflisliyi tanınanda.

Debitor borcunun zərərə silinmiş məbləğləri beş il müddətində balansın öhdəsində hesab edilməlidir.

" Alınmış ödənişlərin və öhdəliklərin təminatı" və " Verilmiş ödənişlərin və öhdəliklərin təminatı"sətirləri üzrə təşkilatın aldığı (verdiyi) və müvafiq surətdə 008 və 009 saylı balansarxası hesablarda nəzərə alınmış zəmanətlərin məbləğləri göstərilir. Belə zəmanətlər kontragentlərin üzərinə götürdüyü öhdəliklərin (alınmış malların ödənilməsi, kreditin və borcun qaytarılması və s. üzrə) yerinə yetirilməsini təmin edir.

«Mənzil fondunun köhnəlməsi» və «Zahirən abadlıq obyektləri və digər bu kimi obyektlərin köhnəlməsi» sətirləri üzrə müvafiq surətdə 014 və 015 saylı balansarxası hesablarda nəzərə alınmış

məlumatlar əsasında doldurulur. Köhnəlmə ilin sonunda əsas vəsaitlərin tam bərpası üçün müəyyən edilmiş amortizasiya ayırmaları normaları üzrə hesablanır.

"İstifadəyə götürülmüş qeyri-maddi aktivlər" sətri araşdırılanda nəzərə almaq lazımdır ki, ixtiraya, kompüter proqramına, əmtəə nişanına və digər qeyri-material aktivlərə müstəsna hüquqların sahibi həmin əmlakdan istifadə etmək hüququnun digər təşkilata verə bilər. Belə hüquqları olan təşkilat göstərilən aktivləri balans arxasında müqavilədə qəbul edilmiş qiymətlə hesaba almalıdır.

"Emala qəbul edilmiş materiallar" adlı 003 saylı, "Quraşdırılmağa qəbul edilmiş avadanlıqlar" adlı 005 saylı və "Ciddi hesabat blankları" adlı 006 saylı balansarxası hesablar üzrə qalıqlar arayışa sərbəst (boş) sətirlər üzrə daxil edilir.

MALİYYƏ NƏTİCƏLƏRİ VƏ ONLARIN İSTİFADƏSİ HAQQINDA HESABAT (2 saylı forma)

2 saylı formanın göstəricilərinin formalaşması qaydası və məzmunu mühasibat uçotu üzrə əsasnaməyə uyğun müəyyən edilir.

Göstərilən formanın tərkibində aşağıdakılar qeyd edilir:

- məhsulların (iş və xidmətlərin) satışından mədaxil (ümumi gəlir);
- sair satışın nəticələri;
- satışdankənar əməliyyatlardan alınan gəlirlər və xərclər;
- vergi hesablanana qədər mənfəət (zərər);
- hesabat dövrünün xalis mənfəəti (zərəri).

"Məhsulların (iş və xidmətlərin) satışından mədaxil (ümumi gəlir)" bölməsində əsas fəaliyyət növləri üzrə gəlirlər və xərclər müqayisə edilir (tutuşdurulur), ümumi mənfəət və satışdan alınan mənfəət aydınlaşdırılır.

Əsas fəaliyyət növündən alınan gəlir malların, məhsulların (iş və xidmətlərin) satışından alınan mədaxildən (netto) ibarətdir (əlavə dəyər vergisi, aksizlər və analoji məcburi ödəmələr çıxılmaqla).

Mühasibat uçotunda aşağıdakı şərtlər mövcud olduqda mədaxil təsdiq edilir:

- təşkilatlar konkret müqavilədə əks edilmiş yaxud digər müvafiq surətdə təsdiq edilmiş həmin mədaxili almaq hüququna malikdir;
- mədaxilin məbləği müəyyən edilə bilər;
- əminlik vardır ki, konkret əməliyyat nəticəsində təşkilat iqtisadi faydanı artıracaqdır. Əminlik o halda olur ki, təşkilat aktivi ödənilməyə almışdır, yaxud onun alınmasına aid qeyri-müəyyənlik yoxdur;
- məhsula (mala) mülkiyyət (sahiblik, istifadə və sərəncam) hüququ təşkilatdan alıcıya keçmişdir yaxud iş sifarişçi tərəfindən qəbul edilmişdir (xidmət göstərilmişdir);
- bu əməliyyatla əlaqədar çəkilmiş yaxud çəkilən xərclər müəyyən edilə bilər.

Satılmış malların, məhsulların (iş və xidmətlərin) maya dəyəri göstəricisi əsas fəaliyyət növləri üzrə xərcləri əks etdirir, bu xərclər hesabat dövründə satılmış məhsullara, işlərə, xidmətlərə aid hissədə məhsulların, işlərin, xidmətlərin istehsalına sərf edilmiş məsrəflərdən ibarətdir. Ticarət fəaliyyəti göstərən təşkilatlar burada satışdan alınmış mədaxili həmin hesabat dövründə 2 saylı formada əks etdirilmiş malların alınma dəyərini göstərirlər.

Mühasibat uçotunda aşağıdakı şərtlər mövcud olduqda xərclər təsdiq edilir:

- xərc konkret müqaviləyə, qanunvericilik və normativ aktların tələblərinə, işgüzar mübadilə qaydalarına uyğun həyata keçirilir;
- xərcin məbləği müəyyən edilə bilər;
- əminlik vardır ki, konkret əməliyyat nəticəsində təşkilatın iqtisadi faydalarının azalması baş verəcəkdir. Əminlik o halda olur ki, təşkilat aktivi başqasına vermişdir yaxud onun verilməsinə aid qeyri-müəyyənlik yoxdur.

Əgər təşkilatın fəaliyyətinin predmeti icarə müqaviləsi üzrə öz aktivlərinin, ixtiralara, sənaye nümunələrinə və digər intellektual (əqli) fəaliyyət növlərinə patentlərlə təsbit edilmiş hüquqlarının haqqı

ödənilməklə digərlərinə verilməsindən, habelə digər təşkilatların nizamnamə kapitalında iştirak etməkdən ibarət olarsa, onlarla əlaqədar daxilolmalar və xərclər adi fəaliyyət növləri üzrə gəlirlərin və xərclərin tərkibinə daxil edilir. Əgər icarəyə vermə, qeyri-material aktivlərdən istifadə hüquqlarının digərlərinə verilməsi, nizamnamə kapitallarında iştirak edilməsi təşkilatın fəaliyyət predmeti olmadığı halda isə onlarla əlaqədar gəlirlər və xərclər satışdankənar əməliyyatlardan alınan gəlirlər və xərclərin tərkibində göstərilir.

Əsas fəaliyyət növü üzrə mənfəət göstəricisi mədaxil və satılmış malların, məhsulların (iş və xidmətlərin) maya dəyəri arasında fərqdən ibarətdir.

İstehsal təşkilatları "Kommersiya xərcləri" üzrə məhsul satışı ilə əlaqədar xərcləri göstərirlər. Ticarət təşkilatları burada tədavül xərclərinin məbləğini əks etdirirlər. Hesabata yalnız malların, məhsulların (iş və xidmətlərin) satışına silinmiş xərclər daxil edilir.

«İdarə xərcləri» üzrə ümumtəsərrüfat və idarəetmə xərcləri uçot siyasətinə uyğun olaraq onların adi fəaliyyət növləri üzrə xərclər kimi qəbul edildiyi halda ümumistehsal xərclərinin tərkibində göstərilir.

Satışdan alınan mənfəət (zərər) göstəricisi əsas fəaliyyət növü üzrə mənfəət (zərər) və kommersiya və idarə xərclərinin məbləği arasındakı fərq kimi hesablanır.

" Satışdankənar əməliyyatlardan alınan gəlirlər və xərclər" sətri üzrə bütün əməliyyat və satışdankənar gəlirlər və xərclər göstərilir, o cümlədən:

- qiymətli kağızlar və birgə müəssisələrin payda iştirakı üzrə;
- xarici valyuta əməliyyatları üzrə məzənnə (kurs) fərqi;
- və digər əməliyyatlar üzrə gəlirlər və xərclər göstərilir.

Qiymətli kağızlar və birgə müəssisələrin payda iştirakı üzrə alınan gəlirlər sətri üzrə digər firmaların nizamnamə kapitalında pay iştirakından (qiymətli kağızlar üzrə faizlər və digər gəlirlər daxil olmaqla) daxilolmalar, habelə birgə fəaliyyətdən alınan mənfəət əks etdirilir. Digər təşkilatların nizamnamə kapitalında pay iştirakından alınan gəlirlər və səhmlər üzrə dividentlər mühasibat uçotunda və

müvafiq surətdə, 2 saylı formada ödəmə mənbəyi tərəfindən onların miqdarı elan edildikcə əks etdirilir.

Digər əməliyyatlardan alınan gəlirlərə aşağıdakılar aid edilir:

- təşkilatın əmlakından və qeyri-material aktivlərindən müvəqqəti istifadə edilməsinə görə daxilolmalar;
- əsas vəsaitlərin və digər əmlakın satışından alınan daxilolmalar.

Müvafiq olaraq Digər əməliyyat xərcləri üzrə digər əməliyyat gəlirləri alınması ilə əlaqədar xərclər, habelə bank xidmətlərinin ödənilməsi xərcləri, qiymətləndirmə ehtiyatlarına təsərrüfat fəaliyyətinin şərti faktlarının qəbul edilməsilə əlaqədar yaradılan ehtiyatlara ayrılmalar.

Satışdan kənar əməliyyatlardan alınan gəlirlər üzrə aşağıdakılar əks etdirilir:

- müqavilə şərtlərinin pozulmasına görə alınmış yaxud alınmaya qəbul edilmiş cərimələr, penyalar və dəbbələmə pulları;
- təşkilata vurulmuş zərərlərin ödənilməsilə əlaqədar daxilolmalar;
- hesabat ilində aşkar edilmiş keçmiş illərin mənfəəti;
- iddia müddəti keçmiş kreditor və deponent borclarının məbləği;
- müsbət kurs fərqləri;
- aktivlərin qiymətlərinin artırılması məbləği;
- digər satışdan kənar gəlirlər.

Satışdan kənar əməliyyatlardan alınan xərclər üzrə aşağıdakılar göstərilir:

- müqavilə şərtlərinin pozulmasına görə ödənilmiş və ya ödəmə üçün qəbul edilmiş cərimələr, penyalar, dəbbələmə pulları;
- təşkilat tərəfindən vurulmuş zərərlərin ödənilməsi məbləğləri;
- hesabat ilində qəbul edilmiş keçmiş illərin zərərləri;
- iddia müddəti keçmiş debitor borcunun və alınması real olmayan digər borcların məbləğləri;
- mənfi kurs fərqləri və b.k.;

- xeyriyyəçilik məqsədləri üçün köçürülmüş vəsaitlər və idman, mədəni-maarif və digər oxşar tədbirlər üçün xərclər;

- digər satışdan kənar xərclər.

Vergi tutulana qədər mənfəət (zərər) göstəricisi (balans mənfəəti) təşkilatın hesabat dövründə fəaliyyətinin maliyyə göstəricisini əks etdirir. O, satışdan alınan mənfəətin (zərərin) və digər gəlirlərin məbləğindən digər xərclərin çıxılmasına bərabərdir.

Büdcəyə ödəmələr (cari mənfəət vergisi) sətri vergi uçotu məlumatları əsasında doldurulur, yəni burada təşkilatların mənfəət vergisi üzrə Vergi bəyannaməsinə uyğun olaraq büdcəyə ödəməli olduğu mənfəət vergisi əks etdirilir.

Hesabat dövrünün xalis mənfəəti (zərəri) 2 saylı formada vergi tutulmaya qədər olan mənfəətdən (zərərə), cari mənfəət vergisinin, habelə cərimə sanksiyalarının və penyaların çıxılması yolu ilə müəyyən edilir.

2 saylı formaya:

- daimi vergi öhdəlikləri və daimi vergi aktivləri haqqında;

- səhmlərin gəlirliyi barədə sorğu məlumatları daxil edilir.

Daimi vergi öhdəliyi – vergi uçotu məlumatları üzrə yaranır, mühasibat uçotu məlumatları üzrə isə olmur. Daimi vergi öhdəliyini hesablamaq üçün daimi vergi tutulan fərqi mənfəət vergisi dərəcəsinə vurmaq lazımdır. Öz növbəsində daimi vergi tutulan fərq – mühasibat uçotunda əks etdirilən, lakin vergi uçotunda qəbul edilməyən xərclərdir, yaxud mühasibat uçotunda olmayan, lakin vergi uçotunun tərkibində olan gəlirlərdir.

Daimi vergi aktivi – mühasibat uçotu məlumatları əsasında yaranan, lakin vergi uçotunun məlumatlarında olmayan mənfəət vergisidir. Bu göstəricini hesablamaq üçün daimi çıxılan fərqi mənfəət vergisi dərəcəsinə vurmaq lazımdır. Öz növbəsində daimi çıxılan fərq – ilk növbədə mühasibat uçotunda qəbul edilən, lakin vergi tutulan mənfəətin hesablanmasında nəzərə alınmayan

gəlirlərdir, habelə mühasibat uçotunda olmayan, vergi uçotunda isə olan xərclərdir.[1]

Səhmlərin gəlirliliyi bir səhmə düşən baza və durulaşdırılmış mənfəətin hesablanması yolu ilə müəyyən edilir. Bu hesablamanın metodikası bir səhmə düşən mənfəət barədə informasiyanın açıqlanması üzrə Metodiki göstərişlərdə verilmişdir.

Bir səhmə düşən baza mənfəətini müəyyən edərkən əvvəlcə adi səhmlərin orta hesabla (orta çəkili) miqdarı hesablanır. Bunun üçün onların hesabat dövrünün hər ayın 1-nə miqdarını toplayırlar və həmin dövrdəki ayların sayına bölürlər. Sonra xalis mənfəətdən hesabat dövrü ərzində imtiyazlı səhmlər üzrə hesablanmış məbləği (əvvəlki hesabat dövrlərindəki belə hesablamaları nəzərə almadan) çıxırlar və qalığı adi səhmlərin orta sayına bölürlər.

Durulaşdırılmış mənfəəti hesablayan zaman hesab edirlər ki, bütün imtiyazlı səhmlər adi səhmlərə dəyişdirilmişdir. Sonra xalis mənfəəti adi səhmlərin cəmlənmiş miqdarına: ən əvvəldən belə olanların və imtiyazlı səhmlərin dəyişdirilməsi (konvertasiyası) nəticəsində alınanların cəminə bölürlər.

Nəzərdən keçirilən formada mənfəətin və zərərin ayrı-ayrı növlərinin açıqlanması verilir.

MÜƏSSİSƏNİN BALANSINA ƏLAVƏ (5 saylı forma)

Müəssisənin xüsusi kapitalı və fondlarının hərəkəti barədə məlumatlar 5 saylı formada iki bölmədə yerləşir.

I. Xüsusi kapital

Bu bölmənin strukturu nizamnamə, əlavə və ehtiyat kapitallarının, həmçinin bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərərin) məbləğinin hansı amillər və ya mənbələr hesabına dəyişilməsini görmək imkanı yaradır. Məsələn, nizamnamə kapitalının ölçüsünə aşağıdakılar təsir edə bilər:

[1] Mənfəət vergisi üzrə şərti xərc, büdcəyə ödənilməli mənfəət vergisi, xalis mənfəət və daimi vergi öhdəlikləri, daimi vergi aktivləri arasındakı qarşılıqlı əlaqələr 12.10.1-ci paraqrafda daha ətraflı nəzərdən keçirilmişdir.

- əlavə səhmlər buraxılması yaxud onların miqdarının azalması;
- səhmlərin nominal dəyərinin artması və ya azalması;
- hüquqi şəxsin yenidən təşkili və s.

Xatırladaq ki, hüquqi şəxsin yenidən təşkilinin nəticələrinin hesabatda düzgün əks etdirilməsi üçün mövcud Metodiki göstərişləri rəhbər tutmaq lazımdır.

Əlavə kapitalın həcmi:
- xarici valyutanın yenidən hesablanması;
- emissiya gəliri alınması;
- əlavə kapitalın vəsaitlərinin nizamnamə kapitalının artırılmasına yönəldilməsi nəticəsində dəyişilə bilər.

Ehtiyat kapitalı mənfəətdən ayırmalar hesabına arta bilər və ondan təyinatı üzrə istifadə edilməsi hesabına azala bilər.

Bölüşdürülməmiş mənfəətin (ödənilməmiş zərərin) məbləği:
- hesabat ilinin maliyyə nəticəsindən;
- hesablanmış dividentlərin ölçüsündən;
- hüquqi şəxsin yenidən təşkilindən və s. asılıdır.

Bundan əlavə, hesabat ilinin 1 yanvarına giriş saldosunda əks edilmiş kapitalın məbləği onun əvvəlki ilin 31 dekabrına yekun saldosuna təsbit edilmiş məbləğindən fərqlənə bilər.

Bu:
- əsas vəsaitlərin qiymətlərinin dəyişilməsi;
- təşkilatın uçot siyasətinə dəyişikliklər edilməsi zamanı baş verir.

Təşkilat MUƏ-ə əsasən ildə bir dəfə (hesabat ilinin əvvəlinə) əsas vəsait obyektlərini yenidən qiymətləndirmək hüququna malikdir. Bu zaman yenidən qiymətləndirmə haqqında bir dəfə qərar qəbul edilmişdirsə, gələcəkdə həmin proseduranı müntəzəm keçirmək olar.

Yenidən qiymətləndirmə ya əsas vəsaitlərin dəyərinin indeksasiyası yolu ilə, yaxud sənədlərlə təsdiq edilmiş bazar qiymətləri üzrə birbaşa yenidən hesablamaq metodu ilə aparılır. Təşkilatın yenidən qiymətləndirməni həm müstəqil, həm də cəlb edilmiş ekspertlərin köməyilə keçirmək hüququ vardır. Onun nəticələrinin "Əlavə kapital"

adlı 87-ci və "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" adlı 88-ci hesablarda əks etdirilməsi qaydası MUƏ-ə şərh edilmişdir.

Təşkilatın uçot siyasəti aşağıdakı hallarda dəyişilə bilər.
- əgər mühasibat uçotunun aparılması qaydasını tənzimləyən normativ aktlar dəyişiləndə;
- təşkilat mühasibat uçotunun aparılmasının yeni üsullarını tətbiq edən zaman;
- təşkilatın fəaliyyət şəraiti əhəmiyyətli dərəcədə dəyişiləndə. Bu yenidən təşkil edilməklə, mülkiyyətçilərin dəyişilməsilə, fəaliyyət növünün dəyişilməsilə və s. ilə əlaqədar ola bilər.

İnformasiyanın müqayisə edilə bilən olması üçün MUƏ-in müddəalarına əsasən hesabat ilinin hesabatına keçirilən əvvəlki ilin məlumatlarını cari ildəki uçot siyasəti şərtlərinə uyğunlaşdırmaq lazımdır. Bu zaman uçotda qeydlər edilmir, təshihlər isə yalnız mühasibat hesabatında əks etdirilir.

II. Sair fondlar və ehtiyatlar

Bu bölmədə ehtiyat kapitalının, qiymətləndirmə ehtiyatlarının və qarşıdakı xərclər üçün ehtiyatların tərkib hissələrinin açıqlanması və hərəkət göstərilir.

Qiymətləndirmə ehtiyatları mühasibat uçotunun və mühasibat hesabatının aparılması üzrə Əsasnamədə, habelə Hesablar Planında aşağıdakı qiymətləndirmə ehtiyatları yaradılmasının mümkünlüyü nəzərdə tutulmuşdur:
- maddi sərvətlərin dəyərinin azalması ilə əlaqədar;
- maliyyə qoyuluşlarının qiymətdən düşməsilə əlaqədar:
- şübhəli borclar üzrə.

Uçot siyasəti haqqında əmrdə təşkilatda yaradılan ehtiyatların növləri, habelə hər biri üzrə analitik uçotun aparılması qaydası göstərilməlidir.

MUƏ-ə əsasən maddi sərvətlərin dəyərinin azalması ilə əlaqədar ehtiyatlar hesabat ilinin sonunda yaradılmalıdır. Bu ehtiyatlar «Maddi sərvətlərin yenidən qiymətləndirilməsi» adlı 14-cü hesabda

nəzərə alınır. Təcrübədə 14-cü hesab üzrə aşağıdakı ehtiyatlar əks etdirilə bilər:

- xammalın, materialların, yanacağın və s. qiymətlərinin bazar səviyyəsilə müqayisədə aşağı düşməsilə əlaqədar;
- mübadilədə digər vəsaitlərin (hazır məhsulun, malların və s.) dəyərinin aşağı düşməsilə əlaqədar.

Həmin ehtiyatlar maddi sərvətlər xarab olduqda, mənəvi köhnəldikdə yaxud onların bazar qiymətləri üzrə davamlı azalma meylli olduqda formalaşır. Ehtiyatların məbləğləri hər nomenklatura nömrəsi üzrə maddi sərvətlərin istehsalının, tədarükünün (alınmasının) faktiki maya dəyəri və hesabat ilinin sonuna cari bazar dəyəri (mümkün olan satılma dəyəri) arasındakı fərq kimi müəyyən edilir.

Şübhəli borclar üzrə və maliyyə qoyuluşlarının qiymətdən düşməsilə əlaqədar ehtiyatlar "İddialar üzrə hesablaşmalar" adlı 63-cü və "Maliyyə qoyuluşlarının qiymətdən düşməsilə əlaqədar ehtiyatlar" adlı 59-cu hesabların krediti üzrə hesaba alınır.

Təşkilat şübhəli borclar üzrə ehtiyatları yalnız ilin sonunda deyil, həm də hər hesabat dövrünün sonunda debitor borclarının inventarizasiyasının nəticələri üzrə yaratmaq hüququna malikdir. Əgər ehtiyatların yarandığı ildən sonrakı növbəti hesabat ilinin sonuna qədər onlardan istifadə edilməzsə (tamamilə və ya qismən), istifadə edilməmiş məbləğ maliyyə nəticələrinə birləşdirilir. Təşkilat cari bazar dəyəri müəyyən edilməyən maliyyə qoyuluşlarının dəyərinin davamlı və əhəmiyyətli surətdə aşağı düşməsi zamanı qiymətdən düşmüş maliyyə qoyuluşlarının uçot və hesabat dəyərləri arasındakı fərq məbləğləri belə qoyuluşların qiymətdən düşməsilə əlaqədar ehtiyatların yaradılmasına yönəldilir. Ehtiyatlar belə maliyyə qoyuluşlarının hər növü üzrə ayrıca yaradılır və hesaba alınır.

Qiymətləndirmə ilə əlaqədar ehtiyatları hesabatda əks etdirən zaman yadda saxlamaq lazımdır ki:

- yaranmış ehtiyatlar balans mənfəətinin miqdarını azaldır;

- ehtiyatların, debitor borclarının və maliyyə qoyuluşlarının qalıqları barədə göstəricilər balansın aktivinin müvafiq sətirləri üzrə əks etdirilən zaman ehtiyatların məbləği qədər azaldılır;
- yaranmış ehtiyatlar balansın passivində əks etdirilmir.

Gələcək xərclər üçün ehtiyatlar. Bu alt bölmədə " Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar " adlı 89-cı hesabda nəzərə alınan ehtiyatların bütün növlərinin hərəkəti açıqlanır.

Kapitalın dəyişilməsi haqqında hesabata aid arayışda xalis aktivlərin həcmi, habelə kapital qoyuluşları üçün büdcədən və büdcədənkənar fondlardan alınmış vəsaitlər və cari xərclər göstərilir.

Mühasibat balansına əlavənin sadalanan bölmələrinin, demək olar ki, hamısının doldurulması Mühasibat uçotu üzrə müəyyən əsasnamə ilə, o cümlədən müvafiq MUƏ-lərindəki mühasibat hesabatının informasiyasının açılması üzrə aşağıdakı bölmələrlə əlaqədardır:

- borc vəsaitlərinin hərəkəti;
- debitor və kreditor borclar;
- qeyri-maddi aktivlərin tərkibi;
- əsas vəsaitlərin hərəkəti;
- maliyyə qoyuluşları;
- sosial göstəricilər;
- uzunmüddətli investisiya və maliyyə qoyluşlarının maliyyələşdirilməsi üzrə vəsaitlərin hərəkəti;
- balansarxası hesablarda uçota alınan dəyərlər haqqında arayış.

5 saylı formanın ayrı-ayrı bölmələrinin məzmunu ilə bağlı hazırki fəsildə mühasibat balansının müvafiq maddələri üzrə təqdim edilən izaha əlavə olaraq aşağıdakılara diqqət yetirmək lazımdır:

1. «Qeyri-maddi aktivlər» bölməsində qeyri-maddi aktiv növləri üzrə hesablanmış amortizasiya məbləğləri amortizasiyanın uçotu variantından asılı olmayaraq, yəni «Qeyri-maddi aktivlərin amortizasiyası» adlı 05-ci hesabdan istifadə etməklə yaxud amortizasiya ayrılmaları «Qeyri-maddi aktivlər» adlı 04-cü hesabın kreditindən bilavasitə silinən zaman göstərilir.

2. «Təbii və başqa ehtiyatlardan istifadə hüquqları» bölməsi doldurulan zaman «İxtiralar və digər buna oxşar obyektlərin

intellektual (sənaye) mülkiyyəti hüquqları» bölməsi üçün təşkilatın qəbul etdiyi qaydadan istifadə etmək tövsiyə olunur.

3. «Maliyyə qoyuluşları» bölməsində maliyyə qoyuluşları onların ayrı-ayrı növləri üzrə göstərilir, habelə cari bazar dəyəri olan qoyuluşlar ayrıca qeyd edilir. Yuxarıda qeyd edildiyi kimi, maliyyə qoyuluşları cari bazar dəyərini müəyyən etmək mümkün olan qoyuluşlara və həmin göstərici tapılmayan, müəyyən edilməyən qoyuluşlara bölünür. Məsələn, qiymətli kağızların cari bazar dəyəri deyəndə qiymətli kağızlar bazarında ticarətin təşkilatçısı tərəfindən onların müəyyən edilmiş qaydada hesabladığı bazar qiyməti nəzərdə tutulur.

Cari bazar dəyərini müəyyən etmək mümkün olan maliyyə qoyuluşları 5 saylı formada onların qiymətinin əvvəlki hesabat tarixinə təshih edilməsini nəzərə almaqla hesabat ilinin sonuna əks etdirilir. Belə təshihləri təşkilat hər ay yaxud hər rüb edə bilər. Cari bazar dəyəri müəyyən edilməyən maliyyə qoyuluşları 5 saylı formada ilkin dəyəri üzrə əks etdirilir.

İzahat məktubu

Mühasibat hesabatının çox mühüm tərkib hissələrindən biri izahat məktubudur (yazılı izahatdır). Orada hesabat formalarında işıqlandırılmamış, lakin qüvvədə olan MUƏ-lərin uyğun olaraq mühasibat hesabatında əks etdirilməli olan məlumatlar göstərilir. İzahat məktubunda, məsələn uçot siyasəti barədə məlumatlar şərh edilir, seqmentlər üzrə, hesabat tarixindən sonrakı hadisələr, təsərrüfat fəaliyyətinin şərti faktları barədə, dayandırılan fəaliyyət haqqında, təsis edilmiş (qoşulmuş, birləşmiş) şəxslər haqqında, dövlət yardımı və ödənişsiz (əvəzsiz) alınmalar barədə və s. barədə informasiya verilir.

Bundan əlavə, izahat məktubunda təşkilatın fəaliyyətinin qısa xarakteristikası (adi fəaliyyət növləri, habelə cari, investisiya və maliyyə fəaliyyəti), fəaliyyətinin əsas göstəriciləri və hesabat dövründə onun maliyyə fəaliyyətinə təsir etmiş amillər, habelə illik mühasibat hesabının müzakirə edilməsinin yekunları və xalis mən-

fəətin bölüşdürülməsi üzrə qərarlar, yəni hesabat dövründə təşkilatın fəaliyyətinin nəticələri, maliyyə vəziyyəti və onun dəyişilmələri barədə daha tam və obyektiv mənzərə alınması üçün faydalı olan müvafiq informasiya şərh edilməlidir.

İzahat məktubunda maliyyə fəaliyyətinin keyfiyyət dəyişikliklərini və onların səbəblərini səciyyələndirən əsas göstəriciləri şərh edən zaman analitik göstəricilərin (rentabelliyin, xüsusi dövriyyə vəsaitlərinin payının və s.) hesablanması üzrə qəbul edilmiş qaydanı göstərmək lazımdır.

İzahat məktubunda təşkilatın maliyyə vəziyyətinə qiymət də verilməlidir. Bu məqsədlə təklif edilən, şərh edilən göstəricilər sistemi 12.3-cü paraqrafda verilmişdir.

İzahat məktubuna təşkilatın bir neçə il ərzində işinin ən mühüm iqtisadi və maliyyə göstəricilərinin dinamikası barədə məlumatların, gələcək kapital qoyuluşlarının, həyata keçirilən iqtisadi və təbiəti mühafizə tədbirlərinin şərhinin, mühasibat hesabatından istifadəçiləri maraqlandıra bilən digər informasiyanın da daxil edilməsi məqsədəuyğundur.

12.3. Müəssisənin maliyyə vəziyyəti və onun sabitlik səviyyəsinin qiymətləndirilməsi üsulları

Müasir iqtisadi ədəbiyyatda «maliyyə vəziyyəti» anlayışının və onunla əlaqəli olan «maliyyə sabitliyi», «maliyyə müstəqilliyi», «ödəmə qabiliyyəti», «satış qabiliyyəti» kimi çox mühüm anlayışların çox müxtəlif tərifləri vardır.

Maliyyə vəziyyətinin iqtisadi təhlili sahəsində məşhur mütəxəssislərin verdikləri tərifların öyrənilməsi belə nəticə çıxartmaq imkanı yaradır ki, onlar bir-birinə zidd deyil, əsas etibarilə yalnız müxtəlif ümumləşdirmə və (və ya) detallaşdırma dərəcələrilə fərqlənirlər, lakin bu onların dəqiq anlaşılmasını və dərk edilməsini çətinləşdirir [39, s. 240; 40, s. 94; 29, s. 618; 43, s. 179].

Bizim fikirimizcə, *maliyyə vəziyyəti* dedikdə təşkilatın maliyyə ehtiyatları ilə təmin edilməsi,[1] onların səmərəli yerləşdirilməsi və istifadə edilməsinin səmərəliliyi anlaşılmalıdır.

Maliyyə sabitliyi, maliyyə müstəqilliyi, ödəmə qabiliyyəti və satış (pula çevrilə bilmə) qabiliyyətinin mahiyyəti ilə bağlı ifadələrdə vəhdət yoxdur və bir sıra hallarda maliyyə sabitliyi və maliyyə müstəqilliyi, ödəmə qabiliyyəti və satış qabiliyyəti kimi anlayışlar eyniləşdirilir.[2] Bundan əlavə, onların səciyyələndirilməsi üçün həm tərkibinə, həm də hesablama texnikasına görə xüsusi göstəricilər sistemi təklif edilir.

Hazırda mütəxəssislərin tövsiyyələrilə yanaşı müvafiq məqsədlər üçün maliyyə vəziyyətinin təhlilinin rəsmi metodikaları qüvvədədir və tətbiq edilməlidir (edilə bilər).[3]

Qısamüddətli perspektiv üçün maliyyə vəziyyətinin qiymətləndirilməsi zamanı balansın strukturunun qənaətbəxşliyinin (cari satış qabiliyyətinin, xüsusi vəsaitlə təmin edilməsinin və ödəmə qabiliyyətinin bərpa edilməsi (itirilməsi) qabiliyyətinin) qiymətləndirilməsi göstəriciləri tətbiq edilə bilər. Ödəmə qabiliyyəti səciyyələndirilərkən təşkilatın bankdakı hesablarında, kassasında pul vəsaitlərinin olması, zərərlər, vaxtı keçmiş debitor və kreditor borcları, vaxtında ödənilməmiş kreditlər və borclar, müvafiq vergilərin büdcəyə köçürülməsinin tamlığı, büdcə qarşısında öhdəliklərinin yerinə yetirilməsinə görə cərimə sanksiyaları kimi göstəricilərə diqqət yetirmək lazımdır. Təşkilatın qiymətli kağızlar bazarında vəziyyətinin qiymətləndirilməsinə və mövcud mənfi (neqativ) halların səbəblərinə də diqqət vermək lazımdır.

[1] Maliyyə ehtiyatları deyəndə, onların çox dəyişkənliyini nəzərə alaraq, burada təşkilatın vəsaitlərinin Mühasibat balansında onun tərtib edilməsi tarixinə pul vəsaitlərilə təmin edilmiş mənbələri başa düşülür. Əməli (praktik) hesablamalarda maliyyə ehtiyatlarına balansda yüksək dərəcədə satılma qabiliyyəti olan aktivlərlə təmin edilmiş mənbələri də aid etmək məqsədəuyğundur.

[2] Bu anlayışlardakı fərqlərin araşdırılması, habelə onların təklif edilən tərifləri hazırki fəslin müvafiq bölmələrində şərh edilir.

[3] Burada rəsmi dedikdə nazirliliklərin və digər icra hakimiyyəti orqanlarının göstərişlərində (tövsiyyələrində) ehtiva edilən metodikalar başa düşülür.

Uzunmüddətli perspektivdə maliyyə vəziyyətini qiymətləndirən zaman vəsait mənbələrinin strukturunun xarakteristikası, təşkilatın xarici investorlardan və kreditorlardan asılılığı dərəcəsi və s. göstərilir. Əvvəlki illərdə və perspektivdə investisiyaların dinamikasının xarakteristikası (həmin investisiyaların səmərəliliyi müəyyən edilməklə) verilir.

Bundan əlavə, təşkilatın işgüzar fəallığı da qiymətləndirilə bilər. Onu müəyyən edən meyarlara məhsul satışı bazarının genişliyi, o cümlədən ixraca mal göndərmələrinin mövcudluğu, təşkilatın xidmətlərindən istifadə edən müştərilərin məşhurluğu ilə ifadə olunan nüfuzu və digər informasiya, plan göstəricilərinin yerinə yetirilməsi, onların tapşırıq üzrə artım (azalma) sürətlərinin təmin edilməsi dərəcəsi, təşkilatın ehtiyatlardan istifadənin səmərəliliyinin səviyyəsi daxildir.

Bütün yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, maliyyə vəziyyətinin sabitlik dərəcəsinin səciyyələndirilməsi üçün təşkilatın maliyyə ehtiyatları ilə təmin olunması səviyyəsini, onların yerləşdirilməsinin səmərəliliyi dərəcəsini və onlardan istifadənin səmərəliliyi səviyyəsini əks etdirən göstəricilər sistemi lazımdır.

Bu sistemin tərkibinə aşağıdakı əsas göstəricilər daxil edilə bilər:

I. Maliyyə müstəqilliyinin səciyyələndirilməsi üçün:

- ümumi maliyyə müstəqilliyi əmsalı;
- dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı;
- ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı;
- dövriyyədə olan xüsusi kapital.

II. Ödəmə qabiliyyətinin və likvidliyin səciyyələndirilməsi üçün:

- mütləq likvidlik əmsalı;
- cari likvidlik əmsalı;
- xalis aktivlərin dəyəri.

III. Dövriyyə aktivlərindən istifadə edilməsi səmərəliliyinin səciyyələndirilməsi üçün:

- dövriyyə aktivlərinin dövranı əmsalı;
- təşkilatın ehtiyatlarının dövranı əmsalı.

Burada yalnız «minimal» göstəricilər sistemi verilmişdir. Bu fəsildə maliyyə vəziyyətinin təhlili prosesində istifadə olunan digər göstəricilər də nəzərdən keçirilir.

Nəzərə almaq lazımdır ki, maliyyə vəziyyətinin sabitliyi göstəriciləri sisteminə təşkilatın maliyyə müstəqilliyinə, ödəmə qabiliyyətinə və məhsulların satış qabiliyyətinə təsir edən göstəricilər – amillər də daxildir. Onlara, məsələn, bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər), debitor və kreditor borcları, o cümlədən kreditlər və borclar, onların təşkilatın dövriyyəsinə cəlb edilməsinin səmərəliliyi və s. aiddir. Qeyd edək ki, dövriyyə aktivlərindən, o cümlədən ehtiyatlardan istifadənin səmərəliliyi də təşkilatın maliyyə sabitliyinə təsir edən amildir.

12.4. Maliyyə vəziyyətinin ekspress-təhlili

Ekspress-təhlil[1] - maliyyə vəziyyətinin kompleks şəkildə təhlilinin ilkin mərhələsidir, burada mühasibat hesabatında əks etdirilmiş göstəricilərlə tanışlığa əsaslanaraq, habelə sadə hesablamalar aparılması və müqayisələr əsasında təşkilatın maliyyə vəziyyətinin sabitlik səviyyəsi barədə bəzi ilkin nəticələrə gəlmək olar.

Ekspress-təhlilin ümumi sxemi, bir qayda olaraq, bir neçə mərhələdən ibarət olur.

Birinci mərhələdə Mühasibat balansının (hesabatının), necə deyirlər, «oxunması», yəni mühasibat hesabatının göstəricilərilə ümumi vizual tanışlıq həyata keçirilir. Bu prosesdə aşağıdakılar müəyyən edilir:

• təşkilatın mülkiyyətinin vəziyyəti – bu mərhələ qeyri-material aktivlərin, əsas vəsaitlərin və material-istehsal ehtiyatları formasında dövriyyə aktivlərinin mövcudluğunun nəzərdən keçirilməsi ilə səciyyələnir;

[1] Ekspress təhlili bəzən ilkin təhlil adlandırırlar.

• təşkilatın maliyyə siyasətinin investisiyaya istiqamətlənməsi – bu mərhələ dövriyyədən kənar aktivlərdə qurtarmamış tikinti və maliyyə qoyuluşlarının həcminin nəzərdən keçirilməsi ilə səciyyələnir;

• təşkilatın fəaliyyətinin maliyyə nəticələri – bu mərhələ Mühasibat balansında bölüşdürülməmiş mənfəətin (ödənilməmiş zərərin), 2 saylı formada isə vergi tutulmasına qədər mənfəətin (zərərin) və hesabat dövrünün xalis mənfəətinin (zərərin) mövcudluğunun nəzərdən keçirilməsi ilə səciyyələnir.[1] Bu zaman hesabatda zərərin əks etdirilməsi maliyyə vəziyyətinin qeyri-qənaətbəxş olmasının birbaşa göstəricisidir.

• təşkilatın ödəmə qabiliyyəti – bu mərhələdə Mühasibat balansı tərtib edilən tarixə sərbəst pul vəsaitinin olması və kreditorlarla, banklarla və digər borc verənlərlə hesablaşmanın vəziyyətinin nəzərdən keçirilməsi ilə səciyyələnir. Vaxtında ödənilməmiş kreditlərin və borcların, habelə vaxtı keçmiş kreditor borcunun olması həmişə təşkilatın maliyyə vəziyyətinin çox mühüm xarakteristikası olan ödəmə qabiliyyətinin aşağı səviyyəsini göstərir. Aşağı (qeyri-qənaətbəxş) ödəmə qabiliyyətinin ciddi səbəblərindən biri alıcıların onlara satılmış məhsullara (mallara, iş və xidmətlərə) görə vaxtlı-vaxtında hesablaşmamasından ibarətdir. Vaxtı keçmiş debitor borclarının olması, bir qayda olaraq, ödəmələrin qarşısının alınması və tutulması sahəsində təşkilatın hüquq, mühasibat və maliyyə xidmətlərinin zəif işini göstərir.

Vaxtında ödənilməmiş kreditlər və borclar, habelə vaxtı keçmiş kreditor və debitor borcları barədə məlumatları izahat məktubunda mühasibat hesabatının 5 saylı formalarının müvafiq göstəricilərinin açıqlamasından almaq olar.

Mühasibat balansında 12 aydan artıq müddətli debitor borcu olması təşkilatın ödəmə qabiliyyətinə mənfi təsir göstərir.

İkinci mərhələdə təşkilatın mülkiyyət və maliyyə vəziyyəti barədə onun aktivlərinin tərkibi, strukturunun, dinamikasının və

[1] Bəzi mütəxəsislər mühasibat hesabatının bu maddələrində zərər qeyd olunan halda onları hesabatın «xəstə» maddələri adlandırırlar

onların formalaşması mənbələrinin öyrənilməsi yolu ilə bir qədər dərin ümumi təsəvvür yaradılır.

Bu mərhələdə aşağıdakı göstəriciləri dinamikada nəzərdən keçirmək tövsiyə edilir.

1) Mühasibat balansının valyutasında (ümumi yekununda) qeyri-maddi aktivlərin, əsas vəsaitlərin və dövriyyə material aktivlərinin (ehtiyatlarının) cəmlənmiş xüsusi çəkisi – o, təşkilatın istehsal potensialını səciyyələndirir;

2) Mühasibat balansının valyutasında əsas (cari), investisiya və maliyyə fəaliyyətinə qoyulmuş əmlakın xüsusi çəkilisini – onlar təşkilatın müvafiq fəaliyyət növünə aktivlərin qoyulmasının əhəmiyyətini səciyyələndirir.

3) Mühasibat balansının valyutasında dövriyyədən kənar və dövriyə aktivlərinin xüsusi çəkisi. Bu zaman nəzərə almaq lazımdır ki, dövriyyədən kənar aktivlər çətin realizasiya edilir və onların xüsusi çəkisinin artması digər şərtlər eyni olmaqla təşkilatın potensial ödəmə qabiliyyətinin azalmasına səbəb olur. Bununla belə perspektivdə dövriyyədən kənar aktivlərə qoyuluşların artması (əgər bu istehsalatın texniki səviyyəsinin yüksəldilməsilə əlaqədardırsa) istehsalın və satışın həcminin artırılmasına, deməli, təşkilatın maliyyə sabitliyinin də yüksəlməsinə yardım edəcəkdir;

4) Mühasibat balansının valyutasında dövriyyə aktivlərinin ayrı-ayrı növlərinin xüsusi çəkisi. Bu zaman nəzərə almaq lazımdır ki, pul vəsaitlərinin xüsusi çəkisinin artması vizual (görünən) ödəmə qabiliyyətinin artmasını göstərir, debitor borcunun və ehtiyatların xüsusi çəkilərinin artması isə – onun azalması amilidir;

5) Mühasibat balansının valyutasında balansın «Xüsusi vəsaitlərin mənbələri» bölməsində əks etdirilmiş kapitalın və ehtiyatların (xüsusi kapitalın) xüsusi çəkisini. Həmin göstərici təşkilatın kreditorlardan, banklardan və digər borc verənlərdən maliyyə asılılığının səviyyəsini səciyyələndirir. Bu zaman bölüşdürülməmiş mənfəətin artması, maliyyə müstəqilliyinin və ödəmə qabiliyyətinin artması amilidir, ödənilməmiş zərərin artması isə – onların azalması amilidir və idarəetmənin səmərəsizliyini göstərir.

Üçüncü mərhələdə bəzi mütləq göstəricilər və onların artım templərpi müqayisə edilir, bu isə təşkilatın maliyyə sabitliyi və onu təmin edən amillər barədə təsəvvürü genişləndirmək imkanı yaradır.

Belə ki, Mühasibat balansının passiv hissəsinin I bölməsinin yekununu (480-ci sətir) onun aktiv hissəsinin I bölməsinin yekunu (80-ci sətir) ilə, yaxud passiv hissəsinin II bölmələsinin yekunun cəmini (770-ci sətir) aktiv hissəsinin II və III bölmələrinin yekunları ilə müqayisə edilməsi dövriyyə aktivlərinin formalaşmasında xüsusi kapitalın iştirakı barədə nəticə çıxartmaq üçün imkan verir. Əgər passiv hissənin I bölməsinin yekunu > (böyük) aktiv hissəsinin I bölməsinin yekunundan, yaxud passiv hissənin II bölməsinin yekununun cəmi < (kiçik) aktiv hissənin II və III bölmələrinin yekunundan olarsa, dövriyyədə xüsusi kapitalın olması barədə danışmaq olar, bu isə təşkilatın maliyyə sabitliyinin qiymətləndirilməsinin müsbət tərəflərindən (göstəricilərdən) biridir.

Aktiv hissənin I bölməsinin artımı Mühasibat balansının passiv hissəsinin I və II bölmələrinin artımı hesabına təmin edilməsi təşkilatın fəaliyyətinin investisiya istiqamətli olmasını göstərir. Lakin Mühasibat balansının valyutasında aktiv hissənin I bölməsinin xüsusi çəkisi passiv hissənin I və II bölmələrin xüsusi çəkisinin cəmindən artıq olarsa, bu idarə strukturlarının təşkilatın maliyyə fəaliyyətinə düzgün (düşünülmüş) yanaşmamasını sübut edir (qısamüddətli mənbələrin dövriyyədən kənar aktivlərə çevrilməsinə yol verilmişdir).

Əgər Mühasibat balansının valyutasında bank kreditlərinin xüsusi çəkisi kreditor borcunun xüsusi çəkisindən yüksək olarsa, onda ekspress-təhlil mərhələsində qısamüddətli borc mənbələrinin formalaşması sahəsində səmərəsiz maliyyə fəaliyyəti barədə nəticə çıxarmaq olar, bu isə xalis mənfəətin (bir qayda olaraq, bank kreditləri daha baha mənbədir) itirilməsinə, deməli, təşkilatın maliyyə sabitliyinin azalmasına səbəb olur.

Debitor borcunun kreditor borcundan yüksək olması isə hesablaşmaların zəif idarəedilməsini göstərir və təşkilatın ödəmə qabiliyyətinə mənfi təsir edən amildir.

Əgər nizamnamə kapitalı xalis aktivlərinin dəyərindən artıq olarsa, bu onun maliyyə fəaliyyətinin qeyri-qənaətbəxş olmasını göstərir.

Mühasibat hesabatının 2 saylı forması üzrə hesablanmış satışdan əldə edilən mənfəətin artım tempi (J_{SM}) və satışdan daxil olan mədaxilin artım tempinin (J_S) müqayisə edilməsi satışın rentabelliyinin dəyişilməsi barədə nəticəyə gəlmək imkanı verir. Əgər $J_{SM} > J_S$, deməli məhsulun satışının rantebelliyi artmışdır, bu isə maliyyə sabitliyinin yüksəlməsi amilidir.

Mühasibat balansının məlumatları üzrə hesablanmış satışdan daxil olan mədaxilin artım tempinin (J_S) aktivlərin artım tempi (J_A) ilə müqayisəsi aktivlərdən istifadənin səmərəliliyinin dəyişilməsi barədə nəticə çıxarmağa şərait yaradır. Əgər $J_S > J_A$, onda təşkilatın aktivlərindən daha səmərəli istifadə edilir, bu isə digər şərtlər eyni olduqda, təşkilatın maliyyə sabitliyinə müsbət təsir göstərir.

Bəzən eksperss-təhlil prosesində maliyyə sabitliyinin qiymətləndirilməsi müəyyən idarəetmə qərarlarının qəbul edilməsi üçün kifayət edir.

Adətən belə qiyməti yalnız ilkin qiymət kimi qəbul etmək olar. O, səthidir, sistemsizdir. Maliyyənin müasir idarə edilməsi təşkilatın maliyyə vəziyyətini kompleks təhlil etmədən mümkün deyil.

12.5. Maliyyə müstəqilliyinin təhlili

Təşkilatın maliyyə vəziyyətinin qiymətləndirilməsinin əsas parametrlərindən biri, 12.2-ci paraqrafda qeyd edildiyi kimi, onun maliyyə müstəqilliyidir. Təşkilat o halda maliyyə cəhətdən müstəqil hesab edilə bilər ki, onun xüsusi mənbələri hesabına yalnız əsas kapital (dövriyyədən kənar aktivlər) deyil, həm də dövriyyə aktivləri formalaşır.

Normativ sənədlərdə şərh edilmiş, həmçinin ayrı-ayrı müəlliflər tərəfindən tövsiyə olunan bəzi metodikalarda maliyyə müstəqilliyi anlayışı və göstəriciləri maliyyə sabitliyi anlayışı və göstəriciləri ilə eyniləşdirilir.

Bizim fikrimizcə, «maliyyə sabitliyi» anlayışı daha böyük tutumlu və komplekslidir. Ona yalnız maliyyə müstəqilliyinin səciyyələndirilməsi deyil, həm də, ən azı, təşkilatın ödəmə qabiliyyətli olmasının (məhsulun satış qabiliyyətinin) səciyyələndirilməsi daxil edilir. Reallıqda kifayət səviyyədə maliyyə müstəqilliyinə malik olan, lakin ödəmə qabiliyyəti (məhsulunun satış qabiliyyəti) aşağı yaxud qeyri-qənaətbəxş olan təşkilatı maliyyə cəhətdən sabit hesab etmək olmaz.

Maliyyə sabitliyinin tərifini aşağıdakı qaydada şərh etmək olar: müəssisənin maliyyə sabitliyi – maliyyə ehtiyatlarının həcminin, onların bölüşdürülməsi və istifadəsinin elə vəziyyətidir ki, o, mümkün risk şəraitində müəssisənin ödəmə qabiliyyətini və kredit qaytarmaq qabiliyyətini saxlamaqla mənfəətin və kapitalın artması əsasında inkişafını təmin edir [41, s. 13].

Maliyyə müstəqilliyinin qiymətləndirilməsi üçün aşağıdakı nisbi və mütləq göstəricilər sistemi tətbiq edilir.

- ümumi maliyyə müstəqilliyi əmsalı – təşkilatın borc mənbələrindən, yəni kreditorlardan, banklardan və digər borc verənlərdən maliyyə müstəqilliyinin səviyyəsi barədə ümumi təsəvvür verir;
- dövriyyədə xüsusi kapitalın olması – onun dövriyyə aktivlərinin formalaşmasına yönəldilmiş məbləğini səciyyələndirir;
- dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı – təşkilat xüsusi dövriyyə aktivlərini formalaşdıran zaman borc mənbələrindən (kreditorlar, banklar və digər borc verənlər qarşısında öhdəliklərdən) onun maliyyə aslılığı səviyyəsini səciyyələndirir.
- ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı – təşkilat özünün ehtiyatlarını formalaşdıran zaman onun borc mənbələrindən maliyyə cəhətdən asılı olmadığını səciyyələndirir.

Adları çəkilən göstəricilərin hər birinin təhlili metodikasını ardıcıl olaraq nəzərdən keçirək.

Ümumi maliyyə müstəqilliyinin təhlili

Ümumi maliyyə müstəqilliyi əmsalını ($Ə_1$) aşağıdakı düsturla hesablayırlar:

$$Ə_1 = \frac{XK}{BV} \qquad (12.1)$$

burada XK-kapital və ehtiyatlardır (xüsusi kapitalı yaxud aktivlərin formalaşması üçün xüsusi mənbələridir), yəni Mühasibat balansının passiv hissəsinin I bölməsinin yekunudur (480-cı sətir); BV-xüsusi kapitalı və təşkilatın öhdəliklərinin (borc kapitalının) (BK)[1] cəmidir, yəni Mühasibat balansının valyutasıdır (780-ci sətir).

Əgər təşkilatın Mühasibat balansı tərtib edilən tarixə Balansın «Gələcək dövrlərin gəlirləri» (GDG) maddələr qrupunda Balansın passiv hissənin II bölməsində əks etdirilmiş 83 və 89-cu hesablar üzrə qalıqları vardırsa, onda ümumi maliyyə müstəqilliyi əmsalı GDG-nin faktiki olaraq təşkilatın xüsusi mənbələrinə mənsub olması ilə əlaqədar dəqiqləşdirilə, yəni $Ə_1$-in dəqiqləşdirilmiş qiyməti ($Ə_1$ dəq) hesablana bilər:

$$Ə_1 dəq = \frac{XK + GDG}{BV} \qquad (12.2)$$

Burada həmçinin nəzərə almaq lazımdır ki, Mühasibat balansı üzrə hesablanmış xüsusi kapital onun təşkilatın sərəncamında olan real məbləğinə uyğun gəlməyə bilər, başqa sözlə, təşkilatın balansı tərtib etdiyi günə sərəncamında olan xüsusi maliyyə ehtiyatlarının həcminə uyğun gəlməyə bilər. Bu zaman:

a) Mühasibat balansı üzrə hesablanmış xüsusi kapital aşağıdakı məbləğlər qədər artırılmış olur:

- iştirakçıların (təsisçilərin) nizamnamə kapitalına pay borclarının məbləği qədər; bu barədə məlumatı mühasibat hesabatının müvafiq göstəricilərinin yaxud mühasibat uçotunun məlumatlarının açıqlanmasından almaq olar;

[1] Uzunmüddətli və qısamüddətli (Balansın passiv hissəsinin II bölməsi) öhdəliklərin miqdarıdır.

- təşkilatın sərəncamında qalan ödənilməmiş xalis mənfəətin məbləği qədər; onu Mühasibat balansında göstərilmiş alıcıların və sifarişçilərin borclarının qalıqlarını (dolayı vergilər qədər azaldılmış) satışın rentabelliyi əmsalına, vahid (bir) və hissələrlə hesablanmış mənfəət vergisi dərəcəsi arasında fərq kimi hesablanan əmsala, habelə vahid və mənfəətin dividentlər (faizlər) ödənilməsinə yönəldilmiş hissəsi arasındakı fərq kimi hesablanan əmsala vurmaq yolu ilə hesablamaq olar;

b) Mühasibat balansı üzrə hesablanmış xüsusi kapital:

- hesablanmış, lakin təşkilat tərəfindən alınmamış gələcək dövrlərin gəlirlərinin məbləğləri qədər azaldılmış olur.

Yuxarıda deyilənlərə əsasən, $Ə_1$dəq. (həm də maliyyə müstəqilliyinin aşağıda nəzərdən keçirilən digər əmsallarının) hesablanması yenidən dəqiqləşdirilməyə məruz qala bilər.

Hesablama qaydasından görünür ki, $Ə_1$($Ə_1$dəq) təşkilatın vəsaitlərinin ümumi miqdarında xüsusi mənbələrinin payını əks etdirir.

Təşkilatın $Ə_1$-in qiyməti 0,5 olduqda (böhran nöqtəsi) ən minimal səviyyədə maliyyə müstəqilliyinə malik olması qəbul edilmişdir. Böhran nöqtəsinin 0,5 bərabər müəyyən edilməsi kifayət qədər şərtidir. Belə səviyyə aşağıdakı mülahizələr əsasında qəbul edilmişdir: əgər müəyyən anda kreditorlar, banklar və digər borc verənlər bütün borcların qaytarılmasını tələb etsələr, onda təşkilat xüsusi mənbələr hesabına formalaşmış əmlakının yarısını satmaqla, hətta əgər əmlakının ikinci yarısı hər-hansı səbəblərdən satıla bilməyən olduğu halda onları (borcları) ödəyə bilər. Ədəbiyyat mənbələrində $Ə_1$-in mümkün qiymətinin 0,5-ə bərabər müəyyən edilməsinin digər şərtləri də vardır.

Ümumi maliyyə müstəqilliyi göstəricisinin modifikasiyası kimi bir çox nəşrlərdə borc və xüsusi vəsait mənbələrinin nisbəti (C) tövsiyyə edilir.[1] Mövcud vəziyyətə uyğun olaraq onun normativ qiyməti 0,7-dən az olmalıdır.

[1] Bu nisbəti bəzən cəlbetmə əmsalı adlandırırlar.

Yuxarıda maliyyə müstəqilliyinin minimum səviyyədə təmin edilməsi üçün böhran nöqtəsi ($Ə_1$=0,5) nəzərdən keçirilmişdi. Mövcud vəziyyətin C-nin normativ qiymətinin müəyyən edilməsinə uyğun olaraq $Ə_1$ üçün də normativ qiyməti müəyyən etmək olar. Onun qiyməti 0,6 bərabər miqdarda olacaqdır. Bu zaman hesablamanın məntiqi belədir: əgər təşkilatın xüsusi kapitalını 100 vahid qəbul etsək, onda C-nin 0,69 (0,7-dən az) maksimum qiymətində (müəssisə bu halda maliyyə müstəqilliyinə malik olan kiçik qiymətləndirilir) borc mənbələri (təşkilatın öhdəlikləri) 69 vahidə, balansın valyutası isə 169 vahidə bərabər olmalıdır. Onda $Ə_1$ üçün normativ qiymət (aşağı həddi) 0,6 (100:169) bərabər olmalıdır.

Cədvəl 12.1

31 dekabr 200... il tarixinə Mühasibat (müəssisə) balansı

1 saylı forma, ölçü vahidi min manat

AKTİV	Sətr Kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
1	2	3	4
I. ƏSAS VƏSAİTLƏR VƏ SAİR DÖVRİYYƏDƏNKƏNAR AKTİVLƏR			
Əsas vəsaitlər:			
ilk (bərpa) dəyəri* (01,03)	010	14239	13101
köhnəlmə* (02)	011	-	-
qalıq dəyəri	012	14239	13101
Qeyri - maddi aktivlər:			
ilk (bərpa) dəyəri* (04)	020	-	261
köhnəlmə *(05)	021	-	-
qalıq dəyəri	022	-	261
Quraşdırılası avadanlıqlar (07)	030	20430	23815
Başa çatdırılmayan kapital qoyuluşları (08, 61)	040	-	-
Uzunmüddətli maliyyə qoyuluşları (06)	050	8000	8000
Təsisçilərlə hesablaşmalar (75)	060	-	
Sair dövriyyədənkənar aktivlər	070	-	-
I Bölmə üzrə cəmi	080	**42669**	**45177**
II. DÖVRİYYƏ AKTİVLƏR			
İstehsal ehtiyatları (10,15,16)	100	15208	16445
Böyüdülməyə və kökəldilməyə qoyulmuş heyvanlar (11)	110		
Azqiymətli və tezköhnələn əşyalar:			
ilk dəyəri (12, 16)	120		
köhnəlmə (13)	121		
qalıq dəyəri	122		
Bitməmiş istehsal (20,21,23, 29, 30, 36, 44)	130	867	876
Gələcək dövrlərin xərcləri (31)	140	130	90

AKTİV	Sətr Kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
1	2	3	4
Hazır məhsul (40)	150	1305	415
Mallar (satış qiyməti) (41)	160		
Ticarət əlavəsi (42)	161		
Alış qiymətilə	162		
Alınmış qiymətlilər üzrə əlavə dəyər vergisi (19)	175	3248	2212
Sair ehtiyatlar və məsrəflər	176		
II Bölmə üzrə cəmi	180	**20758**	**18657**
III. PUL VƏSAİTLƏRİ, HESABLAŞMALAR VƏ SAİR AKTİVLƏR			
Yüklənmiş mallar (45)	199		
Debitorlarla hesablaşmalar: mallara,iş və xidmətlərə görə (62, 76)	200	34292	3468
alınmış veksellər üzrə (62)	210		
törəmə (qız) müəssisələrlə (78)	220		
büdcə ilə (68)	230		
sair əməliyyatlar üzrə heyətlərlə (73)	240		
sai debitorlarla	250		
Malsatan və podratçılara verilmiş avanslar (61)	260		
Qısamüddətli maliyyə qoyuluşları (58)	270	8	14
Pul vəsaitləri: kassa (50)	280		
hesablaşma hesabı (51)	290	9961	23538
valyuta hesabı (52)	300		
Sair pul vəsaitləri (55, 56, 57)	310		
Sair dövriyyə aktivləri	320		
III bölmə üzrə cəmi	330	**44261**	**27020**
Zərərlər: keçmiş illər (88)	340		
hesabat ilində (dövründə)	350		
Balans (080, 180, 330, 340, və 350)	360	**107688**	**90854**

PASSİV	Sətr kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
1	2	3	4
I. XÜSUSİ VƏSAİTLƏRİN MƏNBƏLƏRİ			
Nizamnamə kapitalı (85)	400	25000	25000
Əlavə kapital (87)	401	24244	24467
Ehtiyat kapitalı (86)	402	5600	5600
Yığım fondları (88)	410		
İstehlak fondları (88)	420		
Sosial sferalar fondu (88)	430		

PASSİV	Sətr kodu	İlin əvvəlinə	İlin (dövrün) sonuna
1	2	3	4
Keçmiş illərdə bölüşdürülməmiş mənfəət (88)	440	9948	11724
Məqsədli maliyyələşmələr və daxilolmalar (96)	450		
İçarə öhtəlikləri (97)	460		
Mənfəət: hesabat ilində (dövründə)* (80)	470		
istifadə edilmiş* (81)	471		
hesabat ilində (dövründə) bölüşdürülməmiş mənfəət	472		
I bölmə üzrə cəmi	480	**64792**	**66791**
II. HESABLAŞMALAR VƏ SAİR PASSİVLƏR			
Uzunmüddətli bank kreditləri (92)	500		
Uzunmüddətli borclar (95)	510		
Qısamüddətli bank kreditləri (90)	600	200	300
İşçilər üçün bank kreditləri (93)	610		
Qısamüddətli borclar (94)	620		
Kreditorlarla hesablaşmalar: mallara, iş və xidmətlərə görə (60, 76)	630	19489	13272
Verilmiş veksellər üzrə (60)	640		
əmək ödənişləri üzrə (70)	650	1470	1553
sosial sığorta və təminat üzrə (69)	660		
əmlak və şəxsi sığorta üzrə (65)	670		
törəmə müəssisələrlə (78)	680		
büdcədənkənar ödənişlər üzrə (67)	690	523	540
büdcə ilə (68)	700	4866	4221
sair kreditorlar	710	11348	2177
Alıcılardan və sifarişçilərdən alınmış avanslar (64)	720		
Təsisçilərlə hesablaşmalar (75)	725		
Gələcək dövrün gəlirləri (83)	730	5000	2000
Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar (89)	740		
Şübhəli borclar üzrə ehtiyatlar (82)	750		
Sair qısamüddətli passivlər	760		
II bölmə üzrə cəmi	770	**42896**	**24063**
Balans (480 və 770-çi sətirlərin məbləğləri)	780	**107688**	**90854**

*bu sətrlər üzrə məlumatlar balansın yekununa daxil edilmir

Qeyd: Mühasibat balansı formasının nümunəsi Azərbaycan Respublikası Maliyyə nazirliyinin 15.09.95-ci il tarixli I-80 saylı əmrilə təsdiq edilmişdir.

Mühasibat balansının (cədvəl 12.1) məlumatları əsasında 12.2 cədvəlində təşkilatın ümumi maliyyə müstəqilliyi əmsalı dinamikada hesablanmış və nəzərdən keçirilmişdir.

Cədvəl 12.2

Təşkilatın ümumi maliyyə müstəqilliyi əmsalının hesablanması, min manat

Sıra sayı	Göstəricilər	Balans göstəricisinin kodu* və ya hesablama qaydası	Hesabat ilinin əvvəlinə	Hesabat ilinin sonuna	Dəyişilmə (+, -)
1	2	3	4	5	6
1	Kapital və ehtiyatlar	480	64792	66791	+1999
2	Gələcək dövrlərin gəlirləri	730	5000	2000	-3000
3	Öz kapitalının dəqiqləşdirilmiş həcmi	Sətir1+sətir2	69792	68791	-1001
4	Balansın valyutası	780	107688	90854	-16834
5	Ümumi maliyyə müstəqilliyi əmsalı ($Ə_1$)	Sətir1:sətir4	0,60	0,74	+0,14
6	Ümumi maliyyə müstəqilliyinin dəqiqləşdirilmiş əmsalı ($Ə_1$dəq)	Sətir3:sətir4	0, 65	0,76	+0,11

*12.1 cədvəlinə baxın.

12.2 cədvəlində təqdim edilmiş hesablamalar, əvvəla hesabat dövrü ərzində ümumi maliyyə müstəqilliyi əmsallarının artmasını əks etdirir, bu isə təşkilatın maliyyə sabitliyinin yüksəlməsini göstərir, ikincisi, əmsalların faktiki qiymətlərinin onların normativ qiymətindən yüksək olmasını əks etdirir ki, bu da təşkilatın borc mənbələrindən maliyyə asılılığı olmayanlara aid edilməsi imkanı yaradır.

Təşkilatın dövriyyə aktivlərini, o cümlədən ehtiyatların formalaşdırması zamanı maliyyə müstəqilliyinin təhlili

Dövriyyə aktivlərinin formalaşması sahəsində (cəhətdən) maliyyə müstəqilliyi real olaraq o halda təmin edilir ki, təşkilat xüsusi vəsait mənbələri hesabına yalnız əsas kapitalı deyil, həm də dövriyyə aktivlərinin bir hissəsini ödəyir və bununla da özünün həyat qabiliyyətini yüksəldir. Lakin belə vəziyyət banklar və kreditorların maraqlarını təmin edirsə də, təşkilat üçün dövriyyə aktivlərinin xüsusi kapital ilə ödənilməsi zərurəti və səmərəliliyi borc mənbələrinin «bahasına» yaranır.

Təşkilatın xüsusi kapitalının dövriyyə aktivlərinin formalaşmasında iştirakı onun dövriyyədə xüsusi kapitalının məbləği ilə əks etdirilir.[1]

Dövriyyədə olan xüsusi kapital (DXK) iki üsulla hesablana bilər. Bu zaman alınmış nəticələr eyni olmalıdır, çünki təklif edilən hər iki üsul balans bərabərliyinə əsaslanır.

I üsul: DXK = XK - DKA, (12.3)

Burada DKA - dövriyyədən kənar aktivlərdir, yəni Mühasibat balansının aktiv hissəsinin I bölməsinin yekunudur (80-cı sətir).

II üsul: DXK = DA - BK, (12.4)

Burada DA - dövriyyə aktivləridir, yəni Mühasibat balansının aktiv hissəsinin II və III bölmələrinin yekunudur (180+330-cı sətirlər)

Burada DXK-nin dəqiqləşdirilmiş qiymətini ($DXK_{dəq}$) hesablamaq olar ki, bu zaman:

- yuxarıda deyildiyi kimi XK-nin məbləği gələcək dövrlərin gəlirləri məbləğində artır;
- dövriyyədən kənar aktivlər bankların kreditləri və digər təşkilatların və fiziki şəxslərin borc vəsaitlərinin məbləği (K) qədər azaldılır (əgər onlar dövriyyədən kənar aktivlərin formalaşması mənbələridirsə), bu barədə informasiya mühasibat hesabatının

[1] Bu anlayışı bəzən dövriyyədə xüsusi vəsaitlərin mənbəyi kimi yaxud xüsusi dövriyyə vəsaitləri kimi göstərilir.

müvafiq göstəricilərinin yaxud mühasibat uçotu məlumatlarının açıqlanmasından alına bilər.[1]

Beləliklə, DXK-ni dəqiqləşdirilmiş şəkildə aşağıdakı düsturlarla hesablamaq olar.

I üsul (12.3 düsturuna baxın):

$$DXK_{dəq} = (XK+GDG) - (DKA - K) = XK + GDG - DKA + K \quad (12.5)$$

II üsul (12.4 düsturuna baxın):

$$DXK_{dəq} = DA - (BK - GDG - K) = DA - BK + GDG + K \quad (12.6)$$

$DXK_{dəq}$ -in 12.2 düsturuna izahatlarda göstərilmiş elementlər üzrə sonrakı dəqiqləşdirilməsi də mümkündür.

Nəzərdə saxlamaq lazımdır ki, DXK-nin hesablanmasının nəticəsi «-» işarəsi ilə də ola bilər. Bu o deməkdir ki, əvvəla, təşkilatın dövriyyəsində xüsusi kapitalı yoxdur və dövriyyə aktivlərinin bütün məcmusu borc mənbələri hesabına formalaşmışdır və ikincisi, xüsusi kapitalı hətta dövriyyədən kənar aktivlərin formalaşdırılması üçün də kifayət deyil, yəni sonuncular DXK-nin hesablanmasının mənfi nəticəsi məbləğində təşkilatın öhdəliklərilə ödənilmişdir.

DXK-nin həcmi (ölçüsü) dövriyyə aktivlərinin formalaşmasında onun iştirakının səviyyəsinin, yəni dövriyyə aktivləri, o cümlədən ehtiyatlar sahəsində (cəhətdən) maliyyə müstəqilliyi əmsalının hesablanması üçün bazadır (bu barədə aşağıda danışılacaqdır), lakin dövriyyədə xüsusi kapitalın olmasının mütləq xarakteristikası

[1] Əslində, dövriyyədən kənar aktivləri həm də onların alınması ilə əlaqədar kreditor borcu məbləğində azaltmaq lazımdır. Belə borc barədə məlumatlar mühasibat üsotunun 60-cı maddəsinin (hesabının) göstəricilərindən almaq olar.

Bəzi müəlliflər DXK-nin hesablanması zamanı bütün uzunmüddətli öhdəlikləri öz kapitalını aid etməyi (bərabər tutmağı) tövsiyə edir ki, bu lazımınca əsaslandırılmış deyil.

olmaqla, təşkilatın maliyyə müstəqilliyinin əməli (praktik) surətdə qiymətləndirilməsində sərbəst analitik əhəmiyyətə də malikdir.

DXK həcminin və onun dinamikasının hesablanması nümunəsi 12.3 cədvəlində verilmişdir.

Təhlil zamanı DXK məbləğinin təhlil edilən dövr ərzində dəyişilmələrinin səbəbləri öyrənilməlidir. Onlar DXK-nin hesablanmasında hər toplanan üzrə dəyişilmələrdən ibarətdir.

Maliyyə vəziyyətinin sabitliyinin qiymətləndirilməsi üçün xüsusi kapitalın həcminin müstəsna əhəmiyyəti olmasına baxmayaraq o, hər bir mütləq göstərici kimi, dövriyyə aktivlərinin formalaşmasında xüsusi kapitalın iştirakının əhəmiyyətini əks etdirmir. Bu məqsədlə nisbi göstərici – aşağıdakı düsturla hesablanan, dövriyyə vəsaitləri sahəsində (cəhətdən) maliyyə müstəqilliyi əmsalı ($Ə_2$)[1] tətbiq edilir:

$$Ə_2 = \frac{DXK}{DA}. \qquad (12.7)$$

$Ə_2$ əmsalı təşkilatın xüsusi kapitalının onun dövriyyə aktivlərinin formalaşmasında payını səciyyələndirir.

DXK-nin dəqiqləşdirilmiş məbləğinin hesablanmasının mümkünlüyü ilə əlaqədar $Ə_2$-nin dəqiqləşdirilmiş məbləğinin ($Ə_{2dəq}$) də hesablanması mümkündür:

$$Ə_{2dəq} = \frac{DXK_{dəq}}{DA}. \qquad (12.8)$$

$Ə_{2dəq}$-in (12.2) düsturuna izahatlarda göstərilən elementlər üzrə daha da dəqiqləşdirilməsi mümkündür.

$Ə_2$ üçün ümumi qəbul edilmiş, o cümlədən rəsmi metodikalarda müəyyən edilmiş normativ kəmiyyət (aşağı həddi) 0,1 bərabər miqdar hesab edilir.

[1] Bu əmsalı bəzən dövriyyə aktivlərinin öz vəsaitlərilə təmin edilməsi əmsalı, yaxud öz vəsaitlərilə təmin edilmə əmsalı adlandırırlar.

Dövriyyə aktivləri sahəsində (cəhətdən) maliyyə müstəqilliyi göstəricisi ehtiyatlar sahəsində (cəhətdən) maliyyə müstəqilliyi xarakteristikası (əmsalı) ($Ə_3$) ilə tamamlana bilər. O, aşağıdakı düsturla hesablanır:

$$Ə_3 = \frac{DXK}{E}, \qquad (12.9)$$

burada E-təşkilatın ehtiyatlarıdır.

Zəruri halda $Ə_3$-nin dəqiqləşdirilmiş qiyməti də ($Ə_{3dəq}$) hesablana bilər:

$$Ə_{3dəq} = \frac{DXK_{dəq}}{E} \qquad (12.10)$$

$Ə_{3dəq}$-nin (12.2) düsturuna izahatlarda göstərilən elementlər üzrə daha da dəqiqləşdirilməsi mümkündür.

$Ə_3$ üçün ümumi (hamılıqla) qəbul edilmiş normativ qiymət yoxdur. Müxtəlif müəlliflərin məlumatlarına əsasən o, aşağıdakı kimi: 0,25-dən 0,6-0,8-ə qədər ola bilər.[1]

Dövriyyə aktivləri, o cümlədən ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsallarının hesablanması 12.3 cədvəlində təqdim edilmişdir.

[1] A.D.Şeremetin, R.S.Sayfulinin, Y.V.Neqaşevin mülahizələrinə görə $Ə_3$ üçün təsərrüfat təcrübəsi məlumatları üzrə statistik orta qiymətlər əsasında alınmış normal həddi 0,6-0,8 təşkil edir [43, s. 161].

Cədvəl 12.3

Təşkilatın dövriyyəsində xüsusi kapitalın və dövriyyə aktivlərinin, o cümlədən ehtiyatların formalaşması sahəsində maliyyə müstəqilliyi əmsallarının hesablanması, min manat

Sıra sayı	Göstəricilər	Balans göstəricisinin kodu* və ya hesablama qaydası	Hesabat ilinin əvvəlinə	Hesabat ilinin sonuna	Kənarlaşma (+,-)
1	2	3	4	5	6
1	Kapital və vəsaitlər	480	64792	66791	+1999
2	Öhdəliklər	770	42896	24063	-18833
3	Dövriyyədən kənar aktivlər üçün kreditlər və borclar	-	-	-	-
4	Gələcək dövrün gəlirləri	730	5000	2000	-3000
5	Dövriyyədən kənar aktivlər	080	42669	45177	+2508
6	Dövriyyə aktivləri	180+330	65019	45677	-19342
7	Ehtiyatlar	100+130+ +140+150	17510	16445	-1065
8	Dövriyyədə iştirak edən xüsusi kapital (DXK)				
8.1	I üsul	Sətir 1-sətir 5	22123	21614	-509
8.2	II üsul	Sətir 6 – sətir 2	22123	21614	-509
9	Dövriyyədə xüsusi kapitalın dəqiqləşdirilmiş həcmi ($DXK_{dəq}$)				
9.1	I üsul	Sətir 1+sətir 4- -sətir 5+sətir 3	27123	23614	-3509
9.2	II üsul	Sətir 6–sətir2+ +sətir 4+sətir 3	27123	23614	-3509
10	Dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_2$)	Sətir 8.1 (və ya 8.2): sətir 6	0,34	0,47	+0,13
11	Ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_3$)	Sətir 8.1 (və ya 8.2): sətir 7	1,26	1,31	+0,05
12	Dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyinin dəqiqləşdirilmiş əmsalı ($Ə_{2dəq}$)	Sətir 9.1 (və ya 9.2): sətir 6	0,42	0,52	+0,10
13	Ehtiyatlar sahəsində maliyyə müstəqilliyinin dəqiqləşdirilmiş əmsalı ($Ə_{3dəq}$)	Sətir 9.1 (və ya 9.2):sətir 7	1,55	1,44	-0,11

* 12.1 cədvəlinə baxın

Göstərilən məlumatlardan belə nəticə alınır ki, hesabat ilinin əvvəlinə və sonuna dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsallarının kəmiyyəti normativlərdən yüksək olmuş, ehtiyatlar isə öz mənbələrilə tam ödənilmişdir, deməli, təşkilatın cari fəaliyyəti də onun borc mənbələrindən lazımi səviyyədə maliyyə müstəqilliyi şəraitində həyata keçmişdir.

Maliyyə vəziyyətinin sabitliyinin əlavə, lakin əhəmiyyətli xarakteristikası olan manevrlik əmsalı (Əm) da DXK-nin əsasında hesablanır. O, kapitalın hansı hissəsinin həmin vəsaitlərlə nisbətən sərbəst manevr etmək imkanı verən mobil formasında olmasını göstərir:

$$Ə_m = \frac{DXK}{XK} \qquad (12.11)$$

Maliyyə müstəqilliyinin sonrakı təhlili onun artım imkanlarının müəyyən edilməsinə istiqamətlənməlidir. Bu imkanlar aktivlərin, tərkibinin yaxşılaşması ilə (onların əsaslandırılmış formalaşdırılması ilə) və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsilə (çünki fond verimi artanda və aktivlərin dövranı sürətlənəndə başqa şərtlər eyni olmaqla maliyyə vəsaitləri daha az tələb edilir) habelə bölüşdürülməmiş mənfəətin artması ilə əlaqədardır.

12.6. Ödəmə qabiliyyətinin və likvidliyin təhlili

Təşkilatın ödəmə qabiliyyəti və likvidliyi maliyyə müstəqilliyilə yanaşı onların maliyyə vəziyyətinin sabitliyinin çox mühüm xarakteristikalarıdır.

Təşkilat o halda ödəmə qabiliyyətli hesab edilir ki, o, pul vəsaitlərilə və onların ekvivalentlərilə (bazar qiymətli kağızları ilə) özünün ödəmə öhdəlikləri üzrə vaxtlı-vaxtında və tam hesablaşmaq imkanına malik olur, yəni *ödəmə qabiliyyəti* – kreditorlarla, banklarla və digər borc verənlərlə hesablaşmanın cari vəziyyətinin xarakteristikasıdır.

Artıq 12.4-cü paraqrafda qeyd edildiyi kimi, ödəmə qabiliyyətinin əlamətləri kassada və banklardakı hesablarda pul vəsaitlərinin olmasından, habelə vaxtı keçmiş kreditor borcunun və vaxtında ödənilməmiş uzun və qısa müddətli kreditlərin və borcların olmamasından ibarətdir.

Lakin ödəmə qabiliyyətinin, yəni təşkilatın hesablaşmalarının böyük dəyişkənliyə malik cari vəziyyətinin real qiymətləndirilməsi mühasibat hesabatı məlumatları üzrə yerinə yetirilə bilməz, çünki orada bu cəhətdən yalnız hesabat ilinin əvvəlinə və hesabat dövrünün sonuna ani göstəricilər olur. Belə qiymətləndirmə yalnız operativ təhlil prosesində mümkündür. Bu zaman aşağıdakılar tövsiyə edilir:

- pul axınlarını təhlil etmək, onun məzmunu 12.8-ci paraqrafda nəzərdən keçirilir.
- daxil olması gözlənilən pul gəlirlərinin ödənilməli olan pul öhdəlikləri ilə müqayisə edilməsi yolu ilə qısa vaxt (gün, həftə, ongünlük, ay) üçün ödəmə təqviminin vəziyyətini qiymətləndirmək və öhdəliklərin gəlirlərdən aşkar edilmiş üstünlüyünün qarşısının alınması və aradan qaldırılması üzrə idarəetmə qərarları variantlarının hazırlamaq;
- hər gün, hər həftə və b.k. hesablaşmaların faktiki vəziyyətini öyrənmək, təşkilatın vaxtında ödəmədiyi öhdəliklərin məbləğini aşkar etmək və onların (xüsusilə xalis mənfəətin açıq-aşkar itirilməsilə əlaqədar olan hissəsinin) ödənilməsi üzrə operativ tədbirlər görmək;
- hesablaşmaların faktiki vəziyyətinin operativ öyrənilməsinə əsaslanaraq vaxtında ödənilməmiş öhdəliklərin struktur göstəricilərinin onların məbləğinin bir gün, həftə və b.k. ərzində ödənilməli olan öhdəliklərin məbləğinə nisbəti vasitəsilə hesablamaq;
- həmin struktur göstəricilərinin dinamik sırasını tərtib etmək, yaranan meylləri aşkar etmək və onların bazasında cari ödəmə qabiliyyətinin sabit, müvəqqəti və ya təsadüfi vəziyyətini qiymətləndirmək;
- ödəmə qabiliyyəti olmamasının səbəblərini aşkar etmək, alıcılarla satılmış məhsullara, mallara, işlərə, xidmətlərə görə hesablaşmaların müddətlərinin pozulması, satışın həcminin məhsul

buraxılışı həcmindən (alınmış malların həcmindən) geri qalması, mal-material sərvətlərinin həddindən artıq ehtiyatlarının, yəni məhsulun satışına dair mövcud müqavilələrin, sifarişlərin, tapşırıqların yerinə yetirilməsi üçün tələb ediləndən artıq ehtiyatların yaradılması, habelə dövriyyədən kənar aktivlərlə fayda verməyən vəsaitlər qoyulması və b.k. daxil edilə bilər.

Yalnız pul formasında icra edilən öhdəliklər (büdcə ilə, büdcədən kənar fondlarla, gömrükxana ilə və s.) olması və satılmış məhsullara görə pulsuz hesablaşmalar formasının (qarşılıqlı ödəmələr, əmtəə mübadiləsi əməliyyatları və s.) geniş yayılması ilə əlaqədar olaraq ödəmə qabiliyyəti ödənilmiş mədaxilin (62-ci hesab üzrə ödənilmiş debitor borcunun) ümumi məbləğində pulla ödənilmənin xüsusi çəkisindən əhəmiyyətli dərəcədə asılıdır. Bu göstərici dinamikada öyrənilir. Başqa şərtlər eyni olmaqla, o, artdıqca təşkilatın cari ödəmə qabiliyyətinin səviyyəsi yüksəlir.

Real ödəmə qabiliyyətinin mühasibat hesabatı göstəriciləri əsasında qiymətləndirilməsinin praktik olaraq mümkün olmaması ilə əlaqədar, ölkəmizin və xarici ölkələrin təcrübəsində onu şərti olaraq təşkilatın likvidlik göstəriciləri əsasında səciyyələndirmək qəbul edilmişdir.

Təşkilatın likvidliyi deyəndə öz öhdəliklərini elə aktivlərlə ödəmək qabiliyyəti anlaşılır ki, onların digər formadan pul formasına çevrilməsi müddəti öhdəliklərin ödənilməsi müddətinə uyğun olur. Təşkilatın likvidliyi barədə danışanda onun qısamüddətli öhdəliklərin bütün məcmusu üzrə hesablaşmalar üçün nəzəri cəhətdən kifayət qədər (hətta onların müəyyən edilmiş müddətləri pozulmaqla) həcmdə dövriyyə aktivləri olmasını nəzərdə tuturlar.

Likvidliyin təhlili zamanı Mühasibat balansında göstərilmş, likvidlik dərəcəsi üzrə qruplaşdırılmış və onun azalması qaydasında da yerləşdirilmiş aktivlər onun passivi üzrə ödənilmə müddətlərinə görə qruplaşdırılmış və həmin müddətlərin artması qaydasında yerləşdirilmiş öhdəliklərlə müqayisə edilir. Bu zaman aktivlərin likvidlik dərəcəsi deyəndə onların digər formadan pul forması alması üçün nə qədər az vaxt tələb edilirsə, onun likvidlik dərəcəsi o qədər yüksək olur.

Bir qayda olaraq, likvidlik dərəcəsindən asılı olaraq təşkilatın aktivləri aşağıdakı kimi qruplaşdırılır:

IA - Ən yüksək likvid (dərhal yaxud tez realizasiya edilən) aktivlər, onlara pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları (I qrup aktivlər) aiddir.

IIA - Orta müddətli likvid aktivlər, onlara ödənilməsi hesabat tarixindən sonra 12 ay ərzində gözlənilən debitor borcları (II qrup aktivlər) aiddir.

IIIA - Zəif likvid aktivlər, yəni zəif (ləng) realizasiya edilən aktivlər, onlara ehtiyatlar, alınmış sərvətlər üzrə əlavə dəyər vergisi və digər dövriyyə aktivləri (III qrup aktivlər) aiddir.

IVA - Çətin realizə edilən likvid aktivlər, onlara dövriyyədən kənar aktivləri və ödənilməsi hesabat tarixindən 12 aydan artıq müddətdə gözlənilən debitor borclarını (IV qrup aktivləri) aid edirlər.

Qeyd etmək lazımdır ki, aktivlərin göstərilən qruplara aid edilməsi şərti xarakter daşıyır və lazımi informasiya olduqda dəqiqləşdirilə bilər. Belə ki, məsələn, qısamüddətli maliyyə qoyuluşlarını yalnız bazar qiymətli kağızları, həm də onların bazar dəyəri üzrə qiymətində (mühasibat hesabatının 5 saylı formasına baxın), depozitlər və verilmiş borclar sahəsində, müvafiq müqavilələrdə onların ilk (birinci) tələb əsasında qaytarılması nəzərdə tutulması şərtilə tez realizasiya edilən qəbul etmək olar. Qısamüddətli maliyyə qoyuluşlarının qalıq hissəsi real şəraitdə IV qrup aktivlərə aid edilir. IV qrupa aid edilən təxirə salınmış vergi aktivləri, onların ödənilməsi müddəti hesabat tarixindən sonra 12 ay və daha az təşkil edərsə, II qrup aktivlərə aid etmək lazımdır.

Debitor borcu təşkilatda şübhəli borclar ehtiyatları yaradılması şərtilə II qrupa əsaslandırılmış aid edilir. Əks halda ona ən azı vaxtı keçmiş borc kimi düzəliş edilməlidir ki, bu halda onu IV qrup aktivlərə aid etmək lazımdır. Verilmiş avanslar şəklində orta debitor borcu (mühasibat hesabatının 5 saylı forması və ya mühasibat üçotunun məlumatları) pul vəsaitlərilə deyil, material-istehsal ehtiyatları ilə ödəniləcəkdir, yəni o, III qrupa aid edilməlidir.

Adətən III qrupda nəzərə alınan gələcək dövrlərin xərclərini onların xarakterinə və məzmununa əsaslanaraq IV qrupa, hazır məh-

sul şəklində aktivləri (müasir şəraitdə) isə – bazarın konyunkturasından asılı olaraq nəzərdən keçirilən qrupların istənilən birinə aid etmək lazımdır. Bundan əlavə həmin aktivlərin balans qiyməti, bir qayda olaraq, onların bazar qiymətinə uyğun olmur. Burada (III qruppda) nəzərə alınmış göndərilmiş mallar (əgər onlar mübadilə müqavilələri üzrə göndərilmələrlə əlaqədar deyilsə) prinsipcə potensial debetor borcu kimi qrupa aid edilməlidir.[1]

III qrupda nəzərə alınmış digər dövriyyə aktivləri müvafiq açıqlanmalar və izahatlar olmadıqda IV qrupa aid etmək lazımdır. Müvafiq surətdə IV qrup aktivlərin tərkibi dəqiqləşdirilə bilər (yaxud dəqiqləşdirilməlidir).

Mühasibat balansının passivi üzrə öhdəliklər onların ödənilməsinin təcililik dərəcəsi əsasında qruplaşmalıdırlar.

IP - Ən təcili passivlər: ödəmə müddəti keçmiş ssuda və borclar, kreditor borclar.

IIP - Qısamüddətli passivlər: qısamüddətli bank kreditləri və borclar.

IIIP - Uzunmuddətli passivlər: uzunmüddətli bank kreditləri və borclar.

IVP - Möhkəm passivlər: xüsusi vəsaitlər.

Aktivlərin və öhdəliklərin göstərilən qruplarına əsaslanaraq likvid aktivlərin qısamüddətli öhdəliklərlə müqayisəsi yolu ilə balansın likvidlik dərəcəsi qiymətləndirilir:

$$IA \geq IP$$
$$IIA \geq IIP$$
$$IIIA \geq IIIP$$
$$IVA \leq IVP$$

bu şərtlər təmin edildikdə balans likvid hesab edilir.

Balansın likvid olması həmişə müəssisənin likvid olmasını sübut etmir, bununla əlaqədar olaraq təhlilin növbəti mərhələsində

[1] Əgər mübadilə müqaviləsi dövriyyədən kənar aktivlərin alınmasını nəzərdə tutursa, onda 45-ci hesab üzrə bu sahədə qalıq IV qrup aktivlərdə nəzərə alınmalıdır.

müəssisənin likvidliyini əks etdirən göstəricilər sistemindən istifadə olunur. Həmin göstəricilərə aşağıdakı əmsallar aid edilir:

1. Mütləq likvidlik yaxud ödəmə qabiliyyəti əmsalı ($Ə_4$)[1]

$$Ə_4 = \frac{IA}{IP + IIP} \qquad (12.12)$$

$Ə_4$-ün dəqiqləşdirilmiş qiyməti ($Ə_{4dəq}$) hesablanan zaman aktivlərin I qrupunun dəqiqləşdirilməsi, habelə QP-in GDG qədər azaldılması həyata keçirilir. Bundan əlavə, QP-in alınmış avanslar miqdarında (mühasibat hesabatının 5 saylı forması və ya mühasibat üçotu məlumatları) azaldılması mümkündür. Bu onunla əlaqədardır ki, onlar pul vəsaitlərilə deyil, məhsul satılması ilə ödənilməlidir.

$Ə_4$ əmsalı balansın tərtib edilməsi tarixinə nisbətən ən yaxın vaxtda qısamüddətli öhdəliklərin hansı hissəsinin ödənilə bilməsini göstərir. Əgər $Ə_4 \geq 1$ olarsa, təşkilat mükəmməl, tam pullu ödəmə qabiliyyətlidir, lakin o, artıq təsəvvür edilir və təsərrüfat təcrübəsində az rast gəlinir. Bu əmsalın qiyməti adətən 0,01-dən 0,15-ə qədər dəyişilir.

Nəşr edilmiş əsərlərdə normativ (normal məhdudiyyət) kimi $Ə_4 = 0,5 \div 0,1$ qiyməti məsləhət görülür. Bu zaman Mühasibat balansı tərtib edilməsi tarixinə qənaətbəxş pullu ödəmə qabiliyyətli hesab edilməsi üçün 0,5 qiyməti etibarlı, 0,1 qiyməti isə – aşağı həddi kimi təsəvvür edilir. $Ə_4$-ün qiymətinin normativ və (və ya) təşkilat üçün zəruri qiymətə uyğunluğunu təmin etmək üçün onun pul axınlarını təhlil etmək lazımdır.

2. Təcili likvidlik əmsalı ($Ə_5$)[2]

$$Ə_5 = \frac{IA + IIA}{IP + IIP} \qquad (12.13)$$

$Ə_5$-in dəqiqləşdirilmiş qiyməti ($Ə_{5dəq}$) hesablanan zaman aktivlərin I və II qrupları dəqiqləşdirilir, habelə QP, GDG qədər azaldılır. Bundan əlavə, QP-in yuxarıda göstərilən əsaslarda alınmış avanslar miqdarında azaldılması mümkündür.

$Ə_5$ əmsalı debitor borcu vaxtlı vaxtında ödənilməsi şərtilə təşkilatın proqnozlaşdırılan ödəmə qabiliyyətini əks etdirir. $Ə_5$ üçün təyin etdilmiş normativ qiyməti ≥ 1 təşkil edir. $Ə_5 > 1$ olduqda təşkilat nəzəri cəhətdən etibarlı ödəmə qabiliyyətinə malik olur.

3. Cari likvidlik əmsalı ($Ə_6$)[1]:

$$Ə_6 = \frac{IA + IIA + IIIA}{IP + IIP} \qquad (12.14)$$

$Ə_6$-nın dəqiqləşdirilmiş qiyməti ($Ə_{6dəq}$) hesablanan zaman həm aktivlərin tərkibi, həm də QP, GDG məbləğində dəqiqləşdirilir.

$Ə_6$ əmsalı təşkilatın cari likvidliyinin ümumi qiymətləndirilməsi üçün tətbiq edilir və onda qısamüddətli passivlərin ödənilməsi üçün istifadə edilə bilən dövriyyə aktivlərinin kifayət qədər olmasını göstərir. O, təşkilatın prinsipial ödəmə imkanlarını, yəni yalnız debitorların təşkilat qarşısında öz borclarını ödəməsi deyil, həm də ehtiyatlara qoyulmuş vəsaitlərin cəlb edilməsi şəraitində ödəmə qabiliyyətini səciyyələndirir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə $Ə_6$-nın qiymətinin 1-2 ətrafında dəyişilməsi normal hesablanır.

$Ə_6$-nın 1 səviyyəsində aşağı həddilə yalnız o şərtlə razılaşmaq olar ki, Mühasibat balansında debitor borcunun bütün məbləği şübhəsiz öz vaxtında alınanlardan ibarət olur, ehtiyatların tərkibində isə satıla bilməyən sərvətlər (dəyərlər) yoxdur. Təsərrüfat təcrübəsində belə şəraitə az rast gəlinir.

Likvidlik qabiliyyəti əmsallarının hesablanması nümunəsi 12.4 cədvəlində təqdim edilmişdir.

[1] Bu əmsalı pullu satış qabiliyyətli (pulla ödəmə qabiliyyəti) əmsalı da adlandırırlar.
[2] Bu əmsalı habelə böhran (kritik) likvidlik əmsalı, tez likvidlik əmsalı, aralıq likvidlik əmsalı yaxud aralıq ödəmə əmsalı adlandırırlar.

[1] Bu əmsalı həmsinin ümumi ödəmə əmsalı, cari ödəmə əmsalı, qısamüddətli borcların ümumi ödəmə əmsalı, ödəmə əmsalı adlandırırlar.

Cədvəl 12.4.

Likvidlik əmsallarının hesablanması, min manat

Sıra sayı	Göstəricilər	Balans göstəricisinin kodu* yaxud hesablama qaydası	Hesabat ilinin əvvəlinə	Hesabat dövrünün sonuna	Kənarlaşma (+,-)
1	2	3	4	5	6
1	Pul vəsaitləri	290	9961	23538	+13577
2	Qısamüddətli maliyyə qoyuluşları	270	8	14	+6
	O cümlədən				
2.1.	Satıla bilməyən	**	-	-	-
3	Tez realizasiya edilən aktivlərin cəmi (I qrup aktivlər)	Sətir 1+sətir 2	9969	23552	+13583
4	Dəqiqləşdirilmiş I qrup aktivlərin cəmi	Sətir 1+sətir 2--sətir 2.1	9969	23552	+13583
5	Orta müddətli likvid aktivlər: debitor borcları, ödənilməsi hesabat tarixindən sonra 12 ay ərzində gözlənilən debitor borclar (II qrup aktivlər)	200	34292	3468	-30824
	O cümlədən:				
5.1	Vaxtı keçmiş	**	3560	2532	-1028
5.2	Verilmiş avanslar	***	250	200	-50
6	Dəqiqləşdirilmiş II qrup aktivlər	Sətir 5--sətir 5.1--sətir 5.2.	30482	736	-29746
7	I qrup + II qrup aktivlərin cəmi	Sətir 3+sətir 5	44261	27020	-17241
8	Dəqiqləşdirilmiş I qrup + II qrup aktivlərin cəmi	Sətir4+sətir+6	40451	24288	-16163
9	Ehtiyatlar	100+130+140+150	17510	16445	-1065
	O cümlədən				
9.1	Likvid olmayan	**	170	205	+35
9.2	Gələcək dövrlərin xərcləri	140	130	90	-40
10	Alınmış sərvtələr (dəyərlər) üzrə ƏDV	175	3248	2212	-1036
11	Sair dövriyyə aktivləri****	320	-	-	-
12	Zəif realizə edilən aktivlərin (III qrup avtivlərin) cəmi	Sətir9+sətir10+ +sətir11	20758	18657	-2101

Cədvəl 12.4. -ün davamı

1	2	3	4	5	6
13	Dəqiqləşdirilmiş III qrup aktivlərin cəmi	Sətir9-sətir9.1--sətir9.2+ +sətir10+sətir5.2	20708	18562	-2146
14	Likvid I qrup+II qrup+III qrup aktivlərin yekunu	Sətir7+sətir 12	65019	45677	-19342
15	Likvid I qrup + II qrup+III qrup dəqiqləşdirilmiş aktivlərin yekunu	Sətir8+sətir 13	61159	42850	-18309
16	Qısamüddətli öhdəliklər	700-600	42969	23763	-18933
	O cümlədən:				
16.1	Alınmış avanslar	***	10506	2000	-8506
16.2	Gələcək dövrlərin gəlirləri	730	5000	2000	-3000
16.3	Dəqiqləşdirilmiş qısamüddətli öhdəliklərin $Ə_{4dəq}$ və $Ə_{5dəq}$ hesablanması üçün	Sətir16--sətir 16.1--sətir 16.2	27190	19763	-7427
16.4	Dəqiqləşdirilmiş qısamüddətli öhdəliklər $Ə_{6dəq}$ hesablaması üçün	Sətir 16--sətir 16.2	37696	21763	-15933
17	Likvidlik əmsalları				
17.1	mütləq ($Ə_4$)	Sətir 3 : sətir16	0,23	0,99	+0,76
17.2	təcili ($Ə_5$)	Sətir 7 : sətir16	1,04	1,14	+0,10
17.3	cari ($Ə_6$)	Sətir 14 : sətir16	1,52	1,92	+0,40
18	Dəqiqləşdirilmiş likvidlik əmsaları				
18.1	mütləq ($Ə_{4dəq}$)	Sətir 4 : sətir16. 3	0,37	1,19	+0,82
18.2	təcili ($Ə_{5dəq}$)	Sətir 8 : sətir16. 3	1,49	1,23	-0,26
18.3	cari ($Ə_{6dəq}$)	Sətir 15 : sətir16.4	1,62	1,97	+0,35

* 12.1. cədvəlinə baxın

** Mühasibat hesabatının müvafiq göstəricilərinə aid açıqlamaların məlumatları və ya mühasibat uçotunun, müqavilələrin, qiymətləndirmələrin məlumatları.

*** 5 saylı formanın, mühasibat hesabatının müvafiq göstəricilərinə aid açıqlamaların məlumatları yaxud mühasibat uçotunun məlumatları.

**** Onların tərkibinin açıqlanmaları olmadıqda 13-cü sətrin məlumatlarına daxil edilmir.

12.4 cədvəlində verilmiş məlumatlar belə nəticəyə gəlmək imkanı verir ki, təşkilat həm hesabat ilinin əvvəlinə, həm də əmsalların müsbət dinamikası hesabına hesabat dövrünün sonuna ödəmə qabiliyyətli və likvidli olmuşdur. Hesabat dövrünün sonuna tam pulu ödəmə qabiliyyətliyi müşahidə edilir, çünki $Ə_4$ və $Ə_{4dəq} \geq 1$. Alınmış təcili likvidlik qabiliyyəti əmsalları ($Ə_5$ və $Ə_{5dəq} > 1$), habelə cari likvidlik əmsallarının normativə (2) yaxın səviyyədə olan kəmiyyəti likvidliyin etibarlı səviyyəsini təsdiq edir.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə təşkilatlarda dövriyyə aktivlərinin dövranın müxtəlif olması ilə əlaqədar $Ə_6$ üçün vahid normativ qiymət təyin edilməsi çətinlik yaradır. Kommersiya bankları, bir qayda olaraq, $Ə_6$ əmsalın sənaye üçün daha yüksək (məsələn 2), ticarət üçün isə nisbətən aşağı (məsələn 1,4) qiymət müəyyən edirlər.

Likvidliyin dərinləşdirilmiş qiymətləndirilməsi zamanı $Ə_6$-nın faktiki qiyməti müəyyən təşkilat üçün onun normativ qiyməti ($Ə_{6norm}$) ilə müqayisə etmək alar. O, aşağıdakı düsturla hesablana bilər:

$$Ə_{6norm} = \frac{E_z + QÖ}{QÖ} \qquad (12.15)$$

Burada E_z-təşkilatın zəruri ehtiyatlarıdır (Mühasibat balansının 100-162-ci sətri ehtiyatların faktiki miqdarı səviyyəsində zəruri və kifayət qədər olması şərtilə).

$Ə_{6norm}$ müəyyən edilməsinin əsasını dövriyyə aktivlərinin (kəsrin surəti) zəruri həcminin hesablanması təşkil edir. O, təşkilatın sonrakı fəaliyyətində çətinliklərə yol verilməməsi üçün zəruri ehtiyatlardan və sərbəst pulların, debitor borclarının və digər dövriyyə aktivlərinin qısamüddətli öhdəliklərin ödənilməsi üçün kifayət edən məbləğinin cəmindən yaranır.

12.7. Xalis aktivlərin təhlili

Təşkilatın xalis aktivlərinin həcmi öhdəliklərlə yüklənməmiş aktivlərin mövcudluğunu səciyyələndirir. O, əslində təşkilatın xüsusi kapitalının ölçüsünə uyğun gəlir və bununla da kreditorların, bankların və digər borc verənlərin maraqlarının müdafiə olunması səviyyəsini səciyyələndirir.

Xalis aktivlərin dəyəri təşkilatın likvidlik dərəcəsinin qiymətləndirilməsi üçün istifadə edilən göstəricidir. Təşkilatın təsisçiləri onu bilməlidirlər, çünki xalis aktivlər firma ləğv edildikdən sonra əmlakın onların sərəncamında qalan hissəsidir (əvvəlcə bütün kənar kreditorların tələbləri ödənilir).

Xalis aktivlərin dəyərinin müəyyən edilməsinin zəruriliyi Azərbaycan Respublikası Mülki məcəlləsinin (28 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq edilmiş, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir) qüvvəyə minməsilə əlaqədardır. Onun 90, 103, 105-ci maddələrində xalis aktivlərlə əlaqədar müddəalar vardır. Məsələn, 90-cı maddənin 4 və 5-ci bənddində məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalına münasibətdə aşağıdakılar nəzərdə tutulmuşdur:

«Maddə 90.4. Əgər ikinci və ya hər növbəti maliyyə ili başa çatarkən məhud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, cəmiyyət öz nizamnamə kapitalının azaldığını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Əgər cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının qanunla müəyyən edilmiş minimum miqdarından az olarsa, cəmiyyət ləğv edilməlidir».

«Maddə 90.5. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının azaldılmasına onun bütün kreditorlarını xəbərdar etdikdən sonra icazə verilir. Bu halda kreditorların hüququ var ki, cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya xitamını və düşdükləri zərərin ödənilməsini tələb etsinlər».

Mülki məcəllənin 103.5. və 105.2. -cu maddələrinə əsasən səhmdar cəmiyyətinin nizamnamə kapitalına da analoji tələblər irəli sürülür:

Nəzərə almaq lazımdır ki, xalis aktivlərin dəyəri yalnız nizamnamə kapitalının ölçüsünə nəzarət edilməsi üçün müəyyən edilmişdir, həm də təsərrüfat cəmiyyətlərinin bütöv bir sıra idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsi zaman istifadə edilməlidir.

Səhmdar cəmiyyətlərinin xilas aktivlərinin dəyərinin qiymətləndirilməsi üçün aşağıdakı müddəalar nəzərdə tutulmalıdır:

1) səhmdar cəmiyyətinin xilas aktivlərinin dəyəri deyəndə səhmdar cəmiyyətinin hesablamaya qəbul edilmiş aktivlərinin məbləğindən onun hesablamaya qəbul edilmiş passivlərinin məbləğinin çıxılması yolu ilə müəyyən edilmiş kəmiyyət anlaşılır;

2) səhmdar cəmiyyətinin əmlakının, hesablarda vəsaitinin və digər aktivlərinin və passivlərinin qiymətləndirilməsi mühasibat uçotu üzrə müddəaların və digər normativ hüquqi aktların tələblərini nəzərə almaqla yerinə yetirilir;

3) səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin qiymətləndirilməsi üçün mühasibat hesabatının məlumatları əsasında hesablama tərtib edilir;

4) hesablamaya qəbul edilən aktivlərin tərkibinə aşağıdakılar daxil edilir:

- Mühasibat balansının I bölməsində əks etdirilən dövriyyədən kənar aktivlər (əsas vəsaitlər, qeyri-maddi aktivlər, quraşdırılası avadanlıqlar, başa çatdırılmayan kapital qoyuluşları, uzunmüddətli maliyyə qoyuluşları, təsisçilərlə hesablaşmalar sair dövriyyədən kənar aktivlər);

- Mühasibat balansının II və III bölməsində əks etdirilən dövriyyə aktivləri (ehtiyatlar, alınmış qiymətlilər üzrə əlavə dəyər vergisi, debitor borcu, qısamüddətli maliyyə qoyuluşları, pul vəsaitləri, sair dövriyyə aktivləri), səhmdar cəmiyyəti tərəfindən sonradan yenidən satılması yaxud ləğv edilməsi üçün səhmdarlardan alınmış öz səhmlərinin alınmasına faktiki xərclərin və iştirakçıların (təsisçilərin) nizamnamə kapitalına pay borcunun cəmi məbləğində dəyər istisna edilməklə;

5) hesablamaya qəbul edilən passivlərin tərkibinə aşağıdakılar daxil edilir:

- borclar və kreditlər və digər uzunmüddətli öhdəliklər;

- borclar və kreditlər üzrə qısamüddətli öhdəliklər;
- kreditor borcu;
- iştirakçılara (təsisçilərə) gəlirlərin ödənilməsi üzrə borc;
- qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar;
- digər qısamüddətli öhdəliklər.

6) xalis aktivlərin dəyərini səhmdar cəmiyyəti hər manat və ilin axırında müvafiq hesabat tarixi üçün qiymətləndirir;

7) xalis aktivlərin dəyəri barədə informasiya aralıq və illik mühasibat hesabatında açıqlanır.

Səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin hesablanmasını həyata keçirək (cədvəl 12.5).

Cədvəl 12.5.

Təşkilatın xalis aktivlərinin hesablanması, min manat

Sıra sayı	Göstəricilər	Balans göstəricisinin kodu*	Hesabat ilinin əvvəlinə	Hesabat dövrünün sonuna
1	2	3	4	5
	I. Aktivlər			
1	Əsas vəsaitlər	010	14239	13101
2.	Qeyri-maddi aktivlər	020	-	261
3.	Quraşdırılası avadanlıqlar	030	20430	23815
4.	Başa çatdırılmayan kapital qoyuluşları	040	-	-
5.	Uzunmüddətli və qısamüddətli maliyyə qoyuluşları	050+270	8008	8014
6.	Sair dövriyyədən kənar aktivlər	150	-	-
7.	Ehtiyatlar	100+130+ +140+150	17510	16445
8.	Alınmış qiymətlilər üzrə əlavə dəyər vergisi	175	3248	2212
9.	Debitor borcu**	200	34292	3468
10.	Pul vəsaitləri	280+290+ +300+310	9961	23538
11.	Sair dövriyyə aktivləri	300	-	-

Cədvəl 12.5.-in davamı

1	2	3	4	5
12.	Hesablamaya qəbul edilmiş aktivlərin yekunu (1-11-ci bəndlərin məlumatlarının cəmi)		107688	90854
	II. Passivlər			
13.	Borclar və kreditlər üzrə uzunmüddətli öhdəliklər	500	-	-
14.	Digər uzunmüddətli öhdəliklər***	510	200	300
15.	Borclar və kreditlər üzrə qısamüddətli öhdəliklər	600+610+620	-	-
16.	Kreditor borcu	630+650+ +690+700+ +710	37696	21763
17.	Təsisçilərə (iştirakçılara) gəlirlərin ödənilməsi üzrə borclar	725	-	-
18.	Qarşıdakı xərclər və ödəmələr üzrə ehtiyatlar	740	-	-
19.	Sair qısamüddətli passivlər****	760	-	-
20.	Hesablamaya qəbul edilmiş passivlərin yekunu (13-19-cu bəndlərin məlumatlarının cəmi)		37896	22063
21.	Səhmdar cəmiyyətin xalis aktivlərinin dəyəri (hesablamaya qəbul edilmiş aktivlərin yekunu (12-ci bənd) minus hesablamaya qəbul edilmiş passivlərin yekunu (20-ci bənd).		69792	68791*****

* 12.1-ci cədvəlinə baxın

** Təsisçilərin (iştirakçıların) nizamnamə kapitalına pay borcu istisna edilməklə.

*** Digər uzunmüddətli öhdəliklərin həcmi barədə məlumatlarda şərti öhdəliklərlə və fəaliyyətin dayandırılması ilə əlaqədar müəyyən edilmiş qaydada yaradılmış ehtiyatların məbləğləri göstərilir.

**** Digər qısamüddətli öhdəliklərin həcmi barədə məlumatlarda şərti öhdəliklərlə və fəaliyyətin dayandırılması ilə əlaqədar müəyyən edilmiş qaydada yaradılmış ehtiyat vəsaitlərin məbləğləri göstərilir.

***** Aralıq hesabatlarda (1 və 2 saylı formalarda) xalis aktivlərin əks etdirilməsi üçün xüsusi sətir nəzərdə tutulmamışdır. Güman edilir ki, onların məbləğini 1 saylı formaya aid arayışda göstərmək olar.

12.5 cədvəlində verilmiş hesablamadan görünür ki, xalis aktivlərin dəyəri həm hesabat ilinin əvvəlinə, həm də hesabat dövrünün sonuna təşkilatın nizamnamə kapitalının həcmindən yüksəkdir. Xalis aktivlərin dəyəri və nizamnamə kapitalının məbləği arasında belə nisbətə nail olunması üçün təşkilatın fəaliyyəti zərərsiz olmalıdır.

Xalis aktivləri təhlil edən zaman onlardan istifadə edilməsinin səmərəliliyini araşdırmaq lazımdır. Bu məqsədlə xalis aktivlərin rentabeliyi (R_{xa}) (xalis mənfəətin (XM) xalis aktivlərin orta hesabla dəyərinə (XA) nisbəti) hesablanır və baza dövrü ilə müqayisədə hesabat dövründə onun dəyişilməsi amillər üzrə təhlil edilir. Bu halda aşağıdakı modelin tətbiq edilməsi mümkündür:

$$R_{xa} = V_{xa} \times R_s, \qquad (12.16)$$

burada V_{xa}-xalis aktivlərin verimidir, dolayı vergilərsiz satışdan alınan mədaxilin (Məd) XA-ə nisbəti kimi hesablanır; R_s-satışın rentabelliyidir, XM-in Mədaxilə nisbəti kimi hesablanır.

Yuxarıda nəzərdən keçirilmiş amillərin xalis aktivlərin rentabelliyinə təsirinin mütləq fərq üsulu ilə hesablanmasının alqoritmi aşağıdakı kimidir:

$$\Delta R_{xa}(\Delta V_{xa}) = (V_{xa1} - V_{xa0}) \times R_{s0}; \qquad (12.17)$$

$$\Delta R_{xa}(\Delta R_s) = (R_{s1} - R_{s0}) \times V_{xa1}; \qquad (12.18)$$

$$\Delta R_{xa} = R_{xa1} - R_{xa0} = \Delta R_{xa}(\Delta V_{xa}) + \Delta R_{xa}(\Delta R_s); \qquad (12.19)$$

Reallığa əsaslanaraq (12.16) düsturu ilə təqdim edilmiş model genişləndirilə bilər:

$$R_{xa} = O_{dn} \times Ç_r \times Ç_{sah} \times V_a \times R_s \qquad (12.20)$$

Burada O_{dn}-bütün aktivlərin (A) və XA-lərin orta dəyərinin nisbətidir; $Ç_r$ -təşkilatın dövriyyəsində real olan aktivlərin (A_r)[1] orta dəyərinin onun bütün atkivlərinin orta dəyərində xüsusi çəkisidir; $Ç_{sah.}$ - sahibkarlıq məqsədilə istifadə edilən aktivlərin (A_{sah})[2] orta dəyərinin A_r - də xüsusi çəkisidir; V_a - aktivlərin verimidir, $M_{əd}$ - in

[1] İştirakçıların (təsisçilərin) nizamnamə kapitalına pay borclarının orta qiyməti çıxılmaqla bütün aktivlərin orta dəyəri.

[2] Quraşdırılası avadanlıqların orta dəyəri çıxılmaqla təşkilatın dövriyyəsində olan real aktivlərin orta dəyəri.

A_{sah} -a nisbəti kimi hesablanır. Beləliklə, (12.20) düsturundakı göstəricilərin hesablanması texnikası aşağıdakı şəkildə olur:

$$\frac{XM}{XA} = \frac{A}{XA} \times \frac{Ar}{A} \times \frac{A_{sah}}{Ar} \times \frac{M_{əd}}{A_{sah}} \times \frac{XM}{M_{əd}} \qquad (12.21)$$

(12.20) düsturunda nəzərdə tutulmuş hər amilin xalis aktivlərin rentabelliyinin dəyişilməsinə təsirinin hesablanmasını mütləq fərq üsulunun yaxud iqtisadi təhlildə istifadə olunan digər üsulların köməyilə həyata keçirmək olar.

12.8. Pul axınının təhlili

Pul axınının təhlilinin məqsədi və vəzifələri

Təşkilatın pul axınının təhlilinin məqsədi onun fəaliyyətində maraqlı olan istifadəçilərin pul axınının formalaşması prosesi barədə onların tarazlığının və səmərəliliyinin qiymətləndirilməsi üçün zəruri olan informasiya ilə təmin edilməsindən ibarətdir.

Pul axınının təhlilinin məqsədinə nail olunması üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi lazımdır:

- pul vəsaitinin daxilolma mənbələrini və istifadə edilmə istiqamətlərini müəyyən etmək;
- pul axınına birbaşa və dolayı yolla təsir göstərən amilləri kompleks araşdırmaq;
- təşkilatın pul vəsaitinin xalis qalığının araşdırılan dövr ərzində onun əldə etdiyi xalis maliyyə nəticəsindən fərqlənməsinin səbəblərini müəyyən etmək;
- pul vəsaitinin daxil olmasının kafilik səviyyəsini hesablamaq;
- pul vəsaitinin həcm və vaxt üzrə daxil olması və istifadə edilməsinin tarazlığını müəyyən etmək;
- pul vəsaitindən istifadənin səmərəliliyini qiymətləndirmək;
- təşkilatın mütləq likvidlik səviyyəsinin saxlanması imkanlarını və yollarını aşkar etmək.

Pul axını anlayışı və onların təsnifatı

Təşkilatın pul axını – pul vəsaitinin hərəkətidir, yəni müəyyən dövr ərzində onların daxil olması və istifadə edilməsidir.

Pul axınının həcmi pul vəsaitinin alınması (daxil olması) və onların təşkilatın fəaliyyətinin növləri üzrə müvafiq məqsədlərə istiqamətlənməsinin göstəricilərilə səciyyələnir.

Təşkilatın pul vəsaitinin qalığı onun hesablanması qaydasından asılı olaraq üç göstəricidən: pul vəsaitinin ilkin qalığı, xalis qalığı və son qalığından biri ilə ifadə edilə bilər.

İlk qalıq – təşkilatın hesabat dövrünün əvvəlinə pul vəsaitlərinin qalığıdır, təşkilatın hesabat dövründən əvvəlki vaxtlarda daxil olan, lakin xərclənməyən pul vəsaitinin məbləğini əks etdirir.

Xalis qalıq və ya xalis pul vəsaitləri araşdırılan dövrün istənilən anı üçün həmin dövr ərzində daxil olmuş və xərclənmiş pul vəsaitləri arasında fərq kimi müəyyən edilir.

Son qalıq – təşkilatın hesabat dövrünün sonuna pul vəsaitlərinin qalığıdır, ona ilk və xalis pul vəsaitlərinin məbləğləri daxildir.

«Pul axını» anlayışı geniş (birləşmiş) anlayışdır, çünki onun tərkibinə təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə xidmət edən bu axınların müxtəlif növləri daxildir. Arzu olunmayan analitik nəticələrə yol verilməməsi və pul axınının səmərəli və məqsədyönlü idarə edilməsinin təmin edilməsi məqsədilə onların təcrübədə potensial mümkün olan bir sıra əlamətlər üzrə təsnifatını vermək məqsədəuyğundur. Belə təsnifatın variantı 12.6 cədvəlində verilmişdir.

Cədvəl 12.6.

Təşkilatın pul axınlarının təsnifatı

Təsnifat əlaməti	Pul axınının adı
1	2
1. Maliyyə -təsərrüfat proseslərinə xidmət edilməsinin miqyası	1.1. Təşkilatın pul axını 1.2. Struktur bölməsinin pul axını 1.3. Ayrıca təsərrüfat əməliyyatı üzrə pul axını
2. Maliyyə-təsərrüfat fəaliyyətinin növü	2.1. Ümumi pul axını 2.2. Cari fəaliyyət üzrə pul axını 2.3. İnvestisiya fəalliyyəti üzrə pul axını 2.4. Maliyyə fəaliyyətinin pul axını
3. Hərəkətin istiqaməti	3.1. Daxil olan pul axını (gəlmə) 3.2. İstifadə olunan pul axını (getmə)
4. Həyata keçirilmə forması	4.1. Nağdsız pul axını 4.2. Nağd pul axını
5. Tədavül dairəsi	5.1. Xarici pul axını 5.2. Daxili pul axını
6. Müddəti	6.1. Qısamüddətli pul axını 6.2. Uzunmüddətli pul axını
7. Həcmin kifayətliliyi	7.1. Bol pul axını 7.2. Optimal pul axını 7.3. Defisit pul axını
8. Valyuta növü	8.1. Milli valyutada pul axını 8.2. Xarici valyutada pul axını
9. Proqnozlaşdırılma	9.1. Planlaşdırılan pul axını 9.2. Planlaşdırılmayan pul axını
10. Formalaşmanın fasiləsizliyi	10.1. Müntəzəm pul axını 10.2. Diskret (fasilələrlə) pul axını
11.Formalaşmanın vaxt intervalının (faizlərinin) sabitliyi	11.1. Bərabər vaxt intervalları ilə müntəzəm pul axını 11.2. Qeyri-bərabər vaxt intervalları ilə müntəzəm pul axını
12. Vaxta görə qiymətlənmə	12.1. Cari pul axını 12.2. Gələcək pul axını

Bu təsnifatın hər qrupunu qısa səciyyələndirək.

Maliyyə-təsərrüfat proseslərinə xidmət edilməsi miqyasından asılı olaraq təşkilatın pul axını ümumiləşdiricidir. O, ümumiyyətlə bütün təşkilat səviyyəsində pul vəsaitlərinin daxil olması və istifadə edilməsi

ilə səciyyələnir. Əlahiddə hər struktur bölməsinin pul axını təşkilatın filiallarının, nümayəndəliklərinin və digər struktur bölmələrinin ayrıca idarəetmə obyekti kimi ayrılması nəticəsində sərbəst tədqiqat predmeti olur. Ayrıca (əlahiddə) təsərrüfat əməliyyatı üzrə pul axınının mövcud olması onu təşkilatın bütün maliyyə-təsərrüfat proseslərinin xüsusi tərkib hissəsi kimi ayırmaq və həmin əməliyyatla əlaqədar olan pul vəsaitinin hərəkətini müəyyən etməyin mümkünlüyündən asılıdır.

Təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin növləri üzrə ümumi pul axını birləşdiricidir (aqreqasiya edilmişdir). O, tədqiqat obyekti səviyyəsində pul vəsaitinin istənilən hərəkətilə səciyyələnir. Cari fəaliyyətdən pul axını pul vəsaitinin alıcılardan (sifarişçilərdən) daxil olmasına və məhsul istehsalı prosesinin, işlərin yerinə yetirilməsinin, xidmətlər göstərilməsinin, alınmış malların satılmasının və s. təmin edilməsilə əlaqədar onlardan istifadə olunmasını əks etdirir.

İnvestisiya fəaliyyəti üzrə pul axını torpaq sahələrinin, binaların və digər daşınmaz əmlakın, avadanlığın, qeyri-material aktivlərin və digər dövriyyədən kənar aktivlərin alınması, həmçinin onların satılması, öz tikintisi, elmi-tədqiqat, təcrübə-konstruktor və texnologiya işlərinə xərclər, maliyyə qoyuluşları (digər təşkilatların qiymətli kağızlarının, o cümlədən borclarının alınması digər təşkilatların nizamnamə (yığım) kapitalına paylar, digər təşkilatlara borc verilməsi və s.) ilə əlaqədar təşkilatın fəaliyyəti həyata keçirilən zaman formalaşır.

Maliyyə fəaliyyəti üzrə pul axını təşkilatın elə fəaliyyətinin həyata keçirilməsində formalaşır ki, onun nəticəsində təşkilatın xüsusi kapitalının, borc vəsaitlərinin (səhmlər, istiqraz vərəqləri buraxılmasından, digər təşkilatlara borclar verilməsindən daxilolmalar, borc vəsaitlərinin ödənilməsi və s.) həcmi və tərkibi dəyişilir.

Hərəkət istiqaməti üzrə iki: daxil olan və istifadə olunan pul axını fərqləndirilir. Birinci müəyyən vaxt dövründə təşkilata daxil olan pul vəsaitinin cəmilə, ikinci – həmin vaxt dövründə təşkilatın istifadə etdiyi (ödədiyi) pul vəsaitinin cəmilə səciyyələnir.

Pul axını *iki formada*: nağdsız və nağd formalarda həyata keçirilə bilər. Nağdsız pul axınının xüsusiyyəti təşkilatda onun yalnız mühasibat hesablarında yazılar şəklində formalaşmasından ibarətdir. Nağd pul axını təşkilat tərəfindən pul əksinazları (kupyurları) və sikkələri (maneti) alınması və yaxud ödənilməsilə səciyyələnir.

Tədavül dairəsindən asılı olaraq təşkilatın xarici və ya daxili pul axınları ola bilər.

Xarici pul axını hüquqi və fiziki şəxslərdən pul vəsaitlərinin daxil olması, həmçinin hüquqi və fiziki şəxslərə pul vəsaitləri ödənilməsi ilə səciyyələnir. O, təşkilatın pul vəsaitlərinin qalığının artmasına yaxud azalmasına səbəb olur.

Daxili pul axını təşkilatın sərəncamında olan pul vəsaitlərinin yerləşdiyi yerin və formasının dəyişilməsini əks etdirir. O, daxili dövriyyədən ibarət olduğu üçün, pul vəsaitlərinin qalığına təsir etmir.

Müddətinə görə pul axını qısamüddətli və uzunmüddətli olur. Pul vəsaitinin digər obyektlərə bir ilə qədər müddətə qoyulmaları qısamüddətli pul axınını təşkil edir. Əgər bu müddət bir ildən artıq olarsa, pul axını uzunmüddətli kimi səciyyələnir.[1]

Pul vəsaitinin daxili olmaları və xərclənməsi həcmindən asılı olaraq təşkilatın pul axını bol (həddindən artıq), optimal və ya defisit ola bilər.

Bol (həddindən artıq, izafi) pul axını pul vəsaitinin daxilolmasının təşkilatın cari ehtiyaclarından artıq olması ilə səciyyələnir. Təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsi prosesində istifadə olunmamiş pul vəsaitinin xalis qalığının yüksək məbləğdə olması bunu sübut edir.

Daxil olan pul vəsaitləri təşkilatın cari ehtiyaclarının ödənilməsi üçün kifayət qədər olmadığı halda defisit pul axını formalaşır. Hətta pul vəsaitinin xalis qalığının yüksək məbləği təşkil etdiyi halda, əgər həmin məbləğ təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin nəzərdə tutulmuş bütün istiqamətləri üzrə planlaşdırılmış tələbatını təmin etmirsə, o, defisit kimi səciyyələnə bilər. Pul vəsaitinin xalis qalığının məbləğinin mənfi qiyməti isə həmin axını avtomatik sürətdə defisit axın edir.

Optimal pul axını təşkilata özünün yalnız pul formasında hesablaşmalar tələb edən öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirmək və bu zaman ümumiyyətlə pul vəsaitinin və aktivlərin maksimum mümkün olan rentabelliyini saxlamaq imkanı verən optimal pul vəsaiti qalığının formalaşmasına kömək edən pul vəsaiti daxilolmalarının və onlardan istifadə edilməsinin tarazlaşdırılması ilə səciyyələnir.

Valyuta növü üzrə təşkilatın pul vəsaitinin hərəkəti milli və xarici ölkə valyutasında pul axını kimi səciyyələnir. Birinci halda hesab vahidi kimi təşkilatın yerləşdiyi ölkənin pul vahidi, ikinci halda digər dövlətin pul vahidi çıxış edir.

Proqnozlaşdırma (qabaqcadan müəyyən edilmə) üzrə pul axınının iki növünü qeyd etmək olar: planlaşdırılan və planlaşdırılmayan. Birinci halda pul vəsaitlərinin hansı məbləğdə və nə vaxt təşkilata daxil olacağını və ya istifadə ediləcəyini proqnozlaşdırmaq olur, ikinci halda isə təşkilatda pul vəsaitlərinin hərəkəti plansız baş verir.

Formalaşmanın fasiləsizliyindən asılı olaraq təşkilatda pul axını müntəzəm və diskret (fasiləli) ola bilər. Birinci nəzərdən keçirilən dövrdə pul vəsaitinin müəyyən intervalla daimi daxil olması və istifadə edilməsi ilə, ikinci – nəzərdən keçirilən dövrdə pul vəsaitlərinin təsadüfi maliyyə-təsərrüfat əməliyyatları ilə əlaqədar hərəkətilə səciyyələnir.

Formalaşmanın vaxt intervallarının sabitliyinə görə pul axınlarını aşağıdakı kimi fərqləndirirlər. Əgər pul vəsaitlərinin daxil olması və ya istifadə edilməsi bərabər vaxt aralarında həyata keçirilirsə, onda pul axını bərabər vaxt intervalları olan müntəzəm axın kimi səciyyələnir. Dünya təcrübəsində o, annuitel (fransızca – illik ödəmə) anlayışına uyğundur. Əgər pul vəsaitinin daxil olması və xərclənməsinin intervalları qeyri-bərabər dəyişilirsə, onda pul axını qeyri-bərabər vaxt intervalları ilə müntəzəm axın hesab edilir.

[1] Pul axınlarının müddət üzrə bölünməsi üçün meyar kimi bir ilə bərabər müddət qəbul edilməsi şərtidir. Təcrübədə hər təşkilat öz pul vəsaitlərinin dövr etməsini nəzərə alaraq digər müddət müəyyən edə bilər.

Vaxta görə qiymətləndirmədən asılı olaraq cari və gələcək pul axınını fərqləndirmək lazımdır. Birinci pul vəsaitinin həcminin cari vaxt anına uyğunlaşdırılmış hərəkəti kimi, ikinci isə – pul vəsaitinin həcminin qarşıda duran konkret vaxt anına uyğunlaşdırılmış hərəkəti kimi səciyyələndirilir.

Pul axınının təhlilinin informasiya bazası

Xarici istifadəçilər və daxili ekspress-təhlil üçün təşkilatın pul axınının təhlili məqsədilə istifadə olunan əsas informasiya mənbələri mühasibat hesabatının aşağıdakı formalarıdır: «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı forma və 1 saylı forma «Mühasibat (Müəssisə) balansı» və d.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda təşkilatın pul vəsaitinin ilk, son və xalis qalıqı barədə, habelə cari, investisiya və maliyyə fəaliyyətindən alınan xalis pul vəsaiti barədə informasiya ehtiva edilir. Fəaliyyət növləri üzrə hesabat dövrü ərzində təşkilata nə qədər və hansı mənbələrdən pul vəsaitinin daxil alması və nə qədər və haraya yönəldilməsi barədə məlumatlar fərqləndirilir.

Pul vəsaitinin hərəkəti haqqında hesabat əsasında tərtib edilmiş 12.7 cədvəlində təşkilatın pul vəsaitinin hərəkəti haqqında məlumatlar təqdim edilir.

Cədvəl 12.7

Pul vəsaitinin hərəkəti haqqında hesabatdan çıxarış, min manat

Göstəricilərin adı	Hesabat ilində	Əvvəlki ilin analoq dövründə
1	2	3
1. Dövrün əvvəlinə pul vəsaitinin qalığı	9961	27549
2. Cari fəaliyyət üzrə pul vəsaitinin hərəkəti		
2.1. Pul vəsaitinin daxil olması – cəmi	134373	97515
O cümlədən: məhsulların, malların, işlərin, xidmətlərin satışından	125000	95000
alıcılardan, sifarişçilərdən alınmış avanslar	8506	2000
digər gəlirlər	867	515
2.2. Pul vəsaitləri yönəldilmişdir – cəmi	(117550)	(114118)
O cümlədən: alınmış malların, işlərin, xidmətlərin, xammalın	(58470)	(56500)
əməyin ödənilməsinə	(27950)	(25900)
vergilər və rüsumlar üzrə hesablaşmalara	(16900)	(18400)
onlardan: mənfəət vergisi üzrə hesablaşmaya	(602)	(736)
büdcədənkənar fondlarla hesablaşmalara	(11240)	(10450)
avanslar verilməsinə	(-)	(200)
digər xərclərə	(2990)	(2668)
2.3. Cari fəaliyyətdən alınan xalis pul vəsaitləri (b.2.1+b.2.2)	16823	(16603)
3. İnvestisiya fəaliyyəti üzrə pul vəsaitinin hərəkəti		
3.1. Pul vəsaiti daxil olmuşdur	145	129
O cümlədən: əsas vəsaitlər obyektlərinin və digər dövriyyədənkənar aktivlərin satışından alınan mədaxil	130	115
alınmış dividentlər	15	14
3.2. Pul vəsaiti yönəldilmişdir – cəmi	(3391)	(1114)

Cədvəl 12.7-in davamı

1	2	3
O cümlədən: əsas vəsaitlər obyektlərinin, maddi sərvətlərə gəlirli qoyuluşların və qeyri-material aktivlərin alınmasına	(3385)	(1114)
qiymətli kağızların və digər maliyyə qoyuluşlarının alınmasına	(6)	(-)
3.3. İnvestisiya fəaliyyətindən alınan xalis pul vəsaiti (b.3.1+b.3.2)	(3246)	(985)
4. Maliyyə fəaliyyəti üzrə pul vəsaitinin hərəkəti		
4.1. Pul vəsaitləri daxil olmuşdur – cəmi	-	-
4.2. Pul vəsaitləri yönəldilmişdir – cəmi	-	-
4.3. Maliyyə fəaliyyətindən alınan xalis pul vəsaitləri (b.4..1+b.4.2)	-	-
5. Pul vəsaitinin və onların ekvivalentlərinin xalis artması (azalması) (b.2.3+b.3.3+b.4.3)	13577	(17588)
6. Dövrün sonuna pul vəsaitinin qalığı (b.1+b.5)	23538	9961

Azərbaycan Maliyyə nazirliyi tərəfindən tövsiyə edilmiş «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat» adlı 2 saylı formanın məzmunu təşkilatın pul axınının təhlili nöqteyi-nəzərindən analitik tələbata tam cavab vermir. Ona malların, məhsulun (iş və xidmətlərin) satışından əldə edilən mədaxilin (netto) tərkib hissələri (əlavə dəyər vergisi, aksizlər və analoji məcburi ödənişlər çıxılmaqla) barədə, yəni öhdəliklər (ödəmələrin nağdsız vəsaitlərlə icra edilməsini nəzərdə tutan müqavilənin yerinə yetirilməsi nəticəsində alınmış mədaxil barədə, təşkilatın gəlirləri hissəsində debitor borcunun artması (azalması)) barədə məlumatlar daxil edilməmişdir.

Təcrübədə mühasibat hesabatının 2 saylı formasının məzmunu 12.8 cədvəlində verilmiş arayışla tamamlana bilər.

Cədvəl 12.8

Malların, məhsulların, (iş və xidmətlərin) satışından alınan mədaxilin (netto) açıqlanması, min manat

Göstəricilərin adı	Hesabat dövründə	Əvvəlki ilin analoji dövründə
Öhdəliklərin (ödəmələrin) nağdsız vəsaitlərlə icra edilməsini nəzərdə tutan müqavilələrin yerinə yetirilməsi nəticəsində alınmış mədaxil (netto)	15024*	14249**
Gəlirlər hissəsində debitor borcunun artması (+), azalması (-)	-30124	-249

* 15024=109900-(125000-30124),

** 14249=109000-(95000-249), burada 109900 və 109000 - 2saylı formada hesabat və əvvəlki dövrlərdə malların, məhsulların, işlərin, xidmətlərin satışından alınan mədaxildir.

Təşkilatın formalaşmış pul axınının detallaşdırılmış təhlili və proqnozlaşdırılması (operativ və proqnoz təhlili) mühasibat uçotunun, xüsusilə idarəetmənin və uçotdan kənar informasiyanın (normativ – plan informasiyanın, fond bazarının vəziyyəti, kontragentlərin maliyyə sabitliyi, iqtisadiyyatın inkişafı istiqamətləri və s.) cəlb olunmasını tələb edir.

Pul axınının təhlilinin metodiki təminatı

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda ehtiva edilən məlumatlar əsasında təşkilatın pul vəsaitlərinin daxil olması mənbələrinin və istifadə edilməsi istiqamətlərinin araşdırılması üçün aşağıdakı düsturlar tətbiq edilir:

$$M = \sum M_i; \qquad (12.22)$$

$$X = \sum X_j, \qquad (12.23)$$

burada M-araşdırılan dövrdə pul vəsaitlərinin məcmu mədaxilidir; M_i -pul vəsaitlərinin mədaxilinin maddəsidir (növüdür); X - araşdırılan dövrdə pul vəsaitlərinin xərclənməsi; X_j-pul vəsaitlərindən istifadə edilməsi maddəsidir (növüdür).

Pul vəsaitlərinin daxilolma (mədaxil) mənbələrinin və istifadə edilməsi istiqamətlərinin təhlili zamanı onların siyahısı müəyyən edilir, bütövlükdə və onun hər bir tərkib hissəsi üzrə daxil olmuş və istifadə edilmiş (yönəldilmiş) pul vəsaitlərinin həcminin dinamikası nəzərdən keçirilir. Dinamikanın qiymətləndirilməsi üçün mütləq fərq, inkişaf və artım templəri müəyyən edilir. Eyni zamanda hər mənbənin və istifadə istiqamətinin, onların ən əhəmiyyətlilərinin və pul axınına daha çox təsir edən amillərin aşkar edilməsi məqsədilə onların daxil olmuş və sərf edilmiş pul vəsaitlərinin ümumi həcmində xüsusi çəkisi hesablanır.

Nümunə üçün 12.7 cədvəlində ehtiva edilən məlumatlar əsasında təşkilatın pul vəsaitlərinin daxilolma mənbələrinin və istifadə istiqamətlərinin təhlili aparılmış və 12.9 cədvəlində təqdim edilmişdir.

Cədvəl 12.9

Təşkilatın pul vəsaitlərinin daxilolma mənbələrinin və istifadə istiqamətlərinin təhlili

Göstəricisinin adı	Əvvəlki dövrdə	Hesabat dövründə	Mütləq fərq (+, -)	İnkişaf tempi, %	Artım tempi, % (+, -)
1	2	3	4	5	6
Pul vəsaitləri daxil olmuşdur - cəmi, min man.	97644	134518	+36874	138	+38
O cümlədən: malların, məhsulun (iş və xidmətlərin) satışından alınan: - min man. - yekuna nisbətən %	95000 97,3	125000 92,9	-30000 -4,4	132 -	+32 -
alıcılardan və sifarişçilərdən alınmış avanslar: - min man. - yekuna nisbətən %	2000 2,1	8506 6,3	+3506 +4,2	425 -	+325 -
cari fəaliyyətdən alınan digər gəlirlər: - min man. - yekuna nisbətən %	515 0,5	867 0,7	+352 +0,2	110 -	+10 -
əsas fondların və digər dövriyyədən kənar aktivlərin satışından daxil olmalar: - min man. - yekuna nisbətən %	115 0,1	130 0,1	+15 -	113 -	+13 -

Cədvəl 12.9-un davamı

1	2	3	4	5	6
alınmış dividentlər: - min man. - yekuna nisbətən %	14 -	15 -	+1 -	107	+7
Pul vəsaitləri sərf edilmişdir – cəmi, min man.	1152321	120941	+5709	105	+5
O cümlədən: malların, işlərin, xidmətlərin ödənilməsinə: - min man. - yekuna nisbətən %	56500 49,0	58470 48,3	+1970 -0,7	103	+3
əməyin ödənilməsinə: - min man. - yekuna nisbətən	25900 22,5	27950 23,1	+2050 +0,6	108 -	+8 -
avans verilməsinə: - min man. - yekuna nisbətən %	200 0,2	- -	-200 -0,2	- -	- -
mənfəət vergisi üzrə büdcə ilə hesablaşmalara: - min man. - yekuna nisbətən %	736 0,6	602 0,5	-134 -0,1	82 -	18 -
digər vergilər üzrə (mənfəət vergisindən başqa) büdcə ilə hesablaşmalara: - min man. - yekuna nisbətən %	17664 15,3	16298 13,5	-1366 1,8	92 -	-8 -
büdcədənkənar fondlar ilə hesablaşmalara: - min man. - yekuna nisbətən %	10450 9,1	11240 9,3	+790 +0,2	108 -	+8 -
cari fəaliyyət üzrə digər xərclər: - min man. - yekuna nisbətən %	2668 2,3	2990 2,5	+122 +0,2	104 -	+4 -
kapital qoyuluşuna: - min man. - yekuna nisbətən %	1114 1,0	3385 2,8	+2271 +1,8	304 -	+204 -
maliyyə qoyuluşuna: - min man. - yekuna nisbətən %	- -	6 -	+6 -	- -	- -

12.9 cədvəlində verilmiş hesablamalardan göründüyü kimi, təşkilatda əvvəlki dövrə nisbətən hesabat dövründə daxil olan pul vəsaiti 38% artmış və onlardan 5% artıq istifadə edilmişdir. Pul

vəsaitlərinin daxilolması əsasən mal, məhsul (iş və xidmət) satışından daxilolmalar, onlardan istifadə edilməsinin əsas istiqamətləri isə – malların, işlərin, xidmətlərin ödənilməsi və əməyin ödənilməsi xərcləri olmuşdur.

Təşkilatın pul vəsaitlərinin daxilolma mənbələri və onlardan istifadə istiqamətləri göstəricilərinə həmin vəsaitlərin son qalığını (Q_{son}) müəyyən edən amillər təsir göstərir:

$$Q_{son} = Q_{ilk} + \sum M_i - \sum X_j, \qquad (12.24)$$

burada Q_{ilk} - pul vəsaitlərinin ilk qalığıdır.

Bu düstur (12.24) araşdırılan göstərici və onu müəyyən edən amillər arasında additiv (latınca – additio – əlavə edilmə) qarşılıqlı əlaqəni əks etdirir. Odur ki, onlardan hər hansı birinin dəyişilməsi pul vəsaitlərinin son qalığının mütənasib dəyişilməsinə səbəb olur. Analitik nəticələri ifadə edərkən yalnız düz və ya tərs mütənasib istiqamətdə təsiri nəzərə almaq lazımdır.

Təşkilatın pul axınlarının həcminə birbaşa amillərlə yanaşı dolayı amillər də təsir edir. Birbaşa amillərin təsiri təşkilatın pul axınlarında bilavasitə özünü göstərir və pul vəsaitlərinin daxilolmalarının həcminin və onların ödənilməsinin həcminin mütənasib dəyişilməsinə səbəb olur. Dolayı amillər pul vəsaitlərinin mümkün daxilolmasının və ya onlardan istifadə edilməsinin ləngidilməsi (sürətləndirilməsi) yolu ilə pul axınlarına təsir edirlər. Onlar cari mənfəət vergisini müəyyən edən göstəricilərlə xarakterizə edilir. Dolayı amillərin daha bir səciyyəvi xüsusiyyəti vardır. Mənfəət vergisi vasitəsilə onlar büdcəyə köçürmələrin həcminə təsir edirlər. Bununla əlaqədar olaraq dolayı amillərin təsiri təşkilatın pul axınına, deməli pul vəsaitləri qalıqlarının (xalis və son) da qeyri-mütənasib dəyişilməsinə səbəb olur.

Müxtəlif dərəcəli birbaşa və dolayı amillərin birgə təsiri hesabına pul vəsaitlərinin son qalığının dəyişilməsinin araşdırılması üçün aşağıdakı düstur tətbiq edilir:

$$Q_{son} = Q_{ilk} + \sum M_i - \sum X_j + \sum Man_R \times VD - \sum Man_t \times VD, \qquad (12.25)$$

burada Man_R-xalis maliyyə nəticəsinin azalması maddəsidir (növüdür); Man_t -xalis maliyyə nəticəsinin artması maddəsidir (növüdür); VD - mənfəət vergisi dərəcəsidir, hissələrlə hesablanır.

(12.25) düsturu araşdırılan göstərici və onu müəyyən edən amillər arasında kombinasiya edilmiş qarşılıqlı əlaqəni əks etdirir. Birbaşa və dolayı amillərin təşkilatın pul vəsaitlərinin son nəticəsinin dəyişilməsinə təsirinin təhlili metodikası 12.10 cədvəlində təqdim edilmişdir.

Cədvəl 12.10

Birbaşa və dolayı amillərin təşkilatın pul vəsaitlərinin son nəticəsinin dəyişilməsinə təsirinin təhlili, min manat

Göstəricilər və amillər	Şərti işarələr	Hesablanmaların düsturları
1	2	3
Pul vəsaitlərinin son qalığının dəyişilməsi	ΔQ_{son}	$Q_{son\,1} - Q_{son\,0}$
1. Pul vəsaitlərinin ilk qalığının dəyişilməsi	$\Delta Q_{son}(\Delta Q_{ilk})$	$Q_{ilk\,1} - Q_{ilk\,0}$
2. Pul vəsaitlərinin xalis qalığının dəyişilməsi	$\Delta Q_{son}(\Delta Q_{xalis})$	$Q_{xalis\,1} - Q_{xalis\,0}$
2.1. Pul vəsaitlərinin daxil olmasının dəyişilməsi	$\Delta Q_{son}(\Delta D_{ax})$	$D_{ax\,1} - D_{ax\,0}$
2.1.1. Məhsulun, malların, işlərin və xidmətlərin satışından alınan mədaxilin dəyişilməsi	$\Delta Q_{son}(\Delta M_{sat})$	$M_{sat\,1} - M_{sat\,0}$
2.1.1.1. Məhsulun, malların, işlərin və xidmətlərin satışından alınan hesablanmış mədaxilin dəyişilməsi	$\Delta Q_{son}(\Delta M_{sat.h})$	$M_{sat.h\,1} - M_{sat.h\,0}$
2.1.1.2. Öhdəliklərin nağdsız vəsaitlərlə icrası nəticəsində alınmış mədaxilin dəyişilməsi	$\Delta Q_{son}(\Delta M_{pulsuz})$	$-(M_{pulsuz\,1} - M_{pulsuz\,0})$
2.1.1.3. Debitor borcunun gəlirlər hissəsində artımının (azalmasının) dəyişilməsi	$\Delta Q_{son}(\Delta D_{borc})$	$-(\Delta D_{borc\,1} - \Delta D_{borc\,0})$
2.1.2. Alıcılardan (sifarişçilərdən) alınmış avansların dəyişilməsi	$\Delta Q_{son}(\Delta A_a)$	$A_{a\,1} - A_{a\,0}$

Cədvəl 12.10-un davamı

1	2	3
2.1.3. Əsas vəsaitlərin və digər dövriyyədənkənar aktivlərin satışından alınan mədaxilin dəyişilməsi	ΔQ_{son} ($\Delta M_{dəy}$)	$M_{dəy\ 1} - M_{dəy\ 0}$
2.1.4. Alınmış dividentlərin dəyişilməsi	ΔQ_{son} (ΔD_{iv})	$D_{iv\ 1} - D_{iv\ 0}$
2.1.5. Cari fəaliyyətdən alınan digər gəlirlərin dəyişilməsi	ΔQ_{son} (ΔG_{dig})	$G_{dig\ 1} - G_{dig\ 0}$
2.2. Pul vəsaitlərinin xərclənməsinin dəyişilməsi	ΔQ_{son} (ΔX)	$-(X_1 - X_0)$
2.2.1.Malların, işlərin, xidmətlərin ödənilməsinin dəyişilməsi	ΔQ_{son} ($\Delta Ö_{mix}$)	$-(Ö_{mix\ 1} - Ö_{mix\ 0})$
2.2.2. İşçilərə ödəmələrin dəyişilməsi	ΔQ_{son} ($\Delta İ_{öd}$)	$-(İ_{öd\ 1} - İ_{öd\ 0})$
2.2.3. Mənfəət vergisi köçürülmələrinin dəyişilməsi	ΔQ_{son} (ΔM_{vk})	$-(M_{vk\ 1} - M_{vk\ 0})$
2.2.3.1. Hesablanmış mənfəət vergisinin dəyişilməsi	ΔQ_{son} (ΔM_{vh})	$-(M_{vh\ 1} - M_{vh\ 0})$
2.2.3.1.1. Mənfəətin (zərərin) vergi hesablanana qədər dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔV_t)]	$-(V_{t1} - V_{t0}) \times VD_0$
2.2.3.1.1.1. Satışdan alınan mənfəətin (zərərin) dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔM_s)]	$-(M_{s1} - M_{s0}) \times VD_0$
2.2.3.1.1.1.1. Ümumi mənfəətin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} ($\Delta M_{üm}$)]	$-(M_{üm1} - M_{üm0}) \times VD_0$
2.2.3.1.1.1.1.1. Məhsulun, malların, işlərin və xidmətlərin satışından alınan hesablanmış gəlirin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔG_{sh})]	$-(G_{sh1} - G_{sh0}) \times VD_0$
2.2.3.1.1.1.1.2. Satılmış məhsulun, malların, işlərin və xidmətlərin maya dəyərinin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔD_m)]	$(D_{m1} - D_{m0}) \times VD_0$
2.2.3.1.1.2. Kommersiya xərclərinin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔK_x)]	$(K_{x1} - K_{x0}) \times VD_0$
2.2.3.1.1.3. İdarəetmə xərclərinin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} ($\Delta İ_x$)]	$(İ_{x1} - İ_{x0}) \times VD_0$
2.2.3.1.2. Alınmalı faizlərin dəyişilməsi	ΔQ_{son} [ΔF_a)]	$-(F_{a1} - F_{a0}) \times VD_0$
2.2.3.1.3. Digər təşkilatlarda iştirak etməkdən alınan gəlirlərin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔG_{dt})]	$-(G_{dt1} - G_{dt0}) \times VD_0$
2.2.3.1.4. Digər əməliyyat gəlirlərinin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} ($\Delta Ə_g$)]	$-(Ə_{g1} - Ə_{g0}) \times VD_0$
2.2.3.1.5. Satışdan kənar gəlirlərin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔG_{sk})]	$-(G_{sk1} - G_{sk0}) \times VD_0$
2.2.3.1.6. Ödənilməli faizlərin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} ($\Delta F_{öd}$)]	$(F_{öd1} - F_{öd0}) \times VD_0$

Cədvəl 12.10-un davamı

1	2	3
2.2.3.1.1.7. Digər əməliyyat xərclərinin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} ($\Delta Ə_x$)]	$(Ə_{x1} - Ə_{x0}) \times VD_0$
2.2.3.1.1.8 Satışdan kənar xərclərin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔX_{sk})]	$(X_{sk1} - X_{sk0}) \times VD_0$
2.2.3.1.2. Mənfəət vergisi dərəcəsinin dəyişilməsi	ΔQ_{son} [ΔM_{vh} (ΔVD)]	$-V_{t1}$ ($VD_1 - VD_0$)
2.2.3.1.3. Daimi vergi aktivlərinin dəyişilməsi	ΔQ_{son} (ΔDVA)	$DVA_1 - DVA_0$
2.2.3.1.4. Daimi vergi öhdəliklərinin dəyişilməsi	ΔQ_{son} ($\Delta DVÖ$)	$-(DVÖ_1 - DVÖ_0)$
2.2.3.2. Mənfəət vergisi üzrə kreditor dəyişilməsi	ΔQ_{son} (ΔKB_V)	$KB_{V1} - KB_{V0}$
2.2.4. Digər vergilər (mənfəət vergisindən başqa) üzrə köçürmələrin dəyişilməsi	ΔQ_{son} (ΔX_{DVK})	$-(X_{DVK1} - X_{DVK0})$
2.2.5. Büdcədənkənar fondlara köçürülmələrin dəyişilməsi	ΔQ_{son} (ΔX_{BKfk})	$-(X_{BKfk1} - X_{BKfk0})$
2.2.6. Cari fəaliyyət üzrə digər xərclərin dəyişilməsi	ΔQ_{son} (ΔX_d)	$-(X_{d1} - X_{d0})$
2.2.7. Kapital qoyuluşuna köçürmələrin dəyişilməsi	ΔQ_{son} (ΔK_q)	$-(K_{q1} - K_{q0})$
2.2.8. Qiymətli kağızların alınması üçün köçürülmələrin dəyişilməsi	ΔQ_{son} (ΔQK)	$-(QK_1 - QK_0)$

Qeydlər 1. Burada və mətn üzrə sonralar «0» indeksi baza qiymətinə, yəni göstəricisinin əvvəlki dövrdə (dinamikanın və planın gərginliyinin tədqiqatı zamanı) yaxud plan üzrə (planın yerinə yetirilməsi təhlil ediləndə) qiymətinə, «1» indeksi isə – faktiki qiymətə, yəni göstəricisinin hesabat dövründə (dinamikanın və planın yerinə yetirilməsinin tədqiqatı zamanı) və ya plan üzrə (planın gərginliyinin tədqiqatı zamanı) qiymətinə uyğundur. 2.1-ci sətirdəki amillərin rəqəmlərlə sıra sayı onların araşdırılan göstəriciyə münasibətdə ardıcıllığını əks etdirir.

Bazar iqtisadiyyatı şəraitində istənilən kommersiya təşkilatının əsas məqsədi mənfəət əldə etməkdən ibarətdir. O, təşkilatın öz xərclərini ödəmək və sonrakı fəaliyyət üçün, yəni sadə və geniş təkrar istehsal üçün vəsaitlər qazanmaq qabiliyyətinə malik olmasını göstərir. Lakin mənfəət hesablama qaydasında müəyyən edilən göstəricidir, buna görə də onu bəzən hətta kağız göstəricisi

adlandırırlar. Təşkilat üçün bu göstəricinin müəyyən həddə yüksəlməsi yalnız o halda səmərəli olacaqdır ki, bu yüksəliş pul vəsaitlərinin real icra səviyyəsi üzə hesablanan (müəyyən edilən) məbləğinin mövcud olması ilə təsdiqlənsin.

Nəzərdən keçirilən göstəricilərin müxtəlif hesablanma metodları məhz göstəricilər arasında fərqlənmələrin formalaşmasına səbəb olur. Pul vəsaitlərinin xalis qalığının xalis maliyyə nəticəsindən fərqlənməsinin bir səbəbi də onunla izah edilir ki, mühasibat uçotuna qəbul edilən məbləğlərin heç də hamısı həmin göstəricilərin hesablanmasında eyni zamanda və tam həcmdə iştirak etmir. Məsələn, tam məbləğdə alınmış avanslar alındığı dövrdə pul vəsaitlərinin daxil olmasını müəyyən edir, lakin maliyyə nəticəsinin hesablanmasında yalnız o zaman iştirak edəcəklər ki, müvafiq məbləğdə mədaxil kimi qəbul edilsinlər (tanınsınlar). Nəzərdən keçirilən göstəricilərin formalaşdırılması şərtlərinin eyni olmaması da onların bir-birindən fərqlənməsinə şərait yaradır. Təcrübədə elə vəziyyət yarana bilər ki, müəyyən edilmiş mənfəət təşkilata normal inkişaf etmək imkanı yaratmır, çünki onun real pul vəsaitləri yoxdur və əksinə.

Təşkilatın gələcək inkişaf üçün real imkanları olmasını müəyyən etmək üçün alınan maliyyə nəticəsinin real pul vəsaitlərilə təsdiqlənməsini yoxlamaq lazımdır. Nəzərdən keçirilən göstəricilər arasında fərqlərin formalaşması prosesinin idarə edilməsi üçün onların yaranma səbəbləri daim təhlil edilməlidir.

Aşağıda verilən düstur təşkilatın eyni vaxt dövründə olduğu pul vəsaitlərinin xalis qalığı (Q_x) və xalis maliyyə nəticəsi (M_{an}) arasında qarşılıqlı əlaqəni əks etdirir, həmçinin həmin göstəricilərin bir-birindən fərqlənməsinə hansı amillərin və onların təsirinin kəmiyyətcə müəyyən edilməsinə imkan yaradır.

$$Q_x = M_{an} + \sum M_{anR} - \sum M_{anI} + \sum M_i - \sum X_j \qquad (12.26)$$

Nəzərdən keçirilən göstəricilərin bir-birindən fərqlənməsi dinamikasının hesablanmalarının alqoritmi 12.11 cədvəlində təqdim edilmişdir.

Cədvəl 12.11.

Pul vəsaitlərinin xalis qalığının xalis maliyyə nəticəsindən fərqlənməsi dinamikasının hesablanmalarının alqoritmi

Göstəricilər və amillər	Sətrin sıra sayı	Şərti işarəsi	Əvvəlki dövr	Hesabat dövrü	Fərq	
					Min man.	Şəkildə %
1	2	3	4	5	6	7
Xalis maliyyə nəticəsi Plyus	1	M_{an}	$M_{an\,0}$	$M_{an\,1}$	$M_{an\,1} - M_{an\,0}$	$(M_{an\,1} : M_{an\,0} - 1) \times 100$
Hesablanmış mənfəət vergisi Plyus	2	M_{vh}	$M_{vh\,0}$	$M_{vh\,1}$	$M_{vh\,1} - M_{vh\,0}$	$(M_{vh\,1} : M_{vh\,0} - 1) \times 100$
Büdcəyə və büdcədən kənar fondlara hesablanmış cərimələr, peniyalar Minus	3	CP	CP_0	CP_1	$CP_1 - CP_0$	$(CP_1 : CP_0 - 1) \times 100$
Alınmalı faizlər Minus	4	Fa	Fa_0	Fa_1	$Fa_1 - Fa_0$	$(Fa_1 : Fa_0 - 1) \times 100$
Digər əməliyyat gəlirləri Minus	5	∂G	∂G_0	∂G_1	$\partial G_1 - \partial G_0$	$(\partial G_1 : \partial G_0 - 1) \times 100$
Satışdan kənar gəlirlər Plyus	6	G_{sk}	$G_{sk\,0}$	$G_{sk\,1}$	$G_{sk\,1} - G_{sk\,0}$	$(G_{sk\,1} : G_{sk\,0} - 1) \times 100$
Ödənilməli faizlər Plyus	7	$F_{öd}$	$F_{öd\,0}$	$F_{öd\,1}$	$F_{öd\,1} - F_{öd\,0}$	$(F_{öd\,1} : F_{öd\,0} - 1) \times 100$
Digər əməliyyat xərcləri Plyus	8	∂X	∂X_0	∂X_1	$\partial X_1 - \partial X_0$	$(\partial X_1 : \partial X_0 - 1) \times 100$

Cədvəl 12.11.-in davamı

1	2	3	4	5	6	7
Satışdan kənar xərclər	9	X_{sk}	$X_{sk\ 0}$	$X_{sk\ 1}$	$X_{sk\ 1} - X_{sk\ 0}$	$(X_{sk\ 1} : X_{sk\ 0} - 1) \times 100$
Kommersiya xərcləri Plyus	10	KX	KX_0	KX_1	$KX_1 - KX_0$	$(KX_1 : KX_0 - 1) \times 100$
İdarəetmə xərcləri Plyus	11	İX	$İX_0$	$İX_1$	$İX_1 - İX_0$	$(İX_1 : İX_0 - 1) \times 100$
Satılmış malların, məhsulların, işlərin, xidmətlərin maya dəyəri Plyus	12	MD	MD_0	MD_1	$MD_1 - MD_0$	$(MD_1 : MD_0 - 1) \times 100$
Material xərcləri Plyus	12.1	MX	MX_0	MX_1	$MX_1 - MX_0$	$(MX_1 : MX_0 - 1) \times 100$
Əməyin ödənilməsinə çəkilən xərclər Plyus	12.2	ƏHX	$ƏHX_0$	$ƏHX_1$	$ƏHX_1 - ƏHX_0$	$(ƏHX_1 : ƏHX_0 - 1) \times 100$
Amortizasiya ayrılmaları Plyus	12.3	AA	AA_0	AA_1	$AA_1 - AA_0$	$(AA_1 : AA_0 - 1) \times 100$
Digər xərclər Minus	12.4	DX	DX_0	DX_1	$DX_1 - DX_0$	$(DX_1 : DX_0 - 1) \times 100$
Öhdəliklərin nağdsız vəsaitlərlə icrası nəticəsində alınmış mədaxil Minus	13	M_{pulsuz}	$M_{pulsuz\ 0}$	$M_{pulsuz\ 1}$	$M_{pulsuz\ 1} - M_{pulsuz\ 0}$	$(M_{pulsuz\ 1} : M_{pulsuz\ 0} - 1) \times 100$
Debitor borcunun gəlirlər hissəsində artımı (azalması) Plyus	14	D_{borc}	$D_{borc\ 0}$	$D_{borc\ 1}$	$D_{borc\ 1} - D_{borc\ 0}$	$(D_{borc1} : D_{borc0} - 1) \times 100$

Cədvəl 12.11.-in davam

1	2	3	4	5	6	7
Obyektlərin satışından alınan mədaxil əsas vəsaitlərin və digər dövriyyədən kənar aktivlərin göstəriciləri və amilləri Plyus	15	Ms	Ms_0	Ms_1	$Ms_1 - Ms_0$	$(M_{s1} : Ms_0 - 1) \times 100$
Alınmış kreditlər və borclar Plyus	16	K_a	Ka_0	Ka_1	$Ka_1 - Ka_0$	$(Ka_1 : Ka_0 - 1) \times 100$
Digər daxilolmalar Minus	17	Dd	Dd_0	Dd_1	$Dd_1 - Dd_0$	$(Dd_1 : Dd_0 - 1) \times 100$
Malların, işlərin və xidmətlərin ödənilməsi Minus	18	Ömix	$Ömix_0$	$Ömix_1$	$Ömix_1 - Ömix_0$	$(Ömix_1 : Ömix_0 - 1) \times 100$
İşçilərə ödəmələr Minus	19	İöd	$İöd_0$	$İöd_1$	$İöd_1 - İöd_0$	$(İöd_1 : İöd_0 - 1) \times 100$
Büdcəyə köçürmələr Minus	20	Bk	Bk_0	Bk_1	$Bk_1 - Bk_0$	$(Bk_1 : Bk_0 - 1) \times 100$
Mənfəət vergisinin köçürməsi Minus	20.1	M_{vk}	$M_{vk\ 0}$	$M_{vk\ 1}$	$M_{vk\ 1} - M_{vk\ 0}$	$(M_{vk\ 1} : M_{vk\ 0} - 1) \times 100$
Digər vergilərin və başqa analoji məcburi ödəmələrin köçürülmələri Minus	20.2	D_{vk}	$D_{vk\ 0}$	$D_{vk\ 1}$	$D_{vk\ 1} - D_{vk\ 0}$	$(D_{vk\ 1} : D_{vk\ 0} - 1) \times 100$
Digər ödəmələr, köçürülmələr Bərabərdir	21	$D_{ök}$	$D_{ök\ 0}$	$D_{ök\ 1}$	$D_{ök\ 1} - D_{ök\ 0}$	$(D_{ök\ 1} : D_{ök\ 0} - 1) \times 100$
Pul vəsaitlərinin xalis qalığı	22	Q_{xalis}	$Q_{xalis\ 0}$	$Q_{xalis\ 1}$	$Q_{xalis\ 1} - Q_{xalis\ 0}$	$(Q_{xalis\ 1} : Q_{xalis\ 0} - 1) \times 100$

Pul vəsaiti daxilolmalarının və ödəmələrin tarazlığı təşkilatda onların optimal qalığının saxlanmasına imkan yaradır. Təşkilatın pul axınının tarazlığına pul vəsaitlərinin daxilolmasının kifayətliyinin səviyyəsi göstəricisinin (K_{kif}) vasitəsilə qiymət vermək olar. O, aşağıdakı düsturla hesablanır:

$$K_{kif} = \frac{D}{X} \times 100 \qquad (12.27)$$

Burada D -araşdırılan dövr ərzində daxil olmuş pul vəsaitləridir, X-araşdırılan dövr ərzində xərclənmiş pul vəsaitləridir.

Ən münasib o variantdır ki, müəyyən vaxt anına lazım olan ödəmələrin həyata keçirilməsi üçün tələb edilən qədər pul vəsaitləri daxil olur. Bununla əlaqədar həmişə göstəricinin optimal qiyməti 100% təşkil edir.

Əgər araşdırılan göstəricinin qiyməti 100%-dən artıq olarsa, o, pul vəsaitləri üzrə daxilolmaların onların ödənilməsindən çox olmasını və deməli, xüsusilə həmin üstünlük uzun zaman ərzində olduğu halda, təşkilatın aktivlərinin həmin növündən səmərəsiz istifadə edilməsinin mümkünlüyünü göstərir.

Əgər pul vəsaitlərinin kifayətliyinin səviyyəsi 100%-dən az olarsa, bu da araşdırılan dövrdə təşkilatın pul axınının tarazlığının olmamasını göstərir. Lakin belə vəziyyəti bir mənalı qeyri-qənaətbəxş qiymətləndirmək olmaz. Pul vəsaitləri kifayət qədər daxil olmadıqda ödəmələr əvvəllər toplanmış qalığın (pul vəsaitlərinin ilk qalığının) hesabına həyata keçirilir. Bu qısa dövr müddətində mənfi nəticələr verməyə bilər. Əgər pul vəsaitlərinin ödənilməsi daxilolmalardan artıq təşkil edərsə və onların çatışmazlığına səbəb olarsa, onda pul axını tarazlığının pozulması gələcəkdə təşkilatın fəaliyyətinin nəticələrində özünü göstərəcəkdir.

Beləliklə, əgər pul vəsaitləri üzrə ödəmələr onların daxilolmasından artıq olarsa, lakin bu qısamüddətli xarakter daşıyırsa və pul vəsaitlərinin toplanmış (yığılmış) qalığı müəyyən məbləğdə qalırsa, onda təşkilatın pul axınlarını müsbət qiymətləndirmək olar. Qısamüddətli dövrdə pul vəsaitlərinin hərəkətinin tarazlığı, yəni onların daxilolması və ödənilməsinin bərabərliyi həmin vəsait qalığının optimallaşdırılmasının kafi şərtidir, lakin zəruri şərti deyil.

Pul vəsaitlərinin daxilolması, istifadə edilməsi və qalığının mütləq həcminə əsasən təşkilatın araşdırılan dövrdə həmin vəsaitlərdən səmərəli istifadə etməsi barədə fikir söyləmək mümkün deyil. Belə qiymətləndirmə üçün təşkilatın pul axınını və onların hərəkətinin nəticəsini alınmış maliyyə nəticəsilə müqayisə etmək, yəni pul vəsaitlərinin rentabelliyini müəyyən etmək lazımdır.

Təşkilatın pul axınının hesablamaya qəbul edilən göstəricilərindən asılı olaraq həmin göstəricilərin üç qrupunu qeyd etmək olar:

- pul vəsaitləri qalığının rentabelliyi;
- xərclənmiş pul vəsaitlərinin rentabelliyi;
- daxil olmuş pul vəsaitlərinin rentabelliyi.

Hər qrup üzrə göstəricilər araşdırılan dövr ərzində orta hesabla müvafiq olaraq təşkilatın xərclədiyi və ya aldığı pul vəsaitlərinin bir manatına düşən mənfəəti səciyyələndirir. Təşkilatın pul vəsaitlərinin rentabelliyinin bu və ya digər göstəricisinin, yaxud həmin göstəricilər məcmusunun üstünlüyü təhlilin məqsədilə müəyyən edilir.

Pul vəsaitləri qalığının rentabelliyinin hesablanması üçün istifadə edilən düstur aşağıdakı kimidir:

$$R_q = \frac{Mn}{Q_{orta}} \times 100, \qquad (12.28)$$

Burada R_q - pul vəsaitləri qalığının rentabelliyidir; Mn - müəssisənin fəaliyyətinin maliyyə nəticəsidir[1]; Q_{orta} -pul vəsaitlərinin orta hesabla qalığıdır.

Lakin pul vəsaitləri qalığının rentabelliyi göstəricisinin pul vəsaitinin orta qalığının azalması hesabına yüksəlməsini müəssisənin fəaliyyətinin müsbət cəhəti kimi birmənalı qəbul etmək lazım deyil.

[1] Təhlilin məqsədindən asılı olaraq kəsrin surətində müəssisənin fəaliyyətinin maliyyə nəticəsinin istənilən göstəricisi: hesabat dövrünün xalis mənfəəti (zərəri), ümumi mənfəət, vergi hesablanana qədər mənfəət (zərər) və b.k. göstəricilər əks etdirilə bilər. Bununla əlaqədar pul vəsaitləri qalığının, habelə onların daxil olmasının və istifadəsinin rentabelliyi bir neçə göstəricilərlə: xalis rentabelliklə, ümumi rentabelliklə və s. əks etdirilə bilər.

Təşkilatın pul vəsaitlərinin rentabelliyinin belə yolla yüksəldilməsi onun mütləq ödəmə qabiliyyətinə mənfi təsir göstərə bilər.

Pul vəsaitləri qalığının rentabelliyi göstəriciləri əsasında pul vəsaitlərindən istifadənin səmərəliliyini qiymətləndirilməsi zamanı eyni zamanda təşkilatın aktivlərinin strukturunu nəzərə almaq lazımdır. Pul vəsaitlərindən istifadəni o halda səmərəli hesab etmək olar ki, təşkilatın aktivlərinin pul formasında hissəsi onlara olan cari tələbata uyğun gəlir.

Xərclənmiş və daxil olmuş pul vəsaitlərinin rentabelliyinin hesablanması düsturları aşağıdakı kimidir:

$$R_X = \frac{M_n}{X} \times 100 \qquad (12.29)$$

$$R_d = \frac{M_n}{D}, \qquad (12.30)$$

Burada *Rx* - xərclənmiş pul vəsaitlərinin rentabelliyidir; *Rd* - daxil olmuş pul vəsaitlərinin rentabelliyidir.

Xərclənmiş və daxil olmuş pul vəsaitlərinin rentabelliyini qiymətləndirərkən əsaslandırılmış nəticə çıxarmaq üçün müvafiq göstəricilərin formalaşması xüsusiyyətini nəzərə almaq lazımdır. Bu xüsusiyyət ondan ibarətdir ki, araşdırılan dövrdə pul vəsaitlərinin xərclənməsinin və ya onlardan istifadənin heç də hamısı həmin dövrün maliyyə nəticəsilə əlaqədar deyil. Sonuncu mühasibat uçotunda hesablama metodu ilə, pul vəsaitlərinin daxil olması və xərclənməsi isə – kassa metodu ilə, yəni real icra prinsipilə əks etdirilir. Hesablama və real icra arasında vaxt aralığı olduqda təsərrüfat əməliyyatının həyata keçirilməsindən alınan maliyyə nəticəsi hesabatda bir dövrdə əks etdirilə bilər, həmin tədbirlər üzrə müvafiq maliyyə nəticəsilə də əlaqədar pul vəsaitlərinin hərəkəti isə hesabatda digər vaxt dövrü üzrə əks etdirilə bilər.

Bununla əlaqədar olaraq, xərclənmiş pul vəsaitlərinin rentabelliyinin aşağı düşməsini (əgər o, gələcəkdə mənfəət alınmasını təmin edəcək ödəmələrin artması ilə əlaqədardırsa) təşkilatın cari fəaliyyətində mənfi cəhət kimi nəzərdən keçirmək olmaz. Əgər daxil olmuş pul vəsaitlərinin rentabelliyinin azalması da həyata keçirilmiş təsərrüfat əməliyyatından pul vəsaitlərinin daxil olmasının artması ilə əlaqədardırsa və onun maliyyə nəticəsi əvvəlki hesabat dövrlərində formalaşmışdırsa mənfi cəhət deyil.

12.9. Maliyyə sabitliyinin səviyyəsinə təsir edən amillərin təhlili

12.9.1. Maliyyə sabitliyinin bölüşdürülməmiş mənfəətdən asılılığının təhlili

Bölüşdürülməmiş mənfəətin dinamikasının amillər üzrə təhlili

Maliyyə vəziyyətinin kompleks təhlili onun sabitliyi dərəcəsini səciyyələndirən göstəricilərin dinamikasının amillər üzrə tədqiqatını tələb edir. Həmin göstəricilərin səviyyəsi əhəmiyyətli dərəcədə xüsusi kapitalın mühüm elementi olan bölüşdürülməmiş mənfəətin (BM) həcmindən asılıdır. Beləliklə, maliyyə vəziyyətinin göstəricilərinin dinamikasının amillər üzrə təhlilini bölüşdürülməmiş mənfəət məbləğinin dinamikasının amillər üzrə təhlilinə uyğunlaşdırmaq lazımdır.

BM-in dinamikasının amillər üzrə təhlili modelinin qurulmasının ilkin şərti belə təsəvvürdən yaranır ki, onun Mühasibat balansı üzrə hesabat dövrünün sonuna bölüşdürülməmiş məbləği (BM_{son}) və hesabat dövrünün əvvəlinə məbləği (BM_{ilk}) arasında fərq kimi hesablanan dəyişilməsi (ΔBM) hesabat dövrünün BM-nin məbləğini (BM_{hd}) əks etdirən nəticədir:

$$\Delta BM = BM_{son} - BM_{ilk} = BM_{hd} \qquad (12.31)$$

Əgər hesabat dövründə keçmiş illərin mənfəətinin bölüşdürülməsi (istifadə edilməsi) $İM_{ki}$ və mühasibat uçotunun «Əlavə kapital» adlı 87-cü maddəsindən sıradan çıxmış əsas vəsaitlərin əlavə qiymətlənməsi ($M_{əq}$) «Bölüşdürülməmiş mənfəət» (ödənilməmiş zərər) adlı 88-cü maddəsinə köçürülməsi həyata keçirilmişdirsə, onda(12.31) düsturu aşağıdakı kimi olacaqdır:

$$\Delta BM = BM_{son} - BM_{ilk} = BM_{hd} - İM_{ki} + M_{əq} \qquad (12.32)$$

Əməliyyatların uçotunun müasir qaydasına əsaslanaraq mühasibat uçotunun «Mənfəə və zərər» adlı 80-cu və 88-cü hesabları üzrə hesabat dövrünün, o cümlədən hesabat ilinin bölüşdürülməmiş mənfəətinin həcmini formalaşmasını aşağıdakı modellə ifadə etmək olar:

$$BM_{hd} = BM - MV_{şx} - DVÖ^{1} - CP_{en} - İM_{hd}, \quad (12.33)$$

burada BM - balans mənfəətidir (vergi hesablanana qədər mənfəətdir);[2]

$MV_{şx}$ - mənfəət vergisi üzrə şərti xərcdir, başqa sözlə, BM-nin müəyyən edilmiş vergi dərəcəsinə (VD) vurulması isə hesablanan mənfəət vergisidir, yəni $MV_{şx} = BM \times VD$; DVÖ - daimi vergi öhdəlikləridir, daimi vergi tutulma fərqlərinin (DVF) VD -yə vurulması ilə hesbalanır, yəni $DVÖ = DVF \times VD$; CP_{en} - büdcəyə və büdcədən kənar fondlara ödənilməli cərimədər (C) və penyalardır (P_{en}); $İM_{hd}$ - hesabat dövrünün istifadə edilmiş (bölüşdürülmüş) mənfəətidir (bu modelin tərtib edilməsinin əsasını təşkil edən göstəricilərin mahiyyəti açıqlanmışdır, 12.2-ci paraqrafda izahata baxın).

2 saylı forma əsasında xalis mənfəətin hesablanması qaydası[3] aşağıdakı kimidir:

$$XM = BM - MV_{c} - CP_{en}, \quad (12.34)$$

burada MV_{c} -cari mənfəət vergisidir, yəni büdcəyə ödənilməli olan mənfəət vergisidir.[4]

Bu zaman nəzərə almaq lazımdır ki, (12.33) düsturunun ($BM-MV_{şx}-DVÖ$) kimi elementləri üzrə hesablanmanın nəticəsi (12.34) düsturunun ($BM-MV_{c}$) kimi elementləri üzrə hesablanmanın nəticəsinin eynidir.

[1] Əgər təşkilatın daimi vergi aktivləri (DVA) (onların əsasını AR Vergi məcəlləsinin 106-cı maddəsində göstərilmiş mənfəətin vergi tutulanda nəzərə alınmayan gəlirlər təşkil edir) vardırsa, onlar BM_{hd}-ə təsir edən daha bir əmsal kimi düsturda «+» işarəsilə göstərilir.

[2] «Maliyyə hesabatının təqdim edilməsi» modelinin tərtibatçılarının rəyinə görə fövqəladə vəziyyətlərlə və adi fəaliyyət növlərilə əlaqədar gəlirləri və xərcləri ayırmaq təcrübədə çətin olur (Bakayev A, Təşkilatın 2003-cü il mühasibat hesabatı haqqında)(Maliyyə qəzeti, 2003, №36, s.6). Odur ki, fövqəladə vəziyyətlərlə əlaqədar müəyyən təsərrüfat əməliyyatlarından alınan maliyyə nəticəsini təmsil edən gəlirlər və xərclər balans mənfəəti hesablanan zaman nəzərə alınır və 2 saylı formada «Vergi tutulmasına qədər mənfəət (zərər)» göstəricisindən öndə əks etdirilir.

[3] Xalis mənfəətin 2 saylı formadakı miqdarı onun 80-cu hesab üzrə hesablanmış qiymətinə uyğun olmalıdır.

[4] Bu göstərici təşkilatın mənfəət vergisi üzrə Vergi bəyannaməsində əks etdirilir.

Göstərilən eyniliyi[1] aşağıdakı düstur şəklində təqdim edək:

$$BM - MV_{şx} - DVÖ = BM - MV_{c} \quad (12.35)$$

Deməli, BM_{hd} formalaşması modeli də ((12.33) dusturuna baxın) (12.34) düsturunun elementlərini nəzərə almaqla başqa şəkilə salına və aşağıdakı kimi təqdim edilə bilər.

$$BM_{hd} = BM - MV_{c} - CP_{en} - İM_{hd} \quad (12.39)$$

Yuxarıda şərh edilənlərə əsaslanaraq, bölüşdürülməmiş mənfəətin dinamikasının amillər üzrə təhlili zamanı ona təsir edən müvafiq amillərin aşkar edilməsi cəhətdən qarşıya qoyulmuş analitik vəzifələrdən (məsələlərdən) və lazımi informasiyanın olmasından asılı olaraq (12.33) və (12.39) düsturları ilə təqdim edilmiş modellərdən istifadə edilə bilər.[2]

12.1 və 12.12 cədvəllərində olan məlumatlar üzrə, habelə əlavə uçot informasiyası bazasında[3] (12.31) və (12.39) düsturları ilə təqdim edilmiş modellərdən istifadə etməklə, bölüşdürülməmiş mənfəətin dinamikasını və ona təsir edən amilləri nəzərdən keçirək:

[1] Eyniliyi isbat edək. Uçot aparılmasına aid müəyyən edilmiş qaydaya əsasən 68-ci hesab («Mənfəət vergisi» subhesabı) üzrə büdcəyə ödənilməli mənfəət vergisinin miqdarını aşağıdakı kimi təsəvvür etmək olar.

$$MV_{c} = MV_{şx} + DVÖ \quad (12.36)$$

$$\text{buradan } MV_{şx} = MV_{c} - DVÖ \quad (12.37)$$

(12.35) düsturunun (12.37) düsturuna uyğun olaraq $MV_{şx}$ qiymətinin onu açıqlayan elementlərə bölünməsi hesabına genişləndirilməsi nəticəsində tərəflərin bərabərliyi tam aydın olan düstur (eynilik) alırıq:

$$BM - MV_{c} + DVÖ - DVÖ = BM - MV_{c} \quad (12.38)$$

[2] Deməli, müvafiq analitik məsələ həll edilərkən hesabat dövrünün bölüşdürülməmiş mənfəətinin formalaşması modeli aşağıdakı kimi də təqdim edilə bilər:

$$BM_{hd} = BM - MV_{c} - CP_{en} - İM_{hd} = BM - MV_{c} - CP_{en} - İM_{hd} \quad (12.40)$$

Qeyd edək ki, (12.39) modelində MV_{c}-ni ona təsir edən amillər hesabına (bunun üçün) (12.36) düsturundan istifadə etməklə) genişləndirsə, nəticədə BM_{hd} formalaşması modeli alınacaqdır ((12.33) düsturuna baxın):

$$BM_{hd} = BM - MV_{şx} - DVÖ - CP_{en} - İM_{hd} = BM - MV_{şx} - DVÖ - CP_{en} - İM_{hd} \quad (12.41)$$

[3] Hesabat dövründə:

- əvvəlki illərin və hesabat dövrünün mənfəəti (88-cü hesab) bölüşdürülməmiş və istifadə edilməmişdir;
- hesabat dövründə əsas vəsaitlərin əlavə qiyməti 87-ci hesabdan 88-ci hesaba köçürülməmişdir.

$\Delta BM = BM_{hd} = 11724$ min man. - 9948 min man. = 1776 min man.
$BM_{hd} = XM_1 = 1776$ min man. = 2700 min man. -840 min man. – 84 min man.

Beləliklə, hesabat dövründə bölüşdürülməmiş mənfəətin artımı 1776 min manat təşkil etmişdir. Bu dövrdə xalis mənfəətin bölüşdürülməsi (istifadə edilməsi) barədə qərarlar qəbul edilməmişdir, ona görə də onun həcmi mühasibat hesabatında göstərilmiş xalis mənfəətin məbləğilə eynidir. Hesabat dövründə 1776 min manat məbləğində xalis mənfəət (XM_1) alınması ancaq 2700 min manat məbləğində mühasibat üzrə mənfəətlə təmin edilmişdir. Büdcəyə hesabat dövründə ödənilməli olan mənfəət vergisi (840 min manat), həmçinin vergi pozulmalarına görə büdcəyə ödənilməyə hesablanmış cərimələr və penyalar (84 min manat) xalis mənfəətin mühasibat üzrə mənfəətə nisbətən azalması amilləri olmuşlar.

Cədvəl 12.12

Mənfəət və zərər haqqında hesadatdan çıxarış,* min manat

Sıra sayı	Göstəricilərin adı	Hesabat dövründə	Əvvəlki ilin analoji dövründə
1	Balans mənfəəti (zərər)	2700	2400
2	Təxirə salınmış vergi aktivləri	-	-
3	Cari mənfəət vergisi	(840)	(702)
4	Büdcəyə və büdcədən kənar fondlar ödənilməli olan cərimələr və penyalar	(84)	(22)
5	Hesabat dövrünün xalis mənfəəti (zərəri)	1776	1476
	Məlumat üçün Daimi vergi öhdəlikləri	268	326

* Bu cədvəldə şərti rəqəmlər verilmişdir.

Bölüşdürülməmiş mənfəətin formalaşmasının yuxarıda göstərilmiş modellərindən hər biri zərurət olduqda genişləndirilə bilər. (12.39) düsturu ilə təqdim edilmiş modeli nəzərdən keçirək.

1. Balans mənfəəti (BM) ümumi mənfəətin (ÜM), kommersiya (KX) və idarəetmə xərclərinin (İX), əməliyyat gəlirlərinin (ƏG), əməliyyat xərclərinin (ƏX), həmçinin satışdan kənar gəlirlərin (G_{sk}) və satışdan kənar xərclərin (X_{sk}) cəbri toplanmasının nəticəsi kimi nəzərdən keçirilə bilər, yəni

$$BM = ÜM - KX - İX + ƏG - ƏX + G_{sk} - X_{sk} \quad (12.42)$$

Öz növbəsində (12.48) modelinin toplananlarının hər biri müvafiq amillərə bölüşdürülə bilər. Məsələn, ümumi mənfəətin miqdarını adətən satış qiymətlərindən, satılmış malların, məhsulların, işlərin, xidmətlərin maya dəyərindən, onların həcmindən və çeşid qurluşundan asılı hesab edirlər.

2. Büdcəyə ödənilməli olan mənfəət vergisi ($MV_ö$) vergi tutulan mənfəətin (VTM) vergi dərəcəsinə (VD) vurma hasili kimi, yəni $MV_ö = VTM \times VD$ kimi təqdim edilə bilər, sonralar isə öz növbəsində bir sıra toplananlara ayrıla bilər:

$$MV_ö = BM \times VD + (ÇVF_h \times VD - ÇVF_{öd} \times VD) + DVF \times VD =$$
$$= BM \times VD + ÇVF_h \times VD - ÇVF_{öd} \times VD + DVF \times VD \quad (12.43)$$

Burada $ÇVF_h$ hesabat dövründə hesablanmış çıxılan vaxt fərqləri, $ÇVF_{öd}$ isə ödənilmiş çıxılan vaxt fərqləri kimi təqdim edilir.

3. Büdcəyə və büdcədən kənar fondlara ödənilməli olan cərimələrin və penyaların məbləği onların toplananları üzrə nəzərdən keçirilə və sonra onların hesablandığı obyektlər üzrə müfəssəlləşdirilə bilər.

4. Sıradan çıxmış obyektlər üzrə təxirə salınmış aktivlər və öhdəliklər ($TSVA_ç$ və $TSVÖ_ç$) müvafiq olaraq $ÇVF_ç \times VD$ və $VTAF_ç \times VD$ kimi təqdim edilə bilər ki, burada $ÇVF_ç$ və $VTVF_ç$ - çıxılan və vergi tutulan vaxt fərqləridir, onların hesablandığı sıradan çıxmış obyektlərə aiddir və sonra obyektlərin sıradan çıxmasının səbəbini aydınlaşdırmaqla obyektlər üzrə müfəssəlləşdirilməlidir.

5. Bölüşdürülmüş mənfəətin həcmi ($V_{öl}M_{hd}$) xalis mənfəətin bölüşdürülməsi (istifadə edilməsi) istiqamətləri üzrə müfəssəlləşdirilə bilər.

Hesabat dövrünün bölüşdürülməmiş mənfəətinin müfəssəl amillər üzrə təhlili[1] onun artımı ehtiyatlarının və deməli, təşkilatın maliyyə vəziyyətinin sabitliyi göstəricilərinin artımı ehtiyatlarının aşkar edilməsi üçün əsasdır.

Bölüşdürülməmiş mənfəətin dəyişilməsi amillərinin maliyyə vəziyyətinin sabitliyinin əsas göstəricilərinə təsirinin təhlili

Mühasibat balansında əks etdirilmiş bölüşdürülməmiş mənfəətin həcminin dəyişilməsinin nəzərdən keçirilmiş amilləri, yəni hesabat dövründə onun formalaşması ilə əlaqədar olan amillər təşkilatın maliyyə vəziyyətinin sabitliyinin əsas göstəricilərinin bütün sisteminə təsir göstərir.

Bu təsiri hesablayan zaman əvvəlcə hesabat dövründə bölüşdürülməmiş mənfəətin sabitlik göstəricisinin səviyyəsinə təsirinin ümumi ölçüsünü hesablamaq, sonra isə belə mənfəəti formalaşdıran amillər üzrə onu müfəssəlləşdirmək məqsədəuyğundur.

Göstərilən müfəssəlləşdirmə iqtisadi təhlil nəzəriyyəsində öyrənilən zəncirvari yerdəyişmə yaxud pay iştirakı üsulları ilə həyata keçirilə bilər.

Hesabat dövründə bölüşdürülməmiş mənfəətin ümumi maliyyə müstəqilliyi əmsalının artımına $\Delta Ə_1(BM_{hd})$ təsirinin ümumi ölçüsünü aşağıdakı düsturla müəyyən etmək olar:

$$\Delta Ə_1(BM_{hd}) = \frac{XK_0 + BM_{hd}}{BV_0 + BM_{hd}} - \frac{XK_0}{BV_0} \qquad (12.44)$$

Burada XK_0 və BV_0-hesabat ilinin əvvəlinə xüsusi kapitalı və balansın valyutasıdır.

Bizim misalın şərtlərinə əsasən:

$$\Delta Ə_1(BM_{hd}) = \frac{64792 + 1776}{107688 + 1776} - \frac{64792}{107688} = 0{,}6081 - 0{,}602 = +0{,}0061.$$

[1] Bu bölmədə nəzərdən keçirilmiş amillərin modelləri kiçik düzəlişlərlə Mühasibat balansında ödənilməmiş zərər əks etdirilən halda da istifadə edilə bilər.

BM_{hd} formalaşması amillərinin $\Delta Ə_1(BM_{hd})$-ə təsirinin pay iştirakı üsulu ilə müfəssəlləşdirilməsi 12.13 cədvəlində verilmişdir.

Cədvəl 12.13

Hesabat dövründə bölüşdürülməmiş mənfəətin formalaşması amillərinin ümumi maliyyə müstəqilliyi əmsalının dəyişilməsinə təsirinin hesablanması

Sıra sayı	Amillər	BM_{hd}-ə təsirin ölçüsü, min man.	$\Delta Ə_1(BM_{hd})$-ə təsir	
			Təsirin hesablanması	Təsirin ölçüsü, (+, -)
1	Balans mənfəəti (BM)	+2700	$+\frac{2700 \times 0{,}0061}{1776}$	+0,0093
2	Büdcəyə ödənilməli olan mənfəət vergisi (MV_c)	-840	$-\frac{840 \times 0{,}0061}{1776}$	-0,0029
3	Büdcəyə ödənilməli olan cərimələr və penyalar (CP_{en})	-84	$-\frac{84 \times 0{,}0061}{1776}$	-0,0003
	Yekun	1776		0,0061

Hesabat dövründə bölüşdürülməmiş mənfəətin maliyyə müstəqilliyi əmsalının artımına dövriyyə aktivlərinin formalaşması cəhətdən təsirinin ümumi ölçüsünü ($\Delta Ə_2(BM_{hd})$) aşağıdakı düsturla müəyyən etmək olar:

$$\Delta Ə_2(BM_{hd}) = \frac{DXK_0 + BM_{hd}}{DA_0 + BM_{hd}} - \frac{DXK_0}{DA_0}, \qquad (12.45)$$

burada DXK_0 və DA_0 -hesabat ilinin əvvəlinə dövriyyədə xüsusi kapitalı və dövriyyə aktivləridir.

BM_{hd} formalaşması amillərinin $\Delta Ə_2(BM_{hd})$-ə təsirinin müfəssəlləşdirilməsi (detallaşdırılması) $\Delta Ə_1(BM_{hd})$-in müfəssəlləşdirilməsinə (detallaşdırılmasına) oxşar həyata keçirilir.

Hesabat dövründə bölüşdürülməmiş mənfəətin maliyyə müstəqilliyi əmsalının artımına ehtiyatların formalaşması cəhətdən təsirinin ümumi ölçüsünü $\Delta Ə_3(BM_{hd})$ aşağıdakı düsturla müəyyən etmək olar:

$$\Delta Ə_3(BM_{hd}) = \frac{DXK_0 + BM_{hd}}{EV_0} - \frac{DXK_0}{EV_0} = \frac{BM_{hd}}{EV_0}, \quad (12.46)$$

burada EV_0 - hesabat ilinin əvvəlinə ehtiyat vəsaitlərdir.

BM_{hd} formalaşması amillərinin $\Delta Ə_3(BM_{hd})$-ə təsirinin müfəssəlləşdirilməsi (detallaşdırılması) $\Delta Ə_1(BM_{hd})$-in müfəssəlləşdirilməsinə (detallaşdırılmasına) oxşar həyata keçirilir.

Hesabat dövründə bölüşdürülməmiş mənfəətin mütləq likvidlik əmsalının artımına təsirinin ümumi ölçüsünü[1] $\Delta Ə_4(BM_{hd})$ aşağıdakı düsturla müəyyən etmək olar:

$$\Delta Ə_4(BM_{hd}) = \frac{\text{I qrup aktivlər}_0 + BM_{hd}}{QÖ_0} - \frac{\text{I qrup aktivlər}_0}{QÖ_0} = \frac{BM_{hd}}{QÖ_0}, \quad (12.47)$$

Burada I qrup aktivləri$_0$ və $QÖ_0$-hesabat ilinin əvvəlinə I qrup likvid aktivlər və qısamüddətli öhdəliklərdir.

Sonra həmçinin $\Delta Ə_4(BM_{hd})$-ün amillər üzrə müfəssəlləşdirilməsini (detallaşdırılması) $\Delta Ə_1(BM_{hd})$-in müfəssəlləşdirilməsinə (detallaşdırılmasına) oxşar həyata keçirmək olar.

Hesabat dövründə bölüşdürülməmiş mənfəətin təcili və cari likvidlik əmsalına təsirinin ölçüləri onun $Ə_4(BM_{hd})$-ə təsirinin ölçüsü ilə eyni olacaqdır.

Mühasibat balansında ehtiva edilən məlumatlara (cədvəl 12.1-ə baxın) əsaslanaraq hesabat ilində bölüşdürülməmiş mənfəət dövriyyədən kənar aktivlərin formalaşmasına yönəldilməsi aydın olur. Bununla əlaqədar olaraq BM_{hd}-nin $Ə_2$, $Ə_3$, $Ə_4$, $Ə_5$ və $Ə_6$ əmsallarına təsirini hesablamaq lazım deyil.

[1] Ehtimal etməklə ki, hesabat dövründə bölüşdürülməmiş mənfəət Mühasibat balansında dövriyyə aktivlərinin müvafiq maddələrində yerləşir.

12.9.2. Borc kapitalının cəlb edilməsi səmərəliliyinin təhlili

Borc kapitalının cəlb edilməsinin səmərəliliyinin təhlili zamanı:

1) borc kapitalının həcmini, tərkibini, strukturunu və onların araşdırılan dövr ərzində dəyişilməsini müəyyən etmək;

2) borc kapitalını cəlb edilməsi səmərəliliyini qiymətləndirmək;

3) borc kapitalından istifadə edilməsinin səmərəliliyinə təsir edən amilləri təhlil etmək lazımdır.

Borc kapitalına təşkilatın aşağıdakı öhdəlikləri aiddir:

1) bankların uzunmüddətli kreditləri, yəni bir ildən artıq müddətə alınmış kreditlər;

2) uzunmüddətli borclar, yəni borcverənlər (banklardan başqa) tərəfindən bir ildən artıq müddətə verilmiş borclar;

3) bankların qısamüddətli kreditləri, yəni bir ildən artıq olmayan müddətə alınmış kreditlər;

4) qısamüddətli borclar, yəni borc verənlər (banklardan başqa) tərəfindən bir ildən artıq olmayan müddətə verilmiş borclar;

5) uzun və qısamüddətli kreditor borcları.

Borc kapitalının həcmini, tərkibini və strukturunu təhlil edən zaman uzun və qısa müddətli borc mənbələrinin təşkilatın vəsait mənbələrinin ümumi həcmində payı müəyyən edilir. Mənbələrin ümumi həcmində uzunmüddətli borc vəsaitlərinin mövcud olması və xüsusi çəkisinin artması bir qayda olaraq, müsbət haldır, ona görə ki, təşkilat cəlb edilmiş vəsaitlər barədə uzun müddətli sərəncam verə bilər. Bununla əlaqədar çox zaman uzunmüddətli borc mənbələri maliyyə müstəqilliyi əmsalları hesablananda xüsusi vəsaitlərə bərabər sayılır. Həmçinin kreditor borclarının, yəni təşkilatın əslində (praktik olaraq) pulsuz (ödənişsiz) istifadə etdiyi borc vəsaitlərinin xüsusi çəkisini və nisbətən baha vəsaitlərin, yəni bank kreditlərinin və borcların təşkilatın öhdəliklərinin ümumi məbləğində payını da müəyyən etmək lazımdır.

Borc kapitalının cəlb edilməsinin səmərəliliyinin qiymətləndirilməsi üçün istifadə edilən göstəricilərdən biri də *maliyyə linqinin təsiridir (MLT)*. O, xüsusi kapitalın borc vəsaitlərindən istifadə

edilməsi sayəsində alınan artımında ifadə olunur. Maliyyə linginin təsiri təşkilatın dövriyyəsinə borc vəsaitləri cəlb edilməsi hesabına xüsusi kapitalın rentabelliyinin artımını göstərir. Maliyyə linginin təsiri o hallarda müsbət olur ki, məcmu kapitalın rentabelliyi borc vəsaitlərinin orta dəyərindən yüksək olur.[1] Məcmu kapitalın gəlirliliyinin (rentabelliyinin) borc vəsaitlərinin orta dəyərindən yüksək olması xüsusi kapitalın rentabeliyini artırmaq imkanı yaradır. Belə şəraitdə borc kapitalının (maliyyə linginin qolunun) payını artırılması faydalıdır. Əgər məcmu kapitalın rentabelliyi (gəliri) borc vəsaitlərinin orta dəyərindən aşağı olarsa, təşkilata fayda olmur, yəni maliyyə linginin mənfi təsiri yaranır, bunun nəticəsində xüsusi kapitalın rentabelliyi azalır.

Maliyyə linginin təsiri borc vəsaitlərinin cəlb edilməsinin iqtisadi məqsədəuyğunluğunu, həddini müəyyən edir. Lakin borc vəsaitlərinin payı artdıqca xalis mənfəət azalmağa başlayır, çünki onun böyük hissəsi faizlərin ödənilməsinə və borc vəsaitlərinin cəlb edilməsilə əlaqədar digər xərclərə istifadə edilir. Nəticədə məcmu qoyuluşların rentabelliyi azalır və borc vəsaitlərinin orta dəyərindən az olur. Bu isə öz növbəsində xüsusi kapitalın rentabelliyinin azalmasına səbəb olur.

Maliyyə linginin təsiri müəyyən edilən zaman xüsusi kapitalın və bütövlükdə məcmu kapitalın rentabelliyinin qiymətləndirilməsi metodikası ilə əlaqədar məsələləri ilk növbədə həll etmək lazımdır (bu barədə aşağıda söz gedəcəkdir). Bu zaman borc kapitalının orta dəyərinin hesablanması qaydası ilə əlaqədar məsələlər, o cümlədən aşağıdakılar da həll edilməlidir:

1) hesablamaya öhdəliklərin hansı növləri qəbul edilməlidir?
2) borc kapitalının dəyərini hansı tərkibdə xərclər formalaşdırır?

[1] Borc vəsaitlərinin (borc vəsaitlərinin cəlb edilməsilə əlaqədar xərclərin) dəyərinin borc kapitalının orta dəyərinə nisbəti kimi müəyyən edilir.

Birinci məsələyə aid problem aşağıdakından ibarətdir. Hesablamaya yalnız kreditləri və borcları qəbul etmək yaxud onlarla yanaşı kredit borcunu da nəzərə almaq.

Bir sıra mütəxəssislər hesab edirlər ki, borc kapitalının tərkibinə kreditor borcu daxil edilməməlidir, bu onunla əlaqədardır ki, o, ödənişsiz (pulsuz) mənbədir. Lakin kreditor borcunun ödənişsizliyi (pulsuzluğu) barədə müddəa heç də həmişə həqiqətə uyğun deyil. Məsələn, kommersiya kreditinin dəyəri kreditlərin və borcların dəyərilə müqayisə edilə, bəzi hallarda isə ondan yüksək ola bilər. Kreditorların vəsaitlərindən istifadə edilməsinə görə hesablaşmalar vaxtlı-vaxtında olmadıqda mal göndərənlərə vəsaitlərin və büdcəyə vergilərin vaxtlı-vaxtında köçürülməməsinə görə ödənilən penyaların məbləğləri ödəniş kimi baxıla bilər. Bizim fikirimizcə, əgər bütün borc kapitalından istifadənin səmərəliliyindən söhbət gedirsə, onda yalnız uzun və qısa müddətli kreditlər və borclar deyil, həm də kreditor borclar hesablanmaya qəbul edilməlidir.

Kreditlər və borcların alınması ilə əlaqədar məsələləri həll edən zaman maliyyə linginin təsirinin hesbalanması borc mənbələrinin həmin növləri bazasında qurulmalıdır.

Borc vəsaitlərindən istifadə edilməsilə əlaqədar olan xərclərin tərkibi və həcmi müəyyən edilərkən nəzərə almaq lazımdır ki, təşkilat kreditlərdən istifadə edilməsinə görə banka faizlər ödəyir. Lakin bank kreditinin dəyəri yalnız faizlərin məbləğilə deyil, borc verənin hesabına girovun sığortalanması üzrə və kredit alınması ilə əlaqədar olan və onun dəyərini artıran digər xərclərlə müəyyən edilir.

«Borcların və kreditlərin və onlara xidmət edilməsinin uçotu» adlı MUƏ-nin tələblərinə uyğun olaraq həmin əməliyyatlara sərf edilən xərclərə aşağıdakılar daxil edilir:

- ödənilmə üçün hesablanan faizlər;
- borclar və kreditlər alınması ilə əlaqədar əlavə xərclər (hüquq, məsləhət xidmətləri, ekspertizalar aparılması, rabitə xidmətləri və s.);
- xarici valyutada yaxud şərti pul vahidlərində alınmış və ya ifadə edilmiş borclar və kreditlər üzrə hesablanmış faizlərə aid edilən kurs və məbləğ fərqləri.

Mal göndərənlərlə və podratçılarla hesablaşmalar zamanı, əgər müqavilələrdə kreditorların vəsaitlərindən müvəqqəti istifadə edilməsinə görə ödəniş kimi malların, işlərin, xidmətlərin ödənilməsinin vaxtının uzadılması ilə ödəmə nəzərdə tutulmamışdırsa, müqavilələrdə göstərilən hesablaşmaların vaxtlı-vaxtında yerinə yetirilməsinə görə sanksiyalar (cərimələr, penyalar) müzakirə edilə bilər.

Təşkilatın kreditor borclarının tərkibində onun büdcə qarşısında öhdəlikləri xüsusi yer tutur. Qüvvədə olan vergi qanunvericiliyinə əsasən vergilərin ödənilməsinin gecikdirilən hər gününə təşkilatın dövlət tərəfindən kreditləşdirilməsi forması kimi baxılır və bunun nəticəsində büdcəyə müvafiq penya məbləği daxil edilməsi məcburidir.

Borc vəsaitlərinin real dəyərini müəyyən edərkən ona qüvvədə olan mənfəət vergisi tutulması qaydasının təsirini nəzərə almaq lazımdır. Kredit üzrə ödənilən faizlərin (AR-nın VM ilə müəyyən edilmiş həddə) məbləği vergi tutulan mənfəət məbləği müəyyən edilən zaman xərclərə daxil edilir və bununla da ödənilən mənfəət vergisinin azaldılması hesabına təşkilat üçün kreditin dəyərini ucuzlaşdırır. Bu zaman, başqa şərtlər eyni olduqda, mənfəət vergisinin dərəcəsi nə qədər yüksək olarsa, vergiyə qənaətin həcmi o qədər böyük olur.

Yuxarıda qeyd edildiyi kimi, borc kapitalından istifadəinin səmərəliliyinin qiymətləndirilməsi zamanı təşkilatın aktivlərinə avans verilmiş bütün kapitalının rentabelliyi, xüsusi kapitalının rentabelliyi, borc kapitalının orta dəyəri göstəriciləri, borc və xüsusi kapitalının nisbəti əmsalı hesablamalarda istifadə edilir. Onların arasındakı qarşılıqlı əlaqəni nəzərdən keçirək.

İqtisadi ədəbiyyatda belə qarşılıqlı əlaqənin və maliyyə linginin təsirinin hesablanmasının müxtəlif variantları təklif edilir, lakin onların arasında prinsipial fərq yoxdur, fərq əsas etibarilə, vergilərin ödənilməsində qənaət amilinin uçotu qaydasında ifadəsidir, yəni belə mülahizə edilir:

- vergiyə qənaət edilməsini ayrıca amil kimi nəzərə almaq [29, 45] (şərti olaraq I variant);

- vergiyə qənaət edilməsini amil kimi nəzərə almamaq, borc vəsaitlərinə xidmət edilməsilə əlaqədar xərcləri dərhal onun üzərində təshih etmək [38, 44] (şərti olaraq II variant).

I varianta xüsusi kapitalın rentabelliyi və vergi linginin təsiri arasında qarşılıqlı əlaqə aşağıdakı kimi olur:

$$R_{XK} = \left[R'_A \times (1 - VD\right] + \underbrace{\left[\left(R'_A - DBK\right) \times (1 - VD) \times \frac{BK}{XK}\right]}_{MLT} \qquad (12.48)$$

Burada maliyyə linginin təsirinin (MLT) hesablanması qaydasını aşağıdakı kimi təqdim etmək olar:

$$MLT = \left(\frac{BM + C}{A} - \frac{C}{BK}\right) \times (1 - VD) \times \frac{BK}{XK} \qquad (12.49)$$

(12.48) və (12.49) düsturlarında: $R_{XK} = \frac{XM}{XK}$ xüsusi kapitalının rentabelliyidir; XM-xalis mənfəətdir; XK, BK-müvafiq olaraq xüsusi kapitalın və borc kapitalının orta dəyəridir; $\frac{XK}{BK}$-borc və xüsusi kapitalın nisbəti əmsalıdır (maliyyə linginin qoludur); $R'_A = \frac{BM + C}{A}$ - təşkilatın aktivlərinə avans edilmiş (qoyulmuş) bütün kapitalın rentabelliyidir, balans mənfəəti əsasında, borc kapitalının cəlb edilməsilə əlaqədar xərcləri nəzərə almadan hesablanır; A-aktivlərə avans edilmiş bütün kapitalın orta dəyəridir (aktivlərin orta dəyəridir); BM+C-borc kapitalının cəlb edilməsilə əlaqədar xərclər nəzərə alınmadan balans mənfəətidir (vergi tutulana qədər mənfəətdir); $D_{BK} = \frac{C}{BK}$-borc vəsaitlərinin orta dəyəridir; C-borc kapitalının cəlb edilməsilə əlaqədar xərclərdir; VD-mənfəət vergisi dərəcəsidir;

$R'_A \times (1-VD) = \left[\frac{BM+C}{A} \times (1-VD)\right] = \frac{XM + C \times (1-VD)}{A} = R_A$ -ak-

tivlərə avans edilmiş bütün kapitalın rentabelliyidir, xalis mənfəət əsasında, borc kapitalının cəlb edilməsilə əlaqədar xərclər nəzərə alınmadan hesablanır; C × (1 - VD) - mənfəət vergisinə qənaət edilməsini nəzərə almaqla, borc kapitalının cəlb edilməsilə əlaqədar xərclərdir.

(12.48) və (12.49) düsturlarından belə nəticə çıxır ki, MLT-nə aşağıdakılar təsir edir:

1) təşkilatın aktivlərinə avans edilmiş bütün kapitalının rentabelliyinin dəyişilməsinə (onu balans mənfəəti əsasında hesablayanda) [ΔMLT(ΔR'A)];

2) borc vəsaitlərinin orta dəyərinin dəyişilməsi [ΔMLT(ΔDBK)];

3) mənfəət vergisi dərəcəsinin dəyişilməsi [ΔMLT(ΔVD)];

4) borc və xüsusi kapitalın nisbəti əmsalının (maliyyə linginin qolunun) dəyişilməsi $\left[\Delta MLT\left(\Delta\frac{BK}{XK}\right)\right]$.

Zəncirvari yerdəyişmə üsulundan istifadə etdikdə nəzərdən keçirilən amillərin təsirinin hesablanması alqoritmi aşağıdakı kimi olur:

$$1)\ \Delta MLT(\Delta R'_A) = \left(\frac{BM_1+C_1}{A_1} - \frac{C_0}{BK_0}\right) \times (1-VD_0) \times \frac{BK_0}{XK_0} - \left(\frac{BM_0+C_0}{A_0} - \frac{C_0}{BK_0}\right) \times (1-VD_0) \times \frac{BK_0}{XK_0}; \quad (12.50)$$

$$2)\ \Delta MLT(\Delta D_{BK}) = \left(\frac{BM_1+C_1}{A_1} - \frac{C_1}{BK_1}\right) \times (1-VD_0) \times \frac{BK_0}{XK_0} - \left(\frac{BM_1+C_1}{A_1} - \frac{XK_0}{BK_0}\right) \times (1-VD_0) \times \frac{BK_0}{XK_0}; \quad (12.51)$$

$$3)\ \Delta MLT(\Delta VD) = \left(\frac{BM_1+C_1}{A_1} - \frac{C_1}{BK_1}\right) \times (1-VD_1) \times \frac{BK_0}{XK_0} - \left(\frac{BM_1+C_1}{A_1} - \frac{C_1}{BK_1}\right) \times (1-VD_0) \times \frac{BK_0}{XK_0}; \quad (12.52)$$

$$4)\ \Delta MLT\left(\Delta\frac{BK}{XK}\right) = \left(\frac{BM_1+C_1}{A_1} - \frac{C_1}{BK_1}\right) \times (1-VD_1) \times \frac{BK_1}{XK_1} - \left(\frac{BM_1+C_1}{A_1} - \frac{C_1}{BK_1}\right) \times (1-VD_1) \times \frac{BK_0}{XK_0}. \quad (12.53)$$

$$\Delta MLT = MLT_1 - MLT_0 = \Delta MLT(\Delta R'_A) + \Delta MLT(D_{BK}) + \Delta MLT(\Delta VD) + \Delta MLT\left(\Delta\frac{BK}{XK}\right). \quad (12.54)$$

(12.50) - (12.54) düsturlarında «1» və «0» indekslərilə müvafiq surətdə hesabat və baza dövrlərindəki göstəricilər işarə edilir.

(12.48) (12.54) düsturlarından istifadə etməklə xüsusi kapitalının rentabelliyini hesablayaq və əvvəla, borc kapitalının cəlb edilməsinin effektindən (təsirindən) onun hansı hissəsinin alınmasını və ikincisi, MLT-nə hər amilin təsirini müəyyən edək. İlk məlumatlar[1] 12.14 cədvəlində verilmişdir.

[1] Buradakı ilk məlumatlar 12.1 və 12.12 cədvəllərində verilmiş məlumatlarla əlaqəli deyil.

Cədvəl 12.14

Borc kapitalının cəlb edilməsinin səmərəliliyinin təhlili üçün ilk məlumatlar

Sıra sayı	Göstəricilər	Baza dövrü	Hesabat dövrü	Fərq (+,-)
1	2	3	4	5
1	Aktivlərin orta dəyəri (A) min man.	10000	12000	+2000
2	Xüsusi kapitalın orta məbləği (XK), min man.	6500	7000	+500
3	Borc kapitalının orta məbləği (BK), min man.	3500	5000	+1500
4	Borc və xüsusi kapitalın nisbəti əmsalı (BK/XK) (sətir3 : sətir2)	0,5385	0,7143	+0,1758
5	Balans mənfəəti (BM)* min man.	3104	3800	+696
6	Mənfəət vergisi dərəcəsi (VD), hissələrlə	0,29	0,24	-0,05
7	Mənfəət vergisi (MV), min man. (sətir 5x sətir 6)	900	912	+12
8	Xalis mənfəət (XM), min man. (sətir 5 – sətir 7)	2204	2888	+684
9	Borc kapitalının cəlb edilməsilə əlaqədar olan xərclər (C)**, min man.	735	1000	+265
10	Xüsusi kapitalın rentabelliyi (R_{XK}), % (sətir 8 : sətir 2 x 100)	33,91	41,26	+7,35
11	Borc vəsaitlərinin orta dəyəri (D_{BK}), % (sətir 9 : sətir 3 x 100)	21	20	-1
12	Aktivlərə avans edilmiş (qoyulmuş) bütün kapitalın rentabelliyi, balans mənfəəti əsasında borc kapitalının cəlb edilməsilə əlaqədar xərclər nəzərə alınmadan hesablanır $(R'_A),\% \left(\frac{\text{sətir 5} + \text{sətir 9}}{\text{sətir 1}} \times 100\right)$	38,39	40,0	+1,61
13	Aktivlərə avans edilmiş (qoyulmuş) kapitalın rentabelliyi, xalis mənfəət əsasında borc kapitalının cəlb edilməsilə əlaqədar xərclər nəzərə alınmadan hesablanır $(R'_A),\% \left(\frac{\text{sətir 8} + \text{sətir 9} \times (1 - \text{sətir 6})}{\text{sətir 1}} \times 100\right)$	27,26	30,4	3,14

* Nəzərdən keçirilən misalda şərti olaraq balans və vergi tutulan mənfəətin bərabərliyi qəbul edilmişdir.

** Fərz edək ki, bütün xərclər mənfəət vergisinin vergi tutulma bazası hesablananda nəzərə alınır.

Misalın şərtlərinə əsasən xüsusi kapitalın rentabelliyi və onun borc kapitalının cəlb edilməsindən alınan səmərə hesabına əldə edilən hissəsi baza və hesabat dövrlərində aşağıdakı kimi olmuşdur (faizlə):

$$R_{XK0}(\%) = 33{,}91\% \left(\frac{2204}{6500} \times 100\right)^{1} = \left[\left(\frac{3104+735}{10000}\right) \times (1-0{,}29) \times 100\right] + \underbrace{\left[\left(\frac{3104+735}{10000} - \frac{735}{3500}\right) \times (1-0{,}29) \times 0{,}5385 \times 100\right]}_{MLT_0} = 27{,}26\% + 6{,}65\%;$$

$$R_{XK1}(\%) = 41{,}26\% \left(\frac{2888}{7000} \times 100\right)^{1)} = \left[\left(\frac{3800+1000}{12000}\right) \times (1-0{,}24) \times 100\right] + \underbrace{\left[\left(\frac{3800+1000}{12000} - \frac{1000}{5000}\right) \times (1-0{,}24) \times 0{,}7143 \times 100\right]}_{MLT_0} = 30{,}40\% + 10{,}86\%.$$

Xüsusi kapitalın rentabelliyi hesabat dövründə 41,26%, baza dövründə isə 33,91% olmuşdur. Əgər təşkilat borc vəsaitləri cəlb etməsəydi, xüsusi kapitalının rentabelliyi hesabat dövründə 30,40%, baza dövründə isə 27,26% təşkil edərdi. Beləliklə, borc kapitalının cəlb edilməsi hesabına rentabellik baza dövründə 6,65%, hesabat dövründə isə 10,86% artmışdır, yəni maliyyə linginin təsiri hesabat dövründə baza dövrünə nisbətən 4,21% artmışdır. O cümlədən zəncirvari yerdəyişmə (əvəz etmə) üsulu ilə hesablana bilən amillər üzrə bu artım aşağıdakı kimi olmuşdur:

I yerdəyişmə $\left(\frac{3800+1000}{12000} - \frac{735}{3500}\right) \times (1-0{,}29) \times 0{,}5385 \times 100 = 7{,}26\%;$

II yerdəyişmə $\left(\frac{3800+1000}{12000} - \frac{1000}{5000}\right) \times (1-0{,}29) \times 0{,}5385 \times 100 = 7{,}65\%;$

III yerdəyişmə $\left(\frac{3800+1000}{12000} - \frac{1000}{5000}\right) \times (1-0{,}24) \times 0{,}5385 \times 100 = 8{,}18\%.$

[1] Mötərizədə göstəricilərin hesablanması texnikası göstərilmişdir.

Amillərin təsirinin hesablanması:

1) Δ MLT(Δ R'$_A$) = 7,26 -6,65 = +0,61%;

2) Δ MLT(ΔD_{BK}) = 7,65 - 7,26 = +0,39%;

3) Δ MLT(ΔVD) = 8,18 - 7,65 = +0,53%;

4) $\Delta MLT\left(\Delta\frac{BK}{XK}\right)$ = 10,86 - 8,18 = +2,68%.

ΔMLT = 10,86 - 6,65 = 0,61 + 0,39 + 0,53 + 2,68 = +4,21%.

Maliyyə linginin təsirinin 4,21% artması nəzərdən keçirilən amillərin hamısının müsbət təsirilə əlaqədardır.

II varianta keçərkən yada salaq ki, bu halda mənfəət vergisi dərəcəsinin dəyişilməsi amili qeyd edilmir. Onun təsiri borc vəsaitləri cəlb edilməsilə əlaqədar xərclərin təshih edilməsi yolu ilə nəzərə alınır. Bu variantda xüsusi kapitalın rentabelliyinin, aktivlərə avans edilmiş (qoyulmuş) bütün kapitalın rentabelliyinin və maliyyə linginin təsirinin qarşılıqlı əlaqəsi aşağıdakı kimi olur:

$$R_{XK} = R_A + \underbrace{(R_A - R_{XK})\times\frac{BK}{XK}}_{MLT} \qquad (12.55)$$

Bu halda maliyyə linginin təsiri aşağıdakı kimi hesablanır:

$$MLT = \left(\frac{XM + C\times(1-VD)}{A} - \frac{C\times(1-VD)}{BK}\right)\times\frac{BK}{XK}\ ^{1)} \qquad (12.56)$$

Deməli, II variantda maliyyə linginin təsirinin dəyişilməsi aşağıdakı amillərin təsirilə əlaqədardır:

1) təşkilatın aktivlərinə avans edilmiş (qoyulmuş) bütün kapitalın rentabelliyinin dəyişilməsi [$\Delta MLT(\Delta R_A)$];
2) borc vəsaitlərinin orta dəyərinin dəyişilməsi (vergiyə qənaəti nəzərə almaqla) [$\Delta MLT(\Delta D_{BK})$];

[1] Burada borc kapitalına xidmət edilməsilə əlaqədar olan xərclərin təshihi, yəni onların (1-VD) vurulması yalnız mənfəətdən vergi tutulanda nəzərə alınan xərclərə münasibətdə yerinə yetirilir. Vergi tutulmasında nəzərə alınmayan xərclər (1-VD) vasitəsilə təshih edilmədən tam ölçüdə hesaba qəbul edilir.

3) borc və xüsusi kapitallarının nisbəti əmsalının, yəni maliyyə linginin qolunun dəyişilməsi [$\Delta MLT(\Delta\frac{BK}{XK})$].

Amillərin təsirinin ölçüsünün hesablanması üçün zəncirvari yerdəyişmə (əvəz etmə) üsulundan istifadə edirik.

Amillərin təsirinin hesablanması alqoritmi:

$$1)\ \Delta MLT(\Delta RA) = \left[\frac{XM_1 + C_1\times(1-VD_1)}{A_1} - \frac{C_0\times(1-VD_0)}{BK_0}\right]\times\frac{BK_0}{XK_0} -$$
$$-\left[\frac{XM_0 + C_0\times(1-VD_0)}{A_0} - \frac{C_0\times(1-VD_0)}{BK_0}\right]\times\frac{BK_0}{XK_0}; \qquad (12.57)$$

$$2)\ \Delta MLT(\Delta D_{BK}) = \left[\frac{XM_1 + C_1\times(1-VD_1)}{A_1} - \frac{C_1\times(1-VD_1)}{BK_1}\right]\times\frac{BK_0}{XK_0} -$$
$$-\left[\frac{XM_1 + C_1\times(1-VD_1)}{A_1} - \frac{C_0\times(1-VD_0)}{BK_0}\right]\times\frac{BK_0}{XK_0}; \qquad (12.58)$$

$$3)\ \Delta MLT\left(\frac{BK}{XK}\right) = \left[\frac{XM_1 + C_1\times(1-VD_1)}{A_1} - \frac{C_1\times(1-VD_1)}{BK_1}\right]\times\frac{BK_1}{XK_1} -$$
$$-\left[\frac{XM_1 + C_1\times(1-VD_1)}{A_1} - \frac{C_1\times(1-VD_1)}{BK_1}\right]\times\frac{BK_0}{XK_0}. \qquad (12.59)$$

$$\Delta MLT = MLT_1 - MLT_0 = \Delta MLT(\Delta R_A) +$$
$$+\Delta MLT(\Delta D_{BK}) + \Delta MLT\left(\Delta\frac{BK}{XK}\right). \qquad (12.60)$$

12.14 cədvəldə verilmiş ilk məlumatlardan istifadə edərək, xüsusi kapitalın rentabelliyini və onun tərkibində borc kapitalının cəlb edilməsindən alınan səmərə hesabına əldə edilmiş hissəsini

hesablayaq. Baza və hesabat dövrlərində onlar aşağıdakı kimi olmuşdur:

$$R_{XK_0}(\%) = 33{,}91\%\left(\frac{2204\times100}{6500}\right) = \left[\frac{2204+735\times(1-0{,}29)\times100}{10000}\right] +$$

$$+\underbrace{\frac{2204+735\times(1-0{,}29)}{10000} - \frac{735\times(1-0{,}29)}{3500}\times0{,}5385\times100}_{MLT_0} = 27{,}26\% + 6{,}65\%; \quad 1)$$

$$R_{XK_1}(\%) = 41{,}26\%\left(\frac{2888\times100}{7000}\right) = \left[\frac{2888+1000\times(1-0{,}24)\times100}{12000}\right] +$$

$$+\underbrace{\frac{2888+1000\times(1-0{,}24)}{12000} - \frac{1000\times(1-0{,}24)}{5000}\times0{,}7143\times100}_{MLT_1} = 30{,}40\% + 10{,}86\%.$$

Baza dövründə xüsusi kapitalın rentabelliyi borc vəsaitlərinin cəlb edilməsi hesabına 6,65%, hesabat dövründə isə – 10,86% artmışdır, yəni maliyyə linginin təsirini 4,21% təşkil etmişdir. Beləliklə, hesablamanın I variantında olduğu kimi nəticələr alınmışdır.

MLT-nin 4,21% artmasının hesablanması zəncirvari yerdəyişmə (əvəz etmə) üsulu ilə həyata keçirilə bilən amillərin təsirilə əlaqədardır:

$$\text{I yerdəyişmə}\left(\frac{2888+1000\times(1-0{,}24)}{12000} - \frac{735\times(1-0{,}29}{3500}\right)\times0{,}5385\times100 = 8{,}34\%;$$

$$\text{II yerdəyişmə}\left(\frac{2888+1000\times(1-0{,}24)}{12000} - \frac{1000\times(1-0{,}29)}{5000}\right)\times0{,}5385\times100 = 8{,}18\%.$$

Amillərin təsirinin hesablanması:

1) Δ MLT(ΔR_A) = 8,34 - 6,65 = +1,69%;

2) Δ MLT(ΔD_{BK}) = 8,18 - 8,34 = -0,16%;

3) $\Delta \text{MLT}\left(\Delta\frac{BK}{XK}\right)$ = 10,86 - 8,18 = +2,68%.

ΔMLT = 10,86 - 6,65 = 1,69 - 0,16 + 2,68 = +4,21%.

[1] Mötərizədə göstəricilərin hesablanması texnikası göstərilmişdir.

Maliyyə linginin təsirinin dəyişilməsinə amillərin məcmu təsiri I variantda olduğu kimidir, lakin bu halda əsas cəhətdən bir qədər yerini dəyişmişdir. Belə ki, II variantdakı hesablamalar göstərdi ki, məcmu kapitalın vergi ödənilməsindən sonra rentabelliyinin artımı (xalis mənfəət bazasında hesablanmış) [ΔMLT(ΔR_A)] MLT-nin artımına daha çox təsir etmişdir, nəinki rentabelliyin vergilər ödənilməsinə qədər rentabelliyin analoji artımı [ΔMLT($\Delta R'_A$)] və bu mənfəət vergisinin dərəcəsinin 5% azalması sayəsində yaranmışdır. Vergilərə qənaət edilməsini nəzərə almaqla borc kapitalının orta dəyərinin dəyişilməsi [ΔMLT(ΔD_{BK})] xüsusi kapitalın rentabelliyinin azalmasına səbəb olmuşdur. Belə ki, vergiyə qənaəti nəzərə almadan borc kapitalının ümumi həcmində borc vəsaitlərinin dəyəri baza dövründə 21%, hesabat dövründə isə – 20% təşkil etmişdisə (12.14 cədvəlinə baxın), vergi qənaətini nəzərə almaqla o, müvafiq surətdə 14,91% $\left[\frac{735\times(1-0{,}29)}{3500}\times100\right]$ və 15,2%$\left[\frac{1000\times(1-0{,}24)}{5000}\times100\right]$ olacaqdır, bu da mənfəət vergisinin dərəcəsinin azalması ilə izah edilir.

Maliyyə linginin təsirini yalnız bütün borc kapitalı üzrə deyil, həm də onun tərkib hissələri çərçivəsində: uzun və qısa müddətli bank kreditləri, borclar və s. üzrə, habelə onların hər konkret növü üzrə hesablamaq olar. Bu halda MLT düsturlarına bütün borc kapitalının orta dəyəri deyil, məsələn, qısa, uzun müddətli bank kreditlərinin, borcların yaxud onların konkret növlərinin orta dəyəri yazılmalıdır.

Yekunda xüsusi kapitalın borc vəsaitləri cəlb edilməsi hesabına artımının məbləğini müəyyən etmək lazımdır:

$$\Delta XK_{(BK)} = MLT \times XK \qquad (12.61)$$

Göstərilən misalda borc kapitalı cəlb edilməsi hesabına xüsusi kapital baza dövründə 432 min man. $\left(\frac{6{,}65\times6500}{100}\right)$, hesabat dövründə isə 760 min man. $\left(\frac{10{,}86\times7000}{100}\right)$ artmışdır.

12.9.3. Debitor və kreditor borclarının təhlili

Debitor borclarının təhlili

Debitor borclarının təhlil edən zaman aşağıdakı məsələlərin aydınlaşdırılması məqsədəuyğundur:

- debitor borclarının tərkibinin və dinamikasının, həmçinin onun həcmini və dəyişilməsini müəyyən edən amillərin araşdırılması;
- debitor borclarının strukturunun təhlili;
- debitor borclarının dövr etməsinin təhlili;
- debitor borclarının cari (diskont edilmiş – uçota alınmış) dəyərinin müəyyən edilməsi;
- səmərəsiz debitor borclarının azaldılmasına yönəlmiş idarə etmə qərarları variantlarının işlənib hazırlanması və onlardan ən faydalısının seçilməsi;
- debitor borclarının proqnozlaşdırılması.

Debitor borclarının xarici təhlili zamanı informasiya mənbələri kimi mühasibat hesabatının 1 saylı və 5 saylı formalarının, «Təşkilatın maliyyə vəziyyəti haqqında məlumatlar» adlı statistik hesabat formasının məlumatlarından istifadə edilir.

Daxili təhlil edilməsi üçün hesabat məlumatları ilə yanaşı alıcılarla (sifarişçilərlə) və mal göndərənlərlə (podratçılarla) bağlanmış müqavilələr, mühasibat uçotu registrlərinin (jurnal-orderlərin, alıcılarla və sifarişçilərlə, mal göndərənlərlə və podratçılarla verilmiş avanslar üzrə hesablaşmaların, təhtəlhesab şəxslərlə, digər debitorlarla hesablaşmaların) uçotu cədvəlinin məlumatları da cəlb edilir.

Debitor borcunun təhlili zamanı ilk öncə debitor borcunun bütövlükdə və ayrı-ayrı növləri üzrə dəyişilməsi öyrənilir, habelə göstəricilərin dinamikasına təsir edən amillər aydınlaşdırılır.

Mühasibat balansında (1 saylı forma) debitor borcu uzunmüddətli (ödənilməsi hesabat tarixində sonra 12 aydan artıq vaxtda gözlənilən) və qısamüddətli (ödənilməsi hesabat tarixindən sonra 12 ay ərzində gözlənilən) borclara ayrılır. Debitor borcunun bu

növlərinin hər birində alıcıların və sifarişçilərin borcları ayrıca qeyd edilir.

Uzun və qısa müddətli debitor borcları aşağıdakı növlərə bölünür:

1) məhsullara (iş və xidmətlərə) görə alıcıların və sifarişçilərin borcu;

2) mal göndərənlərlə və podratçılarla verilmiş avanslar barədə hesablaşmalar üzrə borc;

3) debitor borcunun digər növləri, o cümlədən:

- təhtəlhesab şəxslər üzrə borc;
- digər borc növləri.

Debitor borcunun alıcılarla və sifarişçilərlə hesablaşmalar kimi çox mühüm növünün təhlilinə xüsusi diqqət yetirmək lazımdır, ona görə ki, bir qayda olaraq, debitorların ümumi məbləğində məhz onların xüsusi çəkisi ən böyük olur.

Alıcıların və sifarişçilərin borcunun miqdarına aşağıdakılar təsir edir:

- Satışın ümumi həcmi və orada sonradan ödənilmə şərtilə satışın payı. Adətən satışın həcmi artdıqca debitor borcu qalıqları da artır;
- hesablaşmaların vaxtlı-vaxtında təmin edilməsi zəmanətinin olması. Zaminlik, girovlar, bank zəmanətləri debitor borcunun az olmasına səbəb olur;
- alıcıların ödəmə intizamı. Alıcıların və sifarişçilərin ödəmə qabiliyyətliliyi cəhətdən seçiminə tələb nə qədər yüksək olarsa, təşkilatın balansında debitor borcu qalıqları o qədər az olacaqdır;
- alıcılarla və sifarişçilərlə hesablaşmaların müqavilə şərtləri. Alıcılara və sifarişçilərə hesablaşmalar üçün nə qədər böyük güzəştli müddət verilirsə, debitor borcu qalıqları o qədər çox olur. Eyni zamanda müqavilədə vaxtından əvvəl (müntəzəm) ödəmə üçün güzəştlər sistemi nəzərdə tutulması, kommersiya krediti verilməsi, veksel əsasında mal göndərilməsi vaxtlı-vaxtında hesablaşmalara və müvafiq surətdə debitor borcunun azalmasına şərait yaradır;

• debitorların analitik uçotunun və debitor borclarının vəziyyətinə daxili nəzarət sisteminin olması – barəsində müvafiq təsir tədbirləri görmək lazım olan debitorların tərkibini operativ surətdə aşkar etmək imkanı yaradır;

• alıcıların və sifarişçilərin müqavilələrdə nəzərdə tutulmuş hesablaşmaların qaydasının pozulmasına görə məsuliyyətinin müqavilə şərtləri. Bu məsuliyyətin səviyyəsi nə qədər yüksək olarsa, debitor borcu qalıqları o qədər az olur;

• debitor borclarının digər üsulla alınması və ya ödənilməsi siyasəti. Təşkilat debitorlarla işləməkdə nə qədər böyük fəallıq göstərərsə, debitor borclarının alınması (ödənilməsi) üzrə səmərəli tədbirlər dairəsi o qədər tam olur, hesablarda və müvafiq surətdə, mühasibat balansında onun qalıqları o qədər az olur.

• debitor borclarının təhlilinin keyfiyyəti və onun nəticələrindən istifadə edilməsindəki ardıcıllıq. Təşkilatda daimi peşəkar analitik iş aparılması debitor borclarının həcmi və «yaş» strukturu, vaxtı keçmiş borcların olması və həcmləri, habelə təşkilatın cari ödəmə qabiliyyətində problemlər yaradan, ödəmələri gecikdirən konkret debitorlar barədə informasiya formalaşmasını nəzərdə tutur.

Debitor borclarının strukturunun təhlili zamanı aşağıdakı göstəriciləri hesablamaq və dinamikada araşdırmaq tövsiyə edilir.

1. Debitor borclarının (DB) dövriyyə aktivlərinin (DA) ümumi həcmində payı (P_{DB}), o cümlədən uzunmüddətli (P_{UDB}) və qısamüddətli borcların (P_{QDB}) payı:

$$P_{DB}\left(\frac{DB}{DA}\right)^{1} = P_{UDB}\left(\frac{UDB}{DA}\right)^{1} + P_{QDB}\left(\frac{QDB}{DA}\right),^{1} \qquad (12.62)$$

burada UDB, QDB - təşkilatın uzun və qısa müddətli debitor borclarıdır.

Uzunmüddətli debitor borclarının payı (xüsusi çəkisi) nə qədər böyük olarsa, təşkilatın əmlakının strukuturu o qədər az sürətli olur.

[1] Mötərizələrdə göstəricinin hesablanması texnikası göstərilir.

2. Vaxtı ötmüş debitor borclarının (VÖDB) onun ümumi məbləğində payı ($P_{VÖDB}$), habelə dövriyyə aktivlərinin ümumi həcmində onun xüsusi çəkisi ($XÇ_{VÖDB}$):

$$P_{VÖDB} = \frac{VÖDB}{DB}; \qquad (12.63)$$

$$XÇ_{VÖDB} = \frac{VÖDB}{DA}; \qquad (12.64)$$

Nəzərdən keçirilən göstəriciləri uzun və qısa müddətli vaxtı ötmüş debitor borcları üzrə müfəssəlləşdirmək olar. Həmin göstəricilərin hesablanması zamanı nəzərə almaq lazımdır ki, müddətli və müddəti (vaxtı) ötmüş debitor borclarını fərqləndirirlər.

Müddətli debitor borcları müqavilələrdə və digər sənədlərdə nəzərdə tutulmuş hesablamalar formulası tətbiq edilməsi nəticəsində, vaxtı ötmüş isə – debitorlarla işin təşkil edilməməsi və ya borcun ödənilməsi üzrə görülən tədbirlərin səmərəsizliyi sayəsində yaranır. Belə borca göndərilmiş mallar və təhvil verilmiş işlər (yerinə yetirilmiş xidmətlərə) üzrə vaxtında ödənilməmiş hesablar, kreditə satılmış və vaxtında ödənəlmiş və vaxtında ödənilməmiş mallara görə hesablaşmalar, pul vəsaitləri vaxtında daxil olmamış veksellər və s. daxildir. Vaxtı ötmüş debitor borclarını səmərəsiz borc kimi qiymətləndirirlər.

Vaxtı ötmüş debitor borclarının xüsusi çəkisinin göstəriciləri debitor borcunun keyfiyyətini səciyyələndirir; vaxtı ötmüş borcun artması təşkilatın əmlakının satış (satılma) qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Müddətli və cari satış (satılma) qabiliyyəti göstəricilərinin səmərəsiz borclar sayəsində aşağı düşməsinin ölçüsünü vaxtı ötmüş debitor borcunun təşkilatın qısamüddətli öhdəliklərinə bölünməsi nəticəsində müəyyən etmək olar.[1]

Bundan sonra səmərəsiz debitor borclarının ödəmə müddəti qurtaran andan keçmiş günlərin sayından asılı olaraq aşağıdakı kimi bölüşdürmək lazımdır: 0-dan 30 günə, 30-dan 60 günə, 61-dən 90 günə qədər, 90 gündən artıq vaxt keçmiş.[2] Belə bölgü əgər

[1] Hesablama o halda aparılır ki, təşkilatda şübhəli borclar üzrə ehtiyat yaradılmır.
[2] Müasir nəşrlərdə, bir qayda olaraq, məhz belə bölgü tövsiyə olunur.

mənfəətdən vergi tutulması məqsədilə uçot siyasətində şübhəli borclar üzrə ehtiyatlar yaradılması nəzərdə tutulmuşdursa, onların yaranması prosesinə nəzarət edilməsinə də imkan yaradır.

Müvafiq bölgünü həm bütövlükdə debitor borclarının hamısı üzrə, həm də konkret alıcılar üzrə aparmaq məqsədəuyğundur, bu elə debitorları aşkar etmək imkanı verir ki, onlar barədə borcların qaytarılması üzrə ilk növbədə tədbir görmək lazımdır.

Dövriyyə aktivlərinin onlardan istifadə edilməsinin xarakteristikası olan dövr etməsinə təsir edən amil kimi debitor borclarının dövr etməsinin qiymətləndirilməsi üçün aşağıdakı əsas göstəricilər hesablanır.

1. Debitor borclarının dövr etməsi əmsalı ($Ə_{dövr}$ DB):

$$Ə_{dövrDB} = \frac{M_{əd}}{\overline{DB}} \qquad (12.65)$$

burada $M_{əd}$ – araşdırılan dövrdə malların, məhsulun (iş və xidmətlərin) və digər əmlakın satışından alınan mədaxildir; $\overline{DB}$ - debitor borcu qalığının orta miqdarıdır. Dövretmə əmsalı təhlil edilən dövr ərzində debitor borcunun dövrlərinin miqdarını, yəni həmin dövr ərzində onun neçə dəfə yaranması və ödənilməsi sayını əks etdirir.

2. Vəsaitlərin debitor borcunda möhkəmlənməsi əmsalı ($Ə_{m}$DB) - onun satışından alınan mədaxilinin bir manatına düşən miqdarını səciyyələndirir. Bu əmsal dövretmə əmsalının tərsinə göstəricisidir:

$$Ə_{mDB} = \frac{\overline{DB}}{M_{əd}} \qquad (12.66)$$

Möhkəmlənmə əmsalı nə qədər az olarsa, debitor borcuna avanslanmış vəsaitlərdən o qədər səmərəli istifadə edilir.

3. Debitor borclarının bir dövrünün günlərlə hesablanan orta uzunluğu (müddəti) ($U_{dövrDB}$):[1]

$$U_{dövrDB} = \frac{\overline{DB} \times G_s}{M_{əd.}} \qquad (12.67)$$

burada Gs -təhlil edilən dövrdəki günlərin sayıdır (30, 90, 180, 270, 360).

Bu göstərici debitor borclarının ödənilməsi (inkassa edilməsi) üçün orta hesabla lazım olan günlərin sayını əks etdirir. O, nə qədər böyük olarsa, müəssisənin əmlakının strukturu o qədər az mobil olur. Bir qayda olaraq, onun artması debitor borcunun ləğv edilmə qabiliyyətinin azalmasını göstərir.

Analitik təcrübədə məhz debitor borcunun dövrünün orta uzunluğu (müddəti) göstəricisindən daha çox istifadə edilir.

Debitor borclarının dövr etməsinin təhlili zamanı aşağıdakılar həyata keçirilir:

- təhlil edilən dövrdə debitor borclarının günlərlə hesbalanan dövr etməsinin əvvəlki hesabat dövrlərinin məlumatları ilə, sahə üzrə orta qiymətlər və müqavilələrin şərtlərinə əsaslanaraq hesablanmış gözlənilən orta dövr etmə dövr ilə müqayisə edilməsi;
- debitor borclarının dövr etməsinin dəyişilməsinin debitor borcunun orta həcminə təsirinin hesablanması.

Nəzərə almaq lazımdır ki, debitor borclarının orta məbləği satışın həcmindən və malın satışı və (pul gəlirinin daxil olması) mədaxilin alınması arasındakı orta vaxtdan (o, debitor borcunun bir dövrünün günlərlə ölçülən orta müddətilə səciyyələnir) asılı vəziyyətə qoyula bilər. Bu asılılığı aşağıdakı model kimi təqdim etmək olar:

$$\overline{DB} = \frac{M_{əd}}{G_S} \times \frac{\overline{DB} \times G_S}{M_{əd}} = M_{ədg} \times U_{dövrDB.} \qquad (12.68)$$

[1] Ədəbiyyatda bu göstəricinin digər adlarınada rast gəlinir: dövriyyə borcunun inkassa edilməsi dövrü, dövriyyə borcunun ödənilməsi dövrü.

burada $M_{ədg}$ - təhlil edilən dövrdə malların, məhsulun (iş və xidmətlərin) və digər əmlakın satışından alınan orta gündəlik mədaxildir.

Mütləq fərq üsulundan istifadə etməklə amillərin təsirinin hesablanmasının alqoritmi

$$\Delta\overline{DB}(\Delta Məd_g) = (Məd_{g1} - Məd_{g0}) \times U_{dövrDB_0}; \quad (12.69)$$

$$\Delta\overline{DB}(\Delta U_{dövr}DB) = (U_{dövrDB_1} - U_{dövrDB_0}) \times M_{ədg_1}; \quad (12.70)$$

$$\Delta\overline{DB} = \overline{DB}_1 - \overline{DB}_0 = \Delta\overline{DB}(\Delta M_{ədg}) + \Delta\overline{DB}(\Delta U_{dövrDB}); \quad (12.71)$$

Debitor borclarının təhlilinin növbəti istiqaməti onun cari dəyərinin müəyyən edilməsidir, yəni hesablaşmaların müddəti, şərtləri və vaxtının ötməsi dövrü kimi amillərin təsiri əsasında onun balans dəyərinin dəqiqləşdirilməsidir.

Debitor borclarının cari dəyərini, yəni göstərilən amilləri nəzərə almaqla onun ödənilməsi anına olan dəyərinin əsaslandırılmasına imkan yaradan əsas şərt debitor borcunun diskont edilmiş (uçota alınmış) dəyərinin müəyyən edilməsindən ibarətdir. Belə qiymətin iqtisadi mənası aşağıdakı kimidir. Debitor borclarının müəyyən, bəzən böyük vaxt keçdikdən sonra sərbəst pul vəsaitlərinə çevrildiyindən, onun cari həcmi müqavilə üzrə ödənilmə anına alınmalı hesab edilən məbləğə, yəni balans qiymətinə bərabər olmaya bilər. Deməli, mövcud debitor borclarının ödənilməsilə alınacaq pul vəsaitlərinin cari dəyərinin ölçüsünün müəyyən edilməsi üçün onu müəyyən edilmiş diskont edilmə dərəcəsini nəzərə almaqla diskont etmək lazımdır.

Fasiləsiz diskont edilən pul axınının cari dəyəri (PV) aşağıdakı düsturla müəyyən edilə bilər [38, s.226]:

$$PV = FV \times e^{-it}, \quad (12.72)$$

burada FV - pul vəsaitləri daxil olmasının gələcək məbləğidir (debitor borcunun balans dəyərinə uyğundur); t - debitor borcunun gözlənilən ödənilməsi dövrüdür;

i - diskont edilmə dərəcəsidir, aktivlərin əldə edilməsinin maliyyələşdirilməsi üçün cəlb edilən kapitalın yaranmış qiymətində alternativ xərcləri səciyyələndirir; e - konstantadır (e=2,718282).

Məsələn, 10000 manat debitor borcunun cari (diskont edilmiş) dəyəri kimi ödənilməsi müddəti 90 gün və illik dərəcəsi[1] 30% olduqda

$$10000 \times 2{,}718282^{-0{,}3\times 90/365} = 10000 \times 0{,}9287 = 9287 \text{ manat}$$

təşkil edəcəkdir.

Debitor borclarının azaldılması üzrə idarəetmə qərarlarının variantlarını seçərkən nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsində öhdəliklərin dayandırılmasının aşağıdakı bir sıra üsulları müəyyən edilir:

1) Dəbbə razılaşması (sazişi);
2) Öhdəliyə qarşılıqlı tələblərin əvəzləşdirilməsi ilə xitam verilməsi;
3) Borcun bağışlanması ilə öhdəliyin xitamı;
4) Müddətin keçməsinə görə öhdəliyin xitamı;
5) Öhdəliklərin icrası;
6) Öhdəliklərin icra edilməməsi;
7) Öhdəliklərin icra edilməməsi üçün məsuliyyət;
8) Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi;
9) Əmtəə kağızları.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təqdim etdiyi imkanlara əsaslanaraq, borclu ilə danışıqlar aparmaq və müvafiq hüquqi sənədlər tərtib etmək lazımdır. Bundan əlavə, qarşıda hesablaşmaların müddətinin qurtarması və ya onun pozulması barədə borcluya operativ xəbərdarlıq edilməsi də tələb olunur.

Təşkilatın maliyyə itkilərinin azaldılması məqsədilə mühasibat uçotunda və vergi uçotunda hesablamaları tutuşdurmaq və şübhəli borclar üçün ehtiyat vəsait yaratmaq lazımdır.

Alıcıların və sifarişçilərin onlara göndərilmiş mallara, məhsula (iş və xidmətlərə) görə debitor borclarının proqnozlaşdırılması zamanı debitor borclarına investisiya qoyulması ($İ_{DB}$) üçün zəruri maliyyə vəsaitlərinin məbləğini hesablamaq lazımdır [37, s. 146]:

[1] AR Mərkəzi bankının yenidən maliyyələşdirmə üzrə illik dərəcəsi.

$$İ_{DB} = \frac{SH_k \times ə^{Md}/_{Q} \times (\overline{AVK} + \overline{ÖG})}{360}, \quad (12.73)$$

burada SH_k -kreditə satılan məhsulun planlaşdırılan həcmidir; $ə^{Md}/_{Q}$ -məhsulun maya dəyəri və qiymətinin nisbəti əmsalıdır, onluq kəsirlə ifadə edilir; $\overline{AVK}$ -alıcılara verilən kreditin orta dövrüdür, günlərlə; ÖG - verilmiş borc üzrə ödəmələrin gecikdirilməsinin orta dövrüdür, günlərlə.

Debitor borclarının və mənfəətin təşkilatın kredit siyasətində (alıcılarla münasibətdə) dəyişikliklərlə əlaqədar proqnoz təhlili də müəyyən maraq doğurur. Onun metodikası Ü.Briqhemin və L.Qapenskinin əsərində şərh edilmişdir [56, s. 384-394]. Onlar kredit siyasəti tərkibində kredit verilməsi (ödəməyə möhlət verilməsi), malın daha tez müddətdə xərcini ödədikdə güzəşt edilməsi, intizamsız müştərilərə münasibətdə tədbirlər görülməsi kimi elementləri ayrıca qeyd edirlər. Göstərilən müəlliflər hər elementin dəyişilməsinin təşkilatın mənfəətinə təsirinin hesablanması metodikasını şərh edirlər. Onlar göstərirlər ki, əgər alıcılarla qarşılıqlı əlaqələrdə bütün dəyişikliklərin nəticəsində kredit siyasətində dəyişilmələr zamanı mümkün olan riski kifayətə qədər tam konpensasiya edən mənfəət artımı gözlənirsə, bu halda onları həyata keçirmək lazımdır.

Kreditor borclarının təhlili

Kreditor borclarının təhlili, prinsipcə, debitor borclarının təhlilindəki eyni istiqamətlər və eyni metodika üzrə həyata keçirilir, yəni bu halda aşağıdakıları araşdırmaq lazımdır:

- kreditor borclarının ümumi həcminin və onun ayrı-ayrı qruplarının və növlərinin həcminin dinamikasını;
- kreditor borclarının ümumi həcmində borcun hər qrupunun və konkret növünün xüsusi çəkisinin dəyişilməsini;
- kreditor borclarının ümumi həcmində vaxtı ötmüş öhdəliklərin, o cümlədən onların qruplarının və konkret növlərinin həcmini və xüsusi çəkisini;

- kredit borclarının bütövlükdə, həmçinin onun qrupları və ayrı-ayrı növləri üzrə dövr etməsini;
- ödənilməsi müddəti hesabat dövrünə düşən öhdəliklərin həcmini; bu əsas borc növləri üzrə qarşıda duran ödəmələr barədə nəticə çıxarmaq və müvafiq dövr üçün onların həcminin proqnozunu vermək imkanı yaradır;
- müvafiq dövr üçün kreditor borclarının proqnoz həcmini.

Kreditor borclarının ümumi həcminə aşağıdakı qruplar və növlər daxildir:

1. Xarici kreditor borcu, yəni kənar təşkilatlara və fiziki şəxslərə olan borc. Buraya aşağıdakılar aiddir:

a) əmtəə əməliyyatları üzrə borclar:
- mal göndərənlərə və podratçılara borclar;
- ödənilməli veksellər üzrə borclar;
- alınmış avanslar;

b) qeyri-əmtəə əməliyyatları üzrə borclar:
- büdcə qarşısında borclar;
- büdcədən kənar fondlara borclar;
- digər kreditorlar (kənar şəxslərə aid edilən).

2. Daxili kreditor borcu. Ona təşkilatın şəxsi heyətinə borc və digər kreditorlar (təşkilatın şəxsi heyətinə aid edilən) daxildir.

Bu zaman birinci qrupun tərkibində qısa və uzunmüddətli (əgər o, varsa) kreditor borclarını ayırmaq lazımdır.

Mühasibat balansında kreditor borclarının tərkibinə iştirakçılara (təsisçilərə) gəlirlərin ödənilməsi üzrə borclar daxil edilməmişdir. Lakin bu borc kreditor borcu xarakteri daşıyır və təhlil zamanı onun tərkibinə daxil edilməlidir.

Kreditor borclarının təhlili zamanı kreditor borclarının vaxtı keçmiş növlərini, onların məbləğini və gecikmə vaxtını günlərlə müəyyən etmək lazımdır. Bu məqsədlə kreditor borclarının ümumi tərkibindən mal göndərənlərlə (podratçılarla) və alıcılarla (sifarişçilərlə) bağlanmış müqavilələrdə (alınmış avanslar üzrə), Azərbaycan Respublikasının qanunvericiliyində (vergilər, sosial ödəmələr üzrə), əmək və kollektiv müqavilələrdə (əməyin ödənilməsi

üzrə) nəzərdə tutulmuş müddətlərdən artıq vaxt ərzində müəssisənin balansında olan borcları ayırmaq lazımdır.

Kreditor borclarının dövretməsinin səciyyələndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə edilir:

• dövr etmə əmsalı ($Ə_{dKB}$):

$$Ə_{dKB} = \frac{M_{əd}}{\overline{KB}}, \qquad (12.74)$$

burada $\overline{KB}$ -araşdırılan dövrdə kreditor borcunun qalığının orta miqdarıdır;

• möhkəmlənmə əmsalı ($Ə_m$ KB):

$$Ə_{mKB} = \frac{\overline{KB}}{M_{əd}} \qquad (12.75)$$

• kreditor borclarının bir dövrünün orta uzunluğu (müddəti) (U_{dKB})

$$U_{dKB} = \frac{\overline{KB} \times G_s}{M_{əd}} \qquad (12.76)$$

Dövr etmənin hesablanması zamanı faydalı dövriyyə kimi mədaxillə yanaşı satılmış məhsulun maya dəyərindən, habelə mövcud öhdəliklərin ödənilməsilə əlaqədar ödənişlərin məbləğindən istifadə edilə bilər.

Kreditor borclarının hesablanmaları zamanı faydalı dövriyyə kimi mədaxildən istifadə edilməsinin bəzi analitik üstünlükləri vardır, belə ki:

- kreditor borclarının bütövlükdə dövretməsini onun ayrı-ayrı növlərinin dövretməsilə uyğunlaşdırmaq;
- onun əsasında kreditor borclarının gözlənilən həcmini müəyyən etmək imkanı yaradır.

Lakin kreditor borclarının konkret növlərinin dövretməsinin hesablanması zamanı faydalı dövriyyə kimi öhdəliklərin müvafiq növünün ödənilməsi məbləğini, yəni həmin öhdəliyin uçota alındığı mühasibat hesabı üzrə debet dövriyyəsinin məbləğini qəbul etmək məqsədəuyğundur.

Dövretmə göstəricilərindən təşkilatın kreditor borclarının orta məbləğinin proqnozlaşdırılması zamanı istifadə edilir. Onun proqnozlaşdırılması metodikası İ.A.Blankın tədris kursunda şərh edilmişdir [37, s. 335-339].

Debitor və kreditor borclarının təhlili metodikasının müzakirəsinin yekununda qeyd edək ki, onların məbləğləri və dövretməsi cari maliyyə tələbatları göstəricilərinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Cari maliyyə tələbatı (CMT) – cari aktivlər (pul vəsaitlərindən başqa) və kreditor borcu arasında fərqdir, yaxud, eynilə, xammal, hazır məhsul ehtiyatlarına, habelə debitor borcuna immobilizə edilmiş (çevrilmiş) vəsaitlər və kreditor borclarının məbləği arasında fərqdir [45, s. 309-310].

CMT - nın həcmini ehtiyatların və debitor borclarının normal dövretməsinin təmin edilməsi üçün həmin dövriyyə aktivlərinin məcmu məbləğinin kreditor borcları ilə ödənilən hissəsinə əlavə kimi lazım olan vəsaitlərin həcmini səciyyələndirir.

Təşkilatın cari maliyyə tələbatını öz dövriyyə vəsaitləri mənbələri hesabına və (və ya) borc alınması yolu ilə maliyyələşdirmək lazım gəlir. CMT-nin dövriyyədə olan xüsusi kapitaldan artıq olması qısamüddətli kreditin zəruri məbləğini göstərir. CMT-nin miqdarı nə qədər az olarsa, bir qayda olaraq, təşkilata fasiləsiz fəaliyyətinin təmin edilməsi üçün öz vəsaitləri o qədər az tələb olunur.

12.9.4. Büdcə ilə hesablaşmaların vəziyyətinin təhlili

Kreditor borclarının təhlilinin tərkib elementi kimi büdcə ilə hesablaşmaların vəziyyətinin araşdırılması pul axınlarının tənzimlənməsinin təkmilləşdirilməsinə, vergi ödəmələrinin azaldılması hesabına xalis mənfəətin artırılması imkanlarının müəyyən edilməsinə və vergi penyaları və cərimələri ödənilməsinin qarşısının alınmasına yönəldilməlidir. Qarşıya qoyulmuş vəzifələrdən asılı olaraq təhlil operativ (hər gündəlik, on gündən bir) və (və ya) ardıcıl (seçilmiş hesabat dövrü ərzində) qaydada; bütün vergi ödənişləri üzrə yaxud seçmə

yolu ilə onların ayrı-ayrı növləri üzrə aparıla bilər. Analitik informasiya kimi təşkilatın vergi uçotunda olan məlumatlardan, vergi hesablamalarından (bəyannamələrindən), mühasibat hesabatından və mühasibat uçotunun «Vergilər və rüsumlar üzrə hesablaşmalar», «Sosial sığorta və təminat üzrə hesablaşmalar», «Şəxsi heyətlə əməyin ödənilməsi üzrə hesablaşmalar», «Satış», «Digər gəlirlər və xərclər» və s. kimi hesabları üzrə məlumatlardan istifadə edilir. Nəzərə almaq lazımdır ki, analitik informasiyanın reallığı tələbi onun qabaqcadan auditor yoxlamasını qarşıya qoyur.

Büdcə ilə hesablaşmaların təhlilinin ümumi sxemi, bir qayda olaraq, bir neçə mərhələdən ibarət olur.

Birinci mərhələ. Vergi strukturu, yəni ödənilmə üçün hesablanmış verginin, rüsumun və ödənişin (sonralar – verginin) onların bütün məcmusunda xüsusi çəkisi, habelə vergilərin bütün məcmusunun hesablanmış gəlirlərlə nisbəti kimi müəyyən edilən təşkilatın üzərinə düşən ümumi vergi yükü dinamikada öyrənilir. Bu xarakteristika hesablanan zaman gəlirlərin həcmi adi fəaliyyət növlərindən alınan mədaxilin (dolayı vergiləri nəzərə almaqla (mədaxil -brutto)), habelə digər gəlirlərin (əməliyyat və satışdan kənar) məbləği kimi hesablanır. Vergi yükünü dərindən öyrənən halda hesablanma mənbələrindən asılı olaraq vergilərin növləri üzrə xüsusi göstəriciləri hesablamaq məqsədəuyğundur. Məsələn, vergi yükü dolayı vergilər (ƏDV, aksizlər) sahəsində onların məbləğinin brutto mədaxilə nisbəti kimi, torpaq vergisi, mədən vergisi (faydalı qazıntılar hasilatı üzrə) sahəsində – onların məbləğinin istehsal və satış xərclərinə nisbəti kimi, mənfəət vergisi sahəsində – onun məbləğinin mühasibat üzrə mənfəətə nisbəti kimi və b.k. müəyyən edilir. Vergi strukturunun və vergi yükünün öyrənilməsi təhlilin və vergi ödəmələrinin tənzimlənməsinin birinci növbəli istiqamətlərini seçib ayırmaq imkanı yaradır.

İkinci mərhələ. Təşkilatın vergi tutulması məqsədilə müəyyən etdiyi uçot siyasətinin effekti, yəni vergi tutulan baza müəyyən edilərkən ayrı-ayrı toplananların hesablanmasının seçilmiş üsulu nəticəsində vergi yükünün azalması (artması) öyrənilir.

Burada nəzərə almaq lazımdır ki, vergi tutulması məqsədilə uçot siyasəti ilk növbədə büdcəyə ödənilməli olan mənfəət vergisinin hesablanması ilə əlaqədardır.

Azərbaycan Respublikasının VM-nin 10 -cu fəsli vergi tutulması məqsədilə uçot siyasətini, mənfəət vergisi tutulması bazasının formalaşması üçün onun bir sıra elementlərini: gəlirlərin və xərclərin qəbul edilməsi metodunu, xammal və materialları istehsala siləndə onların qiymətləndirilməsi metodunu, əsas vəsaitlərin və qeyri-material aktivlərin amortizasiyasının hesablanması metodunu, şübhəli borclar üzrə ehtiyat vəsaitlərin formalaşmasını müəyyən etmişdir. Göstərilən elementlərin hər birinin mənfəət vergisinin miqdarına təsirini onun mənfəətdən vergitutulması məqsədilə uçot siyasətinin müvafiq elementi üzrə təşkilat tərəfindən müəyyən edilmiş və alternativ variantların köməyilə hesablanmış məbləğlərinin müqayisə edilməsi yolu ilə hesablamaq olar.

Üçüncü mərhələ. Büdcəyə ödənilməsi hesablanmış vergilərin hər birinin dinamikası, habelə maliyyə planında müəyyən edilmiş ölçüdən fərqlənməsi müəyyən edilir. Vergilərin həcminə təsir edən səbəblər aydınlaşdırılır, onların vergi məbləğlərinin dəyişilməsinə (planlaşdırılandan fərqlənməsinə) təsirinin kəmiyyəti hesablanır, yəni vergi ödəmələrinin amillər üzrə təhlili həyata keçirilir. Məsələn, məhsulun bazar qiymətlərilə satılması və bir vergi dərəcəsi tətbiq edilməsi şəraitində ƏDV-nin dəyişilməsi səbəbləri aşağıdakı sadələşdirilmiş modelin köməyilə öyrənilə bilər. Bu model büdcəyə ödənilməli olan əlavə dəyər vergisinin məbləğinin müəyyən edilmiş hesablanması qaydası əsasında qurulmuşdur.

$$ƏDV = (VH \times VD + ÖQÖ \times VD + MİX \times VD + HM \times VD) - (ƏDV_{əe} + ƏDV_{öqö}) \quad (12.77)$$

burada VH-malların (iş və xidmətlərin) mülkiyyət hüquqlarının verilməsinin (göndərilməsinin, görülməsinin) həcmidir; VD - ƏDV dərəcəsidir; ÖQÖ-qarşıdakı mallar göndərilməsi (işlər görülməsi, xidmətlər göstərilməsi), mülkiyyət hüququ verilməsi hesabına ödəmişdir, qismən ödəmişdir; MİX -öz ehtiyacları üçün vergi tutma obyekti tərəfindən qəbul edilmiş mal verilməsi, iş görülməsi, xidmət

göstərilməsidir; HM-vergi tutulan malların (iş və xidmətlərin) ödənilməsi üzrə hesablaşmalarla əlaqədar daxil olmuş məbləğdir; (VH × VD + ÖQÖ × VD + MİX × VD + HM × VD), – ƏDV - nin hesablanmış məbləği; $ƏDV_{əe}$ - təşkilat mallar (iş və xidmətlər), mülkiyyət hüquqları əldə edən zaman ona satıcıların hesab-qaimələrdə təqdim etdiyi, habelə Azərbaycan Respublikasının gömrük ərazisinə mallar gətirən zaman onun ödədiyi verginin məbləğidir; $ƏDB_{öqö}$-qarşıdakı mal göndərilməsi (iş görülməsi, xidmət göstərilməsi), mülkiyyət hüquqları verilməsi hesabına alınmış məbləğdən təşkilatın hesabladığı ƏDV-dir; ($ƏDB_{əe}$+$ƏDV_{öqö}$) - vergi tutulmalarıdır.

Büdcəyə ödənilməli olan mənfəət vergisinin ($MV_{öd}$) məbləğinin dəyişilməsinin səbəblərini aşağıdakı sadə modeldən istifadə edərək müəyyən etmək olar:

$$MV_{öd} = VTM \times VD \qquad (12.78)$$

Vergi tutulan mənfəəti (VTM) balans mənfəəti (BM) və onun vergi tutulan mənfəətdən fərqinin (MF) cəmi kimi təsəvvür edilməsinin mümkünlüyünü nəzərə alaraq, (12.78) düsturu genişləndirilmiş şəkildə yazıla bilər:

$$MV_{öd} = (BM + MF) \times VD \qquad (12.79)$$

Amillər üzrə daha dərin təhlil edilən halda kombinasiya edilmiş (12.77) və (12.79) modelləri onların addutiv (toplanan) hissələrində nəzərə alınmış hər toplananın – amilin müfəssəlləşdirilməsi yolu ilə genişləndirilə bilər. Bu xüsusilə (12.79) modelində MF-nin həcminə münasibətdə xüsusilə maraqlıdır. O, mənfəət vergisinin uçotu qaydasına əsaslanan vergi və mühasibat uçotlarının məlumatlarının fərqi üzrə toplanır və deməli, müfəssəlləşdirilə bilər. MF amili belə müfəssəlləşdirildiyi halda $MV_{öd}$ - nin amillər üzrə təhlilinin genişləndirilmiş modeli (12.43) düsturundakı şəkildə olacaqdır.

Analoji sürətdə, müvafiq verginin hesablanmasının müəyyən edilmiş qaydaya əsaslanaraq, digər vergi ödəmələri üzrə də amillər modelləri qurmaq olar. Modellərdə nəzərə alınmış hər amilin müvafiq vergi ödənişinin dəyişilməsinə təsirinin hesablanması, yəni amillər üzrə miqdar təhlili iqtisadi təhlil nəzəriyyəsində öyrənilən kənar etmə üsulunun köməyilə həyata keçirilir. Amillər üzrə təhlil

vergi ödəmələrinin formalaşması prosesini əyani təsəvvür etmək, onların ölçüsünü tənzimləmək və onun azalması imkanlarını axtarıb tapmaq imkanı yaradır.

Dördüncü mərhələ. Vergilərin büdcəyə ödənilməsi müddətlərinə riayət edilməsi öyrənilir. Qeyd edildiyi kimi, büdcə ilə hesablaşmaların vergilərin ödənilməsinin qanunlarla müəyyən edilmiş müddətlərinə riayət edilməsi mövqeyindən vəziyyətini təşkilatın ödəmə qabiliyyətinin səviyyəsinin vizual xarakteristikalarından biri kimi nəzərdən keçirmək lazımdır. Büdcəyə vaxtı keçmiş borcun olması təhlil edilən dövrün müəyyən anlarında qeyri-qənaətbəxş ödəmə qabiliyyəti kimi səciyyələnir və Azərbaycan Respublikası VM-nin 65-ci maddəsinə uyğun olaraq penyalar hesablanması və büdcəyə ödənilməsi zərurəti doğurur.

Beşinci mərhələ. Xalis və bölüşdürülməmiş mənfəətə vergi ödəmələrinin vergi üzrə hüquq pozulmalarına görə hesablanmış penyaların və cərimələrin təsiri müəyyən edilir.

Mənfəət vergisi sahəsində bu məqsədlə (12.36) və (12.39) modellərindən istifadə etmək olar.

Bu modellərdən belə görünür ki, təşkilatın xalis və bölüşdürülməmiş mənfəəti onun müasir metodika ilə müəyyən edilməsi zamanı yalnız mühasibat üzrə mənfəətdən və cari mənfəət vergisindən (CMV) deyil, həm də təxirə salınmış vergi öhdəliklərindən (TSVÖ-xalis və bölüşdürülmüş mənfəətin azalması (artması) amilidir) və təxirə salınmış vergi aktivlərindən (TSVA-xalis və bölüşdürülməmiş mənfəətin artması (azalması) amilidir) asılıdır. Bu zamanı xalis və bölüşdürülməmiş mənfəətin ölçüsünə büdcəyə ödənilən cərimələr və penyalar mənfi təsir edir.

Vergilərin büdcəyə vaxtlı-vaxtında köçürülməməsilə əlaqədar penya hesablanması təşkilatın pul axınlarının idarə etməsinin qeyri-mükəmməl olmasını göstərir.[1] Vergilər üzrə hüquq pozulmaları ilə

[1] Əgər təşkilat maliyyə (pul) vəsaitləri məhdud olan halda onları müəyyən vaxt dövrü üçün xalis mənfəəti onun penya hesablanması ilə əlaqədar itkilərindən daha çox artıran alternativ variant üzrə istiqamətləndirmişdirsə, belə mülahizə kifayət qədər doğru olmaya bilər.

əlaqədar hesablanmış cərimələr daxili nəzarətin qeyri-kafi vəziyyətdə olmasının və mühasibat hesabatının auditinin aşağı keyfiyyətli aparılmasının nəticəsidir.

ƏDV və aksizlər kimi vergilər öz məzmununa, hesablanma və uçot texnikasına görə xalis mənfəətlə əlaqədar deyil.

Müəyyən edilmiş qaydalara uyğun olaraq məsariflərdə və ya əməliyyat xərclərində nəzərə alınan digər vergilər (torpaq, əmlak, nəqliyyat vergiləri(mühasibat üzrə və vergi tutulan mənfəətə təsir edir, yəni onu azaldır və beləliklə, mənfəət vergisinin dəyişilməsi sayəsində xalis mənfəətə təsir edir. Zəruri olduqda göstərilən vergilərin məbləğinin dəyişilməsinin xalis mənfəətin dəyişilməsinə təsirinin təcrid edilmiş (əlahiddə) hesablanması da mümkündür.

Belə ki, məsələn, xalis mənfəətə torpaq vergisinin (ΔTV) və əmlak vergisinin (ΔƏV) dəyişilməsinin təsiri aşağıdakı düsturlarla hesablanır:

$$\Delta XM(\Delta TV) = \Delta TV \times (1 - VD) \text{ əks işarə ilə} \qquad (12.80)$$

$$\Delta XM(\Delta ƏV) = \Delta ƏV \times (1 - VD) \text{ əks işarə ilə} \qquad (12.81)$$

Altıncı mərhələ. O, büdcə ilə hesablaşmaların vəziyyətinin təhlilində yekun mərhələdir. Əvvəlki beş mərhələdə aparılmış araşdırılmanın nəticələri ümumiləşdirilir, habelə:

- vergi ödəmələrinin hər birinin və bütövlükdə vergi yükünün tənzimlənməsi və azaldılması;
- penyalar hesablanmasına və ödənilməsinə yol verilməməsi məqsədilə pul axınlarının idarə edilməsinin təkmilləşdirilməsi;
- vergi hüquq pozulmalarına görə cərimə sanksiyaları hesablanmasının və ödənilməsinin qarşısının alınması məqsədilə mühasibat hesabatına daxili nəzarətin və auditin keyfiyyətinin yüksəldilməsi istiqamətləri işlənib hazırlanır.

12.9.5. Dövriyyə aktivlərindən istifadənin səmərəliliyinin təhlili

Dövriyyə aktivlərindən (dövriyyə vəsaitlərindən və ya dövriyyə kapitalından) istifadə edilməsinin səmərəliliyinin ümumiliklə qəbul edilmiş xarateristikaları onların dövr etməsi göstəriciləridir.[1] Dövr etmənin sürətləndirilməsi dövriyyə vəsaitinə tələbatın azalmasına, məhsulun həcminin artırılmasına, alınan mənfəətin məbləğinin artmasına və beləliklə, təşkilatın maliyyə vəziyyətinin sabitliyinin yüksəlməsinə imkan yaradır.

Dövriyyə aktivlərinin dövr etməsinin ölçülməsi üçün aşağıdakı göstəricilər sistemindən istifadə edilməsi qəbul olunmuşdur:

I. Dövriyyə aktivlərinin bütün məcmusundan istifadə edilməsinin səmərəliliyini səciyyələndirən ümumiləşdirici göstəricilər. Onlara aşağıdakılar aid edilir:

• dövr etmə əmsalı ($Ə_{dövr}$) – təhlil edilən dövr ərzində aktivlərin dövrlərinin miqdarını əks etdirir.

$$Ə_{dövr} = \frac{M_{əd}}{\overline{DA}}, \qquad (12.82)$$

burada $M_{əd}$ satışdan alınan mədaxildir;[2] $\overline{DA}$ -təhlil edilən dövr ərzində dövriyyə aktivlərinin qalığının orta dəyəridir, onu dövriyyə aktivlərinin mühasibat balanslarında hesabat ilinin əvvəlinə və hesabat dövrünün hər ayının sonuna qalıqlarına əsaslanaraq orta xronologiya düsturu ilə hesablamaq lazımdır;[3]

[1] Nəşrlərdə və bir sıra rəsmi metodikalarda dövretmə göstəricilərini haqlı olaraq həm də təşkilatın işgüzar fəaliyyətinin fəallığı göstəricisi kimi qiymətləndirirlər.

[2] Bu zaman hesabata ödəmə üzrə mədaxil qəbul edilməlidir, lakin onun miqdarının mühasibat hesabatında olmaması ilə əlaqədar, bir qayda olaraq, 2 saylı formada əks etdirilmiş mədaxili, yəni hesablama üzrə satışdan alınan mədaxili (dolayı vergilərsiz) nəzərə alırlar.

[3] Xarici təhlil zamanı dövriyyə aktivlərinin hər aylıq qalıqları barədə məlumatlar olmadığı halda onların orta miqdarını təhlil edilən dövrün əvvəlinə və sonuna qalıqlarının cəmini ikiyə bölməklə hesablayırlar.

• dövriyyə aktivlərinin möhkəmlənməsi (yüklənməsi) əmsalı ($Ə_{yük}$) -satışın həcminin (dolayı vergilərsiz) bir manatına düşən dövriyyə aktivlərinin miqdarını əks etdirir:

$$Ə_{yük} = \frac{\overline{DA}}{M_{əd}} \qquad (12.83)$$

yəni $Ə_{yük}$ $Ə_{dövr}$-ün əsas göstəricisidir;

• dövriyyə aktivlərinin bir dövrünün günlərlə hesablanan orta müddəti (uzunluğu) ($U_{dövr}$) - dövriyyə aktivlərinin bir tam dövrünün başa çatması üçün günlərin miqdarını əks etdirir:

$$U_{dövr} = \frac{\overline{DA} \times G_s}{M_{əd}} \qquad (12.84)$$

burada G_s – təhlil edilən dövrdə günlərin sayıdır (adətən ayda – 30 gün, rübdə – 90 gün, yarım ildə - 180 gün, doqquz ayda 270 gün və ildə – 360 gün qəbul edilir).

Təhlil təcrəbəsində sonuncu göstərici, yəni dövriyyə aktivlərinin bir dövrünün günlərlə hesablanan müddəti (uzunluğu) daha çox təsdiq olunur.

II. Xüsusi göstəricilər – dövriyyə aktivlərinin ayrı-ayrı qruplarının (növlərinin), yəni ehtiyatların (E), o cümlədən ayrı-ayrı toplananlar çərçivəsində,[1] əldə edilən sərvətlər üzrə ƏDV – nin, uzunmüddətli debitor borclarının (DBUM), o cümlədən ayrı-ayrı toplananlar çərçivəsində[1)], qısamüddətli debitor borclarının (DBQM), o cümlədən toplananları çərçivəsində[1)], qısamüddətli maliyyə qoyuluşlarının (MQ), o cümlədən toplananları çərçivəsində[1)], pul vəsaitlərinin (PV) və digər dövriyyə aktivlərinin (DDA) dövr etməsini səciyyələndirir.

[1] Toplananlar deyəndə bu halda Mühasibat balansının aktiv hissəsinin II və III bölmələrində və mühasibat hesabatının 5 saylı formasında göstərilmiş dövriyyə aktivlərinin müvafiq növünün açıqlanması anlaşılır.

Dövr etmənin xüsusi göstəriciləri (12.82) - (12.84) düsturları ilə hesablana bilər, lakin hesabata bütün dövriyyə aktivlərinin deyil, onların konkret qruplarının (növlərinin) orta dəyəri qəbul edilməlidir. Belə hesablama üsulunun üstünlüyü bütün dövriyyə aktivlərinin dövr etməsini onların ayrı-ayrı qruplarının (növlərinin) dövr etmələrilə qarşılıqlı əlaqələndirməyin mümkünlüyündən ibarətdir. Onu aşağıdakı kimi təsəvvür etmək olar:

$$U_{dövr} = U_{dövr}E + U_{dövr}ƏDV + U_{dövr}DBUM + U_{dövr}DBQM + \\ + U_{dövr}MQ + U_{dövr}PV + U_{dövr}DDA. \qquad (12.85)$$

Bu modeli dövriyyə aktivlərinin müəyyən qrupunu formalaşdıran toplananların hər birinin dövrünün orta müddəti üzrə onların orta müddətlərinin müfəssəlləşdirilməsi hesabına genişləndirmək olar.

Lakin nəzərə almaq lazımdır ki, dövriyyə aktivlərinin ümumi dövr etməsi, yəni mədaxil əsasında dövriyyə aktivlərinin ayrı - ayrı növlərinin dövr etməsini hesablayan zaman nəticə heç də həmişə həqiqəti, yəni dövriyyə aktivinin konkret növünün real dövr etməsini əks etdirmir. Bu onunla əlaqədar baş verir ki, onların hər biri öz fərdi dövrünü edir. Bu dövr, məsələn, xammal və material ehtiyatları üzrə – onların istehsal üçün sərfi ilə, bitməmiş istehsal üzrə – hazır məhsul buraxılışı ilə, hazır məhsul üzrə – onun göndərilməsi ilə, ƏDV üzrə – onun büdcəyə verilməsi ilə, debitor borcu üzrə – onun ödənilməsi ilə və s. başa çatır. Başqa sözlə, dövretmənin dəqiqləşdirilmiş xüsusi göstəriciləri hesablanan zaman dövriyyə aktivinin hər müəyyən növünün fərdi dövrü kimi mühasibat uçotunun dövriyyə aktivinin həmin növünün uçota alınması nəzərdə tutulan hesabı üzrə kredit dövrünü qəbul etmək lazımdır.

Təhlil zamanı aşağıdakılar öyrənilir:

• dövriyyə aktivlərinin dövr etməsinin ümumiləşdirici göstəricilərinin dinamikası (plandan fərqlənməsi);

• ümumiləşdirici göstəricilərin dəyişilməsinə dövriyyə aktivlərinin ayrı-ayrı növlərinin dövr etməsinin dəyişilməsinin təsiri, onları

(12.85) düsturu əsasında qurulmuş modelin köməyilə müəyyən etmək olar:

$$\Delta U_{dövr} = \Delta U_{dövr} E + \Delta U_{dövr} ƏDV + \Delta U_{dövr} DBUM + \Delta U_{dövr} DBQM + + \Delta U_{dövr} MQ + \Delta U_{dövr} PV + \Delta U_{dövr} DDA; \quad (12.86)$$

• dövretmənin dəyişilməsinin dövriyyə aktivlərinin həcminin dəyişilməsinə təsiri – aşağıdakı düsturla hesablanır:

$$\overline{DA} = \frac{M_{əd}}{G_s} \times \frac{\overline{DA} \times G_s}{M_{əd}} = Məd_{gün} \times U_{dövr} \quad (12.87)$$

burada $Məd_{gün}$ - mədaxilin ümumi həcminin təhlil edilən dövrdəki günlərin sayına bölünməsilə hesablanan satışdan (dolayı vergilərsiz) alınan orta gündəlik mədaxildir.

Satışdan alınan orta gündəlik mədaxilin və bir dövrün orta uzunluğunun (müddətinin) dövriyyə aktivlərinin orta miqdarının dəyişilməsinə təsirinin mütləq fərq üsulu ilə hesablanması zamanı aşağıdakı alqoritm tətbiq edilir:

$$\Delta\overline{DA}\left(\Delta Məd_{gün}\right) = \left(Məd_{gün_1} - Məd_{gün_0}\right) \times U_{dövr_0}; \quad (12.88)$$

$$\Delta\overline{DA}\left(\Delta U_{dövr}\right) = \left(\Delta U_{dövr_1} - \Delta U_{dövr_0}\right) \times Məd_{gün_1}; \quad (12.89)$$

$$\Delta\overline{DA} = \overline{DA}_1 - \overline{DA}_0 = \Delta\overline{DA}(\Delta Məd_{gün}) + \Delta\overline{DA}(\Delta U_{dövr}) \quad (12.90)$$

Dövrün günlərlə hesablanan orta uzunluğunun (müddətinin) dəyişilməsinin dövriyyə aktivlərinin ölçüsünə təsirini, yəni $\Delta DA(\Delta U_{dövr})$ -ni digər üsulla da hesablamaq olar. Bu zaman dövriyyə aktivlərinin dövriyyədən nisbi (eliminasiyası) çıxarılması (dövriyyəyə nisbi cəlb edilməsi) düsturundan istifadə edirlər:

$$EL_{\overline{DA}} = \overline{DA}_1 - \overline{DA}_0 \times JM_{əd} \quad (12.91)$$

burada $JM_{əd}$ - satışdan alınan mədaxilin (dolayı vergilərsiz) artım tempidir.

(12.89) və (12.91) düsturları ilə hesablamaların nəticələri eyni olmalıdır;

• dövriyyə aktivlərinin dövr etməsinin dəyişilməsinin satışdan alınan mədaxilin dəyişilməsinə təsiri. Onu (digər şərtlər eyni olduqda) aşağıdakı düsturla müəyyən etmək olar[1]

$$\Delta M_{əd}(\Delta Ə_{dövr}) = (Ə_{dövr_1} - Ə_{dövr_0}) \times \overline{DA}_1 = M_{əd_1} - M_{əd_0} \times J\overline{DA}, \quad (12.92)$$

burada $J_{\overline{DA}}$ dövriyyə aktivlərinin artım tempidir.

• dövriyyə aktivlərinin dövretməsinin dəyişilməsinin mənfəətin dəyişilməsinə təsiri. Onu (digər şərtlər eyni olduqda) aşağıdakı düsturla müəyyən etmək olar.[2]

$$\Delta XM\ (\Delta Ə_{dövr}) = XM_0 \times JƏ_{dövr} - XM_0, \quad (12.93)$$

burada $JƏ_{dövr}$ - dövriyyə aktivlərinin dövretmə əmsalının artım tempidir.

Təhlilin yekun mərhələsində dövriyyə aktivlərinin dövr etməsinin sürətləndirilməsi imkanları müəyyən edilməlidir. Onların arasında aşağıdakılar mühüm əhəmiyyətə malikdir:

• optimal mal göndərənlərin (iş və xidmətləri yerinə yetirənlərin) və alıcıların (sifarişçilərin) müəyyən edilməsi məqsədilə bazarın daim araşdırılması;

• aşağıdakı sahələrdə müqavilə siyasəti aparılması;

- o, material - istehsal ehtiyatları göndərilməsi (alınması) sahəsində göndərmələrin həcminin, ahəngdarlığının və keyfiyyətinin pozulmasına görə məsuliyyətin artırılmasına, güzəştlər tətbiq edilməsinə və s. yönəldilməlidir;

- o, satış sahəsində məhsul göndərilməsinin artırılmasına və ahəngdarlığına, onların tam yaxud qismən avanslaşdırılmaya, göndərmənin həcmindən və ahəngdarlığından, habelə satışın

[1] Bu hesablamaya metodik yanaşma N.N.Seleznyovanın, A.F.İonovanın tədris vəsaitində şərh edilmişdir[56, s. 283].

[2] Bu hesablamaya metodik yanaşma N.N.Seleznyovanın, A.F.İonovanın tədris vəsaitində şərh edilmişdir.

ödənilməsindən asılı olaraq güzəştlər və əlavələr sisteminin tətbiq edilməsinə, girovlar, zaminlik, zəmanətlər alınmasına yönəldilməlidir;

• mühasibat uçotu məqsədilə dövriyyə aktivlərinin balans qalıqlarının azalmasına yönəldilmiş uçot siyasətinin qəbul edilməsi;

• ehtiyatların və xərclərin normalarının və normativlərinin texnikada, texnologiyada, məhsulun çeşidində, sifarişlər portfelində və s. dəyişilmələr olduqda operativ dəqiqləşdirilməsini nəzərdə tutan çevik sistemin tətbiq edilməsi;

• hesablanmış tələbata uyğun ciddi ehtiyatların yaradılması;

• lazımsız (izafi) istehsal ehtiyatlarının və yarımfabrikatların satılması və onların satıla bilməyən hissəsinin silinməsi;

• Mühasibat balansında hesabda olan debitor borcunun vəziyyətinə operativ nəzarət edilməsi və şübhəli borclar üzrə ehtiyat vəsaitlər yaradılması, qarşılıqlı hesablaşmalar (zaçotlar) aparılması, yeniliklər, faktorinq, tələblərin güzəşt edilməsi, dəbbə pulu qəbulu, məhkəməyə müraciət edilməsi, habelə debitor borcunun ümidsiz hissəsinin silinməsi yolu ilə onun azaldılması.

12.10. Maliyyə vəziyyətinin sabitliyinin inteqral qiymətləndirilməsi

Analitik hesablamaların nəticələrini ümumiləşdirən zaman maliyyə vəziyyətinin sabitliyi səviyyəsinə ümumi qiymət vermək çətin olur. Bu onunla əlaqədardır ki, onun səciyyələndirilməsi üçün bir hissəsi yuxarıda nəzərdən keçirilmiş bir çox göstəricilərdən istifadə edilməsi tövsiyə edilir və istifadə edilir. Göstəricilərin bir çoxu üçün normativ qiymətlər olmur və ya tövsiyə edilən normativlərin səviyyəsində fərqlər olur. Bundan əlavə, təhlil prosesində ayrı-ayrı göstəricilərin müxtəlif istiqamətli dinamikası və onların faktiki qiymətlərinin müəyyən edilmiş normativlərdən fərqlənməsi aşkar edilir.

Bu çətinliklərin aradan qaldırılması üçün maliyyə vəziyyətinin inteqral qiymətləndirilməsi[1] metodikasını tətbiq etmək olar, bu halda maliyyə vəziyyətinin qiymətləndirilməsinin çox meyarlı üsulunun bir meyarlığa gətirilməsi həyata keçirilir.

Əməli (praktik) işdə maliyyə vəziyyətinin sabitliyi dərəcəsinin inteqral ballarla qiymətləndirilməsi metodikasından istifadə edilə bilər, onun əsasını təşkilatın pulları itirməsi və ya onların natamam qaytarılması ilə əlaqədar onlarla qarşılıqlı münasibətlərin riskinin səviyyəsi üzrə ranqlara bölünməsi (beş sinifdən birinə aid edilməsi) qoyulur. Bu zaman müəyyən sinfə aid edilmiş təşkilatlar öz sabitliyinə görə aşağıdakı kimi səciyyələnirlər:

I sinif – yüksək maliyyə sabitliyinə malik olan təşkilatlar. Onların maliyyə vəziyyəti idarəetmədə mümkün ola bilən hal üçün kifayət qədər ehtiyatlarla bütün öhdəliklərin vaxtlı - vaxtında və tam yerinə yetirilməsinə əmin olmaq imkanı verir.

II sinif – yaxşı maliyyə sabitliyinə malik olan təşkilatlar. Onların maliyyə sabitliyi ümumiyyətlə optimala yaxındır, lakin ayrı-ayrı əmsallar üzrə bəzi geriləməyə yol verilir. Belə təşkilatlarla qarşılıqlı münasibətlərdə risk əslində yoxdur.

III sinif – maliyyə vəziyyəti qənaətbəxş qiymətləndirilən təşkilatlar. Təhlil zamanı ayrı - ayrı əmsalların zəifliyi aşkar edilmiş olur. Belə təşkilatlarla qarşılıqlı münasibətlər zamanı vəsaitlərin itirilməsi təhlükəsi yəqin ki, olmur, lakin öhdəliklərin vaxtında yerinə yetirilməsi şübhəli görünür.

IV sinif – maliyyə vəziyyəti sabit olmayan təşkilatlar. Onlarda kapitalın strukturu qeyri - qənaətbəxşdir, ödəmə qabiliyyəti (satış qabiliyyəti) isə yol verilən qiymətlərin aşağı həddindədir. Belə təşkilatlara xüsusi diqqət yetirilir, çünki onlarla qarşılıqlı əlaqələr zamanı vəsaitlərin itirilməsi barədə müəyyən risk vardır.

[1] Belə qiymətləndirməni bəzən kompleksli, reytinqli və b.k. adlandırırlar.

V sinif – maliyyə vəziyyəti böhranlı olan, praktik sürətdə ödəmə qabiliyyəti olmayan təşkilatlar. Onlarla qarşılıqlı əlaqələr həddindən artıq risklidir.

Maliyyə vəziyyətinin sabitliyinin inteqral ballarla qiymətləndirilməsinin təklif edilən metodikasının tərkib elementləri aşağıdakılardır:

- təşkilatın maliyyə vəziyyətini səciyyələndirən əsas əmsallar sistemi ($Ə_1$, $Ə_2$, $Ə_3$, $Ə_4$, $Ə_5$, $Ə_6$, - onların hesablanmasının məzmunu və metodikası yuxarıda nəzərdən keçirilmişdir);

- maliyyə vəziyyətinin qiymətləndirilməsində əhəmiyyətini səciyyələndirən ballarla əmsalların reytinqi, onların qiymətlərinin təşkilatın müəyyən sinfə aid edilməsi üçün zəruri olan yuxarı və aşağı hədləri və yuxarı həddən aşağı hədlərə keçirilmə qaydası (reytinq, hədlər və keçid qaydası ekspert yolu ilə müəyyən edilmişdir) – cədvəl 12.15.

Maliyyə vəziyyətinin qiymətlərinin səviyyəsinə görə təşkilatların sinfinin müəyyən edilməsi 12.16 cədvəlində verilmişdir.

12.16 cədvəlinin və 12.5 və 12.6-da hesablanmış əmsalların faktiki qiymətlərinin əsasında 12.17 cədvəlində maliyyə vəziyyətinin sabitliyinin inteqral qiymətləndirilməsi həyata keçirilmişdir. O, göstərdi ki, mühasibat hesabatının 1 saylı forması 12.1 cədvəlində verilmiş təşkilat ilin əvvəlinə əgər müəyyən çətinliklə yalnız III sinfə aid edilə bilirsə, əmsalların səviyyəsinin artması onu hesabat dövrünün sonunda II sinfə yaxınlaşdırmışdır. Dəqiqləşdirilmiş göstəricilər əsasında aparılmış hesablamalar isə təşkilatı kifayət qədər inamla II sinfə, yəni maliyyə sabitliyi optimala yaxın olan, onlarla qarşılıqlı münasibətlərdə əslində risk olmayan sinfə aid etmək olar.

Cədvəl 12.15

Təşkilatın maliyyə vəziyyətinin göstəricilərinin qiymətlərinin meyarlıq səviyyəsi

Maliyyə sabitliyi göstəriciləri[1]	Göstəricinin reytinqi	Meyarlıq səviyyəsi		Meyarlıq səviyyəsinin aşağı düşməsi
		yüksək	aşağı	
Mütləq likvidlik əmsalı ($Ə_4$)	20	0,5 və daha yüksək - 20 bal	0,1-dən az – 0 bal	0,5-lə müqayisədə hər 0,1 azalmaya görə 4 bal çıxılır
Təcili (tez) likvidlik əmsalı ($Ə_5$)	18	1.5 və daha yüksək – 18 bal	1-dən az – 0 bal	1,5-lə müqayisədə hər 0,1 azalmaya görə 3 bal çıxılır
Cari likvidlik əmsalı ($Ə_6$)	16,5	3 və daha yüksək – 16,5 bal	2-dən az – 0 bal	3-lə müqayisədə hər 0,1 azalmaya görə 1,5 bal çıxılır
Ümumi maliyyə müstəqilliyi əmsalı ($Ə_1$)	17,0	0,6 və daha yüksək – 17 bal	0,4-dən az – 0 bal	0,6 ilə müqayisədə hər 0,01 azalmaya görə 0,8 bal çıxılır
Dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_2$)	15,0	0,5 və daha yüksək – 15 bal	0,1-dən az – 0 bal	0,5 ilə müqayisədə hər 0,1 azalmaya görə 3 bal çıxılır
Ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_3$)	13,5	1 və daha yüksək – 13,5 bal	0,5-dən az – 0 bal	1 ilə müqayisədə hər 0,1 azalmaya görə 2,5 bal çıxılır
Yekun	100	X	X	X

[1] Göstəricilər qiymətləndirmədə əhəmiyyətinə görə yerləşdirilmişdir.

Cədvəl 12.16

Maliyyə vəziyyəti göstəricilərinin qiymətlərinin səviyyəsi üzrə təşkilatın sinfinin müəyyən edilməsi

Maliyyə sabitliyi göstəriciləri	Müəssisələrin siniflərinin meyarlıq hədləri					
	I sinif	II sinif	III sinif	IV sinif	V sinif	
Mütləq likvidlik əmsalı ($Ə_4$)	0,5 və yüksək= =20 bal	0,4=16 bal	0,3=12 bal	0,2 = 8 bal	0,1= 4 bal	0,1-dən az = =0 bal
Təcili (tez) likvidlik əmsalı ($Ə_5$)	1,5 və yüksək= = bal	14=15 bal	1,3=12 bal	1,2 -1,1=9 -6 bal	1,0=3 bal	1,0-dən az = =0 bal
Cari likvidlik əmsalı ($Ə_6$)	3 və yüksək = =6,5 bal	2,9 - 2,7= =5 -12 bal	2,6 -2,4= =10,5-7,5 bal	2,3 -2,1= = 6 -3 bal	2 = 1,5 bal	2 - dən az = = 0 bal
Ümumi maliyyə müstəqilliyi əmsalı ($Ə_1$)	0,6 və yüksək=17 bal	0,59 - 0,54= =16,2 --12,2 bal	0,53 - 0,48= =11,4-7,4 bal	0,47-0,44= =6,6 –1,8 bal	0,4=1 bal	0,4-dən az = =0 bal
Dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_2$)	0,5 və yüksək = =15 bal	0,4 = 12 bal	0,3 = 9 bal	0,2 = 6 bal	0,1=3 bal	0,1-dən az = = 0 bal
Ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_3$)	1 və yüksək = =13,5 bal	0,9=11 bal	0,8=8,5 bal	0,7-0,6= =6.0 -3,5 bal	0,5=1 bal	0,5-dən az = = 0 bal
Yekun	100	78	56	35	14	

Cədvəl 12.17

Təşkilatın maliyyə vəziyyətinin sabitliyinin inteqral qiymətləndirilməsi

Sıra sayı	Maliyyə vəziyyətinin sabitliyi göstəriciləri	Hesabat dövrünün əvvəlinə		Hesabat dövrünün sonuna	
		faktiki qiymət	balların miqdarı	faktiki qiymət	balların miqdarı
1	Mütləq likvidlik əmsalı ($Ə_4$)	0,23	8	0,99	20
2	Təcili (tez) likvidlik əmsalı ($Ə_5$)	1,04	3	1,14	6
3	Cari likvidlik əmsalı ($Ə_6$)	1,52	0	1,92	0
4	Ümumi maliyyə müstəqilliyi əmsalı ($Ə_1$)	0,60	17	0,74	17
5	Dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_2$)	0,34	9	0,47	15
6	Ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_3$)	1,26	13,5	1,31	13,5
7	Yekun	x	50,5	x	71,5
	Maliyyə vəziyyətinin sabitliyinin dəqiqləşdirilmiş göstəriciləri				
8	Mütləq likvidlik əmsalı ($Ə_4$)	0,37	16	1,19	20
9	Təcili (tez) likvidlik əmsalı ($Ə_5$)	1,49	18	1,23	9
10	Cari likvidlik əmsalı ($Ə_6$)	1,62	0	1,97	1,5
11	Ümumi maliyyə müstəqilliyi əmsalı ($Ə_1$)	0,65	17	0,76	17
12	Dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_2$)	0,42	12	0,52	15
13	Ehtiyatlar sahəsində maliyyə müstəqilliyi əmsalı ($Ə_3$)	1,55	13,5	1,44	13,5
14	Yekun	x	76,5	x	76,0

V.V.Kovalyov və O.N.Volkova [39, s. 407-415] habelə A.D.Şeremet, R.S.Sayfulin və Y.V.Neqaşev [43, s. 179-192] tərəfindən təklif edilən reytinq qiymətləndirilməsinin yuxarıda nəzərdən keçirilməndən fərqli digər metodikalar da maraqlıdır.

Təşkilatlara kredit verilməsinin mümkünlüyünü müəyyən edən zaman onların maliyyə sabitliyinin qiymətləndirilməsi zərurəti praktiki olaraq hər kommersiya bankı tərəfindən borc alanın kredit

qabiliyyətinin inteqral qiymətləndirilməsi barədə öz metodikasının işlənib hazırlanmasına səbəb olmuşdur.[1]

Belə qiymətləndirmə aşağıdakıların əsasında həyata keçirilir:

- bankın rəyinə görə təşkilatın maliyyə vəziyyətini daha tam səciyyələndirən göstəricilərin seçilməsinin (göstəricilərin tərkibinə ənənəvilərlə yanaşı adətən rentabellik də daxil edilir);
- bankın qəbul etdiyi metodika üzrə həmin göstəricilərin faktiki qiymətlərinin hesablanmasının və onların borc alan təşkilatın hər sinfi üçün bankın özünün müəyyən etdiyi meyarlıq səviyyəsilə müqayisəsinin. Bu zaman meyarlıq səviyyələri adətən, təsərrüfatı sahələri üzrə fərqli müəyyən edilir;
- hər göstərici üzrə balların miqdarının və balların ümumi məbləğinin müəyyən edilməsilə. Sonuncu təşkilatı kredit qabiliyyətliliyi üzrə, bir qayda olaraq, beş sinifdən birinə aid etmək imkanı yaradır. Kredit qabiliyyətliliyi deyəndə müştərinin bank qarşısında öz öhdəlikləri üzrə vaxtlı-vaxtında və tam hesablanmasının mümkünlüyü anlaşılır.

Beş sinifdən hər birinə aid olan təşkilatların kredit qabiliyyətliliyinin səciyyələnməsi banklarda əsas etibarilə eynidir:

• 1-ci sinfə maliyyə vəziyyəti çox sabit olan müştərilər aid edilir. Onlara verilən kreditlərin risk dərəcəsi aşağıdır;

• 2-ci sinifə maliyyə vəziyyəti kifayət qədər sabit olan müştərilər aid edilir. Onlara verilən kreditlərin risk dərəcəsi kifayət qədər yüksək kateqoriyalı korporativlik şəraitində aşağı olur. Korporativlik kateqoriyası aşağı olduqda kreditlərin normal (yol verilən) risk dərəcəsi olur.

• 3-cü sinifə maliyyə vəziyyəti sabit olan müştərilər aid edilir. Onlara verilən kreditlərin riski normal (yol verilən) dərəcədə, yüksək kateqoriyalı korporativlik şəraitində isə aşağı dərəcədə olur.

[1] Bankın konkret təşkilata kredit münasibətləri yalnız onun kredit qabiliyyətliliyilə deyil, həm də korporativlik kateqoriyası ilə (bankla münasibətlərinin tarixilə), hesablaşma hesabında pul vəsaitlərinin axınının müntəzəmliyilə, təminatlı olması ilə və digər amillərlə müəyyən edilir.

• 4-cü sinifə maliyyə vəziyyəti qənaətbəxş olan müştərilər aid edilir. Onlara verilən kreditlərin riski yüksək kateqoriyalı korporativlik və kifayət qədər təminatlıq şəraitində normal (yol verilən) dərəcədə olur.

• 5-ci sinifə elə müştərilər aid edilir ki, onlara yüksək korporativlik kateqoriyası və kifayət qədər təminat şəraitində normal (yol verilən) dərəcədə riskdə kredit verilir. Nəzərə almaq lazımdır ki, əslində bütün kommersiya banklarında maliyyə-təsərrüfat fəaliyyətilə məşğul olmayan və ya onu altı aydan artıq müddətdə həyata keçirməyən (hesablaşma hesabları üzrə vəsaitlərin hərəkəti olmayan) müştəri kredit qabiliyyətliliyinin 5-ci sinfinə aid edilir.

Təşkilatların maliyyə vəziyyətinin (kredit qabiliyyətinin inteqral qiymətləndirilməsinin bank metodikalarının nəzərdən keçirilməsi göstərmişdir ki, onların qurulmasının ümumi prinsiplərinə baxmayaraq, onlar göstəricilər sistemilə də, mahiyyətcə eyni göstəricilərin hesablanması qaydası ilə də, meyarlıq hədlərilə də, reytinq qiymətlərilə də fərqlənirlər.

Yuxarıda şərh edilənlərlə əlaqədar olaraq, göstəricilərin optimal sisteminin, onların hesablanmasının əsaslandırılmış metodikasının işlənib hazırlanması, habelə onların ayrı-ayrı sahələr üzrə fərqli və sahədə yaranmış qiymətlərə əsaslanan və inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə onların normativ (normal) ölçülərini nəzərə alan normativ miqdarlarının müəyyən edilməsi maliyyə vəziyyətinin sabitliliyinin inteqral qiymətinin obyektivliyinin yüksəldilməsi sahəsində çıx mühüm metodiki vəzifələrdir.

Qeyd etmək lazımdır ki, 14.3-cü paraqrafda nəzərdən keçirilmiş müəssisənin potensial müflisləşmə ehtimalının qiymətləndirilməsi metodikası da mahiyyətcə təşkilatın maliyyə vəziyyətinin inteqral qiymətləndirilməsi üsullarıdır.

Yekunda qeyd etmək lazımdır ki, hazırda:

• əvvəla, nəşrlərdə və rəsmi sənədlərdə maliyyə vəziyyətilə əlaqədar baza anlayışlarının tərifində vəhdət yoxdur;

• ikincisi, maliyyə vəziyyətinin təhlili sahəsində mütəxəssislərin tövsiyyələri həm tətbiq edilən göstəricilər, həm də terminologiya üzrə

böyük müxtəlifliklə fərqlənir, icra hakimiyyəti orqanlarının göstərişləri (tövsiyələri) isə kifayət qədər sistemli deyil və öz aralarında yekdil (uyğunlaşdırılmış) xarakter daşımır;

• üçüncüsü, xarici və daxili təhlilin imkanları əhəmiyyətli dərəcədə daim dəyişən və təkmilləşən analitik informasiya ilə müəyyən edilir;

• dördüncüsü, maliyyə vəziyyətin təhlili – kifayət qədər mürəkkəb yaradıcı işdir, ekspress - qiymətləndirmə, xarici və daxili təhlil, operativ və dərin tədqiqat metodikalarını bilməyi, çoxsaylı sistemsiz təklif edilənlər arasından zəruri olan mümkün göstəriciləri seçmək, onlara sistemli ifadə vermək, normativləri əsaslandırılmış surətdə tətbiq etmək, dinamik dəyişilmələri düzgün qiymətləndirmək, amillər üzrə təhlil etmək bacarığı və s. tələb edir.

Yuxarıda deyilənlər göstərir ki, maliyyə vəziyyətinin təhlili metodikası gələcəkdə daimi anlaşılma və təkmilləşdirilmə tələb edir.

Yoxlama sualları?

1. Maliyyə vəziyyətinin təhlilinin əsas vəzifələri və istiqamətləri hansılardır?
2. Maliyyə vəziyyətinin təhlili üçün hansı metodlar tətbiq edilir?
3. Mühasibat uçotunun, o cümlədən onun formalarının nümunəsinin hər bölməsinin tərkibi və məzmunu necədir?
4. Mühasibat balansının maddələrinin məzmununu hansı normativ əsas müəyyən edir?
5. Maliyyə vəziyyətinin qiymətləndirilməsinin əsas göstəriciləri sisteminin tərkibi necədir?
6. Maliyyə vəziyyətinin ekspress-təhlilinin mahiyyəti nədən ibarətdir?
7. Maliyyə müstəqilliyi nədir və onu səciyyələndirən mütləq və nisbi göstəricilər sistemi necədir? Onların hesablanması metodikası necədir?
8. Maliyyə müstəqilliyinin qiymətləndirilməsinin meyarları hansılardır?

9. Ödəmə qabiliyyəti və likvidlik nədir və onların fərqi nədədir? Onlar hansı göstəricilərlə səciyyələnir və həmin göstəricilərin hesablanması metodikası necədir?
10. Xalis aktivlər nədir və onların hesablanması metodikası necədir?
11. Pul axınları deyəndə nə anlaşılır (başa düşülür) və onların təhlilində məqsəd nədir?
12. Pul vəsaitlərinin son qalığının miqdarını hansı amillər müəyyən edir?
13. Mühasibat hesabatının 1 saylı formasında əks edilən bölüşdürülməmiş mənfəətin formalaşmasının amillər üzrə mexanizmi necədir?
14. Mühasibat hesabatında xalis mənfəətin hesablanması qaydası necədir?
15. Borc kapitalı hansı elementlərdən ibarətdir və hansı şəraitdə onun cəlb edilməsi səmərəlidir?
16. Maliyyə linginin təsirinin (effektinin) hesablanmasının mahiyyəti nədən ibarətdir?
17. Debitor borcunun tərkibi necədir və onun həcminə hansı amillər təsir edir?
18. Xarici və daxili kreditor borcunun tərkibi necədir və onun təhlili zamanı hansı göstəricilərdən istifadə edilir?
19. Təşkilatın cari maliyyə tələbatları deyəndə nə anlaşılır?
20. Büdcə ilə hesablaşmaların vəziyyətinin təhlil edilməsinin əsas mərhələləri hansılardır?
21. Vergi ödəmələrinin amillər üzrə təhlilinin məqsədi nədən ibarətdir?
22. Büdcəyə ödənilməli olan ƏDV-nin və mənfəət vergisinin amillər üzrə modellərinin məzmunu necədir?
23. Dövriyyə aktivlərindən istifadə edilməsinin səmərəliliyi göstəricilərinin hansı sistemi tətbiq edilir?
24. Maliyyə vəziyyətinin sabitliyinin inteqral qiymətləndirilməsi hansı məqsədilə həyata keçirilir?
25. Bankların və təşkilatların kredit münasibətlərini nə müəyyən edir.

XIII FƏSİL

TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ - TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN KOMPLEKS QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASI

Kompleks qiymətləndirmə sistemli analitik tədqiqatdır, bu prosesdə təşkilatın fəaliyyətinin əvvəllər geniş öyrənilmiş aspektlərinin məcmu halında araşdırılması əsasında onun səmərəliliyinin ümumiləşdirici xarakteristikası verilir. Kompleks qiymətləndirmənin məqsədi təşkilatın bazarda real vəziyyətini adekvat əks etdirən tədqiqat nəticələrinin əldə edilməsidir. Onun zəruriliyi təşkilatın fəaliyyətinin sərbəst təhlilindən əldə edilən nəticələrin çox zaman bir-birilə ziddiyyət təşkil etməsindən irəli gəlir.

Müasir Azərbaycanın bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin fəaliyyətinin kompleks qiymətləndirilməsi çoxməqsədli istiqamətə malikdir.

Kommersiya təşkilatını maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinə kompleks yanaşma banklara, birjalara, sığorta şirkətlərinə, investisiya fondlarına və bazarın digər iştirakçılarına biznes üzrə tərəfdaşın real (mötəbərlik) dərəcəsini çox böyük yəqinliklə müəyyən etmək imkanı yaradır.

Dinamik dəyişən bazar mühiti şəraitində kompleks qiymətləndirmə təşkilatın sahiblərinə və rəhbərliyinə:

- ümumiləşdirici göstəricilərin formalaşmasına ayrı-ayrı struktur bölmələrinin fəalliyyətinin nəticələrinin təsiri dərəcəsini müəyyən etmək;
- ayrı-ayrı fəaliyyət növlərinin inkişafı perspektivinin problemlərini həll etmək;

- təşkilatın qısamüddətli və uzunmüddətli inkişaf strategiyasını əsaslandırmaq və s. imkanı verir.

Təhlil edilən təşkilatın fəaliyyətinin kompleks qiymətləndirilməsinin həyata keçirilməsi Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin, Maliyyə Nazirliyinin, Qiymətli kağızlar bazarı üzrə Dövlət komitəsinın və d., sahə nazirliklərinin və idarələrinin əsas funksiyalarıdır.

Assosiasiyalarda, holdinqlərdə, maliyyə-sənaye qruplarında və bazarın digər iri iştirakçılarında fəaliyyətin nəticələrinin qiymətləndirilməsinə kompleks yanaşma xüsusi əhəmiyyət kəsb edir

Kompleks qiymətləndirmə zamanı iqtisadi təhlil metodları ilə yanaşı statistik və iqtisadi-riyazi metodlardan geniş istifadə edilir.

İqtisadi ədəbiyyatlarda təşkilatların fəaliyyətinin kompleks qiymətləndirilməsi prosesində onun nəticələrini daha düzgün əks etdirən inteqrasiya edilmiş (məcmu) göstəricilərin qurulması və ondan istifadə edilməsi metodları haqqında məsələ geniş müzakirə edilmişdir [52, s. 22].

İstehsalın iqtisadi səmərəliliyi səviyyəsinin ümumiləşdirici göstəricisi kimi R.M.Petuxov [52] aşağıdakı düsturla hesablanan əmsalı təklif etmişdir:

$$\text{İSƏ} = \frac{\text{ÜM}}{(\text{ƏF} + \text{DV} + \text{İQ}) \times \text{Ə}_{\text{n}} + \text{İX}} = \frac{\text{ÜM}}{\text{MX}}, \qquad (13.1)$$

burada İSƏ - istehsalın iqtisadi səmərəliliyi əmsalıdır; ÜM-illik ümumi məhsuldur (müqayisəli topdan satış qiymətlərində hesablanır); ƏF-əsas istehsal fondlarının orta illik dəyəridir; DV-dövriyyə vəsaitləridir; İQ - istehsalat bölməsinin kadrlarının iqtisadi qiymətidir; Ən - kapital qoyluşunun iqtisadi səmərəliliyinin normativ əmsalıdır İX - bu istehsal bölməsinin illik istehsal xərcləridir (ümumi məhsulun maya dəyəridir); MX - ümumiləşdirilmiş məcmu xərclərdir və ya istehsalın dəyəridir.

A.D.Şeremet və Y.V.Neqaşev qeyd edirlər ki [53], «aktivlərin rentabelliyi şəklində təbii, bazar iqtisadiyyatının özünün verdiyi

inteqral səmərəlilik göstəricisi» vardır və müəssisənin fəaliyyətinin səmərəliyinin kompleks qiymətləndirilməsini aktivlərin rentabelliyinin beşamilli modeli əsasında həyata keçirməyi təklif edirlər, etiraf edirlər ki, bu göstərici «müəssisənin maliyyə vəziyyətini heç də tam əhatə etmir».

Bizim fikirmizcə, təsərrüfat fəaliyyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsinin meyarı iqtisadi ədəbiyyatda geniş təqdim edilmiş iqtisadi artımın sabitliyi əmsalı ola bilər [məsələn, 50, s. 145-150].

İqtisadi artımın sabitliyi əmsalı (İASƏ) təşkilatın xüsusi kapitalında istehsala reinvestisiya edilmiş xalis mənfəətin payını səciyyələndirir və aşağıdakı düsturla hesablanır.

$$\text{İASƏ} = \frac{\text{XM}_r}{\overline{\text{XK}}}, \qquad (13.2)$$

burada XM_r - təhlil edilən dövr, (məsələn, il) ərzində istehsala reinvestisiya edilmiş xalis mənfəətdir; $\overline{\text{XK}}$ - xüsusi kapitalının orta məbləğidir.

Amillər üzrə təhlil məqsədilə İASƏ-nin onun səviyyəsinə təsir edən amillərdən asılılığının genişləndirilmiş modeli aşağıdakı düsturla təqdim edilə bilər:

$$\text{İASƏ} = \frac{\text{XMr}}{\text{XM}} \times \frac{\text{XM}}{\text{M}_{\text{əd}}} \times \frac{\text{M}_{\text{əd}}}{\overline{\text{XDK}}} \times \frac{\overline{\text{XDK}}}{\overline{\text{DA}}} \times \frac{\overline{\text{DA}}}{\overline{\text{QÖ}}} \times \frac{\overline{\text{QÖ}}}{\overline{\text{K}}} \times \frac{\overline{\text{K}}}{\overline{\text{XK}}}, \qquad (13.3)$$

burada XM - dövr ərzində xalis (bölüşdürülməmiş) mənfəətdir; $\text{M}_{\text{əd}}$ - dövr ərzində satışdan daxil olan pul gəliridir - mədaxildir; $\overline{\text{XDK}}$ - dövr ərzində xüsusi dövriyyə kapitalının orta məbləğidir; $\overline{\text{DA}}$ - dövr ərzində dövriyyə aktivinin orta dəyəridir; $\overline{\text{QÖ}}$ - dövr ərzində qısamüddətli öhdəliklərin orta məbləğidir; $\overline{\text{K}}$ - dövr ərzində məcmu kapitalın orta məbləğidir.

İqtisadi artımın sabitliyi əmsalının yeddi amilli modeli əsasında onun səviyyəsinin dəyişilməsinə aşağıdakı amillərin təsirinin kompleks qiymətləndirilməsi mümkündür:

- istehsala reinvestisiya edilmiş xalis mənfəətin onun ümumi məbləğində xüsusi çəkisinin;
- satışın rentabelliyinin;
- xüsusi dövriyyə kapitalının dövr etməsinin (dövrlərin miqdarının);
- dövriyyə aktivlərinin xüsusi dövriyyə kapitalı ilə təminatının;
- cari likvidlik əmsalının;
- qısamüddətli öhdəliklərin kapitalda xüsusi çəkisinin;
- maliyyə asılılığı əmsalının.

Beləliklə, həmin əmsaldan inteqrasiya edilmiş qiymətləndirmə göstəricisi kimi istifadə edildikdə maliyyə - təsərrüfat fəaliyyətinə aşağıdakı müxtəlif amillərin təsiri müəyyən edilir:

- investisiya və dividend siyasətinin xarakteri;
- məhsulun istehsalına və satışına cari xərclərin səmərəlilik səviyyəsi;
- dövriyyə aktivlərindən istifadənin səmərəlilik səviyyəsi;
- kapitalın strukturu;
- ödəmə qabiliyyətinin səviyyəsi;
- borc kapitalının cəlb edilməsi və istifadəsinin səmərəliliyi.

İqtisadçı alimlərin vahid ümumiləşdirici göstəricinin müəyyən edilməsi ilə əlaqədar apardıqları elmi tədqiqatlarının nəticələrinin əhəmiyyətini azaltmayaraq, qeyd edək ki, biz kompleks qiymətləndirmə prosesində vahid ümumiləşdirilmiş göstəricidən deyil, göstəricilər sistemindən istifadə etməyi təklif edən müəlliflərin mövqeyilə razılaşırıq.

Kompleks qiymətləndirmə zamanı sistemli yanaşmadan istifadə edilməsi onun məqsədlərinə və vəzifələrinə uyğundur. Çünki, hətta ümumiləşdirici göstərici müəyyən məhdudiyyətlərlə səciyyələnir, nəticədə o, kompleks analitik tədqiqat dairəsində tətbiq edilə bilməz. Yalnız göstəricilər sistemi əsasında təşkilatın fəaliyyətinin real

qiymətləndirilməsi mümkündür, çünki onun nəticələri məzmununa, istiqamətinə, gücünə və təsir vaxtına görə müxtəlif amillərin təsirini əks etdirir.

Kompleks qiymətləndirmənin nəticələrinin mötəbərliyi dərəcəsi onların həllindən asılı olan ən mühüm metodiki məsələlərdən biri sistemə daxil edilmiş göstəricilərin miqdarının və tərkibinin seçilməsinin əsaslandırılmasıdır.

Kompleks qiymətləndirmə göstəriciləri sisteminin müəyyən edilməsi zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

- təhlil obyektinin fəaliyyətinin tam əks etdirilməsinə;
- göstəricilərin tərkibində təhlil edilən obyektin fəaliyyətinin məqsədini funksiyasını və spesifik xüsusiyyətlərini hərtərəfli əks etdirən xarakteristikalar sisteminin seçilməsinə;
- göstəricilər sisteminin strukturunun təhlil obyektinin idarə edilməsi strukturuna uyğunluğunun təmin edilməsinə.

Ölkəmizdə aparılan iqtisadi təhlil təcrübəsini tarixi aspektdə nəzərdən keçirərək, qeyd etmək lazımdır ki, həm bütövlükdə xalq təsərrüfatı, həm də maddi istehsal sahələri, nazirliklər, birliklər və müəssisələr səviyyəsində ictimai istehsalın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün SSRİ Dövlət Plan komitəsinin təsdiq etdiyi ümumiləşdirici və xüsusi göstəricilər sistemindən geniş istifadə edilmişdir [51].

Müasir iqtisadi ədəbiyyatlarda və təhlil təcrübəsini tənzimləyən normativ qanunvericilik aktlarında təşkilatların fəaliyyətinin nəticələrini kompleks səciyyələndirən göstəricilər sisteminin müəyyən edilməsinə vahid metodik yanaşma yoxdur. Ədəbiyyatda təklif edilən və təcrübədə istifadə olunan göstəricilər sisteminin çoxvariantlığı təşkilatların fəaliyyətinin kompleks qiymətləndirilməsi məqsədlərinin, vəzifələrinin, subyektlərinin və obyektlərinin müxtəlifliyilə əlaqədardır. Belə ki, sahibkarlar üçün kompleks qiymətləndirmənin əsas meyarı sərf edilmiş kapitaldan əldə edilən mənfəətin artımıdır, kreditorlar üçün əsas göstəricilər ödəmə qabiliyyətini xarakterizə edən göstəricilər, investorlar üçün – biznes üzrə tərəfdaşın iqtisadi potensialını, maliyyə sabitliyinin, gəlirliyinin və işgüzar fəallığının səviyyəsini əks

etdirən göstəricilər spektri olacaqdır. Göstəricilər sisteminin seçilməsi, əvvəla, kompleks qiymətləndirmənin aparıldığı subyektlərin üstün məqsədlərinin nəzərə alınmasına əsaslanan istiqamətilə və ikincisi, təsərrüfat obyektinin fəaliyyəti barədə bütün uçot - təhlil informasiyasından istifadə edilməsinin mümkünlüyü dərəcəsilə əsaslandırılır.

Ədəbiyyatda təklif edilən və təcrübədə istifadə olunan göstəricilər sistemi, bir qayda olaraq, təsərrüfat fəaliyyətinin ayrı - ayrı növlərini (əsas, investisiya, xarici iqtisadi fəaliyyət, marketinq və s.), onun müxtəlif aspektlərini (maliyyə vəziyyətini, rentabelliyini, maya dəyərini), habelə ayrı-ayrı ehtiyat növlərindən (əmək, material ehtiyatlarından, əsas istehsal fondlarından) istifadə edilməsini səciyyələndirir.

İqtisadi təhlil üzrə ədəbiyyatda təklif edilən göstəricilərin sistemləşdirilməsi variantlarını nəzərdən keçirək.

Müəssisə, birlik və sənaye sahələri üzrə istehsalın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi məqsədilə E.İ.Krılov [49, s.18-21] dörd qrupdan ibarət olan aşağıdakı analitik göstəricilər sistemi təklif etmişdir.

1. İstehsalın iqtisadi səmərəliliyinin ümumiləşdirici analitik göstəriciləri.
2. Canlı əməkdən istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi göstəriciləri.
3. Əsas istehsal fondlarının amortizasiyasına çəkilən xərclərdən istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi göstəriciləri.
4. Material ehtiyatlarından istifadə edilməsiinn səmərəliliyinin yüksəldilməsi göstəriciləri.

A.D.Şeremet və Y.V.Neqaşev [53, s. 198-200] kompleks qiymətləndirmə çərçivəsində aşağıdakı göstəricilər sistemindən istifadə etməyi təklif edirlər (bu zaman ədalətli qeyd edirlər ki, onun əsasında, əsas etibarilə, müəssisənin keçmiş dövr ilə müqayisədə «yaxşı» yaxud «pis» işləməsi kimi qiymətləndirmə mümkündür).

1. Müəssisənin planda qəbul edilmiş qiymətlərilə məhsul satışının həcmi, min manat.
2. Faktiki qüvvədə olan qiymətlərlə məhsulun satışının həcmi, min manat.

3. Müqayisəli qiymətlərlə istehsal edilmiş məhsulun həcmi, min manat.

4. Natural ifadədə ən mühüm məhsul növlərinin satışı.

5. İstehsalat heyətinin orta siyahı sayı, nəfər.

6. Satılmış məhsul üzrə bir işləyənə düşən istehsal, manat.

7. İstehsalat heyətinin əlavələrlə birlikdə əmək haqqı fondu, min manat.

8. Bir işləyənə düşən orta illik əmək haqqı, manat.

9. Əsas istehsal vasitələrinin orta illik dəyəri, min manat.

10. Satılmış məhsul üzrə əsas istehsal vasitələrinin bir manatına düşən fond verimi, manat, qəpik.

11. Satılmış məhsula material xərcləri, min manat.

Satılmış məhsulun bir manatına düşən xərclər.

12. Tam maya dəyəri, qəpik.

13. İstehsal maya dəyəri, qəpik.

14. Əsas materiallar, qəpik.

15. Əsas istehsal fəhlələrinin əmək haqqı, qəpik.

16. Ümumiistehsal xərcləri, qəpik..

17. Dövriyyə vəsaitlərinin orta illik həcmi, min manat.

18. Dövriyə vəsaitlərinin dövranı miqdarı.

19. Balans mənfəəti (vergi hesablanana qədər mənfəət), min manat.

20. Xalis mənfəət (+) və ya zərər (-), min manat.

21. İstehsal əsas və dövriyyə vəsaitlərinin orta illik dəyəri min manat.

22. İstehsal əsas və dövriyyə vəsaitlərinin xalis mənfəət üzrə rentabelliyi, %.

23. Aktivlərin xalis mənfəət üzrə rentabelliyi, %.

24. Xüsusi kapitalın rentabelliyi, %.

25. Satışın rentabelliyi, %.

26. Cari ödəmə (likvidlik) qabiliyyəti əmsalı.

27. Dövriyyə aktivlərinin xüsusi dövriyyə vəsaitlərilə təminatı.

V.V.Kovalyov və V.V.Patrov [48, s. 500-506] təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi üçün müxtəlif aspektləri səciyyələndirən qiymətləndirmə göstəricilərinin altı qrupdan ibarət sistemini təklif edirlər.

1. Əmlak vəziyyətinin qiymətləndirilməsi:

- təşkilatın sərəncamında olan təsərrüfat vəsaitlərinin məbləği;
- aktivlərdə əsas vəsaitlərin payı;
- əsas vəsaitlərin aktiv hissəsinin payı;
- əsas vəsaitlərin aktiv hissəsinin köhnəlmə əmsalı;
- yeniləşmə əmsalı;
- dövriyyədən çıxma əmsalı.

2. Likvidliyin qiymətləndirilməsi:

- xüsusi dövriyyə vəsaitlərinin həcmi (fəaliyyət göstərən kapital);
- xüsusi dövriyyə vəsaitlərinin manevrliyi əmsalı;
- cari likvidlik əmsalı;
- tez likvidlik əmsalı;
- mütləq likvidlik əmsalı;
- aktivlərdə dövriyyə vəsaitlərinin payı;
- dövriyyə vəsaitlərinin ümumi məbləğində xüsusi dövriyyə vəsaitlərinin payı;
- dövriyyə aktivlərində ehtiyatların payı;
- ehtiyatların ödənilməsində xüsusi dövriyyə vəsaitlərinin payı;
- ehtiyatların ödənilməsi əmsalı.

3. Maliyyə sabitliyinin qiymətləndirilməsi:

- xüsusi kapitalının təmərküzləşməsi əmsalı;
- maliyyə asılılığı əmsalı;
- xüsusi kapitalının manevrlik əmsalı;
- cəlb edilmiş vəsaitlərin təmərküzləşməsi əmsalı;
- uzunmüddətli qoyuluşların strukturu əmsalı;
- borc vəsaitlərinin uzunmüddətli cəlb edilməsi əmsalı;
- cəlb edilmiş vəsaitlərin strukturu əmsalı;
- maliyyə levericinin səviyyəsi.

4. İşgüzar fəallığın qiymətləndirilməsi;

- satışdan (realizasiyadan) daxil olan pul gəliri;
- xalis mənfəət,
- əmək məhsuldarlığı;
- fond verimi;

- hesablaşmalarda vəsaitlərən dövranı;
- gün hesabı ilə hesablaşmalarda vəsaitlərin dövriyyəsi;
- ehtiyatların dövranı;
- gün hesabı ilə ehtiyatların dövriyyəsi;
- kreditor borcunun dövranı;
- gün hesabı ilə kreditor borcunun dövriyyəsi;
- əməliyyat dövrünün (silsiləsinin) müddəti;
- maliyyə dövrünün (silsiləsinin) müddəti;
- debitor borcunun ödənilmə əmsalı;
- xüsusi kapitalın dövranı əmsalı;
- məcmu kapitalın dövranı əmsalı;
- iqtisadi artımın sabitliyi əmsalı.

5. Rentabelliyin qiymətləndirilməsi:

- xalis mənfəət;
- məhsulun rentabelliyi;
- əsas fəaliyyətin rentabelliyi;
- məcmu kapitalın rentabelliyi;
- xüsusi kapitalın rentabelliyi;
- xüsusi kapitalın ödənilməsi (xərcinin əvəzinin çıxması) dövrü.

6. Kommersiya təşkilatının qiymətli kağızlar bazarında vəziyyətinin qiymətləndirilməsi;

- bir səhmə düşən gəlir (mənfəət);
- səhmin dəyərliliyi;
- səhmin rentabelliyi;
- dividend çıxımı;
- səhmin qiymətlənməsi (kotirovka) əmsalı.

A.D.Şeremet və R.S.Sayfulin [54, s. 163] emitent müəssisələrin müqayisəli kompleks reytinq qiymətləndirilməsi zamanı 13.1. cədvəlində təqdim edilmiş göstəricilər sistemindən istifadə etməyi təklif edirlər.

Cədvəl 13.1.

Açıq hesabat məlumatlarına əsasən reytinq qiymətləndirilməsi üçün ilkin göstəricilər sistemi

I qrup	II qrup	III qrup	IV qrup
Təsərrüfat fəaliyyətinin gəlirliliyinin qiymətləndirilməsi göstəriciləri	İdarəetmənin səmərəliliyinin qiymətləndirilməsi göstəriciləri	İşgüzar fəallığın qiymətləndirilməsi göstəriciləri	Ödəmə (likvidlik) qabiliyyətinin və bazarda sabitliyin qiymətləndirilməsi göstəriciləri
1. Müəssisənin ümumi rentabelliyi – aktivlərin 1 manatına düşən balans mənfəəti	1.Məcmu satış həcminin 1 manatına düşən xalis mənfəət	1. Məcmu atkivlərin verim (dövriyyə) əmsalı– aktivlərin 1 manatına düşən məhsulun satışından əldə edilən pul gəliri	1. Ödəmə əmsalı – qısa müddətli öhdəliklərin 1 manatına düşən dövriyyə vəsaitləri
2. Müəssisənin xalis rentabelliyi -aktivlərin 1 manatına düşən xalis mənfəət	2. Məhsul satışı həcminin 1 manatına düşən satışdan əldə edilən mənfəət	2. Əsas fondların verimi (dövriyyə) əmsalı – əsas fondların 1 manatına düşən məhsul satışından əldə edilən pul gəliri	2. Ödəmə (likvidlik) qabiliyyəti əmsalı - qısa müddətli öhdəliklərin 1 manatına düşən pul vəsaitləri, hesablaşmalar və digər aktivlər
3. Xüsusi kapitalın rentabelliyi -xüsusi kapitalın (vəsaitlərin) 1 manatına düşən xalis mənfəət	3. Məcmu satış həcminin 1 manatına düşən satışdan əldə edilən mənfəət	3. Dövriyyə fondlarının dövranı – dövriyyə vəsaitlərinin 1 manatına düşən məhsul satışından əldə edilən pul gəliri	3. Daimi aktiv indeksi - əsas fondların və digər dövriyyədən kənar aktivlərin öz vəsaitinə nisbəti.
4. İstehsal fondlarının ümumi rentabelliyi – balans mənfəətinin əsas istehsal fondlarının və dövriyyə vəsaitlərinin orta məbləğinə (mal-materialların dəyərində) nisbəti	4. Məcmu satış həcminin 1 manatına düşən balans mənfəəti	4. Ehtiyatların dövranı-ehtiyatların və xərclərin 1 manatına düşən satışdan əldə edilən pul gəliri	4. Müstəqillik (muxtariyyət) əmsalı – balansın yekununun 1 manatına düşən xüsusi vəsaitlər
		5. Debitor borclarının dövranı – debitor borclarının 1 manatına düşən məhsul satışından əldə edilən pul gəliri	5. Ehtiyatların xüsusi dövriyyə vəsaitlərilə təminatı – ehtiyatların və məsrəflərin 1 manatına düşən xüsusi dövriyyə vəsaitləri
		6. Yüksək ödəmə (likvidlik) qabiliyyəti olan aktivlərin dövranı – yüksək ödəmə (likvidlik) qabiliyyəti olan aktivlərin 1 manatına düşən satışdan əldə edilən pul gəliri	6. Xüsusi kapitalın verim (dövriyyə) əmsalı – xüsusi kapitalının 1 manatına düşən satışdan əldə edilən pul gəliri

Normativ qanunvericilik aktlarında (sənədlərində) təşkilatın fəaliyyətinin qiymətləndirilməsi üçün ən müxtəlif göstəricilər sistemi tövsiyə edilir.

Müəssisənin maliyyə siyasətinin işlənib hazırlanması üzrə metodik tövsiyələrə dörd qrup göstəricilər daxildir:

1. Likvidlik göstəriciləri:
- ümumi ödəmə əmsalı;
- təcili likvidlik əmsalı;
- vəsaitlər səfərbər edilməklə likvidlik əmsalı.

2. Maliyyə sabitliyi göstəriciləri:
- borc və xüsusi vəsaitlərin nisbəti;
- xüsusi vəsaitlə təmin olunma əmsalı;
- xüsusi dövriyyə vəsaitlərinin manevrlilik əmsalı.

3. Ehtiyatlardan istifadə edilməsinin intensivliyi göstəriciləri:
- xalis aktivlərin rentabelliyi;
- satılmış məhsulun rentabelliyi;
- fond tutumu;
- enerji tutumu;
- material tutumu.

4. İşgüzar fəallığ göstəriciləri:
- dövriyyə kapitalının dövranı əmsalı;
- xüsusi kapitalın dövranı əmsalı.

Məhkəmə rəhbərlyi tərəfindən maliyyə təhlili aparılması qaydalarına üç qrup göstəricilər daxildir:

1. Borclunun ödəmə qabiliyyətini səciyyələndirən əmsallar:
- mütləq likvidlik əmsalı;
- cari likvidlik əmsalı;
- borclunun öhdəliklərinin onun aktivlərilə təminatı göstəricisi;
- cari öhdəliklər üzrə ödəmə qabiliyyəti dərəcəsi.

2. Borclunun maliyyə sabitliyini səciyyələndirən əmsallar:
- muxtariyyət (maliyyə sərbəstliyi, müstəqilliyi) əmsalı;
- xüsusi dövriyyə vəsaitlərilə təmin edilmə əmsalı;
- vaxtı ötmüş kreditor borcların passivlərdə payı;

- debitor borclarının məcmu aktivlərə nisbəti.

3. Borclunun işgüzar fəallığını səciyələndirən əmsallar:
- aktivlərin rentabelliyi;
- xalis mənfəət norması.

Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlil edilməsi üzrə aşağıdakı əsas göstəricilər sistemini tövsiyə etdirik.

Qeyd olunan göstəricilər sisteminin dərəcələnməsi (dərəcələrə bölünməsi) onlardan istifadənin zəruri şərtidir, belə ki, onların həcmi eyni əhəmiyyətə malik deyil, onların bir çoxu müqayisə edilə bilməyəndir, yaxud müxtəlif istiqamətdə işləyə bilər.

Analitik təcrübədə aşağıdakı dərəcələmə metodları daha geniş yayılmışdır:
- balların cəmləri;
- yerlərin cəmləri;
- taksonometrik;
- çəki əmsalları.

Yerlərin cəmləri metodunun və taksonometrik metodun və onlardan analitik tədqiqatlarda istifadə edilməsinin şərhi xüsusi ədəbiyyatda geniş əks etdirilmişdir [məsələn, 47, s. 50-52; 53, s. 211-216 və d].

Çəki əmsalları metodunda göstəricinin əhəmiyyət dərəcəsi kompleks qiymətləndirmə sisteminə daxil edilmiş, ekspertiza yolu ilə müəyyən edilmiş ayrı-ayrı göstəricilərin müxtəlif çəkiləri əsasında nəzərə alınır (bu metoddan istifadə edilməsi nümunəsi 12.11 - paraqrafında verilmişdir).

Çəki əmsalları metodu beynəlxalq təcrübədə ödəmə qabiliyyəti indekslərinin çoxtərəfli diskriminant təhlil aparatının köməyilə hesablanması zamanı geniş tətbiq edilir. Altmanın kredit qabiliyyətliliyi indeksi daha çox məlumdur, onun hesablanması metodikası 14.3 - paraqrafında şərh edilmişdir.

Təsərrüfat fəaliyyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsi A.D.Şeremetin və Y.V.Neqaşevin [53, s. 206-211].

Cədvəl 13.2.

Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlili üçün əsas göstəricilər sistemi

Sıra sayı	Göstəricilər	Hesablanma qaydası	Göstəricinin iqtisadi mənası
1	2	3	4
		Ümumi göstəricilər	
1.	Orta aylıq mədaxil	Ümumi mədaxil (ödəniş üzrə) / Hesabat dövründə ayların sayı	Təşkilatın hesabat dövründə gəlirlərinin həcmini səciyyələndirir və onun əsas maliyyə ehtiyatını müəyyən edir
2.	Mədaxildə pul vəsaitlərinin payı	Mədaxildə pul vəsaitləri / Ümumi mədaxil (ödəniş üzrə)	Keyfiyyət, ödəmə (likvidlik) qabiliyyəti baxımından əlavə olaraq təşkilatın maliyyə ehtiyatını səciyyələndirir
		Ödəmə qabiliyyəti və maliyyə sabitliyi göstəriciləri	
3.	Ümumi ödəmə qabiliyyəti dərəcəsi	1 saylı formanın (sətir 770) / orta aylıq mədaxil	Təşkilatın ödəmə qabiliyyətilə əlaqədar ümumi vəziyyətini, onun borc vəsaitlərinin həcmi və təşkilatın öz kreditorları qarşısında borcunun ödənilməsinin mümkünlüyünü səciyyələndirir.

Cədvəl 13.2-in davamı

4.	Bank kreditləri və istiqrazları üzrə borc əmsalı	1 saylı formanın (sətir 500 + ... + sətir 620) / orta aylıq mədaxil	Təşkilatın kreditlər və istiqrazlarla əlaqədar borclarının strukturunu səciyyələndirir.
5.	Cari öhdəliklər üzrə ödəmə qabiliyyəti dərəcəsi	1 saylı formanın sətr 630 + ... + 770 sətr / orta aylıq mədaxil	Təşkilatın cari ödəmə qabiliyyətilə əlaqədar vəziyyəti, onun qısamüddətli borc vəsaitlərinin həcmi və cari borcun ödənilməsinin mümkünlüyünü səciyyələndirir.
6.	Cari öhdəliklərin dövriyyə aktivlərilə örtülməsi əmsalı	1 saylı formanın sətr180 + ... + sətr330 / 1 saylı formanın sətr600 + ... + sətr760	Təşkilatın cari öhdəliklərinin onun dövriyyə aktivlərilə nə dərəcədə ödənilməsini göstərir. Dövriyyə aktivlərinin ödəmə (likvidlik) qabiliyyətini səciyyələndirir.
7.	Dövriyyədə olan xüsusi kapitalı	1 saylı formanın (sətir 480-sətir 080)	Təşkilatın maliyyə sabitliyini səciyyələndirir.
8.	Xüsusi dövriyyə vəsaitləri-lə təmin olunma əmsalı	1 saylı formanın (sətir 480 – sətir 080) / 1 saylı formanın sətr180 + sətr330	Təşkilatın təsərrüfat fəaliyyətinin xüsusi dövriyyə vəsaitlərilə təmin edilməsi dərəcəsini səciyyələndirir.
9.	Muxtariyyət (maliyyə müstəqilliyi) əmsalı	1 saylı formanın 480 – cı sətri / 1 saylı formanın (sətir080 + sətr180 + sətir330)	Təşkilatın xüsusi kapitalı hesabına ödənilən aktivlərin payını səciyyələndirir.

Cədvəl 13.2-in davamı

İşgüzar fəallığın rentabellik göstəriciləri			
10.	Dövriyyə aktivlərilə təminat əmsalı	1 saylı formanın sətr180 + sətr330 / Orta aylıq mədaxil	Dövriyyə aktivlərinin dövr etməsini səciyyələndirir.
11.	İstehsalda dövriyyə vəsaitləri əmsalı	1 saylıformanın (sətir100+...+sətir175-sətir199) / Ortaaylıqmədaxil	Təşkilatın mal-material ehtiyatlarının dövr etməsini səciyyələndirir.
12.	Dövriyyə kapitalının rentabelliyi	2 saylı formanın 050 - ci sətri / 1 saylı formanın sətr180 + sətr330	Təşkilatın dövriyə kapitalından istifadə edilməsinin səmərəliliyini səciyyələndirir.
13.	Satışın rentabelliyi	2 saylı formanın 010 – cı sətri / 2 saylı formanın 050 - cı sətri	Məhsulun (iş və xidmətlərin) satışının səmərəliliyini səciyyələndirir.
14.	Bir işçinin orta aylıq istehsalı	Orta aylıq mədaxil / İşçilərin orta siyahı sayı	Təşkilatın əmək ehtiyatlarından istifadə edilməsinin səmərəliliyini səciyyələndirir.

Cədvəl 13.2-in davamı

Təşkilatın dövriyyədən kənar kapitalından istifadə edilməsinin səmərəliliyi və investisiya fəallığı göstəriciləri			
15.	Fond verimi	orta aylıq mədaxil / 1 saylı formanın 080 - ci sətri	Təşkilatın əsas vəsaitlərindən istifadə edilməsinin səmərəliliyini səciyyələndirir
16.	İnvestisiya reallığı əmsalı	1 saylı formanın (sətir 030 + sətir040 - sətir 050) / 1 saylı formanın 080 - ci sətri	Təşkilatın investisiya fəallığını səciyyələndirir

Təklif etdikləri metodika ilə həyata keçirilə bilər. Onun üstünlüyü istehlak və tətbiq edilmiş istehsal ehtiyatlarından istifadənin səmərəliliyi dərəcəsinin eyni zamanda qiymətləndirilməsinin mümkünlüyündən, habelə ondan yalnız bütövlükdə kommersiya təşkilatı səviyyəsində, həm də fəaliyyəti natural ölçülərdə ifadə edilə bilən ayrı-ayrı struktur bölmələri səviyyəsində istifadəsinin mümkünliyi ilə xarakterizə edilir. Kommersiya təşkilatının struktur bölməsinin göstəriciləri əsasında həmin metodikanı aydınlaşdıraq. İlk məlumatlar və istehsal ehtiyatlarından istifadənin ekstensiv və intensiv amilli göstəricilərinin dinamikasının qiymətləndirilməsi 13.3 cədvəlində təqdim edilmişdir.

Cədvəl 13.3.

İlk məlumatlar və istehsal ehtiyatlarından istifadə edilməsinin ekstensiv və intensiv amili göstəricilərinin dinamikasının qiymətləndirilməsi

Sıra sayı	Göstəricilər	Baza dövrü	Hesabat dövrü	Dinamika tempi, % (süt.2/süt.1) x100	Artım (azalma) tempi, % (süt.3 -100)
A	B	1	2	3	4
	Ekstensiv göstəricilər				
1	Məhsulun həcmi, min man. Uyğunlaşdırılmış vahid	148460	154102	103,8	+3,8
2	Sənaye-istehsal heyətinin orta siyahı sayı, nəfər	1273	1290	101,3	+1,3
3	Sənaye-istehsal heyəti üzrə əməyin ödənilməsi fondu, min man.	70606	71450	101,2	+1,2
4	İstehsalda istifadə edilmiş material xərcləri, min man.	50276	51870	103,2	+3,2
5	Əsas istehsal fondlarının orta dəyəri, min man.	212086	252940	119,3	+19,3
6	Əsas istehsal fondlarının amortizasiyası, min man.	9764	10205	104,5	+4,5
7	Dövriyyə aktivlərinin orta həcmi, min man.	27366	28156	102,9	+2,9
	İntensiv göstəricilər				
8	Əmək məhsuldarlığı (b.1:b.2)	116,6	119,5	102,4	+2,4
9	Əməyin ödənilməsi fondunun bir manatına düşən məhsulun həcmi (əmək haqqı verimi) (b.1: b.3)	2,1	2,2	104,8	+4,8
10	Material verimi (b.1: b.4)	2,9	3,0	103,4	+3,4
11	Əsas istehsal fondlarının fond verimi (b.1: b.5)	0,7	0,6	85,7	-14,3
12	Amortizasiya verimi (b.1: b.6)	15,2	15,1	99,3	-0,7
13	Dövriyyə aktivlərinin dövranı (dövrlərin sayı) (b.1: b.7)	5,4	5,5	101,8	+1,8

Ayrı-ayrı elementlər üzrə istehsal ehtiyatlarının və cari xərc göstəricilərinin dinamikasının xarakteri onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının müəyyən edilməsi məqsədilə dərin idarəetmə təhlilinin istiqamətini müəyyən edir.

Təsərrüfat fəaliyyətinin nəticələrinə ekstensiv və intensiv amillərin təsirinin qiymətləndirilməsi üçün 13.4 cədvəlini tərtib edək.

Cədvəl 13.4

Təsərrüfat fəaliyyətinin intensivliyinin qiymətləndirilməsi

Sıra sayı	Ehtiyatların növləri	Göstəricilərin dinaimkasının indeksləri		Məhsulun 1% artımına düşən ehtiyatların artımı,% (azalması)	Məhsulun 100% artımına düşən amillərin təsir payı		Ehtiyatlara nisbi qənaət (israf), min man. (+,-)
		ekstensiv	intensiv		ekstensiv	intensiv	
A	B	1	2	3	4	5	6
1	Sənaye-istehsal heyətinin orta siyahı sayı	101,3	102,4	0,342	+34,2	+65,8	-1717
2	Sənaye-istehsal heyətinin əməyinin ödənilməsi fondu	101,2	104,8	0,316	+31,6	+68,4	-1839
3	İstehsalda istifadə edilmiş material xərcləri	103,2	103,4	0,842	+84,2	+15,8	-316
4	Əsas istehsal fondlarının orta dəyəri	119,3	85,7	5,079	+507,9	-407,9	+32795
5	Əsas istehsal fondlarının amortizasiyası	104,5	99,3	1,184	+118,4	-18,4	+70
6	Dövriyyə aktivlərinin orta ölçüsü	102,9	101,8	0,763	+76,3	+23,7	-250

13.4. cədvəlinin tərtib edilməsi metodikasını izah edək.

1. 3-cü sütunda verilən göstəriciləri hesablayan zaman nəzərə almaq lazımdır ki, məhsulun 1% artımına düşən ehtiyatların artımının

(azalmasının) müəyyən edilməsi üçün müvafiq ehtiyatın artım (azalma) tempini məhsulun həcminin artım tempinə bölmək lazımdır.

3-cü sütunda məlumatları əks etdirən zaman:

1-ci sətir = 13.3 cədv. 4-cü süt. 2-ci sətri : 13.3 cədv. 4-cü süt. 1-ci sətri;

2-ci sətir = 13.3 cədv. 4-cü süt. 3-cü sətri: 13.3 cədv. 4-cü süt. 1-ci sətri və b.k.

2. 4-cü sütunun göstəricilərinin (məhsulun 100% artımına düşən ekstensiv (kəmiyyət) amillərinin təsir payının) hesablanması üçün məhsulun 1% artımına düşən ehtiyatların artımını (azalmasını) (süt. 3) 100%-ə vurmaq lazımdır.

3. 5-ci sütunun göstəriciləri ekstensiv amil hesabına artımın ölçüsünün 100%-dən çıxılması yolu ilə müəyyən edilir (süt. 5=100%-süt. 4).

4. Əmək ehtiyatlarından istifadə edilməsinin intensivləşməsi nəticəsində əmək məhsuldarlığının artması və işçilərin nisbi azad edilməsi ilə əlaqədar əməyin ödənilməsi fonduna nisbi qənaət edilməsi hesabına istehsala cari xərclər azalır. Bununla əlaqədar olaraq əmək ehtiyatlarının nisbi qənaəti (israfı) (6-cı sütunun 1-ci sətri) aşağıdakı kimi müəyyən edilir:

a) sənaye-istehsal heyətinin orta siyahı sayının hesabat və baza qiymətləri arasında fərq məhsul həcminin dəyişilməsi indeksinə təshih edilməklə onun nisbi fərqlənməsi hesablanır, yəni 13.3 cədvəli 2-ci süt.2 sətri – (13.3 cədv. 1-ci süt.2 sətri × 13,3 cədv. 3-cü süt.1-ci sətri).

b) alınmış nəticə hesabat dövründə bir işçinin orta əmək haqqına vurulur, sonuncu əməyin ödənilməsi fondunun heyətin orta siyahı sayına bölünməsi yolu ilə hesablanır, yəni 13.3 cədv. 2-ci süt.3-cü sətri: 13.3 cədv. 2-ci süt.2-ci sətri.

Beləliklə, 6-cı sütunun 1-ci sətrinin hesablanmasını aşağıdakı kimi təsəvvür etmək olar:

[13.3 cədv. 2-ci süt.2-ci sətri – (13.3 cədv. 1-ci süt.2-ci sətri × 13,3 cədv. 3-cü süt.1-ci sətri) : 100] × 13.3 cədv. 2-ci süt.3-cü sətri: 13.3 cədv.2-ci süt.2-ci sətri.

5. Ehtiyatların və xərclərin digər növləri üzrə nisbi qənaətin (israfın) ölçüsü müvafiq göstəricinin hesabat və baza qiymətləri arasında, məhsulun həcminin dəyişilməsi indeksinə təshih edilmiş fərq kimi hesablanır. Belə hesablama 13.3 cədvəlinin məlumatları əsasında aşağıdakı kimi həyata keçirilir:

6-cı süt.2-ci sətri = (2-ci süt.3-cü sətri -1-ci süt.3-cü sətri × 3-cü süt.1-ci sətri : 100);

6-cı süt.3-cü sətri = (2-ci süt.4-cü sətri – 1-ci süt.4-cü sətri × 3-cü süt.1-ci sətri : 100);

6-cı süt.4-cü sətri = (2-ci süt.5-ci sətri – 1-ci süt.5-cü sətri × 3-cü süt.1-ci sətri : 100);

6-cı süt.5-cı sətri = (2-ci süt.6-cü sətri – 1-ci süt.6-cı sətri × 3-cü süt.1-ci sətri : 100);

6-cı süt.6-cı sətri = (2-ci süt.7-ci sətri – 1-ci süt.7-cı sətri × 3-cü süt.1ci sətri : 100).

13.4 cədvəlinin 6 -cı sütunun göstəricilərinin hesablanmasını izah edək.

1. İstehsal – sənaye heyətinin orta siyahı sayının nisbi kənarlaşması:

[1290-(1273 × 103,8 : 100)] × 71450 min man. : 1290=-1717 min man. təşkil edəcəkdir.

Qeyd etmək lazımdır ki, pul ifadəsində alınmış nəticə əmək məhsuldarlığının artması hesabına əmək ehtiyatları qrupu üzrə nisbi qənaətin həcmini nisbətən real göstərir, belə ki, o, eyni zamanda işçi heyəti üzrə əmək haqqının artımının təsirinin kəmiyyətini də əks etdirir. «Əməyin ödənilməsi xərcləri» və «Sosial ehtiyaclara ayrılmalar» elementləri üzrə real qənaət əmək məhsuldarlığının artım tempinin orta əmək haqqının artım tempindən yüksək olduqda mümkündür.

2. Əməyin ödənilməsi fondu üzrə nisbi kənarlaşma

71450 min man. – 70606 min man. × 1,038 =-1839 min man.

3. Material ehtiyatları üzrə nisbi kənarlaşma

51870 min man. – 50276 min man. × 1,038 =-316 min man.

4. Əsas istehsal fondları üzrə nisbi kənarlaşma

252940 min man. – 212086 min man. × 1,038 =+32795 min man.

5. Amortizasiya üzrə nisbi kənarlaşma

10205 min man. – 9764 min man. × 1,038 =+70 min man.

6. Dövriyyə aktivləri üzrə nisbi kənarlaşma

28156 min man. – 27366 min man. = 1,038 =-250 min man.

Araşdırılan struktur bölməsinin təsərrüfat fəaliyyətinin kompleks qiymətləndirilməsinin nəticələrini səciyyələndirək.

1. İstehsal ehtiyatlarından və cari xərclərdən istifadənin səmərəliliyi göstəricilərinin dinamikasının qiymətləndirilməsi.

Baza dövrünə nisbətən hesabat dövründə əmək məhsuldarlığı 2,4% artmış, əsas istehsal fondlarının fond verimi 14,3% azalmış, dövriyyə aktivlərinin dövranı 1,8% artmışdır. Beləliklə, istehsala tətbiq edilmiş ehtiyatlardan yalnız əsas istehsal fondları üzrə səmərəliliyin azalması baş vermişdir, bu isə onların maliyyə ilinin sonunda istifadəyə verilməsilə izah edilir.

İstehsalda istifadə edilmiş ehtiyatlar üzrə aşağıdakı meyillər müşahidə olunmuşdur:

- əmək haqqı verimi 4,8% artmışdır;
- material verimi 3,4% artmışdır;
- amortizasiya verimi, 0,7% azalmışdır.

İstehsalın məcmu ehtiyatları:

Baza dövründə – 370098 min man.

(70606+50276+212086+9764+27366);

hesabat dövründə – 414621 min man. (71450+51870+252940+ 10205+ +28156) təşkil etmişdir.

İstehsalın məcmu ehtiyat verimi:

baza dövründə – 148460 : 370098=0,401 man.;

hesabat dövründə – 154102 : 414621=0,372 man. olmuşdur.

Baza dövrünə nisbətən hesabat dövründə məcmu ehtiyat verimi 0,029 manat azalmışdır, həmin göstəricinin dinamikasının indeksi 0,928 təşkil etmişdir.

2. Məhsulun 1% artımına düşən (hesablanan) ehtiyatların artımı nisbətinin və məhsulun artımına ekstensiv və intensiv amillərin təsiri payının qiymətləndirilməsi:

Nəzərdən keçirilən misalda təhlil edilən dövrdə istehsal edilmiş məhsulun hər faizinə düşən işçi heyətinin orta siyahı sayı 0,342%, əməyin ödənilməsi fondu – 0,316%, material xərcləri – 0,842%, əsas istehsal fondlarının orta dəyəri - 5,079%, əsas istehsal fondlarının amortizasiyası – 1,184%, dövriyyə aktivlərinin orta həcmi – 0,763% artmışdır. Qiymətləndirmənin nəticələri sübut edir ki, bölmədə əmək ehtiyatları və işçi heyətinin əməyinin ödənilməsi üzrə daha çox intensiv istifadə edilmə baş vermişdir, material xərclərindən və dövriyyə ehtiyatlarından daha çox ekstensiv istifadə edilmişdir, əsas istehsal fondlarından və amortizasiyadan isə – tamamilə ekstensiv istifadə edilmiş və intensiv amillərin qiyməti mənfi olmuşdur.

Hesabat dövründə məcmu ehtiyatların artım tempi 112,03% (414621:370098) təşkil etmiş və buradan məcmu ehtiyatların məhsulun 1%-ə düşən artım tempi 3,166%-ə bərabərdir. Beləliklə, təhlil edilən dövr ərzində bölmə üzrə ekstensiv inkişaf meyli müşahidə olunmuşdur.

3. İstehsala tətbiq edilmiş və istehlak edilmiş ehtiyatlardan istifadənin səmərəliliyinin qiymətləndirilməsi.

Baza dövrü ilə müqayisədə hesabat dövründə istehsal ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəlməsi aşağıdakı ehtiyatlar üzrə nisbi qənaət alınmasına imkan yaratmışdır:

- əmək ehtiyatları üzrə – 1717 min man.;
- əməyin ödənilməsi fondu üzrə – 1839 min man.;
- material xərcləri üzrə – 316 min man.;
- dövriyyə aktivləri üzrə – 250 min man.

Əsas istehsal fondları və amortizasiya üzrə müvafiq surətdə 32795 min manat və 70 min manat nisbi israf olmuşdur.

Kompleks iqtisadi səmərə hesabat dövründə bölmənin ekstensiv inkişafı sayəsində tətbiq edilən və istehlak edilən istehsal ehtiyatları üzrə 30460 min man. (-1839 min man. – 316 min man.+32795 min man. + 70 min man. -250 min man.) nisbi israf olmuşdur.

Cari istehsal xərclərinin azalmasından alınan iqtisadi səmərə 2085 min man. (-1839 min man. – 316 min man. +70 min man.) olmuşdur.

İstehsala tətbiq edilmiş ehtiyatlar üzrə mənfi iqtisadi səmərə 32545 min manata (+32795 min man. – 250 min man.) bərabərdir.

Təsərrüfat subyektlərinin maliyə - təsərrüfat fəaliyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsi biznesin bütün sahələrində idarəetmə qərarlarının qəbul edilməsi üçün çox mühüm vasitədir. Kompleks qiymətləndirmə metodunun seçilməsi onun konkret məqsədlərindən, vəzifələrindən və obyektlərindən, uçot - təhlil informasiyasının kifayətlilik dərəcəsindən və maliyyə təhlilçisinin peşəkarlığından asılıdır.

Yoxlama sualları?

1. Kommersiya təşkilatının fəaliyyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsi nədən ibarətdir?
2. Təşkilatın fəaliyyətinin kompleks qiymətləndirilməsinin zəruriliyi nə ilə əlaqədardır, onun məqsədləri və vəzifələri hansılardır?
3. Kompleks qiymətləndirmənin çoxməqsədli istiqamətlənməsi nədir?
4. Kompleks qiymətləndirmənin hansı metodları vardır?
5. Kompleks qiymətləndirmə zamanı göstəricilər sistemindən istifadə olunması nə ilə izah olunur və o, necə səciyyələndirilir?

XIV FƏSİL

TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ - TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SAĞLAMLAŞDIRILMASINDA FUNKSİONAL DİAQNOSTİKANIN ROLU

14.1. Diaqnostik tədqiqat metodu müəssisənin maliyyə - təsərrüfat fəaliyyətinin sağlamlaşdırılmasının mühüm vasitəsidir

Azad bazar və kəskin beynəlxalq rəqabət şəraitində təsərrüfat subyektlərində – müxtəlif təşkilati - hüquqi formalı sənaye müəssisələrində – yeni metodik yanaşmalara obyektiv tələbat yaranır ki, onlar yeganə düzgün idarəetmə qərarı seçməyə, onun elmi əsaslarda analitik hazırlığını həyata keçirməyə, böhran əlehinə real proqramlar və planlar formalaşdırmağa yardım edir. Müasir şəraitdə müəssisələrin idarə edilməsinin keyfiyyəti, yəni funksional qarşılıqlı əlaqəli ixtisaslaşmış struktur bölmələrindən ibarət olan mürəkkəb təsərrüfat sisteminin səmərəli və aktiv idarə edilməsi, myflisləşməyə gətirib çıxaran, əlaqələndirilməmiş və səhv idarəetmə qərarlarının qəbul edilməsinin qarşısını almaqla mühüm əhəmiyyət və xüsusi aktuallıq kəsb edir. Bu problemi planlı - mərkəzləşdirilmiş (sosialist) iqtisadiyyat şəraitində işlənib hazırlanmış köhnə metodların köməyilə həll etmək mümkün deyil. İdarəetmə qərarının analitik hazırlığı ilə əlaqəli belə yeni universal yanaşmalara dərin (qlobal və ya ümumi) diaqnostika, ekspress-diaqnostika və funksional diaqnostika aid edilir. Sonuncu bir tərəfdən, ümumi və ekspress-diaqnostikanın əsasını təşkil edir, digər tərəfdən isə, idarəetmə təhlilinin hələ işlənib hazırlanmamış yeni istiqamətidir, müflisləşmə ehtimalının təhlili və müəssisənin sağlamlaşdırılması planının işlənib hazırlanmasının çox mühüm vasitəsi olmalıdır.

Diaqnostika prinsipləri əsasında qurulmuş idarəetmə təhlilinin məqsədi – istehsalın idarə edilməsində səhv qərarların qəbul edilməsinin qarşısını almaqdır.

İstehsal-təsərrüfat fəaliyyəti prosesində müəssisədə disfunksiya (funksiyanın pozulması) halları baş verir. Onların yaranmasının müxtəlif səbəbləri, o cümlədən, idarəetmənin aşağı keyfiyyəti, istehsalın pis təşkili və s. ola bilər. Müəssisənin diaqnostikası disfunksiyaların vəziyyətini və əlamətlərini uyğunlaşdırmaq üçündür. «Diaqnostika» (yunanca «diaqnostikos») anlayışı öyrənmək (duymaq) deməkdir, yəni o, xəstəliklərin öyrənilməsi və diaqnoz qoyulması metodları və prinsipləri haqqında elmdir. Diaqnoz (yunanca «diaqnosis») – xəstənin hərtərəfli tədqiqi əsasında xəstəliyin mahiyyətinin və xüsusiyyətlərinin müəyyən edilməsidir.

XX əsrə qədər bu anlayışdan yalnız tibbdə istifadə edilirdi. Bir sıra obyektiv səbəblərdən hazırda diaqnostika metodundan digər sahələrdə, o cümlədən, iqtisadiyyatda da istifadə edilir.

Dərin (qlobal) diaqnostika dörd əsas hissəni: iqtisadi diaqnostikanı, funksional diaqnostikanı, ətraf (xarici) mühitin diaqnostikasını və strateji diaqnostikanı əhatə edir.

İqtisadi diaqnostika dedikdə onun əsas elementi olan ənənəvi iqtisadi təhlil, məsələn maliyyə təhlili nəzərdə tutulur.

Funksional diaqnostika – idarəetmə təhlilinin yeni istiqamətidir. O, ilk növbədə, diaqnostik tədqiqatlar metodu əsasında myflisləşmə ehtimalının təhlili metodikasıdır. Ölkəmizin iqtisadiyyat elmində əvvəllər diaqnostik metoddan istifadə edilmirdi. Tədqiq edilən problemin xüsusi kəskinliyi və aktuallığı həm də ondan ibarətdir ki, sənaye müəssisəsinin diaqnostikası, xüsusilə, funksional diaqnostikası və ya ixtisaslaşmış funksiyalarının diaqnostikası yeni bazar şəraitində bütün planlaşdırma və proqnozlaşdırma sisteminin əsasını təşkil edir. Funksional diaqnostika və ya ixtisaslaşmış funksiyaların diaqnostikası – həm qısa, həm də uzun müddətli dövrlər üçün sağlamlaşdırma planı tərtib edilməsinin (çətinliklər yaxud disfunksiyalar baş verdikdə) əsasıdır.

Funksional diaqnostika metodikasının işlənib hazırlanması öz növbəsində idarəetmənin ən mühüm funksiyalarından biri ilə – planlaşdırma ilə əlaqədar məsələlərin həllinə yardım edir.

Sənaye müəssisənin (sonralar – müəssisənin) diaqnostikası, xüsusi ilə funksional diaqnostikası aşağıdakılara istiqamətlənmişdir:

- təsərrüfat obyektinin fəaliyyətini pozan diskriminasiyaların və çətinliklərin müəyyən edilməsi;
- müəssisənin fəaliyyətini pisləşdirən daxili və xarici səbəblərin müəyyən edilməsi, onların təhlili;
- müəssisənin funksiyalarının bərpa edilməsilə və strukturunun yenidən qurulması ilə əlaqədar hərəkətlər proqramının qurulması;
- istehsal-kommersiya fəaliyyətinin cari, orta müddətli və perspektiv inkişafı planları və onların yerinə yetirilməsinə nəzarət formasında qəbul edilmiş idarəetmə qərarlarının yeni keyfiyyət səviyyəsində praktiki həyata keçirilməsi.

Yuxarıda qeyd olunan istiqamətlərdə yalnız təhlil proseduraları deyil, həm də idarəetmə təhlilli ilə yanaşı idarəetmənin əsas funksiyaları olan planlaşdırma və tənzimləmə də öz əksini tapmışdır.

Beləliklə, funksional diaqnostika – idarəetmənin keyfiyyətinin yüksəldilməsi üçün mühüm vasitədir, çünki o, idarəetmə qərarlarının operativliyini və təsirliliyini yüksəltmək və mümkün səhvlərə yol verməmək imkanı yaradır.

Problemin daha yaxşı dərk edilməsi üçün diaqnostika metodunun əsas anlayışlarını nəzərdən keçirək.

Dərin və ya qlobal diaqnostika – baza modelidir, müəssisəni onun funksiyaları və təşkili üzrə qlobal aspektdə nəzərdən keçirməyə imkan verir. O, müəssisənin işini başa düşmək və izah etmək imkanı yaradan metodların məcmusundan ibarətdir.

Qlobal diaqnostika iki istiqamətdən ibarətdir: əvvəla, dərk etmə istiqaməti (o, təhlildə əks etdirilir), və ikincisi, izahedici istiqamət (o, təhlili həyata keçirən ekspert- məsləhətçinin (konsultantın) mülahizəsində və ya çıxardığı nəticələrində ifadə edilir).

Dərin diaqnostika təhlil edilən obyektin fəaliyyətinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, azad rəqabət şəraitində yaşama

qabiliyyətinin yüksəldilməsi məqsədilə onun problemlərinin (disfunksiyasının) dərk edilməsi və diaqnoz qoyulması metodları və prinsipləri üzərində qurulur. O, aşağıdakı istiqamətləri əhatə edir:

1) iqtisadi diaqnostika;

2) funksional diaqnostika, ona aşağıdakılar daxildir;

a) marketinq diaqnostikası;

b) istehsal diaqnostikası;

c) təchizat funksiyasının diaqnostikası;

ç) «idarəetmə-maliyyə» funksiyasının (inzibati-maliyyə funksiyasının) diaqnostikası;

d) menecmentin diaqnostikası;


e) şəxsi heyətin menecmentinin diaqnostikası (şəxsi heyətin idarə dilməsi diaqnostikası yaxud sosial diaqnostika);

3) xarici (ətraf) mühitin diaqnostikası;

4) strategiya diaqnostikası (strateji diaqnostika).

14.1 sxemdə qlobal (dərin) diaqnostikanın aparılması sxemi təqdim edilmişdir.

Təcrübədə tez-tez elə hallar olur ki, bir problemin təcili və ya dəqiq həlli dərin (qlobal) diaqnostikaya haqq qazandırmır. Bu halda *ekspress-diaqnostikadan* istifadə edirlər ki, o, qısa vaxt ərzində problemləri aşkar etmək, onların səbəblərini aydınlaşdırmaq, həmin problemlərin həllinin mümkün variantlarını düşünüb tapmaq və təklifləri formalaşdırmaq imkanı yaradır. Belə diaqnostikanın məqsədi – çətinliklərin (disfunksiyaların) səbəblərini aşkar etmək, habelə onların aradan qaldırılmasına yönəldilmiş tədbirlər görülməsi üzrə təkliflər formalaşdırmaq, təcililiyi və vacibliyi qaydasında zəruri hərəkətləri müəyyən etməkdir. Başqa sözlə, söhbət ondan gedir ki, qısa müddətli idarəetmə qərarlarını elə tərkib hissələrinə bölmək mümkün olsun ki, onlar çox və ya az təcili nəticə və nəticələri, yalnız müəyyən vaxt ərzində hiss ediləcək struktur qərarlarının verilməsini təmin etsin. Funksional diaqnostika – hər-hansı ixtisaslaşmış funksiyanın (yaxud eyni zamanda bütün əsas funksiyaların) qismən diaqnostikasıdır. O, müəssisənin daxili problemlərinin həlli və onun fəaliyyətinin nəticələrinin yaxşılaşdırılması üçün aparılır.



Sxem 14.1. ***Qlobal (dərin) diaqnostika aparılması sxemi***

Sənaye müəssisələri bir sıra obyektiv sosial-iqtisadi, elmi-texniki, təşkilati, siyasi və digər səbəblərdən (amillər sayəsində) disfunksiyalarla üzləşir və həmin çətinliklər onların istehsal-təsərrüfat fəaliyyətini mürəkəbləşdirir.

Müəssisə öz mahiyyətinə görə ziddiyyətli təsərrüfat vahididir: burada həmişə kapitalın və insanların inkişafı ilə bağlı maraqların toqquşması müəyyən ziddiyyətlər yaradır. Bundan əlavə, digər ziddiyyətlər də, məsələn, dövlət və müəssisə arasında nəzarət sistemilə əlaqədar ziddiyyət, müəssisədə insanlar arasında, insan qrupları arasında və s. ziddiyyətlər də mövcuddur.

Yaranmış disfunksiyalar və onlarla əlaqədar olaraq müəssisənin fəaliyyətində çətinliklər müəssisənin dinamik işinə mane olur, onun fəaliyyətinin səmərəliliyini aşağı salır. Rəhbərlik məsləhətçi ekspert (analitik) dəvət edir və o müəssisənin diaqnostikasına başlayır. Qeyd edək ki, belə mütəxəssisin problemlər yalnız yaranmağa başlayanda, hələ kəskinləşməmiş dəvət edilməsi məqsədəuyğundur. Bu halda bərpa prosesi daha asan və az müddətli olacaqdır.

Müəssisənin bütün ixtisaslaşdırılmış funksiyaları: marketinq, istehsal, təchizat, şəxsi heyət və b. k. diaqnostik təhlildən keçməlidir. Lakin bu əsas qayda deyil. Analitik öz mülahizəsilə, onun qarşısında qoyulmuş vəzifələrdən asılı olaraq yaxud obyektlə (məsələn, onun maliyyə hesabatı ilə) əvvəldən tanış olmasının nəticələrinə görə, diaqnostikanı sistematik, bütün funksiyalar üzrə deyil, yalnız təsərrüfat prosesinin pozulması ilə əlaqədar bu gün təhlil edilməsi zəruri olan funksiyalar üzrə apara bilər. Məsələn, müəssisə texniki cəhətdən yenidən təchiz edilmiş və modernləşdirilmişdir, texnoloji prosesdə hələlik pozuntular və anomaliyalar yoxdur. Bu halda istehsal diaqnostikasını həyata keçirməmək olar, hərçənd onun hansısa aspektlərinə hər halda toxunmaq lazım gələcəkdir, çünki funksiyaların qarşılıqlı əlaqəsindən söz gedir, istehsal funksiyası isə digər funksiyalar ilə: marketinq, təchizat, şəxsi heyət, xarici mühit və s. ilə əlaqədardır.

Diaqnostikadan bəhs edərkən qeyd etmək lazımdır ki, onun ən mühüm vasitəsi audit metodudur. Sonuncu diaqnostika metodunun işlənib hazırlanmasına qədər o, geniş yayılmış və daha da inkişaf etmişdir (uyğunluq və səmərəlilik auditi).

Funksional diaqnostikanın istənilən növünün aparılmasının gedişini nəzərdən keçirərək, müşahidə etmək olar ki, onun mərhələlərindən biri uyğunluq və səmərəlilik auditidir (yaxud idarəetmə və nəzarət metodlarının auditidir). O, maliyyə və mühasibat auditindən onunla fərqlənir ki, onun məqsədləri daha müxtəlifdir, çünki müəssisənin bütün əməliyyat mərkəzləri üzrə optimal idarəetmə qərarlarının qəbul edilməsində kömək göstərilməsinə yönəlmişdir. Bu zaman uyğunluq və səmərəlilik auditinin necə həyata keçirilməsi məsələsini həll etmək lazımdır. İlk öncə əmin olmaq lazımdır ki, həmin müəs-

sisədə istifadə edilən bütün prosedurlar və metodlar hər cəhətdən (kommersiya, texniki, maliyyə, sosial) əvvəldən müəyyən edilmiş normalara və qaydalara uyğundur. Belə iş uyğunluq auditi adlanır. Mövcud proseduralar düzgün tətbiq edilməyən və ya onlara riayət edilməyən halda məsləhətçi ekspert (auditor) funksional diaqnostika həyata keçirilən müəssisədə mövcud təcrübənin yaxşılaşdırılması üzrə tövsiyələr formalaşdırmalıdır.

Uyğunluq auditindən asılı olmayaraq xatırladılan metodların və prosedurların səmərəliliyini yoxlamaq lazımdır. Auditin belə tipi səmərəlilik auditi adlanır. Bununla da, «uyğunluq və səmərəlilik auditi» birgə anlayışı tətbiq edilməsi izah edilir.

Belə auditin təcrübədə həyata keçirilməsi bu və ya digər ixtisaslaşmış funksiyaya münasibətdə öz siyasətinin həyata keçirilməsi üçün müəssisənin istifadə etdiyi müxtəlif texnikanın və metodların, onların yerinə yetirilməsinin və müəssisənin bu və ya digər ixtisaslaşmış funksiyasının fəaliyyətinin nəticəsinə nəzarətin öyrənilməsindən ibarətdir. Əgər misal kimi, marketinq şöbəsinin idarə edilməsi və ona nəzarətin metodlarının (yəni marketinq funksiyasının) auditini nəzərdən keçirsək, bu zaman ardıcıl surətdə bazarların idarə edilməsilə, mallarla, satış qiymətlərilə, müştərilərlə, bölüşdürülməilə, satışın gücləndirilməsilə, malların irəli yeridilməsilə və reklamla, satışla, habelə proqnozların və büdcənin idarə edilməsilə əlaqədar məsələlər nəzərdən keçirilmiş olur.

İxtisaslaşmış funksiyaları üzrə uyğunluq və səmərəlilik auditinin keçirilməsi üçün sorğu vərəqi işlənib hazırlanır. O, elə tərtib edilir ki, mənfi cavab verildikdə disfunksiya (anomaliya, normadan fərqlənmələr) olması təsbit edilir. Mənfi cavablar ayrıca qeyd edilir, aşkar edilmiş disfunksiyaların səbəbləri əlavə təhlil edilir, sağlamlaşdırılma yolları göstərilir.

Müəssisənin diaqnostikasının həyata keçirilməsi üçün funksional diaqnostika mövqelərindən «rəqabət üstünlüyü» anlayışını öyrənmək lazımdır, yəni rəqabət üstünlüyünün fəal silsiləsini funksional baxımdan araşdırmaq lazımdır. Bu zaman nəzərə almaq lazımdır ki, rəqabət şəraitində müəssisənin yaşamaq uğrunda mübarizəsi bütün həyat silsiləsi ərzində məhz rəqabət üstünlüyünün yüksək səviyyəsi

uğrunda mübarizədən ibarətdir. Bizim təsəvvürümüzə görə, ixtisaslaşmış funksiyaların diaqnostikası onların fəaliyyətinin səmərəliliyinin və müəssisəsinin müxtəlif funksional şöbələrində və xidmətlərində yaranan rəqabət üstünlüyü səviyyəsinin yüksəldilməsi problemini həll etməlidir.

Yuxarıda deyilənlərlə əlaqədar olaraq «funksiya» anlayışını dəqiqləşdirmək lazımdır. «Funksiya» (latınca funqi) sözü tapşırığı yerinə yetirmək deməkdir. Belə ki, kommersiya funksiyası istehsal edilmiş məhsulun (malın), yerinə yetirilmiş işin, göstərilmiş xidmətin satışından; istehsal (texniki) funksiyası – əmtəə istehsalından ibarətdir; rəhbərlik (idarə etmə), mühasibat uçotu və maliyyə bir funksiyada – «idarəetmə-maliyyə» yaxud rəhbərlik – maliyyə funksiyasında qruplaşdırılır. Müxtəlif funksiyalar öz aralarında əlaqəlidir və «təşkilatlar» adlanan strukturlarda həyata keçirilirlər. Beləliklə, təşkilat strukturunun təhlilinə və menecmentin diaqnostikasına tələbat yaranır. Müəssisə özünün çoxsaylı vəzifələrinin yerinə yetirilməsi üçün özünü lazımi insan ehtiyatları ilə təmin etməlidir – bu şəxsi heyətin idarə edilməsi üzrə fəaliyyətdir və ya sosial funksiyadır.

Və nəhayət, keyfiyyətli idarəetmə dedikdə üstünlük dərəcəsi ifadə edən (yaxud nisbi mənada) yaxşı və ya səmərəli idarəetmə anlaşılmalıdır, yəni bu «nisbi keyfiyyət» adlanan anlayışdır.

Texniki diaqnostika zamanı keyfiyyət anlayışı «keyfiyyətin səviyyəsi» kimi statistik nəzarətdə tətbiq edilən kəmiyyət mənasında, dəqiq texniki qiymətləndirmələr haqqında danışılanda isə «keyfiyyətin ölçüsü» kimi nəzərdən keçiriləcəkdir.

14.2. Müəssisənin diaqnostikasının metodologiyası və metodikası


Metodologiya – fəaliyyətin strukturu, məntiqi təşkili, metodları və vasitələrinin məcmudur. Diaqnostikanın metodologiyası – bu bilik sahəsində, əsasını formal məntiq təşkil edən, elmi dərketmənin qurulması prinsipləri, formaları və üsullarını əhatə edir. İqtisadi təhlilin ənənəvi metodlarından istifadə edilməsi müəssisədə işlərin real vəziyyətini və onun fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yollarını

tam əks etdirmir, daxili amillər kifayət qədər təhlil olunmur yeni bazar şəraitində xarici amillərin təsirinin öyrənilməsinə obyektiv tələbat yaranır. Bununla əlaqədar diaqnostika metodologiyası nəzərdən keçirilərkən müəssisənin fəaliyyətinin araşdırılmasında iki əsas istiqamətin: xarici və daxili amillərin təhlilinin ayrıca qeyd edilməsi zərurəti yaranır.

Müəssisənin diaqnostikasının həyata keçirilməsi qaydasını göstərmək üçün müəssisənin tərifini dəqiqləşdirmək lazımdır. Bu fəsildə o, (müəssisə) insan iradəsilə hərəkətə gətirilən və sahibkarın məqsədinə, məsələn, mənfəət əldə etməsinə nail olmasına istiqamətlənmiş insan ehtiyatlarının, material və maliyyə vəsaitlərinin təşkil edilmiş məcmusu (sistemi) kimi araşdırılır.

Bu tərifi xronoloji qaydada təhlil edərək müəyyən etmək olar ki, müəssisənin əsasını insan iradəsi (istəyi, arzusu), müəssisə rəhbərlərinin son məqsədini, onlara nail olmaq yollarını, strategiyasını, idarəetmə və nəzarət vasitələrini, onların təşkilini, metodlarını, habelə cari fəaliyyəti və nəticələri (mənfəəti) xarakterizə edir. Təcrübədə bu ardıcıllıq daha çox dairə üzrə hərəkətə və ya silsiləyə (dövr etməyə) bənzəyir, nəinki ciddi xətti ardıcıllığa, burada, digərlərilə yanaşı, habelə müxtəlif mərhələlər yaxud pillələr arasında ardıcıl qarşılıqlı təsiri və uyğunlaşmanı da dəqiqləşdirmək lazımdır. Bu zaman ardıcıl gələn mərhələlərin təhlili həm mikro səviyyədə (müəssisə səviyyəsində), həm də hər mühüm funksiyanın: marketinqin, istehsalın, təchizatın və s. daxilində tətbiq edilir.

Beləliklə, diaqnostika metodologiyasının məzmununu şərh edərkən müəssisənin məqsədlərinə nail olunması üçün bir-birini tamamlayan müxtəlif mərhələlərin aşağıdakı xronoloji ardıcıllığını göstərmək (qeyd etmək) olar: bu və ya digər funksiyanın təzahürlərinin təhlili; həyata keçirilən siyasətin qiymətləndirilməsi; funksiyanın yerinə yetirilməsi üçün zəruri olan vasitələrin və onun təşkilinin qiymətləndirilməsi; idarəetmə və nəzarət metodlarının auditi; rəqabət mühitində bu və ya digər ixtisaslaşmış (xüsusi) funksiyanın həyata keçirilməsinin keyfiyyəti haqqında rəy.



Sxem 14.2. ***Müəssisənin diaqnostikasının fazaları və tərkib hissələrinin təhlili***


Daha sonra müəssisənin diaqnostikasının (o cümlədən funksional) mərhələlərini, fazalarını və tərkib hissələrini müəyyən edək. Mərhələlər – xarici və daxili amillərin təhlilidir; fazalar – maliyyə-iqtisadi təhlildir, funksional və strateji diaqnostikadır; tərkib hissələri – fazaların tərkib hissələridir, məsələn, funksional diaqnostika üçün – marketinqdir, istehsaldır, təchizatdır, şəxsi heyətdir və s.

14.2 sxemində müəssisənin diaqnostikasının fazalarının və tərkib hissələrinin sxemi göstərilmişdir.

Təhlil edilən obyektin fəaliyyətinə təsir edən xarici amilləri araşdıran zaman bazarın vəziyyətinin, müəssisənin rəqabət fəallığının, xammal ehtiyatlarının, texnologiyaların vəziyyətinin, əmək bazarının, vergi qanunvericiliyinin, kapital bazarının, siyasi vəziyyətin öyrənilməsinə xüsusi diqqət verilməlidir. Bundan əlavə, burada sosial-mədəni amilləri və kəmiyyətin qiymətləndirilməsinin qüvvədə olan sistemlərinin metodologiyasını araşdırmaq, gələcək inkişaf meyllərini göstərmək, yuxarıda göstərilən amillərin təhlil edilən obyektə təsirinin gələcək nəticələrini və yekunlarını proqnozlaşdırmaq məqsədəuyğundur.

Daxili amilləri təhlil edən zaman ilk növbədə müəssisədə olan material, əmək və maliyyə ehtiyatlarını, imkanları (gücləri), strategiyanı, siyasəti araşdırmaq, idarəetmənin təşkilini, metodlarını, nəzarət sistemini və rəhbərlik üslubunu öyrənmək lazımdır. Bu da fəaliyyətin planlaşdırılması, proqnozlaşdırılması, gələcək inkişafın meyllərinin aydınlaşdırılması, planlaşdırılmış və proqnozlaşdırılmış hərəkətlərin nəticələrinin hesablanması ilə yekunlaşmalıdır.

Diaqnostikanın metodoloji əsaslarını araşdıran zaman onun xüsusiyyətlərini və aparılması qaydasını müəyyən etmək məqsədəuyğundur. Bura müəssisənin bu və ya digər funksiyasının rolunun müəyyən edilməsi, nəticələrin təhlili, siyasətin və strategiyanın, bu və ya digər funksiyanın vasitələrinin və təşkilinin qiymətləndirilməsi, idarəetmə və nəzarət, habelə cari fəaliyyət metodlarının öyrənilməsi daxildir. Bundan sonra prosessual dövretmə təkrar edilir.




Sxem 14.3. ***Müəssisənin ixtisaslaşmış funksiyalarının (şöbələrinin) rolu və vəzifələri***

Funksiyaların və xarici mühitin qarşılıqlı əlaqəsinin təsirini öyrənərkən funksiyaların birindən digərinə ardıcıl keçməklə yenidən bu və ya digər funksiyanın nəticələrinin təhlilinə başlamaq olar. Bu zaman müəssisənin diaqnostikasının bir mərhələsi digər mərhələsinin hesablanma nöqtəsi (başlanğıcı) olur. Burada da dairəvi dövriyyə görünür, müəssisənin ixtisaslaşmış funksiyaları qarşılıqlı əlaqəli olur və bir-birinə təsir edir, yuxarıda göstərilən funksiyaların qarşılıqlı nüfuz etməsi nəzərə çarpır. Belə ki, onların hamısı təhlil edilən obyektin fəaliyyətinin son nəticəsinə təsir edir və onu formalaşdırırlar.

Müəssisənin ixtisaslaşmış funksiyalarının rolu və vəzifələri sxem 14.3 -də təsvir edilmişdir.

Diaqnostik metodun təcrübədə də müvəffəqiyyətlə tətbiq edilməsi üçün bizim tərəfdən yuxarıda göstərilən bütün ixtisaslaşmış funksiyalar üzrə araşdırma aparılması məqsədilə təklif edilmiş göstəricilər sistemi sonuncuların səmərəliliyi, qiymətləndirilməsi və funksional diaqnostikanın nəticələri əsasında optimal idarəetmə qə-

rarları qəbul edilməsi üçün istifadə edilir. Bu və ya digər ixtisaslaşmış funksiyanın təzahürlərin qiymətləndirilməsinin bütün göstəricilərini üç il ərzində dinamikada hesablamaq lazımdır. Bu zaman onların artım templəri və belə dəyişilmələrin səbəbləri, onların sabit dinamikası müəyyən edilir ki, bu da bu və ya digər funksiyanın təmayülünü aydınlaşdırmaq imkanı yaradır.



Sxem 14.4. ***Müəssisənin ixtisaslaşmış funksiyalarının təhlili sxemi***

Göstəricinin inkişafının və ya artım tempinin dəyişilməsi onun dinamikasının sürətlənməsini ifadə edir. Sonuncunun qiymətləndirilməsi məqsədilə onun mütləq və nisbi ölçülərinin sürət işarəsini («+» və ya «-») müəyyən etmək lazımdır. Bu zaman temp xarakteristikalarını bərabər dövrlər ərzində qiymətləndirilməlidir. Bu məqsədlə araşdırılan dövrü aylara və ya ongünlüklərə (zəruri halda hətta günlərə) bölmək lazımdır ki, bu isə sənaye sahələrinin əksəriyyəti üçün səciyyəvi olan mövsüm fərqlənmələrini də nəzərə almağa imkan verir.

14.4 sxemində müəssisənin ixtisaslaşmış funksiyalarının təhlili sxemi təqdim edilmişdir.

Marketinq funksiyasının diaqnostikası zamanı müəssisənin vergi tutulmasına qədər ümumi dövriyyəsinin dinamikası, habelə həmin dövriyyənin müəssisə qiymətlərinin artımına düzəliş (təshih) edilmiş dinamikası izlənir, həmin göstəricilərin artım templərinin «mallar-bazarlar» seqmentləri üzrə nəinki dəyər, həm də natural ifadədə detallaşdırılması öyrənilir. Bu zaman hər «mal-bazar» nisbəti üzrə məhsulun istehsal və realizasiya xərclərinin strukturu tədqiq edilir. Bundan əlavə, bazarın bu və ya digər seqmentində müəssisənin payı müəyyən edilir, bazarların inkişaf templəri nəzərdən keçirilir və onlar müəssisənin istehsalının artım templərilə müqayisə edilir. İstehsal edilən malın həyat (yaşama) dövründən (istehsala başlanma, artım, yetkinlik, azalma) asılı olaraq satışın bölüşdürülməsinin təhlili aparılır və bu, müəssisənin inkişaf imkanlarını qiymətləndirməyə imkan verir.

Hədsiz sayda malların azalma mərhələsində müəssisə müflisləşmə riski daşıyır. Həddindən artıq sayda mallar istehsalına başlanma mərhələsində müəssisənin rentabelliyi ilə əlaqədar kifayət qədər ciddi problemlər yarana bilər və bu halda istehsala əlavə investisiyalar tələb edilir.

Sonra hər «mallar – bazarlar» bəndi üzrə nağd pulların hərəkətini təhlil etmək lazımdır. Müəssisə yalnız pul vəsaitlərinin müsbət axınları nəticəsində, xüsusilə «mallardan-bazarlardan» yetkinlik və azalma, işə başlama və artma mərhələlərində məhsulu maliyyələşdirə bilər.

Marketinq funksiyasının diaqnostikasında məqsəd – onun səmərəliliyini yüksəltməkdən ibarətdir. Onun aparılmasının ümumi sxemi aşağıdakı kimidir:

a) nəticələrin təhlili;

b) aparılan siyasətin qiymətləndirilməsi (malların növləri, qiymətlər, bölüşdürmə kanalları, satışın intensivliyi, reklam fəaliyyəti üzrə);

c) marketinq funksiyasının həyata keçirilməsi üçün lazım olan vəsaitlərin və onun təşkil edilməsinin qiymətləndirilməsi; material ehtiyatlarının, şəxsi heyətin ixtisas səviyyəsinin və bu ixtisaslaşmış funksiyanın təşkilinin qiymətləndirilməsi;

ç) idarəetmə və nəzarət metodlarının auditi;

d) müxtəlif fəaliyyət növlərinin və ətraf mühitin qarşılıqlı əlaqəsinin həmin ixtisaslaşmış funksiyaya təsirini nəzərə almaqla cari vəziyyətin təhlili;

e) səbəb (müəssisənin apardığı siyasət, onun vasitələri, təşkili, idarəetmə metodları, xarici amillər, ixtisaslaşmış funksiyalar arasında qarşılıqlı təsir) və nəticə – maliyyə yekunları arasında əlaqələrin aşkar edilməsi;

ə) nəticələrin müəyyən edilməsi: marketinq funksiyası nöqteyi-nəzərindən güclü və zəif tərəflərin aşkar edilməsi, habelə onun yaxşılaşdırılması üzrə tövsiyələr verilməsi.

İstehsal funksiyası araşdırılan zaman istehsalın həcminin, ona məsrəflərin, məhsulun keyfiyyət səviyyəsi göstəricilərinin və sifarişlərin yerinə yetirilməsi müddətlərinə, istehsalın təqvim planlarına, onun ahəngdarlığına riayət edilməsinin təhlilinə xüsusi önəm verilir. Texniki siyasət nöqteyi-nəzərindən ETTKİ-nə yönəldilmiş fəaliyyətin, istehsal edilən məhsulun keyfiyyətinin və istehsalın məhsuldarlığının yüksəldilməsini təmin edən investisiyaların və innovasiyaların öyrənilməsi məqsədəuyğundur.

Ehtiyatların və onların təşkilinin araşdırılması və qiymətləndirilməsi zamanı material və insan ehtiyatlarından, onların təşkil edilməsindən əlavə, müəssisənin rəqabət üstünlüyünü və istehsalın material-texniki təminatını müəyyən edən texniki nou-hau da öyrənilməlidir. İdarəetmə və nəzarət metodlarının auditi müəssisənin

daxili strukturunun, əməyin planlaşdırılmasının, istehsal nəzarətinin, istehsala texniki xidmətin və onun təchizatının öyrənilməsini nəzərdə tutur. İstehsal diaqnostikasının həyata keçirilməsinin qalan cəhətləri yuxarıda təsvir edilmiş marketinq diaqnostikasının aparılması qaydasına uyğundur.

Təchizat funksiyasının diaqnostikasında məqsəd – həmin funksiyanın tutduğu yerin və rolunun təhlilindən, onun xüsusi nəticələrinin (və ya təzahürlərinin) ölçülməsindən və səmərəliliyinin yüksəldilməsi yollarının müəyyən edilməsindən ibarətdir.

Təchizat funksiyası üzrə analitik göstəriciləri istehlak səviyyəsini, ehtiyatların dövr etməsini və təchizat xərclərini səciyyələndirən üç əsas qrupa bölmək olar. Təchizat funksiyasının təzahürlərinin təhlilinin mahiyyəti məhz həmin üç qrupun dinamikasının öyrənilməsindən ibarətdir. Daha sonra təchizat sahəsində siyasət: alınan ehtiyatların tədarükü və seçim meyarı siyasəti, mal göndərənlərlə münasibətlər və ehtiyatların tamamlanması qiymətləndirilir. Təchizat funksiyasının diaqnostikasının gedişi qaydası qalan cəhətlər baxımından marketinq funksiyasında olduğu kimidir: vasitələrin və onların təşkil edilməsinin qiymətləndirilməsindən, idarəetmə və nəzarət metodlarının auditindən və s. ibarətdir.

«İdarəetmə – maliyyə» funksiyasının diaqnostik araşdırılması qaydası da onun kimidir: funksiyanın təzahürlərinin təhlili («maliyyə xərclərinin», maliyyə axınlarının; kredit ödəmə qabiliyyətinin təhlili); aparılan siyasətin (inkişaf siyasətinin, borcların idarə edilməsinin, satışın, bank əlaqələrinin) qiymətləndirilməsi; həmin funksiyanın həyata keçirilməsi üçün lazım olan vasitələrin və təşkil etmənin qiymətləndirilməsi; cari fəaliyyətin təhlili; səbəb – nəticə əlaqələrinin aşkar edilməsi; idarəetmə-maliyyə funksiyasının səmərəliliyinin yüksəldilməsi üzrə nəticələ və tövsiyələrin hazırlanması. Bizim fikirmizcə bu halda, kommersiya və maliyyə siyasətinin, istehsalın və idarəetmənin nəticəsi olan maliyyə axınlarının təhlili maraq doğurur.

Maliyyə siyasətinin təhlil edilməsi zamanı yuxarıda deyilənlərlə əlaqədar olaraq müəssisənin öz üzərinə götürə biləcəyi öhdəliklərdən (ödəmə qabiliyyətini itirmək riskinə getmədən) və onun rentabelliyindən asılı olan maksimum inkişaf səviyyəsini hesablamaq lazımdır. Bu

zaman maliyyə siyasətinin əsas xüsusiyyəti müəssisənin uzunmüddətli və daimi inkişafının təmin edilməsi məqsədilə rentabelliyin və satış qabiliyyətinin uyğunlaşdırılmasından ibarətdir.

Bu halda aşağıdakı bərabərsizliyə riayət edilməlidir:

$$ÖMQ > İN + \Delta DFT + BÖ,$$

burada ÖMQ - hesabat dövründə özünü maliyyələşdirmə qabiliyyətini; İN -hesabat dövründə investisiyalar; ΔDFT - hesabat dövründə dövriyyə fondlarına tələbatın artımını; BÖ - hesabat dövründə borcların ödənilməsini əks etdirir.

Menecmentin və təşkil etmənin diaqnostikasının əsas məqsədi rəhbərliyin nailiyyətlərinin və menecmentin bazar tələblərinə uyğunluğunun qiymətləndirilməsindən ibarətdir. Bu, funksiyanın təzahürünün öyrənilməsindən ibarətdir. Bu funksiyanın təzahürünün öyrənilməsi müəssisənin maliyyə nəticələrinin və əmlakının dinamikada təhlil edilməsindən ibarətdir. Həmin parametrlərin artım tempi nə qədər yüksək olarsa, digər şərtlər eyni olmaqla, bu funksiyanın həyata keçirilməsinin səmərəliliyi o qədər əhəmiyyətli olur. Onu qiymətləndirəndə, müəssisənin inkişaf potensialını və perspektivlərini, onun nüfuzunu öyrənmək lazımdır. Baş siyasətin təhlili bütövlükdə müəssisənin rolunun və vəzifələrinin, idarəetmənin iyerarxik strukturlarının, menecmentin müxtəlif səviyyələrinin, məqsədlərinin və vəzifələrinin, müəssisənin inkişafının strateji istiqamətlərinin tədqiqini nəzərdə tutur. Növbəti mərhələdə menecment üslubu, mədəniyyəti və müəssisədə işləyən dəyərlər sistemi, yuxarı idarəetmə halqasının səriştəliliyi və qabiliyyətləri qiymətləndirilir. Sonra menecmentin təşkili və strukturu təhlil edilir, planlaşdırma və idarəetməyə nəzarət metodlarının (informasiya sistemlərinin, tətbiq edilən planlaşdırma metodlarının və nəzarət texnikasının) auditi həyata keçirilir, səbəb nəticə əlaqələri aşkar edilir, fəaliyyətin güclü və zəif aspektlərini nəzərə almaqla nəticələr çıxarılır, menecmentin və təşkil etmənin səviyyəsinin yüksəldilməsi üzrə tövsiyyələr hazırlanır.

Sosial funksiyanın («şəxsi heyət – menecment») qiymətləndirilməsinin göstəriciləri, əsas etibarilə, şəxsi heyətin müxtəlif etiraz formalarını səciyyələndirən parametrlərin öyrənilməsinə, habelə sosial iqlimin araşdırılmasına və əmək məhsuldarlığının təhlilinə aiddir. Müəssisənin sosial sahədə apardığı siyasəti öyrənərkən, ilk növbədə şəxsi heyətin işə qəbul edilməsinə, onun iş şəraitinə, əmək haqqının səviyyəsinə, təhsilinə və şəxsi heyətin ixtisasının artırılmasına və sosial iqlimin yaxşılaşmasına yönəldilmiş tədbirlərin işlənib hazırlanmasına diqqət yetirilir. Sonra ştat cədvəlinin strukturu təhlil edilir, şəxsi heyətin idarə edilməsi, onun əməyinin ödənilməsi, ixtisasının artırılması və peşəkarlığının inkişafı, müəssisədə həmkarlar ittifaqının fəallığı mövqeyindən idarəetmə və nəzarət metodlarının auditi həyata keçirilir. Qalan məsələlərdə qayda bütün ixtisaslaşmış funksiyalar üçün olduğu kimidir: müxtəlif qarşılıqlı əlaqəli xidmətlərin (ixtisaslaşmış funksiyaların) qarşılıqlı əlaqə və təsirlərini, ətraf mühitin təsirini nəzərə almaqla müəssisənin cari fəaliyyətinin təhlili; sosial funksiyanın fəaliyyətində səbəb – nəticə əlaqələrinin aşkar edilməsi; həmin funksiya üzrə rəy; fəaliyyətin güclü və zəif tərəflərinin aşkar edilməsi və onun səmərəliliyinin yüksəldilməsi üzrə tövsiyələrin hazırlanması.

Diaqnostikanın aparılması üçün təsərrüfat əməliyyatların (prosesləri) fəaliyyəti üzrə göstəricilərin və nəticələrin kəmiyyət və keyfiyyət xüsusiyyətlərini səciyyələndirən informasiyaya malik olmaq lazımdır. Ona müəssisənin fəaliyyətinin daxili amillərinə aid informasiya və onun ətrafına, yəni xarici amillərə aidiyyəti olan informasiya daxildir.

Daxili amillər funksiyalar üzrə strukturlaşdırılır. Təklif edilmiş metodoloji yanaşmadan asılı olaraq onların nəticələrə (yaxud təzahürlərə), siyasətə, fəaliyyətin həyata keçirilməsi üçün lazım olan vasitələrə və təşkil etməyə, idarəetmə metodlarına və bu və ya digər ixtisaslaşmış funksiyanın fəaliyyətinin problemlərinə aidiyyəti ola bilər.

Xarici amillərə tərəfdaşlar və ya hər funksiya üçün spesifik olan mühit amilləri (məsələn bazarın təmayülü yaxud istehlakçıların davranışı) aiddir. İlk növbədə bütün lazımi məlumatlar arasında həmin müəyyən hissənin təsbit edilmiş faktlarının əks etdirməsini dəqiqləş-

dirmək lazımdır. Qalan müəssisələr müşahidələr və ya müsahibələr vasitəsi ilə aydınlaşdırıla bilər.

Bu fəsildə müəssisənin əsas ixtisaslaşmış funksiyaları üzrə təhlilin formallaşdırılmamış metodları şərh edilmişdir. O, analitik cədvəllərin, testlərin, anketlərin, sorğu vərəqələrinin, sualların və müsahibələrin qarşılıqlı əlaqəli sistemindən ibarətdir. Burada hər struktur bölməsi üzrə davranış qaydaları və işlərin həyata keçirilməsi qaydası təklif edilmişdir.

Müəssisənin diaqnostik araşdırılması nəticəsində onun inkişaf planı işlənib hazırlanır. O, müəssisənin əsas ixtisaslaşmış funksiyalarının diaqnostik araşdırılmasının nəticələri üzrə çıxışlar və tövsiyələr əsasında qurulmalıdır. Həmin plan aşağıdakı hissələrdən ibarət olmalıdır: marketinq planı, təchizat planı, istehsal, maliyyə və sosial planlar, habelə menecmentin və təşkil etmənin səmərəliliyinin yüksəldilməsi planları.

İnkişaf strategiyasının seçimi ilk növbədə funksional diaqnostikanın nəticələrinə əsaslanmalıdır. O, müəssisənin perspektivini, bu gün hansı çətinliklərə xüsusi diqqət yetirilməli olmasını müəyyən etmək imkanı yaradır ki, sabah onlar maliyyə çətinliklərinə düşməsinlər və çıxılmaz vəziyyət yaranmasın.

İxtisaslaşmış funksiyaların səmərəliliyinin yüksəldilməsi üzrə təkliflər özlərini doğrultmalı və izah edilməlidir, əhəmiyyəti və təciliyi dərəcəsindən asılı olaraq müəyyən iyerarxiyaya düzülməlidir, vaxt üzrə bölüşdürülməlidir, müəyyən rəhbərlərə ciddi tabe olmalıdır, xərclər (və ya büdcə) və onların tətbiqinin gözlənilən nəticələri nöqteyi-nəzərindən hesablanmalıdır.

Funksional diaqnostikanın nəticələri üzrə tövsiyələrin işlənib hazırlanması müəssisəyə optimal strategiya və onun həyata keçirilməsi üçün lazımi vasitələr seçmək, habelə bu zaman alınacaq nəticəni əvvəlcədən görmək imkanı yaradır. Belə yanaşma sənaye müəssisəsinin idarə edilməsinin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir, bu isə onun fəaliyyətinin daha səmərəli olmasına gətirib çıxarır, böhran vəziyyətinə (yaxud müflisləşməyə) uğramağın qarşısını alır.

İdarəetmənin keyfiyyəti funksional kafilikdən, marketinqin və menecmentin təşkili səviyyəsindən, təchizatın və ehtiyatların səmərəli

idarə edilməsindən, tətbiq edilən texnikadan, texnologiyadan və istehsalın təşkilindən, yəni müəssisəsinin ixtisaslaşmış funksiyalarının vəziyyətindən asılıdır. Beləliklə, idarəetmənin keyfiyyətinin və müvafiq surətdə, bütövlükdə istehsalın səmərəliliyinin, keyfiyyətinin yüksəldilməsi üzrə bütün işin əsasını diaqnostik yanaşma təşkil edir ki, o, ixtisaslaşmış funksiyaların hərtərəfli araşdırılması, disfunksiyaların və çətinliklərin axtarıb tapılması, müəssisənin disfunksiyalarının vəziyyətini və xarakterini eyniləşdirmək imkanı yaradan göstəricilər və normalar sisteminin işlənib hazırlanması, sağlamlaşdırma yollarının müəyyən edilməsi, pozulmuş mexanizmin dəqiq öyrənilməsi ilə səciyyələnir.

14.3. Müəssisənin potensial müflisləşmə ehtimalının qiymətləndirilməsi üçün zəruri olan göstəricilər sistemi

Qüvvədə olan normativ sənədlərdə və müasir iqtisadi ədəbiyyatda potensial müflisləşməyə müxtəlif yanaşmalar ehtiva edilir.

Belə ki, Azərbaycan Respublikasının «Müflisləşmə və iflas haqqında» 13 iyun 1997-ci il tarixli 326 saylı qərarı ilə ödəmə qabiliyyəti olmayan müəssisələrin balansının qeyri-kafi strukturunun müəyyən edilməsi üçün cari satış qabiliyyətinə, xüsusi dövriyyə vəsaitlərilə təmin edilməyə və ödəmə qabiliyyətinin bərpa edilməsi (itirilməsi) bacarığına əsaslanan meyarlar sistemi təsdiq edilmişdir.

Dövlət müəssisələrinə və kapitalında Azərbaycan Respublikasının payı 25%-dən artıq olan müəssisələrə münasibətdə göstərilən meyarlar sistemi aşağıdakılardır:

- müəssisə balansının strukturunun qeyri-qənaətbəxş hesab edilməsi haqqında;
- borclu müəssisənin öz ödəmə qabiliyyətini bərpa etmək üçün real imkanları olması haqqında;
- müəssisənin kreditorlar qarşısında öz öhdəliklərini yaxın vaxtda yerinə yetirə bilmədiyi halda onun ödəmə qabiliyyətinin itirilməsinin real mümkünlüyü haqqında.

Eyni zamanda Qanunun 2-cü və 6-cı maddələrinə uyğun olaraq kreditorların ümumi tələblərinin məbləği borclu müəssisənin nizamnamə kapitalının 10 faizindən az bir hissəsinin təşkil etdiyi hallarda kreditorların borcluya qarşı əmlak iddiaları məhkəmədə əmlak mübahisələrinə baxılmasının ümumi qaydalarına uyğun həll edilir.

Müəyyən edilmiş meyarlar sistemindən hər hansı kommersiya təşkilatının maliyyə vəziyyətinin təhlili prosesində istifadə faydalıdır, çünki bu sistem qısamüddətli perspektivdə potensial müflisləşmə ehtimalının müəyyən edilməsinə mümkün olan yanaşmalardan biri kimi qiymətləndirilə bilər. Həm də ona görə ki, Azərbaycan Maliyyə Nazirliyi Mühasibat maliyyə hesabatlarının tərtib edilməsi haqqında qaydalara əsasən müəssisənin illik hesabatına izahat məktubunda digər göstəricilərin sırasında nəzərdən keçirilən meyarlar sistemi üzrə hesablamalar verməyi tövsiyyə edir.

Balansın strukturunun qənaətbəxşliyi dərəcəsinin qiymətləndirilməsi üçün meyarlar sistemini yaradan göstəricilərin hesablanmasına yğun olaraq:

1) cari likvidliyin səciyyələndirilməsi üçün cari likvidlik əmsalı ($Ə_{C.Lik}$) tətbiq edilir, o, aşağıdakı kimi (müasir balansın quruluşu nəzərə alınmaqla) hesablanır:

$$Ə_{C.Lik} = \frac{\text{balansın aktiv hissəsinin II və III bölməsinin cəmi}}{\text{balansın passiv hissəsinin II bölməsi - GDG - QXÖEV - istehlak fondu}},$$

burada QXÖEV-qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlardır.

Beləliklə, burada prinsipcə 12.6-cı paraqrafda $Ə_6$-ya aid nəzərdən keçirilmiş hesablama qaydası müəyyən edilmişdir.

$Ə_{Lik}$ üçün normativ qiymət 2-yə bərabər müəyyən edilmişdir.

2) xüsusi dövriyyə vəsaitlərilə təmin edilmənin səciyyələndirilməsi üçün xüsusi dövriyyə vəsaitlərilə təminat əmsalı ($Ə_{xdv}$) tətbiq edilir. O, aşağıdakı kimi (müasir balansın quruluşunu nəzərə almaqla) hesablanır

$$Ə_{xdv} = \frac{\text{balansın passiv hissəsinin I bölməsi - balansın aktiv hissəsinin I bölməsi}}{\text{balansın aktiv hissəsinin II və III bölməsinin cəmi}},$$

yəni biz burada 12.5-ci paraqrafda dövriyyə aktivləri sahəsində maliyyə müstəqilliyi əmsalı adlanmış əmsalla ($Ə_2$) qarşılaşırıq. $Ə_{xdv}$ üçün normativ qiymət 0,1 müəyyən edilmişdir.

3) əgər hesabat dövrünün sonuna nəzərdən keçirilən əmsallardan hətta biri müəyyən edilmiş normativdən az, yəni $Ə_{C.Lik}<2$ yaxud $Ə_{xdv}<0,1$ olarsa, balansın strukturu qeyri-qənaətbəxş, təşkilat isə – ödəmə qabiliyyəti olmayan hesab edilir.

4) öz ödəmə qabiliyyətini altı ay müddətində bərpa etmək üçün real imkanların müəyyən edilməsi üçün üçüncü əmsalı – ödəmə qabiliyyətinin bərpa edilməsi əmsalını ($Ə_{öqb}$) aşağıdakı düsturla hesablamaq lazımdır:

$$Ə_{öqb} = \frac{Ə_{C.Lik_1} + \frac{6}{T}\left(Ə_{C.Lik_1} - Ə_{C.lik_0}\right)}{2},$$

burada $Ə_{C.Lik1}$ və $Ə_{C.Lik0}$ – müvafiq olaraq hesabat dövrünün sonuna və əvvəlinə cari likvidlik əmsallarıdır; T-aylarla hesablanan hesabat dövrüdür; «6» rəqəmi – ödəmə qabiliyyətinin mümkün olan bərpa edilməsi dövrüdür, aylarla.

$Ə_{öqb}$ üçün normativ 1-ə bərabər qəbul edilmişdir. Əgər $Ə_{öqb}\geq 1$ vəziyyəti yaranarsa, onda təşkilat qısamüddətli perspektivdə ödəmə qabiliyyətini bərpa edə bilər. Əgər $Ə_{öqb}<1$ olarsa, bu o deməkdir ki, təşkilatın ödəmə qabiliyyətini bərpa etmək real imkanı yoxdur.

5) əgər $Ə_{C.Lik}$ və $Ə_{ödv}$ normativ qiymətlərə uyğun və ya onlardan böyük, yəni $Ə_{C.Lik}\geq 2$ və $Ə_{xdv}\geq 0,1$ olarsa, müəssisənin balansının strukturu və ödəmə qabiliyyəti qənaətbəxş hesab edilir, lakin bu halda təşkilatın öz ödəmə qabiliyyətini üç aya bərabər yaxın perspektivdə itirməyəcəyini yoxlamaq lazımdır. Bu məqsədlə ödəmə qabiliyyətinin itirilməsi əmsalı ($Ə_{öqi}$) aşağıdakı düsturla hesablanır:

$$Ə_{öqi} = \frac{Ə_{C.Lik_1} + \frac{3}{T}\left(Ə_{C.Lik_1} - Ə_{C.Lik_0}\right)}{2},$$

burada 3-ödəmə qabiliyyətinin itirilməsinin mümkün olan üç aya bərabər dövrüdür.

$Ə_{öqi}$ üçün normativ 1-ə bərabər müəyyən edilmişdir. Əgər $Ə_{öqi}\geq 1$ olarsa, təşkilatın öz ödəmə qabiliyyətini saxlamaq üçün real imkanı vardır, əgər $Ə_{öqi}\leq 1$, onda təşkilatın yaxın vaxtda ödəmə qabiliyyətini itirməsi təhlükəsi olur.

Nəzərdən keçirilən sistem çox sadədir, lakin bizim fikrimizcə əvvəla, zəruri dəqiqləşdirmələr aparılmalıdır (onların tərkibi 12.5-də verilmişdir). İkincisi $Ə_{xdv}$ tətbiqilə, $Ə_{öqb}$ və $Ə_{öqi}$ normativ qiymətlərinin müqayisəsi əsasında ödəmə qabiliyyətinin bərpası və ya itirilməsi barədə çıxarılan nəticələrin böyük şərtiliyilə əlaqədar (bu əmsalların hesablanması əvvəlki dövrdə $Ə_{C.Lik}$-nin dəyişilmələrinin gələcəyə aid edilməsinə əsaslanır) bəzi nöqsanları vardır. Təsərrüfat təcrübəsində yaxın rübdə, daha çox yarım ildə qəbul edilən istehsalın və maliyyənin idarə edilməsi barədə qərarlar $Ə_{C.Lik}$ -ni $Ə_{C.Lik1}$-ə nisbətən həm azalda, həm də artıra bilər.

Əgər hesablamalar nəticəsində təşkilatın ödəmə qabiliyyətinin bərpasının qeyri-mümkünlüyü yaxud onun itirilməsi müəyyən edilərsə, ödəmə qabiliyyətinin bərpa edilməsi üçün tədbirlər görmək lazımdır. Belə tədbirlərə aşağıdakılar aid edilə bilər:

- rentabelli olmayan istehsal sahələrinin bağlanması;
- debitor borclarının alınması;
- əmlakın bir hissəsinin satılması;
- tələb hüququna güzəşt edilməsi;
- təşkilatın öhdəliklərinin onun sahibləri, yəni təsisçiləri (iştirakçıları), yaxud digər üçüncü şəxslər tərəfindən yerinə yetirilməsi;
- təsisçilərin (iştirakçıların) və üçüncü şəxslərin ödəmələri hesabına nizamnamə kapitalının artırılması;
- əlavə səhmlərin yerləşdirilməsi və b.k.

Potensial müflisləşmənin qiymətləndirilməsi üçün özünəməxsus metod kimi Təşkilatların vergi məbləğlərinin eyni vaxtda ödənilməsi halında müflisləşmənin başlanmasının mümkünlüyü haqqında rəy verilməsi qaydalarında müəyyən edilmiş metodikanı nəzərdən keçirmək olar. Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin 79-cu maddəsinə uyğun olaraq vergilərin və rüsumların ödənilməsi müflis (iflas) olacağı təhlükəsi olduqda təşkilatlara onların qanunla müəyyən edil-

miş növbəlilik qaydasında ödənilməsi və ya ona möhlət verilməsi imkanı yaradıla bilər.

Müflisləşmə (iflas) prosesinə məhkəmənin iştirakı olmadan müvafiq icra hakimiyyəti orqanı tərəfindən başlanması mümkünlüyü barədə rəy (qərar) aşağıdakı şərtlər yerinə yetirildikdə təşkilata təqdim edilir.

1) təşkilatın xüsusi dövriyyə vəsaitləri vardır və xüsusi kapitalının (mühasibat hesabatının 1 saylı formasının 480-cı sətri) və dövriyyədən kənar aktivlərin (mühasibat hesabatının 1 saylı formasının 080-cı sətri) həcmi arasındakı fərq eyni vaxtda ödənilməli vergilərin (V) həcmindən azdır. Beləliklə, müflisləşmənin başlanmasının mümkünlüyünün birinci şərtini aşağıdakı bərabərsizlik kimi təsəvvür etmək olar:

$$DXK<V$$

2) vergi hesablanandan sonra təşkilatın sərəncamında qalan mənfəətin son hesabat dövründəki məbləği (XM_1) eyni vaxtda ödənilməli vergilərin məbləğindən azdır. Deməli, müflisləşmənin başlanmasının mümkünlüyünün ikinci şərtini aşağıdakı bərabərsizlik kimi təsəvvür etmək olar:

$$XM_1<V$$

Nəzərə almaq lazımdır ki, müflisləşmə (iflas) barədə işi məhkəmənin icraatında olan borclu təşkilatın (müəssisənin) maliyyə vəziyyəti məhkəmə rəhbəri tərəfindən təhlil edilməsi məqsədilə maliyyə sabitliyinin və zərərsiz fəaliyyət göstərməsinin mümkünlüyünün qiymətləndirilməsi üçün xüsusi göstəricilər sisteimndən istifadə edilir. Bu sistemdən həmçinin «dövlətli» (müflis olmayan) təşkilatın təhlili üçün də (o cümlədən onun müflisliyinin proqnozlaşdırılması məqsədilə) istifadə etmək olar.

Potensial müflisləşmənin qiymətləndirilməsi üçün meyarların yuxarıda nəzərdən keçirilmiş normativ sənədlərdə müəyyən edilmiş metodu ilə yanaşı Azərbaycan və xarici ölkələrin ədəbiyyatında da müvafiq tövsiyyələr ehtiva edilir. Lakin ölkəmizdəki nəşrlərdə, bir

qayda olaraq, müflisləşmə ehtimalının proqnozlaşdırılmasının xarici ölkələrin təcrübəsində tətbiq edilən modellər nəzərdən keçirilir.

M.V.Rodionovanın və M.A.Fedotovanın əsəri olduqca məzmunlu təsəvvür yaradır [41, s.66-69]. Orada aşağıdakılar qeyd edilir.

«Müflisləşmə ehtimalının proqnozlaşdırılmasının ən sadə modeli iki amilli modeldir. Onun üçün konkret müəssisənin müflisləşməsi ehtimalının asılı olduğu iki əsas göstərici (məsələn, borc vəsaitlərinin ödənilməsi və onların aktivlərə nisbəti göstəriciləri) seçilir. Həmin göstəricilər empirik (təcrübi) yolla müəyyən edilmiş çəki əmsallarına vurulur və nəticələr həmçinin statistika məlumatları əsasında təcrübi-statistik yolla alınmış hər hansı sabit kəmiyyətlə (konstanta ilə) toplanır. Əgər yekun (Z_1 kimi işarə edilən) mənfi alınarsa müflisləşmə ehtimalı az olur. Əksinə Z_1-in müsbət qiyməti yüksək dərəcədə müflisləşmə ehtimalını göstərir.

Amerikalıların təcrübəsi belə çəki əmsalları müəyyən etmişdir: cari aktivlərin cari öhdəliklərə nisbətilə hesablanan cari likvidlik (ödəmə) göstəricisi üçün – (-1,0736); aktivlərdə borc vəsaitlərinin xüsusi çəki göstəricisi üçün – (+0,0579);

Daimi kəmiyyət – (-0,3877);

buradan

$$Z_1 = -0{,}3877 + \underset{\text{göstəricisi}}{\text{ödəmə}} \times (-1{,}0736) + \text{borc vəsaitlərinin}\ \underset{\text{xüsusi çəkisi}}{\text{aktivlərdə}} \times 0{,}0579.$$

Əlbəttə, bizim ölkəmizdə Amerikadan fərqli inflyasiya templəri, makroiqtisadi silsilənin fərqli fazaları, habelə fərqli fond, enerji və əmək tutumu, əmək məhsuldarlığı, vergi iqlimi mövcuddur. Bütün bunlar yuxarıda verilmiş əmsalları Azərbaycan bazarı şəraitinə mexaniki köçürmək imkanı vermir. Əgər ölkəmizin statistikası Azərbaycanın müslisləşmiş müəssisələrinin maliyyə vəziyyəti barədə kifayət qədər mötəbər informasiyaya malik olsaydı digər çəki əmsalları vasitəsi ilə modelin özünü tətbiq etmək olardı,. Mötəbər məlumatlar olmadan müflisləşmə riskini hətta təxmini hesablamaq sadəcə mümkün deyil.

İki amilli modeldən istifadə edərkən, yadda saxlamaq lazımdır ki, o, müəssisənin maliyyə vəziyyətinin kompleks qiymətləndirilməsini təmin etmir və ona görə də proqnozun reallıqdan fərqlənməsi mümkündür. Amerika təcrübəsində heç də təsadüfi olmayaraq, (proqnozun dəqiqliyinin artırılması məqsədilə) dövriyyənin xalis rentabelliyinin dəyişilməsi meylini (mənfəət marjasını (fərqini)) nəzərə almağı tövsiyə edilir, çünki həmin göstərici müəssisənin maliyyə sabitliyinə əhəmiyyətli dərəcədə təsir edir. Bu, eyni zamanda müflisləşmə riski göstəricisinin (Z_1) və mənfəət marjasını (fərqini) müqayisə etmək imkanı verir. Əgər Z_1 göstəricisi təhlükəsiz hədlərdə olarsa və bu zaman müəssisənin mənfəət marjası kifayət qədər yüksəkdirsə, onda müflisləşmə ehtimalı az olur.

Qərbdə müflisləşmə ehtimalının proqnozlaşdırılması məqsədilə E.Altmanın modelindən geniş istifadə edirlər [46, s. 589-609].

E.Altman 1960-cı illərdə Amerikanın 33 müflisləşmiş firmalarının maliyyə vəziyyətini öyrənmiş və onların göstəricilərini eyni sahələrin və analoji müəssisələrin göstəriciləri ilə müqayisə etmişdir. Tədqiqatlar E.Altmana müflisləşmə ehtimalını daha düzgün müəyyən edən beş göstəricini və onların çəki əmsallarını müəyyən etmək imkanı verdi.

Nəticədə özünün beş amilli modelini yaratmışdır:

$$Z_2 = 0{,}012 \times Ə_1 + 0{,}014 \times Ə_2 + 0{,}033 \times Ə_3 + 0{,}006 \times Ə_4 + 0{,}999 \times Ə_5,$$

burada

$$Ə_1 = \frac{\text{xüsusi dövriyyə vəsaitləri}}{\text{məcmu aktivlərin həcmi}};^1$$

$$Ə_2 = \frac{\text{bölüşdürülməmiş mənfəət}}{\text{məcmu aktivlərin həcmi}};$$

$$Ə_3 = \frac{\text{balans mənfəəti}}{\text{məcmu aktivlərin həcmi}};$$

[1] Xüsusi dövriyyə vəsaitləri=Cari aktivlər–Cari öhdəliklər.

$$Ə_4 = \frac{\text{adi və imtiyazlı səhmlərin bazar dəyəri}}{\text{balans üzrə borc vəsaitlərinin həcmi}};^1$$

$$Ə_5 = \frac{\text{məhsulun satışından əldə edilən mədaxil}}{\text{məcmu aktivlərin həcmi}}.$$

Əgər əmsal 1,8 - dən az olarsa, müflisləşmə ehtimalı çox yüksək olur; əgər Z_2 1,9 - dan 2,7 - ə qədər həddindədirsə, müflisləşmə ehtimalı orta səviyyədədir; əgər 2,8 - dən 2,9 - a qədər həddədirsə, müflisləşmə ehtimalı azdır; əgər Z_2 3,0 - dən böyükdürsə, müflisləşmə ehtimalı cüzidir.

Beş amilli modelə əsasən müflisləşməni bir il üçün 90%-ə qədər, iki il üçün – 70%-ə qədər, üç il üçün – 50%-ə qədər dəqiqliklə proqnozlaşdırmaq olar.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə müflisləşmənin proqnozlaşdırılmasının digər, o cümlədən xarici amillərin təsirini nəzərə alan modelləri də tətbiq edilir.

[1] Digər əsərlərdə (məsələn, L.A.Bernstayn [36, s. 480]) bu göstəricinin surətində «xüsusi kapitalın bazar dəyəri» göstərilir.

Yoxlama sualları?

1. Diaqnostikanın əsas vəzifələri hansılardır?
2. Diaqnostikanın hansı istiqamətlərini, mərhələlərini (fazalarını) və tərkib hissələrini qeyd etmək olar?
3. Dərin (qlobal) diaqnostika, ekspress-diaqnostika və funksional diaqnostika nədir?
4. Funksiya nədir və müəssisənin hansı ixtisaslaşmış funksiyaları vardır?
5. Müəssisənin ixtisaslaşmış funksiyalarının diaqnostikasının hansı əsas mərhələləri vardır və onların aparılması qaydası necədir?
6. Diaqnostika mövqeyindən audit metodu nədən ibarətdir və uyğunluq və səmərəlilik auditi nədir?
7. Diaqnostik araşdırma metodu nöqteyi - nəzərindən müəssisəyə hansı xarakteristikanı vermək olar?
8. Təşkilatın potensial müflisləşməsinin qiymətləndirilməsi üçün hansı göstəricilərdən istifadə edilir?

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT:

Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2001.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2000.
3. Azərbaycan Respublikasının «Mühasibat uçotu haqqında» qanunu. Bakı, 2004.
4. «Təsərrüfat təşkilatlarının mühasibat (maliyyə) hesabat formaları» Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin İ-80 saylı 15 sentyabr 1995-ci il tarixli əmrinə əsasən təsdiq edilmişdir. Bakı, 1995.
5. «Müəssisənin mühasibat maliyyə hesabatlarının tərtibi qaydaları» Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 16-3\33 saylı 15 sentyabr 1995-ci il tarixli əmrinə əsasən təsdiq edilmişdir. Bakı, 1995.
6. «Müəssisələrin uçot siyasəti haqqında əsasnamə» Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin İ-5 saylı 23 yanvar 1997-ci il tarixli əmri ilə təsdiq edilmişdir. Bakı, 1997.
7. «Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat» Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin İ-94 saylı 20 oktyabr 1995-ci il tarixli əmrinə əsasən təsdiq edilmişdir. Bakı, 1995.
8. Azərbaycan Respublikasının «Müflisləşmə və iflas haqqında» qanunu. Bakı, 1997.
9. Azərbaycan Respublikasının «Auditor xidməti haqqında» qanunu. Bakı, 1994.
10. «Azərbaycanın milli audit standartları» Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının qərarı ilə təsdiq edilmişdir. Bakı, 2004.

1. *Баканов М.И., Шеремет А.Д.* Теория экономического анализа. М.: Финансы и статистика, 1996.
2. *Бакланов Г.И.* Индексы объема продукции и объема производства промышленного предприятия. Уч. зап. по стат. АН. СССР. М., 1955. Т.1.
3. *Бердникова Т.Б.* Анализ и диагностика финансово-хозяйственной деятельности предприятия. М.: ИНФРА-М, 2001.
4. *Казинец Л.С. Теория индексов.* М.: Госстатиздат, 1963.
5. *Ковалев В.В.* Финансовый анализ: Управление капиталом. Выбор инвестиций. Анализ отчетности. М.: Финансы и статистика, 1997.
6. *Ковалев В.В.* Финансовый анализ: Методы и процедуры. М.: Финансы и статистика, 2001.
7. *Рубинов М.З.* Основы экономического анализа работы предприятий. М.: Госфиниздат, 1962.
8. *Савинский Д.В.* Курс промышленной статистики. М.: Госстатиздат, 1960.
9. *Савичев П.И.* Экономический анализ-орудие выявления внутрихозяйственных резервов. М.: Финансы, 1968.
10. *Сивцов В.Н.* О применении индексного метода для выявления роли факторов изменения объема добычи угля на шахтах: Уч. зап. Моск. эконом. стат. ин-та. М., 1957. Т. 8.
11. *Стражев В. И.* Оперативное управление предприятием, проблемы учета и анализа. Минск: Наука и техника, 1973.
12. Как продать ваш товар на внешнем рынке: Справочник. Отв. ред. *Ю.А.Савинов* М.: Мысль, 1990.
13. *Долинская М.Г., Соловьев И.А.* Маркетинг и конкурентоспособность промышленной продукции. М.: Изд-во стандартов, 1991.
14. *Егоров А.Ю.* Комплексный анализ в системе маркетинговой деятельности. М.: СП «Вся Москва», 1994.
15. *Азоев Г.Л.* Конкуренция: анализ, стратегия и практика. М.: Центр экономики и маркетинга, 1996.
16. *Ковалев А.И., Войленко В.В.* Маркетинговый анализ. М.: Центр экономики и маркетинга, 1996.

17. *Горбашко Е.А.* Менеджмент качества и конкурентоспособности: Учеб. пособие. СПб. Изд-во СПбГУЭФ, 1998.
18. *Голубков Е.П.* Маркетинговые исследования: теория, методология и практика. М.: Изд-во «Финпресс», 2000.
19. *Беляевский И.К.* Маркетинговое исследование: информация, анализ, прогноз: Учеб. пособие М.: Финансы и статистика, 2001.
20. *Завьялов П.С.* Маркетинг в схемах, рисунках, таблицах: Учеб.пособие. М.: ИНФРА-М. 2002.
21. *Завгородняя А.В.* Аналитический маркетинг: Учеб. пособие. СПб.: Изд-во СПбГУЭФ, 2003.
22. *Савицкая Г.В.* Анализ хозяйственной деятельности предприятия: Учебник. 2-е изд. М.: ИНФРА-М. 2003.
23. Анализ выполнения плана производства и его технико- экономического уровня. Под ред. *Б.И.Майданчика и Г.В.Кулининой.* М.: Изд-во МФИ, 1983.
24. *Барнгольц С.Б., Мельник М.В.* Методология экономического анализа деятельности хозяйствующего субъекта. М.: Финансы и статистика, 2003.
25. *Бороненкова С.А.* Управленческий анализ. М.: Финансы и статистика, 2002.
26. *Окрепилов В.В.* Управление качеством. М.: СПб.: Наука, 2000.
27. *Романова Л. Е.* Анализ хозяйственной деятельности. М.: Юрайт, 2003.
28. *Савицкая Г.В.* Анализ хозяйственной деятельности предприятия. М.: ИНФРА- М, 2002.
29. *Шеремет А.Д., Сайфулин Р.С., Негашев Е.В.* Методика финансового анализа. 3-изд. М.: ИНФРА- М, 2001.
30. Экономический анализ деятельности предприятий и объединений. Под ред. *С.Б. Барнгольц и Г.М.Тация.* М.: Финансы и статистика, 1981.
31. Экономический анализ работы предприятий. Под ред. *А. Ш. Маргулиса.* М.: Финансы, 1997.
32. *Ковалев В.В.* Финансовый анализ. М.: Финансы и статистика, 2001.

33. *Крылов Э.И., Малыщева А.В., Марцулевич А.М.* Маржинальный анализ себестоимости и прибыли: Учеб пособие. СПб. Изд-во СПбГУЭФ, 2000.
34. *Савицкая Г. В.* Анализ хозяйственной деятельности предприятия. Минск: ООО «Новое знание», 2001.
35. *Бернстайн Л.А.* Анализ финансовой отчетности: Теория, практика и интерпретация: Пер. с англ. М.: Финансы и статистика. 1996.
36. *Бланк И.А.* Финансовый менеджмент: Учеб. курс. Киев: Ника-Центр Эльга, 1999.
37. *Ефимова О.В.* Финансовый анализ М.: Бухгалтерский учет, 2002.
38. *Ковалев В.В. Волкова О.Н.* Анализ хозяйственной деятельности предприятия: М.: Проспект,2002.
39. *Любушин Н.П., Лещева В.Б., Дьякова В.Г.* Анализ финансово-экономической деятельности предприятия: Учеб.пособие. Под.ред. Н.П.Любушина. М.: ЮНИТИ-ДАНА,2001.
40. *Родионова М.В., Федотова М.А.* Финансовая устойчивость предприятия в условиях инфляции. М.: Перспектива, 1995.
41. *Савицкая Г.В.,* Анализ хозяйственной деятельности предприятия. 4-е изд. Минск: ООО «Новое знание», 2002.
42. *Шеремет А. Д., Сайфулин Р.С. Негашев Е.В.* Методика финансового анализа. М.: ИНФРА-М, 2002.
43. *Ришар Ж.* Аудит и анализ хозяйственной деятельности предприятия. М.: Аудит, ЮНИТИ, 1997.
44. Финансовый менеджмент. Теория и практика: Учебник. Под ред. *Е.С.Стояновой.* М.: Перспектива, 1999.
45. Altman El Financial Ratios, Discriminat Analysis and the Prediction of Corporate Bankruptcu // Journal of Financt.Sept. 1968. P. 589-609.
46. *Ковалев В.В., Волкова О.Н.* Анализ хозяйственной деятельности предприятия: М.: Проспект, 2000.
47. *Ковалев В.В., Патров В.В.* М.: Как читать баланс Финансы и статистика, 2002.
48. *Крылов Э. И.* Анализ эффективности производства, научно-технического прогресса и хозяйственного механизма. М.: Финансы и статистика,1991.

49. *Маркарьян Э.А., Герасименко Г.П., Маркарьян С.Э.* Финансовый анализ. М.: ИД ФБК-ПРЕСС, 2002.
50. Методические указания к разработке государственных планов экономического и социального развития СССР. М.: Экономика, 1980.
51. *Петухов Р.М.* Оценка эффективности промышленного производства М.: Экономика, 1990.
52. *Шеремет А.Д., Негашев Е.В.* Методика финансового анализа деятельности коммерческих организаций. М.: ИНФРА-М, 2003.
53. *Шеремет А.Д., Сайфулин Р.С.* Методика финансового аннализа. М.: ИНФРА-М, 1996.
54. *Бригхем Ю., Гапенски Л.* Финансовый менеджмент: Пер. с англ. Под. ред. *В.В.Ковалева.* СПб., 1997.
55. *Селезнова Н.Н., Ионова А.Ф.* Финансовый анализ. М.: ЮНИТИ, 2001.
56. *Глазов М.М.* Функциональная диагностика и аудит. Изд. СПБГУЭФ, 1999.
57. *Глазов М.М.* Функциональная диагностика-основа повышения качества планирования и управления промышленным предприятием в условиях рыночной экономики: Учеб. пособие 2-е изд. Изд. СПбГУЭФ, 2002.
58. *Глазов М.М.* Функциональная диагностика промышленного предприятия 2-е изд. Изд. РГГМУ, 2005.
59. *Глазов М.М.* Анализ и диагностика финансово-хозяйственной деятельности предприятия: Учеб. пособие 3-е изд. Изд. РГГМУ, 2005.

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: **Tural Əhmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Səhifələyici: **Vüsalə Mirzəyeva**
Montajçı: **Rasim Hacıyev**
Operator çapçı: **Elşad Hacıyev**

Yığılmağa verilmiş **21.10.2009.**
Çapa imzalanmış **09.11.2009.**
Şərti çap vərəqi **35.** Sifariş № **622.**
Kağız formatı **70x100 1/16.** Tiraj **5000.**

Kitab «**Elm və Təhsil**» nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.